**SEYYİD ƏLİƏKBƏR OCAQ NEJAD**

# QURANİ-KƏRİMDƏ XİTABLAR

**DÖRDÜNCÜ CİLD**

**Bakı – 2012**

**Seyyid Əliəkbər  Ocaq Nejad,**
**Qurani-Kərimdə xitablar**

Bakı, "Qələm" nəşriyyatı, 2012. 394 səh.

**Tərtib edən: Mehrab Xəlilov**
**Redaktor:     Seyid Əliəsgər Behbudlu**

Hörmətli oxucu!
Əlinizdə olan bu kitab Seyyid Əliəkbər Ocaq Nejadın "Qurani-kərimdə xitablar" mövzusunda söylədiyi moizələr əsasında hazırlanmışdır.

Azərbaycan Respublikasinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 01 iyul 2012-ci tarixli DK-360/B məktubuna əsasən çap olunmasına icazə verilmişdir

# QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR

## (BIRINCI NÜMUNƏ)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَلَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

## Müqəddimə

Allah-təalanın Qurani-Kərimdə müxtəlif növ xitabları var və biz ötən bəhslərimizdə həmin xitablardan üçü haqda müfəssəl məlumat verdik. Qeyd olunan xitablardan biri insana olan xitabdır ki, cəmi iki ayədən ibarətdir. İkinci növ xitab camaata aid olub, iyirmi ayədən ibarətdir ki, biz onlardan bir neçəsini nəzərdən keçirməklə kifayətləndik. Üçüncü növ xitab isə kitab əhlinə olan xitablardır ki, təxminən on üç ayədən ibarətdir və biz ötən bəhslərimizdə on ayədən söz açdıq. Bu üç növ xitabı araşdırmaqda məqsədimiz xitabların dördüncü növünə yetişmək idi. İnşallah, hazırkı bəhsimizi dördüncü növ xitabla başlayıb bu barədə danışacağıq. Öncə “Nisa” surəsinin 136-cı ayəsinə diqqət yetirək. Allah-təala bu ayədə möminlərə xitab edərək belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ آمِنُواْ بِاللّهِ وَرَسُولِهِ وَالْكِتَابِ الَّذِي نَزَّلَ عَلَى رَسُولِهِ وَالْكِتَابِ الَّذِيَ أَنزَلَ مِن قَبْلُ وَمَن يَكْفُرْ بِاللّهِ وَمَلاَئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ وَالْيَوْمِ الآخِرِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا

-Ey Allaha iman gətirənlər, Allaha və Onun peyğəmbərinə, peyğəmbərinə nazil etdiyi kitaba və bundan öncə nazil etdiyi kitaba (bunların hamısına) iman gətirin. Ey dillə iman gətirmiş kəslər, (səmimi qəlbdən) iman gətirin! Ey imanları gerçəkləşmiş kəslər, onun qorunmasında möhkəm olun. Kim Allaha və Onun mələklərinə, (səmavi) kitablarına, göndərdiyi peyğəmbərlər(in)ə və axirət gününə kafir olsa, həqiqətən, uzun-uzadı bir azğınlığa düşmüşdür.

Bu ayənin şərhinə başlamazdan öncə kiçik bir müqəddiməni əziz möminlərin nəzərinə çatdırmaq istəyirəm. Məlumdur ki, bu ayə Allahın möminlərə olan xitabıdır. Quranda möminlərə təxminən səksən iki ayədə xitab olunmuşdur. Maraqlısı budur ki, bu xitabla başlayan bütün ayələrin hamısı Mədinədə nazil olmuşdur. Yəni (يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ) (Ey İman gətirənlər!) kəlməsi ilə başlayan elə bir ayə yoxdur ki, Məkkədə nazil olmuş olsun. Bu növ xitabların hamısı Mədinədə nazil olmuş ayələrdir. Görəsən, bu ayələrin Mədinədə nazil olmasının səbəbi nədir? Böyük təfsir alimlərinin nəzərinə əsasən ola bilsin ki, o zamanlar Məkkədə hələ İslam təşkilatı yaradılmamış və müsəlmanlar bir cəmiyyət kimi formalaşmamışdı. Peyğəmbər(s) İslamın ilk günlərində bazarlarda, küçələrdə, Məscidül-həramda, Minada, Səfa dağında, münasib toplantılarda və müxtəlif yerlərdə dini təbliğ edir və camaatı bu dinə dəvət edirdi. Yəni imkan daxilində fürsətdən istifadə edib Allahın buyurduqlarını camaata çatdırırdı.

Beləliklə, müsəlmanlar İslam dini ilə tanış olurdular. İslam dini ilə tanış olmaq isə birbaşa dini cəmiyyətin təşkil olunması demək deyildi. Çünki İslamın dörd əsas

vücudu vardır ki, bu vücudlardan hər hansi biri olmasa tamamlanmayacaq. Yəni İslamın əsası dörd vücuddan təşəkkül tapır. Yaxşı olar ki, indi bu məsələnin yığcam şəkildə izahına keçək. Birincisi budur ki, camaat İslam dini ilə tanış olduqda, yəni İslam dininin adı və məfhumları ilə tanışlıq əldə etdikdən sonra İslam dininin adı vücuda gəldi. Məsələn, müsəlmanlar namaz, oruc, həcc, cihad, dəstəmaz, qüsl və s. əməllərin adlarını öyrənib onlarla tanış oldular. Peyğəmbərin(s) gətirdiyi bu din sözdə vücuda gəldi. İslamın ikinci vücudu budur ki, müsəlmanlar həmin əməllərin adları ilə tanış olduqdan sonra Peyğəmbər(s) onların mənasını izah edib açıqladı. Beləcə, insanlar İslam dininin adı, məfhumları və mənası ilə tanış oldular.

İslam dininin üçüncü vücudu şəxsiyyətlərin meydana gəlməsidir. Yəni bu dinin adını eşidib, mənası ilə tanış olduqdan sonra onun hökmlərini yerinə yetirənlər İslam şəxsiyyətləri hesab edilir. Məsələn, Həzrət Əli, Abuzər, Miqdad və s. kimi səhabələr namazın adını eşidib onun mənası ilə tanış olduqdan sonra Peyğəmbərdən(s) namazı necə qılmağı öyrənərək namaz qılmağa başladılar. Onlar həmçinin İslamın qüsl, dəstəmaz, oruc və s. kimi hökmlərinə də əməl etdilər. Belə olduqda İslam dininin üçüncü vücudu da əmələ gəldi. Yəni İslam dininin və onun əməllərinin adlarını eşidib, mənası ilə tanış olduqdan sonra onları əməli surətdə həyata keçirməklə İslam şəxsiyyətləri kimi fəaliyyətə başladılar. Ancaq İslam dininin adını və hökmlərini öyrənmək də kifayət etmir. Əgər bir insan İslam dininin və onun namaz, oruc və s. kimi əməllərinin adını eşidib mənasını öyrənirsə, belə bir insana İslam şəxsiyyəti demək olmaz. Məsələn, əgər bir insan həkim sözünü eşidirsə, ona həkim demək olarmı?

Yaxud kosmonavt sözünü eşitməklə insan kosmonavt ola bilərmi? Həkim və ya kosmonavt olmaq üçün insan həmin sahəni dərindən öyrənməli və praktik cəhətdən mükəmməl bir mütəxəssis olmalıdır.

Beləcə, bir insan İslam dininin adını eşidib, mənasını başa düşərək onun hökmlərinə əməl edirsə, belə bir insana İslam şəxsiyyəti deyilir. Peyğəmbər(s) İslam dininin adını və mənasını insanlara başa saldıqdan sonra onlar dinin hökmlərinə əməl etməyə başladılar. Məhz bu yolla İslam şəxsiyyətlərinin sayı günü-gündən daha da artdı. Beləliklə, İslam dininin üç vücudu Məkkədə yarandı. Lakin hələ dördüncü və əsas vücud yaranmamışdı.

Həzrət Peyğəmbər(s) Mədinəyə hicrət etdikdən sonra İslam dininin görkəmli şəxsiyyətlərini öz ətrafına yığıb onları bir-birinə qardaş etdi. O, nəhayət İslam cəmiyyətini yaratdı. Peyğəmbərin(s) Mədinədə yaratdığı bu cəmiyyət İslam dininin dördüncü vücudunu əmələ gətirdi. Beləcə, İslam dininin adı, mənası, İslam şəxsiyyətləri və İslam cəmiyyəti meydana gəldi. İslam cəmiyyəti dinin ən mükəmməl vücudu idi ki, Mədinədə yaradıldı. Həzrət Peyğəmbər(s) bu yolda çox zəhmət və əziyyətlər çəkdi və nəhayət, həmin dördüncü vücudu Mədinədə araya-ərsəyə gətirdi.

Qeyd etmək lazımdır ki, əgər müsəlmanların arasında İslam cəmiyyəti mövcud olmasa, o zaman digər əməllərin heç biri məqbul sayılmır. Çünki cəmiyyətdə İslam dini məhz özünün dördüncü və əsas vücudu ilə mükəmməl bir forma alır. Əgər İslam dininin dördüncü və əsas vücudu olan cəmiyyət yaranmasa, onda müsəlmanlar arasında pərakəndəlik və hərc-mərclik yaranar. Belə olduqda İslam dininin yalnız adı qalar, hökmləri də unudular. Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də buyurur:

يَأتِي عَلَى النَّاسِ زَمَانٌ لا يَبقَى فِيهِم مِنَ القُرآن إلا رَسمُهُ وَمِن الإِسلامِ إلا اِسْمُه وَمَساجِدُهُم يَومئِذٍ عَامِرةٌ مِن البِنَاءِ خَرابٌ مِن الهُدى سُكَّانُها وَعُمَّارُهَا شَرُّ أَهلِ الأَرض مِنهُم تخرج الفِتنَة وَإِلَيهِم تَأوي الخَطِيئَة

-İnsanlar üçün elə bir dövran gələcək ki, onda Qurandan nişanədən *(mənaları və həqiqətləri barəsində düşünmədən yazıb oxumaqdan)*, İslamdan isə addan *(onun hökmlərinə əməl etmədən şəhadətləri deməkdən)* başqa bir şey qalmayacaq. Həmin zamanda onların məscidləri bina *(zinət və gözəlliyi)* baxımından abad, hidayət baxımından isə *(onlarda pəhrizkar və hidayət edən olmadığı üçün)* virandır və onların sakin və abadlaşdıranları *(məsciddə toplaşanlar)* yer üzünün ən pisləridirlər. *(Çünki)* onlardan fitnə xaric olar və onlarda itaətsizlik və günah yerləşər.

Odur ki, Peyğəmbər(s) İslam dininin hər dörd vücudunu araya-ərsəyə gətirdi və dördüncüsünü (İslam cəmiyyəti) Mədinədə yaratdı. Müsəlmanların İslam cəmiyyəti yaradıldıqdan sonra “Ey iman gətirənlər!” xitabı ilə başlayan ayələr nazil olmağa başladı. Quranda “Ey iman gətirənlər!” xitabı ilə başlayan ayələrin hamısı Mədinədə nazil olmuşdur. Qeyd etdik ki, Məkkədə İslam dininin adı, mənası və şəxsiyyətləri meydana gəldi. İslam cəmiyyəti isə Mədinədə təşəkkül tapdığından bütün bu ayələr də Mədinədə nazil olan ayələrdir. Deməli, belə məlum olur ki, müsəlmanlar bir cəmiyyət olaraq formalaşdıqdan sonra Allah-təala “Ey iman gətirənlər!” xitabı ilə başlayan ayələrini nazil etdi.

## Ayənin nazilolma səbəbi

Yuxarıda qeyd etdiyimiz ayənin nazilolma səbəbinə qısaca bir nəzər salaq. İbn Abbas deyir: “Mədinədə kitab əhlinin Abdullah ibn Salam, Əsəd ibn Kəb kimi alim və ağsaqqallarından bir neçə nəfər yığışaraq Peyğəmbərin(s) hüzuruna gəlib dedilər: Belə bir fikirlə sənin hüzuruna gəlmişik. Biz sənə və gətirdiyin kitaba, həmçinin Musaya(ə) və onun gətirdiyi kitaba iman gətirməyə hazırıq. Lakin başqa peyğəmbərləri qəbul etmirik. Əsas budur ki, biz sənin və səndən əvvəlki peyğəmbərlərdən yalnız Musanın(ə) peyğəmbərliyini qəbul edirik. Biz bu məsələ ilə bağlı səninlə bir razılığa gəlmək istəyirik.”

Onlar belə bir təklifi irəli sürdükdən sonra Allah-təala bu ayəni nazil etdi.

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ آمِنُواْ بِاللّهِ وَرَسُولِهِ وَالْكِتَابِ الَّذِي نَزَّلَ عَلَى رَسُولِهِ وَالْكِتَابِ الَّذِيَ أَنزَلَ مِن قَبْلُ وَمَن يَكْفُرْ بِاللّهِ وَمَلاَئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ وَالْيَوْمِ الآخِرِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا

-Ey Allaha iman gətirənlər, Allaha və Onun peyğəmbərinə, peyğəmbərinə nazil etdiyi kitaba və bundan öncə nazil etdiyi kitaba (bunların hamısına) iman gətirin. Ey dillə iman gətirmiş kəslər, (səmimi qəlbdən) iman gətirin! Ey imanları gerçəkləşmiş kəslər, onun qorunmasında möhkəm olun. Kim Allaha və Onun mələklərinə, (səmavi) kitablarına, göndərdiyi peyğəmbərlər(in)ə və axirət gününə kafir olsa, həqiqətən, uzun-uzadı bir azğınlığa düşmüşdür.[1]

---

[1] Nisa surəsi, ayə 136.

## “Ey iman gətirənlər, iman gətirin!” ifadəsinin mənası

Qeyd olunan ayədə Allah-təala iman gətirənlərə iman gətirməyi əmr edir. Bu ayədə əsas söhbətimiz «آمَنُواْ» və «آمِنُواْ» kəlmələri haqqında olacaq. Gəlin baxaq görək bu ayədə kimlərə “Ey iman gətirənlər!” - deyə xitab olunur. Kimə və nəyə iman gətirilməsi əmr edilir? Bu barədə bir neçə ehtimalı nəzərinizə çatdırıram.

**Birinci ehtimal:**

Ayənin nazilolma səbəbinə əsaslanaraq demək olar ki, bu ayədəki xitab İslam Peyğəmbərinin(s) yanına gələn həmin kitab əhlinə aid ola bilər. Çünki yalnız onlar İslam Peyğəmbərindən(s) və Musa Peyğəmbərdən(ə) savayı başqa heç bir peyğəmbəri qəbul etmək istəmirdilər. Buna görə də Allah-təala onlara bütün peyğəmbərlərə iman gətirməyi əmr edir. Əlbəttə, qeyd etmək lazımdır ki, bu məsələ İslam dinində çox mühüm məsələlərdən biridir. Əvvəla, bütün peyğəmbərlər özlərindən əvvəlki və sonrakı peyğəmbərləri təsdiq etmiş və onlara iman gətirmişlər. İkincisi, bütün iman gətirənlərə vacibdir ki, İslam Peyğəmbərinə(s) iman gətirməklə yanaşı, digər peyğəmbərlərə də iman gətirsinlər. “Bəqərə” surəsində bu haqda belə oxuyuruq:

آمَنَ الرَّسُولُ بِمَا أُنزِلَ إِلَيْهِ مِن رَّبِّهِ وَالْمُؤْمِنُونَ كُلٌّ آمَنَ بِاللّهِ وَمَلآئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ لاَ نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِّن رُّسُلِهِ

-Peyğəmbərimiz Rəbbi tərəfindən ona nazil olana iman gətirdi və möminlər hamılıqla Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə (peyğəmbərlərə) iman gətirdilər (və dedilər): "Onun elçilərinin heç biri arasında fərq qoymuruq."[1]

Bu ayədə açıq-aydın şəkildə görürük ki, İslam Peyğəmbərinin(s) özü də Allah tərəfindən ona nazil olana birinci iman gətirmişdir. Burada incə bir məqamı da nəzərinizə çatdırıram. İlahi dinlərin başqa təlimlərdən böyük fərqləri var. İlahi dinlərin hamısında (yəni Allah tərəfindən göndərilmiş peyğəmbərlərin hə biri) gətirdikləri dinə ilk növbədə özləri iman gətirib əməl etmişlər. Lakin başqa təlimlərdə belə bir özəllik yoxdur. Sonuncu Peyğəmbər(s) İslam dinini gətirdikdə ilk növbədə özü ona iman gətirmişdir. Bütün peyğəmbərlər gətirdikləri dinə, kitaba və qanunlara ilk növbədə özləri iman gətirib əməl etmişlər. Hətta belə demək olar ki, peyğəmbərlərin gətirdikləri dinə əməl etməkdə vəzifələri başqalarından daha ağır olmuşdur. Məsələn, gecənin nafilə namazını qılmaq bizə müstəhəbdir. Lakin bu namaz İslam Peyğəmbərinə(s) vacib buyurulmuşdur. Belə olduqda möminlərin də borcu və vəzifəsidir ki, hamılıqla Allaha, Onun mələklərinə, nazil etdiyi kitablara, göndərdiyi peyğəmbərlərə iman gətirsinlər.

Allaha iman gətirən kəs mütləq bütün peyğəmbərlərə də iman gətirməlidir. Hər bir müsəlmanın vəzifəsidir ki, İslam Peyğəmbərinə(s) iman gətirməklə yanaşı, bütün digər peyğəmbərlərə də iman gətirsin. Hədislərə əsasən, Allah tərəfindən insanlar üçün yüz iyirmi dörd min peyğəmbər

---

[1] Bəqərə surəsi, ayə 285.

göndərilmişdir. Onların təxminən iyirmi beşinin adı Quranda zikr olunmuşdur. Hər bir müsəlmana bütün peyğəmbərlərə iman gətirmək və onlara ehtiram göstərmək vacibdir. Hətta Quranda adı çəkilmiş peyğəmbərlərin adlarına dəstəmazsız toxunmaq belə haramdır. Bütün İslam dünyası Allah tərəfindən göndərilmiş peyğəmbərlərin hamısını qəbul edir və onlara xüsusi ehtiram göstərir. Odur ki, öncə qeyd etdiyimiz ayədə Allah-təala buyurur: "...möminlər hamılıqla Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə (peyğəmbərlərə) iman gətirdilər (və dedilər): "Onun elçilərinin heç biri arasında fərq qoymuruq."[1]

Əgər bir kəs İslam Peyğəmbərini(s) qəbul edərək digər peyğəmbərləri inkar etsə, yaxud bəzi peyğəmbərləri qəbul edib digərlərini qəbul etməsə, çox kəskin tənqidlə üzləşməli olacaq. Bu barədə "Nisa" surəsində oxuyuruq:

إِنَّ الَّذِينَ يَكْفُرُونَ بِاللّهِ وَرُسُلِهِ وَيُرِيدُونَ أَن يُفَرِّقُواْ بَيْنَ اللّهِ وَرُسُلِهِ وَيقُولُونَ نُؤْمِنُ بِبَعْضٍ وَنَكْفُرُ بِبَعْضٍ وَيُرِيدُونَ أَن يَتَّخِذُواْ بَيْنَ ذَلِكَ سَبِيلاً. أُوْلَئِكَ هُمُ الْكَافِرُونَ حَقًّا وَأَعْتَدْنَا لِلْكَافِرِينَ عَذَابًا مُّهِينًا

-Əlbəttə, Allaha və Onun peyğəmbərlərinə kafir olan, Allahla Onun peyğəmbərləri arasında ayrılıq salmaq istəyən, "biz bəzilərinə iman gətirir, bəzilərinə isə kafir oluruq" deyən və onların arasında bir yol tutmaq (özlərindən üçüncü yolu açmaq) istəyən kəslərdir. Onlar əslində həmin (əsl) kafirlərdir (çünki peyğəmbərlərin

[1] Bəqərə surəsi, ayə 285.

bəzilərini inkar etmək hamısını inkar etmək deməkdir). Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq.[1]

وَالَّذِينَ آمَنُواْ بِاللّهِ وَرُسُلِهِ وَلَمْ يُفَرِّقُواْ بَيْنَ أَحَدٍ مِّنْهُمْ أُوْلَئِكَ سَوْفَ يُؤْتِيهِمْ أُجُورَهُمْ وَكَانَ اللّهُ غَفُورًا رَّحِيمًا

-Allah tezliklə Ona və Onun peyğəmbərlərinə iman gətirib onların heç biri arasında ayrı-seçkilik salmayan (onların hamısını təsdiq edən) kəslərin mükafatlarını verəcəkdir. Allah həmişə çox bağışlayan və mehribandır.[2]

Bu ayələrdən belə bir nəticəyə gəlirik ki, möminlər Allaha, mələklərə, nazil etdiyi kitablara və göndərdiyi bütün peyğəmbərlərə iman gətirirlər. Allahın göndərdiyi kitablar bir-birini təsdiqləyir. Elə buna görə də kitab nazil olmuş peyğəmbərlərin kitabında sonrakı peyğəmbərin adı çəkilib və ondan bəhs olunmuşdur. Məsələn, İsa Peyğəmbər(ə) barədə bir nümunəni nəzərinizə çatdırıram. “Səff” surəsinin 6-cı ayəsində belə buyurulur:

وَمُبَشِّرًا بِرَسُولٍ يَأْتِي مِن بَعْدِي اسْمُهُ أَحْمَدُ

...və məndən sonra gələcək “Əhməd” adlı Peyğəmbərin (səlləllahu əleyhi və alihi və səlləm) müjdəsini verən sizə göndərilmiş Allah peyğəmbəriyəm.[3]

Beləliklə, görürük ki, bütün peyğəmbərlər bir-birini təsdiq etmiş və nazil olmuş kitablarda onlar öz təsdiqini tapmışdır. Buna görə də Allaha və peyğəmbərə iman

---

[1] Nisa surəsi, ayə 150-151.
[2] Yenə orada, ayə 152.
[3] Səff surəsi, ayə 6.

gətirənlərə bütün peyğəmbərlərə iman gətirmək vacibdir. Deməli, birinci ehtimala görə belə bir nəticəyə gəlirik ki, “Ey İslam Peyğəmbərinə(s) iman gətirib keçmiş peyğəmbərləri qəbul etməyən insanlar, bütün peyğəmbərlərə iman gətirin!”

**İkinci ehtimal:**

“Nisa” surəsinin 136-cı ayəsində Allah-təala iman gətirənlərə iman gətirməyi əmr edir. Birinci ehtimala görə, bu ayədə kitab əhli nəzərdə tutulur və biz yuxarıda bu haqda söhbət etdik. Lakin ikinci ehtimal ondan daha mühüm və ümumi xarakter daşıyır. Bu ehtimala görə, ayədə Allaha, Peyğəmbərə(s) və Qurana iman gətirənlərin hamısı nəzərdə tutularaq buyurulur: “Ey iman gətirənlər!” Müsəlmanlar Allahı, Peyğəmbəri(s) və Quranı ümumi surətdə qəbul etmiş, lakin Quranın bütün ayə və incəliklərinə tam şəkildə iman gətirməmişdilər. Yəni İslamın bir hissəsinə iman gətirmiş, digər hissəsinə isə tam şəkildə inanmırdılar. Buna görə də buyurulur ki, ey Allahı, Peyğəmbəri(s) və Quranı qəbul edib iman gətirənlər, İslamın bütün qanunlarına və hökmlərinə iman gətirin. Əgər İslamı qəbul edirsinizsə, gərək onun bütün qanunlarına əməl edəsiniz. Əgər bəzisini qəbul edib, bəzisini qəbul etməsəniz, deməli, iman gətirməmisiniz. Çünki İslamın qanunlarının bəzisini qəbul edib, bəzisini qəbul etməmək düzgün deyil. Allahın ayələrinin bəzisini qəbul edib, bəzisini qəbul etməyən kəslər məzəmmət və tənqid olunur. “Bəqərə” surəsinin 85-ci ayəsində açıq-aydın şəkildə belə buyurulur:

أَفَتُؤْمِنُونَ بِبَعْضِ الْكِتَابِ وَتَكْفُرُونَ بِبَعْضٍ فَمَا جَزَاء مَن يَفْعَلُ ذَلِكَ مِنكُمْ إِلاَّ خِزْيٌ فِي الْحَيَاةِ الدُّنْيَا وَيَوْمَ الْقِيَامَةِ يُرَدُّونَ إِلَى أَشَدِّ الْعَذَابِ...

-Deməli, siz kitabın bir hissəsinə iman gətirib, digər bir hissəsinə kafir olursunuz?! Buna görə də sizdən belə iş görənlərin cəzası dünyada xar olmaq və zillətdən başqa bir şey deyildir. Qiyamət günü isə (onlar) ən şiddətli bir əzaba tərəf qaytarılacaqlar.

Tarixə nəzər saldıqda görürük ki, müsəlmanlar Peyğəmbərin(s) dövründə və ondan sonra sürətlə inkişaf etmişlər. Lakin bir müddətdən sonra geriləməyə başladılar və inkişafdan qaldılar. Bəs nə üçün müsəlmanlar belə bir vəziyyətə düşdülər? Siyasi oyunların meydana atılmasına baxmayaraq, İmam Sadiqin(ə) dövründə də müsəlmanlar inkişaf etməkdə idilər. Vil Dürant və Kustablov kimi qeyri-müsəlman alimlər İslam tarixini və mədəniyyətini müfəssəl şəkildə təhlil etmiş və kitablar yazmışlar.

Tarixdə İslam dininin təlim-tərbiyə etdiyi Cabir ibn Həyyan, Əbu Əli ibn Sina, Xacə Nəsirəddin Tusi kimi böyük şəxsiyyətlərə tez-tez rast gəlirik. Hələ indinin özündə də Avropanın elm mərkəzlərində bu dahilərin şəkilləri nümunəvi alimlər kimi diqqət mərkəzindədirlər. Lakin zaman ötdükcə müsəlmanlar zəifləməyə başladılar. Bəs, müsəlmanların bu zəiflik və geriləməsinin səbəbi nə idi? Nə üçün müsəlmanlar başqalarından geridə qaldılar? Cavab belədir ki, müsəlmanlar İslama yalnız dildə əməl etdilər. Bir çox müsəlmanlar isə danışarkən dindən söhbət edir, lakin əmələ gəldikdə onda İslamdan heç bir əsər-əlamət görünmür.

Yaxud İslamın bəzi hökmlərinə əməl edir, bəzilərinə isə əhəmiyyət vermirlər. Allahdan, Qurandan və Peyğəmbərdən(s) danışıb söhbət edirlər, lakin Peyğəmbərin(s) buyurduqlarının bir çoxu onların əməllərində müşahidə olunmur. Belə demək mümkünsə, İslamdan özlərinə sərf edənlərə əməl edir, sərf etməyənləri isə qəbul etməyərək buna müəyyən bir don geyindirməyə çalışırlar. Məsələn, bir xəstə həkimin yanına gedir. Həkim onu müayinə etdikdən sonra müalicə etmək üçün müəyyən dərmanlar yazır. Xəstə dərmanları alıb evə gətirir və xoşu gəldiyi dərmanı içir, xoşuna gəlmədiyini isə içmir. Nəticədə də sağalmır və günahı həkimin boynuna ataraq deyir: Həkim yaxşı həkim deyil. Çünki həkimin yazdığı dərmanların mənə bir xeyri olmadı. Halbuki dərmanları həkimin dediyinə əsasən deyil, öz məsləhətinə uyğun şəkildə içmişdir. Əgər həkimin yazdığı kimi, bütün dərmanları içsəydi, əlbəttə ki, bir nəticəsi də olacaqdı.

Beləliklə, hər bir müsəlman Peyğəmbərin(s) gətirdiyi dinin bütün hökmlərinə əməl etməlidir. Peyğəmbər(s) Allah tərəfindən mükəmməl bir din gətirmiş və onun incəliklərini hamıya açıqlamışdır. Lakin Peyğəmbər(s) dünyadan gedəndən sonra bəzi müsəlmanlar İslam qanunlarını öz bildikləri və özlərinə sərf etdiyi kimi həyata keçirməyə başladılar. Peyğəmbərin(s) və Quranın məsləhət bildiklərini bir kənara qoyaraq şura təşkil etməklə və özlərinə sərf edən şəxsi vəzifəyə təyin etməklə heç vaxt yaxşı bir nəticəyə gəlmək mümkün deyil.

İmam Sadiqdən(ə) sonra bir sıra adamlar Quranın, Peyğəmbərin(s) və İmamın(ə) sözlərini bir kənara qoydular və öz bildikləri kimi yaşamağa çalışdılar. Nəticədə də aləmi bir-birinə qatdılar. Belə olduqda əlbəttə ki, hərc-mərclik də artar və nəticədə də müsəlmançılıqdan

heç bir əsər-əlamət qalmaz. O zaman nəticə və müvəffəqiyyət əldə etmək olar ki, müsəlmanlar İslam dininin bütün qayda və qanunlarına riayət etmiş olsunlar.

Öncə qeyd etdiyimiz "Bəqərə" surəsinin 85-ci ayəsinin nazilolma səbəbinə bir diqqət yetirək. Allah-təala Bəni-İsrail qövmü ilə razılığa gələrək, onlardan bəzi əməllərə riayət edilməsinə dair söz aldı. Yəni Allah-təala bir neçə məsələ ilə əlaqədar olaraq onlarla əhd-peyman bağladı. Həmin əhd-peyman aşağıdakı bəndlərdən ibarətdır:

1. Allaha sitayiş və ona ibadət etmək;
2. Ata-anaya xidmət və yaxşılıq etmək;
3. Qohum-əqrəbaya, yetimlərə və yoxsullara qarşı xoşrəftar olmaq və onlara əl tutmaq;
4. Camaatla şirin və gözəl sözlərlə danışmaq (camaata qarşı bədrəftar olmamaq);
5. Namaz qılmaq;
6. Zəkat vermək;
7. Bir-biri ilə dalaşıb qan tökməmək;
8. Bir-birini evdən, yurddan didərgin salmamaq;
9. Müharibə zamanı onlardan kimsə əsir düşsə, hamılıqla yığışıb (pul toplayaraq) fidyə verməklə də olsa onu azad etmək.

Allah-təala həmin doqquz əməlin yerinə yetirilməsi ilə bağlı onlardan söz almışdı. Lakin onlar həmin əhd-peymanın bir hissəsinə əməl etdilər, digər hissəsinə isə əməl etmədilər. Ovs və Xəzrəc tayfaları bir-biri ilə qanlı düşmən idilər. Onlar Mədinənin ən böyük qəbilələri hesab edilirdilər. Bəni-Qüreyzə və Bəni-Nəzir isə kiçik qəbilələr idi və onlar da bir-biri ilə qohum-əqrəba idilər. Bəni-Nəzir Xəzrəc qəbiləsinə, Bəni-Qüreyzə isə Ovs qəbiləsinə qoşularaq bir-biri ilə müharibə etməyə başladılar. Onlar bu müharibədə bir-birinin qanını tökür və bir-birini əsir

götürürdülər. Müharibə başa çatdıqdan sonra yəhudilər pul toplayaraq öz əsirlərini azad edirdilər. Bunu belə izah edirdilər ki, guya bu əməl (əsirləri geri almaq) Tövratda onlara vacib buyurulub. Əgər onlar Tövratın buyurduğu qayda-qanunlara əməl edən olsaydılar, o zaman ilk növbədə gərək müşriklərə qoşulmayaydılar. Ovs və Xəzrəc qəbilələri müşrik idilər. Allahın yəhudilərlə bağladığı əhd-peymanın birinci bəndinə əsasən, onlar Allaha sitayiş etməli, müşriklərə qoşulmamalı və onlara kömək etməməliydilər. Bundan əlavə bir-biri ilə müharibə edib qanlarını tökməməliydilər. Amma əsirləri azad etməyə gəldikdə isə, onlar bir araya gəlib pul toplayaraq əsirlərini azad edir və belə iddia edirdilər ki, bu, Tövratda bizə əmr olunub. Məgər bir-birinin qanını tökməmək, yaxud müşriklərə qoşulmamaq Tövratın qayda-qanunlarından deyildimi? Nə üçün bu qayda və qanunları unudub əhd-peymanlarına əməl etmədilər? Belə olduqda Allah-təala onlar barədə buyurdu:

أَفَتُؤْمِنُونَ بِبَعْضِ الْكِتَابِ وَتَكْفُرُونَ بِبَعْضٍ فَمَا جَزَاء مَن يَفْعَلُ ذَلِكَ مِنكُمْ إِلاَّ خِزْيٌ فِي الْحَيَاةِ الدُّنْيَا وَيَوْمَ الْقِيَامَةِ يُرَدُّونَ إِلَى أَشَدِّ الْعَذَابِ...

-Deməli siz kitabın (Tövratın hökmlərinin) bir hissəsinə iman gətirib, digər hissəsinə kafir olursunuz?! (Müharibə etmək və qovub-çıxarmağın haram olmasını rədd, öz dindaşlarınızın azad edilmələrinin vacibliyini isə qəbul edirsiniz?!) Buna görə də sizdən belə iş görənlərin cəzası dünyada xarlıq və zillətdən başqa bir şey deyildir. Qiyamət günü isə (onlar) ən şiddətli bir əzaba tərəf qaytarılacaqlar.

Deməli, hər kəs Allahın nazil etdiyi kitabın bəzi qanunlarına iman gətirib, bəzisinə iman gətirməsə, çox acınacaqlı aqibətlə üzləşəcək. Ayəyə əsasən belə insanların dünyada cəzası xar olmaq və axirətdə şiddətli bir əzabdır. Çox təəssüflər olsun ki, müsəlmanların problemləri də elə bu məsələdədir. Bəzi müsəlmanlar Allahı, Peyğəmbəri(s) və Quranı qəbul edirlər, lakin İslamın bir çox hökm və qanunlarına riayət etmirlər. Ayənin tənqidi təkcə kitab əhlinə aid deyil. Ümumi iman gətirib İlahi qanunların bəzisinə əməl edib, bəzisinə əməl etməyən insanların hamısına şamildir. Müsəlmanlara İslamın bütün qayda-qanunlarına riayət etmək təkidlə tələb olunmuşdur. Hər bir müsəlman Quranın "Fatihə" surəsinin əvvəlindən "Nas" surəsinin axırına qədər əməl etməlidir. Yəni Quranda imandan, İslamdan söz açılırsa, namazdan, orucdan və s. kimi hökmlərin vacibliyindən də söz açılır. Allaha, Peyğəmbərə(s) və Qurana iman gətirənlər bilməlidirlər ki, namaz qılmaq və əməl etmək vacibdir. Hər bir müsəlman Allahın vacib və haram etdiyi əməlləri öyrənməli və onlara riayət etməlidir. Nümunə üçün Quran ayələrindən istifadə edərək həmin əməllərdən bir neçəsini nəzərinizə çatdırıram.

**Namaz**

Namaz İslamda mühüm və vacib əməllərdən biridir ki, hər bir müsəlman bu əməli yerinə yetirməlidir. Allah-təala buyurur:

حَافِظُواْ عَلَى الصَّلَوَاتِ والصَّلاَةِ الْوُسْطَى

وَقُومُواْ لِلّهِ قَانِتِينَ

-Bütün namazları və (xüsusilə) orta namazı (zöhr namazını) qoruyun və (namazda, həmçinin hər bir işdə) Allaha xatir itaətkar halda ayağa qalxın.[1]

Əlbəttə, burada qeyd etmək lazımdır ki, sadalanan bütün bu əməllər Allaha inanıb iman gətirənlərə vacibdir. Kiminsə bu əməllərin birindən xoşu gəlib ona əməl etməsi, xoşuna gəlmədiyinə isə əməl etməməsi qeyri-mümkündür. Bu əməllərin həyata keçirilməsi insanın xoşunun gəlib-gəlməməsi ilə deyil. Bütün bunların hamısı vacibdir və insanın meyli olmasa da belə onları yerinə yetirməlidir. Əgər bir insan namaz qılırsa, bilməlidir ki, oruc tutmaq da vacibdir.

**Oruc**

Allah-təala oruc tutmağı müsəlmanlara vacib etmişdir. Bu barədə belə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

-Ey iman gətirənlər, sizdən əvvəlkilərə yazıldığı kimi sizə (də) oruc yazıldı və qərara alındı (ki,) bəlkə (ruhunuz qüvvətlənsin və nəfsi istəklərdən) çəkinəsiniz.[2]

Heç bir kəsin ixtiyarı yoxdur ki, "mənim namazdan xoşum gəlir, lakin orucdan xoşum gəlmir" - desin. Yaxud mübarək ramazan ayında ola bilsin ki, adamların çoxu oruc tutsun. Ola bilsin ki, əksəriyyətinin oruc tutmaqdan xoşu gəlsin. Oruc tutmaqla yanaşı, başqa vacib əməllərə

---

[1] Bəqərə surəsi, ayə 238.
[2] Yenə orada, ayə 183.

də riayət olunmalıdır. Bütün bunlar Allahın nazil etdiyi dinin vacib əməlləridir. Bütün bunlar kiminsə xoşuna gəlib-gəlməməsi ilə bağlı deyildir. Ümumiyyətlə, insan dini qəbul edib-etməməkdə ixtiyar sahibidir. Hər bir insan bu dini qəbul edib-etməmək məsələsində sərbəstdir. Bu seçimdə heç bir məcburiyyət yoxdur. Allah-təala peyğəmbərlər vasitəsilə Öz dinini insanlara çatdırmışdır. Lakin hər kəs bu dini qəbul edirsə, gərək onun bütün hökmlərinə də riayət etsin. Dinin hökmlərinin bir hissəsini qəbul edib, digər hissəsini qəbul etməmək iman sayılmır. Əgər bir insan namazı qəbul edirsə və oruc tutmaqdan xoşu gəlirsə, bilməlidir ki, bunlardan əlavə xüms, həcc və s. kimi əməllər də vacibdir.

**Xüms və zəkat**

Xüms vermək Allahın müsəlmanlara vacib etdiyi əməllərdəndir. “Ənfal” surəsində belə buyurulur:

وَاعْلَمُواْ أَنَّمَا غَنِمْتُم مِّن شَيْءٍ فَأَنَّ لِلّهِ خُمُسَهُ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ إِن كُنتُمْ آمَنتُمْ بِاللّهِ وَمَا أَنزَلْنَا عَلَى عَبْدِنَا

-Əgər Allaha və (haqqın batildən) ayrılıq günü – o iki dəstənin (müsəlmanlarla müşriklərin Bədr müharibəsində) toqquşduğu gün Öz bəndəmizə nazil etdiyimizə iman gətirmisinizsə, bilin, (kafirlərlə döyüşdən və ya hər hansı bir qazanc vasitəsilə ilə) əşya və mallardan nə qənimət əldə etsəniz, şübhəsiz onun beşdə biri Allahın, Onun Peyğəmbərinin, Peyğəmbərin qohumunun, yetimlərin, yoxsulların və yolda (İslam və müsəlmanlar

üçün lazım olan hər bir dini və dünyəvi hədəf yolunda) qalanlarındır.[1]

Hər bir müsəlman bilməlidir ki, namaz qılmaqla yanaşı, zəkat vermək də vacibdir. “Bəqərə” surəsində bu barədə belə buyurulur:

وَأَقِيمُواْ الصَّلاَةَ وَآتُواْ الزَّكَاةَ

-Namaz qılın və zəkat verin.[2]

[1] Ənfal surəsi, ayə 41.
[2] Bəqərə surəsi, ayə 110.

**Həcc**

Allahın evinin ziyarət edilməsi müsəlmanlara vacib olan əməllərdən biridir. Bu əməl hər kəsin boynuna düşərsə, mütləq onu yerinə yetirməlidir. Bu barədə Allah-təala belə buyurur:

وَلِلّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلاً

-Allahın insanların – əlbəttə, ora getmək imkanı olan kəsin – boynuna düşən haqqı budur ki, o evə gedərək oranın həcc əməllərini yerinə yetirsinlər.[1]

**Cihad**

Kafir və münafiqlərlə cihad etmək də müsəlmanlara vacib olan əməllərdəndir. Allah-təala buyurur:

يَا أَيُّهَا النَّبِيُّ جَاهِدِ الْكُفَّارَ وَالْمُنَافِقِينَ

-Ey Peyğəmbər, kafirlərlə, münafiqlərlə cihad et və onlarla sərt rəftar et.[2]

**Əmr be məruf və nəhy əz münkər**

Camaatı yaxşı işlərə dəvət edib pis işlərdən çəkindirmək hər bir müsəlmanın borcudur. Çünki bu əməl də Allahın müsəlmanlara vacib etdiyi əməllərdəndir.

وَالْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ يَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنكَرِ

---

[1] Ali-İmran surəsi, ayə 97.

[2] Tövbə surəsi, ayə 73.

-Mömin kişilər və mömin qadınlar bir-birilərinin dost, yardımçı və başçılarıdır. (Bir-birilərinə ağıl və şəriət baxımından) yaxşı (hesab edilən) iş görməyi əmr edir və bir-birilərini (ağıl və şəriət baxımından) pis (sayılan) işlərdən çəkindirirlər.[1]

**Naməhrəmə baxmamaq**

Allah-təala Quranda kişi və qadınlara gözlərini naməhrəmdən yummağı vacib edir. "Nur" surəsində öncə kişilərə belə buyurulur:

قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصَارِهِمْ وَيَحْفَظُوا فُرُوجَهُمْ ذَٰلِكَ أَزْكَىٰ لَهُمْ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا يَصْنَعُونَ

-Mömin kişilərə de ki, (başqalarının ayıb yerləri və yad qadının bədəni kimi baxılması haram sayılan hallarla qarşılaşanda) üzlərini (ondan) çevirsinlər və ayıb yerlərini (görünməkdən) qorusunlar. Bu onlar üçün daha pakdır. Həqiqətən, Allah onların etdiklərindən xəbərdardır.

**Hicab**

Sonrakı ayədə Allah-təala qadınlara da bir sıra əməlləri vacib edərək belə buyurur:

وَقُل لِّلْمُؤْمِنَاتِ يَغْضُضْنَ مِنْ أَبْصَارِهِنَّ وَيَحْفَظْنَ فُرُوجَهُنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا مَا ظَهَرَ مِنْهَا وَلْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلَىٰ جُيُوبِهِنَّ وَلَا يُبْدِينَ

[1] Tövbə surəsi, ayə 71.

زِينَتَهُنَّ ... وَلَا يَضْرِبْنَ بِأَرْجُلِهِنَّ لِيُعْلَمَ مَا يُخْفِينَ مِن زِينَتِهِنَّ وَتُوبُوا إِلَى اللَّهِ جَمِيعًا أَيُّهَا الْمُؤْمِنُونَ لَعَلَّكُمْ تُفْلِحُونَ

-Mömin qadınlara de ki, (başqalarının ayıb yerləri və yad kişinin bədəni kimi baxılması haram olan hallarla qarşılaşanda) üzlərini (ondan) çevirsinlər və öz ayıb yerlərini (üz və əllərindən başqa bədənlərinin hər bir yerini yadların görməsindən) qorusunlar. Həmçinin öz zinət və bəzəklərini və onların yerlərini (boyun, sinə, saç, biləklər, baldırlar və sairəni, naçarlıqdan öz-özlüyündə) görünən (üst paltarları, əl və üz kimi şeylər) istisna olmaqla, üzə çıxarmasınlar. Gərək (boyun və sinələrinin örtülməsi üçün) baş örtüklərini (çəkib) yaxalarına salsınlar... (Ayağına xalxal taxmış qadınlar) gizlətdikləri zinətlərin bilinməsi üçün ayaqlarını yerə (bərk) vurmasınlar. Ey möminlər, hamınız (bütün cəhətlərdə) Allaha tərəf qayıdın ki, bəlkə nicat tapdınız.[1]

**Şərab və qumar**

Hər bir müsəlman haram sayılan əməllərdən çəkinməlidir. Bir müsəlmanın vacib əməlləri yerinə yetirməsi, amma haram əməllərdən çəkinməməsi mümkün deyil. Məsələn, şərab içmək və qumar oynamaq Allahın haram etdiyi əməllərdəndir ki, hər bir müsəlman onlardan uzaq durmalıdır. “Maidə” surəsində belə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالأَنصَابُ وَالأَزْلاَمُ رِجْسٌ مِّنْ عَمَلِ الشَّيْطَانِ فَاجْتَنِبُوهُ لَعَلَّكُمْ تُفْلِحُونَ

---

[1] Nur surəsi, ayə 31.

-Ey iman gətirənlər, həqiqətən, şərab, qumar və asılmış bütlər və qumardakı püşk oxları murdardır və şeytanın ixtiralarındandır. Buna görə də onlardan çəkinin, bəlkə nicat tapasınız.[1]

[1] Maidə surəsi, ayə 90.

**Sələmçilik**

Sələmçilik də İslam dinində qadağan olunmuş və haram sayılan əməllərdəndir. Müsəlman olan, namaz qılıb oruc tutan hər bir kəs bu əmələ də yaxın düşməməlidir.

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَأْكُلُواْ الرِّبَا أَضْعَافًا مُّضَاعَفَةً وَاتَّقُواْ اللّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ

-Ey iman gətirənlər, artıq və bir neçə qat gəlir olan sələmi yeməyin və Allahdan qorxun, bəlkə nicat tapasınız.[1]

**Zülmə meyl etməmək (zülm etməmək)**

İslamı qəbul edən hər bir kəs heç vaxt zülm etməməlidir. Özü zülm etməməklə yanaşı, həm də zülmkarlara da qoşulmamalıdır. Allah-təala buyurur:

وَلاَ تَرْكَنُواْ إِلَى الَّذِينَ ظَلَمُواْ فَتَمَسَّكُمُ النَّارُ

-Və zülm edən kəslərə ürək bağlamayın, meyl etməyin və arxalanmayın ki, sizin Allahdan başqa heç bir yardımçı və başçınız olmadığı halda od (Allahın qəzəbi) sizə yetişər.[2]

Bütün bu vacib əməllərlə yanaşı, insanların hüquqlarına da riayət etmək lazımdır. Məsələn, ata-ananın, həyat yoldaşının, övladın və b. hüquqlarına da riayət edilməlidir. İslam dinində atanın hüququ çox mühümdür. Allah-təala Quranda Öz adından sonra ata-ananın adını çəkir. Bütün övladlar valideynlərinə ehtiram

[1] Ali-İmran surəsi, ayə 129.
[2] Hud surəsi, ayə 113.

göstərib daim onların qulluğunda olmalıdırlar. Əgər ata övladını döysə, övladın onun əksinə hərəkət etməyə ixtiyarı yoxdur. Hər kəs valideyninin üzünə qəzəblə baxsa, Allah həmin övladın namazını qəbul etməz. Valideynin, həyat yoldaşının, övladın və qonşunun hər birinin öz hüquqları vardır və hər bir müsəlman həmin hüquqlara riayət etməlidir. Valideynin hüququ odur ki, övlad onun sözünün qarşısında bir söz deməsin və onların qulluğunda dayansın. Həyat yoldaşının hüququ da öz yerində vacibdir. Məsələn, əgər kişinin bir nəfərlik yeməyi vardırsa və onun valideynləri və həyat yoldaşı acdırsa, bu zaman kişi həmin yeməyi kimə verməlidir? Cavab belədir ki, kişi həmin yeməyi öz həyat yoldaşına verməlidir. Çünki qadının gündəlik xərci ərinin boynundadır. Atanın gündəlik xərci isə övlada vacib deyil. Atanın övladı harama sövq etməyə ixtiyarı olmadığı kimi, həyat yoldaşı barəsində də övladı harama çəkməyə haqqı yoxdur. Bir sözlə desək, hər birinin öz yerində haqqı var və bu hüquqlara riayət etmək hər bir müsəlmana vacibdir.

Beləliklə, İslam dinini qəbul edən hər bir kəs dinin hökmlərini öyrənməli və öyrəndikdən sonra isə onlara əməl etməlidir. Namaz, oruc, digər vacib əməllər və hüquqların hamısı bir kitabdadır. Buna görə də həmin hökmlərin birinə əməl edib, digərinə əməl etməmək olmaz. Əgər bir şəxs İslamın hökmlərinin bəzisinə əməl edib, bəzisinə isə əməl etməsə, onun əməllərinə qiymət verilməyəcək. Nümunə üçün məktəbdə dərs oxuyan bir uşağı misal çəkə bilərik. Məktəbdə uşaqlara müxtəlif fənlərdən dərs keçilir. Uşaqlardan biri deyir: Mənim riyaziyyat fənnindən xoşum gəlir, lakin ədəbiyyatı sevmirəm və oxumayacağam. Əgər imtahanlarda həmin şagird ədəbiyyatdan qeyri-məqbul qiymət alsa, onu yuxarı

siniflərə keçirərlərmi? Əlbəttə, xeyr. Çünki yuxarı siniflərə keçmək üçün bütün fənlərdən heç olmasa məqbul qiymət alınmalıdır. İslamın qanunları da eynilə bu cürdür. Hər bir müsəlman İslam dininin bütün hökmlərinə riayət etməlidir.

Zürarə İmam Sadiqin(ə) dostlarından biri idi. Onun Allaha, Peyğəmbərə(s) və imamlara sidq ürəkdən imanı var idi. Belə ki, heç bir vaxt İmam Sadiqin(ə) sözləri qarşısında niyə, nə üçün deməzdi. Çünki İmam Sadiqin(ə) Allahın yer üzündəki höccəti olmasına tam imanı var idi.

Günlərin birində İmam Sadiq(ə) bir məclisdə söhbət edirdi. Zürarənin oğlu da həmin məclisdə idi. Zürarə özü orada yox idi. Onun barəsində söz düşdükdə İmam(ə) Zürarə ilə bağlı bir neçə kəlmə mənfi söz dedi. Zürarənin oğlu İmamın(ə) bu sözlərindən çox təəccübləndi. Məclisdən sonra atasının yanına gəlib dedi: Atacan, sən İmam Sadiqin(ə) yaxın dostlarından olduğun halda, bəs nə üçün Həzrət(ə) sənin barəndə bəzi mənfi sözlər danışdı? Zürarə oğlunu dinlədikdən sonra dedi: Oğlum, İmam(ə) Allahın yer üzündəki höccətidir. Hər nə söz danışırsa, bizim üçün höccətdir. Şübhəsiz ki, Həzrətin(ə) sözlərində bir məsləhət var. Sonra oğlunun əlindən tutub İmamın(ə) hüzuruna yollandılar. Salam verdikdən sonra Zürarə İmam Sadiqə(ə) dedi: Ey Allahın höccəti, bu uşaq məclisdə sizin söhbətlərinizi eşitdikdən sonra tərəddüd içində qalıb. Sizin danışdığınız sözlər onda çox böyük təəccübə səbəb olub. Həzrət(ə) buyurdu: Həmin məclisdə bir neçə nəfər var idi ki, onların yanında səni tərifləsəydim və mənimlə olan münasibətin barədə danışsaydım, onlar səni incidəcəkdilər. Onlar elə buna görə gəlmişdilər ki, baxıb görsünlər mənimlə sənin nə kimi əlaqələrin var. Bu

səbəbdən də sənin barəndə bəzi mənfi sözlər danışdım ki, məclisdən sonra sənə toxunmasınlar.

Zürarə İmam Sadiqi(ə) çox istəyirdi. Onun Allahın höccəti olmasına yəqinliyi var idi. Heç bir vaxt İmamın(ə) sözləri qarşısında bir söz deməz və Həzrətin(ə) bütün əmrlərini yerinə yetirərdi. Zürarə deyir: “Əgər İmam Sadiq(ə) məni nar bağına aparıb bir ağacın altında dayansa, həmin ağacdan bir nar dərib iki yerə bölsə və buyursa ki, bu narın bir hissəsi halal, digər hissəsi haramdır, mən heç vaxt Həzrətə(ə) nə üçün sualını verməərəm. Heç bir vaxt deməərəm ki, eyni bağdan, eyni ağacdan dərilən bir narın yarısının halal və digər yarısının haram olması necə ola bilər? Çünki Həzrət(ə) Allahın yer üzündəki höccətidir. Onun hər bir sözü mənim üçün qanundur.”

Əgər insan Peyğəmbərin(s) Allah tərəfindən yer üzündə höccəti olmasına iman gətirsə, bu zaman şəriətin bütün hökmləri ona şirin və xoş gələcək. Peyğəmbərin(s) gətirdiyi şəriətin bir qismi insanın daxilindəki meyl və istəklərlə uyğun gəlir, bir qismi isə uyğun gəlmir. Məsələn, Peyğəmbərin(s) gətirdiyi şəriətin hökmlərindən biri evlənib ailə qurmaqla bağlıdır. Hamının bu ehkamdan xoşu gəlir. Hər bir kəs deyir ki, Peyğəmbərə(s) qurban olum ki, belə gözəl şəriət gətirib. Ancaq Peyğəmbər(s) Allah tərəfindən təkcə evlənmək hökmü ilə göndərilməyib. Şəriətin başqa hökmləri də var. Məsələn, sübh tezdən yuxudan oyanıb namaz qılmaq, oruc tutmaq kimi hökmlər də mövcuddur. Bu hökmlər insanın meyl və istəkləri ilə uyğun gəlməsə də yerinə yetirilməlidir. Heç bir kəs özünü səhər tezdən əziyyətə salmaq istəmir. Lakin hər bir müsəlman bilməlidir ki, onun istəklərinə uyğun

gəlib-gəlməməsindən asılı olmayaraq, şəriətin bütün hökmlərinə əməl etmək vacibdir.

Odur ki, insan əgər İslam dininə iman gətirirsə, bu dinin bütün hökmlərinə eyni zamanda iman gətirməlidir. Əgər İslam dininin bütün hökmlərinə eyni zamanda iman gətirmirsə, buna iman demək olmaz. Ona görə də buyurulur ki, “ey İslamın bəzi qanunlarına iman gətirənlər, İslamın bütün qanunlarına iman gətirin!”

**Üçüncü ehtimal:**

“Nisa” surəsinin 136-cı ayəsində Allah-təala iman gətirənlərə iman gətirməyi əmr edir. Bu ayədəki “iman gətirənlər” ifadəsində kimlərin nəzərdə tutulduğu barədə bir neçə ehtimal irəli sürülür. Birinci ehtimala görə, bu ayədə kitab əhli nəzərdə tutulur ki, onlar İslam Peyğəmbəri(s) və Musa Peyğəmbəri(ə) qəbul edib, başqa peyğəmbərləri qəbul etmirdilər. Allah-təala onlara bütün peyğəmbərlərə iman gətirməyi əmr edir. İkinci ehtimala əsasən, Allah-təala bu ayədə Quranın bəzi ayələrinə əməl edib, bəzisinə isə əməl etməyən möminlərə Quranın bütün ayə və hökmlərinə iman gətirib onlara əməl etməyi əmr edir. Bu ayə barədə irəli sürülən üçüncü ehtimal daha geniş və ətraflıdır. Həmin ehtimala görə, ayədə bütün iman gətirənlər nəzərdə tutulur və onlar təkidlə Allaha səmimi qəlbdən iman gətirməyə dəvət olunurlar. Yəni hər kəs Allahın dinini qəbul edirsə, gərək bu dini səmimi qəlbdən qəbul edib ona iman gətirsin. Bu iman insanın qəlbinə nüfuz etməlidir. Allah-təala “Hücurat” surəsində bu məsələyə toxunaraq daha açıq-aydın şəkildə bəyan edir:

قَالَتِ الْأَعْرَابُ آمَنَّا قُل لَّمْ تُؤْمِنُوا وَلَكِن قُولُوا أَسْلَمْنَا وَلَمَّا يَدْخُلِ الْإِيمَانُ فِي قُلُوبِكُمْ وَإِن تُطِيعُوا اللَّهَ وَرَسُولَهُ لَا يَلِتْكُم مِّنْ أَعْمَالِكُمْ شَيْئًا إِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ. إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ آمَنُوا بِاللَّهِ وَرَسُولِهِ ثُمَّ لَمْ يَرْتَابُوا وَجَاهَدُوا بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فِي سَبِيلِ اللَّهِ أُوْلَئِكَ هُمُ الصَّادِقُونَ

-Bədəvilər dedilər: "Biz (səmimi qəlbdən) iman gətirdik." (Ya Peyğəmbər, onlara) de: "İman gətirməmisiniz. Lakin (zahirdə kəlmeyi-şəhadəti deməklə) "İslamı qəbul etdik" deyin. Çünki iman hələ sizin qəlblərinizə daxil olmayıb. Əgər (əmrlərində) Allaha və (rəhbərlik göstərişlərində) Onun Peyğəmbərinə itaət etsəniz (Allah) sizin əməllərinizdən (heç nəyi) əskiltməz. Çünki Allah çox bağışlayan və mehribandır.

Möminlər yalnız Allaha və Onun Peyğəmbərinə iman gətirmiş, sonra (öz imanında) əsla şəkk-şübhə etməyib mal və canları ilə Allah yolunda cihad etmiş kəslərdir. (Etiqad, söz və əməldə) doğruçu olan onlardır.[1]

Bu ayənin nazilolma səbəbi belədir: "Qıtlıq illərinin birində Bəni- Əsəd qəbiləsindən olan bir dəstə insan aclıqdan əziyyət çəkdiklərinə görə Peyğəmbərin(s) hüzuruna gəlib iman gətirdiklərini etiraf etdilər. Onların bu işi görməkdə əsas məqsədləri Peyğəmbərdən(s) maddi yardım almaq idi. Buna görə də Peyğəmbərin(s) yanına gəlib dedilər: "Ya Rəsulallah, başqaları səninlə müharibə edir, lakin biz sənə qarşı müharibə etmirik. Biz sənə iman

---

[1] Hücurat surəsi, ayə 14-15.

gətirmişik və dilimizlə də bunu etiraf edirik. Biz sənin yanına öz ailələrimizlə gəlmişik.” Onlar bu sözləri deməklə Peyğəmbərə(s) minnət də qoyurdular. Allah-təala “Hücurat” surəsinin 14-15-ci ayələrini nazil etməklə onların iç üzlərini üzə çıxartdı. Birincisi budur ki, onlar İslam dinini qəlbən deyil, zahirən qəbul etmişdilər. İkincisi isə iman gətirməklə heç bir kəsə minnət qoymağa ixtiyarları yoxdur. Çünki onlar iman gətirdiklərini iddia etməklə həm də minnət qoyaraq Peyğəmbərdən(s) maddi maraq güdürdülər. Allah-təala Peyğəmbərin(s) vasitəsilə onlara bildirdi ki, siz iman gətirməmisiniz. Lakin (zahirdə kəlmeyi-şəhadəti deməklə) “İslamı qəbul etdik” - deyin. Çünki iman hələ sizin qəlblərinizə daxil olmayıb.

## İSLAMI QƏBUL ETMƏKLƏ İMANIN FƏRQİ

Qeyd olunan ayədən məlum olur ki, İslamı qəbul etməklə iman bir-biri ilə fərqlidir. Yəni İslamı qəbul etməklə mömin olmağın çox böyük fərqi var. Çünki onlar gəlib Peyğəmbərə(s) dedilər ki, biz iman gətirmişik. Allah-təala onlara bildirir ki, siz iman gətirməmisiniz, sadəcə olaraq İslam dinini qəbul etmisiniz. Elə buradan məlum olur ki, İslamı qəbul etmək başqa, iman isə tamam başqadır. İndi isə gəlin onların fərqlərinə diqqət yetirək.

### Birinci fərq

Birinci fərq budur ki, müsəlman o şəxsə deyilir ki, zahirdə “La ilahə illəllah və Muhəmmədun Rəsulullah” ifadəsini dilinə gətirib, Allahın vəhdaniyyətinə və Peyğəmbərin(s) nübüvvətinə şəhadət versin. Belə bir etiraf və şəhadəti verən insan zahirdə müsəlman hesab olunur. Belə olduqda İslamın həmin şəxs barəsində hökmləri

riayət olunar. Məsələn, müsəlman olmamışdan öncə onun bədəni murdar hökmündə idisə, kəlmeyi-şəhadəti oxuduqdan sonra onun bədəni, təri, hətta ağzının suyu da pak olur. Həmçinin onun kəsdiyi heyvan da halal olur. Belə ki, İslamı qəbul etməmişdən öncə kəsdiyi heyvan murdar idisə, qəbul etdikdən sonra kəsdiyi heyvan pak hökmündə olacaqdır. O, həmçinin müsəlman olduqdan sonra müsəlmanla ailə qurmaq icazəsi də qazanır. Atası müsəlman olan, ancaq özü İslam dinini qəbul etməyən şəxsə atasından miras da qala bilməz. Yalnız müsəlman olduqdan sonra atasından ona miras qala bilər. Bütün bunlardan əlavə, İslam dininin qanunlarına görə müsəlmanlığı qəbul edən şəxsin malına və canına da ehtiram qoyulmalıdır. Çünki o, artıq müsəlmanların cərgəsinə daxil olmuşdur.

Beləliklə, Allahın vəhdaniyyətini və Peyğəmbərin(s) nübüvvətini dildə qəbul edən şəxsə müsəlman deyilir. Ola bilsin ki, bir insan İslamı maddi mənfəətinə və ya hansısa səbəbə görə qəbul etmiş olsun. Lakin imanlı olmaq tamamilə başqadır. İman odur ki, insan dildə etiraf etməklə yanaşı, həm də qəlbən İslam dininə bağlı olsun. Maddi mənfəətə görə İslam dinini qəbul edənlər həmin imkanın əllərindən çıxdığını gördükdə dindən üz döndərirlər. Lakin qəlbən Allaha iman gətirənləri Allahdan və mənəviyyatdan savayı başqa heç bir şey maraqlandırmır. Bir sözlə desək, iman odur ki, insan Allahı qəlbən qəbul edib iman gətirsin. Quran ayələrindən əlavə, bu haqda Peyğəmbərdən(s) və imamlardan da bir çox hədislər nəql olunmuşdur. Nümunə üçün onlardan bir neçəsini təqdim edirəm.

قَالَ رَسُولُ اللهِ(ص): اَلإِسلامُ عَلانِيّةٌ وَ الإِيمَانُ فِي القَلبِ

-Həzrət Peyğəmbər(s) buyurur: "İslam (müsəlmançılıq) zahirdə, iman isə qəlbdə qərar tutur."[1]

قَالَ الصَّادِقُ(ع): اَلإِسلامُ يُحْقَنُ بِهِ الدَّم وَ تُؤَدّى بِهِ الأَمَانَة وَتُسْتَحَلُّ بِهِ الفُرُوج. وَ الثَّوابُ عَلَى الإِيمان

İmam Sadiq(ə) buyurur: "İslam dininin vasitəsilə insanların qanı qorunur, əmanət sahibinə çatdırılır, evlənmək halal olur, ancaq savab isə imanın müqabilində insana verilir."[2]

Deməli, müsəlman olmağın faydası budur ki, hər kəs İslamı qəbul etsə, həmin şəxsin canı, qanı qorunmalı və hörməti saxlanılmalıdır. Kafir insanın malı müsəlmanın əlində olsa, onu verməyə bilər. Lakin həmin kafir şəxs İslamı qəbul etsə, malı özünə qaytarılmalıdır. İslamı qəbul edən kəslə ailə qurmaq halal olur və icazə verilir. Çünki müsəlmanın kafirlə ailə qurması haramdır. Əlbəttə, fiqh elmində bütün bu məsələlərin hər biri barədə ətraflı bəhs olunub və lazım gəldiyi zaman fiqh kitablarına müraciət etmək olar. İslam dininin insanlara bu kimi faydaları vardır, lakin savab müsəlmanlığa görə deyil, imana görə verilir. İnşallah, bu hədisin açıqlanması ilə bağlı gələcək bəhslərimizdə ətraflı şəkildə söz açacağıq.

---

[1]Təfsiri-nümunə, 22-ci cild, səh.210.
[2] Təfsiri-nümunə, 22-ci cild, səh.210; Üsuli-kafi, 3-cü cild, səh.38.

قَالَ الصَّادِقُ(ع): إِنَّ الْإِيمَانَ يُشَارِكُ الْإِسْلَامَ وَلَا يُشَارِكُهُ الْإِسْلَامُ إِنَّ الْإِيمَانَ مَا وَقَرَ فِي الْقُلُوبِ وَالْإِسْلَامَ مَا عَلَيْهِ الْمَنَاكِحُ وَالْمَوَارِيثُ وَحَقْنُ الدِّمَاءِ

-İmam Sadiq(ə) buyurur: "Həqiqətən, iman İslamla şərikdir. İslam isə imanla şərik deyil. İman odur ki, qəlblərdə qərar tutsun. İslam isə odur ki, nikah qanunları, irs məsələləri, qan və canın qorunması onun vasitəsilə icra olunur (qorunur)." [1]

Bu hədisdən belə bir qənaətə gəlirik ki, imanı olan insanda İslam da mövcuddur. Lakin İslam dinini qəbul edən hər bir şəxsdə iman olmaya da bilər. Bir atalar misalı ilə bunu daha dəqiq başa düşmək olar: "Girdəkan yumrudur, lakin hər yumru girdəkan deyil." İslam zahirdədir, iman isə qəlbdə. Hər kəsin imanı varsa, deməli İslamı da var. İslamı qəbul edən hər bir şəxsə imanlı demək olmaz. Bütün bunların dəlil və sübutlarını gələcək bəhslərdə ərz edərik.

**İkinci fərq**

İslamı qəbul etməklə imanın ikinci fərqi budur ki, hər ikisi əqidəsi mükəmməl olan insanın fikrində və qəlbində olmuş olsun. İnsanın əqidəsi Allaha, Peyğəmbərə, Qurana və dinin zərurətlərinə möhkəm olsa iman, möhkəm olmasa İslamdır. Yəni insanın etiqadı möhkəm olmasa müsəlman, möhkəm və dərin olsa mömindir. Məsələn, bəzən İslam dinini yenicə qəbul etmiş insana namazdan, orucdan danışdıqda qəbul edir, lakin birdən-birə xümsdən danışdıqda tərəddüd edir. Çünki

[1] Yenə orada, səh.211; Yenə orada, səh.41.

onun imanı hələ mükəmməlləşməyib. Peyğəmbəri(s), Quranı, dinin hökmlərini eşidib qəbul etmək iki cürdür. Biri möhkəm, biri isə zəif. Bu qəbul etmə zəifdirsə, adına İslam və müsəlmançılıq deyilir. Əgər möhkəm və səmimi qəlbdən olsa, o zaman iman və möminlik adlanır.

قَالَ الصَّادِقُ(ع): إِنَّ اللَّهَ فَضَّلَ الْإِيمَانَ عَلَى الْإِسْلَامِ بِدَرَجَةٍ كَمَا فَضَّلَ الْكَعْبَةَ عَلَى الْمَسْجِدِ الْحَرَامِ

-İmam Sadiq(ə) buyurur: "Allah-təala Kəbə evini Məscidül-həramdan üstün etdiyi kimi, imanı da İslamdan bir dərəcə üstün qərar vermişdir."[1]

Həcc ziyarətinə gedənlər Məscidül-həramı və Kəbəni ziyarət edirlər. Yer kürəsində ən müqəddəs məkan Məscidül-həramdır. Kəbə evi Məscidül-həramın içərisində yerləşir. Hər ikisi müqəddəs və şərafətlidir. Lakin Kəbə evinin içi Məscidül-həramdan daha fəzilətli və şərafətlidir. Allah-təala bütün müsəlmanlara həmin müqəddəs evin içərisinə girib ziyarət etməyi nəsib etsin. Yer kürəsində ən müqəddəs, üstün, şərafətli və fəzilətli nöqtə Kəbə evinin içidir. Deməli, hər ikisi müqəddəs olmaqla yanaşı, Allah-təala Kəbə evini Məscidül-həramdan üstün və fəzilətli qərar verib. Qeyd olunan hədisdə də Allah-təala imanı bir dərəcə İslamdan üstün qərar verib.

قَالَ الصَّادِقُ(ع): إِنَّ المؤمِن أَشَدُّ مِن زُبَرِ الْحَدِيد ، إِنَّ الْحَدِيدَ إِذَا اُدْخَلَ النَّار تَغَيَّر ، وَإِنَّ المؤمِن لَو قُتِل ثُمَّ نُشِرَ ثُمَّ قُتِلَ لَم يَتَغَيَّر قَلبُهُ

[1] Üsuli-kafi,3-cü cild, səh.87.

-İmam Sadiq(ə) buyurur: "Həqiqətən, mömin (-in imanı) dəmir parçasından daha möhkəm olar. Dəmiri qızdırdıqda onu dəyişdirib haldan-hala salmaq olur. Lakin mömini öldürsələr, dirildib yenidən öldürsələr (imanı) dəyişməz."[1]

## Xubeyb ibn Ədiy

Xubeyb çox möhtərəm, şərif, imanlı bir şəxs idi. Həmraül-əsəd müharibəsindən sonra Rəci adlı kiçik bir savaş oldu. Həzrət Peyğəmbər(s) on nəfəri Quran öyrətmək üçün ora göndərdi. Həmin on nəfərdən biri də Xubeyb idi. Onlar gəlib camaata Quran dərsi keçməyə başladılar. Günlərin birində həmin Quran öyrənənlər xəyanətə əl atdılar. Gizlicə yığışıb onlara Quran öyrətməyə gələnlərlə bağlı plan qurdular. Onlar plan üzrə bir gün Peyğəmbərin(s) göndərdiyi həmin on nəfəri tutub səkkizini yerindəcə qətlə yetirdilər. İki nəfərin isə əl-qolunu bağlayıb Məkkəyə apardılar. Onlardan biri Xubeyb, o biri isə Dəsnə idi.

Məkkədə onları Peyğəmbərin(s) düşmənlərinə qul kimi satdılar. Qüreyşin böyükləri (düşmənlər) onları öldürmək qərarına gəldilər. Fikirləşdilər ki, əgər onları öldürməsələr, Məkkədə qalıb dini təbliğ etməklə məşğul olacaqlar. Bunun qorxusundan onları öldürməyi qəti qərara aldılar. Xubeybı Tənim[2] adlı bir yerə gətirdilər. Xubeyb onlara dedi: İndi ki, məni öldürmək qərarına gəlmisiniz, icazə verin iki rükət namaz qılım. Onlar

---

[1] Hökmüz-zahirə, səh. 234.
[2] Sonradan həmin yerdə məscid tikilmişdir.

razılaşdılar. Xubeyb namazı qılıb qurtardıqdan sonra dedi: “Əgər namazı uzatsaydım siz elə başa düşəcəkdiniz ki, mən ölümün qorxusundan namazı bu qədər uzadıram. Mən ölümdən qorxmuram. Buna görə də namazı tez qılıb qurtardım.” Onlar Xubeybi dar ağacına tərəf çəkdilər. Xubeyb dar ağacının altında dayanıb ətrafına baxdıqdan sonra dedi: “İlahi, burada elə bir kimsə yoxdur ki, mənim salamımı Peyğəmbərə(s) çatdırsın. Sən Özün mənim salamımı Peyğəmbərə(s) yetir.” Kəndiri onu boynuna salıb asdılar və ətrafına da qırx gözətçi qoydular.

Onun ölüm xəbərini Peyğəmbərə(s) çatdırdılar. Həzrət(s) üzünü ətrafındakılara tutub buyurdu: “Sizin aranızda kim gedib Xubeybin cənazəsini gətirə bilər?” İki nəfər ayağa qalxıb dedi: Ya Rəsulallah, izn versən, biz gedib gətirərik. Onlardan biri Zeyd[1], o biri isə Miqdad idi. Onlar miniklərinə minib sürətlə hərəkət etməyə başladılar. Gecənin bir aləmində Xubeybin asıldığı yerə çatdılar. Baxıb gördülər ki, bütün keşikçilər yatıb. Sakitcə dar ağacının altına gəlib Xubeybin cənazəsini kəndirdən çıxartdılar. Onun cənazəsini Zeydin dəvəsinin üstünə qoyub oradan uzaqlaşdılar.

Keşikçilər yuxudan ayılıb gördülər ki, Xubeybın cənazəsi yoxdur. Tez gedib bu xəbəri Qüreyşin böyüklərinə çatdırdılar. Onlar dedilər: Tez atlanıb bu işi görənlərin ardınca gedin. Bir neçə nəfər atlarına minib yola düşdülər. Gəlib onlara çatdıqda gördülər ki, Miqdadla Zeyd Xubeybin cənazəsini aparırlar. Zeyd gördü ki, onlar nəyin bahasına olursa-olsun meyiti onların əlindən alacaqlar. Buna görə də cənazəni yerə atdı. Cənazə yerə

[1] Əbdülmüttəlibin nəvəsi və Səfiyyənin oğlu.

düşən kimi yer aralandı və Xubeybi uddu.[1] Zeyd onlara dedi: Mən Səfiyyənin oğlu, Əbdülmüttəlibin nəvəsiyəm. Mənim yanımdakı isə Miqdaddır. Hər ikimiz şir kimi cəngavərik. Döyüşmək fikriniz varsa, gəlin döyüşək. Əgər döyüşmək istəmirsinizsə, çıxın gedin. Xubeybin cənazəsini də öz əhlinə (torpağa) tapşırdıq. Müşriklər gördülər ki, onlarla döyüşməyin xeyri omayacaq. Buna görə də bir-biri ilə məsləhətləşib geri qayıtdılar.

Xubeyb elə bir insan idi ki, Allaha və Peyğəmbərə(s) ürəkdən iman gətirmişdi. Ölümdən zərrə qədər də olsa qorxmurdu. Hətta ölüm ayağında olarkən belə namaz qılıb Allaha zikr etdi və Peyğəmbərə(s) salam göndərdi. Əgər onu yüz dəfə də öldürüb diriltsəydilər, imanından dönməyəcəkdi. Əsl iman belə olmalıdır və heç bir şey insanı imandan döndərməməlidir.

## Aşura gecəsi İmam Hüseynin(ə) xütbəsi və səhabələrin söylədikləri

Aşura günü Kərbəlada İmam Hüseynin(ə) ətrafında olan şərafətli insanların hamısı Allaha, Peyğəmbərə(s) və İmam Hüseynə(ə) sidq ürəkdən iman gətirənlər idi. Onların qəlbləri saf, imanları isə möhkəm idi. Onlardan biri də Müslüm ibn Ovsəcə idi. Aşura gecəsi çox təsirli sözlərlə çıxış edib bildirdi ki, biz heç vaxt İmam Hüseyni(ə) tək qoyub getməyəcəyik.

İmam Hüseyn(ə) həmin gecə belə bir xütbə oxudu:

-Artıq gecənin qaranlığı düşmüşdür. Hara istəsəniz uzaqlaşıb gedə bilərsiniz. Hər kim getmək istəyirsə,

[1] Xubeybin ləqəblərindən biri də "Bəliül-ərz"dir ("Yerin udduğu insan").

mənim əhli-beytimin hər birinin əlindən tutub buradan gedə bilər. Allah sizin hamınıza xeyir versin. Dağılışıb öz kəndlərinizə, şəhərlərinizə gedə bilərsiniz. Bu gün bura toplaşan tayfa məni öldürmək üçün gəliblər. Əgər sabah məni tutsalar öldürəcəklər. Kim istəsə, indidən gedə bilər.

İmam Hüseyn(ə) səhabələri ilə söhbət etdikdən sonra bu şərafətli insanların hamısının sözü bir oldu. Onlar Həzrətə(ə) dedilər: "Biz heç bir vaxt vəfasızlıq edib səndən ayrılmayacağıq. Öz vəfamızı ölməyimizlə təsdiqləyəcəyik."

Müslüm ibn Ovsəcə ayağa qalxıb dedi: "Biz səni tək qoyub ayrılaqmı? Bəs Allah yanında sənin haqqını yerinə yetirmədiyimizə görə nə cavab verərik? Allaha and olsun ki, bu, mümkün olan deyil. Əgər məni öldürüb yenidən diriltsələr və yandırıb külümü göyə sovursalar, həmçinin yetmiş dəfə bu işi görsələr belə, səndən ayrı düşmərəm. Məni öldürsələr də, səndən əl çəkmərəm. Halbuki sonu səadətlə nəticələnəcək ölümlə bir dəfə öldürüləcəyəm."

Müslüm tasua günü dediyi sözünə aşura günü sədaqətlə əməl etdi. Son nəfəsinə qədər döyüşüb Allahın dinini və İmam Hüseyni(ə) müdafiə etdi. Deməli məlum olur ki, İslamı qəbul etməklə imanın fərqlərindən biri budur ki, insanın imanı zəif olarsa, buna İslam, güclənib möhkəm olduqda və iman həmin şəxsin hüceyrələrinə qədər nüfuz edərsə, buna iman deyilir.

**Üçüncü fərq**

Hədislərə əsasən İslamla (müsəlmançılıqla) imanın fərqlərindən biri də budur ki, əməlsiz əqidə İslam, əməlli əqidə isə imandır. Yəni əgər bir insan Allaha, Peyğəmbərə(s), Qurana, qiyamət günü dirilməyinə, cənnətə və cəhənnəmə inam bəsləyərək dilində bunu qəbul edirsə, o insan

müsəlmandır. Əgər bütün bu dediklərini əməldə də həyata keçirsə və inamını əməli surətdə göstərə bilsə, buna iman deyilir. Məsələn, bir insan Allaha, Peyğəmbərə(s) və Qurana inanır, namazın vacib olduğunu bilməklə yanaşı, həm də vaxtlı-vaxtında namazını qılır və əməl edirsə, belə bir şəxsə imanlı insan deyilir. Əlbəttə, qeyd etməliyik ki, bu sadəcə bir misaldır. Təkcə namaz yox, bütün vaciblərə əməl edib, haramlardan qorunmaq həm müsəlmançılığın, həm də imanın nişanəsidir. Allahı, Peyğəmbəri(s), Quranın ayələrini qəbul edib əməl etməyən insan müsəlman sayılır, amma ona imanlı şəxs demək olmaz. Bu barədə bir çox hədis və rəvayətlər də mövcuddur. Onlardan bir neçəsinə nəzər yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): اَلإِيمَانُ مَعرِفَةٌ بِالقَلبِ وَ قَولٌ بِاللِّسَانِ وَ عَمَلٌ بِالأَركَان

-Həzrət Peyğəmbər(s) buyurur: "İman qəlb ilə tanımaq, dil ilə qəbul etmək və bədən üzvləri ilə əməl etməkdir."[1]

قَالَ عَلِيّ(ع): اَلإِيمَانُ اِقرَارٌ وَ عَمَلٌ,

وَالإِسْلامُ اِقرَارٌ بِلا عَمَلٍ

-Həzrət Əli(ə) buyurur: "İman etiraf etməklə yanaşı, həm də əməl etməkdir. İslam isə əməlsiz etirafdır."[2]

Bu hədislərdən bir daha məlum olur ki, müsəlmançılıqla imanın böyük fərqi vardır. Əməlsiz müsəlmana müsəlman deyilir, lakin mömin deyilmir.

---

[1] Kənzül-ümmal, 2-ci hədis.
[2] Mizanül-hikmə, 1262-ci hədis.

Qurana əməl edən şəxsə isə həm müsəlman, həm də mömin deyilir.

قَالَ عَلِيّ(ع): قَالَ لِي رَسُولُ اللهِ(ص): يَا عَلِيّ أُكْتُب. قُلتُ: مَا اكْتبُ؟ فَقَالَ: أُكتُب: بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ. اَلإِيمَانُ مَا وَقَرَ فِي القُلُوبِ وَ صَدّقَتهُ الأَعمَال. وَالإِسلامُ مَا جَرى عَلى اللِّسَانِ وَ حَلَّت بِه الْمُنَاكِحَه

-Həzrət Əli(ə) belə nəql edir ki, bir gün Həzrət Peyğəmbər(s) mənə buyurdu: “Ya Əli, yaz. Soruşdum: Ya Rəsulallah, nə yazım? Həzrət(s) buyurdu: Yaz, Bismillahir-Rəhmanir-Rəhim. İman odur ki, qəlblərdə qərar tutsun və əməllərdə təsdiqlənsin. İslam isə odur ki, yalnız dildə qəbul olunur və nikahlar onun vasitəsilə halallaşır.”[1]

قَالَ الصَّادِقُ(ع): دِينُ الله اِسمُهُ الإِسلام وَ هُو دِينُ الله قَبلَ اَن تَكُونُوا حَيثُ كُنتُم وَ بَعدَ اَن تَكُونُوا. فَمَن أَقَرَّ بِدِين الله فَهُو مُسلِم وَ مَن عَمِلَ بِمَا أَمَرَ اللهُ عَزَّوَجَلَّ بِهِ فَهُوَ مُؤمِن

İmam Sadiq(ə) buyurur: “Allahın dininin adı İslamdır. Bu din siz dünyaya gəlməmişdən öncə, həm də dünyaya gəldikdən sonra da Allahın dinidir. Hər kəs Allahın dinini qəbul etsə müsəlmandır. (İslamı qəbul edib etiraf etdikdən sonra) Allahın əmrlərinə əməl edən hər bir kəs isə mömindir.”[2]

---

[1] Yenə orada, 1253-cü hədis.

[2] Mizanül-hikmə, 1258-ci hədis.

قَالَ رَسُولُ اللهِ(ص): اَلإِيمَانُ وَ العَمَلُ اَخَوَانِ شَرِيكَانِ فِي قَرَنٍ لا يَقْبَلُ اللهُ اَحَدَهُمَا اِلّا بِصَاحِبِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "İmanla əməl bir ipə bağlanmış şərik qardaşlardır. Allah-təala onlardan birini təklikdə (o biri olmadan) qəbul etməz."[1]

Yəni Allah dərgahında əməlsiz iman, yaxud imansız əməl qəbul olunmur. Əgər bir insan Allahı, Peyğəmbəri(s) və Quranı qəbul edib əməl etmirsə, belə qəbul etmənin həmin şəxsə heç bir faydası olmayacaq. Əməlsiz iman qiyamət günü insanın dərdinə dəyməyəcək. Həmçinin bir insan körpü salmaq, yetimə əl tutmaq, su çəkdirmək, yol çəkmək və s. kimi xeyirxah işlər görməsinə baxmayaraq, Peyğəmbəri(s) və Quranı qəbul etməsə, qiyamət günü gördüyü bütün bu işlər ona heç bir fayda verməyəcək. Yəni iman olmadan xeyirxah işləri görmək də insanın dərdinə dəyməyəcək. Bir sözlə desək, əməlsiz iman və imansız əməlin heç bir faydası yoxdur. İnsan həyata keçirdiyi işlərin faydasını o vaxt görə biləcək ki, hər ikisi onda olmuş olsun.

عَن سَمَاعَةَ: قُلتُ لأَبِي عَبدِ اللهِ(ع) اَخبِرنِي عَنِ الإِسلامِ وَالإِيمان اَهُمَا مُخْتَلِفَان؟

فَقَال: اَلإِسلامُ شَهادَةُ أَن لا إِله إِلّا الله، وَالتَّصدِيقُ بِرَسولِ اللهِ صَلى الله عَلَيهِ وَآلِه وَبِه حُقِنَت الدِّماء، وَعَليهِ جرَت الْمَنَاكِح وَالْمَوارِيث، وَعلى ظَاهِرِهِ جَماعَةُ النَّاس.

[1] Yenə orada, 1289-cu hədis.

وَالإِيمان اَلهُدَى وَمَا يَثْبُتُ فِي القُلوبِ مِن صِفَةِ الإِسلام وَمَا ظَهَر مِنَ العَمَلِ بِهِ...

Sumaə deyir: "İmam Sadiqdən(ə) soruşdum: Məni İslamla iman arasındakı fərq barədə xəbərdar et. Onlar müxtəlifdirlərmi? Həzrət(ə) buyurdu: "İslam odur ki, insan Allahın vəhdaniyyətini qəbul edib Peyğəmbəri(s) təsdiq etsin. İslam vasitəsilə insanların qanı qorunur, nikah və vərəsəlik məsələləri icra olunur. Həmçinin insanlar onun zahirinə əsasən bir-biri ilə rəftar edir. İman isə hidayətdir. İman odur ki, İslamın xüsusiyyətləri insanın ürəyində qərar tutsun və əməldə zahir olmuş olsun."[1]

Əgər İslam insanın ürəyinə daxil olsa, əməldə də görünəcək. Məsələn, namaz vaxtı olduqda insan durub namazını qılacaq və günahla rastlaşdıqda ondan çəkinəcək. İmam Sadiq(ə) qısaca olaraq imanı bizlərə belə öyrədir:

اَلإِيمان اَن يُطَاعَ اللهُ فَلا يُعصَى

-İman odur ki, insan Allaha itaət edib günah etməsin.[2]

Əgər bir insan müsəlmançılıq iddiasında ola-ola əməl etmirsə, o, sadəcə olaraq müsəlmandır, lakin mömin deyil. Amma hər kəs Allaha itaət edib günahlardan çəkinərsə, bu şəxs mömindir. İman o şəxsə aiddir ki, Allahın vacib etdiklərinə riayət edib, çəkindirdiyi işlərdən çəkinsin. İman odur ki, Allahın insana verdiyi ruhu eləcə də pak

---

[1] Üsuli-kafi,3-cü cild, səh.40.
[2] Yenə orada, səh.55.

halda sahibinə qaytarsın. İman odur ki, insan nuraniyyətini qoruyub saxlasın. İman odur ki, insan Allahın qarşısında təvazökarlıq göstərib səcdə etsin. İman odur ki, insanın bütün bədən üzvləri Allahın qarşısında təslim olsun.

Musa Peyğəmbər(ə) Turi Sina dağına gedən zaman Allahdan comərdliyin mənasını soruşdu. Allah-təala onun cavabında buyurdu: "Mən səni yaradarkən bir ruh vermişəm. O ruhu sənə verəndə pak, təmiz və şəffaf idi. Bir gün sən o ruhu Mənə qaytaracaqsan. Comərdlik odur ki, həmin ruhu Məndən aldığın kimi, Özümə qaytarasan. Əgər onu mənə təmiz və nurani halda qaytara bilsən, comərd adamsan."

Bir gün İmam Sadiq(ə) şagirdlərinin birindən soruşdu: "Fəta (cavan) kimə deyilir? Şagird dedi: Cavan və yaşı az olan adama. Həzrət(ə) buyurdu: Əshabi-Kəhfin hamısı qoca və yaşlı insanlar idi. Amma Allah-təala Quranda onları imanlarına görə cavan adlandırır.

إِذْ أَوَى الْفِتْيَةُ إِلَى الْكَهْفِ

-(Yada sal) o zaman(ı) ki, həmin cavanlar o böyük mağaraya sığındılar.[1]

Sonra Həzrət(ə) belə buyurdu:

مَن آمَنَ بِاللهِ وَ اتَّقَى فَهُوَ الفَتَى

-Allaha iman gətirib təqvalı olan insan (Allah yanında) fətadır (cavandır).

Ruhunu cavan saxlayıb, mənəviyyatını gücləndirən şəxs imanlı insandır. İmanlı insanın əməli saleh olmalıdır. Quranda imandan sonra ilk söz saleh əməldir. Yəni iman və saleh əməl bir-biri ilə sıx bağlıdır. Quranda bu

---

[1] Kəhf surəsi, ayə 10.

məsələyə dəfələrlə işarə olunmuşdur. Nümunə üçün bir ayəyə nəzər salaq.

إِنَّ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ وَأَخْبَتُواْ إِلَى رَبِّهِمْ أُوْلَئِكَ أَصْحَابُ الجَنَّةِ هُمْ فِيهَا خَالِدُونَ

-Şübhəsiz, iman gətirib saleh əməllər edən və öz Rəbblərinə inamla könül verən kəslər cənnət əhlidirlər və orada əbədi qalacaqlar.[1]

Hər yerdə iman varsa, ardınca mütləq saleh əməl də olmalıdır. Allahın vəhdaniyyətinə iman gətirən insan bu imanı öz əməli ilə sübuta çatdırmalıdır. Peyğəmbərin(s) peyğəmbərliyinə iman gətirən insan öz imanını əməli ilə təsdiqləməlidir. Həzrət Əlinin(ə) vilayətinə iman gətirən şəxs bunu öz əməli ilə sübut edə bilər. Hətta ən ağır və çətin hallarda da insan öz imanını sübut etməlidir. Yəni öz imanından dönməməlidir. Tarixə nəzər saldıqda öz imanını sübuta yetirən bir çox şəxslərin şahidi oluruq. Peyğəmbərin(s) və imamların elə mükəmməl səhabələri olmuşdur ki, imanları uğrunda canlarını fəda etmişlər. Heç bir hədə-qorxu, işgəncə və ölüm onları imanlarından döndərə bilməmişdir.

## Səid ibn Cübeyrin şəhadəti

Səid ibn Cübeyr imanlı və təqvalı bir insan idi. İmam Səccadın(ə) şagirdlərindən biri və itaətkar insan idi. Onun Peyğəmbər(s) və Əhli-beytə(ə) çox böyük məhəbbəti var idi. Həccac ibn Yusif onu qətlə yetirdi. Tarixçilər onun barəsində belə yazırlar: “Həccac ibn Yusif Səqəfi Bəni-

[1] Hud surəsi, ayə 23.

Üməyyə tərəfindən 20 il İraq və İrana hakimlik etmişdir. Həzrət Əliyə(ə) zərrə qədər məhəbbəti olan insanları belə qətlə yetirirdi. Həccac hər kəsdə Əlinin(ə) məhəbbətini hiss etsəydi, dərhal onu öldürərdi. Onun kefinin ən yaxşı vaxtı o vaxtlar olardı ki, Həzrət Əlinin(ə) şiələrindən birini qarşısında öldürsünlər və o da dayanıb onun can verməsinə tamaşa etsin. Müharibələrdə ölənlərdən əlavə, o, 120.000 (yüz iyirmi min) nəfər şiəni qətlə yetirmişdir. Həccac dünyadan gedərkən onun zindanında 50 min nəfər kişi, 20 min nəfər qadın məhbus var idi. Həmin düstaqlardan 16 min nəfərini çılpaq halda saxlayırdılar. Dustaqların saxlandığı zindanın tavanı yox idi. Onlara arpa unu, duz və küldən hazırlanmış çörəkdən başqa yeməyə heç nə vermirdilər. Zindanın üstünü bağlamağa da icazə vermirdi. Zindanın divarlarının üstündə keşikçilər gəzişirdi. Dustaqlar günəşin şüaları altında əzab çəkirdilər. Günün istisindən zindanın divarının kənarında daldalanmaq istəyən hər bir kəsin başına yuxarıdan iri daş salıb öldürərdilər. Həccac ibn Yusif belə bir nanəcib, cəllad və qaniçən bir insan idi.”

Əhli-sünnə alimlərindən olan Şəbi deyir: “Əgər bütün ümmətlərin zalımlarını və fasiqlərini tərəzinin bir gözünə, Həccac ibn Yusifi də tərəzinin o biri gözünə qoysalar, zülm və cinayət törətməkdə Həccac onların hamısından ağır gələr. Komeyl ibn Ziyad, Həzrət Əlinin(ə) qulamı Qənbər, Səid ibn Cübeyr kimi böyük şəxsiyyətləri də Həccac qətlə yetirmişdir.

Səid ibn Cübeyr İmam Səccadı(ə) çox istəyir, həmişə onun yanında olur və namazlarda Həzrətə(ə) iqtida edirdi. Həccac ibn Yusif göstəriş verdi ki, Səidi öldürsünlər. Səid ibn Cübeyr İsfahana hicrət etdi. İsfahanın hakiminə məktub yazıb göndərdilər ki, Səidi tutub Həccaca

göndərsin. İsfahanın hakimi insaflı bir insan idi. O, Səidi çağırıb dedi: “Mənə belə bir məktub yazıblar ki, səni tutub Həccaca göndərim. Lakin mən bu işi görmək istəmirəm. Yaxşısı budur ki, İsfahandan çıxıb gedəsən və səni heç bir kəs görməsin. Belə olduqda mən də onlara cavab olaraq yazaram ki, Səid İsfahanda yoxdur.”

Səid oradan çıxdıqdan sonra bir müddət Azərbaycanda yaşadı. Sonra İraqa qayıdıb Həccacın əleyhinə olan bir müharibədə iştirak etdi. Sonra Məkkəyə getdi. O zaman Xalid ibn Abdullah Əbdülməlik Mərvan tərəfindən Məkkənin hakimi təyin olunmuşdu. Xalid özünü gözə soxmaq üçün Məkkədə olan böyük İslam şəxsiyyətlərini tutub Həccacın yanına göndərirdi. O cümlədən Səid ibn Cübeyri də tutub Həccaca göndərdi. Həccac bir neçə nəfərlə sarayda əyləşmişdi. Səidi onun yanına gətirdilər.

Həccac soruşdu: Sənin adın nədir?

Səid dedi: Səid (xoşbəxt).

Həccac dedi: Sən səid yox, şəqisən (bədbəxtsən).

Səid dedi: Bunu ata-anam çox gözəl biliblər və adımı Səid qoyublar.

Həccac dedi: Sən və atan hər ikiniz bədbəxtsiniz.

Səid dedi: Onu yalnız Allah bilər. Çünki qeybi bilən yanlız Odur.

Həccac dedi: Sənin filankəslər barədə fikrin nədir?

Səid dedi: Sənin onlarla nə işin var? Sən onların vəkilisənmi?

Həccac dedi: Bilmək istəyirəm, Əlini çox istəyirsən, yoxsa onları?

Səid dedi: Hansı Allahın yanında sevimlidir, onu çox istəyirəm.

Həccac dedi: Hansı sevimlidir?

Səid dedi: Onların daxilini Allah hamıdan yaxşı bilir.

Həccac dedi: Nə üçün düzünü demək istəmirsən?

Səid dedi: Yalan danışmaq istəmirəm.

Həccac dedi: Onsuz da səni öldürəcəyəm.

Səid dedi: Elə isə mən səadətə (xoşbəxtliyə) çatacağam. Necə ki, ata-anam məni xoşbəxt adlandırmışdır. Sən də şəqi (bədbəxt) olacaqsan.

Həccac dedi: Səni necə öldürməyimi istəyirsən?

Səid dedi: Bu sənin işindir. Mən seçim qarşısında deyiləm. Sən seçim qarşısında qalmısan. Məni necə öldürsən qiyamət günündə səni də eləcə öldürəcəklər.

Həccac cəllada göstəriş verdi ki, onu öldürsün. Cəllad ona yaxınlaşarkən Səid üzünü qibləyə tutub bu ayəni oxudu:

إِنِّي وَجَّهْتُ وَجْهِيَ لِلَّذِي فَطَرَ السَّمَاوَاتِ وَالأَرْضَ حَنِيفًا وَمَا أَنَاْ مِنَ الْمُشْرِكِينَ

-Həqiqətən, mən səmimi qəlb və haqqa meyllıliklə üzümü göyləri və yeri yaradana tutmuşam. Və mən müşriklərdən deyiləm.[1]

Həccac göstəriş verdi ki, onun üzünü qiblədən döndərsinlər. Səidin üzünü qiblədən döndərdikdə bu ayəni tilavət etdi:

فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ اللّهِ

-Odur ki, hansı tərəfə üz tutsanız, Allahın üzü (səmti) oradır.[2]

---

[1] Ənam surəsi, ayə 79.

[2] Bəqərə surəsi, ayə 115.

Həccac göstəriş verdi ki, onu yerə yıxıb boynunu vursunlar. Onu yerə yıxanda bu ayəni oxudu:

مِنْهَا خَلَقْنَاكُمْ وَفِيهَا نُعِيدُكُمْ وَمِنْهَا نُخْرِجُكُمْ تَارَةً أُخْرَى

-Sizi ondan (torpaqdan) yaratdıq (öləndən sonra) ona qaytaracaq və bir daha (qiyamətdə) ondan çıxaracağıq.[1]

Elə həmin vəziyyətdə onun başını kəsmək istəyərkən Səid Allaha belə dua etdi: "Ey mənim Allahım, məndən sonra Həccaca kimisə öldürməyə möhlət vermə."

Həccac onun boynunu vurdurub şəhid etdi. Üstündən on beş gün keçdikdən sonra Həccac ölüm yatağına düşdü. Hərdən huşu özünə gəlib diksinir və öz-özünə deyirdi: Mənim Səid ibn Cübeyrlə nə işim var idi? Sonra özündən gedirdi. Yenidən diksinib həmin sözü deyirdi. Beləliklə, Həccac Səid ibn Cübeyrdən sonra heç bir kəsi öldürə bilmədi və cəhənnəmə vasil oldu.

Səid ibn Cübeyr mömin bir insan idi. Allaha bütün qəlbilə iman gətirmişdi. Orucluq vaxtında və adi günlərdə Quran ayələrini oxuyub əməl etdiyi kimi, cəlladın xəncəri altında da Allahı yad edib imanından dönmədi. Buna görə də hər kəs belə bir imanın sahibi olsa, harada olduğundan asılı olmayaraq Quran ayələri onun dilinin əzbəri olacaq və heç bir şey onu imanından döndərə bilməz.

---

[1] Taha surəsi, ayə 55.

**Dördüncü fərq**

Müsəlmançılıqla imanın dördüncü fərqini bilmək üçün imanın özünün ümumilikdə neçə cür olmasına diqqət yetirək. Quran ayələrinə və hədislərə əsasən iman iki cürdür. Sabit və qeyri-sabit iman. Ərəb dilində imanın bu qismlərinə «مُستَقَرّ» "Müstəqərr" və «مُستَودَع» "Müstəvdə" deyilir. «مُستَقَرّ» kəlməsi «قُرّ» "qurr" sözündən götürülüb "şiddətli soyuq" mənasını ifadə edir. Soyuq havada insanlar və digər canlılar soyuğun şiddətindən evdən bayıra çıxmırlar. Soyuğun təsirindən evdən eşiyə çıxmayan şəxsə "qurr" deyilir. Buna görə də insanın ürəyinə daxil olub oradan çıxmayan imana müstəqərr iman deyilir. Bu imanı nəfsi istəklərlə, pulla, vəzifə və s. ilə ürəkdən çıxarmaq mümkün deyildir. Bu iman artıq qəlbdə möhkəm məskunlaşmışdır. Lakin imanın ikinci qismi «مُستَودَع» "Müstəvdə" adlanır. «مُستَودَع» «وَدع» "vəd" kəlməsindən götürülüb və "vidalaşmaq", "tərk etmək" mənalarını verir. Vəd əmanət kimi bir şeydir. İnsanlar bir-birinə borc verdikdə buna "vədiə" deyilir. Yəni həmişəlik yox, vaxtında geri qaytarmaq şərtilə. Beləliklə, əgər iman insanın qəlbinə daxil olub, yenidən çıxırsa və yenidən qayıdırsa, bir sözlə desək, həmişə ürəkdə qalmırsa, bunun adına «مُستَودَع» "Müstəvdə" iman deyilir.

Deməli, qeyd etdik ki, iman sabit və qeyri-sabit ola bilər. Sabit iman həmişə insanın qəlbində qərar tutur, qeyri-sabit iman isə insanın qəlbindən çıxır və yenidən qayıdır. Sabit imana «مُستَقَرّ» "Müstəqərr", qeyri-sabit

imana isə «مُستَودَع» “Müstəvdə” iman deyilir. “Ənam” surəsinin 98-ci ayəsində belə oxuyuruq:

وَهُوَ الَّذِيَ أَنشَأَكُم مِّن نَّفْسٍ وَاحِدَةٍ فَمُسْتَقَرٌّ وَمُسْتَوْدَعٌ

-Sizi bir nəfsdən yaradan Odur. Beləliklə, sizdən bəzisi yerləşib və bəzisi əmanət qoyulmuşdur.

Bu ayədə “nəfsi vahidədə”, yəni bir nəfsdə məqsədin hüceyrə, Adəm, yaxud hansı birinin olması məsələsi mövzumuzdan kənar bir söhbət olduğundan bu barədə ayrıca danışmaq istərdik. Bu haqda həm də təfsir kitablarında kifayət qədər bəhs olunmuşdur. Bu ayədə əsas söhbətimiz «مُستَقَرّ» “Müstəqərr” və «مُستَودَع» “Müstəvdə” kəlmələrinin üzərindədir ki, iki cür şərh edilmişdir. Bir mənası budur ki, «مُستَقَرّ» “Müstəqərr” ruha, «مُستَودَع» “Müstəvdə” isə cismə işarədir. Yəni Allah-təala insanı ruhdan və cisimdən yaratmışdır. Ruh həmişəlik və əbədi, cisim isə gəldi-gedərdir. Ruh həmişə yaşar, cisim isə bu gün varsa, sabah yoxdur. İkinci mənası isə «مُستَقَرّ» “Müstəqərr” imanları möhkəm olan insanlara, «مُستَودَع» “Müstəvdə” isə imanları oynayan və qeyri-sabit olan insanlara işarədir. Həzrət İmam Sadiq(ə) bu ayə barədə belə buyurur:

...فَالْمُسْتَقَرّ اَلإِيمَانُ الثَّابِت وَالْمُسْتَودَعُ الْمُعَار

-Müstəqərr iman odur ki, insanın qəlbində sabit olmuş olsun. Mustəvdə isə gedib-qayıdan (qeyri-sabit) imandır.[1]

---

[1] Mizanül-hikmə, 1357-ci hədis.

## Sabit və möhkəm iman əməllərlə hasil olur

İnsan imanının sabit və möhkəm olmasını öz əməlləri ilə sübuta yetirə bilər. Dildə Allahın vəhdaniyyətini, böyüklüyünü, Peyğəmbərin(s) nübüvvətini, qiyamətin baş verəcəyini qəbul etmək və əməllərlə onu təsdiqləmək lazımdır. Təkcə dildə qəbul etmək sadəcə olaraq müsəlmançılığın əlamətidir. Lakin möhkəm imanı sübuta yetirən insanın əməlləridir. Əgər insanın dili ilə (dediyi sözlərlə) əməli uyğun gələrsə, buna iman deyilir. Yəni insanın imanının möhkəmliyi onun əməlindən asılıdır. Hər bir kəs İslamı qəbul edib onun hökmlərinə Allah istədiyi kimi əməl edirsə mömindir. Yox, əgər İslamı qəbul etdikdən sonra insanın əməlləri dediyi sözlərlə uyğun gəlməsə, bu sadəcə olaraq müsəlmançılıqdır. Buna iman demək olmaz. İmam Sadiq(ə) bu barədə belə buyurur:

مَن كَانَ فِعلُهُ لِقَولِهِ مُوافِقًا فَأَثبِت لَهُ الشَّهَادَةَ بِالنَّجَاة وَ مَن لَم يَكُن فِعلُهُ لِقَولِهِ مُوَافِقًا فَإِنَّمَا ذَالِكَ مُسْتَودِع

-Hər kəsin əməli sözü ilə uyğun gələrsə, onun (cəhənnəm odundan) nicat tapması barədə şəhadət vermək olar. Sözü əməli ilə uyğun gəlməyən şəxsin imanı isə qeyri-sabitdir (möhkəm deyil).[1]

Bir sıra dualarda da bu məsələyə rast gəlmək mümkündür. Ümumiyyətlə, dua insanın Allahla səmimi söhbətidir. İslamın dadı və duzu da elə bu dualardır ki,

[1] Mizanül-hikmə, 1360-cı hədis.

Peyğəmbər(s) və Əhli-beyt(ə) dua etməyin qaydalarını bizə öyrətmişlər. İmam Səccadın(ə) kitabı və Həzrət Əlinin(ə) “Kumeyl” duası kimi dualar insanın ruhuna şövq verir. Əgər İslamdan bu duaları ayırsalar, dinin heç bir ləzzəti qalmaz. Həzrət Əli(ə) Allahla münacat edərkən belə deyirdi:

يا رَبِّ يا رَبِّ يا رَبِّ أَسْأَلُكَ بِحَقِّكَ وَقُدْسِكَ وَاَعْظَمِ صِفاتِكَ
وَاَسْمائِكَ اَنْ تَجْعَلَ اَوْقاتي مِنَ اللَّيْلِ وَالنَّهارِ بِذِكْرِكَ مَعْمُورَةً، وَبِخِدْمَتِكَ
مَوْصُولَةً، وَاَعْمالى عِنْدَكَ مَقْبُولَةً حَتّى تَكُونَ اَعْمالي وَاَوْرادى كُلُّها
وِرْداً واحِداً وَحالى فى خِدْمَتِكَ سَرْمَداً

-Ey mənim Rəbbim, ey mənim Rəbbim, ey mənim Rəbbim! Səni öz haqqına, paklığına, sifətlərinin böyüklüyünə və adlarına and verib istəyirəm ki, gecə-gündüz və bütün vaxtlarımı Sənin zikrinlə abad edəsən və Sənin xidmətində olmağı, əməllərimi öz yanında qəbul edəsən, ta ki, mənim əməllərim və zikrlərim vahid bir vird (zikr) olsun, mənim halım Sənin xidmətində əbədi olsun.

Qeyd olunan hədislərdən və Həzrət Əlinin(ə) bu duasından açıq- aydın başa düşülür ki, möhkəm iman insanın əməli ilə sözünün bir olmasıdır. Yəni insan İslam dinini qəbul etdikdən sonra əməlləri ilə onu sübuta yetirsin. Həzrət Peyğəmbər(s) mükəmməl və nümunəvi bir insandır. Onun bütün əməlləri dediyi sözlərlə bir idi. Quranın ayələrini oxumaq, yaxud Peyğəmbərin(s) hərəkətlərinə baxmaq eynidir. Çünki Həzrət(s) Allahın buyurduqlarını insanlara çıtdırmaqla yanaşı, ilk növbədə onlara özü əməl edirdi. Bəzi insanlar da var ki, onların danışdıqları gözəl olmasına baxmayaraq, əməlləri

sözlərilə qətiyyən uyğun gəlmir. Belə insanlar içi xarab olmuş üzü qırmızı və gözəl almaya bənzəyirlər.

Odur ki, Həzrət Əli(ə) nalə edib Allahla münacat edərək deyir ki, "İlahi, mənə elə bir hal bəxş et ki, zikrimlə (dediyim sözlərlə) əməlim bir olsun və bu hal məndə əbədi qalsın."

İnsanların imanları həmişə sabit qalmır. Bir sıra günahlar var ki, insanı iman evindən çıxarır. İnsan günah etdikdə iman onun qəlbindən çıxır. Əgər bir müsəlman küfr edərsə, bu zaman İslamdan çıxmışdır. Lakin müsəlman günah edirsə, bu zaman iman onun qəlbindən çıxır. Yəni həmin şəxs iman evindən çıxmış sayılır.

قَالَ الصَّادِقُ(ع): مَن زَنَى خَرَجَ مِنَ الإِيمان وَ مَن شَرِبَ الْخَمْر خَرَجَ مِنَ الإِيمان وَ مَنْ اَفْطَرَ يَوْمًا مِن شَهْر رَمَضَان مُتَعَمِّدًا خَرَجَ مِن الإِيمان

-Həzrət İmam Sadiq(ə) buyurur: "Zina edən kəs imandan çıxar. Hər kəs şərab içsə, imandan çıxmışdır. Hər kəs bilərəkdən (üzürsüz yerə) ramazan ayının bir gününün orucunu belə yesə imandan çıxmışdır."[1]

İmam Səccadın(ə) dostlarından biri belə bir şeir oxuyardı. İmam Səccad(ə) həmin şeri çox bəyənmişdi. Bəzi rəvayətlərə görə həmin şeri İmamın(ə) özündən öyrənmişdi. Şerin tərcüməsi belədir. "İlahi, mən şeytanı görmürəm, amma o, məni görür. Mən onu yaddan çıxardıram, amma o, məni yaddan çıxarmır. Ey mənim ağam (Allahım), əgər Sən mənə yardım edib pənahında

[1] Qisarül-cümәl, səh. 28.

qərar verməsən, babam Adəmi cənnətdən çıxardığı kimi, məni də iman evindən çıxaracaq.”

Bir daha qeyd edək ki, insan İslam evindən çıxdıqda küfr evinə daxil olur. Amma bir müsəlman günah etməklə iman evindən çıxır, lakin o, hələ müsəlmandır. İnsanı iman evindən çıxaran zina, içki içmək və s. günahlardır. Zina edən şəxs həmin halda imandan çıxmış sayılır. İçki içən kəs o halda iman evini tərk etmişdir. Mümkündür ki, həmin şəxs iman evinə yenidən qayıtmış olsun. Sonradan etdiyi əməlindən peşman olub imana qayıtmaq şansı var. Lakin o, günah etdiyi halda və imana qayıtmadan dünyadan getsə, imansız getmişdir. Odur ki, həm iman halında, həm də imandan çıxmış halda olan insanlar barədə hakimlik etməyə icazə verilmir. Çünki onun imansız, yaxud iman halında gedəcəyini heç bir kəs bilmir. Əgər iman halında dünyadan gedərsə imanla, imansız halda dünyadan gedərsə imansız getmişdir. Belə şəxslərin imanı sabit olmadığı üçün onlar haqda hakimlik etmək düzgün deyil.

Əbdürrəhim əl-Qəsir deyir: “Bir gün İmam Sadiqə(ə) məktub yazdım. Məktubda “İman nədir?” - deyə Həzrətdən(ə) sual etdim. İmam Sadiq(ə) mənə belə cavab yazdı:

سَأَلْتَ رَحِمَكَ اللهُ عَنِ الْإِيمَانِ: وَ الْإِيمَانُ هو الْإِقْرَارُ بِاللِّسَانِ، وَ عَقْدٌ فِي الْقَلْبِ، وَ عَمَلٌ بِالْأَرْكَانِ . وَ الْإِيمَانُ بَعْضُهُ مِنْ بَعْضٍ، وَ هو دَارٌ، وَ كَذَلِكَ الْإِسْلَامُ دَارٌ، وَ الْكُفْرُ دَارٌ، فَقَدْ يَكُونُ الْعَبْدُ مُسْلِماً قَبْلَ أَنْ يَكُونَ مُؤْمِناً، وَ لَا يَكُونُ مُؤْمِناً حَتَّى يَكُونَ مُسْلِماً. فَالْإِسْلَامُ قَبْلَ الْإِيمَانِ وَ هو يُشَارِكُ الْإِيمَانَ، فَإِذَا أَتَى الْعَبْدُ كَبِيرَةً مِنْ كَبَائِرِ

الْمَعَاصِي، أَوْ صَغِيرَةً مِنْ صَغَائِرِ الْمَعَاصِي الَّتِي نَهَى اللهُ عَزَّ وَ جَلَّ عَنْهَا، كَانَ خَارِجاً مِنَ الْإِيمَانِ، سَاقِطاً عَنْهُ اسْمُ الْإِيمَانِ، وَ ثَابِتاً عَلَيْهِ اسْمُ الْإِسْلَامِ.

فَإِنْ تَابَ وَ اسْتَغْفَرَ عَادَ إِلَى دَارِ الْإِيمَانِ وَ لَا يُخْرِجُهُ إِلَى الْكُفْرِ إِلَّا الْجُحُودُ وَ الِاسْتِحْلَالُ: أَنْ يَقُولَ لِلْحَلَالِ هَذَا حَرَامٌ وَ لِلْحَرَامِ هَذَا حَلَالٌ ، وَ دَانَ بِذَلِكَ فَعِنْدَهَا يَكُونُ خَارِجاً مِنَ الْإِسْلَامِ وَ الْإِيمَانِ دَاخِلًا فِي الْكُفْرِ...

-Allah sənə mərhəmət etsin ki, iman barəsində soruşdun: İman dildə qəbul etmək, qəlbən inanmaq və bədən üzvləri ilə əməl etməkdir. İman bir evdir. Həmçinin İslam da, küfr də hərəsi bir evdir. Bəndənin mömin olmadan müsəlman olmağı mümkündür. (Yəni müsəlmandır, lakin mömin deyil). Müsəlman olmadan mömin olmaq mümkün deyil. Deməli, İslam imandandır və onun (imanın) şərikidir. Bəndə Allahın qadağan etdiyi böyük və ya kiçik günahlara mürtəkib olduqda iman evindən çıxmış olur. İman onun qəlbindən çıxır, lakin İslam qalır. Əgər bəndə imandan çıxdıqdan sonra tövbə edərsə, iman evinə qayıda bilər. Bir şərtlə ki, imandan çıxdıqda inkar və istihlal onu küfr evinə salmasın. İstihlal odur ki, insan (Allahın) halalını haram, haramını da halal bilsin. Belə bir əqidədə olan insan İslam və iman evindən çıxıb küfr evinə daxil olar.”[1]

[1] Üsuli-kafi, 3-cü cild, səh.44.

Əgər bir insan Allaha iman gətirirsə, gərək onun bu imanı sabit olsun və əməlləri ilə öz imanını təsdiqləsin. Çalışıb səy göstərməlidir ki, iman evindən çıxmasın. Buna görə də Allah-təala möminlərə xitab edərək iman gətirməyi əmr edir. Bunun bir mənası belədir: “Ey Allaha, Peyğəmbərə(s), Qurana iman gətirənlər, vacib əməlləri yerinə yetirib haramlardan çəkinin!” Əgər insan imanını sabit saxlayıb, iman evindən çıxmasa, imanın xüsusiyyəti həmin şəxsin bədən üzvlərində zahir olacaq. İmanlı insanın yeməyi, gəzməyi, baxmağı, danışığı və bütün hərəkətləri Allah istədiyi kimi olmalıdır. Belə olduqda həmin insanın əməllərindən onun imanlı olduğu bəlli olacaqdır. Əgər bir insan öz ağzını və qarnını haramdan qoruyursa, deməli, bu, imanın əlamətidir.

İnsanın ağzı gömrük kimidir və o, qarşısına çıxan hər bir yeməyi yeməməlidir. Sərhəddən keçmək istəyən hər bir kəsi gömrükdə yoxlamadan keçməyə icazə vermirlər. Əgər həmin şəxsin keçməyə icazəsi yoxdursa, onu oradan keçməyə qoymurlar. İnsan da gərək ona icazə verilən yeməkləri yesin və haram yeməklərdən çəkinsin. Haram yeməklərin boğazından keçməsinə icazə verməsin. Hər hansı haram və günahla qarşılaşdıqda isə ondan çəkinsin.

Harisə ibn Malik Peyğəmbərin(s) zamanında yaşayan bir gənc idi. O, həmişə Peyğəmbərin(s) yanında olar, namazlarında və moizələrində iştirak edərdi. Cümə günlərinin birində Həzrət Peyğəmbər(s) namazdan sonra məsciddə səhabələrlə əyləşib söhbət edirdi. Bu zaman Həzrətin(s) gözü Harisəyə sataşdı. Onun rəngi saralmış və gözləri çuxura düşmüşdü, həm də çox pərişan görünürdü. O, bu halı ilə Peyğəmbərin(s) diqqətini özünə cəlb etdi. Həzrət(s) ondan soruşdu: “Gecəni necə keçirmisən? Harisə dedi: Ya Rəsulallah, mən gecəni Allaha tam

yəqinlik və imanla səhərə çatdırdım. Həzrət(s) buyurdu: Hər bir şeyin həqiqəti vardır. Bəs sənin bu imanının həqiqət və əlaməti nədir? Harisə dedi: Ya Rəsulallah, mənim yəqinliyimin əlaməti budur ki, yəqinlik məni qəmgin edib, gecələr yatmağa qoymur. Məni dünyaya rəğbətsiz və meyilsiz edib. Dünyanın ləzzətində, mal-dövlətində əsla gözüm yoxdur. Ya Rəsulallah, mənim qəlbimdə o qədər iman və yəqinlik yaranıb ki, elə bil Allahın ərşini gözlərimlə görürəm. Elə bil qiyamət gününün qopduğunu, camaatın hesab-kitab çəkmək üçün məhşər ayağına gəldiyini və özümü də onların içərisində görürəm. Ya Rəsulallah, mənim qəlbimdə o qədər iman və yəqinlik yaranıb ki, elə bil cənnət əhlinin cənnətdə ləzzətli nemətlərlə ruzilǝndiklərini və çəkdikləri kefi gözlərimlə görürəm. Cəhənnəm əhlinin cəhənnəmdə necə əzaba düçar olub nalə etdiklərini də görürəm. Həzrət Peyğəmbər(s) buyurdu: Bu elə bir bəndədir ki, Allah onun qəlbini imanla nurlandırıb. Sonra üzünü ona tərəf tutub buyurdu: Ey Harisə, Allah sənin bəsirət gözünü açmışdır. Çalış, bu halı həmişə özündə saxla. Harisə dedi: Ya Rəsulallah, dua et, Allah mənə şəhadət nəsib etsin. Peyğəmbər(s) onun üçün belə dua etdi: İlahi, Harisəyə şəhadət nəsib et."

Bu hadisədən az bir müddət keçdikdən sonra döyüşlərin birində Peyğəmbər(s) bir dəstəni yola saldı. Harisə də həmin dəstədə idi. O döyüşdə Harisə doqquz nəfəri öldürdükdən sonra özü də şəhid oldu.

Beləliklə, əgər iman insanın qəlbində sabit olsa, həmin imanla da dünyadan gedər. Lakin əgər iman insanın qəlbində qeyri-sabit olarsa, bu imanı özü ilə axirət dünyasına qədər aparması müşkül məsələdir. Çünki qəlbində qeyri-sabit iman olan insan dünyadan gedərkən

bilinmir ki, iman halında dünyadan gedib, yoxsa imandan çıxmış halda.

**Beşinci fərq**

İslamla imanın fərqlərindən biri də Həzrət Əlinin(ə) vilayəti (rəhbərliyi) ilə bağlıdır. Yəni əgər bir insan İslamı qəbul edib Allahın vəhdaniyyətinə, Peyğəmbərin(s) nübüvvətinə şəhadət verməklə yanaşı, Peyğəmbərin(s) təyin etdiyi canişini (Həzrət Əlinin vilayətini) qəbul etsə, mömin və qəbul etməsə, sadəcə olaraq bir müsəlmandır. Deməli, hər kəs Allahı, Peyğəmbəri(s) və Quranı qəbul edərək Həzrət Əlinin(ə) rəhbərliyini qəbul etməsə, müsəlman olmasına baxmayaraq mömin hesab edilməz. Buradan belə məlum olur ki, imanda əsas meyarlardan biri də Peyğəmbərin(s) təyin etdiyi canişinin vilayətidir. Qəlbinə Əlinin(ə) vilayəti daxil olmayan müsəlmana mömin deyilməz. Bu barədə olan ayə və hədislərə diqqət yetirək. Allah-təala "Bəqərə" surəsinin 189-cu ayəsində belə buyurur:

...وَلَيْسَ الْبِرُّ بِأَنْ تَأْتُوْاْ الْبُيُوتَ مِن ظُهُورِهَا وَلَكِنَّ الْبِرَّ مَنِ اتَّقَى وَأْتُواْ الْبُيُوتَ مِنْ أَبْوَابِهَا وَاتَّقُواْ اللّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ

...Həmçinin yaxşılıq evlərə onların arxa tərəfindən daxil olmağınız deyil və lakin yaxşılıq (günahdan) çəkinən şəxs(in əməli)dir. Evlərə onların qapısından daxil olun və Allahdan qorxun, bəlkə nicat tapasınız.

Bu ayənin açıqlamasından biri belədir ki, insan görmək istədiyi hər bir işi qayda-qanunu ilə görməli və görmək istədiyi işi düzgün yolla həyata keçirməlidir. İkincisi budur ki, xeyirə çatmaq istəyən hər bir kəs mütləq onun əhlini axtarıb tapmalıdır. Xeyir əhli və bu işdə mütəxəssis olmayan şəxs insanı xeyirə çatdıra bilməz. Yəni insan hər bir xeyir işi gördükdə həmin işin mütəxəssisinin vasitəsilə görməlidir. Belə olduqda İslamı

tanımaq istəyən kəs Peyğəmbər(s) və Əhli-beytin(ə) vasitəsilə tanıya bilər. Çünki İslam dininin mütəxəssisi məhz onlardır. İslam Peyğəmbəri(s) öz elmini Həzrət Əliyə(ə) vermiş, Həzrətdən(ə) sonra isə on ikinci imama qədər onlar bu elmi sinələrində daşımışlar. Hazırda bu elmin sahibi zəmanəmizin imamı Həzrət Mehdidir(ə.s). Onlar Allahın və Onun Rəsulunun qapılarıdır. Onlar elmin qapılarıdır. Həzrət Peyğəmbərin(s) bu barədə gözəl bir hədisi var ki, İslamda heç bir firqə həmin hədisi inkar etmir. Peyğəmbərin(s) buyurduğu bu hədis bütün firqələrin kitablarında qeyd olunmuşdur:

قَالَ رَسُولُ اللهِ(ص): اَنَا مَدِينَةُ الْعِلم وَ عَلِيٌّ بَابُهَا وَ لا تُؤتَى الْمَدِينَة اِلاّ مِن بَابِهَا

-Mən elmin şəhəriyəm, Əli isə onun (o şəhərin) qapısıdır. Şəhərə daxil olmaq üçün qapısından girmək lazımdır.[1]

Hədisə diqqət yetirdikdə Peyğəmbərin(s) buyurduğu bu kəlamın qeyd etdiyimiz ayəyə nə qədər uyğun gəldiyinin şahidi oluruq. Allah-təala həmin ayədə buyurur ki, evlərə qapılardan daxil olun. Peyğəmbər(s) də Əlini(ə) elmin qapısı elan edir və elm öyrənmək istəyənlərə bu qapıdan içəri keçməyi əmr edir. Digər bir hədisdə Həzrət(s) belə buyurur:

قَالَ رَسُولُ اللهِ(ص): اَنَا مَدِينَةُ الْعِلم وَ عَلِيٌّ بَابُهَا فَمَن اَرادَ العِلم فَيَأتِيهِ مِن بَابِه

[1] Təfsiri Məcməül-bəyan, 1-ci cild, səh. 284.

-Mən elmin şəhəri, Əli onun qapısıdır. Buna görə də elm istəyən kəs həmin qapıdan daxil olmalıdır.[1]

Bu hədisdən də açıq-aydın görürük ki, elm öyrənmək istəyən kəs mütləq Əlidən(ə) sərçeşmə almalıdır. Peyğəmbər(s) elm və biliyi bir şəhərə bənzədir və özü həmin şəhərdir, şəhərin qapısı isə Əlidir(ə). Deməli, Peyğəmbərin(s) elminə daxil olmaq üçün insan mütləq Əlinin(ə) vasitəsilə keçməlidir. Həm Quran ayəsi, həm də Peyğəmbərin(s) kəlamı evlərə və şəhərə qapılardan daxil olmağı tövsiyə edir.

قَالَ الباقر (ع): آلُ مُحَمَّدٍ اَبْوَابُ الله وَسُبُلُهُ وَ الدُّعاةُ اِلَى الْجَنّة وَ القَادَةُ اِلَيهَا وَالأَدِلاّءُ عَلَيهَا اِلَى يَومِ القِيَامَةِ

-İmam Baqir(ə) buyurur: “Məhəmmədin(s) Əhli-beyti Allahın (yolunun) qapıları və vasitələridir. Onlar rəhbərlik edərək insanları cənnətə tərəf çağırıb yol göstərən imamlardır. Onlar qiyamət gününə qədər insanlara cənnətin yolunu göstərən rəhbərlərdir.”

Beləliklə, aydın olur ki, Peyğəmbər(s) və Əhli-beyt(ə) Allahın qapılarıdır. Hər kəs Allaha çatmaq istəyirsə, mütləq bu qapılardan daxil olmalıdır. Bu qapılardan savayı başqa yollarla içəri daxil olmaq mümkün deyil. Yəni Allah insanları Peyğəmbərin(s) təyin etdiyi imamların vasitəsilə qəbul edir. Allah-təala onları insanlara rəhbər və imam təyin etmişdir. Burada “Maidə” surəsinin 55-ci ayəsinə diqqət yetirək. Allah-təala buyurur:

---

[1] Mizanül-hikmə (tərcümə variantı), 985-ci hədis.

إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

-Həqiqətən, sizin başçınız və işlərinizin ağası yalnız Allah, Onun peyğəmbəri və iman gətirənlər – namaz qılıb rüku halında zəkat verən kəslərdir.

Bu ayə barədə ötən bəhslərimizdə kifayət qədər söz açılmışdır. Allah-təala bu ayədə insanların kimlərə itaət etməsinin vacib olduğunu bəyan edir. Bu ayəni təqdim etməkdə məqsədim qeyd edəcəyimiz hədislə bağlıdır.

قَالَ الصَّادِقُ(ع): إِنَّهُ مَنْ أَتَى الْبُيُوتَ مِنْ أَبْوَابِهَا اهْتَدَى, وَمَنْ أَخَذَ فِي غَيْرِهَا سَلَكَ طَرِيقَ الرَّدَى, وَصَلَ الله طَاعَةَ وَلِيِّ أَمْرِهِ بِطَاعَةَ رَسُولِهِ وَطَاعَةَ رَسُولِهِ بِطَاعَتِهِ فَمَنْ تَرَكَ طَاعَةَ وُلاةِ الأَمْرِ لَمْ يُطِعِ الله وَلا رَسُولَهُ

-Həzrət İmam Sadiq(ə) buyurur: “Hər kəs (bu) evə qapıdan daxil olsa, hidayət olar. Hər kəs bu qapıdan başqasını seçsə, batil yola qədəm qoymuşdur. Çünki Allah Öz əmr və itaətini Peyğəmbərin(s) itaətinə, Peyğəmbərin(s) itaətini isə onlara (Peyğəmbərin təyin etdiyi canişinlərə) bağlamışdır. Hər kəs onların itaətini tərk etsə, Allaha və Onun Rəsuluna itaət etməmişdir.”[1]

Bu hədisdən də görürük ki, Allah-təala Öz itaətini Peyğəmbərə(s) və Peyğəmbər(s) də öz itaətini məsum imamlara bağlamışdır. Əgər Peyğəmbər(s) özündən sonra yerinə canişin təyin edirsə, deməli bu, Allahın əmridir.

[1] Üsuli-kafi,1-ci cild, səh.257.

Çünki Peyğəmbər(s) heç bir vaxt özündən və öz istəkləri ilə söz danışıb hərəkət etmir. Peyğəmbərin(s) hər bir sözü Allahın sözüdür. Necə ki, "Nəcm" surəsinin 3-4-cü ayələrində belə buyurulur:

وَمَا يَنطِقُ عَنِ الْهَوَى. إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى

-O, əsla nəfsi istəkləri ilə danışmır. Dedikləri yalnız ona ilham olunan vəhylərdir.

Mümkün deyil ki, Allah-təala yer üzərində insanlara höccət təyin etsin və Onun höccəti Allahın sözlərindən başqa sözlər danışsın. Allah göndərdiyi höccətləri nəzarətdə saxlayır və yalnız onun əmri ilə hərəkət etməyi əmr edir.

Qeyd etdiyimiz ayə və hədislərdən başa düşürük ki, Allaha, Peyğəmbərə(s) və Onun(s) təyin edib getdiyi imamlara itaət etmək bizə vacibdir. Bura qədər itaət məsələsi bizə tam aydın oldu. İndi isə Həzrət Əlinin(ə) Kumeylə buyurduğu kəlama diqqət yetirək:

يا كُمَيل! إِنَّما تَسْتَحِقّ أنْ تَكُونَ مُسْتَقَراً إذا لَزِمْتَ الجْادَّةَ الْواضِحَةَ الَّتى لا تُخْرِجُكَ إلى عَوْج وَ لا تَزيلُكَ عَنْ مِنْهَج ما حَمَلْناكَ عَلَيهِ وَ هَدَيناكَ إلَيه

-Ey Kumeyl, sabit və möhkəm iman sahibi olmaq üçün yalnız açıq-aydın olan və səni azdırmayan yolu tutub getməlisən. Sənə öyrədib göstərdiyimiz aydın və hidayət olduğun bu yoldan ayrılmayasan.[1]

---

[1] Mizanül-hikmə (t.v.), 1362-ci hədis.

قَالَ الصَّادِقُ عَليهِ السَّلام: إِنَّ أَوَّلَ مَا يُسأَل عَنهُ العَبدُ إِذَا وَقفَ بَينَ يَدي الله جَلَّ جَلالُه اَلصَّلَوات الْمَفْرُوضَات، وَعَنِ الزَّكَاة الْمَفْرُوضَة، وَعَن الصِّيامِ الْمَفْرُوضَ، وَعَنِ الْحَجِّ الْمَفُروضَ، وَعَن وِلايَتُنا أَهْلَ الْبَيت، فَإِنَّ أَقَرَّ بِوِلايَتنا ثُمَّ مَاتَ عَلَيهَا قبلت مِنهُ صَلاته وَصَومه وَزَكَاته وَحَجُّه، وَإِن لَمَ يقرّ بِوِلايَتنا بَين يَدي الله جَلَّ جَلالُه لَمَ يَقبل الله عَزَّ وَجَل مِنه شيئاً مِن أَعمَالِه

-Həzrət İmam Sadiq(ə) buyurur: “Qiyamət günü Allahın hüzurunda bəndədən ilk növbədə vacib namazlardan, vacib zəkatlardan, vacib oruclardan, vacib həccdən və bizim vilayətimizdən soruşulacaq. Hər kəs bizim vilayətimizi qəbul edib dünyadan (o halda da) gedərsə, onun namazı, orucu, zəkatı və həcci də qəbul olacaq. Bizim vilayətimizi qəbul etməyən şəxsin əməllərindən heç bir şeyi Allah qəbul etməyəcək.”[1]

Zürarə deyir: “İmam Baqir(ə) buyurdu:

بُنِيَ الإِسْلامُ عَلَى خَمْسَةِ أَشْيَاءَ: عَلَى الصَّلاةِ وَالزَّكَاةِ وَالْحَجِّ وَالصَّوْمِ وَالْوَلايَةِ.

قَالَ زُرَارَةُ فَقُلْتُ: وَأَيُّ شَيْءٍ مِنْ ذَلِكَ أَفْضَلُ؟

فَقَالَ الْوَلايَةُ أَفْضَلُ لأَنَّهَا مِفْتَاحُهُنَّ وَالْوَالِي هُوَ الدَّلِيلُ عَلَيْهِنَّ...

[1] Biharül-ənvar, 83-cü cild, səh.10.

ثُمَّ قَالَ ذِرْوَةُ الأَمْرِ وَسَنَامُهُ وَمِفْتَاحُهُ وَبَابُ الأَشْيَاءِ وَرِضَا الرَّحْمَنِ الطَّاعَةُ لِلإِمَامِ بَعْدَ مَعْرِفَتِهِ إِنَّ اللهَ عَزَّ وَجَلَّ يَقُولُ مَنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطاعَ اللهَ وَمَنْ تَوَلَّى فَما أَرْسَلْناكَ عَلَيْهِمْ حَفِيظاً

أَمَا لَوْ أَنَّ رَجُلاً قَامَ لَيْلَهُ وَصَامَ نَهَارَهُ وَتَصَدَّقَ بِجَمِيعِ مَالِهِ وَحَجَّ جَمِيعَ دَهْرِهِ وَلَمْ يَعْرِفْ وَلايَةَ وَلِيِّ اللهِ فَيُوَالِيَهُ وَيَكُونَ جَمِيعُ أَعْمَالِهِ بِدَلالَتِهِ إِلَيْهِ مَا كَانَ لَهُ عَلَى اللهِ جَلَّ وَعَزَّ حَقٌّ فِي ثَوَابِهِ وَلا كَانَ مِنْ أَهْلِ الإِيمَانِ...

-İslam beş şeyin (sütunun) üzərində qurulmuşdur: Namaz, zəkat, həcc, oruc və vilayət. Zürarə deyir: Soruşdum: Bunlardan hansı üstündür? Həzrət(ə) buyurdu: Vilayət (bunların hamısından) fəzilətli və üstündür. Çünki vilayət onların açarıdır. Rəhbər də onların göstəricisidir. (Peyğəmbərin(s) canişinləri bütün bu məsələlərin yollarını insanlara göstərirlər.)

Sonra Həzrət(ə) belə buyurdu: Bu məsələnin zirvəsi və hər bir şeyin böyük rüknü (sütunu), açarı, qapısı və Allahın rizayəti imamı tanıdıqdan sonra ona itaət etməkdir. Allah-təala buyurmuşdur: “Allahın peyğəmbərinə itaət edən kəs əslində Allaha itaət edib və kim üz döndərsə, Biz səni onların (əməlləri) üzərində gözətçi göndərməmişik.”

Amma əgər bir insan gecələri səhərə qədər (oyaq qalıb) ibadət etsə, gündüzlər oruc tutsa, bütün malını Allah yolunda sədəqə versə, ömrü boyu həccə getsə, Allahın yer üzündə təyin etdiyi imamın (rəhbrəin) vilayətini tanımasa, özünə rəhbər tutmasa, etdiyi bütün bu əməllərə görə Allah

yanında heç bir savaba nail olmayacaq. Və bu insan (müsəlman olmasına baxmayaraq) iman əhli deyil.[1]

Odur ki, insanlar bu məsələdə çox diqqətli olmalıdırlar. Allah-təala Peyğəmbər(s) və Əhli-beyti(ə) yer üzündə höccət və imam qərar verib. Onları qəbul etmədən, onlara itaət etmədən ibadət etməyin Allah yanında heç bir savabı olmayacaqdır. Qurani-Kərimdə açıq-aydın şəkildə bəyan olunur ki, Peyğəmbərə(s) itaət etmək Allaha itaət etməkdir. Dəfələrlə qeyd olunmuşdur ki, Peyğəmbər(s) heç vaxt özündən söz deməyib və hər nə buyurubsa Allahın ona vəhy etdikləri olub. Belə olduqda Peyğəmbər(s) də özündən sonra yer üzündə imam təyin etmişdir. Əgər Peyğəmbər(s) təyin edirsə, deməli Allah təyin edir. Bundan əlavə, İslamda heç bir firqə bu məsələni inkar etmir.

Hamı bilir ki, Peyğəmbər(s) özündən sonra Həzrət Əlini(ə) insanlara tapşırıb və onu təyin etmişdir. Hamı bu məsələni qəbul edir, bəziləri isə Peyğəmbərin(s) Həzrət Əlini(ə) insanlara rəhbər təyin etdiyini inkar etməsələr də, bir "amma" kəlməsi ilə insanları çaşdırmaq istəyirlər. Ancaq Peyğəmbərin(s) bir canişin təyin etməsinin heç bir "amma"sı yoxdur. Yəni bu hamıya çox aydın olan məsələlərdəndir. Bu məsələyə "amma" kəlməsini əlavə etmək isə artıq şeytanın sözüdür. Həzrət Peyğəmbər(s) dəfələrlə buyurmuşdur: "Mən sizin aranızda iki əmanət qoyub gedirəm: Biri Allahın kitabı olan Quran, digəri isə itrətim və əhli-beytimdir."

Əbu Carud kor bir kişi idi. Günlərin birində İmam Baqirin(ə) hüzuruna gəlib dedi: "Ey Allahın höccəti, sənin

---

[1] Üsuli-kafi, 3-cü cild, səh.30.

mənim halımdan xəbərin var. Bilirsən ki, gözlərim görmür və tez-tez sənin yanına gəlib hüzurundan istifadə edə bilmirəm. Sənin yanına bir məsələ üçün gəlmişəm. Ürəyimin arxayınçılıq tapması üçün istəyirəm ki, mənə bir məsələni ətraflı başa salasan. Həzrət(ə) buyurdu: Narahat olma, sualını buyur: Əbu Carud dedi: Sizin və ailənizin Allaha ibadət etdiyiniz din və əqidə hansıdır? İstərdim bu dini mənə başa salasınız ki, mən də Allaha elə ibadət edim.”

قالَ: إِنْ كُنْتَ أَقْصَرْتَ الْخُطْبَةَ فَقَدْ أَعْظَمْتَ الْمَسْأَلَةَ، واللهِ لَأُعْطِيَنَّك دِيني وَدينَ آبائِيَ الَّذي نَدينُ اللهَ عَزَّوَجَلَّ بِهِ : شَهادَةَ أَنْ لا إِلهَ إِلاّ اللهُ، وَأَنَّ مُحَمَّداً رَسُولُ اللهِ صلّى الله عليه وآله وسلم، وَالْإِقْرارَ بِما جاءَ بِهِ مِنْ عِنْدِ اللهِ، وَالْوَلايَةَ لِوَلِّينا وَالْبَراءَةَ مِنْ عَدُوِّنا، وَالتَّسْليمَ لِأَمْرِنا، وَانْتِظارَ قائِمِنا، والاِجْتِهادَ وَالْوَرَعَ

-İmam Baqir(ə) buyurdu: “Qısa danışmaqla böyük məsələyə toxundun. Allaha and olsun ki, mənim və ata babalarımın ibadət etdikləri din haqqında səni xəbərdar edəcəyəm. (Bu din odur ki, insan) Allahdan başqa heç bir məbudun olmadığına şəhadət versin. Məhəmmədin(s) Allah tərəfindən göndərildiyinə inanıb şəhadət versin. Onun Allah tərəfindən gətirdiyinə (Quran və hökmlərə) inansın. Allah tərəfindən təyin olunan vəlilərin (imamların) vilayətini qəbul etsin və onların düşmənlərindən uzaq olsun (acığı gəlsin). Allahın (bu)

əmri qarşısında təslim olsun. Bizim sonuncu İmamın(ə.s) intizarında olsun və bu yolda çalışıb təqvalı olsun."[1]

Bu hədisdən də görürük ki, əgər bir insan bu xüsusiyyətlərə malik olsa, onun dini və imanı Peyğəmbərin(s) gətirdiyi və əmr etdiyi dindir. Deməli, insanın dininin və imanının kamilliyi Peyğəmbərin(s) təyin etdiyi canişinin vilayətini qəbul etmiş olması ilə bağlıdır. Burada çox yaxşı olar ki, İmam Sadiqin(ə) mövzu ilə bağlı olan ətraflı bir hədisinə diqqət yetirək.

Bir nəfər Həzrətdən(ə) soruşdu: "İslamla imanın fərqi nədir? İmam Sadiq(ə) buyurdu:

اَلإِسلامُ هُوَ الظَّاهِرُ الَّذِى عَلَيهِ النَّاس شَهَادَةُ اَن لا اِله اِلاّ الله وَحْدَهُ لاَ شَرِيكَ لَه وَ اَنَّ مُحَمَّدًا عَبدُهُ وَ رَسُولُه وَ اِقَام الصَّلاة وَ اِيتَاءُ الزَّكَاه وَ حَجُّ البَيت وَصِيَامَ شَهرُ رَمضَان فَهَذا الإِسلام

-İslam odur ki, insanlar zahirdə Allahdan başqa heç bir məbud olmadığına və Onun vəhdaniyyətinə, heç bir şəriki olmadığına, Məhəmmədin(s) onun əbdi və elçisi olmasına şəhadət versin. Namaz qılsın, zəkat versin, həccə getsin, ramazan ayının orucunu tutsun. Bu İslamdır."

قَالَ: اَلإِيمَان مَعرِفَةُ هَذا الاَمر مَع هَذا فَان اَقر بِها وَلَم يعرف هَذا الاَمر كَانَ مُسلِماً وَ كَانَ ضَالاً

Sonra Həzrət(ə) buyurdu: "İman isə vilayəti tanıyıb qəbul etməkdir. Bu şərtlə ki, İslamın zahirinə əməl etsin. (İslamın hökmlərini yerinə yetirsin)."[2]

---

[1] Üsuli-kafi,3-cü cild, səh.35.
[2] Üsuli-kafi, 3-cü cild, səh.29.

İmam Rza(ə) bu məsələyə aydınlıq gətirərək buyurur:

لا تَدْعُوا الْعَمَلَ الصّالِحَ وَ الأْ ِجْتِهادَ فِى الْعِبادَةِ إِتِّكالاً عَلى حُبِّ آلِ مُحَمَّد(عليهم السلام) وَ لا تَدْعُوا حُبَّ آلِ مُحَمَّد(عليهم السلام)لاِ َمْرِهِمْ إِتِّكالاً عَلَى الْعِبادَةِ فَإِنَّهُ لا يُقْبَلُ أَحَدُهُما دُونَ الأْخَرِ

-Məbada Ali-Məhəmmədə(s) olan məhəbbətə istinad etməklə yaxşı əməlləri tərk edəsiniz! Məbada Ali-Məhəmmədə(s) olan məhəbbəti saleh əməllər xatirinə əldən verəsiniz! Çünki bunların ikisindən biri təklikdə qəbul olunmur.[1]

İmam Rzanın(ə) bu hədisi söhbətə yekun vuraraq bizi başa salır ki, əgər insan Peyğəmbər(s) və Əhli-beytin(ə) vilayətini qəbul edib əməlləri tərk etsə, Allah bu imanı qəbul etməz. Həmçinin İslamın hökmlərinə əməl edib Peyğəmbər(s) və Əhli-beytin(ə) vilayətini qəbul etməyən şəxsin əməlləri də qəbul olunmayacaqdır. Əgər insan imanının həqiqi iman olmasını istəyirsə, mütləq həm vilayəti qəbul etməli, həm də Allahın qanunlarına riayət etməlidir. Həzrət Peyğəmbər(s) özündən sonra insanlar üçün iki şeyi əmanət qoyub getmişdir. Onlardan biri Quran, biri isə itrətidir (Əhli-beytidir). Əgər insan Əhli-beytin(ə) vilayətini qəbul edib Quranın hökmlərinə riayət etməsə, o, sadəcə olaraq müsəlmandır. Həmçinin Quranın hökmlərinə riayət edib Əhli-beytin(ə) vilayətini qəbul etməsə, yenə də sadəcə olaraq müsəlmandır. İman isə odur

[1] Biharül-ənvar,78-ci cild, səh.347.

ki, insan həm Əhli-beytin(ə) vilayətini qəbul etsin, həm də Quranın hökmlərinə riayət etsin.

Belə olduqda öncə haqqında danışdığımız ayənin mənası belə olar: “Ey iman gətirənlər! (Həm Peyğəmbərin(s) Əhli-beytinin vilayətinə, həm də Quranın hökmlərinə) iman gətirin!”

## Quran və hədislər baxımından imanın mərhələləri

Yuxarıda İslamla imanın fərqi və mənaları ilə tanış olduq. Bu bəhsdə çox yaxşı olar ki, imanın mərhələlərinə diqqət yetirək. Quran və hədislər baxımından imanın üç mərhələsi var.

### 1. Dildə və sözdə iman gətirmək

Deməli, birinci mərhələ budur ki, insan dildə iman gətirir. İslamın hər bir ehkamından söz açıldıqda bu insan ola bilsin ki, gözəl nitqlər də edir. Allahı sevdiyindən, yaxud Allahın onu çox sevdiyindən danışır və (Allaha qurban olum. Allahı çox sevirəm. Peyğəmbərə qurban olum və s. kimi sözlərlə) özünü Allahın sevimli bəndəsi kimi göstərir. Onun bu imanı sadəcə olaraq dildədir. Əmələ gəldikdə isə Quranın hökmlərinin heç birinə əməl etmir, yaxud bəzisinə əməl edib, bəzisinə isə əməl etmir. “Həcc” surəsinin 11-ci ayəsində bu barədə belə oxuyuruq:

وَمِنَ النَّاسِ مَن يَعْبُدُ اللَّهَ عَلَى حَرْفٍ فَإِنْ أَصَابَهُ خَيْرٌ اطْمَأَنَّ بِهِ وَإِنْ أَصَابَتْهُ فِتْنَةٌ انقَلَبَ عَلَى وَجْهِهِ خَسِرَ الدُّنْيَا وَالْآخِرَةَ ذَلِكَ هُوَ الْخُسْرَانُ الْمُبِينُ

-İnsanlardan eləsi də vardır ki, Allaha dildə (sözdə) ibadət edər. Əgər ona bir xeyir toxunsa, (din barəsində) arxayın olar (İslamdan möhkəm yapışar). Yox, əgər ona bir bəla (müsibət) üz verərsə, simasını dəyişər (İslamdan üz döndərib yenə küfrə qayıdar). Beləsi dünyada da ziyan çəkər, axirətdə də. Açıq-aşkar ziyan budur, bu![1]

Bu ayədə dildə iman gətirənlər haqda açıq-aydın söz açılmışdır. Dildə iman gətirən insanlara bu yolda maddi bir xeyir gəldikdə dindən möhkəm yapışırlar. Əgər bu yolda azacıq maddi çətinliyə düşsələr və ya kiçik bir imtahanla qarşılaşsalar o zaman dindən üz döndərirlər. İmanı güclü olan insanlar Allah yolunda canlarından, qanlarından, mallarından və başlarından keçməyə belə razıdırlar. Lakin dildə iman gətirən insanlar bu yolda heç bir şeydən keçməyə razı olmazlar. Yəni nəinki başlarından, heç başlarının tükündən belə keçmək istəməzlər. Məsələn, həcc ziyarətində müxtəlif vacib məsələlər vardır ki, onlardan biri də başı keçəl qırxdırmaqdır. Birinci dəfə həcc ziyarətinə gedənlər mütləq bu işi görməlidirlər. Bəzən elə insanlarla rastlaşırıq ki, başlarını qırxdırmamaq üçün müxtəlif bəhanələr axtarırlar. Ora elə bir yerdir ki, Həzrət İsmayıl(s) orada öz başından keçmişdir. Biz ora ona görə gedirik ki, Həzrət İsmayıldan(s) Allah yolunda başımızdan keçməyi öyrənək.

Buna görə də ayədə buyurulur ki, “əgər ona bir bəla (müsibət və ya çətinlik) üz verərsə, simasını dəyişər.” Çətinliyə düşdükdə isə elə bil həmin İslam, Quran, Peyğəmbər(s) və şəriət haqqında sözləri deyən adam deyil. Onların bütün danışdıqları boş sözlərdən başqa bir şey

---

[1] Həcc surəsi, ayə 11.

deyildir. Onlar İslamı sadəcə olaraq danışıqlarda qəbul etmişlər. İslamda azacıq çətinliyə və zəhmətə düşən kimi isə ondan üz döndərirlər. Ayənin axırında belə insanların həm dünyada, həm də axirətdə ziyan içində olduqları bəyan edilir.

İmam Hüseyn(ə) bu barədə belə buyurur:

وَالنّاسُ عَبيدُ الدُّنْيا وَالدِّينُ لَعِقٌ عَلَى اَلْسِنَتِهِم يَحُوطُونَهُ ما دَرَّت مَعايِشُهُم فَإِذا مُحِصُوا بِالبَلاءِ قَلَّ الدَّيّانُون

-İnsanlar dünyanın quludur. Dini də dillərinin əzbəri etmişlər. (Yalnız dillərində Allahı və dini tanıyırlar, əməldə isə Allahın heç bir hökmünə əməl etmirlər.) Din barədə ona görə danışırlar ki, onların dünyaları və qazancları bu yolla təmin olunur. Amma dünyalarının və qazanclarının azacıq təhlükəyə düşdüyünü və bəla ilə üzləşdiklərini hiss etdikdə hamısı dindən üz döndərir. Belə bir halda sadiq dindarlar çox az qalır.

Allah-təala "Məaric" surəsində belə buyurur:

إِنَّ الْإِنسَانَ خُلِقَ هَلُوعًا. إِذَا مَسَّهُ الشَّرُّ جَزُوعًا. وَإِذَا مَسَّهُ الْخَيْرُ مَنُوعًا

-Həqiqətən, insan (sərvətə) çox həris (tamahkar və kəmhövsələ) yaradılmışdır. (Əgər Allaha qəlbən imanı olmazsa) Ona bir pislik üz verdikdə fəryad qoparar. Ona bir xeyir nəsib olduqda isə xəsislik edər.[1]

İmanın bu mərhələsinin insana heç bir faydası yoxdur. Yəni "Dildə müsəlmanam, Allaha qurban olum" - deməklə insan səadətə çatmaz.

---

[1] Məaric surəsi, ayə 19-21.

**2. Əqli dəlillərlə iman gətirmək**

İmanın ikinci mərhələsi odur ki, insan məntiq, elm və əqli dəlillər vasitəsilə Allahı, Peyğəmbəri(s), İslamı, bir sözlə desək, əqidə əsaslarını qəbul etsin. İslam dininin həqiqəti və əsasları ağıl vasitəsilə, məntiq, elm və fəlsəfə əsasında öyrənilməlidir. İslam dini də bu məsələni təsdiq edir və dinin əsas prinsiplərində təqlid etməyi haram bilir. Yəni elmdə təqlid etmək vacib, əqli məsələlərdə isə haramdır. Çünki əgər insan Allahı qəbul edirsə, bunu ağlın vasitəsilə qəbul edir. Əgər bir insan Peyğəmbərə(s) iman gətirirsə, ağlı ilə qəbul edib iman gətirir. Yaradılışın yaradanını, ölməyi, ölümdən sonrakı həyatı, qiyaməti, insanların məhşərə gələcəyini insan öz ağlı ilə sübuta yetirməlidir. Yəni bunlar elə məsələlərdir ki, insan əqli dəlillərə söykənərək onlara iman gətirməlidir.

Hədislərdə deyilir ki, günlərin birində Həzrət Peyğəmbər(s) əlində cəhrə yundan ip əyirən savadsız bir qarını gördü. Həzrət(s) ona yaxınlaşıb soruşdu: "Sən Allahın varlığını necə başa düşürsən? Qarı işlətdiyi cəhrədən əlini çəkdi, cəhrə dayandı. Sonra üzünü Peyğəmbərə(s) tutub dedi: Ya Rəsulallah, bu kiçik bir cəhrədir, bunun hərəkətə gəlməsi mənim vasitəmlə baş verir. Mən əlimi onun dəstəyindən çəkən kimi dayanır. Bu kiçik cəhrəni hərəkətə gətirən mənəm, əgər bu taxta parçasını mən fırlatmasam, heç bir vaxt fırlanmaz. Belə olduqda necə ola bilər ki, bu böyüklükdə kainat özbaşına hərəkət etsin? Mən yəqin bilirəm ki, bu kainatı hərəkətə gətirən bir qüvvə var və bu qüvvəyə Allah deyirəm. Həzrət Peyğəmbər(s) üzünü səhabələrinə tərəf tutub buyurdu: Mən sizlərin də bu qoca arvadın əqidəsi kimi (sübut və dəlillərlə) belə bir əqidəyə malik olmağınızı istəyirəm."

Odur ki, insan öz əqidəsini əqli dəlillər vasitəsilə sübuta çatdırmalıdır. Dində əqli məsələlərdə təqlid etmək olmaz. Məsələn, Allahın varlığı barədə insanın hansısa alim və müctəhidi təqlid etməsi batil və haramdır. Çünki bu məsələ ağıla aid olan bir məsələdir. Elmə aid olan məsələlərdə isə insan təqlid etməlidir. Təqlidin mənasını bilməyib tənqid edən insanlar cahillik və nadanlıqlarına görə tənqid edirlər. Təqlid elmin bütün sahələrində ola bilər. Elmin bütün sahələrində hamımız təqlid edirik. Şəriət elmlərində təqlid edərkən dildə "Filan müctəhidə təqlid edirəm, qürbətən iləllah" deyirik.

Lakin tikinti işlərində "Filan mühəndisə təqlid edirəm" sözünü işlətmədiyimizə görə bəziləri elə başa düşürlər ki, bu təqlid deyil. Halbuki tikinti işlərində çalışanların hamısı mühəndisin sözünə əsasən işləyirlər. Məsələn, mühəndis işçiləri başa salır ki, filan yeri beş metr qazmaq lazımdır. Yaxud filan yer qazıldıqda su çıxacaq və ya filan yerdə inşaat ilərini aparmaq olmaz və s. Əgər həkim xəstəyə yağ yeməyi qadağan edirsə, xəstə də onun sözünə qulaq asırsa, buna da təqlid deyilir. Əgər bir insan xəstəlikdən çox əziyyət çəkirsə, həkim ona duz yeməyi qadağan edirsə, nə üçün həmin xəstə həkimin bu məsləhətinə qulaq asır? Çünki əgər qulaq asmasa, xəstəliyi və ağrıları daha da artacaq. Buna görə də həkimin sözünə qulaq asır və onu təqlid edir. Əgər həkim xəstəyə dərman yazırsa, xəstənin həmin göstərişə əməl etməsinə də təqlid deyilir. Şəriət (fiqh) elmində də bu sahənin mütəxəssisi olan müctəhid adamlara dəstəmazın, qüslün, namazın, orucun, həccin, xümsün, zəkatın və bütün hökmlərin qaydasını öyrədir. İnsanın bunlara əməl etməsinə təqlid deyilir.

Əsas sözümüz budur ki, elmi sahələrdə təqlid etmək olar, lakin əqidə əsaslarında, əqli məsələlərdə təqlid etmək olmaz. Təqlid o yerlərdədir ki, insan onu ağlı ilə başa düşə bilmir. Belə olduqda mütləq kiməsə təqlid etməlidir. Məsələn, bir xəstə həkimin göstərişi olmadan hansı dərmandan istifadə edib-etməyəcəyini bilmir. Əgər bir ay da fikirləşsə yenə tapa bilməyəcək ki, hansı dərmandan istifadə etsin. Həkim müayinə etdikdən sonra deyə bilər ki, onda hansı xəstəlikdir və hansı tədbirləri görmək lazımdır. Buna görə də mütləq müalicə olunmaq üçün həkimin göstərişinə uyğun olan dərmanlardan istifadə etməlidir.

Quran ayələrinə nəzər saldıqda da görürük ki, bu məsələlərə işarə edilir və dəlil-sübutlarla insanların gözünü açmağa çalışılır. “İbrahim” surəsinin 10-cu ayəsində belə buyurulur:

أَفِي اللّهِ شَكٌّ فَاطِرِ السَّمَاوَاتِ وَالأَرْضِ

-Məgər göyləri və yeri yaradan Allaha da şəkk-şübhə etmək olarmı?

Allah-təala bu ayədə insanların fikrini aləmləri yaradanı tanımağa yönəldir. Yəni insan yerin və göylərin yaradılışına, nizam-intizamına baxmaqla və bu barədə yaxşıca düşünməklə yaradanın varlığına iman gətirə bilir.

Bir münəccimin dostu Allahın varlığına inanmırdı. Həmin münəccim Allaha iman gətirmişdi, ancaq öz dostunu nə qədər başa salırdısa, yenə də Allahın varlığını qəbul etmək istəmirdi. İddia edirdi ki, bu kainat öz-özünə yaranmışdır. Sonra münəccim özünün düzəltdiyi süni günəş sisteminin kiçik maketini dostuna göstərdi. Onun düzəltdiyi bu maket elektrik cərəyanı ilə işləyirdi. O, elektrik açarını qoşduqda düzəltdiyi kiçik maket işləməyə

və planetlər günəşin ətrafında hərəkət etməyə başladı. Bu maket dostunun çox xoşuna gəldi və təəccüblə soruşdu: Bunu kim düzəldib? Münəccim dedi: Bunu heç bir kəs düzəltməyib, öz-özünə yaranıb. Dostu elə bildi ki, onu ələ salır. Dedi: Sən məni ələ salırsan? Necə ola bilər ki, bu öz-özünə düzəlsin? Münəccim dedi: Bunu sən deyirsən. Çünki sən kiçik bir maketin öz-özünə yaranmasını inkar edirsən. Lakin necə ola bilər ki, bu böyüklükdə kainat öz-özünə yaransın və sən bu böyüklükdə kainatı yaradan Allahı qəbul etmirsən?

Allah-təala "Qiyamət" surəsində buyurur:

لَا أُقْسِمُ بِيَوْمِ الْقِيَامَةِ وَلَا أُقْسِمُ بِالنَّفْسِ اللَّوَّامَةِ أَيَحْسَبُ الْإِنسَانُ أَلَّن نَّجْمَعَ عِظَامَهُ بَلَى قَادِرِينَ عَلَى أَن نُّسَوِّيَ بَنَانَهُ

-And içirəm qiyamət gününə; And içirəm (günah etdiyi üçün, yaxud əməlim azdır deyərək) özünü qınayan nəfsə! (Siz öləndən sonra mütləq diriləcəksiniz!) Məgər insan elə güman edir ki, (qiyamət günü) onun sümüklərini bir yerə yığa bilməyəcəyik?! Bəli, Biz onun barmaqlarını da (barmaqlarının uclarını da) düzəltməyə qadirik.[1]

Bu ayənin bir mənasından belə başa düşürük ki, Adəmdən bu günə qədər və bundan sonra gələcək insanların barmaqları (izləri) bir-birindən fərqlidir. Dünyada barmaqlarının izlərinin eyni olduğu iki insan tapmaq mümkün deyil. Odur ki, Allah-təala ayədə insanları başa salır ki, qiyamət günü bütün insanları barmaqlarının ucuna qədər yaradacaq. Bu kimi ayələr insanın ağlını Allahı tanımağa və iman gətirməyə şərait yaradır və insanı öyrədir.

[1] Qiyamət surəsi, ayə 1-4.

Burada qarşıya belə bir sual çıxır: İnsanın ağlı və məntiqi vasitəsilə yaranan bu imanın gücü nə qədərdir? Yəni bu iman insanı nə dərəcədə nəzarətdə saxlaya bilir? Cavab olaraq demək olar ki, ağıl vasitəsilə yaranan iman adi halda insanı idarə edə bilir. Lakin nəfsani istəklər coşduqda, yaxud xəlvətdə bu iman insanı günahlardan qorumaqda acizdir. Bunu daha aydın başa düşmək üçün bir misala diqqət yetirək. Məsələn, bir nəfər dünyasını dəyişir. Camaat onun ətrafına yığışır. Həkim gəlib müayinə etdikdən sonra onun bir neçə saat bundan əvvəl öldüyünü bildirir. Hansısa səbəblərə görə həmin cənazəni bir neçə gün ölüxananın soyuducusunda saxlayırlar. Onun barəsində camaatdan sorğu keçirilsə ki, o, bu halda kiməsə ziyan verə bilərmi? Yaxud onun ayağa qalxıb kiməsə bir söz deməyə qüdrəti varmı? Hamı yekdilliklə deyir: Xeyr. Bir ölünün danışmaq, ayağa qalxmaq, kiməsə ziyan verməyə qüdrəti olmayan həmin cənazəsini götürmək lazım gəldikdə isə həmin "xeyr" söyləyən insanların bəzisi ona yaxın düşməyə qorxur. Lakin bəzisi isə ürəklə onun cənazəsini götürüb aparır. Həmin cənazədən qorxanla qorxmayanın fərqi nədədir? Fərq bundadır ki, qorxan insan öz ağlı ilə onun həqiqətən də öldüyünü bilir, lakin ürəkdən buna inanmır. Qorxmayan insan isə həm ağlı ilə qəbul edir, həm də ürəkdən inanır ki, bu şəxs ölüb və heç kəsə bir xətəri toxunmayacaq.

Tarixi mənbələrdə yazılmışdır ki, müharibələrdən birində bir nəfər gənc sərkərdə öz qoşunu ilə düşmənə hücum çəkib onları məğlub etdikdən sonra çadırına qayıdıb iki rükət namaz qıldı və Allahla belə münacat etməyə başladı: "İlahi, mən Sənin köməyinlə düşməni məğlub etməyi bacardım. Lakin öz daxilimdə olan düşməni (nəfsani qüvvələri) məğlub edə bilmədim. Ey

mənim Rəbbim! Nəfsani istəklərimi məğlub etməkdə mənə kömək et!”

Dildə imanı olan insanın gücü heç bir şeyə çatmaz. İnsanın ağlı ilə yaranan iman adi şəraitdə müəyyən qədər onu nəzarətdə saxlaya bilir. Lakin nəfs tüğyan etdiyi zaman, yaxud xəlvətdə bu iman insanı qoruyub saxlaya bilmir.

Vəlid ibn Müğeyrə Məkkədə tanınmış fəsahətli və bəlağətli bir şəxs idi. O, Qüreyş tayfasının içində ərəb ədəbiyyatını çox gözəl bilən bir şəxs idi. Və camaat onu “Reyhanətül-ədəb” - “Ədəbiyyatın gülü” deyə çağırırdılar. Vəlid ibn Müğeyrə elə bir insan idi ki, onun qələmindən və dilindən ədəbiyyat süzülürdü.

Məscidül-həramda “Səcdə” surəsi nazil olarkən Həzrət Peyğəmbər(s) həmin surəni camaata oxudu. Vəlid ədəbiyyatşünas olduğundan bu surəni eşitdikdə ondan çox böyük zövq aldı. Darün-nədvəyə öz qövmünün yanına gəlib dedi: “And olsun Allaha ki, Abdullahın oğlundan eşitdiyim sözlər nə insanların, nə də cinlərin sözünə oxşamır. İndiyə qədər belə sözlər eşitməmişdim. Onun sözlərinin xüsusi şirinliyi və gözəlliyi vardır. Onun sözlərinin meyvəli budaqları və möhkəm kökləri var. Onun sözləri bütün insanların sözlərindən üstün və dəyərlidir. O sözlər bütün sözlərdən üstündür. Heç bir söz bu sözlərdən üstün ola bilməz.”

Vəlid bu sözləri deyəndən sonra öz evinə qayıtdı. Onun tayfasındakı adamlar bir-birinin üzünə baxıb dedilər: “Deyəsən, Məhəmmədin sözləri Vəlidin qəlbinə təsir göstərib. Əgər Vəlid ona tabe olarsa, biz məğlub olacağıq.” Əbu Cəhl Vəlidin qardaşı oğlu idi. O, Vəlidi yola gətirməyi boynuna aldı və dedi: “Mən buna bir əlac edərəm.” Bu sözləri deyib Vəlidin evinə gəldi və özünü

ona çox narahat göstərdi. Vəlid onun nə üçün belə narahat olduğunu soruşduqda Əbu Cəhl dedi: “Mənim narahatlığım budur ki, camaat sənin barəndə bəzi sözlər deyirlər. Biz də camaatın sənin barəndə dediyi sözlərdən çox narahat oluruq.” Vəlid soruşdu: “Camaat mənim barəmdə hansı sözləri danışır?” Əbu Cəhl dedi: “Camaat arasında söz gəzir ki, Vəlid qoca bir adamdır və Abdullahın oğlu ona bir vəzifə, şan-şöhrət versin deyə İslamı qəbul etmək istəyir.” Əbu Cəhl bu kimi sözlərlə Vəlidə təsir göstərmək istəyirdi. O, bu sözləri deyib çıxdıqdan sonra Vəlidin daxilindəki nəfsani qüvvələr baş qaldırıb tüğyan etdi. Onda belə bir hal yarandıqda öz yolundan və fikrindən dönərək gəlib qəzəblə dedi: “Siz Məhəmmədin dəli olduğunu güman edirsiniz?! Dedilər: Xeyr. Vəlid dedi: Siz güman edirsiniz ki, Məhəmməd kahindir?! Dedilər: Xeyr. Vəlid dedi: Siz Məhəmmədin şair olduğunu güman edirsiniz?! Dedilər: Xeyr. Vəlid dedi: Siz elə bilirsiniz ki, Məhəmməd yalançıdır?! Dedilər: Xeyr. Əgər belədirsə, onda sən özün onun barəsində nə fikirləşirsən? Vəlid bir az fikirləşdikdən sonra üzünü turşudaraq qəzəblə dedi: Mənə belə gəlir ki, Məhəmməd yalnız bir cadugərdir. Çünki o, bütün ailələr arasında ayrılıq salıb.”

Bu hadisədən sonra Allah-təala onun barəsində “Müddəssir” surəsinin 11-26-cı ayələrini nazil etdi.

ذَرْنِي وَمَنْ خَلَقْتُ وَحِيدًا. وَجَعَلْتُ لَهُ مَالًا مَّمْدُودًا. وَبَنِينَ شُهُودًا.
وَمَهَّدتُّ لَهُ تَمْهِيدًا. ثُمَّ يَطْمَعُ أَنْ أَزِيدَ. كَلَّا إِنَّهُ كَانَ لِآيَاتِنَا عَنِيدًا.
سَأُرْهِقُهُ صَعُودًا. إِنَّهُ فَكَّرَ وَقَدَّرَ. فَقُتِلَ كَيْفَ قَدَّرَ. ثُمَّ قُتِلَ كَيْفَ

قَدَّرَ. ثُمَّ نَظَرَ. ثُمَّ عَبَسَ وَبَسَرَ. ثُمَّ أَدْبَرَ وَاسْتَكْبَرَ. فَقَالَ إِنْ هَذَا إِلَّا سِحْرٌ يُؤْثَرُ. إِنْ هَذَا إِلَّا قَوْلُ الْبَشَرِ. سَأُصْلِيهِ سَقَرَ.

-(Ya Peyğəmbər!) Məni Öz yaratdığım kimsə ilə tək burax! (Vəlid ibn Müğeyrə kimi kafirin cəzası yalnız Mənim öhdəmdədir!). Mən ona bolluca mal-dövlət əta etdim; Yanında hazır duran oğullar (verdim); Ona hər şeyi artıqlaması ilə müyəssər etdim (sərvət və mənsəbi ayağının altına döşədim). (Bütün bunlardan) sonra yenə də (var-dövlətini) artırmağımı istəyir. Xeyr (bu ola bilməz). Çünki o, ayələrimizə qarşı inadkar oldu. Mən onu məşəqqətli bir əzaba düçar edəcəyəm! O (Quran barəsində) fikirləşdi və (orada deyilənləri öz fikrində) ölçdü-biçdi. Ölüm olsun ona! Necə ölçdü-biçdi? Bir də ölüm olsun! Necə ölçdü-biçdi? Sonra (qövmünün üzünə) baxdı. Sonra üz-gözünü turşutdu, qaş-qabağını tökdü. Sonra da (imandan) üz çevirdi. (Peyğəmbərə tabe olmağa) təkəbbür göstərdi. Və dedi: Bu (sehrbazlardan) öyrənilən sehrdən başqa bir şey deyildir! Bu yalnız bəşər sözüdür! Biz onu Səqərə atacağıq. (Orada yandıracağıq).

Buradan da məlum olur ki, Vəlid Allah-təalanı elm və fəsahət cəhətdən qəbul etmişdir. Lakin onun qəlbində iman olmadığı üçün şeytan onu haqq yoldan azdırdı. Onun Quran haqqında ilk dediyi sözlər hara, sonra dediyi sözlər hara? Quran barədə deyirdi ki, indiyə qədər bu gözəllikdə sözlər eşitməmişəm. O, bu sözləri məntiq və ədəbiyyata əsaslanaraq deyirdi. Lakin nəfsi cuşa gəldikdən sonra söylədiyi sözləri inkar edərək dedi ki, bu yalnız bir bəşərin sehridir.

Beləcə biz görürük ki, insanı tam şəkildə və bütün hallarda yalnız qəlbdə olan iman qoruyub saxlaya bilər.

Ağılda olan iman nəfsani hisslərin coşub-daşdığı zaman insanı qoruya bilmir.

Məmun Harun ər-Rəşidin oğlu idi. O deyirdi ki, mən Musa ibn Cəfər (Museyi-Kazim) kimi İmama(ə) hörmət etməyi atam Harundan öyrənmişəm. Bir gün gördüm ki, İmam Musa ibn Cəfər(ə) bizə gəldi. Atam çox böyük hörmət və ehtiramla Həzrəti(ə) yuxarı başda əyləşdirdi və özü isə onun qarşısında çox ədəblə əyləşdi. Atam Həzrətin(ə) qarşısında şagird ustadın qarşısında əyləşdiyi kimi oturmuşdu. Atam onunla danışdıqda dili tez-tez dolaşır və həyəcanlanırdı. İlk dəfə idi ki, atamı belə bir halda görürdüm. Bir az söhbət etdikdən sonra İmam(ə) getməyə hazırlaşdı. Atam onu çox böyük hörmətlə yola saldı və qardaşım Əminə dedi ki, get, İmamı(ə) qapılarına qədər yola sal.

Bu hadisənin üstündən bir müddət keçəndən sonra atamdan soruşdum: "Ata, sənin əyləşdiyin bu xilafət məqamı kimindir?" Atam dedi: "Bütün bu səltənət və xilafətin hamısı Musa ibn Cəfərindir(ə)." Dedim: "Ata, onda bəs nəyə görə bu xilafəti öz sahibinə vermirsən?" Atam dedi: "Oğul, mal-dövlət və vəzifəpərəstlik çox şirin olur. Mən bilirəm ki, Musa ibn Cəfər(ə) Allahın höccəti və insanların imamıdır. Lakin bu mal-dölvətdən və səltənətdən əl çəkmərəm. Əgər bilsəm ki, sənin də mənim səltənət və xilafətimdə gözün var, səni də öldürərəm."

Harun bilirdi ki, əyləşdiyi bütün o səltənət və malik olduğu var-dövlət İmam Musa ibn Cəfərə(ə) məxsusdur. O, öz ağlı ilə bütün bunları dərk edirdi. Lakin vəzifədən keçə bilmirdi. Onların qəlbində imanları olmadığı üçün vəzifəpərəstlik şöhrətindən keçə bilmədilər. Buradan da görürük ki, ağılla, məntiqlə əmələ gələn iman insanı idarə edə bilmir.  İnsanı bütün hallarda - istər aşkarda, istərsə

xəlvətdə, yaxud istər böyük günahla, istərsə kiçik günahla qarşılaşdıqda qoruyub saxlayan onun qəlbindəki imandır.

**3. İnsanın qəlbində olan iman**

Bir qədər öncə imanın iki mərhələ və növü haqqında söhbət etdik. Qeyd olundu ki, dildə iman gətirməyin insana heç bir faydası yoxdur. Əqli dəlillər vasitəsilə iman gətirmək insanı adi halda günahdan saxlaya bilir, lakin xəlvətdə və nəfsin coşduğu zaman insanı çəkindirməyə qüdrəti çatmır. Çünki bu iman insanın ağlı vasitəsilə yaranmışdır. İnsanın daxilində şəhvət tüğyan etdikdə bu iman və mantiqin hamısını insanın beynindən çıxarır. Yəni şəhvət insanın ağlını əlindən alır. Ağıl əldən getdikdən sonra hansı qüvvə insanı günahdan, yaxud şəhvətdən xilas edə bilər? İnsanı hər bir halda nəzarətdə saxlayan yeganə amil onun qəlbində qərar tutan imandır.

Əgər insan bir şeyə ürəkdən iman gətirsə və yəqinliyə çatsa, onu heç bir şey yolundan azdıra bilməz. Əgər iman insanın qəlbinə daxil olarsa, bu iman insana bütün hallarda günahlardan nicat verər. Yusiflə(ə) Züleyxanın əhvalatına diqqət yetirdikdə bu məsələnin şahidi oluruq: Züleyxa bütün üstünə bir parça saldı. Yusif(ə) soruşdu: Niyə belə edirsən? Züleyxa dedi: Bütdən həya etdiyimə görə və bizi görməsin deyə üstünə parça saldım. Yusif(ə) dedi: Sən görməyi və eşitməyi bacarmayan bir bütdən həya etdiyin halda mən öz Allahımdan həya etməyimmi? Bu sözləri deyəndən sonra o, oradan qaçır və Züleyxa da arxadan onun paltarından tutmaq istəyir. Lakin Yusifin(ə) paltarının bir hissəsi cırılıb onun əlində qalır. Həzrət Yusifi(ə) orada günahdan qoruyan onun qəlbindəki Allaha imanı idi. Odur ki, əgər iman ürəyə daxil olsa, bu imanın insana faydası olacaqdır.

Buna görə də ayənin mənasını belə başa düşürük – “Ey dildə və ağılda iman gətirənlər! Allaha ürəkdən iman gətirin!”

Qəlbən iman gətirmək odur ki, iman insanın ürəyinə daxil olsun və yəqinlik hasil əldə etsin. Əgər insan Allaha ürəkdən iman gətirsə, heç bir vaxt şəkk-şübhəyə düşməz və tərəddüd etməz. Məsələn, fərz edək ki, bir nəfər Şamaxı yolunu dəfələrlə gedib gəlmişdir və bu yolu çox gözəl tanıyır. Həmin yolu gedərkən əgər bir nəfər ona desə ki, yolu səhv gedirsən, heç şübhəsiz, onun sözünə məhəl qoymayacaqdır. Çünki həmin yolun Şamaxı yolu olduğuna tam yəqinliyi var. Əgər min nəfər də ona yolu düz getmədiyini söyləsə, yenə də onların sözünə əhəmiyyət verməyəcək. Amma əgər həmin yola bələd olmasa və yolun Şamaxı yolu olmasına yəqinliyi olmasa, kiçik bir uşaq belə bura Şamaxı yolu deyil desə, elə oradaca dayanar və geri qayıdar.

قَالَ رَسُولُ اللهِ(ص): أَلا اِنَّ النّاسَ لَمَ يُؤتُوا فِي الدُّنْيا شَيئًا خَيرًا مِنَ الْيَقِين وَالعَافِيَة فَأَسأَلوهُمَا الله

-Həzrət Peyğəmbər(s) buyurur: “Həqiqətən, bu dünyada insanlara qəti inam və əmin-amanlıqdan xeyirli bir şey əta olunmayıb. Elə isə Allahdan bu iki şeyi diləyin.”[1]

قَالَ عَلِيّ(ع): اَسأَلُوا اللهَ اليَقِين وَارغَبُوا إِلَيه فِي العَاقِبَة وَ خَيرُ مَا دَارَ فِي القَلْبِ اَليَقِين

[1] Mizanül-hikmə (t.v.), 22598-ci hədis.

-Həzrət Əli(ə) buyurur: "Dualarınızda Allahdan qəti inam istəyin. Allahdan aqibətinizin xeyirli olmasını istəyin. İnsanın qəlbində dövrə vuran ən xeyirli şey qəti inamdır."[1]

Həzrət Əli(ə) oğlu İmam Həsənə(ə) etdiyi vəsiyyətində belə buyurur: "Qəlbini öyüd-nəsihətlə *(elm, hikmət və axirəti yada salmaqla)* dirilt, zahidliklə *(dünyaya ürək bağlamamaqla)* öldür, qəlbini möhkəm etiqad və inamla qüvvətləndir."[2]

Odur ki, əgər insanın qəlbinə möhkəm etiqad daxil olarsa, həmin ürək imanla dolar. Buna görə də insan qəlbində qəti inamın hasil olması üçün dua edib Allaha yalvarmalıdır. Namazlardan sonra oxunan müstəhəb dualardan biri belədir: "İlahi, əyri yolu düz yoldan ayırd etmək, İslamı olduğu kimi görə bilmək üçün mənim bəsirət gözümü aç. Qəlbimi möhkəm etiqadla doldur."

قَالَ الإِمَامُ الرِّضَا(ع): اَلإِيمَانُ فَوقَ الإِسْلام بِدَرَجَةٍ، وَالتَّقوَى فَوقَ الإِيمَان بِدَرَجَةٍ، وَاليَقِينُ فَوقَ التَّقوَى بِدَرَجَةٍ وَلَمَ يُقسَم بَينَ العِبَاد شَيءٌ أَقَلُّ مِنَ اليَقِين

-İmam Rza(ə) buyurur: "İman İslamdan bir dərəcə, təqva imandan bir dərəcə, möhkəm etiqad isə imandan bir dərəcə üstündür. İnsanlar, bəndələr arasında ən az bölünüb paylanan şey möhkəm etiqaddır."[3]

---

[1] Yenə orada, 22601-ci hədis.
[2] Nəhcül-bəlağə.
[3] Mizanül-hikmə (t.v.), 22937-ci hədis.
[2] Ələq surəsi, ayə 14.

## Qəti inamın təfsiri və mənası

Günlərin birində Cəbrayıl(ə) Həzrət Peyğəmbərin(s) hüzurunda idi. Peyğəmbər(s) ondan soruşdu: "Möhkəm etiqadın təfsiri və mənası nədir? Cəbrayıl(ə) ərz etdi:

اَلْمُوقِنُ يَعمَلُ لِلّه كَأَنَّهُ يَرَاهُ فَإِن لِم يَكُن يَرای الله فَإِنَّ الله يَراهُ

-Möhkəm etiqadı olan insan Allaha elə ibadət edir ki, elə bil Onu görür. Əgər o, Allahı görmürsə, bilir ki, Allah onu görür".

İnsan həmişə Allahın onun bütün əməl və hərəkətlərini gördüyünü başa düşməlidir. Bu, möhkəm etiqadın birinci əlaməti və nişanəsidir. Buna işarə olaraq Allah-təala belə buyurur:

أَ لَمْ يَعْلَمْ بِأَنَّ اللَّهَ يَرَى

-Məgər (insan) bilmir ki, Allah (onun bütün əməllərini) görür?![2]

Günlərin birində Əbu Cəhl öz tayfasındakı adamlardan soruşdu: "Görəsən, Abdullahın oğlu gətirdiyi bu dində səcdə edirmi? Dedilər: Abdullahın oğlu hər gün dəfələrlə Allahı qarşısında səcdə edir. Əbu Cəhl dedi: Elə isə mən onun işini səcdədə bitirəcəyəm." O, Məscidül-harama gedib Peyğəmbərin(s) gəlməsini gözlədi. Peyğəmbər(s) gəlib namaza başladı. Səcdəyə gedərkən fürsətdən istifadə edən Əbu Cəhl ona yaxınlaşıb təpiyi ilə Peyğəmbərin(s) başına vurmaq istədi. Lakin bir neçə addım atdıqdan sonra qeyri-ixtiyari olaraq geri qayıtdı. Yaxınları onun rənginin qaçdığını və özündə olmadığını görüb soruşdular: "Sənə nə olub belə? Əbu Cəhl dedi: Məhəmməd səcdəyə gedərkən ona yaxınlaşmaq istədim.

Birdən onunla mənim aramda içi odla dolu arx gördüm. Həmin arxın mənə sarı gəldiyini görüb qorxudan qaçdım."

Bu hadisədən sonra Allah-təala "Ələq" surəsinin 14-cü ayəsini nazil etdi: "Məgər bilmir ki, Allah (onun bütün əməllərini) görür?!"

Buna görə də əgər bir insan Allahın onun bütün əməllərini gördüyünü düşünsə, heç bir vaxt günah etməz. Günah edən və günaha batan şəxslər Allahın onların başları üzərində nəzarətçi olduğunu hiss etmədiklərindən həmin günahları edirlər.

Nəcəf şəhərində uzun müddət dini təhsil alan alimlərdən biri təhsilini başa vurduqdan sonra vətəninə qayıtmaq istədikdə öz ustadının hüzuruna gedib onunla vidalaşır və sonuncu dəfə ona nəsihət etməsini xahiş edir. Ustadı ona "Ələq" surəsinin 14-cü ayəsini oxuduqdan sonra buyurur: "Heç bir vaxt bu ayəni yadından çıxarma və harada olsan da Allahın başının üzərində sənə nəzarətçi olduğunu unutma."

Böyük alim və müdrik insanlardan biri haqda belə yazırlar: "O, günah bir iş görmüşdü. Sonradan tövbə edib Allahdan bağışlanmasını dilədi. Lakin görürdülər ki, o, həmişə çox narahatdır. Ona dedilər: Sən bir günah etdin və sonradan Allahdan bağışlanmağını istədin. Allah da sənin tövbəni qəbul edib. Siz həmişə camaata deyirdiniz ki, Allah rəhimlidir və bütün insanları bağışlayır. Amma özün tövbə etdikdən sonra hələ də ağlayırsan. Məgər Allah sənin günahlarını bağışlamayıb? Həmin alim dedi: Doğrudur, Allah bağışlayan və mehribandır. Mən ümidvaram ki, O, mənim də günahımı bağışlayıb. Lakin hər dəfə etdiyim günahı xatırlayanda və Allahın həmin günahı etdiyim zaman məni görməsi yadıma düşəndə xəcalət çəkirəm."

Müdrik insanlar Allah-təalanın nəzərinin daim Öz üzərlərində olduğunu və onların əməllərini görüb bildiyini dərk edirlər. Beləliklə, özünü ağıllı sayan hər bir insan Allahın ondan hər bir zaman və hər bir yerdə xəbərdar olduğunu bilməlidir. Möhkəm etiqadın təfsir və mənalarından biri budur ki, insan həmişə Allahı başı üzərində nəzarətçi bilməlidir. Bilməlidir ki, harada olursa-olsun Allah onun bütün əməllərini görür.

Möhkəm etiqadın ikinci əlaməti budur ki, insan həmişə Allahı öz pusqusunda görməli və bilməlidir ki, Allah onun hər bir əməl və hərəkətini izləyir. Allah-təala "Fəcr" surəsinin 14-cü ayəsində bu məsələyə işarə edərək belə buyurur:

إِنَّ رَبَّكَ لَبِالْمِرْصَادِ

-Şübhəsiz ki, sənin Rəbbin (bütün bəndələrin əməllərini) güdür.

Bu ayədə işlənən “mirsad” kəlməsi “rəsəd” sözündən götürülmüşdür. “Rəsəd” sözünün mənası pusqu deməkdir. Yəni insan həmişə bilməlidir ki, Allah onun pusqusundadır.

Bu ayə onu bildirir ki, insan günah edərkən Allahın cəzasından canını qurtara bilməz. Çünki Allah bütün varlıq aləmini əhatə edir və ondan heç bir şey gizli deyildir. Allah-təalanın elmi o qədər çoxdur ki, bütün yaratdıqlarının hərəkətlərini və nə etdiklərinin hamısını Öz elmilə əhatə edir və Onun üçün gizli qalan bir şey yoxdur. İnsan Allahın ona şahid olduğunu bilsə, heç bir vaxt günah etməz və bu əqidə öz sahibini daim günahlardan saxlayar. Həzrət Əli(ə) “Kumeyl” duasında belə münacat edir:

الَّذينَ وَكَّلْتَهُمْ بِحِفْظِ ما يَكُونُ مِنّي وَجَعَلْتَهُمْ شُهُوداً عَلَيَّ مَعَ جَوارِحي وَكُنْتَ اَنْتَ الرَّقيبَ عَلَيَّ مِنْ وَرائِهِمْ

-İlahi, məndən baş verən əməlləri qoruyub saxlamağa mələklər vəkil etmisən. Onları əzalarımla birlikdə gördüyum işlərə şahid qərar verdin. Sən özün də onların üzərindən gözətçi oldun.

Möhkəm etiqadın məna və əlamətlərindən üçüncüsü budur ki, insan Allahı özünə hər şeydən yaxın olduğunu bilsin. Allah-təala “Qaf” surəsinin 16-cı ayəsində buyurur:

وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ

-Biz ona (insana) şah damarından da yaxınıq...

Bu ayədə Allah-təala insanlara onların özlərindən də yaxın olduğunu vurğulayır və insanların başa düşəcəyi dərəcədə mİsal çəkir. İnsanın orqanlarından ona ən yaxın və mühüm olanı onun şah damarıdır ki, əgər o kəsilərsə,

insanın həyatı sona yetər. Allahın insana yaxın olması məkan cəhətdən yaxınlıq deyildir. Allah-təala bunu insanların başa düşməsi üçün Quranda misal çəkərək buyurur: “Biz ona şah damarından da yaxınıq...”

Filosoflar Allah-təalanın insana yaxın olması barədə belə demişlər: Bir şey çox uzaq olduğundan insan onu görə bilmədiyi kimi, həmin şey insana çox yaxın olduqda da insan onu görə bilmir. Məsələn, günəş insanın gözündən itənə qədər uzaqlaşarsa, insan onu görə bilmədiyi kimi, bir o qədər yaxına gələrsə, bu dəfə insan onu çox yaxın olduğundan görə bilmir.

Deməli, belə bir nəticəyə gəlirik ki, Allah-təala insana o qədər yaxındır ki, bizim gözlərimizin Onu görməyə gücü-qüvvəsi çatmır. Lakin insan qəlbi ilə Onu hiss edə bilər. Həzrət Əli(ə) duaların birində belə buyurur:

يَا مَن هُوَ اِخْتَفَى لِفَرطِ نُورِهِ

-Ey nurunun şiddətindən görə bilmədiyimiz Allah!

Həzrətin(ə) buyurduğu bu fikir ən gözəl fikirlərdən biridir. Ümumiyyətlə, Allah insana o qədər yaxın və insan da Allaha o qədər bağlıdır ki, bu yaxınlıq və bağlılıq nəticəsində insanın gözləri onu görməkdə aciz qalır. Filosoflar Allahın insana yaxın olmasını belə bir bənzətmə ilə mİsal çəkərək buyururlar: “İnsan Allaha o qədər yaxındır ki, elə bil bütün aləm cisim, Allah isə Ruhdur.” Yəni insan ruhunun özünə çox yaxın və bağlı olduğundan görmədiyi kimi, Allahı da görməyə qadir deyil. Allahın insana yaxın olmasını alimlər bundan artıq bənzətmə ilə misal çəkə bilmirlər. Həzrət Əlinin(ə) bu barədə olan gözəl bir hədisi vardır.

قَالَ عَلِيٌّ(ع): مَعَ كُلِّ شَيْءٍ لا بِمُقَارَنَةٍ وَ غَيْرُ كُلِّ شَيْءٍ لا بِمُزَايَلَةٍ

-O, (Allah) bütün varlıqlarla olmaqla bərabər onlarla bir deyil. Və bütün varlıqlardan ayrıdır, lakin onlardan uzaq deyildir.

Möhkəm etiqadın dördüncü əlaməti isə budur ki, insan Allahın onun ürəyindən keçənləri bildiyini və onun düşüncələrindən, nə edəcəyindən xəbərdar olduğunu bilsin. Hətta əgər insan Allahı öz başı üzərində nəzarət edən bilirsə və Allahın onun əməllərini güddüyündən xəbərdardırsa, lakin Allahın onun qəlbindən keçənləri və nə edəcəyindən xəbərdar olduğunu başa düşüb dərk etməzsə, o biri əlamətlərin ona yetərincə faydası olmayacaqdır. Yəni insanda qəlbən Allaha iman gətirməyin birinci və ikinci əlaməti var ikən üçüncü əlaməti olmazsa, digər iki əlamət onu günahdan kifayət qədər qoruyub saxlaya bilməz. İnsan bilməlidir ki, Allah-təala onun fikrindən keçənləri bilir və ürəyində olanlardan xəbərdardır. Bu əlamət də Allaha qəlbən iman gətirməyin əlamətlərindən biridir. Allah-təala "Möminun" surəsinin 19-cu ayəsində buyurur:

يَعْلَمُ خَائِنَةَ الْأَعْيُنِ وَمَا تُخْفِي الصُّدُورُ

-Allah gözlərin xəyanətini (xain gözləri) və ürəklərin gizlətdiyini biləndir.

Bu ayədə olan "gözlərin xəyanəti" sözünü hədislərdə belə açıqlamışlar.

قَالَ الصَّادِقُ(ع): اَلَمْ تَرَى اِلَى الرَّجُلِ يَنْظُرَ اِلَى شَيْءٍ وَ كَأَنَّهُ لا يَنْظُرَ اِلَيْهِ فَذالِكَ خَائِنَةَ الْأَعْيُنْ

-İmam Sadiq(ə) buyurur: "Bir şəxs gözünün ucu ilə bir şeyə baxır, lakin özünü elə aparır ki, guya görmür. Bu, gözlərin xəyanətidir."

Əgər insanın qəlbinə belə bir iman daxil olarsa və onda möhkəm etiqad hasil olarsa, bu insanın heç bir problemi olmaz. Çünki artıq yaradılışda əsas hədəfə nail olmuşdur. İnsanda bir şeyin həqiqətinə qəti inam olarsa, o, heç bir çətinliyə düşməz. Hətta insan möhkəm etiqad vasitəsilə çox böyük dərd və xəstəliklərdən insana nicat verir.

Keçmiş zamanlarda bir padşah xəstəliyə tutulmuşdu. Onun xəstəliyi kökəlmək idi. Hər nə yeyirdisə, günü-gündən kökəlib şişirdi. Nə qədər həkim çağırırdılarsa, onun dərdinə əlac edən olmadı. Böyük hikmət sahiblərindən bir nəfər dedi: Padşahın dərdinin dərmanı mənim əlimdədir. Onu padşahın yanına gətirdilər. Padşah soruşdu: Mənim dərdimə əlac edə bilərsənmi? Həmin alim dedi: Sənin ömrünün sonuna qırx gün qalıb. Əgər qırx gündən artıq yaşasan, mən səni müalicə edərəm. Bu söhbətdən sonra padşahı dərd-fikir götürdü. Günlər keçdikcə padşah dərddən bir qədər də arıqlayırdı. Günbəgün arıqlamağına baxmayaraq, nəhayət, qırxıncı gün normal hala düşdü. Həkimə xəbər göndərdilər ki, padşah ölmədi. Tez gəlib müalicəsi ilə məşğul ol. Həkim dedi: Padşah artıq müalicə olub sağalmışdır. Onun dərdinin dərmanını ilk gün söyləmişdim. O, öləcəyinə inandığı üçün dərd-fikir onu arıqladıb normal hala saldı.

Odur ki, insan əgər qiyamət gününün baş verəcəyinə və etdiyi əməllərə görə cavab verəcəyinə inansa, heç bir vaxt günah etməz. Həzrət Əli(ə) buyurur: “Öləcəyini yəqin bilib (sorğu-sual olunacağını bilib) qəhqəhə ilə gülən kəsə təəccüb edirəm.”

Qəlbinə iman daxil olan, qəlbində yəqinlik hasil olan insan Allaha yaxınlaşmışdır. Əgər bir insanın qəlbində yəqinlik hasil olubsa, deməli əxlaq, təqva da hasil

olmuşdur. Belə bir insana dünyanın hamısını əmanət tapşırsalar, onun manatına belə xəyanət etməz. Bu insan hər bir məqamda, hər bir vəzifədə, hər bir halda yaşasa da belə iman və təqva əsasında yaşayacaq. Qəlbini yəqinliklə dolduran insan İslamın tərbiyə etdiyi insandır.

## Möhkəm etiqadın (imanın) mərhələləri

Yuxarıda qeyd olundu ki, imanın üç növü vardır. Dildə, ağılda və qəlbdə qərar tutan iman. Onların hər biri haqqında lazımi qədər söz açıldı. Həmçinin qeyd edildi ki, əgər iman qəlbə daxil olsa, deməli insan yəqinlik dərəcəsinə qədəm qoymuşdur. Qəlbi imanla dolu olan şəxsin əməlləri də gözəl olur. Çünki bütün bədən üzvlərinə ürəkdən əmr və göstəriş gedir. Gözün, qulağın, dilin, əllərin, ayaqların və bütün bədən üzvlərinin hamısının mənbəyi ürəkdir. Əgər ürəkdə iman olsa, bütün bədən üzvləri oradan sərçeşmə alar. Məsələn, su çənindən borular vasitəsilə bütün kranlara su çəkilmişdir. Əgər çənin içindəki su şor olarsa, kranlardan gələn su da şirin ola bilməz. Çənin içindəki su necədirsə, kranlardan da həmin su gələcək.

Burada möhkəm etiqad barədə bir sıra incə mətləblərə toxunmağı lazım bilirəm. Bunlar elə mətləblərdir ki, bir az artıq diqqətə ehtiyacı var. İnsanın qəlbi imanla dolduqda yəqinlik hasil olur. Allahın varlığına, Peyğəmbərin(s) nübüvvətinə, imamların imamətinə, ölümə, ölümdən sonrakı həyata və qiyamət gününün baş verəcəyinə iman gətirən və qəlbində yəqinlik hasil olan insanların hamısı eyni dərəcədə olmur. Çünki Quran ayələrinə və hədislərə əsasən möhkəm etiqadın özünün də üç mərhələsi vardır. Bəzi insanlar ola bilsin ki, bu mərhələlərin yalnız birinə nail olmuş olsun. Bəzisi iki

mərhələsinə, bəzisi isə bütün mərhələlərinə nail olur. Quranın ayələri yəqini (möhkəm etiqadı) üç mərhələ və qismə bölərək hər birinə bir ad verir. Birinci mərhələ elmül-yəqin, ikinci mərhələ eynül-yəqin və üçüncü mərhələ həqqül-yəqin adlanır. “Təkasür” surəsinin 5-7-ci ayələrində belə buyurulur:

كَلَّا لَوْ تَعْلَمُونَ عِلْمَ الْيَقِينِ. لَتَرَوُنَّ الْجَحِيمَ

-Belə deyildir. Əgər (işin həqiqətini) elmül-yəqinlə (şəkk-şübhə ehtimalı olmayan bir elmlə) bilsəydiniz. Şübhəsiz, cəhənnəmi görərdiniz.

ثُمَّ لَتَرَوُنَّهَا عَيْنَ الْيَقِينِ

-Sonra, şübhəsiz, onu (cəza günü) eynül-yəqinlə görəcəksiniz.

“Vaqiə” surəsinin 95-ci ayəsində həqqül-yəqin barədə belə buyurulur:

إِنَّ هَذَا لَهُوَ حَقُّ الْيَقِينِ

-Doğrudan da bu qəti və şübhəsiz həqqül-yəqindir (bir həqiqətdir).

## Elmül-yəqin

Elmül-yəqin odur ki, insan müxtəlif dəlil-sübutlarla bir şeyin həqiqətinə iman gətirir. Məsələn, tüstünün qalxması insanda hardasa yanğının baş verdiyinə dair bir yəqinlik yaradır. Çünki od olmayan yerdən tüstü çıxmadığına əmindir. İnsan bu kimi dəlillərlə tüstü gələn yerdə yanğının baş verdiyinə inanır. Başqa sözlə desək, elmül-yəqin odur ki, iman insanın qəlbinə daxil olsun və qəlbinin gözü ilə Allahın varlığını, qiyamətin baş verəcəyini görmüş olsun. Məsələn, susuz bir insan

susuzluğun nə olduğunu başa düşür. Lakin sudan sirab olan insan o halda susuzluğun nə olduğunu dərk etmir. Susuzluğu insan o vaxt başa düşür ki, dodaqları və boğazı susuzluqdan qupquru qurumuş olsun. Deməli, elmül-yəqin odur ki, insanın qəlbinə iman daxil olsun, dəlil-sübutlarla Allahın varlığını, Peyğəmbəri(s), qiyaməti və s. görüb dərk etsin. Lakin burada başqa bir incə mətləb qarşıya çıxır. Həmin mətləb budur ki, bəzən bir sıra insanlar, ümumiyyətlə, Allaha iman gətirmirlər, lakin təhlükə ilə üzləşdikdə müvəqqəti olaraq onların qəlbinə iman dolur. Təhlükə sovuşduqdan sonra yenə də iman belə adamların qəlbindən çıxır və yenidən əvvəlki vəziyyətlərinə düşürlər. Məsələn, fərz edək ki, belə bir adam gəmi ilə səfərə çıxır. Bir müddət yol getdikdən sonra sərnişinlər arasında həyəcan və təlatüm baş verir. Nə baş verdiyini soruşduqda ona gəminin batmaq təhlükəsilə üzləşdiyini deyirlər. Bu halda həmin şəxs əlinin hər yerdən üzüldüyünü görür və Allaha üz tutur. Sanki qəlbi imanla dolu olan insanlar kimi Allaha yalvarır. Gəmi sağ-salamat quruya çıxan kimi yenə də əvvəlki halına qayıdır və Allahı unudur. Elə bil ki, təhlükə halında Allaha yalvaran insan deyilmiş. Allah-təala “Ənkəbut” surəsinin 65-ci ayəsində belə buyurur:

فَإِذَا رَكِبُوا فِي الْفُلْكِ دَعَوُا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ فَلَمَّا نَجَّاهُمْ إِلَى الْبَرِّ إِذَا هُمْ يُشْرِكُونَ

-Gəmiyə mindikləri zaman (dəryada batacaqlarından qorxub, əlləri hər yerdən üzülərək dində ixlas sahibi olan möminlər kimi) yalnız Allahı çağırıb dua edərlər. Allah onları sağ-salamat quruya çıxaran kimi yenə də müşrik olarlar.

Təhlükə ilə qarşılaşdıqda insanlarda elə bir hal yaranır ki, onlar yalnız Allahı çağırırlar. Yəni insanın əli hər şeydən üzüldükdə yalnız Allaha üz tutub yalvarır. Əgər insan bu halı həmişə saxlaya bilsə, buna elmül-yəqin deyilir. Məsələn, susuz insan susuzluğun nə olduğunu çox yaxşı başa düşür. Lakin susuz olmayan insana elə bir xəbər verirlər ki, bir anda boğazı quruyur. Həqiqətdə susuz deyil, lakin boğazı qup-qurudur. Yəni bu insan həqiqətdə susuz olmamasına baxmayaraq, həmin xəbəri ona verən kimi susuzluğun mənasını başa düşür. Buna görə də insan təhlükəli və ya asayişdə olduğu anlarda belə bir halı özündə qoruyub saxlaya bilsə, bu yəqinlik ona nicat verər. Bu yəqinin birinci mərhələsidir ki, insan bu halı özündə yarada bilir. Əgər insan yəqinin bu mərhələsinə qədəm qoysa, harada olmasından asılı olmayaraq heç bir şey onu Allahdan və ibadət etməkdən saxlaya bilməz. Allah-təala “Nur” surəsinin 37-ci ayəsində buyurur:

رِجَالٌ لَّا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَن ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاء الزَّكَاةِ يَخَافُونَ يَوْمًا تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَالْأَبْصَارُ

-O kişilər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi (dəhşətdən ürəklərin duymaqdan, gözlərin görməkdən qalacağı) bir gündən (qiyamət günündən) qorxarlar.

## Eynül-yəqin

Eynül-yəqin bir haldır ki, insan bu mərhələdə artıq müşahidə mərhələsinə çatır. Məsələn, elmül-yəqində insan tüstünü görüb yanğın baş verdiyini ehtimal edirdisə, bu mərhələdə gedib yanğını gözləri ilə görür. Deməli, yəqinin bu mərhələsində insan artıq hər şeyi gözəri ilə görüb müşahidə edir. Allah-təala peyğəmbərlərinin və bəzi istəkli bəndələrinin gözlərinə müəyyən şeyləri göstərmişdir. “Bəqərə” surəsinin 260-cı ayəsində buyurulur:

وَإِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّ أَرِنِي كَيْفَ تُحْيِي الْمَوْتَى قَالَ أَوَلَمْ تُؤْمِن قَالَ بَلَى وَلَكِن لِّيَطْمَئِنَّ قَلْبِي قَالَ فَخُذْ أَرْبَعَةً مِّنَ الطَّيْرِ فَصُرْهُنَّ إِلَيْكَ ثُمَّ اجْعَلْ عَلَى كُلِّ جَبَلٍ مِّنْهُنَّ جُزْءًا ثُمَّ ادْعُهُنَّ يَأْتِينَكَ سَعْيًا وَاعْلَمْ أَنَّ اللّهَ عَزِيزٌ حَكِيمٌ

-(Yada sal) o zaman(ı) ki, İbrahim dedi: “Ey Rəbbim, ölüləri necə diriltməyini mənə göstər.” Dedi: “Məgər (Mənim qüdrətimə və ya axirət gününə) imanın yoxdur?” Dedi: “Əksinə (imanım var)! Lakin qəlbimin (gözlə görərək) rahatlıq tapması üçün (eynül-yəqinə çatmaq) (istədim).” Dedi: “Belə isə dörd (növ) quş götür, (cisimlərində olan əlamətləri dəqiq görə bilməyin üçün) onları özünə yaxınlaşdır və (onları) tikə-tikə doğra(yıb bir-birinə qat). Sonra (bu ətrafdakı) hər dağın başına onlardan bir parça qoy. Daha sonra onları çağır, sürətlə sənin yanına gələcəklər. Bil ki, Allah yenilməz qüdrət və hikmət sahibidir.”

“Ənam” surəsinin 75-ci ayəsində belə buyurulur:

وَكَذَلِكَ نُرِي إِبْرَاهِيمَ مَلَكُوتَ السَّمَاوَاتِ وَالأَرْضِ وَلِيَكُونَ مِنَ الْمُوقِنِينَ

-Beləcə İbrahimə göylərə və yerə olan tam malikiyyət və rübubiyyətimizi (də) göstərirdik (ki, dəlil gətirmə məqamında elmli və bacarıqlı olsun) və (həmçinin) yəqin etməsi üçün.

İmam Rzadan(ə) “Bəqərə” surəsinin 260-cı ayəsi haqda belə bir sual soruşdular: “Məgər İbrahimin(ə) qəlbində şəkk var idimi? Əgər belə deyildisə, nə üçün “Dedi: “Əksinə (imanım var)! Lakin qəlbimin (gözlə görərək) rahatlıq tapması üçün (eynül-yəqinə çatmaq) (istədim).”

İmam Rza(ə) buyurdu: “Həzrət İbrahim(ə) yəqində idi. Lakin Allahdan yəqinini çoxaltmasını istəyirdi. (Elmül-yəqindən eynül-yəqinə çatmaqla yəqininin dərəcəsini çoxaltmaq istəyirdi.)”

Həzrət Peyğəmbərdən(s) belə bir hədis nəql olunmuşdur: “Allah-təala buyurur: Bir neçə şeyi bəndələrimdən gizlətmişəm ki, əgər onları görsəydi, onların heç biri heç vaxt pis iş görməzdi. (Onlardan biri budur) əgər insanlar öldükdən sonra başlarına nə gələcəklərini və onlarla nə etdiyimi (hesab-kitabı) görsəydilər, heç vaxt günah etməzdilər.”

Həzrət Əli(ə) bu barədə “Nəhcül-bəlağə”də buyurur:

فَإِنَّكُمْ لَوْ قَدْ عَايَنْتُمْ مَا قَدْ عَايَنَ مَنْ مَاتَمِنْكُمْ لَجَزِعْتُمْ وَ وَهِلْتُمْ وَ سَمِعْتُمْ وَ أَطَعْتُمْ وَ لَكِنْمَحْجُوبٌ عَنْكُمْ مَا قَدْ عَايَنُوا وَ قَرِيبٌ مَا يُطْرَحُ الْحِجَابُ

-Əgər siz ölülərinizin gözləri ilə gördüklərini gözünüz ilə görsəniz, mütləq qəmgin olarsınız və ah-zar edərsiniz, *(Allahın əmr və qadağanını)* eşidər və itaət edərsiniz, lakin keçmişdəkilərin gördükləri şeylər sizdən gizlindir *(Buna görə də ah-zar etmir, qorxmur və Allaha, onun Rəsuluna və haq olan xəlifəsinə itaət etmir və tabe olmursunuz).* Tezliklə *(keçmişdəkilərin gördüklərini siz də görəsiniz deyə)* pərdə qaldırılacaq.[1]

İnsan can verərkən son anlarında görmədiklərini ona göstərirlər. Diqqətlə ona baxdıqda haldan-hala düşdüyünün şahidi oluruq. Hədislərdə deyilir ki, mömin dünyadan gedərkən son anlarında gözləri açılır və cənnəti gözləri ilə görür. Belə bir halda Allahdan istəyər ki, onu qaytarsın və gördüklərini yaxınlarına danışsın. Allahdan nida gələr ki, buna icazə vermərəm. Çünki Mənim istəyim budur ki, insanlar dünyada yaşadıqları zaman öləndən sonra başlarına gələcəklərinə inansınlar. Onlara deyib başa salmışıq, lakin inanıb-inanmamaq öz işləridir. Öləndən sonra onsuz da onlar xəbərdar etdiyim hadisələrlə üzləşəcəklər.

Odur ki, əgər bir insanın gözü açılsa, həqiqət aləmini, cənnəti, cəhənnəmi gözü ilə görsə, eynül-yəqinə çatmış olar. Bəzi insanlar dünyadan gedərkən son anlarında cəhənnəmi görür, bəzisi isə cənnəti, peyğəmbərləri, məsum imamları başı üzərində görür. Peyğəmbər və məsum imamları başları üzərində görənlər xatircəm halda Allaha qovuşurlar. Allah-təala "Fəcr" surəsinin axırıncı ayələrində belə buyurur:

يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ. ارْجِعِي إِلَى رَبِّكِ رَاضِيَةً مَّرْضِيَّةً. فَادْخُلِي فِي عِبَادِي. وَادْخُلِي جَنَّتِي.

---

[1] Nəhcül-bəlağə, 20-ci xütbə.

-Ey arxayın olmuş nəfs, dön Rəbbinə, sən Ondan, O da səndən razı olaraq! Mənim bəndələrimin zümrəsinə daxil ol! Və Mənim cənnətimə daxil ol!

Belə bir insanı cənnətə daxil edəcəklər. Cənnətdə onu mələklər qarşılayarlar. Allah-təala İbrahim Peyğəmbəri(ə) və İslam Peyğəmbərini(s) meraca aparmış və hər bir şeyi onlara göstərmişdir. İslam Peyğəmbəri(s) oranın əhvalatlarının hamısını gözü ilə görüb qayıtmışdır. Qayıtdıqdan sonra meracda gördüklərini bir-bir səhabələrə danışdı. Keçmiş peyğəmbərlərin hamısını görüb onlarla söhbət etdiyini və bütün hadisələrin şahidi olduğunu söylədi. Həzrət Peyğəmbər(s) orada gördüyü bir hadisəni belə nəql edir:

-Meracda gördüm ki, bir minbər qoyulub. Bütün peyğəmbərlər də orada əyləşmişdilər. Elə bu zaman böyük bir şəxsiyyət içəri daxil oldu. Onun nurlu simasının ətrafında ulduzlar dövrə vurub parıldayırdı. Soruşdum: İlahi, bu hansı peyğəmbərdir? Nida gəldi ki, ya Rəsulallah, bu sənin vəsi və canişinin Əli ibn Əbu Talibdir. Onun ətrafındakı ulduzlar haqqında soruşduqda, cavab gəldi ki, onlar Əlinin şiələridir. Bu anda Həzrət İbrahim Peyğəmbər(s) ayağa qalxıb dedi: İlahi, elə isə məni Əlinin şiələrindən qərar ver!

Bu elə bir hədisdir ki, Peyğəmbər(s) bu rəvayəti söyləyərkən demək olar ki, bütün səhabələr eşitmişdilər. Səhabələr Peyğəmbərin(s) dövründə yaşadıqları üçün Həzrətin(s) söylədiklərindən yəqinlik tapmışdılar. İnsanların imanı çoxaldıqca, yəqinlik daha çox hasil olduqca gözləri və qulaqları açılır. Haqqı görüb səsini eşidirlər.

## Həqqül-yəqin

Həqqül-yəqin odur ki, insan bir şeyin həqiqətinin içərisinə daxil olub dərk etsin. Məsələn, uzaqdan tüstünü görüb yanğının baş verməsinə yəqinlik etməyə elmül-yəqin, yaxına gedib yanğını gözü ilə görməyə eynül-yəqin, yanğına toxunmaq və hiss etmək isə həqqül-yəqindir. Qəlbi imanla dolu olan insanlar yəqinlik mərhələsində müxtəlif dərəcədə olurlar. Bəziləri elmül-yəqində, bəziləri eynül-yəqində, bəziləri isə həqqül-yəqinə çatmış insanlardır. Od-alovun içərisinə daxil olan insan odun vücuduna şübhə etmədiyi kimi, imanın həqqül-yəqin dərəcəsinə çatdıqda insan heç bir şəkk-şübhəyə düşməyəcək. Allahın yer üzərində olan peyğəmbərləri və məsum imamlarımız imanın həqqül-yəqin dərəcəsinə çatmışdılar. Həmçinin Peyğəmbərin(s) yanında olan bəzi səhabələr belə bir məqamı dərk etmişdilər. Bəzi insanlarda elə təsəvvür yaranmasın ki, bu məqama yalnız peyğəmbərlər, yaxud Allahın yer üzünə təyin etdiyi höccətləri çata bilər. Cəmiyyətdə elə insanlar var ki, ibadət, təqva və Allah yolunda çalışqanlıq sayəsində imanın bu mərhələlərinə çatmışlar.

Həzrət İbrahim(ə) eynül-yəqin dərəcəsinə çatdıqdan sonra həqqül-yəqin dərəcəsinə də nail ola bildi. Amma bu məqama nail olmaq üçün bir çox zəhmətlərlə üzləşməli oldu. Quranın ayələrinə diqqət yetirdikdə yəqinin bu mərhələsinə dair bir çox ayə və məsəllərə rast gəlmək mümkündür. Nümunə üçün Üzeyir Peyğəmbərin(ə) əhvalatına nəzər salaq. Allah-təala “Bəqərə” surəsinin 259-cu ayəsində buyurur:

أَوْ كَالَّذِي مَرَّ عَلَى قَرْيَةٍ وَهِيَ خَاوِيَةٌ عَلَى عُرُوشِهَا قَالَ أَنَّىَ يُحْيِي هَذِهِ اللّهُ بَعْدَ مَوْتِهَا فَأَمَاتَهُ اللّهُ مِئَةَ عَامٍ ثُمَّ بَعَثَهُ قَالَ كَمْ لَبِثْتَ قَالَ لَبِثْتُ يَوْمًا أَوْ بَعْضَ يَوْمٍ قَالَ بَل لَّبِثْتَ مِئَةَ عَامٍ فَانظُرْ إِلَى طَعَامِكَ وَشَرَابِكَ لَمْ يَتَسَنَّهْ وَانظُرْ إِلَى حِمَارِكَ وَلِنَجْعَلَكَ آيَةً لِّلنَّاسِ وَانظُرْ إِلَى العِظَامِ كَيْفَ نُنشِزُهَا ثُمَّ نَكْسُوهَا لَحْمًا فَلَمَّا تَبَيَّنَ لَهُ قَالَ أَعْلَمُ أَنَّ اللّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

-Yaxud (evlərinin damı çökmüş və) divarları damlarının üzərinə uçmuş (və sakinlərinin cəsədləri çürüyüb dağılmış) kənddən keçən (kəs) kimisini (görmüsənmi)? (O, təəccüblə öz-özünə) dedi: “Allah bunları ölümlərindən sonra necə dirildəcək?!” Buna görə də Allah onu yüz il öldürdü, sonra diriltdi (və) dedi: “(Burada) nə qədər qalmısan?” Dedi: “Bir gün, ya günün bir hissəsini (qalmışam).” Dedi: “Xeyr, yüz il qalmısan; yemək-içməyinə bax ki, heç dəyişməyib və uzunqulağına bax (gör necə çürüyüb dağılıb). Biz (bunu sənin istəyini yerinə yetirmək və) səni insanlara (Öz tövhid və qüdrətimizin) nişanə(si) etmək üçün (etdik). Bax (gör uzunqulağının) sümükləri(ni) necə götürür (və onları bir-birinə birləşdirir), sonra onların üstünə ət örtürük!” Beləliklə (dirilməyin necəliyi) ona aydın olduqda dedi: “İndi bilirəm ki, Allah hər şeyə qadirdir (və indi bunu öz gözlərimlə görüb yəqinlik əldə etdim).”

Üzeyir Peyğəmbərin(ə) Allaha yəqini var idi. Lakin eynül-yəqindən elmül-yəqinə keçməklə dərəcəsini artırmaq istəyirdi. Allah-təala onu öldürüb yüz ildən sonra diriltməklə yəqininin dərəcəsini artırdı.

İslam Peyğəmbəri(s) imanın ən yüksək mərhələsinə çatmış və həqqül-yəqin dərəcəsində olan bir şəxsiyyət idi. Allah-təala onu meraca aparıb hər şeyi ona göstərmişdir. Cənab Cəbrayıl(ə) tez-tez Peyğəmbərin(s) hüzuruna gəlib söhbət edirdi. Bəzən evdə, bəzən küçədə və müxtəlif hallarda görüşüb danışırdılar. Cəbrayıl(ə) Peyğəmbərin(s) həmdəmi və munisi idi. Hər dəfə görüşəndə müxtəlif məsələlərdən söz açırdılar.

Günlərin birində İslam Peyğəmbəri(s) ondan soruşdu: "Cəbrayıl, Allah ölüləri necə dirildir? Həzrət Peyğəmbər(s) Allahın ölüləri necə diriltməsini çox yaxşı bilirdi və buna yəqini var idi. Lakin Cəbrayılı(ə) danışdırmaq üçün bu sualı verdi. Cənab Cəbrayıl(ə) dedi: Ya Rəsulallah(s), sənə bir nümunə göstərəcəyəm. Onlar birlikdə yola düşüb Bəni-Saidənin məqbərəsi olan qəbiristanlığa yetişdilər. Cəbrayıl(ə) qəbirlərdən birinin kənarında dayanıb dedi: Allahın izni ilə qəbirdən qalx! Elə bu zaman qəbir yarıldı və içərisindən bir kişi ayağa qalxıb üz-gözünün torpağını silə-silə dedi: Vay olsun mənim halıma. Cəbrayıl(ə) dedi: İndi isə yerinə qayıt. Həmin şəxs yenidən qəbrə daxil oldu. Sonra Cəbrayıl(ə) başqa bir qəbrin kənarında dayanıb dedi: Allahın izni ilə qəbirdən çıx! Bu qəbir də yarıldı və içərisindən bir cavan oğlan çıxdı. Üz-gözünün torpağını təmizləyə-təmizləyə ətrafına baxdı. Peyğəmbəri(s) gördükdə bu sözləri dedi: Şəhadət verirəm ki, Allahdan başqa heç bir məbud yoxdur. Təkdir və heç bir şəriki yoxdur. Şəhadət verirəm ki, Məhəmməd(s) onun Rəsuludur. Şəhadət verirəm ki, insanların hamısı ölümü dadacaq. Şəhadət verirəm ki, qiyamət günü hamı qəbirlərdən qalxacaq. Cənab Cəbrayıl(ə) dedi: Elə isə yerinə qayıt. Həmin oğlan yenidən qəbrə daxil oldu."

Həzrət Peyğəmbər(s) yəqinin bütün dərəcələrini fəth etmişdi. Cəbrayıl(ə) görən işləri Peyğəmbərimiz(s) özü də görürdü. İbn Abbas deyir: "Günlərin birində bir neçə nəfər Peyğəmbərin(s) hüzuruna gəlib dedilər: Ya Rəsulallah, səndən əvvəlki peyğəmbərlər ölüləri dirildərdilər. Həzrət(s) buyurdu: Məqsədiniz nədir? Onlar dedilər: Əgər sən də ölüləri diriltməyi bizə göstərsən, sənə iman gətirərik. Həzrət(s) soruşdu: Kimi diriltməyimi istəyirsiniz? Onlar dedilər: Bizim qəbilədən bir nəfər yenicə dünyadan gedib və filan yerdə dəfn olunmuşdur. Sənin onu diriltməyini gözümüzlə görmək istəyirik. Həzrət Peyğəmbər(s) yerindən tərpənmədən Həzrət Əlini(ə) yanına çağırdı. Ona müəyyən sözlər dedi. Lakin bu sözləri heç bir kəs eşitmədi. Sonra buyurdu: Ya Əli, sən bunlarla get, istədikləri şəxsin qəbrinin yanında dayanıb adını çək və ona qəbirdən qalxmasını söylə. Həzrət Əli(ə) Peyğəmbərin(s) buyurduğu kimi onlarla birgə həmin şəxsin qəbrinin üstünə getdilər. Həzrət(ə) qəbirdəki insanın adını çəkib buyurdu: Allahin izni ilə qəbirdən çıx. Həmin şəxs qəbirdən çıxdı və onun yaxın adamları bir neçə sual verdilər. Sonra Həzrət Əli(ə) ona buyurdu: İndi isə yenidən qəbrə qayıt."

İslam tarixinə nəzər saldıqda dəfələrlə bu kimi hadisələrin şahidi oluruq. Peyğəmbər(s) və məsum imamlardan bir çox möcüzələr görsənmişdir. Bu barədə Quran ayələri başda olmaqla bir çox məsəl və nümunələrə də rast gəlirik. Lakin bunların hamısı yalnız bir mərhələdə mümkündür. O da budur ki, insanın ruhunda, bədənində və üzvlərində günahdan heç bir əsər-əlamət qalmasın. İnsanın günah etməsi ilə bu kimi işlər görməsi və həqqül-yəqinə çatması qeyri- mümkündür. Günah olan qəlbdə

yəqinlik ola bilməz. Hədislərdə deyilir ki, it olan evə mələklər daxil olmaz.

Mərhum Nəraqi bu hədisin mənasını belə açıqlamışdır: "İtdə məqsəd günah, evdə məqsəd isə insanın qəlbidir. Hər hansı qəlbdə günah olarsa, ora mələklər daxil olmaz." Yəni günahkarın qəlbinə nuraniyyət daxil olmaz. Bütün bunlar tamamilə nuraniyyətdir. Nuraniyyət maddiyyat demək deyil. Eşq-məhəbbət maddiyyata aid olan şey deyildir. Həzrət İbrahim(ə) nuraniyyətin içərisində yaşayırdı. Həzrət İbrahim(ə) bu nuraniyyəti əldə etmək üçün müxtəlif imtahan və sınaqlardan çıxmışdır. İnsanın qəlbində iki məhəbbətin olması mümkün deyil. Bu qəlbdə yalnız bir məhəbbətə yer var ki, o da Allahın məhəbbətidir. İbrahim Peyğəmbər(ə) müxtəlif mərhələlərdən və imtahanlardan keçdikdən sonra bu mərhələyə çatmışdır. Ümumiyyətlə, insanın qəlbinin dünya məhəbbəti ilə dolu olan halda yəqinlik mərhələsinə çatması mümkün deyildir. Həzrət İbrahim(ə) hər şeyi Allaha qurban verməyə hazır idi. Allah yolunda oğlu İsmayılı Mina çölündə qurban verməyə, özünün odun içinə atılmasına və bütün mal- dövlətindən keçməyə hazır bir şəxsiyyət idi.

Həzrət İbrahim(ə) Allahı mal-dövlətə görə yox, əksinə Ona olan məhəbbətinə görə zikr edir və sevirdi. Bu məhəbbətin əlaməti isə odur ki, əgər insan mal-dövlətini Allah yolunda sərf etməyi bacararsa, deməli, onun qəlbində Allaha həqiqi məhəbbət vardır. Allah-təala mələklərə Həzrət İbrahimi(ə) imtahana çəkməyi əmr etdi. Günlərin birində İbrahim(ə) çöldə qoyun otararkən Həzrət Cəbrayıl(ə) insan surətində onun yolunun üstündə əyləşdi və Allaha zikr etməyə başladı. Həzrət İbrahim(ə) ora yaxınlaşdıqda Cəbrayıl(ə) dedi: "Sübbuhun Quddus."

(Allah pak və münəzzəhdir.) Həzrət İbrahim(ə) ondan soruşdu: “Sən kimsən?” Cəbrayıl(ə) dedi: “Allah bəndəsi.” İbrahim(ə) dedi: “Sənə o sözləri kim öyrədib?” Cəbrayıl(ə) dedi: “Öyrənmişəm.” İbrahim(ə) dedi: “O sözlər mənim məşuqumun adlarıdır. Olarmı onları bir də təkrar edəsən?” Cəbrayıl(ə) dedi: “Qoyunlarının üçdə bir hissəsini mənə ver, deyim.” İbrahim(ə) qoyunların üçdə birini ona verib o sözləri təkrar etməyi istədi. Cəbrayıl(ə) qoyunların üçdə birini alıb bir dəfə də “Sübbuhun Quddus” dedi. İbrahim(ə) dedi: “O sözləri bir də təkrar edə bilərsənmi?” Cəbrayıl(ə) dedi: “Qoyunlarının yarısını mənə ver, deyim.” Həzrət İbrahim(ə) qoyunların yarısını da verdi. Cəbrayıl(ə) o sözləri bir də təkrar etdi. İbrahim(ə) dedi: “Olarmı bir də təkrar edəsən?” Cəbrayıl(ə) dedi: “Qoyunların hamısını mənə versən, deyərəm.” Həzrət İbrahim(ə) dedi: “Qoyunların hamısı sənin. Amma o sözləri bir də təkrar et.” Bu zaman Cəbrayıl(ə) dedi: “Ey İbrahim, həqiqətən, sən Allahın dostu olmağa layiqsən. Ona görə də Allah səni özünə dost seçdi. Çünki mən insanlar arasında çox gəzmişəm və Allah onların hamısını bizə tanıtdırıb. Lakin onların içərisində sənin kimi Allahın zikrinə bütün mal-dövlətini qurban verən ikinci bir şəxs yoxdur.”

Həzrət İbrahim(ə) Allahın adını eşitməkdən mənəvi zövq alırdı. Onun bircə dəfə adının çəkilməsinə görə bütün sərvətindən keçməsinə razı idi. Ola bilsin ki, bu məsələ bəzilərinə bir o qədər də çatmasın. Lakin həmin mənəvi zövqü hər insan dada bilmir. Məsələn, əgər Məcnun Leylinin dərdindən gecə-gündüz küçələrə düşüb sərgərdan olursa, beş yaşlı uşaq onun dəli olduğunu güman edəcək. Çünki beş yaşında uşaq onun sevgisinin nə

olduğunu haradan başa düşə biləcək? Başa düşmədiyi üçün də Məcnunu dəli bir insan kimi tanıyacaq.

Odur ki, Allahın məhəbbətini qazanmaq üçün insan hər şeyindən keçməyi bacarmalıdır. Həzrət İbrahim(ə) bütün imtahan və sınaqlardan çox yaxşı çıxmağı bacardı. Bütün bunlardan sonra Allah-təala ona hər şeyi göstərdi.

وَكَذَلِكَ نُرِي إِبْرَاهِيمَ مَلَكُوتَ السَّمَاوَاتِ وَالأَرْضِ

-Beləcə, İbrahimə göylərə və yerə olan tam malikiyyət və rübubiyyətimizi (də) göstərdik.

Həzrət İbrahim(ə) canından, övladından, mal-dövlətindən və bir çox başqa sınaqlardan keçdikdən sonra bu məqama nail olmuşdu. Onu mancanağa qoyub odun içinə atarkən Həzrət Cəbrayıl(ə) nazil olub soruşdu: "Ey İbrahim, məndən bir istəyin varmı? İbrahim(ə) dedi: "Səndən heç bir istəyim yoxdur. Allahın mənim halımdan xəbərdar olması mənə kifayət edər. O, mənim barəmdə hər nə iradə edirsə, mən də onu istəyirəm." Həzrət İbrahimin(ə) bu sözlərindən sonra Allah odu onun üçün gülüstana çevirdi.

Bu mərhələyə çatmaq üçün insan qəlbini hər bir şeydən təmizləməlidir. Allaha olan məhəbbətin qəlbə dolması üçün insan gərək bütün məhəbbətləri və günahları oradan çıxarsın. Hədislərdə deyilir ki, "qəlb Allahın hərəmidir. Allahdan başqa heç bir məhəbbəti ora daxil olmağa qoymayın." İnsan bu yolda çalışmalı və əziyyət çəkməlidir. Bu halı əldə etmək elə də asan iş deyil. Bir ömür ibadət və təqvadan sonra insan yavaş-yavaş bu mərhələlərə çata bilər. Həzrət Məryəm(s.ə) müqəddəs və pak insan idi. Allah-təala Quranda onun adına bir surə də nazil etmişdi. Gecələri səhərə qədər ibadət və zikr edirdi. Həzrət Məryəm(s.ə) o insanlardan idi ki, Allah onun üçün

cənnət meyvələri göndərirdi. Allah-təala bu mətləbi “Ali-İmran” surəsinin 37-ci ayəsində vurğulamışdır:

كُلَّمَا دَخَلَ عَلَيْهَا زَكَرِيَّا الْمِحْرَابَ وَجَدَ عِندَهَا رِزْقاً قَالَ يَا مَرْيَمُ أَنَّى لَكِ هَذَا قَالَتْ هُوَ مِنْ عِندِ اللّهِ إنَّ اللّهَ يَرْزُقُ مَن يَشَاء بِغَيْرِ حِسَابٍ

-Zəkəriyyə hər dəfə (Məryəmin) ibadət etdiyi mehraba girdikdə onun yanında bir ruzi olduğunu görərdi. (Zəkəriyyə:) “Ya Məryəm, bunlar sənin üçün haradandır?” dedikdə, o: “Allah tərəfindəndir!”- deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz (hesabsız) ruzi verər!

Gecələrin birində Həzrət Məryəm(s.ə) dəstəmaz almaq üçün evdən çıxdı. Elə bu an İsanın(ə) dünyaya gəlmə anları başladı. Məryəm(s.ə) uzaqdan azad olmaq üçün bir ağacın altında əyləşdi. Allahın əmri ilə bir gecənin içində həm hamilə oldu və həm də uşaqdan azad oldu. Əgər doqquz ay hamilə olsaydı, Məryəmə(s.ə) şər yaxıb böhtan atacaqdılar. Həm də bu Allahın sirri və məsləhəti idi. Hər halda Həzrət Məryəm(s.ə) İsanı(ə) dünyaya gətirdi və peyğəmbər anası oldu. Ağacın altında haldan düşmüş vəziyyətdə əyləşmişdi. Allahın əmri ilə xurma ağacının salxımları onun başı üzərinə gəldi. Allah-təala buyurdu: “Ey Məryəm, dur bu meyvələrdən dər ye. Məryəm təəccüblə dedi: Ey mənim Rəbbim, bu günə kimi həmişə meyvələri mənim qarşıma göndərərdin. Xurmanın dərilmişini qarşımda hazır görərdim. Lakin peyğəmbər anası olduqda və bu ağır vəziyyətimdə mənə bu zəhməti verməyinin səbəbi nədir? Allah-təala buyurdu: Sən İsanı dünyaya gətirməmişdən əvvəl Məni bütün qəlbinlə, varlığınla sevirdin. Buna görə də meyvələri sənin qarşına göndərirdim. Lakin uşaq dünyaya gəldikdən sonra Mənə

olan məhəbbətinin bir hissəsini ona bağışladığın üçün gərək zəhmət çəkib meyvəni özün dərəsən.”

Bu ümumi bir qanun olduğundan bizə yol göstərir. Kim Allahı nə qədər sevdiyini bilmək istəyirsə, gərək öz qəlbini araşdırsın. Əgər qəlbinin hamısında tamamilə Allah məhəbbəti qərar tutursa, deməli Allahı sevirsən. Allahın yanında nə qədər qiymətinin olduğunu bilmək istəyən bir kəs Allahın onun yanında nə qədər qədir-qiymətinin olduğu ilə maraqlansın. Allaha görə nədən keçməyi bacardığını yoxlasın. Buna görə də insan Allaha yaxınlaşdıqca, imanı çoxaldıqca və yəqini artdıqca qeyri-adi şeylərə malik olacaqdır. Yəni insanın Allaha olan etiqad və yəqini çoxaldıqca, aləmin əşyaları da bir o qədər onun itaətində olar.

Günlərin birində Həzrət İsa Peyğəmbər(ə) evdən çıxdı. Həvarilərdən bir neçəsi onu axtarırdı. Çox axtardılar, lakin tapa bilmədilər. Axtara-axtara dənizin sahilinə çatdıqda gördülər ki, İsa Peyğəmbər(ə) suyun üzərində dayanıb. Onlar dedilər: “Ey Allahın Peyğəmbəri(ə), biz də səninlə suyun üzərində gəzə bilərikmi? Həzrət(ə) buyurdu: Əlbəttə. Onlardan biri ayağını suyun üzərinə qoyub gəzmək istəyəndə suya batdı. Həzrət İsa(ə) ona yaxınlaşıb buyurdu: Ey imanı zəif insan, əlimdən yapış. Əgər Adəm övladının qəlbində Allaha zərrə qədər yəqinlik olsaydı, suyun üzərində gəzərdi.”

İmam Sadiq(ə) buyurur: “Bir gün İslam Peyğəmbərinin(s) hüzurunda İsa Peyğəmbərdən(ə) söz açıldı. Səhabələr dedilər: “Ya Rəsulallah, eşitmişik ki, İsa Peyğəmbər(ə) suyun üzərində gəzirdi. Həzrət(s) buyurdu: Əgər onun yəqini bir az da artıq olsaydı, havada da yol gedər və suyun üzərində dayanıb namaz qılardı.”

Həzrət Əli(ə) yəqinin ən yüksək dərəcəsinə çatmış bir insan idi. Özü belə buyurardı: “Əgər Allah göyün hicablarının hamısını kənara çəksə, yəqinim zərrə də olsun artmaz.” Həzrətin(ə) yəqini nəhayət dərəcədə olduğu üçün belə buyururdu. Göyün hicablarının altındakıları gördüyü üçün hicablar çəkilsə belə ona heç bir təsir göstərməyəcək.

Yəqinə çatmaq üçün dildə danışmaq kifayət etmir. Yəqinə çatmaq əməl tələb edir. Bunun üçün insan sidq ürəklə çalışmalı və insanın qəlbi imanla dolu olmalıdır. Həzrət İbrahimi(ə) mancanağa qoyub odun içinə atdılar. Hamı bu hadisəyə tamaşa etmək üçün meydana toplaşmışdı. Nəmrudun Rəzə adlı bir qızı vardı. Qız eyvanda durub İbrahimin(ə) aqibətini gözləyir və bu hadisəyə tamaşa edirdi. O, İbrahimin(ə) peyğəmbər olduğunu bilmirdi. Elə bilirdi ki, atasının düşməni olduğu üçün onu edam edirlər. Lakin gördü ki, atəş İbrahimi(ə) yandırmır. İbrahim(ə) tonqalın içində güllər arasında əyləşib. Eyvandan səslənib dedi: “Ya İbrahim! Sən nə dedin ki, od səni yandırmadı?”

Həzrət İbrahim(ə) buyurdu: “Hər kim “Bismillahir-Rəhmanir-Rəhim”- deyib bu tonqalın içinə daxil olsa, alov onu yandırmaz.”

Qız eyvandan düşüb, ürəkdən “Bismillahir-Rəhmanir-Rəhim” deyərək tonqalın içinə daxil oldu və gedib Həzrət İbrahimin(ə) yanında əyləşdi. Kiçik yaşlı bir qız İbrahimin sözünə qəti şəkildə inam bəslədi və başa düşdü ki, burada heç bir şübhə ola bilməz. Hədislərdə belə nəql olunur ki, sonra Həzrət İbrahim(ə) həmin qızı öz oğlanlarının biri ilə evləndirdi və bu ailədən bir neçə peyğəmbər dünyaya gəldi.

Alimlərdən bir nəfər moizəsində qeyd etdi ki, hər kəs sidq ürəklə "Bismillahir-Rəhmanir-Rəhim" deyib suyun üstünə ayağını qoysa batmaz. Bir cavan oğlan onun sözlərinə diqqətlə qulaq asırdı. Söhbət qurtardıqdan sonra həmin oğlan evlərinə yollanır. Yolunun üstündə bir çay axırdı. Çayın kənarına çatdıqda yolu kəsə getmək üçün "Bismillahir-Rəhmanir-Rəhim" deyib suyun üstü ilə çayın o biri tərəfinə keçir. Bundan sonra həmişə bu yolu belə gedib-gəlirdi. Günlərin birində həmin alimi öz evlərinə qonaq çağırdı. Alim də onun dəvətini qəbul edib yola düşdülər. Çayın kənarına çatdıqda alim həmin oğlandan soruşdu: "Burada körpü yoxdurmu? Oğlan dedi: Körpü bir az uzaqdadır. Bura kəsə yoldur. Alim soruşdu: Bəs sən çayın o biri tərəfinə necə keçirsən? Oğlan dedi: Səndən eşitdim ki, hər kəs sidq ürəklə "Bismillahir-Rəhmanir-Rəhim" deyib suyun üstünə ayağını qoysa batmaz. Həmin gündən bəri mən bu yolla evə gedib-gəlirəm. Alim onun üzünə baxıb dedi: Sən bu sözü imanla eşidib, imanla da əməl etdiyin üçün həmin sözün həqiqətinə qəti şəkildə inanmısan. Buna görə də Allah sənə suyun üzərində yeriməyə icazə vermişdir. Sən təmiz ürəklə eşidib əməl etmisən. Mən isə oxuduqlarımı sənə danışmışam. Lakin mən suyun üzərində yol gedə bilmərəm. Mənə körpü lazımdır."

Odur ki, bu kimi şeylərin hamısı insanın qəti inamından asılıdır. Hər kəsin Allaha qəti inamı artdıqca gözləri açılır və həqiqəti görüb dərk edir. Həzrət Əlidən(ə) soruşdular: "Ya Əli, sən Allahı görürsənmi? Həzrət(ə) buyurdu: Mən görmədiyim Allaha ibadət etmərəm. Mən hər yerə baxdıqda Allahın nişanə və əsərlərini görürəm."

Əgər insan belə bir dərəcəyə nail olmaq istəyirsə, gərək qəlbində olan kiçik məhəbbətlərin hamısını çıxarsın.

Bu məqama nail olmaq üçün insanın qəlbində yalnız və yalnız Allah məhəbbəti qərar tutmalıdır. Günahlar, övlad məhəbbəti, dünya məhəbbəti, günah məhəbbətlər və bu kimi başqa məhəbbətlərin hamısı insanın möhkəm etiqada malik olmasının qarşısını alır. Əgər bu kimi amillər insanın qarşısını almasa, habelə iman və möhkəm etiqad güclü olsa, həmin insan Allahın adını eşitdikdə ləzzət alan bəndələrdən olar.

## Möhkəm etiqadın fayda və bəhrələri

Ötən bəhslərdə möhkəm etiqadın (yəqinin) mərhələləri haqqında söz açdıq. Həmçinin qeyd etdik ki, möhkəm etiqad imanın ən yüksək dərəcəsidir. İslamda möhkəm etiqad çox mühüm yer tutur. Səbəbi isə budur ki, Allahın insanlardan istədiyi übudiyyət, paklıq, nuraniyyət, təqva, ixlas, zöhd, ruhaniyyət və mənəviyyat yalnız möhkəm etiqad vasitəsilə əldə olunur. Əgər insanda möhkəm etiqad olmasa, təqvaya da nail ola bilməz. Möhkəm etiqadın fayda və bəhrələrindən biri təqvadır.

### Təqva

Biz bilirik ki, təqva İslamda ən mühüm məsələdir. Təqva ona görə mühümdür ki, onun haqqında Quranda insanlara təkidlə məlumat verilmişdir. Əgər peyğəmbərlər, imamlar, dahi şəxsiyyətlər, görkəmli alimlər və ata-babalarımız dünyadan gedərkən müxtəlif vəsiyyətlər etmişlərsə, deməli, vəsiyyət insanın son və mühüm sözüdür. Əgər insanların vəsiyyət etmələri bu qədər mühümdürsə, onda bütün vəsiyyətlərin hamısından üstün Allahın vəsiyyət və tövsiyəsidir. Sual oluna bilər ki, Allah-təala insana nəyi vəsiyyət edir? Bu sualın cavabını “Nisa” surəsinin 131-ci ayəsində belə oxuyuruq.

وَلَقَدْ وَصَّيْنَا الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ وَإِيَّاكُمْ أَنِ اتَّقُواْ اللّهَ

-Həqiqətən, Biz sizdən əvvəl (səmavi) kitab verilmiş kəslərə, eləcə də sizə vəsiyyət (tövsiyə) etdik ki, Allahdan qorxun (təqvalı olun).

İnsanın əməllərinin qəbul olunmasında ən əsas amil də təqvadır. Çünki Allah-təala "Maidə" surəsinin 27-ci ayəsində belə buyurur:

قَالَ إِنَّمَا يَتَقَبَّلُ اللّهُ مِنَ الْمُتَّقِينَ

-Həqiqətən, Allah yalnız təqvalılardan qəbul edir.

Təqva insanın Allaha yaxın olmasına səbəb olur. "Hücurat" surəsinin 13-cü ayəsində belə buyurulur:

انَّ اَكرَمَكُم عِندَ اللَّهِ أَتْقَاكُمْ

-Həqiqətən, sizin Allah yanında ən hörmətliniz sizin ən çox təqvası olanınızdır.

Bu ayələrdən açıq-aydın məlum olur ki, təqva insan üçün çox əhəmiyyətlidir. Təqva Allahın insanlara olan tövsiyəsi, əməllərin qəbul olunmasına səbəb olan və insanı Allaha yaxın edən amildir. Peyğəmbər(s) və məsum imamların hədislərinə əsasən, əgər insanın Allaha yəqini olmasa, təqva əldə edə bilməyəcək. Çünki insan pərdənin arxasına yəqin edərək əməllərə riayət edir. Təqva odur ki, insan ayaqyalın tikanlıqda ehtiyatla gəzdiyi kimi, həyatda da günahlardan o cür ehtiyat edib özünü qorusun. Hər kəs özünü haramlardan, günahlardan qoruyub saxlayırsa təqvalı insandır.

Deməli, pərdənin arxasına (qeyb aləminə) imanı və yəqini olan insan təqvaya riayət edir. Əgər bir insanın Allaha, mənəviyyata, pərdənin arxasına yəqini olmasa, qarşısına çıxan haramlardan və günahlardan özünü saxlaya

bilməyəcək. Buradan aydın olur ki, təqva yəqinin səmərə və bəhrəsidir. Yəqin insanın təqvalı olmasına səbəb olur. İnsan o zaman özünü haramlardan, günahlardan saxlaya bilər ki, pərdənin arxasında olanlara, qiyamətə, hesab-kitaba, cənnətə, cəhənnmə yəqini olmuş olsun. Dünya orucluq kimi bir şeydir. İnsan orucluqda özünü orucu batil edən şeylərdən saxladığı kimi, bu fani dünyada da özünü haramlardan qoruyaraq əbədi cənnətə qovuşa bilər.

Dünyanın orucluğa bənzəməsi barədə bir misala diqqət yetirək. Məsələn, ramazan ayı daxil olduqda bir insan oruc tutur. Sübh namazının azanı deyilən kimi orucu batil edən şeylərdən özünü şam azanına qədər saxlayır. Gündüz öz işləri ilə məşğul olur, bazarda yaxud digər yerlərdə işləyir. Oruc tutmayanlar yeyir, içir və hərəsi öz işindədir. Oruc tutan bu şəxs də oruc halında öz işi ilə məşğul olur və iftar açmaq üçün şam azanının vaxtını gözləyir. Bilir ki, axşam düşdükdə şirin şərbətlər və gözəl yeməklərlə iftar açacaq. İlin bəzi günləri uzun, bəzi günləri isə qısa olur. Yay günlərində orucun müddəti təxminən səhər saat 04:00-dan axşam 22:00-dək uzanır. Yayın istisində bu qədər müddətə insan oruc tutmalıdır. İlin qış fəslində isə gün qısa olduğundan orucun müddəti təxminən 06:00-dan axşam 18:00-dək qısa olur. Dünyanın məsəli də eynilə buna bənzəyir. İnsan orucluqda özünü iftara qədər orucu batil edən əməllərdən saxladığı kimi, dünyada yaşadığı müddətdə özünü haramlardan və günahlardan saxlamalıdır. Oruc tutan şəxs bir neçə saat səbir edib, nəfsini saxladıqdan sonra iftarda yemək yeyir. Dünya da eynilə buna bənzəyir. Bir müddət bu dünyada yaşayıb səbir etməklə, nəfsini saxlamaqla, haramlardan çəkinməklə əbədi olan cənnəti qazanır.

Alimlər, ariflər, zahidlər, təqvalı və dünyanın mənasını başa düşüb dərk edən insanlar bu dünyanı birgünlük oruca bənzədirlər. İnsan oruc tutarkən azacıq səbir edikdən sonra iftar vaxtı çatır. Dünyada da bir az səbir edib nəfsini boğsa, cənnətə çatacaq. Lakin bəzi insanların ömrü bir az uzundur. Elə bil ki, orucluq yay fəslinə düşüb. Bəzi insanların ömrü isə qısadır. Elə bil ki, orucluq qış fəslinə düşüb. Belə olduqda oruc tutan bir insan iftarda gözəl yeməklər yeyəcəyini, şirin şərbətlər içəcəyini bildiyi halda nə üçün iftar vaxtını gözləməsin? Oruc tutmayan insanlar üçün iftarın olub-olmamasının heç bir faydası yoxdur. Lakin oruc tutan insanlar səbir və hövsələ ilə iftar vaxtını gözləyir. Təqvalı və ömrü uzun olan insanlar həmişə zəhmət və əziyyətdədir. Təqvalı insanlar həmişə ömrünün tez qurtarmasını istəyər. Çünki təqva sahibi olan insan yəqin bilir ki, dünyadan gedəndən sonra cənnət öz nemətlərilə onun yolunu gözləyir. Belə olduqda nə üçün də tələsməsin? Sonuncu İmamımızın(ə.c) ən böyük müsibət və dərdlərindən biri ömrünün uzun olmasıdır. Min ildən artıqdır ki, yaşayır. Bu illər ərzində nə qədər müsəlmanın nahaq yerə öldürüldüyünü, körpələrin qırılıb torpaq üstünə düşdüyünü, milyonlarla insanların haqqının tapdalandığını gözü ilə görmək necə də ağır dərddir. Lakin Allah onun zühur etməsinə hələ icazə vermir. Bu, Allahın Öz hikmətidir. Lakin İmamımız(ə.c) səbir edir və zühur edəcəyini gözləyir. Onun gözü qarşısında milyonlarla müsəlmanın vəhşicəsinə öldürülməsi çox böyük müsibətdir.

Ağıllı, təqvalı insanlar üçün bu dünyada yaşamaq çox çətin və əziyyətlidir. Lakin ağılsız, təqvasız insanlar üçün bu dünyada yaşamaq asandır. Çünki onların pərdə

arxasına, cənnət və cəhənnəmə möhkəm etiqadları yoxdur. Ağılsız insanlar heyvan kimi bu dünyada ömürlərini sürürlər və onlar üçün haqq, nahaq, insanların qırılması, kimin necə yaşaması maraqlı deyil. Ağıllı və imanlı insanlar üçün yaşamağın çətinliyi çox aydındır. Odur ki, bu dünya birgünlük oruca bənzəyir. Əgər insan bu dünyada azacıq səbir edib dözərsə, bütün asanlıqların qapısı üzünə açılacaq. Bu dünyanı təqva, səbir və imanla başa vurduqdan sonra cənnətin bütün nemətləri insan üçün hazır olacaq. “Yasin” surəsinin 57-58-ci ayələrində buyurulur:

لَهُمْ فِيهَا فَاكِهَةٌ وَلَهُم مَّا يَدَّعُونَ. سَلَامٌ قَوْلًا مِن رَّبٍّ رَّحِيمٍ

-Orada onlar üçün (hər cür) meyvələr, istədikləri və arzu etdikləri hər şey vardır. (Onlara) salam vardır. (Bu salam) rəhimli Rəbbdən (gələn) bir sözdür.

Əgər insan bu dünyada müvəqqəti yaşamasına, öləcəyinə və öləndən sonra onu nə gözlədiyinə yəqiniyi olsa, təqva əldə edə bilər. Çünki yəqinin insana olan faydalarından biri budur ki, insan yəqinlik vasitəsilə təqva qazanır. Yəqinlik ona görə mühümdür ki, insan onun vasitəsilə təqvalı ola bilir.

قَالَ عَلِيّ(ع): اَلتَّارِكُ لِلعَمَلِ غَيرُ مُوقِنٍ بِالثَّوَابِ عَلَيهِ

-Həzrət Əli(ə) buyurur: “Yaxşı (vacib) əməlləri tərk edən kəsin (həmin əməllərin savab veriləcəyinə) yəqinliyi yoxdur.”[1]

Yəni hər kəs günah iş görürsə, və vacib əməlləri yerinə yetirmirsə, deməli o insanın qiyamət günü əmələrə savab və ya cəza verilməsinə yəqinliyi (inamı) yoxdur.

[1] Mizanül-hikmə, 22969-cu hədis.

Əlbəttə, isti havalarda oruc tutan, namaz qılan, qarnını haramlardan saxlayıb, gözünü naməhrəmlərdən qoruyan insanın Allah yanında böyük savabı vardır. Hədislərdə deyilir ki, insan naməhrəmlə qarşılaşdıqda (naməhrəmə baxmadan) başını yuxarı qaldırıb keçərsə, Allah-təala göyün mələklərinin sayı qədər həmin şəxsə savab verər. Əgər insan naməhrəmlə üzləşdikdə (naməhrəmə baxmadan) yerə baxıb keçərsə, Allah-təala yerin mələklərinin sayı qədər həmin şəxsə savab verər. Yerin və göylərin mələklərinin sayına gəldikdə isə onların sayını Allahdan başqa heç kəs bilmir. Lakin bir sıra hədislərdən mələklərin çox olduğunu başa düşmək olur. Hədislərdə deyilir ki, yağan yağışın hər damlasını iki mələk gətirib yerə qoyur. İnsanın bütün əməllərinə gəldikdə isə, hamısı mələklər tərəfindən yazılıb qeydə alınır. Əgər insan başa düşsə, yəqinliyi olsa ki, onun bütün yaxşı əməllərinə nə qədər savab veriləcək, heç vaxt yaxşı əməlləri tərk etməz. Yəqinin faydası da elə bundadır ki, insan onun vasitəsilə təqvalı olmağa çalışır. Digər bir hədisdə Həzrət(ə) belə buyurur:

اَلتَّقوَى ثَمَرَةُ الدِّين وَ اَمارَةُ الْيَقِين

-Təqva dinin bəhrəsi və yəqinin əlamət və nişanəsidir.[1]

---

[1] Mizanül-hikmə, 22962-ci hədis.

**Zöhd**

Zöhd yəqinliyin bəhrə və səmərəsidir. Zöhd odur ki, insanın ürəyi dünyaya bağlı olmasın. Belə bir insana zahid deyilir. Ola bilsin ki, bu şəxsin pulu və maddi imkanı çox olmuş olsun. Lakin mühüm olanı budur ki, həmin dövlət onu özünə və dünyaya bağlamasın. Yəni dünyaya meyilli insan olmasın. Həzrət Əlidən(ə) soruşdular: "Zöhdün mənası nədir? Həzrət(ə) onların sualını bu ayə ilə cavablandırdı:

لِكَيْلَا تَأْسَوْا عَلَى مَا فَاتَكُمْ وَلَا تَفْرَحُوا بِمَا آتَاكُمْ

-Əlinizdən çıxan şey üçün təəssüflənməməyiniz və sizə verilən şey üçün (yersiz) sevinməməyiniz üçün(dür)!"[1]

Deməli, zöhdün mənası odur ki, insan dünyada əlindən çıxan bir şey üçün təəssüflənməsin və əlinə gələn bir şeyə görə də sevinməsin. Dünya və dünyada olanlar insan üçün mühüm olmamalıdır. Məsələn, insan rəngi qurtarmış bir qələm üçün təəssüflənmir. Əgər kimsə təəssüflənsə, onu başa salıb belə deyirlər: onun mahiyyəti nədir ki, ondan ötrü təəssüf edirsən? Yaxud rəngi qurtarmış bir qələmi insana versələr, sevinərmi? Dünya da eynilə buna bənzəyir. İnsan bu dünyada əlindən çıxan hər bir şeyə görə təəssüflənməməli və əlinə gələn hər bir şeyə görə də fərəhlənməməlidir. Həzrət Əli(ə) dünyaya belə baxırdı. Dəfələrlə dünya ilə söhbətlər etmiş və dünyaya üç dəfə təlaq vermişdir: "Ey dünya, məndən uzaq ol. Özünü mənəmi göstərirsən? Sən məni heç vaxt aldada bilməzsən. Get, Əlidən başqasını axtar."

---

[1] Hədid surəsi, ayə 23.

Digər yerdə isə Həzrət(ə) belə buyurur: "Dünya, məni qorxudursan? Məni aldatmağa çalışırsan? Elə bilirsən ki, mən səni tanımıram? Allah sənin haramlarından məni çəkindirdi, mən sənin halallarından da çəkindim."

Həzrət Əli(ə) bu dünyanın həqiqətinin mənasını dərk etmişdi. Onun gözündə dünyanın əhəmiyyəti yox idi. Həzrət(ə) dünyaya qiymətsiz bir əşya kimi baxırdı.

Böyük, təqvalı və arif insanlardan biri öz oğluna məktub yazmışdı. Məktubun içinə bir miqdar kağız pul qoyub oğluna yolladı. Məktubun axırında isə belə yazdı: "Oğlum, bu məktubun arasında sənin üçün bir neçə kağız göndərirəm. Uşaqlar bu kağızları görəndə sevinib şad olurlar. Amma böyük insanlar onu görəndə sevinmirlər. İnsana yalnız həyatını sürmək üçün həmin kağızdan müəyyən miqdar lazımdır."

Odur ki, əgər bu dünyada insana bir şey verildikdə şad olmursa, ondan bir şey alındıqda təəssüflənmirsə zahid insandır. Çünki bu insanın dünyaya heç bir bağlılığı yoxdur.

Həzrət Peyğəmbər(s) İbn Məsuda vəsiyyət edərək belə buyurur:

فَعَلَيكَ بِالزُّهد فَإن ذَلِكَ مِمَّا يُبَاهِيَ اللهُ بِهِ الْمَلائِكَةَ

-Sənə zöhdü (zahid olmağı) tövsiyə edirəm. Həqiqətən, zöhd elə bir əməldir ki, Allah mələklərin içərisində zahid insanın vücudu ilə fəxr edir.[1]

[1] Mizanül-hikmə, 7683-cü hədis.

قَالَ رَسُولُ اللهِ(ص): يَا اَبَاذَر! مَا زَهِدَ عَبْدٌ فِي الدُّنيا اِلاّ أَنبَتَ الْحِكمةَ فِي قَلبِهِ وَ أَنطَقَ بِهَا لِسَانِهِ وَ يُبَصِّرُهُ عُيوبَ الدّنْيَا وَ دَاءَهَا وَ دَوَاءَهَا وَ أَخرَجَهُ مِنهَا سَالِماً اِلَى دَارِ السَّلام

-Həzrət Peyğəmbər(s) buyurur: "Ey Abuzər, elə zahid bəndə yoxdur ki, Allah onun qəlbini hikmətlə doldurmasın, dilinə hikmətli sözlər gətirməsin, dünyanın eyiblərini, dəva və dərdlərini ona göstərməsin. Allah zahid insanı sağ-salamat dünyadan çıxarıb darus-səlama (cənnətə) aparacaq.[1]

Gözəl və qiymətli hədislərin birində rəvayətçi deyir:

-Mən İmam Baqirin(ə) hüzurunda idim. Gördüm ki, Hümran ibn Əyan bir neçə nəfərlə Həzrətin(ə) hüzuruna gəlib əyləşdilər. Hümran İmama(ə) bir neçə sual verdikdən sonra dedi: "Ey Peyğəmbər övladı, elə bil ki, bizdə bir münafiqlik halı yaranmışdır. Biz sənin hüzurunda olarkən və səninlə söhbət edərkən ürəyimiz rahatlıq tapır və yumşalır. Nə qədər sənin yanında oluruq ruhlarımız rahatlaşır, dünyaya rəğbət göstərmirik və camaatın əlində olan var-dövlətə qarşı etinasız oluruq. Lakin səndən ayrıldıqdan sonra camaatla oturub-durarkən, uşaqlarımızı gördükdə və öz ailəmizlə əyləndikdə sənin yanında bizə gələn əhval aradan gedir. Yəni sənin yanında bizə gələn hal səndən uzaqlaşdıqdan sonra bizdən uzaqlaşır. Belə bir xüsusiyyət bizim üçün qorxulu və təhlükəli deyilmi?"

İmam Baqir(ə) ona bir cümlə ilə cavab verərək Həzrət Peyğəmbərin(s) hüzurunda olan hadisəni onlara

---

[1] Mizanül-hikmə, 7746-cı hədis.

açıqladı. Həzrət(ə) buyurdu: “Bəzən qəlblər çox möhkəm, paslı və qəsavətli olar. Bəzən də çox yumşaq, aram və sakit olar. Bu, qəlbin hallarıdır və qəlblər həmişə bir qaydada olmur. Bəzən paslanır və bəzən də təmizlənir.”

Sonra İmam(ə) Həzrət Peyğəmbərin(s) hüzurunda olan hadisəni belə açıqladı: “Səhabələrdən bir neçə nəfər Peyğəmbərin(s) yanına gəlib dedilər: “Ya Rəsulallah, elə bil ki, bizim qəlbimizdə münafiqlik və ikiüzlülük yaranıb. Biz bu haldan çox qorxuruq və narahat oluruq ki, bizdə nəyə görə belə bir hal yaranıb. Elə ki sənin yanında oluruq və sən bizə Allahı xatırladırsan, bizimlə söhbət edib haqqa, mərifətə və cənnətə dəvət edirsən, bizim qəlbimizin pası və qaralığı təmizlənir, ruhlarımız rahatlaşır. Dünyanın, mal-dövlətin, əhli-əyalımızın məhəbbəti qəlbimizdən çıxır. Biz sənin yanında olarkən elə bil axirəti, cənnəti və cəhənnəmi gözümüzlə görürük. Lakin səndən ayrılıb uzaqlaşdıqda, öz övladlarımızı gördükdə və dünya işlərinə başımız qarışdıqda sənin yanında bizdə olan həmin hal yox olub gedir. Elə bil sənin hüzurunda cənnət-cəhənnəmi görən adamlar deyilik. Ya Rəsulallah, bu, bizim üçün nifaq və münafiqlik deyilmi?”

Peyğəmbər(s) buyurdu: “Xeyr, belə deyildir. Bu, şeytanın hiyləsidir. Şeytan sizi dünyaya tərəf çəkmək istəyir. Siz mənim yanımda olarkən qəlbləriniz rahat və aram olur. Çünki mənim yanımda şeytan yoxdur və qəlbinizə daxil olub sizi yoldan çıxara bilmir. Lakin məndən ayrıldıqda şeytan sizin qəlbinizə girib sizi yoldan çıxarmaq istəyir. Əgər mənim yanımda sizə gələn halı

həmişə özünüzdə saxlasanız, mələklər sizinlə görüşə gələr və suyun üzərində gəzə bilərsiniz.”[1]

Odur ki, əgər insanın axirətə yəqinliyi olsa, heç bir vaxt dünyanı axirətdən üstün tutmaz. Axirətdə onu nə gözlədiyinə yəqini olan insanın dünyaya rəğbət və meyli olmaz.

قَالَ عَلِيّ(ع): اَصلُ الزُّهد اليَقِين

-Həzrət Əli(ə) buyurur: “Zöhdün (dünyaya meyl etməməyin) əsli yəqinlikdir.”[2]

قَالَ عَلِيّ(ع): كَيفَ يَزهَدُ فِي الدُّنيَا مَن لا يَعرِفُ قَدرَ الآخِرَة

Digər bir hədisdə isə Həzrət(ə) belə buyurur: “Axirətin qədrini bilməyən kəs dünyaya necə meylsiz ola bilər? (Axirətə yəqinliyi olmayan kəs dünyada necə zahid ola bilər?)”

Həqiqətdə də belədir ki, əgər insan cənnətdə ona hansı nemətlərin nəsib olacağına yəqinliyi olsa, bu dünyadan əl çəkər və dünyaya meyl etməz. Məsələn, uşaqlar müxtəlif oyuncaqlarla oynayırlar. Çox vaxt həmin oyuncaqların üstündə bir-biri ilə dalaşırlar. Bu zaman onlara təzə və daha yaxşı oyuncaq göstərdikdə əlindəkini atıb ona sarı qaçar. Buna görə də insan axirətlə dünyanı yanaşı qoyub müqayisə etsə, baxıb görər ki, onlar ölçüyəgəlməz dərəcədə bir-birindən fərqlidirlər.

قَالَ عَلِيّ(ع): كَذِبَ مَن اِدَّعَى اليَقِين بِالبَاقِى

---

[1] Mizanül-hikmə, 7753-cü hədis.
[2] Mizanül-hikmə, 7729-cu hədis.

وَ هُوَ مُوصِلٌ لِلفَانِی

-Həzrət Əli(ə) buyurur: “Əbədiyyətə (axirətə) yəqinlik iddiası edib, fani dünyaya bağlanan (bel bağlayan) kəs yalan danışır (iddiası yalandır).”[1]

قَالَ عَلِیّ(ع): اَینَ الْمُوقِنُونَ الذِّینَ خَلَعُوا سَرابِلَ الْهَوَی وَ قَطَعُوا عَنْهُم عَلائِقَ الدُّنْیَا

Digər bir hədisdə də Həzrət(ə) belə buyurur: “Haradadır yəqinliyə çatmış o insanlar ki, nəfsi istəklərini özlərindən uzaqlaşdırıb dünyaya olan əlaqələrini qırdılar?“[2]

Yüksək mənəviyyatlara malik olan insanların hamısı bu mərhələlərdən keçmiş, Allaha və axirətə yəqinlik taparaq nəfsi istəklərini ayaqlarının altına salmış və dünyaya olan əlaqələrini qırdıqdan sonra yüksək mərhələləri qazanmışlar. Cavan vaxtlarından başlayaraq zəhmət çəkmiş, dünyadan yalnız ehtiyacları qədər istifadə etmişlər. Bundan başqa dünyaya heç bir meyl göstərməyib, elm öyrənmək və təqva qazanmaqla özlərini yüksək mərhələlərə çatdırmışlar. Əgər bir insan təqva əldə etmədən vergi verildiyini iddia etsə, yalançı adamdır. Təqvasız insanların vergili olması, hansısa bir nuru görməsi, Peyğəmbər(s) və imamları yuxuda görməsi bir neçə haldan xaric deyil. Belə insan ya psixoloji cəhətdən problemli, ya da cin vurmuş insanlardan ola bilər. Yaxud normal insan kimi bəzən hansısa imamı yuxuda görməsi mümkündür. Amma bu o demək deyil ki, həmin insan

---

[1] Yenə orada, 23006-cı hədis.
[2] Yenə orada, 23008-ci hədis.

müqəddəsdir, yaxud vergilidir. Məgər Peyğəmbər(s) və imamların sağlığında camaat onları görmürdülərmi? Peyğəmbərlə(s) düşmən olanlar, adam öldürənlər, günahkar insanların hamısı Həzrəti(s) görürdülər. Məgər Həzrət Əlinin(ə) ətrafında olanlar onu görmürdülərmi?

İndiki zamanda da ola bilsin ki, kimsə Peyğəmbəri(s) və imamları yuxuda görmüş olsun. İnşallah, on ikinci İmamımız(ə.c) zühur etdikdən sonra hamı onu görəcəkdir. Lakin yuxuda kimisə görmək, vergi verilmək, qəribə səslər eşitmək və bu kimi halların baş verməsi heç də həmin insanın nuraniyyətindən xəbər vermir. İnsanın həyatında müxtəlif hadisələr baş verə bilər. Buna görə də bəzi situasiyalarda insan məsələn, elə bir yerə gedir ki, heç vaxt orada olmayıb. Ətrafa göz gəzdirdikdə nə vaxtsa həmin yerdə olduğunu anlayır, lakin bunun nə vaxt baş verdiyi yadına düşmür. Bəzi insanların yaddaşları iti olduğu üçün gördüklərinin çoxu yadlarında qalır, bəzi insanların isə yadına çox az düşür. Bütün bunlar elə şeylərdir ki, insan ömrünü bu kimi şeylərə sərf etməməlidir. Çünki bunlar insanın təbii hallarıdır. Bir daha qeyd edim ki, bu kimi hallar insanın nuraniyyət və mənəviyyatına dəlalət etmir. İnsan o vaxt nuraniyyət və mənəviyyat əldə edə bilər ki, illərlə zəhmət çəkib təqva qazanmış olsun. İnsan yəqin və təqva vasitəsilə istədiyi məqam və nuraniyyətə nail ola bilər. Ola bilsin ki, bu dünyada əlində bir şey olmasın. Lakin bu yəqinlik və təqva onun cənnəti qazanmasına səbəb olar. İnsanın bu dünyada vəzifəsi təqvalı olmaqdır. İnsan bu aləmdə qeyri-adi şeyləri görmək və ya eşitmək üçün çalışmamalıdır. Təqva qazanmaq insanın bu dünyada olan vəzifəsidir. İnsan təqva əldə etmək üçün çalışmalı və zəhmət çəkməlidir.

## Səbir

Ötən bəhslərdə qeyd olundu ki, insan imanında yəqin dərəcəsinə çatarsa, belə bir iman insanı səadətə çatdıra bilər. Həmçinin Quran ayələri və hədislərə əsasən yəqinin üç mərhələsi haqqında söhbət etdik. Yəqinin hər bir mərhələsi insana nicat verə bilər. Lakin həqqül-yəqinə çatan insanların sayı çox azdır. İslam Peyğəmbəri(s), Musa(ə), İbrahim(ə) kimi şəxsiyyətlər Allahın inayəti ilə özlərini yəqinin bu mərhələsinə çatdırmışlar. Yəqinlik insanın xoşbəxtliyə və səadətə çatması üçün çox mühüm yer tutur. Allahın bizdən istədiyi təqva, zöhd və bu kimi əməllər yəqin vasitəsilə hasil olur. Əgər insan özünü yəqin mərhələsinə çatdıra bilməsə, Quranın bizə təqva və zöhd kimi təkid etdiyi amilləri əldə etmək çətin məsələdir. Söz danışmaqla, kitab yazmaqla, hekayə oxumaqla, özünü alim kimi göstərməklə insan bu həqiqətlərə yetişə bilməz. Çünki bütün bunlar yəqinliyin bəhrələridir. İnsanda imanın yəqinlik mərhələsi olmasa, günahla üzləşdikdə, xəlvət bir yerdə, nəfsani qüvvələrin baş qaldırdığı halda özünü günahlardan saxlaya bilməz. Adi halda mümkün olsa da, xəlvətdə günaha qalib gələ bilməyəcək. Böyük şəxsiyyətlərin birindən soruşdular: “Xəlvət bir otaqda naməhrəm qadınla günah etməyə hər cür şərait olduqda nə edərdiniz?” O, belə cavab verir: “Allaha pənah aparardım.”

İnsan gün ərzində müxtəlif günahlarla qarşılaşır. Əgər insanın nuraniyyət və mənəviyyatı Allaha olan yəqinlik vasitəsilə güclənməsə, özünü günahlardan qoruyub saxlaya bilməz. Keçmiş zamanlarda insanlar yol gedərkən əllərində neft, yaxud yağ lampaları aparardılar. Həmin lampalar yol getmək üçün insanın ayağının altını

təxminən iki-üç metrlik məsafədə işıqlandırardı. Külək əsdikdə onun işığını söndürərdi. Biri var ki, insan lampa işığı ilə yol getsin, bir də var ki, günəşin işığı ilə hərəkət etsin. Günəşin işığını heç bir tufan, külək söndürə bilmədiyi kimi, insanın yəqinlik vasitəsilə əldə etdiyi nuraniyyəti heç bir günah söndürə bilməz. Yəni insanı hər bir halda günahdan daxilində olan nuraniyyət qoruyub saxlaya bilər. Əgər insanın ürəyində nuraniyyət yaranmasa, özünü mömin kimi cənnətə aparıb çıxarması çətin məsələdir. Bu nuraniyyəti yaratmaq üçün insana yəqinlik lazımdır. Yəqinlik barədə keçmiş bəhslərdə söhbət etmişik. Onun bəhrə və faydalarından ikisini də qeyd etdik. Bu bəhsdə isə yəqinin üçüncü faydası barədə söz açacağıq.

Yəqinin insana olan faydalarından biri səbirdir. Səbir etmək İslamda çox mühüm xarakter daşıyır. Səbrin İslamda olan rolu bədəndə olan baş kimidir. Quranda səbir etmək insanlara çox təkid olunmuşdur. Çünki hər bir şeyə səbir etmək lazımdır. Hətta ibadət etməyin özünə də səbir lazımdır. Məsələn, yayın isti günlərində oruc tutmaq çox çətindir. Əgər səbir olmasa, insan bu günlərdə orucu necə tuta bilər? İnsanın daxilində yəqin olmadıqda günahla qarşılaşarkən özünü günahdan necə saxlaya bilər? Yəqinlik elə bir şeydir ki, insanı səbrə vadar edir. İnsanı səbrə vadar edən bir amil olmadıqda isə səbir edə bilməyəcək.

Allah-təala Həzrət Musa(ə) barədə belə buyurur:

وَلَقَدْ آتَيْنَا مُوسَى الْكِتَابَ فَلَا تَكُن فِي مِرْيَةٍ مِّن لِّقَائِهِ وَجَعَلْنَاهُ هُدًى لِّبَنِي إِسْرَائِيلَ. وَجَعَلْنَا مِنْهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا لَمَّا صَبَرُوا وَكَانُوا بِآيَاتِنَا يُوقِنُونَ

-Şübhəsiz, Biz Musaya (səmavi) kitab (Tövrat) verdik, belə isə (sən) onunla görüş (meracda Musa ilə görüş) barəsində şəkk və şübhədə olma. Biz onu İsrail övladları üçün doğru yol göstərən bir vasitə etdik.

Səbir etdikləri və ayələrimizə (Tövratın ayələrinə) yəqinliklə inandıqları üçün Biz onlardan əmrimizlə (insanlara) haqq yolu göstərən imamlar (rəhbərlər) təyin etdik.[1]

Allah-təala iki səbəbə görə onlara nübüvvəti (insanlara rəhbərliyi) əta etmişdi. Birinci səbəbi onların səbir etmələri, ikinci səbəbi isə Allahın ayələrinə möhkəm etiqad etmələri idi.

İmam Sadiq(ə) buyurur: “İslam Peyğəmbərinə(s) çox əziyyətlər vermişdilər. Düşmənlər Həzrətə(s) hücum etmiş, daş atmış, qılınc yarası vurmuş, təhqir edib söymüşdülər. Peyğəmbər(s) isə bütün bunlara səbir etdi. Allah-təala ona ürək-dirək vermək üçün Əyyub, Musa, İbrahim və s. kimi böyük peyğəmbərlərin səbirli olduqlarını bəyan edərək, Həzrətə(s) səbirli olmağı tövsiyə edirdi. Həzrət Peyğəmbər(s) düşmənlərin işgəncələrinə dözüb yenə də səbir edirdi. Onlar Peyğəmbərə(s) qarşı əllərindən gələn əziyyəti verməkdən, ata- babalarına layiq olan sözləri deməkdən çəkinmirdilər. Peyğəmbərin(s) belə səbirli olduğunu görüb Allah barədə pis sözlər danışmağa

[1] Səcdə surəsi , ayə 23-24.

başladılar. Peyğəmbər(s) Allahla münacat edərək belə dedi: “İlahi, bunlar mənə, ailəmə, səhabələrimə qarşı pis danışıb əziyyət verdilər, amma mən səbir etdim. Sənin haqqında belə sözlər danışmalarına dözə bilmirəm. Allah-təala buyurdu: Yenə də səbir et.”

Sonra İmam Sadiq(ə) belə buyurur: “Peyğəmbərin(s) belə səbirli olması Allah-təalanın imamları onun nəslindən qərar verəcəyinə dair müjdə verməsinə səbəb oldu. Allah-təala bu imamlara da belə səbirli olmağı tövsiyə etdi. Bəşarət müjdəsini eşitdikdən sonra Peyğəmbər(s) buyurdu: “Səbir imanda başın bədənə olan nisbəti kimidir.”[1]

Ümumiyyətlə, Allah-təala Onun yolunda bütün səbir edənlərə salam göndərir. Bir insan cavan vaxtlarında hər bir günahı etməyə gücü olduğu halda Allaha xatir səbir edib günahlardan çəkinsə, çətinliklə də olsa vacib əməlləri yerinə yetirib Allah yolunda səbir etsə, Allah belə insanlara salam göndərir. Çox təəssüflər olsun ki, qulaqlarımız bu salamı eşitməkdə acizdir. Əlbəttə, qeyd etməliyəm ki, Allahın bu salamını eşidən nurani insanlar da vardır. Allah kimə məsləhət bilsə eşidəcək, kimə məsləhət bilməsə eşitməyəcək. Bu, Allahın Öz işidir və biz bu salamı eşitmək üçün ibadət etmirik.

Əgər kimsə hansısa qeyri-adi bir səs eşitmək, hansısa bir nuraniyyəti görmək üçün ibadət edirsə, onun bu ibadəti batildir. Çünki ibadətdə ən əsas şərt niyyətdir və bu niyyət də yalnız Allaha xatir olmalıdır. Ola bilsin ki, Allah-təala bəzi insanların gözlərini və qulaqlarını açmış olsun. Çox vaxt isə Allah Özü məsləhət bilmir ki, hamı bu səsləri

[1] Təfsiri-nümunə, 17-ci cild, səh 170.

eşidib, nuraniyyəti görsün. Çünki qeyri-adi şeyləri görməyə-görməyə, eşitməyə-eşitməyə ibadət etməyin fəziləti daha üstündür. Məsələn, Peyğəmbərdən(s) sonra Həzrətə(s) iman gətirənlərin savabı daha çoxdur. Peyğəmbərin(s) dövründə olmadan iman gətirib ibadət edənlərin savabı Həzrətin(s) dövründə iman gətirib ibadət edənlərin savabından daha çoxdur. Həzrət Peyğəmbər(s) belə möminləri özünə qardaş hesab edir. Hədislərdə deyilir ki, bir gün Həzrət Peyğəmbər(s) buyurdu: "Qardaşlarımı nə vaxt görəcəyəm?" Soruşdular: "Məgər biz sizin qardaşlarınız deyilik?" Buyurdu: "Siz mənim səhabələrimsiniz, mənim qardaşlarım mənə görmədən iman gətirən kəslərdir. İndidən onları görmək şövqündəyəm."

Odur ki Allah-təala "Bəqərə" surəsində səbir edənləri müjdələyərək belə buyurur:

وَبَشِّرِ الصَّابِرِينَ. الَّذِينَ إِذَا أَصَابَتْهُم مُّصِيبَةٌ قَالُواْ إِنَّا لِلّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعونَ. أُولَئِكَ عَلَيْهِمْ صَلَوَاتٌ مِّن رَّبِّهِمْ وَرَحْمَةٌ وَأُولَئِكَ هُمُ الْمُهْتَدُونَ

-Səbir edənlərə müjdə ver. O kəslərə ki, onlara hər hansı bir müsibət gəldikdə "həqiqətən, biz Allahınıq (bizim yaradılışımız, qorunmağımız, işlərimizin idarə edilməsi və yox edilməyimiz Onun əlində olduğu üçün Onun həqiqi malı, mülküyük) və həqiqətən Ona tərəf qayıdacağıq" - deyərlər. Onlar Rəbbləri tərəfindən salamlar və rəhmət yetişən kəslərdir və hidayət olunmuşlar onlardır!"

## Səbrin mənası

Günlərin birində İslam Peyğəmbəri(s) cənab Cəbrayıldan(ə) soruşdu: Səbrin mənası nədir? Cəbrayıl(ə) belə cavab verdi:

تَصبِرُ فِي الضَّراءِ كَمَا تَصْبِرُ فِي السَّراءِ، وَفِي الفَاقَةِ كَمَا تَصبِرُ فِي الغِنَى، وَفِي البَلاءِ كَمَا تَصْبِرُ فِي العَافِيَة، فَلا يَشكُو حَالَهُ عِندَ المخْلُوق بِما يُصِيبُه مِن البَلاءِ.

-Səbrin məna və təfsiri odur ki, insan asayiş və rahatlıqda səbir etdiyi kimi, çətinliklər və sıxıntılarda da səbir etsin. İmkanlı vaxtında səbir etdiyi kimi imkansız (pulsuz) vaxtında da səbir etsin. Sağlam olduğu halda səbir etdiyi kimi bəla və xəstəliklər zamanı da səbir etsin. Bir xəstəliyə və bəlaya düşdüyü haldan bəndələrə şikayət etməsin.[1] (Allahdan bəndələrə şikayət etməsin.)

قَالَ رَسُولُ اللهِ(ص): اَلَّذِينَ يَصبِرُونَ عَلى طَاعَةِ اللهِ وَعَن مَعصِيَتِهِ. اَلَّذِينَ كَسَبُوا طَيِّبًا وَانْفَقُوا قَصدًا وَقَدَّمُوا فَضلاً فَافلَحُوا وَانْجَحُوا

Həzrət Peyğəmbər(s) buyurur: "Allahın əmrlərinə itaət etməkdə (vacib əməlləri yerinə yetirməkdə) və onun qadağan etdiyi şeylərdən çəkinməkdə səbir edənlər, halal və pak ruzi qazanıb özünü dolandırıb artığını Allah yolunda bağışlayan kəslər xoşbəxt olub nicat taparlar."[2]

Bu hədis barədə yaxşı olar ki, bir qədər açıqlama verək. Əvvəla, insan Allahın əmrlərini yerinə yetirməkdə və haramlar qarşısında səbirli olmalıdır. Yəni haramlarla

---

[1] Mizanül-hikmə (t.v.), 10090-cı hədis.
[2] Mizanül-hikmə (t.v.), 10093-cü hədis.

üzləşdikdə səbir edib onlardan çəkinməlidir. İkincisi, halal ruzi qazanmaqda səbirli olub, öz gəlirinə haram qatmamalıdır. Hər bir işdə - istər ticarət işləri olsun, istərsə də idarə işləri, qazancında qətiyyən harama yol verməməlidir. Məsələn, fərz edək ki, hansısa bir idarədə gün ərzində səkkiz saat işləməlidir. Əgər bilərəkdən işə bir saat gec getsə, yaxud işdən tez çıxsa, həmçinin görüləcək işi saatında yerinə yetirməsə, aldığı maaşı halal deyil. Buna görə də insan hər bir işində səbirli və diqqətli olmalıdır. Əgər bütün dünyada insanlar belə bir imanla iş görsələr, heç kəsin problemi olmaz. Əgər iqtisadçılar ölkələrin iqtisadiyyatını bu imanla tənzimləsələr, cəmiyyətdə heç bir problem yaranmaz. Əgər müəllimlər şagirdlərlə öz balaları kimi rəftar edib, imanla dərslərini desələr, tədris baxımından kimin nigarançılığı ola bilər? Əgər mütəxəssislər dünyadakı qanunları bu imanla yazıb təsdiqləsələr, insanların heç bir qəm-qüssəsi olmaz. Əgər insanların hər biri öz sahəsində imanla rəftar etsələr, kim bu dünyada problemlə qarşılaşa bilər? Əgər insanlar öz övladlarına, müəllimlər öz şagirdlərinə Peyğəmbərin(s) buyurduğu kimi tərbiyə versələr, cəmiyyətdə bu cəhətdən hansı problemlər ola bilər? Belə olduqda bütün insanlar səfa və səmimiyyət içində yaşayar və həyatlarını da gözəl tərzdə yaşayarlar. Əgər insanlar bütün işlərini iman sayəsində qursalar, bu zaman həm dünya, həm də axirət insanlara cənnət olar. Dünyanı özlərinə cəhənnəm edənlər də insanların özləridir. Belə ki, öz əlləri ilə dünyanı cəhənnəmə çevirdikdən sonra çıxış yolları axtarmağa başlayırlar. Dünyanı özlərinə cəhənnəm etdikdən sonra buranın od-alovunu özləri ilə cəhənnəmə aparırlar. “Zahid, məni aldatma, cəhənnəmdə od olmaz, onlar ki yanırlar, odu burdan aparırlar.” Hər kəs özü ilə apardığı odda

yanacaq. Bu dünyanı özünə cəhənnəm etməklə yanaşı, axirətin xeyirxahlığına ümidvar olmaq daha dəhşətdir. Şairlərdən birinin şeirinin bir parçasında nə qədər də gözəl deyilir:

دنیا طلبدیم و به جای نرسیدیم,

آیا چه شود آخرت نا طلبده

-Dünyanı sevib istəyərək bir yerə çata bilmədik (heç nə əldə edə bilmədik). Tələb etmədiyimiz (istəmədiyimiz) axirətdə nə əldə edəcəyik?

-Həzrət Peyğəmbər(s) Həzrət Əli(ə) ilə Mədinənin yaxınlığında olan Qubaya gedirdilər. Yolda gözəl bir çəmənliyə yetişdilər. Həzrət Əli(ə) dedi: "Ya Rəsulallah, bura necə də gözəl gülüstandır. Peyğəmbər(s) buyurdu: Cənnətdə sənin üçün hazırlanmış gülüstan buradan daha gözəldir." Onlar söhbət edə-edə yola düşdülər. Bir az da getmişdilər ki, bundan da gözəl bir yerə çatdılar. Həzrət Əlinin(ə) oradan daha çox xoşu gəldi və ərz etdi: "Ya Rəsulallah, bura gördüyümüz çəmənlikdən daha da gözəldir. Peyğəmbər(s) yenə buyurdu: Cənnətdə sənin üçün hazırlanmış gülüstan buradan daha gözəldir." Beləcə, yol boyu yeddi dəfə bu cür gözəl məkanla qarşılaşdılar və həmin söhbət hər dəfə də eynilə təkrar olundu.

Axırıncı söhbətdə Peyğəmbər(s) Əlini(ə) qucaqlayaraq bağrına basıb ağladı. Əli(ə) onun ağlamağının səbəbini soruşduqda Həzrət(s) buyurdu: "Məndən sonra ürəklərində kin-küdurət olan insanların sənə qarşı edəcəklərini indidən gördüyüm üçün ağlayıram. Əli(ə) soruşdu: Ya Rəsulallah, elə bir hadisə baş verdikdə mən nə etməliyəm? Həzrət(s) buyurdu: Səbir etməlisən. Sənin həyatın və nicatın ancaq səbirdədir."

## Səbir qəti inamın nəticəsidir

Haqqında söz açdığımız, İslam dinində çox böyük rolu olan və  insanın həyatı, nicatı ilə birbaşa bağlı olan səbir qəti inamdan irəli gəlir və ondan qüdrət alır. Əgər insanda qəti inam olmasa, səbir də olmaz. Buna görə də yəqinlik (qəti inam) insan üçün daha mühümdür. Həzrət Əli(ə) buyurur: “Səbir yəqindəndir. (Səbir yəqinliyin bir hissəsidir).” Digər bir hədisdə isə belə buyurur: “Səbir yəqinin bəhrəsidir.”

## Həzrət Fatimeyi Zəhranın(s.ə) fəziləti

Həzrət Zəhranın(s.ə) həyatını oxuduqda görürük ki, Xanım(s.ə) səbir dəryası idi. Onun belə səbirli olması Allaha olan yəqinliyindən irəli gəlirdi. Bu əzəmətli xanımın nuraniyyəti Allaha olan yəqinliyinin nəticəsi idi.

عَن جَابر الجُعَفِي: سَأَلَ الإِمام الصَادِقُ عَليهِ السَّلام: لِم سُمِّيَت فَاطِمَة الزَّهراء، زَهراء؟ فَقَالَ: لِأَنَّ اللهَ عَزَّ وَجَلَّ خَلَقَهَا مِن نُورِ عَظَمَتِهِ، فَلَمَّا أَشرَقَت أَضَاءَتِ السَّمَواتُ وَالأَرض بِنُورِهَا، وَغَشِيَت أَبصَارَ الْمَلائِكَة، وَخَرَّتِ الْمَلائكة لله سَاجِدِين وَقَالوا: إِلَهَنَا وَسيِّدَنَا، مَا هَذا النُّور؟ فَأَوحَى اللهُ إِلَيهِم: هَذا نُورٌ مِن نُورِي، أَسكَنْتُهُ فِي سَمَائِي، خَلَقْتُهُ مِن عَظَمَتِي، أُخرِجُهُ مِن صُلبِ نَبِيٍّ مِن أَنْبِيَائِي، أُفَضِّلُهُ عَلَى جَمِيعِ الأَنْبِيَاء، وَأُخرِجُ مِن ذَلِكَ النُّور اَئِمّة يَقُومُونَ بِأَمْرِي، يَهدُونَ إِلى حَقِّي، وأَجْعَلُهُم خُلَفَائِي فِي أَرضِي، بَعدَ اِنقِضَاءِ وَحْيِي.

-Cabir Cüəfi deyir: “Bir gün İmam Sadiqdən(ə) soruşdum: Fatimeyi Zəhranın(ə) adı nə üçün “Zəhra” qoy-ulmuşdur? Həzrət(ə) buyurdu: Allah-təala Fatiməni(s.ə) Öz əzəmətinin nurundan yaratdı. Fatimənin(s.ə) nuru yeri və göyləri işıqlandırdıqda mələklərin gözləri qamaşdı. Allaha səcdə edib təəccüblə soruşdular: Ey bizim Allahımız, ey bizim ağamız, bu nur nədir belə? Allah onlara vəhy etdi: Bu nur Mənim nurlarımdan olan bir nurdur ki, göylərdə qərar verdim. Onu öz əzəmətimdən yaratdım. O nuru Peyğəmbərimin sülbündən dünyaya gətirdim. Bu Peyğəmbər bütün peyğəmbərlərdən üstün və fəzilətlidir. Həmin nurdan yol göstərən imamları vücuda

gətirdim ki, mənim əmrlərimi yerinə yetirib camaatı hidayət etsinlər. Onlar vəhy və peyğəmbərlik başa çatdıqdan sonra yer üzündə Mənim canişin və xəlifələrimdir."[1]

Xanım Zəhranın(s.ə) adı ona görə "Zəhra" qoyulub ki, onun nuru bütün aləmi işıqlandırırdı. Bu nuraniyyətə görə ona Zəhra deyilir. Həzrət Fatimə(s.ə) dünyaya gələrkən bütün mələklər bir-birini təbrik edib muştuluq verirdilər. Fatimə(s.ə) dünyaya gələrkən cənnət əhli (mələklər və hurilər) bir-birini təbrik edirdilər. O gündən göylərə elə bir nur ələndi ki, mələklər həmin günədək elə bir nur görməmişdilər. Buna görə də ona Zəhra dedilər.

Həccac ibn Yusif Ənəs ibn Malikdən soruşdu: "Ayişədən Fatimə(s.ə) barədə nəql olunan hədis haqda nə deyə bilərsən? Ənəs soruşdu: Hansı hədisi soruşursan? Həccac dedi: Qazan və süd məsələsini eşitmisənmi? Ənəs dedi: Əlbəttə, eşitmişəm. Bu hədisi Ayişə özü mənə danışdı: Bir gün mən Fatimənin(s.ə) evinə daxil oldum. Gördüm ki, ocağın üstünə qazan qoyub və içərisinə süd, un, yağ tökərək yemək bişirir. Əlini qaynar qazanın içərisinə salıb südü qarışdırır, amma əli yanmır. Bunu görüb çox təəccübləndim. Atamın (Əbu Bəkrin) yanına getdim və bu qəribə hadisəni ona danışdım. Atam mənim sözlərimi təsdiqləyib dedi: Bəli belədir, qızım. Zəhra(s.ə) barədə bu kimi hallar təbiidir. Amma bunu heç bir kəsə danışma. Ayişə bu sirri saxlaya bilməyib bəzi yerlərdə danışdı. Bu söhbət genişlənib Peyğəmbərin(s) qulağına da çatdı.

---

[1] Əl-imamətut-təbsirə, səh.133.

Günlərin birində Peyğəmbər(s) minbərdə camaata belə bir xütbə oxudu: "…And olsun məni peyğəmbərliyə məbus edənə ki, Allah odu Fatimənin ətinə, qanına, əsəblərinə və tükünə haram edib. Odu həm Fatimədən, həm də onu sevənlərdən uzaq edib... Siz onun haqqında nə bilirsiniz? Həqiqətən, Fatimənin nəslində elə insanlar var ki, od, günəş, ay onlara itaət edib qulluqlarında dayanıb. Yer və yerin bütün xəzinələri onların qarşısında təvazökarlıq göstərir. Səma öz bərəkətini onların üzərinə endirir. Sonra Peyğəmbər(s) belə buyurdu: Vay olsun, yenə vay olsun o kəslərə ki, Fatimənin fəzilətinə şəkk edirlər. Onun həyat yoldaşı Əliyə qarşı düşmənçilik edənlərə və onun övladlarının imamətini qəbul etməyənlərə Allahın lənəti olsun. Qiyamət günü Fatimə məndən əvvəl dua edib şəfaət edəcək."

Həzrət Fatimənin(s.ə) bütün bu fəzilətləri onun Allaha olan yəqinliyindən və səbrindən əmələ gəlmişdir. Buna görə də biz az da olsa Allahın Quranda təkid etdiyi yəqinlik və səbirdən bir qədər də özümüzdə yaradaq. Bəzi hədislərdə deyilir ki, əgər insanın qəlbində zərrə qədər yəqinlik olsa, bu yəqin həmin şəxsi cənnətə aparıb çıxarar.

**İxlas**

İnsanda yəqinliyin vasitəsilə əmələ gələn amillərdən biri də ixlasdır. İxlas - insanın niyyətinin təmiz olmasına deyilir. Bütün ibadətlərin hamısının ruhu ixlasdır. Namaz, oruc, xüms, zəkat, həcc və s. vacib və müstəhəb əməllərin hamısı öz-özlüyündə bir heykəl kimidir. Bütün bu əməllərin hamısını canlandırıb ruh bəxş edən yeganə amil ixlas və niyyətin təmizliyidir. Yəni bütün ibadətləri ruhlandıran ixlasdır. Əgər ixlas olmasa, ibadətlərin yalnız surəti və heykəli qalacaq. Məsələn, gözəl bir heykələ

tamaşa etdikdə insan onun gözəlliyinə heyran olur. Lakin yaxınlaşıb danışdırdıqda danışmır və eşitmir. Bir nəfərdən onun nə üçün eşitmədiyini və danışmadığını soruşduqda belə cavab verildi ki, bu, daşdan yaradılmış bir heykəldir. Canlı deyil ki, insanla söhbət etsin. Gözəlliyi insanı heyrətə salan bir heykəlin ruhu olmadığı kimi, ixlassız ibadətin də ruhu olmaz. Buna görə də bütün ibadətlərin canı və ruhu niyyətin təmizliyidir.

قَالَ عَلِيٌّ(ع): اَلإِخْلاصُ مِلاكُ العِبَادَة

-Həzrət Əli(ə) buyurur: “İbadətin meyar və ölçüsü ixlasdır.”[1]

قَالَ رَسُولُ اللهِ(ص): إِذا عَمِلتَ عَمَلاً فَاعْمَل لِلّهِ خَالِصًا ، لِاَنَّهُ لا يَقبَلُ مِن عِبادِهِ الاَعْمَالَ إِلاّ مَا كَانَ خَالِصًا

-Həzrət Peyğəmbər(s) buyurur: “Bir iş görəndə onu yalnız Allah üçün gör. Çünki O, bəndələrin yalnız xalis əməllərini qəbul edir.”[2]

قَالَ عَلِيٌّ(ع): لَيسَتِ الصَّلاةُ قِيَامَك وَ قُعُودَك، اِنَّمَا الصَّلاةُ اِخلاصُكَ وَ اَن تُرِيد بِهَا اللهَ وَحدَه

-Həzrət Əli(ə) buyurur: “Namaz sənin oturub durmağın deyil (rüku, və səcdə etmək namazın surətidir). Həqiqi namaz odur ki, sən onu ixlasla yalnız Allaha xatir yerinə yetirəsən.”[3]

---

[1] Mizanül-hikmə (t.v.), 3-cü cild, 4738-ci hədis.
[2] Yenə orada, 3-cü cild, 4770-ci  hədis.
[3] Yenə orada, 3-cü cild,  4773-cü hədis.

İmam Sadiqin(ə) Müfəzzəl ibn Salehə ixlas barədə buyurduğu bir hədis daha çox diqqəti cəlb edir:

يَا مُفَضَّل! إِنّ لله عِبَاداً عَامِلُوهُ بِخَالِصٍ مِن سِرِّهِ، فَعَامَلَهُم بِخَالِصٍ مِن بِرِّهِ، فَهُمُ الَّذِينَ تَمُرُّ صُحُفُهُم يَومَ القِيَامة فَرغاً، فَإِذَا وَقَفُوا بَينَ يَدَيهِ تَعَالَى مَلأَهَا مِن سِرِّ مَا أَسَرُّوا إِلَيهِ. فَقَالَ الْمُفَضَّل: يَا مَولاي، وَلِمَ ذَلِكَ؟ فَقَالَ: أَجَلَّهُم أَن تَطَّلِعَ الْحَفَظَةُ عَلى مَا بَينَهُ وَبَيْنَهُم

-Ey Müfəzzəl, həqiqətən, Allahın ixlasla əməl edən bəndələri vardır, Allah da Öz xalis əcr və mükafatından onlara bəxş edər. Onlar qiyamət günü əməl dəftərləri boş (yazısız) olan kəslərdir. Onlar Allah qarşısında dayananda Allah-təala o əməl dəftərlərini onlarla Özü arasında olan sirlə doldurar. (Müfəzzəl deyir) Ərz etdim: "Ey mənim ağam, bu niyə belədir (yəni əməl dəftərləri ağ və yazısızdır)?" Buyurdu: "Çünki Allah-təala onların şənini, Özü ilə onlar arasında olan əlaqəsini mühafizəçi mələklərin xəbərdar olmalarından daha uca etmişdir."[1]

Bu hədisi daha aydın başa düşmək üçün bir misala diqqət yetirək. Məsələn, bir ölkənin prezidenti öz xidməti və fəaliyyətləri ilə fərqlənən bir qrup dövlət xadimlərinə müxtəlif mükafatlar və fəxri adlar verilməsi barədə sərəncam verir. Lakin bəzi insanlar həddindən artıq çox xidmət göstərdiyinə görə onları şəxsən prezident özü qəbul edib mükafatlandırır, yaxud onları fəxri adlarla təltif edir. Odur ki, Allah-təala da ixlaslı bəndələrinə ixlas və ibadətlərinə görə belə bir məqam verib onları xüsusi olaraq inayət edir.

[1] Mizanül-hikmə (t.v.), 3-cü cild, 4764-cü hədis.

Günlərin birində Həzrət Peyğəmbər(s) cənab Cəbrayıldan(ə) ixlasın mənasını soruşdu. Cəbrayıl(ə) belə cavab verdi:

الْمُخْلِصُ الَّذِي لَا يَسْأَلُ النَّاسَ شَيْئاً حَتَّى يَجِدَ، وَ إِذَا وَجَدَ رَضِيَ، وَ إِذَا بَقِيَ عِنْدَهُ شَيْءٌ أَعْطَاهُ فِي اللَّهِ، فَإِنْ لَمْ يَسْأَلِ الْمَخْلُوقَ فَقَدْ أَقَرَّ لِلَّهِ بِالْعُبُودِيَّةِ، وَ إِذَا وَجَدَ فَرَضِيَ فَهُوَ عَنِ اللَّهِ رَاضٍ، وَ اللَّهُ تَبَارَكَ وَ تَعَالَى عَنْهُ رَاضٍ، وَ إِذَا أَعْطَى لِلَّهِ عَزَّ وَ جَلَّ فَهُوَ عَلَى حَدِّ الثِّقَةِ بِرَبِّهِ

-Muxlis o kəsdir ki, özü bir şeyi əldə etməyincə insanlardan heç nə istəməsin, həmin şeyi əldə edəndə razı olsun və o şeydən yanında bir qədər qalmış olsa, başqalarına bəxş etsin. Çünki məxluqdan bir şey istəməyən (heç kəsə ağız açmayan) Allah üçün bəndəliyini etiraf etmişdir. Öz məqsədinə çatıb razı olanda Allahdan razı olmuşdur və Allah-təala da ondan razıdır. Özünə qalan şeydən Allaha xatir bəxş edəndə öz Rəbbinə etimad mərtəbəsinə yetişmişdir.[1]

Yəni ixlaslı insan heç bir kəsə ağız açmır və öz ehtiyaclarını təmin etmək üçün çalışır. Bir şey əldə etdikdə razı və qane olur. Əldə etdiyinin az bir hissəsindən özü istifadə edir, qalanını başqalarına verir. Allahdan başqasına ağız açmamaqla Onun bəndəsi olduğunu etiraf etmiş olur. Özündən qalan şeyi başqasına verdikdə yəqin bilir ki, ixlasla etdiyi əməllər Allah yanında qorunub saxlanılır.

Günlərin birində Həzrət Peyğəmbər(s) səhabələri ilə səfərə çıxmışdı. Uzun müddət yol getdiklərinə görə bərk

---

[1] Mizanül-hikmə (t.v.), 3-cü cild, 4766-cı hədis.

acmış və yorulmuşdular. Bir qəsəbəyə yetişdikdə Həzrət(s) göstəriş verdi ki, gedib bir qoyun alsınlar və bişirib bir yerdə yesinlər. Səhabələrdən bir neçəsi gedib bir qoyun aldılar. Onu kəsib dərisini soyduqdan sonra Həzrət(s) buyurdu: "Bunun başını və ayaqlarını aparıb filan evdə yaşayan kasıblara verin. Ciyərini filan yerdəki fəqirlərə, dərisini filankəsə, bir budunu filan evdə yaşayana, digər budunu isə filan fəqirlərə verin." Beləcə, qoyunun bütün hissələrini payladılar. Yalnız qoyunun bir budu qaldı. Peyğəmbər(s) buyurdu: "İndi isə bu budu doğrayın və bişirin yeyək." Qalmış bir budu doğrayıb bişirdilər. Səhabələrdən biri dedi: "Ya Rəsulallah, qoyunun hamısı getdi, bizə qalan yalnız bircə bud oldu. Peyğəmbər(s) buyurdu: Xeyr, bizə qalan payladıqlarımız oldu. Bizdən gedən isə yediyimiz bud."

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّ لِكُلِّ حَقٍّ حَقِيقَة وَ مَا بَلَغَ عَبدٌ حَقِيقَةَ الإِخْلاص حَتّى لا يُحِبَّ اَن يُحمَدَ عَلى شَيئٍ مِن عَمَلٍ لِلّه

Həzrət Peyğəmbər(s) buyurur: "Hər haqqın həqiqəti var. Bəndə Allah üçün etdiyi əməlin müqabilində təriflənib öyülməsini istəməyənədək ixlasın həqiqətinə yetişməyəcək."[1]

Buna görə də insan yaxşı bir əməl etdikdə, xeyir bir iş gördükdə heç kəsin onu tərifləməsini istəməməlidir. Yəni əgər bir şəxs kimlərinsə onu tərifləməsi üçün xeyirxah bir əməl edirsə, buradan bəlli olur ki, həmin iş ixlasla görülməyib. İxlasın mənası və həqiqəti odur ki, insan gördüyü xeyir işlərdə kiminsə onu tərifləməsini istəməsin və təriflənməyə görə bu işi etməsin. Əgər bir

[1] Mizanül-hikmə (t.v.), 4782-ci hədis.

insan xeyirxah əməli Allaha xatir görürsə və Allahın onun gördüyü işdən xəbəri olduğuna yəqinliyi varsa, camaatın onu tərifləməsinin mənası nədir? Əgər xeyirxah bir əmələ görə ürəyindən camaatın onu tərifləməsi keçirsə, deməli, bu ibadət ixlaslı ibadət deyil.

## Həzrət Əli(ə) Allahın ən müxlis bəndəsidir

Tarixə nəzər saldıqda bir çox müxlis insanlara rast gəlmək olur. Xüsusilə Peyğəmbər(s) və imamlarımız ixlasın bariz nümunələri olmuşlar. Həzrət Peyğəmbər(s) və Həzrət Əlinin(ə) həyatına baxdıqda görürük ki, onların bütün əməlləri ixlas üzərində qurulmuşdur. Məsələn, Xəndək müharibəsində baş vermiş döyüş və Peyğəmbərin(s) orada Əli(ə) barədə buyurduğu hədis onu göstərir ki, Əlinin(ə) ixlası mükəmməl bir ixlasdır.

Xəndək müharibəsi İslamın ən ağır və çətin müharibələrindən biri idi. O zaman Mədinə şəhərində üç min nəfər müsəlman var idi. Lakin müşriklər digər müxalif qüvvələrlə bir yerə yığışıb əlbir oldular. Onların sayı on min nəfər idi və Əbu Sufyan onlara başçılıq edirdi. Müşriklər qərara almışdılar ki, bütün güclərini toplayıb İslamın kökünü kəssinlər. Odur ki, müsəlmanlarla vuruşmaq üçün hazırlaşıb Mədinəyə yola düşdülər. Peyğəmbərə(s) xəbər çatdı ki, müşriklər Mədinəyə tərəf hərəkət ediblər. Həzrət Peyğəmbər(s) şəhərin ətrafında xəndək qazılması barədə göstəriş verdi. Həzrət(s) özü başda olmaqla hamı əl-ələ verib Mədinənin ətrafında eni və dərinliyi 2-3 metr olan bir xəndək qazdılar və içərisini odunla doldurub yandırdılar. Çünki Peyğəmbər(s) bilirdi ki, müşriklər Mədinəyə girsələr, İslamdan əsər-əlamət qalmayacaq.

Əbu Sufyan da bilirdi ki, bu, onların müsəlmanlarla ən ağır döyüşü olacaq. Burada gərək bütün qüvvəsindən istifadə edib müsəlmanları məğlub etsin. Ona görə də özü ilə ərəblərin ən güclü pəhləvanlarını götürmüşdü. Həmin pəhləvanların içərisində hamıdan güclü, qüvvətli və adlı-sanlı bir pəhləvan var idi. Onun adı Əmr ibn Əbdəvid idi. O, çox tanınmış bir pəhləvan idi. Belə ki, adı gələndə hamının bədəni lərzəyə düşürdü. Əmr ibn Əbdəvid Mədinə şəhərinin ətrafını dolanıb içəri keçmək üçün bir yol tapdı. Dörd-beş pəhləvanla içəri keçdi və müsəlmanların qarşısında dayanıb döyüşçü istədi.

Həzrət Peyğəmbər(s) üzünü müsəlmanlara tutub buyurdu: "Aranızda bununla vuruşacaq kimsə varmı?" Qoşundan səs çıxmadı. Əli(ə) ayağa qalxıb dedi: "Ya Rəsulallah, izn versəniz, mən onunla vuruşaram." Həzrət Peyğəmbər(s) buyurdu: "Əli, sən əyləş!" Həzrət Peyğəmbər(s) bir də soruşdu: "Aranızda bununla vuruşacaq kimsə varmı?" Yenə də heç kəsdən səs çıxmadı. Yenə Əli(ə) ayağa qalxıb dedi: "Ya Rəsulallah, izn versəniz, mən onunla vuruşaram." Peyğəmbər(s) buyurdu: "Əli, sən əyləş!" Həzrət Peyğəmbər(s) üçüncü dəfə üzünü qoşuna tutub buyurdu: "Aranızda bununla vuruşacaq kimsə varmı?" Yenə də heç kəs cavab vermədi. Əli(ə) üçüncü dəfə ayağa qalxıb dedi: "Ya Rəsulallah, izn versəniz, mən onunla vuruşaram." Həzrət Peyğəmbər(s) öz əmmaməsini başından açıb Əlinin(ə) başına bağladı və belə dua etdi. "İlahi, Ühüd döyüşündə Həmzəni məndən aldın. Amma bu döyüşdə Əlini(ə) məndən alma."

Bu duadan sonra Əli(ə) atına minib Əmr ibn Əbdəvidlə üz-üzə dayandı. Həzrət Əli(ə) döyüşə gedərkən Peyğəmbər(s) buyurdu: "İmanın hamısı ilə şirkin hamısı üz-üzə dayanıb." Həqiqətən də Əmr ibn Əbdəvid şirkin

hamısı, Əli(ə) də imanın hamısı idi. Həzrət Peyğəmbərin(s) bu sözünü bütün kitablarda qeyd etmişlər.

Əlinin(ə) üzü bağlı olduğundan Əmr ibn Əbdəvid onu tanımadı və ondan soruşdu: “Sən kimsən?” Əli(ə) buyurdu: “Mən Əliyəm.” Əmr ibn Əbdəvid dedi: “Sən Əbi Talibin oğlusan?” Əli(ə) buyurdu: “Bəli.” Əmr dedi: “Mən səninlə vuruşmaq istəmirəm. Çünki sənin atanı tanıyırdım.” Əli(ə) buyurdu: “Amma mən səni öldürmək istəyirəm.” Əmr ibn Əbdəvid Əlinin(ə) bu sözündən bərk hirslənib qılıncını çəkdi. O, qılıncı qaldıranda Əlinin(ə) başına dəydi və Həzrətin(ə) başı yaralandı. Amma Əli(ə) fürsəti əldən verməyib onu atdan yerə saldı və ayaqlarını kəsdi. Hər yeri toz bürümüşdü. Döyüşənlər tozun içində görünmürdülər. Bütün müsəlmanlar həyəcan içində döyüşün nəticəsini gözləyirdilər. Lakin Əli(ə) Əmri yerə yıxdıqdan sonra döyüş uzun çəkdi. Bu anda Peyğəmbərin(s) yanında olan müsəlmanlar, o cümlədən Ömər ibn Xəttab Həzrətdən(s)soruşdu: “Ya Rəsulallah, nəyə görə Əli(ə) işi bu qədər yubadır? Nəyə görə onun başını kəsmir?” Həzrət Peyğəmbər(s) buyurdu: “Sakit! Gələr, onun özündən soruşarsan.” Bir az keçdikdən sonra tozun içində Əlinin(ə) “Allahu əkbər” səsi eşidildi. Hamı bildi ki, Əli(ə) Əmr ibn Əbdəvidin başını kəsib. Əli(ə) Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, Əmri öldürdüm.” Həzrət(s) soruşdu: “Ya Əli, onu yerə yıxdıqdan sonra nəyə görə başını kəsməyi bu qədər yubatdın?” Əli(ə) buyurdu: “Mən onu atdan yerə saldıqdan sonra o, məni söydü və üzümə tüpürdü.” Mən onun bu hərəkətindən çox qəzəbləndim. Əgər o anda onun başını kəssəydim, öz qəzəbimə görə kəsəcəkdim. Ona görə də gözlədim ki, qəzəbim soyusun, sonra onun başını kəsim. Qəzəbim soyuyana qədər gözlədim. Sonra niyyət

edib onun başını qürbətən iləllah kəsdim.” Həzrət Peyğəmbər(s) buyurdu:

ضَرْبَةُ عَلِيٍ يَوْمَ الْخَنْدَقِ أَفْضَلُ مِنْ عِبَادَةِ الثَّقَلَيْنِ

-Əlinin(ə) Xəndək döyüşündə düşmənə vurduğu bir qılınc zərbəsi bütün cinlərin və insanların ibadətindən üstündür.[1]

Bu elə bir hadisədir ki, Adəm yaranandan bu günə qədər tarixdə yalnız bircə dəfə görünmüşdür ki, o da Həzrət Əlinin(ə) barəsindədir. Xəndək döyüşündə baş vermiş bu hadisə bütün tarixi mənbələrin hamısında qeyd olunmuşdur. Bu məsələdə heç bir firqənin ixtilafı yoxdur və hamı bunu öz kitablarında təsdiq etmişlər.

## Maraqlı hekayət

Bəni-İsrail zamanında bir abid yaşayırdı. Ona xəbər verdilər ki, filan yerdə bir ağac var. Oranın camaatı imansızlıqdan həmin ağaca ibadət edirlər. Bu xəbər abidi çox narahat etdi. Öz-özünə dedi: Necə ola bilər ki, camaat əzəmətli olan Allahı unudaraq bir ağaca sitayiş etsinlər. Əlinə bir balta götürüb həmin ağacı kəsmək üçün yola düzəldi. Şeytan onun bu işindən xəbər tutdu. Bəndələri yoldan çıxaracağına and içdiyinə görə həmin ağacın kəsilməsini istəmirdi. Bir insan surətində həmin abidin qarşısına çıxdı. Salamlaşıb hal-əhval tutduqdan sonra abiddən soruşdu: Xeyir olsun, yolun hansı tərəfədir? Abid dedi: Filan yerin camaatı bir ağaca ibadət edirlər. Həmin ağacı kəsməyə gedirəm. Şeytan dedi: Əgər o ağacı kəsmək məsləhət olsaydı, Allahın yer üzündəki peyğəmbərləri bu

[1] Müstədrəki-Hakim, 3-cü cild, səh.32.

işi görərdilər. Bu, sənin vəzifən deyil. Abid dedi: Allah-təala peyğəmbərləri göndərməklə bizə başa salıb ki, nəhy əz münkər etmək vacib bir əməldir. Bu, təkcə peyğəmbərlərə aid deyil. Mən gedib o ağacı kökündən kəsməliyəm. Şeytan çox dedi, abid az eşitdi.

Nəhayət, onların bu söz-söhbəti münaqişəyə səbəb oldu. Əlbəyaxa olub dalaşdılar. Abid onu yerə yıxıb sinəsinə çökdü. Şeytan əlacsız qalıb dedi: Mənim sənə bir təklifim var. Bir ağacı kəsməklə bunun sənə nə xeyri dəyəcək? Gəl, mən sənə hər gün iki dinar pul verim. Bir dinarını özün xərclə, digərini isə aparıb başqa abidlərə ver. Beləliklə, həm özün dolanarsan, həm də başqa insanlara kömək etmiş olarsan. Abid onunla razılaşdı və ağacı kəsməkdən vaz keçdi. Şeytan dedi: Hər gün gətirib sənə iki dinar pul verəcəyəm. Əgər evdə olmasan, döşəyinin altına qoyaram gəlib götürərsən.

Beləliklə, razılaşıb ayrıldılar. Abid hər gün ondan iki dinar pul alırdı. Üstündən bir müddət keçdikdən sonra abid gördü ki, daha pul gətirmir və döşəyin altı da boşdur. Bir neçə gün gözlədi, lakin puldan bir xəbər olmadı. Yenidən baltanı götürüb ağacı kəsmək üçün yola düzəldi. Yenə də şeytan insan surətində onunla rastlaşıb soruşdu: Xeyir olsun, hara belə? Abid dedi: Ağacı kəsməyə gedirəm. Şeytan dedi: Mən səni bu işi görməyə qoymayacağam. Abid dedi: Mənim qarşımı heç kəs ala bilməz. Söz-söhbətləri yenə də davaya səbəb oldu. Əlbəyaxa olub dalaşdılar. Bu dəfə şeytan onu ayağının altına salıb sinəsinə çökdü. Abid təəccüblə soruşdu: Bu necə ola bilər? Axı keçən dəfə mən səni yıxıb ayağımın altına salmışdım. Bu dəfə isə sən məni yerə yıxdın. Şeytan dedi: Birinci dəfə ağacı kəsməyə gedərkən sırf Allaha xatir gedirdin. Sənin qarşına kim çıxsaydı yerə yıxardın.

Çünki səndə Allahın inayət etdiyi güc var idi. Lakin bu dəfə Allaha görə deyil, dinara xatir ağacı kəsmək istəyirdin. Buna görə də mənə gücün çatmadı. Səni dinar gətirib bura çıxardıb. Belə olduqda hər kəs gəlsə, səni yıxa bilər.

Odur ki, əgər insanın əməlləri və ibadəti xalis niyyətlə, sırf Allaha xatir olsa, onu heç bir kəs və heç bir şey yıxa bilməyəcək. Yox, əgər insanın əməllərində ixlas olmasa, hər şeyə yıxılar. İxlas mömin üçün çox mühüm məsələdir. Deməli, belə bir nəticəyə gəlirik ki, bu kimi xüsusiyyətlərə malik olan ixlas yəqinin bəhrə və nəticəsidir. Yəni insanın Allaha qəti inamı olmasa, ixlas mümkün olmayacaqdır. İxlasın sərçeşməsi yəqindir.

قَالَ عَلِيٌّ(ع): اِخْلاصُ العَمَل مِن قُوَّةِ اليَقِين وَ صَلاحُ النِّيَّة

-Həzrət Əli(ə) buyurur: "Əməlin ixlası yəqinin qüvvətindən və niyyətin təmizliyindəndir."[1]

Əgər insanın Allaha, Peyğəmbərə(s), axirətə tam yəqinliyi olmasa, onun əməlləri heç bir vaxt ixlasla ola bilməz.

قَالَ عَلِيٌّ(ع): سَبَبُ الإِخْلاص اليَقِين

-Həzrət Əli(ə) buyurur: "İxlasın səbəbi yəqindir."[2]

İnsanın yəqini və ixlası olduqda Allah-təala hər bir işi onun üçün asan edər. İxlaslı insan dağı yerindən tərpədər. Yəni ixlas elə bir şeydir ki, Allahın izni ilə bütün müşkülləri insan üçün asanlaşdırar. Əgər insan mal-dövlətə, pula, dünyaya aldanmasa, sırf Allaha xatir ibadət

[1] Mizanül-hikmə (t.v.), 14-cü cild, 4795-ci hədis.
[2] Yenə orada, 4796-cı hədis.

etsə, Allahın məhəbbət və qüdrətilə hərəkət etsə, onun qarşısını heç bir şey kəsə bilməyəcək. İmam Hüseyn(ə) qəti qərarla hərəkətə başladı. Həzrəti(ə) hədəfindən heç bir kəs döndərə bilmədi. Allahın qüdrət və əzəmətinə söykənərək hərəkət etdi və hədəfə çatdı. Onun qarşısına və əleyhinə minlərlə insan çıxdı, lakin Həzrətin(ə) qarşısını ala bilmədilər. Bütün bunlar İmam Hüseynin(ə) Allaha olan yəqinliyinin ixlası idi və bütün aləmi lərzəyə gətirmişdi. Hədislərdə qeyd olunur ki, ixlas dağı da yerindən tərpədər.

## Üç nəfərin hekayəti

Hədislərdə rəvayət olunur ki, keçmiş zamanlarda üç nəfər səfərə çıxmışdı. Bir dağın yanından keçərkən yağış yağmağa başladı. Yağış getdikcə gücləndi və ildırım çaxdı. Onlar daldalanmaq üçün bir mağara axtarıb tapdılar. Mağara kiçik olduğundan bu üç nəfər güclə həmin mağaraya sığışıb yağışın kəsilməsini gözlədilər. Elə bu zaman dağın üstündən iri bir daş mağaranın qabağına düşdü. Belə ki onların mağaradan çıxması heç cür mümkün olmadı. Daş mağaranın qarşısını elə kəsmişdi ki, nə oradan çıxa bilirdilər, nə də ora işıq düşürdü. Daşı bir kənara çəkmək üçün çox çalışdılar, lakin heç bir iş görə bilmədilər. Onların iki yolu qalmışdı. Birincisi, orada qalıb ölməli, ikincisi isə Allaha yalvarıb Ondan kömək istəməliydilər. Onlardan biri dedi: Kimin ömründə elə bir işi olub ki, yalnız Allaha xatir olmuş olsun. Bəlkə Allah onun bu əməlinə xatir duasını qəbul edib bizə buradan nicat verər. Onlardan biri dedi: Mənim elə bir əməlim var. Ona dedilər ki, elə isə Allaha dua elə, bizə nicat versin. O, əllərini yuxarı qaldırıb dedi: “İlahi, Sən bilirsən ki, cavan və subay vaxtlarımda bir gün günahla üzləşmişdim. Subay

bir qızla günah etməyə hər cür şərait var idi. Lakin o halda Sən mənim yadıma düşdün və yalnız sənə xatir mən bu günahdan çəkindim. İndi isə xahiş edirəm, bu halımızda bizə nicat verəsən.”

Bu duanı etdikdən sonra gördülər ki, daş mağaranın ağzından bir az kənara çəkildi və içəri işıq düşdü. Lakin daş çox az çəkildiyindən oradan çıxmaq mümkün olmadı. İkinci şəxs dedi: “İlahi, sən şahidsən ki, mənim də yalnız Sənə xatir bir əməlim olub. Sən şahidsən ki, ata-anamı mən dolandırırdım. Hər gün onlara yemək aparırdım. Bir gün onlar üçün şam yeməyi aparmışdım. İçəri daxil olanda gördüm ki, ikisi də yatıblar. Yalnız Sənin razılığına görə onları yuxudan oyadıb narahat etmək istəmədim. Orada heç bir kəs yox idi. Səhərə qədər əlimdə yemək onların yuxudan oyanmalarını gözlədim. Yuxudan durandan sonra onların yeməklərini verdim. İlahi, mən bu işi yalnız Sənə görə etmişdim, xahiş edirəm ki, bizi bu mağaradan çıxarasan.”

O, dua edib qurtaran kimi daş bir az da mağaranın ağzından kənara çəkildi. Lakin bu dəfə də oradan çıxmaq mümkün olmadı. Üçüncü şəxs əllərini yuxarı qaldırıb dedi: “İlahi, Sən şahidsən ki, bir gün mən bir fəhlə gətirib həyətimdə işlədirdim. Onunla razılaşmışdıq ki, bir dinar müqabilində müəyyən işləri görəcək. Fəhlə işlərini görüb qurtardıqdan sonra ona bir dinar uzatdım, lakin o razılaşmadı. Dedi ki, mənim zəhmət haqqım bundan daha çoxdur. Ona dedim ki, axı biz bu işləri bir dinarın müqabilində razılaşmışdıq. O, pulu almadı və acıq edib getdi. Mən həmin pula bir neçə qoyun alıb saxladım. Onlar artmağa başladı və bir neçə müddətdən sonra onların sayı həddindən artıq çoxaldı. Günlərin birində həmin fəhlə mənimlə qarşılaşdı və dedi: Mənim haqqımı

vermək istəmirsənmi? Dedim: Mən sənin pulunu verirdim, lakin sən acıq edib getdin. Sonra qoyunları ona göstərib dedim: Bütün bu qoyunlar sənindir. Götürüb apara bilərsən. O, qoyunlara baxıb elə güman etdi ki, onu ələ salıram. Dedim: Mən səni ələ salmıram. Sadəcə sənin pulunu verib qoyun aldım və saxladım. Bu neçə il ərzində həmin qoyunların sayı gördüyün qədər çoxalıb. Bunların hamısı sənindir. Həmin fəhlə bu işə mat-məəttəl qalmışdı. Sonra qoyunları qabağına qatıb apardı. İlahi, Sən şahidsən ki, mən bu işi yalnız və yalnız Sənə xatir gördüm. Yalnız Sənin razılığına xatir mən həmin fəhlənin puluna toxunmadım. İndi isə istəyim budur ki, bizə bu mağaradan nicat verəsən."

Onun bu duasından sonra daş mağaranın ağzından tamamilə kənara çəkildi və onlar mağaradan xilas oldular.

Beləliklə, görürük ki, əgər insanın ürəyində ixlas olsa, onun bu ixlası dağı yerindən oynadar. Nə üçün biz həyatda bu qədər zəifik? Ona görə ki, bizim ibadətlərimiz və ibadətlərimizin ixlası azdır. Allahdan diləyim budur ki, bizə İslamı olduğu kimi öyrənməyi və Onun istədiyi kimi əməl etməyi nəsib etsin.

## Yəqinliyi gücləndirən amillər

Xatırladaq ki, ötən bəhslərdə iman, onun mərhələləri, yəqin və yəqinliyin mərhələləri haqqında ətraflı söz açdıq. Həmçinin Quran ayələrindən istifadə edərək yəqinin vacibliyi, əlamətləri və nəticələri barədə də bəhs etdik. Əsas mövzumuzla əlaqədar olaraq burada yəqin barədə bəhsimizi xətm etmək istərdim. Lakin insanın qəlbində qərar tutan iman və yəqinlik barədə söz açdığımızdan və onun çox zəruriliyi haqda danışdığımızdan yaxşı olar ki, daha iki mətləbi bu bəhsimizə əlavə edək. Həmin

mətləblərdən biri insanın yəqinini çoxaldıb gücləndirən, digəri isə yəqinliyi zəiflədib yox edən amillərdir. İnsan yəqini gücləndirən amillərə riayət etməklə və yəqini məhv edən amillərdən uzaqlaşmaqla öz yəqinliyini qoruyub saxlaya bilər. Ayə və hədislərdən də belə bir nəticəyə gəlirik ki, yəqinlik insan üçün çox mühümdür. Buna görə də yəqini qoruyub saxlamaq üçün bu amillərlə tanış olmağımız daha önəmlidir. İndi isə ilk növbədə yəqini qüvvətləndirən amillərdən bir neçəsinə diqqət yetirək.

**İbadət**

İnsanın yəqinliyini gücləndiriən amillərdən birincisi ibadətdir. İnsan ibadət vasitəsilə beynində və qəlbində olan imanının yəqinliyini qüvvətləndirə bilər. Allah-təala "Hicr" surəsinin son üç ayəsində belə buyurur:

وَلَقَدْ نَعْلَمُ أَنَّكَ يَضِيقُ صَدْرُكَ بِمَا يَقُولُونَ. فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَكُن مِّنَ السَّاجِدِينَ. وَاعْبُدْ رَبَّكَ حَتَّى يَأْتِيَكَ الْيَقِينُ

-Şübhəsiz, Biz sənin qəlbinin onların (camaatın) dediklərindən sıxılmasını bilirik. Buna görə də Rəbbinə həmd və şükür etməklə yanaşı (Onu) pak sifətlərlə mədh et və səcdə edənlərdən ol! Və o yəqin sənə yetişənə (hasil olana) qədər Rəbbinə ibadət et![1]

Bu ayənin təfsiri haqda söhbət etməzdən öncə incə bir mətləbə diqqət yetirək. Bütün çətinliklərin asanlaşmasının yeganə yolu yəqinin hasil olmasıdır. Yəqinlik insana hasil olmayınca hər bir şey insanı incidib şübhəyə sala bilər. Məsələn, maddi imkansızlıq, camaatın nalayiq rəftarı, təhqirlər, söyüşlər, zəhmət haqqının

[1] Hicr surəsi, ayə 97-99.

verilməməsi, vəzifədən uzaqlaşdırma və s. kimi məsələlər insanı narahat edə bilər. Lakin insan yəqinliyə çatdıqdan sonra bütün bu problemlər onun üçün həll olur. Şəriət məsələlərində kürr[1] suyunun hökmlərinə baxdıqda görürük ki, bu, elə bir sudur ki, natəmiz şeyləri təmizləyir. Məsələn, insanın əlləri murdar olduqda kürr suyunun içinə salıb çıxarsa və əlindəki murdarçılıq aradan getsə, həmin şəxsin əlləri pak olur. Əgər su qəlil[2] olsa və insan əlini murdar olduğu halda onun içinə salsa, qəlil su nəinki onun əlini pak etməyəcək, həmin suyun özü də murdar olacaqdır. Lakin kürr suyu murdarçılıqları təmizləyib aradan qaldırır.

Yəqinlik də eynilə kürr suyu kimi insanın bütün narahatçılıqlarını həll edib aradan qaldırır. İnsanın imanı zəif olduqda hər söz, hər təhqir, kimlərinsə vacib əməlləri yerinə yetirməməsi ona təsir göstərir və onun imandan çıxmasına səbəb olur. Bir nəfər ramazan ayında səfərə çıxmışdı. Səfərdə olarkən oruc tutan bir oğlanın yanında siqaret çəkir. Oruc tutan oğlanın özü də siqaret çəkən idi. Lakin oruc olduğu üçün çəkmirdi. Bilirdi ki, bu şəxs səfərdə olduğuna görə oruc tutmayıb və siqaret çəkir. Lakin siqaretin tüstüsünü hiss edən kimi dözə bilməyib orucunu pozur və o da siqaret çəkir. Əgər onun yanında siqaret çəkən olmasaydı, o da orucunu pozmayacaqdı. Bir nəfərin üzürlü səbəbə görə onun yanında siqaret çəkməsi həmin şəxsin orucunu pozmasına səbəb olursa, deməli, bu onun imanının zəifliyindən xəbər verir. Amma elə insanlar

---

[1] İçinin dərinliyi, eni və uzunu üç qarış yarım olan qabın tutumu qədər olan su və ondan artıq olan suya kürr suyu deyilir.
[2] Kürr həcmindən az olan suya qəlil su deyilir.

da var ki, dəmiri qızdırıb onun bədəninə bassalar və ona müxtəlif başqa işgəncələr versələr də belə orucunu pozmaz. Allahı sevən, iman güclu olan elə insanlar var ki, onları Allaha ibadət etməkdən çəkindirmək üçün balalarını gözü qabağında odun içinə atıb yandırmışlar.

## Fironun qızının məşşatəsi

Həmin insanlardan biri Fironun qızının məşşatəsi idi. Bu qadın Allaha iman gətirmişdi. O, hər gün Fironun sarayına gedib onun qızına bəzək-düzək verərdi. Bir gün qızın başını darayarkən daraq əlindən yerə düşdü. Əyilib darağı götürəndə istər-istəməz dilindən "ya Allah" kəlməsi çıxdı. Fironun qızı soruşdu: "Mənim atamın adını çəkdinmi?" Məşşatə dedi: "Xeyr. Mən o Allahın adını çəkdim ki, həm sənin atanı, həm sənin özünü, həm də məni yaradıb."

Bu xəbəri Firona çatdırdılar. Firon həmin qadını çağırtdırıb bunun doğru olub-olmamasını soruşdu. Qadın dedi: "Bəli, mən Allahın adını çəkmişəm və heç də bu əməlimdən peşman deyiləm." Firon dedi: "Sən mənim allahlığımı qəbul etmirsən?" Qadın dedi: "Mən səni yaradan Allahı qəbul edirəm." Firon tonqal qalatdırıb həmin qadının dörd uşağını, bir-bir gözü qarşısında tonqala atıb yandırdı. Dördüncü uşaq körpə idi. Onu da anasının qucağından alıb tonqala atarkən soruşdular: "Firona iman gətirirsənmi?" Qadın dedi: "Heç vaxt. Körpəni oda atıb yandırdıqdan sonra qadını da tonqalda yandırıb külünü göyə sovurdular."

Bu hadisəyə zahirən bir nəzər yetirdikdə onların yanıb kül olduqlarını görürük. Lakin digər tərəfdən bu məsələyə yanaşsaq, Allah-təalanın həmin qadının məqamını hansı dərəcələrə yüksəltdiyini dərk etmiş olarıq.

İslam Peyğəmbəri(s) buyurur: “Mən meraca gedəndə və ərşi gəzərkən bir yerə yetişdim ki, oradan çox gözəl ətirli iy gəlirdi. Həmin yeri ətirlə bəzəmişdilər. Cəbrayıldan(ə) buranın hansı məkan olduğunu soruşduqda belə cavab verdi: Ya Rəsulallah, bura Fironun tonqalda yandırdığı həmin məşşatənin külü ilə bəzədilmiş bir yerdir. Ona görə də buradan xoş ətir iyi gəlir.”

## Hücr ibn Ədiy

Hücr ibn Ədiyin qəbri Dəməşq şəhərindədir. Allah ona rəhmət eləsin! Hücr ibn Ədiy elə bir insandır ki, oğlanlarını da, özünü də öldürdülər. Onları Həzrət Əlini(ə) sevdikləri üçün qətlə yetirmişdilər. Hücrə dedilər ki, sən Əlidən(s) ayrılmalısan. Hücr dedi: “Əlidən(ə) ayrılmaq Peyğəmbərdən(s) ayrılmaq deməkdir. Mən heç bir vaxt Əlidən(ə) ayrılmaram.” Bu sözlərdən sonra onu oğlanları ilə birgə öldürməyə apardılar. Hücr dedi: “Əvvəlcə oğlanlarımı öldürün. Sonra məni öldürərsiniz.” Soruşdular: Niyə? Hücr dedi: “Çünki onlar cavan uşaqlardır. Məni onların gözü qarşısında öldürsəniz, ola bilsin ki, dözə bilməyib imanlarında zəiflik göstərmiş olsunlar. Buna görə də əvvəlcə onları, sonra məni öldürün. Belə olduqda biləri̇k ki, bu dünyadan Əlinin(ə) eşqi ilə getmişik.”

Beləliklə, siqaretin təsiri altına düşüb orucunu sındıran şəxsin imanı ilə bu insanların imanını müqayisə etdikdə nə qədər fərq olduğunu açıq-aydın görürük.

## “Hicr” surəsinin axırıncı ayəsinin mənaları

İbadət insanın yəqinliyini gücləndirib artıran amillərdəndir. Allah-təala “Hicr” surəsinin sonuncu ayəsində belə buyurur:

وَاعْبُدْ رَبَّكَ حَتَّى يَأْتِيَكَ الْيَقِينُ

-Və o yəqin sənə yetişənə (hasil olana) qədər Rəbbinə ibadət et![1]

Bu ayənin iki cür təfsir və mənası var. Çox yaxşı olar ki, ayənin hər iki təfsiri ilə tanış olaq.

**Ayənin birinci təfsiri**

Birinci təfsirə görə ayədə işlənən “yəqin” sözünün mənası insanın ölüm anları deməkdir. Yəni “o yəqin iş (hər bir canlı üçün labüd olan ölüm) sənə yetişənə qədər Rəbbinə ibadət et!” Sual oluna bilər ki, nə üçün bu məna məhz “ölüm zamanı” kimi nəzərdə tutulur? Cavab olaraq demək olar ki, kimliyindən asılı olmayaraq bütün insanlar dünyasını dəyişərkən son anlarında Allahın buyurduqlarının hamısının haqq-həqiqət olduğu ona yəqin olur. Çünki artıq gözlərindən pərdələr götürülmüş və həqiqəti gözləri ilə görmüşdür. Bir insan canını tapşırarkən ona diqqətlə baxın. Haldan-hala düşdüyünün şahidi olacaqsınız. Onun hay-küy salmasına, bədəninin ağrısına və danışmasına deyil, son anlarda gözlərinin yuxarı dikilib, dilinin tutulduğu anları dərindən müşahidə edin. Nə üçün onun gözləri bir yerə zillənir və dili tutulur? İnsanın axır dəqiqələrində gözlərinin açılıb dilinin tutulması ona görədir ki, bütün pərdələr gözlərindən götürülür və hər şeyi ona göstərirlər. Dili ona görə tutulur

[1] Hicr surəsi, ayə 97-99.

ki, o an gözləri ilə gördüklərini danışmağa icazə verilmir. Nə qədər ki, oranı görməyib dil açıqdır. Lakin ona həqiqət aləmini, hara gedəcəyini göstərdikdə dil də bağlanır. Göz açıldıqda və hara gedəcəyini gördükdə artıq yəqinliyə çatır. Dünyada bir çox insanlara cənnətin və cəhənnəmin olduğu haqda danışarkən inanmaq istəmirlər. Lakin son anlarında hər şeyi gözləri ilə gördükdən sonra bu həqiqətin yəqinliyinə çatırlar. Allah-təala "Muddəssir" surəsində belə buyurur:

كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَةٌ. إِلَّا أَصْحَابَ الْيَمِينِ. فِي جَنَّاتٍ يَتَسَاءلُونَ. عَنِ الْمُجْرِمِينَ. مَا سَلَكَكُمْ فِي سَقَرَ. قَالُوا لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ. وَلَمْ نَكُ نُطْعِمُ الْمِسْكِينَ. وَكُنَّا نَخُوضُ مَعَ الْخَائِضِينَ. وَكُنَّا نُكَذِّبُ بِيَوْمِ الدِّينِ. حَتَّى أَتَانَا الْيَقِينُ. فَمَا تَنفَعُهُمْ شَفَاعَةُ الشَّافِعِينَ

-Hər kəs öz əməlinin girovundadır (hər bir kəs yerinə yetirilməli olduğu vaciblərin və etdiyi haramların müqabilində girovdur. Vacibatları yerinə yetirdikdən və günahları yuduqdan sonra azadlığa buraxılar), "Əshabi-yəmin"dən (girovdan azad olmuş əməl dəftəri sağ əlinə verilmiş salehlərdən) başqa. Onlar cənnətlərdə və bağlar içində olarlar; bir-birilərindən soruşarlar günahkarların halını; (Onlara üz tutaraq soruşarlar:) "Sizi cəhənnəmə daxil edən nədir?" Deyərlər: "Biz namaz qılanlardan deyildik. Fəqirə və yoxsula təam verməzdik. Batil əhli ilə birlikdə (bihudə işlərə və söhbətlərə) dalardıq. Cəza gününü təkzib və inkar edərdik. Yəqin bizə hasil olana

qədər. (Ölüm bizi yaxalayana qədər.)” Şəfaət edənlərin şəfaəti onlara heç bir fayda verməyəcəkdir.[1]

Həzrət Əli(ə) Məhəmməd ibn Əbu Bəkri Misirə vali göndərərkən belə buyurdu:

اِحذَرُوا يَا عِبَادَ الله اَلْمَوت وَسَكَرَتَهُ وَأَعِدُّوا لَهُ عُدَّتَه فَإِنَّهُ يَفجَأُكُم بِأَمرٍ عَظِيم بِخَيرٍ لا يَكُونُ مَعَهُ شرٌّ أَبداً وَشَّرٌ لا يَكُونُ مَعَهُ خَيرٌ أَبداً

-Odur ki, ey Allah bəndələri, ölüm və onun yaxın olmasından qorxun və onun üçün tədarük görün. *(Elə edin ki, ölüm çatanda nigarançılıq keçirməyəsiniz.)* Çünki ölüm böyük təhlükəsi olan bir işlə gəlir. *(Yaxşı işlər görənlər üçün)* heç vaxt pisliyi olmayan xeyir və yaxşılıqlar gətirir. Yaxud *(pis işlər görənlər üçün)* onunla heç vaxt yaxşılıq olmayan şər və pisliklər gətirir!

...اِنَّهُ لَيسَ أَحَدٌ مِنَ النَّاس تُفارِقُ رُوحُهُ جَسَدَه حَتّى يَعلَم أَيَّ الْمَنْزِلَتَين يَصِل إِلَى الْجَنَّةِ أَم إِلَى النّار، أَعَدوٌّ هُو لله أَم وَلِيٌّ؟ فَإِن كَان وليّاً لله فُتِحت لَهُ أَبوَابُ الْجَنَّة، وَشُرِعَت لَهُ طُرُقُها، وَرَأَى مَا أَعَدَّ اللهُ لَهُ فِيهَا، فَفَرَغَ مِن كُلِّ شُغْلٍ، وَوُضِعَ عَنهُ كُلُّ ثِقلٍ، وَإِن كَانَ عَدُوّاً لله فُتِحت لَهُ أَبوَابُ النَّار، وَشُرِعَت لَهُ طُرُقها، وَنَظَرَ إِلى مَا أَعَدَّ اللهُ لَه فِيهَا، فَاستَقْبَلَ كُلَّ مَكْرُوهٍ، وَتَرَكَ كُلَّ سُرُورٍ، كُلُّ هَذا يَكُونُ عِنْدَ الْمَوت، وَعِندَهُ يَكُونُ الْيَقَين

-İnsanlardan elə bir kəs yoxdur ki, onun ruhu bədənindən çıxmasın. Bu halda o, iki mənzillə üzləşdiyini

---

[1] Muddəssir surəsi, ayə 38-48.

görəcək. Cənnətə, yaxud cəhənnəmə gedəcəyini, Allahın düşməni və ya dostu olduğunu biləcəkdir. Can verən insan əgər Allahın dostudursa, cənnətin qapıları onun üzünə açılacaq. Yollar onun üçün rahatlaşacaq. Allahın onun üçün cənnətdə hazırladığı hər şeyi görəcək. (Dünyada çəkdiyi) bütün ağrılar və çətinliklər ondan uzaqlaşar, şadlıq və ləzzətlər başlayacaq. Lakin can verən şəxs əgər Allahın düşmənidirsə, cəhənnəmin qapıları onun üzünə açılacaq. Allahın onun üçün orada (cəhənnəmdə) hazırladığı hər şeyi görəcək. (Dünyada) çəkdiyi kef və şadlıqların hamısı onun üçün sona çatacaq. Bütün qəm-qüssələri, əzabları o andan başlanacaq. Bütün bunların hamısı ölən zaman baş verəcək. Belə olduqda insana yəqinlik gələcək. (Bütün bunların hamısının həqiqət olduğunu anlayacaq.)

“Vaqiə” surəsi çox əhəmiyyətli surələrdən biridir. Bu surənin dünya və axirət xüsusiyyətləri vardır. Xüsusiyyətlərindən biri də budur ki, kim bu surəni hər gecə oxusa, dünyada ölənə qədər heç bir kəsə möhtac olmaz. Allah-təala bu mübarək surənin 83-85-ci ayələrində belə buyurur:

فَلَوْلَا إِذَا بَلَغَتِ الْحُلْقُومَ. وَأَنتُمْ حِينَئِذٍ تَنظُرُونَ. وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنكُمْ وَلَكِن لَّا تُبْصِرُونَ

-Belə isə canınız boğaza (ölümünüz) çatan zaman. Siz həmin halda (özünüzün və ya can verməkdə olanın vəziyyətinə) baxırsınız. Biz (və mələklərimiz) həmin can verən şəxsə sizdən daha yaxınıq, lakin siz görmürsünüz.

İmam Sadiq(ə) bu ayə barədə buyurur: “Mömin insanın ruhu hülqumuna yetişdikdə, cənnətdəki məqam və mənzilini gördükdə belə deyər: Məni dünyaya qaytarın,

gördüklərimi öz ailəmə danışım. Ona deyilər ki, geriyə yol yoxdur.”

Mömin dünyadan gedərkən cənnətdəki məqamını ona göstərərlər. Bu zaman bütün qəm-qüssədən azad olar. Ölüm mələyi cənab Əzrayıl(ə) mömin insanın canını alarkən ona çox mehribanlıq göstərər. Bu haqda İmam Sadiqdən(ə) soruşdular:

الإمامُ الصّادقُ (عَلَيهِ الّسَلامُ) . لما سُئلَ: هل يُكرَهُ المؤمنُ على قَبضِ رُوحِهِ ؟ .: لا وَاللّه، إنّهُ إِذَا أَتاهُ ملَكُ الموتِ لقَبضِ رُوحهِ جَزِعَ عِندَ ذلكَ، فيَقولُ لَهُ ملَكُ الموتِ: يا وَلِيَّ اللّه لا تَجزَعْ، فوالّذي بَعَثَ محمّداً (صَلَّيَ اللّهُ عَلَيهِ وَ آلِهِ) لَأنا أبَرُّ بِكَ وأشفَقُ علَيكَ من والِدٍ رَحيمٍ لو حَضَرَكَ، افتَحْ عَينَكَ فانظُرْ. قالَ: ويُمَثَّلُ لَهُ رسولُ اللّه (صَلَّيَ اللّهُ عَلَيهِ وَ آلِهِ) وأميرُ المؤمنينَ وفاطمةُ والحسنُ والحسينُ والأئمةُ من ذُرِّيتِهِم (عَلَيهِمُ الّسَلامُ) فيقالُ لَهُ: هذا رسولُ اللّه و ... رُفَقاؤكَ ... فما شيءٌ أحَبَّ إلَيهِ مِنِ استِلالِ رُوحِهِ واللُّحوقِ بالمنادي.

-Mömin insanın ölümdən acığı gələrmi? Həzrət(ə) buyurdu: And olsun Allaha ki, xeyr. Ölüm mələyi onun (mömininin) canını almağa gəldikdə, o, əl-ayaq ataraq tələşlanar. Ölüm mələyi (Əzrayıl) ona deyər: Ey Allahın dostu, tələşlanma. And olsun Məhəmmədi(s) peyğəmbərliyə məbus edənə ki, mən övladına qarşı mehriban olan atadan daha çox sənə mehriban və rəhimli olacağam. Heç narahat olma, gözlərini aç və ətrafına bax. Gözlərini açdıqda Peyğəmbəri(s), Əmirəlmöminin

Əlini(ə), Fatiməni(s.ə), Həsəni(ə), Hüseyni(ə) və onların zürriyyətlərindən olan imamları başının üzərində görər. Onu on dörd məsumla bir-bir tanış edib deyərlər: Bunlar sənin dostlarındır. (Canını tapşıran mömin) on dörd məsumla tanış olduqda canını tez tapşırmaq və onlara qoşulmaq istəyər.[1]

Sonra İmam Sadiq(ə) belə buyurur: "Belə olduqda bu insan üçün dünyada ölümdən şirin bir şey olmayacaq. (Çünki artıq gördüyünü görmüşdür və ora getmək üçün çox tələsir.)"

Ayə və hədislər bizə təkidlə başa salır ki, ölüm anında bütün insanların gözləri açılacaq və onlar yəqinliyə çatacaqlar. Kimisi bu yəqinlikdən sevinəcək, kimisi qəm-qüssəyə qərq olacaqdır.

**Ayənin ikinci təfsiri**

Qeyd olunan ayənin ikinci mənası budur ki, insan Allaha ibadət etməyin nəticəsində yəqinliyə çatır. Yəni o qədər ibadət edir ki, Allah-təala yəqin məqamını həmin şəxsə mərhəmət edir. Deməli, bu insan ibadətlərinin səyi nəticəsində ölməmişdən əvvəl yəqin məqamına çatır. Ölümə və ölümdən sonra nə baş verəcəyinə yəqinlik əldə edir. Ayənin birinci təfsirində məna belədir ki, "o yəqin iş (hər bir canlı üçün labüd olan ölüm) sənə yetişənə qədər Rəbbinə ibadət et!" Yəni insanın gözləri ölən zaman açılır və həqiqət aləmini görür. İkinci təfsirdə isə ayənin mənası belədir: "Yəqinlik sənə hasil olana qədər Rəbbinə ibadət et!" Yəni insan ölməmişdən və ölüm halına düşməzdən əvvəl özünü bu məqama çatdırır.

---

[1]Mizanül-hikmə, 12-ci cild, səh.5700.

Bədr döyüşü sona çatdıqdan sonra Həzrət Peyğəmbər(s) kafirlərin cənazələrinin kənarından keçərkən dayanıb bir-bir adlarını çəkərək onları səslədi. Sonra belə buyurdu: "Allahın mənə verdiyi vədəni gözlərimlə görmüşəm. Siz də Allahın verdiyi vədələri gözünüzlə gördünüzmü? Bir nəfər dedi: Ya Rəsulallah, sən ölülərlə söhbət edirsən? Onlar cansız cəsədlərdən başqa bir şey deyil. Həzrət(s) buyurdu: Allaha and olsun ki, onlar mənim sözlərimi eşitdilər və dediklərimi sizdən daha yaxşı başa düşdülər. Onlar dirilər kimi görmürlər. Onların gözləri artıq həqiqət aləmini görür. Onlar mənim sözlərimi çox yaxşı eşitdilər, lakin danışmağa icazələri yoxdur."[1]

Cəməl müharibəsində Həzrət Əli(ə) Peyğəmbərin(s) etdiyi eyni hərəkəti etdi. Cəməl döyüşü başa çatdıqdan sonra Həzrət(ə) cənazələrin arasında Kəb ibn Sudinin meyitini gördü. Kəb ibn Sudi yolunu azmış qazilərdən biri idi. Bu müharibədə Quranı boynuna asıb özü və qohum-əqrəbası ilə birgə Həzrət Əliyə(ə) qarşı döyüşdülər. Müharibədən sonra Həzrət Əli(ə) onun meyitinə yaxınlaşıb bir nəfərə göstəriş verdi ki, onu otuzdursun. Həmin şəxs Kəbi otuzdurdu. Həzrət(ə) ona baxıb dedi: "Allahın mənə verdiyi vədəni gözlərimlə görmüşəm. Sən də Allahın verdiyi vədələri gözünlə gördünmü?" Bu sözü deyəndən sonra həmin şəxsə dedi ki, onun cənazəsini əvvəlki kimi yerə uzatsın. Sonra Həzrət Əli(ə) Təlhənin başı üzərinə gəlib baxdıqdan sonra yanındakılara göstəriş verdi ki, onu da otuzdursunlar. Təlhəni də otuzdurdular. Həzrət(ə) həmin sözləri ona da buyurdu. Bu hadisədən

---

[1] Bərzəx aləmi, səh. 166.

sonra Həzrətə(ə) dedilər: “Ya Əli, sən ölülərlə söhbət edirsən? Onlar sənin sözlərini necə eşidə bilər? Həzrət(ə) buyurdu: And olsun Allaha, Bədr quyusunun kənarındakı ölülər Peyğəmbərin(s) sözlərini eşitdikləri kimi, bunlar da mənim sözlərimi çox yaxşı eşitdilər.”[1]

İnsan ibadət nəticəsində yəqinliyini o qədər gücləndirə bilər ki, can verən insanın o halda gördüklərini həyatda ikən görə bilər. İnsan ibadət etdikcə yəqinin bu məqamına nail ola bilər.

Mərhum Ayətullah Seyid Məhəmməd Hüseyni böyük alimlərdən biridir. O, bir çox kitabların müəllifidir. Kitablarının birində belə yazır: “Mömin və möhtərəm şəxslərdən biri İraqda gördüklərini belə xatırlayır: -Orada İmam Kazim(ə) və İmam Əliyyən Nəqinin(ə) ziyarətinə getdim. Hərəmə çatar-çatmaz gördüm ki, bir cənazə gətirirlər. Diqqətlə baxdıqda gördüm ki, bu cənazənin üstündə bir qaraltı var. Yaxınlaşanda gördüm ki, onun sinəsinin üstündə qara bir it oturub. Bu hadisəni görüb öz-özümə təəccübləndim. Ətrafımda olanlardan soruşdum. O cənazənin üstündə nə görürsünüz? Dedilər: Biz heç nə görmürük. Başa düşdüm ki, onlar görmürlər. Bu hadisəni axıra qədər izlədim. Adət belədir ki, məsumların hərəmi olan şəhərlərdə dünyasını dəyişmiş şəxsin cənazəsini hərəmə aparıb qəbrin dövrəsinə dolandırdıqdan sonra onu dəfn edirlər. Həmin bu cənazəni də hərəmin içərisinə apardılar. Hərəmin qapısına çatdıqda həmin it cənazənin üstündən atılıb bir kənarda dayandı. Cənazəni içəri salıb ziyarət təvafı etdikdən sonra çıxardılar. Cənazəni hərəmin qapısından çıxaran kimi it yenə də çıxıb cənazənin

[1] Yenə orada.

üstündə oturdu. Sonra mən cənazənin sahibinin kim olduğu ilə maraqlandım. Mənə onun fasiq və çirkin əməl sahibi olduğunu söylədilər. Başa düşdüm ki, günahları sayəsində onun həqiqi və daxili surəti it şəklinə düşmüşdür.”

İnsan Allaha ibadət etməlidir. Çünki insanın yaradılışında əsas hədəf ibadətdir. Məhz ibadət nəticəsində insan yəqinliyə çatar və yəqinini gücləndirə bilər. Hərdən Allah-təala bəzi insanlara heç bir kəsin görmədiyi halları göstərər. Lakin məhz qeyri-adi şeyləri görmək üçün ibadət etmək riyadır. Yəni insan qeyri-adi şeyləri görmək üçun ibadət etməməlidir. Riya ilə olan ibadəti Allah-təala qəbul etmir. İnsanların Allaha ibadət etmələri və Onun buyurduqlarının hamısını yerinə yetirmələri vacibdir. Ola bilsin ki, ibadət edənlərdən bəzisində belə hallar yaransın, bəzisində isə yaranmasın. Amma ibadət insanın qəlbinə yəqinlik gətirər. Belə halları görməsə də, qəlbində qiyamətin olmasına yəqinlik yaranar.

Günlərin birində Şeyx Bəhainin atası Şeyx Həsən Şəhid Sani ilə dəniz kənarından keçirdilər. Şeyx Həsən deyir: “Birdən gördüm ki, Şəhid Saninin rəngi saraldı və halı dəyişdi. Ondan nə olduğunu soruşduqda mənə baxıb dedi: Yaxın zamanlarda burada bir alimi şəhid edəcəklər. Bu sözləri dedikdən sonra yolumuza davam etdik. Həmin hadisənin üstündən bir neçə gün keçməmiş onun özünü elə oradaca şəhid etdilər.”

Bu hadisələr elə hallardır ki, alimlərimizin və möminlərin içində baş verə bilir. Amma yəqinlik təkcə bu deyil ki, insan  həmin hallardan xəbərdar olsun. İbadət odur ki, insan uca və əzəmətli Allahın qarşısında səcdə etsin, Onun buyurduqlarına riayət etsin və insanın ürəyi

qiyamət gününə, ölümə və ölümdən sonrakı həyata yəqinlik tapsın. Bundan başqa dünyada Allah-təala kiməsə hansısa bir halı da inayət edə bilər. Bəzi insanlara isə Allah-təala ola bilsin ki, adi adamların görmədiyini göstərmiş olsun.

Bir nəfər deyir: "Tələbə vaxtlarımda mərhum ustad Ayətullah Ağaməhəmməd Baqir Behbehaninin dərsində iştirak edirdim. Bir gün səhər tezdən ayıldım. Baxıb gördüm ki, həm namazım qəzaya gedib, həm də boynuma qüsl düşüb. Öz-özümü danladım və gec oyanmağıma görə narahat oldum. Sonra fikirləşdim ki, əgər qüsl almağa getsəm, dərsi də əldən buraxacağam. Yaxşı olar ki, dərsdən çıxandan sonra hamama gedim. Elə qüsllü halda dərsə getdim. Bütün tələbələr oturub ustadın dərs deyəcəyini gözləyirdilər. Bir az keçdikdən sonra ustad başını qaldırıb bizə baxdı və dedi: Bu gün dərsi tətil elan edirəm. Hamı gedə bilər. Tələbələr dağılışdılar. Mən də çıxmaq istəyəndə Ayətullah Behbehani əli ilə mənə işarə edib yanına çağırdı. Ona yaxınlaşdıqda cibindən bir miqdar pul çıxarıb mənə verdi və buyurdu: Bundan sonra qüsl almamiş dərsə gəlmə. İnsan belə dərslərdə cənabət halında iştirak etməz."[1]

Bütün bunlar elə hallardır ki, yəqinliyə və ibadətə dəxli yoxdur. Ola bilsin ki, bir insan ömrü boyu ibadət etmiş olsun, lakin belə hallarla rastlaşmasın. Bir daha qeyd etməliyəm ki, insan ona görə ibadət etməməlidir ki, hansisa qeyri-adi şeyləri görsün. Belə şeylərə görə ibadət etmək riya, bəlkə də şirkdir. İnsan yalnız Allaha ibadət etmək üçün xəlq olunmuşdur.

---

[1] Alimlərin kəraməti, səh.25.

Həzrət Əlinin(ə) ibadət haqqında gözəl bir fikri var. Onun bu fikri bütün bu dediklərimizə bir nöqtə qoyur. O, Allahla münacat edərkən belə deyərdi: “İlahi, mən Sənə cənnətə getməyə və ya cəhənnəm qorxusuna görə ibadət etmirəm. Mən Səni ibadətə layiq bildiyim üçün ibadət edirəm.”

**Riza (razılıq)**

İnsanı yəqinə çatdırıb yəqinliyi gücləndirən amillərdən ikincisi riza və razılıqdan ibarətdir. Riza çox incə və diqqət tələb edən bir məsələdir. Hər kəsdə riza olmasa, həmin şəxsdə şəkk-şübhə yarana bilər. Şəkk-şübhə yarandıqda isə insan yəqindən uzaqlaşar və imanı zəifləyər. Rizanın mənası budur ki, insan zahirdə və batində Allaha etiraz etməsin. Həmçinin dilində və əməlində də Allaha qarşı öz etiraz və narazılığını bildirməsin. Əgər bir insan zahirdə və batində, aşkarda və xəlvətdə, dildə və əməldə Allaha qarşı etiraz etməsə, belə bir şəxsə razı insan deyilir. Bu cür insan riza sahibidir. Razılıq məhəbbətin nəticə və bəhrəsidir. Əgər bir insanın Allaha məhəbbəti olsa, Onun bütün istəklərini öz istəklərindən üstün bilər. Allahı sevən şəxs Onun bütün istəklərinə razı olur. Deməli, razılıq məhəbbətin nəticəsində əmələ gəlir.

Yetmiş yaşlı bir Allah bəndəsini yaşadığı müddət ərzində bircə dəfə də olsun görmədilər ki, “kaş filan şey belə olaydı, kaş filan iş belə olmayaydı” desin. Hətta Allah ona bir bəla göndərdikdə belə dözüb razılıq edirdi.

Əgər bir insan Allahın işlərində “kaş filan şey belə olaydı” deyirsə, deməli ürəyində Allaha qarşı narazılıq

var. Məsələn, hazırkı vəziyyətindən razı olmayıb "kaş mənim də pulum, oğlum, qızım və s. olaydı" deyirsə, deməli, Allaha qarşı etiraz etmiş olur.

Riza, iman və yəqin əhlindən olan bir arif illər boyu Allaha səcdə edib deyərdi: "İlahi, Səndən çox razıyam. Ondan soruşdular: Sən bu rizayəti necə qazana bilmisən? Sənin belə rizayət əhli olmağının səbəbi nədir? O dedi: Siz elə güman edirsiniz ki, məndə razılıq var? Mən özümdə razılıqdan heç bir əsər-əlamət görmürəm. Amma bir xasiyyətim var ki, əgər Allah məni cəhənnəmin üstündə körpü qərar verib əmr versə ki, bütün insanların hamısı, hətta günahkarlar belə mənim üstümdən keçib cənnətə getsinlər, axırda da Allah məni götürüb cəhənnəmə atsa da belə, zərrə qədər də ürəyimdə Ona qarşı etiraz etmərəm."

Bu söhbət riza məsələsini aydınlaşdırır və artıq heç bir suala ehtiyac qalmır. Ona görə də Allahdan razı qalan insanın ürəyi həmişə sakit və aramdır. Allahdan razı olan insanın qəlbində zərrə qədər də olsun həyəcan olmaz. Allahdan razı olan insan ürəyində həmişə şadlıq və sevinc hissləri ilə yaşayır. Məsələn, bir nəfər şad və xoş xəbər eşidir. Bu xəbəri birinci evə çatdırmaq üçün tələsir. Belə bir halda insanın əhvalı necə olur? Əlbəttə ki, sevinc, şövq və həvəsli halda evə tələsir. Ərəb dilində belə bir hala "behcət" deyilir. Buna görə də Allahdan razı olan, Onun heç bir işinə etiraz etməyən insanın qəlbi də həmişə şadlıq içində olar.

## Razılığın təfsir və mənası

قَالَ رَسُول اللهِ(ص) لِجِبرِيل: فَمَا تَفْسِير الرِّضا؟ قَالَ جِبرِيل: اَلرّاضِى لا يَسخَط عَلَى سَيِّدِه اَصابَ مِنَ الدُّنيا اَمْ لَمْ يُصِب وَلا يرضى لِنَفْسِه بِاليسير مِنَ العَمَل

-İslam Peyğəmbəri(s) cənab Cəbrayıldan soruşdu: "Ya Cəbrayıl, rizanın məna və təfsiri nədir? Cənab Cəbrayıl dedi: Razı o kəsə deyərlər ki, öz ağasına (Allaha) qarşı ürəyində zərrə qədər də narazı olmasın. İstər bu dünyadan ona bir şey vermiş olsun, istərsə də heç nə verməmiş olsun. Həmçinin özünün etdiyi əməllərdən razı qalmasın."[1]

Ümumiyyətlə, özündən razı olan insan Allahdan razı qalmaz. Ona azacıq ziyan və çətinlik dəydikdə Allaha qarşı etiraza başlayar. Buna görə də Allahdan razı qalan şəxs heç bir vaxt öz əməlləri ilə öyünməz.

قَالَ الصّادِقُ(ع): اِعلَمُوا اَنَّهُ لَن يُؤمِنَ عَبدٌ مِن عَبِيدِهِ حَتَّى يَرضَى عَنِ اللهِ فِيمَا صَنعَ اللهُ اِلَيهِ وَ صَنَعَ بِهِ عَلى مَا اَحَبَّ وَ كَرِهَ

-İmam Sadiq(ə) buyurur: "Bilin ki, heç bir bəndə, Allahın onun barəsində məsləhət gördüyü müqəddərata razı olmadan mömin ola bilməz. İstər həmin bəndə o müqəddəratı bəyənsin, istərsə də bəyənməsin."

Həzrət Musa(ə) Allaha dedi: "Ey Rəbbim! Mənə elə bir işə yol göstər ki, ona əməl edəndə Sənin razılığını qazana bilim. Allah-təala ona vəhy etdi: "Həqiqətən,

[1]Mizanül-hikmə (t.v.), 5-ci cild, 7301-ci hədis.

Mənim razılığım Mənim müqəddəratıma (qəza-qədərimə) razılığındadır.”[1]

Deməli, hər kəs Allahdan razıdırsa, Allah da ondan razıdır. Bir gün Bəni-İsrail tayfası Musa Peyğəmbərə(ə) dedilər: “Allahdan soruş ki, Onun bizdən razı qalması üçün hansı işi görək? Musa(ə) onların dediklərini Allahdan soruşduqda belə cavab gəldi: Ya Musa, onlara de ki, əgər Məndən razı qalsalar, Mən də onlardan razı qalaram.”[2]

---

[1] Camiüs-səadət, 3-cü cild, səh. 256.
[2] Yenə orada.

## Razılığın fəziləti

Allahın insan üçün müəyyən etdiyi müqəddərata (istər çətin olsun, istərsə asan, yaxud istər acı olsun, istərsə də şirin) razı olmağın nə qədər çətin olmasına baxmayaraq, bu, böyük fəzilətə malikdir. Razılığın fəziləti barədə ayə və hədislərdən bir neçəsini nəzərinizə çatdırıram. Lakin bu razılığın fəzilətinin Allah yanında nə qədər çox olduğunu dərk etmək çətindir. Ən şərafətli və fəzilətli əməl odur ki, insan Allahdan razı qalsın. Cənnətə açılan ən əzəmətli qapı rizayətin (razılığın) qapısıdır. Görkəmli insanlar həmin qapıdan cənnətə daxil olacaqlar. Məsələn, yüksək səviyyəli mərasimlərdə iştirak edənləri içəri buraxarkən yoxlayırlar. Giriş qapılarından keçənləri əllə və ya müxtəlif cihazlarla yoxladıqdan sonra içəri buraxırlar. Lakin vəzifəli şəxslər və ya təşkilatçılar üçün xüsusi qapılar da var ki, onlar oradan və həm də yoxlanılmadan içəri daxil olurlar. Cənnətin də qapıları eynilə buna bənzəyir. Lakin oranın xüsusi bir qapısı var ki, həmin yerdən yalnız Allahdan razı olan insanlar yoxlanılmadan keçirlər. Bu qapı cənnətin ən şərafətli və əzəmətli qapısıdır. Allah-təala “Maidə” surəsinin 119-cu ayəsində buyurur:

قَالَ اللّهُ هَذَا يَوْمُ يَنفَعُ الصَّادِقِينَ صِدْقُهُمْ لَهُمْ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا رَّضِيَ اللّهُ عَنْهُمْ وَرَضُواْ عَنْهُ ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ

-Allah buyurur: “Bu, doğruçulara (əqidə, danışıq və əməldəki) düzlüklərinin fayda verdiyi bir gündür. Onlar üçün (ev və ağaclarının) altından çaylar axan cənnətlər

vardır, orada əbədi qalacaqlar. Allah onlardan razıdır və onlar da Allahdan razıdırlar. Ən böyük uğur budur!”

Ən böyük xoşbəxtlik odur ki, insan dünyadan gedəndən sonra cənnətdə Allah ondan və o da Allahdan razı olmuş olsun.

Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü Allah mənim ümmətimdən bir qrup insana iki qanad verəcək. Onlar qəbirlərindən birbaşa uça-uça cənnətə daxil olacaqlar. Mələklər təəccüblə onlardan soruşacaq: Siz hesab-kitabdan qurtarmısınızmı? Onlar deyəcəklər: Biz hesab-kitab görməmişik. Mələklər soruşarlar: Siz siratdan keçdinizmi? Onlar deyərlər: Biz siratı da görmədik. Mələklər soruşarlar: Siz hansı peyğəmbərin ümmətisiniz? Onlar deyərlər: Biz Məhəmmədin(s) ümmətiyik. Mələklər soruşarlar: Siz dünyada hansı əməlin sahibi idiniz? Onlar deyərlər: Bizim dünyada iki xüsusiyyətimiz var idi. Biri bu idi ki, xəlvətdə günahla üzləşdikdə Allahdan həya edib günahdan uzaqlaşırdıq. İkincisi isə bu idi ki, Allah bizə (bəyəndiyimiz və bəyənmədiyimiz) hər nə verirdisə, ürəkdən Ondan razı qalırdıq. Allaha qarşı zərrə qədər də etiraz etməmişik.”

Allah-təala “Tövbə” surəsinin 72-ci ayəsində belə buyurur:

وَعَدَ اللّهُ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ وَرِضْوَانٌ مِّنَ اللّهِ أَكْبَرُ ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

-Allah mömin kişilərə və qadınlara *(ev və ağaclarının)* altından çaylar axan, əbədi qalacaqları cənnətlər vəd etmişdir. Həmçinin əbədi cənnətlərdə pak

məskənlər! Allah tərəfindən olan razılıq *(isə bütün nemətlərdən)* böyükdür. Budur böyük uğur və qurtuluş!

Həzrət Peyğəmbərdən(s) cənnət bağları haqqında soruşdular. Həzrət(s) buyurdu: “Cənnət bağları heç bir gözün görmədiyi və heç bir kəsin təsəvvür etmədiyi Allahın bir evidir. Orada üç qrup insan məskunlaşacaq: peyğəmbərlər, doğruçu insanlar və şəhidlər.”[1]

Digər bir hədisdə Həzrət(s) belə buyurur:

مَنْ سَرَّهُ اَنْ يَحْيا حَياتِی و يَمُوتُ مَمَاتِی ويَسكنَ جَنَّةَ عَدْنٍ...

فَلِيُوالِ عَلِيَّ بنَ اَبِی طَالِب وَ ذُرِّيَتَهُ مِنْ بَعْدِی

-Hər kəs mənim kimi yaşamaq, mənim kimi dünyadan getmək və cənnət bağlarında məskunlaşmaq istəyirsə, məndən sonra Əli ibn Əbu Talibi və onun övladlarını (imamları) sevərək vilayətlərini qəbul etməlidir.[2]

Deməli, bu hədis bizə yol göstərir. Cənnət bağlarına çatmaq istəyən şəxs Peyğəmbərdən(s) sonra Əli(ə) və onun övladlarından olan imamların vilayətini qəbul etməlidir. Həzrət Peyğəmbər(s) bu hədisdə cənnət bağlarının ünvanını bizə göstərir. Deməli, cənnət bağlarında peyğəmbərlər, siddiqlər və şəhidlər məskunlaşacaq. Həzrət Peyğəmbəri(s) orada ziyarət etməyin ünvanı Əlinin(ə) və imamların məhəbbət və vilayətidir.

Bütün bunlar öz yerində, ancaq bütün bu nemətlərin hamısından üstünü isə Allahın rizvanıdır. Rizvan odur ki,

---

[1] Təfsiri-nümunə, 8-ci cild, səh.38.

[2] Yenə orada .

Allah insandan razı olsun. Ayədə cənnətin nemətləri sadalandıqdan sonra belə buyurulur: "Allah tərəfindən olan razılıq *(isə bütün nemətlərdən)* böyükdür. Budur böyük uğur və qurtuluş!" Bu ayədən də başa düşürük ki, Allahın razılığı ən böyük xoşbəxtlikdir. Allah insandan o vaxt razı qalar ki, insan Ondan razı olmuş olsun.

Sual oluna bilər ki, görəsən, Allah yanında insan üçün bundan da böyük məqam və şərafət varmı? Hədislərdə deyilir ki, bundan da üstün bir dərəcə vardır ki, Allah-təala onu İslam Peyğəmbərinə(s) və qızı Fatimeyi Zəhraya(s.ə) inayət etmişdir.

Allah-təala Öz razılığını Fatimənin(s.ə) razılığı ilə əsaslandırmışdır. Hər kəs Allahın razılığını qazanmaq istəyirsə, mütləq Fatimənin(s.ə) razılığını əldə etməlidir. Fatimə(s.ə) kimdən razıdırsa, Allah-təala da həmin şəxsdən razıdır.

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّ اللهَ تَبَارَكَ وَ تَعَالى يَغْضِبُ لِغَضَبِ فَاطِمَة وَ يَرضَى لِرِضَاهَا

-Həzrət Peyğəmbər(s) buyurur: "Həqiqətən, Allah-təala Öz qəzəbini Fatimənin qəzəbi, Öz razılığını onun razılığı kimi əsaslandırıb. (Fatimənin qəzəbləndiyi kəsə Allah qəzəblənmiş, onun razı olduğu kəsdən Allah da razı olmuşdur.)"

Sonra Həzrət Peyğəmbər(s) qızı Fatiməyə(s.ə) buyurdu:

يَا فَاطِمَة اِنَّالله يَغْضِبُ بِغَضَبِكِ وَيَرضَى لِرِضَاكِ

-Ey Fatimə, sən qəzəbləndikdə Allah qəzəblənir. Hər bir işdə sənin razılığın varsa, Allahın da razılığı var.

Bu hədis əhli-sünnənin bir neçə kitabında qeyd olunmuşdur. Həmin mənbələri nəzərinizə çatdırıram: “Yənabiül-məvəddə”, səh.173; “Kənzül-ümmal”, 13-cü cild, səh. 674; “Möcəmi-kəbiri Təbərani”, 1-ci cild, səh. 108; “Müstədrək (Hakim Həskani)”, 3-cü cild, səh.124. Bu hədis İslamın bütün firqələrinin kitablarında qeyd olunmuş, şiə və sünni alimləri tərəfindən bu hədis təsdiq edilmişdir. Deməli, Allahın qəzəbi Fatimənin(s.ə) qəzəbində, razılığı da onun razılığındadır. Fatimə(s.ə) kimə qəzəblənirsə, Allah da həmin şəxsə qəzəblənir. Fatimə(s.ə) kimdən razıdırsa, Allah da həmin şəxsdən razıdır. Fatimənin(s.ə) sevdiyi şəxsi Allah da sevir.

Əhməb ibn Hənbəl deyir: “Bir gün Məkkəyə getmişdim. Kəbə evinin kənarında ibadətlə məşğul idim. Birdən gözüm Kəbənin pərdəsindən yapışıb ağlayan bir nəfərə sataşdı. Onun bu halı mənə çox təəccüblü gəldi. Bir az onun hərəkətlərinə diqqətlə baxdıqda gördüm ki, öz-özünə danışır, istiğfar edib ağlayır. Yavaş-yavaş ona yaxınlaşıb salamlaşdıqdan sonra soruşdum: Sənə nə olub ki, belə ağlayıb yalvarırsan? O, məni görüb tanıdı və dedi: Mənim başıma gələnlərdən sənin xəbərin yoxdur. Xahiş edirəm ki, mənimlə işin olmasın. Qoy öz halımla məşğul olum. Mən ondan çox xahiş etdim ki, başına gələnləri mənə danışsın. Yavaş-yavaş onu dilə gətirib yumşaltdım. O, mənə dedi: Ağlayıb tövbə etməyimin sirrini sənə deyə bilərəm. Amma xahiş edirəm, bu sirri mən ölənə qədər heç kəsə açmayasan. Mən ona söz verdim ki, heç kəsə deməərəm. O, başına gələnləri danışmağa başladı və dedi:

-Mən Mənsur Dəvaniqinin işçilərindən idim. O işçilərdən idim ki, insanlara işgəncə verib öldürmək üçün xüsusi divarlar hörürdüm. Mənsur kimi öldürmək istəyirdisə, onu aparıb həmin divarlara qoyub ağzını

bağlayırdıq. Hərdən mənə kömək etmək üçün oğlumu da özümlə aparırdım. Bir gün Mənsur Dəvaniqi məni çağırıb dedi: Bu altmış seyidi apar və filan yerdə divarın arasına hör. Mən əlləri qandallı bu seyidləri aparıb həmin yerdə bir-bir divarın içinə qoyub ətraflarını palçıqla hördüm. Axırıncı seyidi divara qoyub hörmək istəyəndə gördüm ki, arıq və rəngi saralmış yeniyetmə bir uşaqdır. Onun əl-ayağı yarpaq kimi əsirdi. Uşağın göz yaşlarını gördükdə ürəyimə rəhm gəldi. Göz yaşları onun gözlərindən sanki yağış kimi yerə tökülürdü. Ondan soruşdum: Nə üçün ağlayırsan? O, mənə baxıb dedi: "Sən elə bilmə ki, mən ölümdən qorxuram. Anam neçə vaxt idi ki, məni evdən çıxmağa qoymurdu. Bilirdi ki, seyidləri harda görsələr tutub öldürürlər. Dünən mən anamdan xəbərsiz evdən çıxdım. Küçədə məni görən kimi tanıyıb yaxaladılar. İndi bilirəm ki, anam mənim üçün nə qədər nigarandır. Onun nigarançılığına görə ağlayıram."

Uşağın bu sözləri ürəyimi bir qədər də yumşaltdı. Öz-özümə dedim: Ey mənim nəfsim, nə qədər qan töküb cinayət edəcəksən? Sonra Allahla ürəyimdə belə münacat etdim: İlahi, bu gecə səninlə bir sövdələşmə etmək istəyirəm. İstəyirəm ki, öz oğlumu onun yerinə qoyum və bu uşağı evə aparım. Bəlkə onu anasına qaytara bildim. Öz oğluma dedim: Oğul, gəl mən səni bu divarın arasına qoyub hörüm. Nəfəs almağın üçün bir dəlik də qoyacağam. Bu uşağı aparıb anasına təhvil verəndən sonra sabah gəlib səni buradan çıxararam. Oğlum mənimlə razılaşdı. Həmin yeniyetmə seyidin saçlarını kəsib, tanınmaması üçün üst-başına da palçıq sürtdüm ki, görənlər mənim öz oğlum olduğunu düşünsünlər. Əgər yolda kimsə onun seyid olduğunu başa düşsəydi, mənə divan tutardılar.

Beləcə, işlərimi qurtardıqdan sonra uşağın əlindən tutub qorxa-qorxa evə gəldim. Evə daxil olandan sonra halım çox pis oldu. Elə bu zaman qapı döyüldü. Həyat yoldaşım gedib qapını açdı. Bir az keçmədi ki, qayıdıb mənə dedi: Bir xanımdır, yanında da bir uşaq var. Qapıya çıxanda gördüm ki, bir xanımdır, oğlum da onun yanında. Ondan soruşdum: Sən kimsən? Dedi: Mən Allahın Rəsulunun qızı Fatiməyəm. Ey şeyx, yaxşı bir iş gördün. Allah heç vaxt yaxşı iş görənləri savabsız qoymaz. Sənin etdiyin yaxşı əməlin mükafatı budur ki, oğlunu sənə gətirmişəm. Oğlumu qaytar və öz oğlunu məndən al. Həmin seyidi gətirib xanıma təhvil verdim və oğlumu aldım. Elə həmin andan sonra etdiyim bütün əməllərdən peşman olub tövbə etdim. Səhərisi gün həmin şəhərdən bura qaçmışam. Mənsur mənim qaçdığımı bilib evimi, mal-dövlətimi zəbt etdi. Mən evimin və malımın əlimdən çıxmasına görə narahat deyiləm. Mənim narahatçılığım budur ki, birdən Allah məni bağışlamamış dünyadan aparar."

Həzrət Fatimeyi Zəhra(s.ə) elə bir şəxsiyyətdir ki, Allah Öz razılığını onun razılığına bağlayıb. Fatiməni(s.ə) qəzəbləndirən Allahı qəzəbləndirmişdir, onun razılığı isə Allahın razılığıdır. Müsəlmanlar başa düşməlidirlər ki, Allahın bizə bəxş etdiyi sərmayələri aldadıb onların əllərindən almaq istəyənlər çoxdur. Fatimə(s.ə) insanlar üçün Allahın böyük mərhəmətidir. Fatimə(s.ə) bir istəyi olanları əliboş qaytarmaz. Kim deyir ki, təvəssül etmək haramdır? Əgər Allah-təala Öz razılığını Fatimənin(s.ə) razılığı ilə bağlayırsa, nə üçün öz istəklərimizə görə o xanıma üz tutmayaq? Hər kəs təvəssül namazı qılaraq Xanım Fatimədən(s.ə) bir istəyi olsa mütləq alacaqdır. İki rükət namaz qıldıqdan sonra o xanımın zikrini etmək

lazımdır. Zikr etdikdən sonra alnı səcdəyə qoyub yüz dəfə bu sözləri deməlisən: “Ya mövlati, ya Fatimətu əğisini.” Sonra sağ üzünü səcdəyə qoyub yüz dəfə həmin sözləri de. Yenidən alnı səcdəyə qoyub yüz dəfə təkrar et. Sonra sol üzünü səcdəyə qoyub yüz dəfə de. Bundan sonra yenidən alnını səcdəyə qoyub yüz on dəfə həmin sözləri təkrar et. Beləcə cəmi beş yüz on dəfə bu sözlər deyilir. Sonra hər nə istəyin var idisə istə. Əgər iman və ixlasla hacətini istəsən, mütləq alacaqsan.

Mərhum Ayətullahül-üzma Milani Məşhəd şəhərində böyük müctəhidlərdən biri idi. Alimlərdən biri deyir ki, bir gün mən onun hüzurunda əyləşmişdim. Xəbər verdilər ki, bir neçə nəfər xaricdən qonaq gəlib. Ayətullah Milani qonaqları qəbul etdi. Onlar Almaniyadan gəlmiş bir ailə idilər. Tərcüməçi onları içəri gətirib yer göstərdi. Onlar gəlib əyləşdikdən sonra Ayətullah Milani soruşdu: “Bunlar kimlərdir? Tərcüməçi dedi: Bunlar Almaniyadan qonaq gəliblər və İslam dinini qəbul etmək istəyirlər. Soruşdu: Nə əcəb, səbəbi nədir? Tərcüməçi dedi: Ağa, izn verin başına gələnləri özü danışsın və mən də sizə tərcümə edim. Həmin qonaq əli ilə qızını göstərib dedi: Bu, mənim gözümün ağı-qarası olan bircə övladımdır. Onu maşın vurub qol- qabırğalarını sındırmışdı. Bir çox həkimlər onu müayinə və müalicə etmək istədilər, lakin qız sağalmadı. Axırda əlacsız qalıb əlimizi ondan üzdük və onu xəstəxanaların birində yerləşdirdik. Qızım həmin xəstəxanada işləyən iranlı bir qızla dostlaşdı. O, ürəyini həmin iranlı qıza açıb deyib ki, ömür boyu ailəlikcə işləyib cəmi on beş min dollar pul toplamışıq. Kaş bir həkim tapılaydı, məni sağaltmaq üçün bütün bu pulları ona verəydik. Əgər çatmasa, borc edib bir az da pul tapmaq olar. Təki məni sağaltsınlar. İranlı qız ona deyib:

Mən bir həkim tanıyıram ki, sənin dərdinə əlac edə bilər. Qız dedi: Elə isə  topladığımız pulu ona verək, qoy gəlib məni sağaltsın. İranlı qız deyib ki, xeyr, onun pula ehtiyacı yoxdur. Qızım soruşub ki, o həkim kimdir? İranlı qız deyib: Bizim peyğəmbərimizin bir qızı var ki, onun da qabırğaları sınmışdı. Əgər sən sidq ürəklə onu çağırsan, səni sağaldacaq. Onun adı Fatimədir(s.ə). Sən sağalana qədər onu səsləyib belə çağır: "Ya Fatimə(s.ə)! Ey qabırğaları sınan xanım!" Beləcə, sənə şəfa verənədək onu səslə.

Qızın atası deyir: "Mən gördüm ki, qızım iranlı qızın ona öyrətdiyi sözləri tez-tez təkrar edib ağlayır. Həmin iranlı qız da bir küncdə əyləşib ağlaya-ağlaya deyirdi: Ya Fatimə(s.ə), mən bu gün sənin qapına Almaniyadan xəstə gətirmişəm. Onun şəfasını səndən istəyirəm."

Sonra gördüm ki, qızım özündən getdi. Bir az keçməmiş özünə gəlib məni səslədi: Ata! Tez onun yanına gedib soruşdum: Nə olub, qızım? Dedi: Ata, bir xanım gəlib əllərini qabırğalarıma sürtən kimi sağaldım. Mən artıq xəstə deyiləm. O gündən biz İslam Peyğəmbərinə(s) iman gətirmişik. İrana gəlməkdə məqsədimiz həm Peyğəmbərin(s) balalarından olan İmam Rzanı(ə) ziyarət etmək, həm də İslamı qəbul etməkdir."

Xanım Fatimeyi Zəhra(s.ə) bizim izzətimizdir. Allahın bizə bəxş etdiyi ən böyük mərhəmətdir. Odur ki, Allahın bu mərhəmətinin bizim əlimizdə qalmasını istəmirlər. Hər bir vasitələrlə insanları İslam Peyğəmbərindən(s) və Əhli-beytdən(ə) ayırmağa çalışırlar.

Allah-təala buyurur: "Allah tərəfindən olan razılıq *(isə bütün nemətlərdən)* böyükdür. Budur böyük uğur və qurtuluş!" Peyğəmbərin(s) hədisi də bizə öyrədir ki,

Allahın bu rizayətini qazanmaq üçün hər birimizə Həzrət Fatimənin(s.ə) razılığını əldə etmək lazımdır.

## Allahın təcəllası və rizayəti

Yuxarıda qeyd olundu ki, insan həyatında Allaha qarşı etiraz etmirsə, bu şəxsə razı insan deyilir. Yəni insan Allahın qəza-qədərinə qarşı etiraz etməməlidir. Razılıq insanın ürəyində olan iman və yəqinliyini gücləndirən amillərdən biridir. Yəqinin Allah yanında olan fəziləti həddindən artıq çoxdur. Bəzi hədislərdə deyilir ki, insan cənnətə daxil olduqda maddi nemətlərdən keçdikdən sonra mənəvi nemətlər ona nazil olacaq. Mənəvi nemətlərdən biri budur ki, Allah Özünü insanlara təcəlla etdirəcək. Yəni Allah-təala hüsnünü, qüdrətini, əzəmət və nurunu təzahür etdirəcək. Allahın təcəllası elə bir şeydir ki, bu dünyada çox az insan onun nişanəsini görmüşdür. Həzrət Musa(ə) Allaha ibadət etdiyi yerə gedərkən onun ümmətindən olan bir qrup insan dedi: “Ey Musa, Allahdan bir istəyimiz var. O istəyimizi Allaha çatdırmağı xahiş edirik. Ona de ki, Özünü bizə göstərsin. Musa Peyğəmbər(ə) yetmiş nəfərlə birgə miqata (həmişə ibadət etdiyi yerə) getdilər. Musa(ə) onların istəklərini Allaha ərz etdi. Bu uzun bir hekayət olduğundan əsas bir faktı nəzərinizə çatdırmaq istəyirəm. Bu hadisəni “Əraf” surəsinin 143-cü ayəsində belə oxuyuruq.

وَلَمَّا جَاء مُوسَى لِمِيقَاتِنَا وَكَلَّمَهُ رَبُّهُ قَالَ رَبِّ أَرِنِي أَنظُرْ إِلَيْكَ قَالَ لَن تَرَانِي وَلَكِنِ انظُرْ إِلَى الْجَبَلِ فَإِنِ اسْتَقَرَّ مَكَانَهُ فَسَوْفَ تَرَانِي فَلَمَّا

تَجَلَّى رَبُّهُ لِلْجَبَلِ جَعَلَهُ دَكًّا وَخَرَّ موسَى صَعِقًا فَلَمَّا أَفَاقَ قَالَ سُبْحَانَكَ تُبْتُ إِلَيْكَ وَأَنَاْ أَوَّلُ الْمُؤْمِنِينَ

-Elə ki Musa Bizim vədələşdiyimiz yerə gəldi və Rəbbi onunla (vasitəsiz) danışdı, (Allaha) "ey Rəbbim, (Özünü) mənə göstər, Sənə baxım (dünyaya və axirətə xas bütün cəlal və camal təzahürlərini müşahidə etdikdən sonra əldə edilən məxsusi bir batini baxışla Səni görüm)" dedi. (Rəbbi ona) "Məni (belə bir baxışla) əsla görməyəcəksən, lakin bu dağa tərəf bax, əgər o, öz yerində sabit qalsa, sən də Məni görəcəksən (sənin vücudunun qüdrəti Mənim nurumun saçması müqabilində bu dağdan azdır)" dedi. Beləliklə, onun Rəbbi dağa təcəlla etdikdə (nurundan və əzəmətindən zərrə qədər dağa saçaraq) onu parçalayıb toz halına saldı və Musa özündən gedib yıxıldı. Özünə gəldikdə dedi: "Sən (gözlə görünməkdən) pak (və uzaq)san! Sənə tərəf qayıtdım (tövbə etdim) və mən ilk iman gətirənəm."

Allah-təala Öz cəlalından, şövkətindən və nurundan dağa zərrə qədərini təcəlla etdikdə dağ parçalanıb toz olmaqla yanaşı, hətta Musanın bunu görməyə taqəti olmadı və özündən getdi. Özünə gəldikdən sonra Allaha sükür edib iman gətirdi. Onun bu iman gətirməsi əvvəlki iman gətirməsindən deyildi. Onun bu imanı Allahın təcəllasından sonra olan xüsusi iman və yəqinliyi idi.

Hədislərdə deyilir ki, insan cənnətə daxil olduqdan sonra maddi nemətlər cənnətdəkilərin halına şamil olacaq. Maddi nemətlərdən alma, nar, süd, bal, gözəl libaslar, hurilər, qılmanlar və s. kimi nemətlərin hamısı orada var. Bu nemətlərdən dünyada da var. Lakin cənnətdə insan bu nemətlərdən daddıqdan və keçdikdən sonra mənəvi

nemətlərin dadını görəcək. Cənnətin dərəcə və mərhələləri müxtəlif olduğundan müxtəlif insanlar o dərəcələrdə qərar tutacaqlar. Cənnətdə bəzi insanlar sadəcə maddi nemətlərdən bəhrələnəcəklər. Lakin bəzi insanlar isə mənəvi nemətlər olan dərəcəni əldə edəcəklər. Məsələn, Fironun həyat yoldaşı Asya xanım çarmıxa çəkildikdə Allahdan cənnətin mənəvi dərəcəsini istədi. Asyanı çarmıxa çəkib əllərini və ayaqlarını mismarladılar. Bəzi mənbələrdə yazırlar ki, hətta gözlərinə də mismar vurmuşdular. Bütün bunlara baxmayaraq, gördülər ki, Asya gülümsəyir. Bəziləri onun dəli olduğunu güman edirdilər. Asya orada bir söz deyib Allaha qovuşdu. Allah-təala onun dediyi bu cümləni Quranın ayələrinin arasına salaraq Asyanı mömin bir qadın kimi bütün bəşəriyyətə tanıtdırır. Asya elə bir fikir söyləyib ki, Allah-təala onun bu fikrinə çox böyük qiymət verərək Quran ayələrinin sırasına daxil etmişdir. Hər kəs onun bu sözlərinə dəstəmazsız əl vurarsa, günah iş görmüşdür. Çünki həmin kəlmələr Quranın ayələrindən biridir. Quran bu əhvalatı bizə bəyan edərək "Təhrim" surəsinin 11-ci ayəsində belə buyurur:

وَضَرَبَ اللَّهُ مَثَلًا لِّلَّذِينَ آمَنُوا امْرَأَةَ فِرْعَوْنَ إِذْ قَالَتْ رَبِّ ابْنِ لِي عِندَكَ بَيْتًا فِي الْجَنَّةِ

-Və Allah iman gətirən kəslər üçün Fironun zövcəsini məsəl çəkdi; o zaman o demişdi: "Ey Rəbbim, mənim üçün Öz yanında *(Öz cəlal və rəhmətinin yaxınlığında)* cənnətdə bir ev tik!"

Asya xanım çarmıxda Allahdan Onun yanında olmağı istədi. Onun üçün maddi nemətlər maraqlı deyildi. O, yalnız Allahın Özünü istəyirdi. Odur ki, insan cənnətə

daxil olduqdan sonra maddi nemətləri ötüb keçəcək və mənəvi nemətlər ona nazil olacaqdır. Orada Allah-təala möminlərin vasitəsilə Özünü təcəlla edəcək. Bu elə bir təcəlladır ki, onun zərrəsi nəticəsində dağ toza dönmüşdü. Dağ Allahın təcəllasına dözə bilmədi. Lakin cənnətdə Allah-təala Özünü möminlərdə təcəlla edəcək. Yəni Allahın cəlalı, əzəməti və şövkəti möminlərin simasında özünü izhar edəcəkdir. Allah Əlinin(ə) camalında etdiyi təcəllanın bir zərrəsidir ki, cənnətdə möminlərə göstərəcək.

هَا عَلِيٌّ بَشَرٌ كَيفَ بَشَر رَبُّهُ فِيهِ تَجَلّى وَ ظَهَر

-Əli bəşərdir, necə bir bəşər. Elə bəşərdir ki, Rəbbi onun vücudunda təcəlla etmişdir. (Allahın qüdrət və əzəməti onun vücudunda zahir olmuşdur.)

Allah-təala cənnətdə möminlərə təcəlla etdikdən sonra belə buyuracaq: "İndi isə Məndən hər bir şeyi istəyə bilərsiniz. Möminlər deyəcəklər: İlahi, Sənin rizayət və razılığını istəyirik."

Deməli, belə bir nəticəyə gəlirik ki, Allahın rizayət və razılığı insan üçün Onun təcəllasından daha üstün və şərafətlidir. "Qaf" surəsinin 33-35-ci ayələrində oxuyuruq:

مَنْ خَشِيَ الرَّحْمَن بِالْغَيْبِ وَجَاء بِقَلْبٍ مُّنِيبٍ. ادْخُلُوهَا بِسَلَامٍ ذَلِكَ يَوْمُ الْخُلُودِ. لَهُم مَّا يَشَاؤُونَ فِيهَا وَلَدَيْنَا مَزِيدٌ

-Rəhman olan Allahdan gizlində (heç kəsin onu, onun isə axirəti görmədiyi halda) qorxan və tövbəkar və sızıltılı qəlblə (Allahın görüşünə) gələn kəs (üçün)! (Onlara deyiləcək:) "(Allah və mələklər tərəfindən) salamla (və əbədi salamatlıqla) ora daxil olun. (Müjdə olsun sizə ki,) bu gün əbədiyyət günüdür. Orada onlar

üçün istədikləri (hər bir) şey vardır. Bizim yanımızda (onların təsəvvür və istəklərindən xaric) daha artıq (nemətlər) mövcuddur.

Bu ayənin axırında buyurulur ki, "bizim yanımızda daha artıq nemətlər də mövcuddur." Bu nemətləri Allah-təala xüsusi bəndələrə inayət edəcək. Təfsir kitablarında Allah yanında daha artıq olan neməti belə şərh etmişlər. "Daha artıq" üç mənəvi nemətdir ki, hamıya şamil olunmayacaq. Bu üç nemət əlaçı və birinci yeri tutanlara bəxş ediləcək. Həmin üç nemətin biri Allahın xüsusi hədiyyəsidir. Bu hədiyyənin nə olduğunu Allahdan başqa heç kəs bilmir. "Səcdə" surəsinin 17-ci ayəsində buna işarə edərək buyurulur:

فَلَا تَعْلَمُ نَفْسٌ مَّا أُخْفِيَ لَهُم مِّن قُرَّةِ أَعْيُنٍ

جَزَاء بِمَا كَانُوا يَعْمَلُونَ

-Etdikləri işlərin mükafatı olaraq onlar üçün gözlərə işıq gətirənlərin gizlədildiyini heç kəs bilməz!

Allahın bu hədiyyəsi heç bir kəsin görmədiyi elə bir xüsusi hədiyyədir ki, bəxş edildiyi insanın gözlərini aydınlaşdıracaq. Həmin üç nemətin ikincisi birincisindən daha mühümdür. Bu xüsusi nemət Allah tərəfindən onlara göndərilən salamdır. Bu elə bir salamdır ki, həmin hədiyyədən daha üstün tütülacaq. "Yasin" surəsinin 58-ci ayəsində belə buyurulur:

سَلَامٌ قَوْلًا مِن رَّبٍّ رَّحِيمٍ

-(Onlara) salam vardır. (Bu salam) rəhimli Rəbbdən (gələn) bir sözdür.

Üçüncü mənəvi nemət isə Allahın onlardan razılığıdır. Bu mənəvi nemət qeyd olunan iki nemətdən

daha mühümdür. Allah-təala “Tövbə” surəsinin 72-ci ayəsində belə buyurur:

وَرِضْوَانٌ مِّنَ اللّهِ أَكْبَرُ

-Allah tərəfindən olan razılıq *(isə bütün nemətlərdən)* böyükdür.

Oxuduğumuz ayə və hədislərdən sadəcə bizə aydın olur ki, Allahın müqəddəratına razı olmaq çox mühüm məsələdir. Lakin həmin razılığı insan özü əldə etmədən oxumaqla və eşitməklə bunu başa düşməz. Əgər insan ömrü boyu bu haqda oxuyub öyrənsə, lakin özündə Allaha qarşı razılıq olmasa, rizanın mənasını başa düşməsi qeyri-mümkündür. Çünki demək, eşitmək, oxumaq başqa və başa düşüb dərk etmək tamamilə başqa şeydir. Riza məsələsi eşq kimidir. Eşqin mənasını yalnız aşiqlər bilərlər. Ədəbiyyat və şeirlə, yaxud danışmaq və eşitməklə insan aşiq olmur. Aşiq odur ki, özü bu eşqi yaşasın. Allah eşqinə çatmaq istəyən insan bir ömür ibadət etməli və öz sədaqətini bildirməlidir. İnsan özündə riza amilini yaratmayınca və bunu yaşamayınca onun nə olduğunu başa düşməyəcək.

## Allahdan razılıq insanın iman və yəqinini yüksəldir

Belə yüksək xüsusiyyət və əhəmiyyətə malik olan və fəzilətinin son dərəcə çox olduğu bu amil insanın yəqinliyinin artmasına səbəb olur. Yəni insan imanının artmasına və yəqinliyə riza vasitəsilə çata bilər.

قَالَ الصَّادِقُ(ع): اَلرِّضَا بِمَكْرُوهِ الْقَضَاءِ

مِن أَعْلَى دَرَجَاتِ الْيَقِين

-İmam Sadiq(ə) buyurur: “(Allah tərəfindən) insan üçün xoşagəlməz (çətin) və ağır hadisələrə razı olmaq yəqinin ən yüksək mərhələsidir.”[1]

Yuxarıda Allahın razılığı barədə qeyd etdiyimiz arif bir insanın sözünə bir daha nəzər salaq. O, ömrü boyu Allah qarşısında səcdə edər, ürəyində Allaha qarşı zərrə qədər də olsun etiraz etməzdi. Ondan soruşdular: “Sən bu rizayəti necə qazana bilmisən? Sənin belə rizayət əhli olmağının səbəbi nədir?” O dedi: “Siz elə güman edirsiniz ki, məndə razılıq var? Mən özümdə razılıqdan heç bir əsər-əlamət görmürəm. Amma bir xasiyyətim var ki, əgər Allah məni cəhənnəmin üstündə körpü qərar verib əmr versə ki, insanların hamısı, hətta günahkarlar belə mənim üstümdən keçib cənnətə getsinlər, axırda da Allah mənim özümü götürüb cəhənnəmə atsa, zərrə qədər də ürəyimdə Ona qarşı etiraz etmərəm.”

قَالَ عَلِيٌّ(ع): مَن رَضِيَ بِالمَقْدُور قَوِىَ يَقِينُهُ

Həzrət Əli(ə) buyurur: “Hər kəs (Allahın onun üçün təyin etdiyi) müqəddərata razı olsa, yəqini qüvvətlənər.”[2]

Cabir ibn Abdullah Ənsari çox qocalmışdı. Gözləri tutulmuş, bədəni zəifləmişdi. Bir gün İmam Baqirin(ə) hüzuruna düşməyə nail oldu. Həzrət(ə) ondan soruşdu: “Ey Cabir, necəsən? Özünü necə hiss edirsən?” Cabir dedi: “Ey Peyğəmbər balası(ə), qocalığı cavanlıqdan, xəstəliyi sağlamlıqdan, ölümü diri qalmaqdan çox sevirəm.” İmam Baqir(ə) buyurdu: “Amma mən belə deyiləm. Əgər Allah mənə cavanlıq bəxş edirsə, onu çox

[1] Mizanül-hikmə (t.v.), 14-cü cild, səh.7186.
[2] Mizanül-hikmə (t.v.), 14-cü cild, səh.7186.

sevirəm. Qocalıq verirsə, qocalığı çox sevirəm. Əgər Allah mənə xəstəlik verirsə, xəstəliyi, sağlamlıq bəxş edirsə, sağlamlığı sevirəm. Əgər Allah mənə ölüm göndərirsə, ölümü, həyat bəxş edirsə, həyatı sevirəm.”

İmam Baqir(ə) bu sözləri Cabirə deməklə bildirir ki, Allah mənim barəmdə hər nə iradə edirsə, onu sevirəm. Çünki bunu Allah özü istəyir. Onun bütün iradəsi qarşısında razı və təsliməm.

Bu məsələni şairlərdən biri gözəl surətdə qələmə almışdır. O, belə yazır:

یکی درد ویکی درمان پسندد

یکی وصل و یکی هجران پسندد

من از درمان و درد و وصل و هجران

پسندم آنچه را جانان پسندد

*Kimisi dərd, kimisi dərman istəyir,*
*Kimisi vüsal, kimisi hicran istəyir.*
*Mən dərman, dərd, vüsal və hicrandan,*
*Onu istərəm ki, canan istəyir.*

## Əmmar Yasirin imanı

Əmmar Yasir anası İslam dünyasının ilk şəhid qadını, atası da ilk şəhid atası olmuş bir şəxsdir. Əmmar Yasirin özü böyük şəxsiyyət və səhabələrdən biri idi. Həzrət Peyğəmbər(s) onun barəsində tarixə yazılmış nümunəvi bir kəlmə buyurmuşdur:

انَّ عَمَّارَ مَلَئُ اِيمَانًا مِن قَرنِهِ اِلَى قَدَمِهِ

وَاختَلَطَ الإِيمَانُ بِلَحْمِهِ وَ دَمِهِ

-Əmmar başdan-ayağa qədər imanla dolu olan bir insandır. İman onun ətinə və qanına hopmuşdur.[1]

Həzrət Peyğəmbər(s) Əmmarı belə bir şəkildə tərif və təsdiq etmişdir. Peyğəmbərin(s) təsdiq etdiyi insan məlum məsələdir ki, Allahın təsdiq etdiyi insandır.

Siffeyn müharibəsində Əmmar İslam qoşunundan ayrılaraq düşmən qoşunu ilə üz-üzə dayandı və əllərini göyə qaldıraraq Allahla belə münacat etdi: "İlahi, bilirsən ki, Sənin razılığın özümü dənizə atmaqdırsa, ataram. Əgər Sənin razılığın qılıncı qarnıma soxub içalatımı yerə tökməkdədirsə, bilirsən ki, bunu da edərəm. Ey mənim Allahım, mən bu gün bilirəm ki, Sənin razılığın bu namərd, alçaq, şərəfsiz və heysiyyatsız adamlara qarşı döyüşməkdədir. Əgər bundan şərafətli digər bir əməl tapsaydım, bunu buraxıb gedib onu görərdim. Mən bu gün düşmənlərə qarşı müharibə etməkdən və Əlini(ə) müdafiə, himayə etməkdən şərafətli bir əməl tapmadım. Sonra üzünü düşmən qoşununa tutub dedi: Kim mənim səsimi eşidirsə, gəlib mənə qoşulsun. Mən həmin şəxsi Allahın rizayətinə tərəf apararam."

Əmmar həmin müharibədə şəhid oldu. Həzrət Əli(ə) onun cənazəsinin kənarında əyləşdi. Əmmarın üz-gözünü təmizləyə- təmizləyə ağlayıb buyurdu: "Ey ölüm, elə bil ki, sən də mənim dostlarımı tanıyırsan. Onları bir-bir mənim əlimdən alırsan."[2]

Odur ki, Allahın rizası insan üçün hər bir şeydən üstündür. Onun bu razılığı insanların razılığına bağlıdır. Əgər insan Allahın təqdirinə (insanlara nazil etdiyi

---

[1] Səfinətül-bəhar, 2-ci cild, səh.275.
[2] 500 dastan kitabı,1-ci cild, səh.285.

ehkamına, buyurduqlarına, çətinlik və asanlıqlara) razı olsa və etiraz etməsə, Allah da ondan razı qalar.

## Dünyanın çətinliklərini asan və kiçik saymaq

İnsanın iman və yəqinini gücləndirən amillərdən biri budur ki, bu dünyada başına gələn bəlaları, müsibət və çətinlikləri kiçik tutsun. Yəni bu dünyanın sıxıntılarını özünə problem kimi qəbul etməsin. Ən əsası budur ki, dünyada Allahdan başqa hər şey insanın gözündə kiçik olsun. İnsanın nəzərində yalnız Allah və onun əzəməti böyük olmalıdır. Bundan başqa dünyanın özü, onün müsibətləri, dərdləri və bəlaları insan üçün asan və kiçik olmalıdır. Bu barədə Peyğəmbər(s) və Əhli-beytdən(ə) bir çox hədis və tövsiyələr nəql olunmuşdur. Nümunə üçün həmin hədislərdən bir neçəsinə diqqət yetirək. Həzrət Peyğəmbərimizin(s) həm özü, həm də az müddət ərzində tərbiyə edib yetişdirdiyi insanların çoxu dünyanın bütün çətinliklərini asan bilirdilər.

Ümumiyyətlə, Peyğəmbərin(s) tərbiyə etdiyi bütün insanların başında Həzrət Əli(ə) dayanır. Həzrət Peyəmbər(s) Əlini uşaq çağlarından tərbiyə etmişdir. Həzrət Əli(ə) dünyaya gələrkən anasının qucağından Peyğəmbərin(s) qucağına getmiş və gözlərini ilk dəfə açanda Peyğəmbərin(s) camalını görmüşdür. İslam Peyğəmbəri(s) Əlini(ə) qucağına aldığı gündən son nəfəsinə qədər onunla birgə olmuşdur. Hətta Peyğəmbər(s) dünyadan gedəndə başı Əlinin(ə) dizi üstə dünyadan getmişdir. Həzrətin(s) qüsl, kəfən və dəfn işlərinin hamısını Həzrət Əli(ə) yerinə yetirmişdir. Əli(ə) gözlərini Peyğəmbərin(s) qucağında açmış, Peyğəmbər(s) də dünyadan gedərkən başı Əlinin(ə) dizi üstündə gözlərini yummuşdur. Həzrət Əli(ə) həm məsum, həm də səhabələrin içərisində Peyğəmbərə(s) ən yaxın olan insandır. Bütün bunları danışmaqda məqsədim odur ki,

Əlinin(ə) sözləri bizim üçün çox mühümdür. Onun hər bir kəlməsi hikmət dəryasıdır. Əgər insanlar onun elm və hikmətli sözlərindən istifadə edib həyatlarını bu sözlərə əməl etməklə davam etdirsələr, heç bir vaxt bədbəxtliyə və azğınlığa düşməzlər. Həzrətin(ə) dünya barədə buyurduğu sözlərdən bir neçəsinə diqqət yetirək.

قَالَ عَلِيٌّ(ع): وَاللهِ لَدُنيَاكُم هَذِهِ أَهوَنُ فِي عَينِي مِن عِرَاقِ خِنزِيرٍ فِي يَدِ مَجزُومٍ

-İmam Əli(ə) buyurur: "Allaha and olsun, sizin dünyanızın mənim nəzərimdə cüzam xəstəliyinə tutulmuş şəxsin əlində olan bir donuz sümüyü qədər də dəyəri yoxdur."[1]

Həzrət Əli(ə) bu dünyanın həqiqətini bilirdi. Bilirdi ki, bu dünya çox dəyərsiz və qiymətsiz bir şeydir. Bu hədisdə Həzrət(ə) üç şeyə işarə edir. Əvvəla, buyurur ki, sizin bu dünyanız, yəni sizin möhkəm yapışıb ayrılmaq istəmədiyiniz bu dünya. İkincisi, buyurur ki, həmin bu dünya mənim gözümdə dəyəri donuzun (murdar bir heyvanın) sümüyündən də qiymətsizdir. Üçüncüsü, cüzam (xora) xəstəliyinə tutulmuş bir insanın əlində tutduğu donuz sümüyündən də qiymətsizdir. Həzrət Əli(ə) bizə dünyanın dəyərsizliyini başa salır. Başa salır ki, cüzam xəstəliyinə tutulmuş bir insanın əlində əti yeyilmiş donuz sümüyünə kim tamah salar? Bu dünya Həzrətin(ə) nəzərində bu sümükdən də dəyərsizdir. Bunu başa düşən insan dünyada nə üçün günah etməlidir? Günah ona görədir ki, insan bu dünyanı əldə etsin. İnsanın yaşadığı bu dünyada şəhvətlər, yeməklər, vəzifələr, müxtəlif minik

[1] Mizanül-hikmə (t.v.), 4-cü cild, 5851-ci hədis.

vasitələri, pul, zər-ziba və s. onu günah etməyə şövq edir. Əgər bir insan bu dünyaya Həzrət Əlinin(ə) baxışları kimi baxsa, günah edərmi?

قَالَ عَلِيٌّ(ع): دُنيَاكُم هَذهِ أَزهَدُ عِندِی مِن عَفْطَةِ عَنْزٍ

İmam Əli(ə) digər bir xütbədə belə buyurur: "Sizin bu dünyanız mənim nəzərimdə bir keçinin burnunun suyundan da dəyərsizdir."[1]

قَالَ عَلِيٌّ(ع): اِنَّ دُنيَاكُم عِندِی لَأَهوَنُ مِن وَرَقَةٍ فِی فَمِ جَرَادةٍ تَقْضِمُهَا

-İmam Əli(ə) başqa bir xütbədə buyurur: "Həqiqətən, sizin dünyanızın mənim nəzərimdə çəyirtkənin ağzında əzilən (çeynənilən) bir ağac yarpağı qədər dəyəri yoxdur."[2]

İbn Abbas deyir: "Bir gün Həzrət Əlinin(ə) hüzuruna getdim. Gördüm ki, Həzrət(ə) çarıqlarını yamayır. Ərz etdim: Ya Əmirəl-möminin, hacılar toplaşıblar ki, sizdən bir söz eşitsinlər. Həzrət Əli(ə) bir söz demədi və çarıqları yamayıb qurtardıqdan sonra cütləyib qarşıma qoydu və soruşdu: İbn Abbas, bu çarıqların nə qədər qiyməti olar? Dedim: Ya Əmirəlmöminin, onların heç bir qiyməti yoxdur (onlar həddindən artıq köhnədir). Həzrət(ə) buyurdu:

وَاللهِ لَهِیَ أَحَبُّ اِلَیّ مِن اِمْرَتِكُم اِلاّ اَن أُقِیمَ حَقًّا اَو اَدفعَ بَاطِلاً

---

[1] Mizanül-hikmə (t.v.), 4-cü cild, 5852-ci hədis.
[2] Yenə orada, 5853-cü hədis.

-And olsun Allaha, bu çarıqları sizə hakimlikdən çox sevirəm, bir istisna ilə ki, bir ilahi hədd icra etmiş olam və ya bir batili uzaqlaşdıram (məzlumun haqqını zalımdan alım və batili uzaqlaşdırım).[1]

Həzrət Peyğəmbərın(s) dünyaya baxışları belə idi. Həzrət Əli(ə) də onun qucağında o cür tərbiyə alıb böyümüşdür. Həzrət Əliyə(ə) yaxın, qardaş, dost olanların hamısı da dünyaya onun kimi baxırdılar. Həzrət Əli(ə) dostlarının biri barədə ad çəkmədən belə buyurur:

كَانَ لِي فِيمَا مَضَى أَخٌ فِي اللهِ ، وَكَانَ يُعَظِّمُهُ فِي عَينِي صِغرُ الدُّنْيَا فِي عِينِه، وَكَانَ خَارِجاً مِن سُلطَانِ بَطنِهِ، فَلا يَشتَهِي مَا لا يَجِد، وَلا يُكثِرُ إِذَا وَجَد...

-Keçmiş zamanlarda mənim Allah yolunda bir qardaş və dindaşım var idi ki, dünyanın onun gözündə kiçik olması, onu mənim gözümdə böyüdürdü. Qarnı ona hakim deyildi. Beləliklə, tapmadığı şeyi arzulamır, tapanda isə onu çox işlətmirdi.[2]

İmam Əli əleyhissalam Əşəs ibn Qeysə övladının ölümünə görə başsağlığı verib onu səbir və dözümlülüyə təşviq edərkən *(dözümsüzlük etməmək barədə)* buyurmuşdur:

يَا أَشْعَثُ إِنْ تَحْزَنْ عَلَى ابْنِكَ فَقَدِ اسْتَحَقَّتْ مِنْكَ ذَلِكَ الرَّحِمُ وإِنْ تَصْبِرْ فَفِي اللَّهِ مِنْ كُلِّ مُصِيبَةٍ خَلَفٌ يَا أَشْعَثُ إِنْ صَبَرْتَ جَرَى

---

[1] Yenə orada, 5853-cü hədis.
[2] Nəhcül-bəlağə, 28-ci hədis.

عَلَيْكَ الْقَدَرُ وأَنْتَ مَأْجُورٌ وإِنْ جَزِعْتَ جَرَى عَلَيْكَ الْقَدَرُ وأَنْتَ مَأْزُورٌ يَا أَشْعَثُ ابْنُكَ سَرَّكَ وهُوَ بَلاءٌ وفِتْنَةٌ وحَزَنَكَ وهُوَ ثَوَابٌ ورَحْمَةٌ

-Ey Əşəs! Əgər oğluna *(onun ölümünə)* görə kədərlənsən, *(onunla)* bağlılığına görə qəmlənməyə haqlısan *(sənin övladının ölümünə görə kədərlənməyin yersiz deyil)*. Amma səbir etsən, Allah yanında hər bir müsibət və kədərin əvəz və mükafatı vardır. Ey Əşəs! Əgər səbir etsən, sənin barəndə qəza-qədər cari olacaq və sən savab və mükafat alacaqsan. Amma dözümsüzlük etsən, sənin barəndə ilahi hökm cari olacaq və sən həmin halda günahkarsan. Ey Əşəs! Oğlun *(dünyaya gələn zaman)* səni şad etdi, halbuki o, *(sənin üçün)* bəla və çətinlik idi və *(ölümü ilə)* səni kədərləndirdi, halbuki *(sənin üçün)* mükafat və mərhəmət vardır. *(Buna görə də onun müsibətində səbirli olmağın daha münasibdir.)* [1]

Qeyd etməliyəm ki, Əşəs ibn Qeys Həzrət Əlinin(ə) zamanında yaşayan münafiqlərdən biri idi. Həzrət Əli(ə) ona bu məktubu yazmaqla həqiqətdə bütün müsəlmanlara bir məsləhət vermişdir.  Həzrətin(ə) hər bir kəlməsindən müsəlmanlar öz paylarını götürməlidirlər. Həzrət Əli(ə) bu sözləri Əşəsə deməklə həm ona, həm də bütün insanlara öz fikrini eşitdirirdi.

## Ümmi Səlimin hekayəti

Həzrət Peyğəmbərin(s) zamanında Ümmi Səlim adlı bir xanım var idi. Həzrət Peyğəmbər(s) peyğəmbərliyə

---

[1] Yenə orada, 283-cü hədis.

çatdıqdan sonra bu xanım İslamı qəbul etdi. Onun müsəlman olması İslamın ən ağır vəziyyətlərinə təsadüf edirdi. Elə bir zamanda iman gətirdi ki, Peyğəmbərin(s) səhabələri müşriklər tərəfindən işgəncələrə məruz qalırdılar. Əbu Təlhə adlı imkanlı və çox cazibəli bir oğlan Ümmi Səlimə elçi düşdü. Ümmi Səlim soruşdu: "Bu oğlan kimdir? Dedilər: Filan qəbilədən olan imkanlı bir gəncdir. Ümmi Səlim soruşdu: İslamı qəbul edibmi? Dedilər: Xeyr. Ümmi Səlim dedi: Onunla bir şərtlə evlənərəm ki, İslamı qəbul etsin. Mənim mehriyəm onun müsəlman olmasıdır." Hamı onun bu sözünə təəccüb etdilər. Bu xəbəri Əbu Təlhəyə çatdırdılar. Əbu Təlhə onunla razılaşıb İslamı qəbul etdi. Kəbin kəsdirib bir müsəlman ailəsi qurdular. Onlar xoşbəxt həyat sürürdülər. Allah-təala onlara bir oğlan uşağı da mərhəmət etdi.

Günlərin birində uşaq xəstələndi. Həmin günlərdə Əbu Təlhə səfərdə idi. Uşağın xəstəliyi artdıqca zəifləyir və o, dünyasını dəyişir. Uşağı aparıb dəfn edirlər. Əbu Təlhə evə gəlib salamlaşdıqdan sonra Ümmi Səlim onun üçün süfrə açır. Əbu Təlhə uşağın halını soruşduqda isə Ümmi Səlim deyir: "Narahat olma, uşaq yatıb. Sən yeməyini ye." Əbu Təlhə yemək yeyib dincəldikdən sonra Ümmi Səlim təbəssümlə ondan soruşur: "Bir neçə vaxt sənin yanında olan bir əmanəti bu gün sahibinə qaytardım. Bu işdən narahat olmadın ki? Əbu Təlhə deyir: Əlbəttə ki, yox. Hər bir əmanət mütləq sahibinə qaytarılmalıdır. Ümmi Səlim deyir: Allah sənə bir övlad əmanət vermişdi, onu geri aldı."

Əbu Təlhə onun belə səbirli və hövsələli olmasına çox təəccüb edir. Bu hadisədən sonra o, Peyğəmbərin(s) hüzuruna gəlib baş vermiş hadisəni danışır. Həzrət Peyğəmbər(s) bunu eşidib onlara dua edib buyurur:

“Şükürlər olsun Allaha ki, mənim ümmətimdə də Bəni-İsrailin səbirli bir qadını kimi qadın vardır.” Peyğəmbərin(s) hüzurunda əyləşənlər soruşur: “Ya Rəsulallah, o qadın kimdir?” Həzrət(s) buyurur: “Bəni-İsraildən bir kişi və qadın ailə qurmuşdular. Onların iki uşağı var idi. Günlərin birində kişi arvadına dedi: Bu gün evə qonaq gələcək. Sən qonaqları qarşılamaq üçün tədarük gör. Mən də bir neçə saata qonaqlarla birgə gələcəyəm. Kişi evdən çıxdı. Onların uşaqları həyətdə oynayırdılar. Qadın qonaqlar üçün süfrə hazırlamaqla məşğul idi. Uşaqlardan biri su quyusuna düşüb boğuldu. O biri uşaq ona baxmaq istədikdə o da quyuya düşüb öldü. Qadın bu hadisəni görüb uşaqların meyitini quyudan çıxarmaq üçün qonşuları çağırdı. Köməkləşib uşaqları çıxardıqdan sonra qonaqların narahat olmaması üçün qadın onları parçaya büküb gizlətdi. Qonaqların hörmətinə xatir bu hadisəni gizli saxladı. O istəmirdi ki, qonaqların onların evində qanları qaralsın. Qonaqlar getdikdən sonra bu hadisəni ərinə söylədi. Onlar uşaqların meyitini götürüb dəfn etmək qərarına gəldilər. Allah-təala onların bu ehtiramına xatir həmin uşaqları dirildib onlara qaytardı. Buna görə də şükürlər olsun Allaha ki, mənim ümmətimə də belə bir qadın nəsib etdi.”

## Süraqənin əhvalatı

Süraqə İslam aləmində imanlı qadınlardan biri idi. Onun Harisə adlı oğlu var idi. Bədr döyüşündə ona oğlunun şəhid olması xəbərini gətirdilər. Süraqə qadınlarla əyləşmişdi. Bu xəbərdən sonra qadınlar gözləyirdilər ki, Harisənin anası nə deyəcək? Süraqə qadınlara dedi: “Allaha and olsun ki, Peyğəmbər(s) gələnə qədər ağlamayacağam. Peyğəmbər(s) gələndə soruşacağam ki,

oğlum cəhənnəmdədir, yoxsa cənnətdə? Əgər Peyğəmbər(s) oğlumun cəhənnəmdə olduğunu söyləsə, o qədər ağlayacağam ki, tökdüyüm göz yaşları cəhənnəmin odunu söndürəcək. Əgər desə ki, cənnətdədir, daha ölənə qədər ağlamayacağam.”

Həzrət Peyğəmbər(s) gələndə Süraqə irəli gəlib salam verdikdən sonra ərz etdi: “Ya Rəsulallah, bilirsiniz ki, mən Harisəni çox istəyirdim. Eşitdim ki, o, döyüşdə şəhid olub. Hələ onun üçün ağlamamışam. Lakin bilmək istəyirəm ki, o, cənnətdədir, ya yox?” Həzrət(s) ona baxıb buyurdu: “Sənin oğlun cənnətdə - Firdovsi- Əladadır.” Süraqə Allaha şükür etdikdən sonra dedi: “Belə isə mən heç vaxt onun üçün ağlamayacağam.” Sonra Həzrət Peyğəmbər(s) göstəriş verdi ki, su gətirsinlər. Suyu gətirdikdən sonra Peyğəmbər(s) təbərrük edərək dodaqlarını həmin suya toxundurdu. Sonra Süraqəyə verib buyurdu: “Bundan bir az için və qalanını üstünüzə səpin.” Süraqə və Harisənin bacısı həmin sudan bir az içib qalanını üstlərinə səpdilər. Bundan sonra onların səbir və hövsələləri daha möhkəm oldu. Tarixi mənbələrdə yazırlar ki, həmin gündən sonra Süraqə ömrünün axırına qədər oğlunun Firdovsi-Əlada olduğuna görə şad və sevinclə yaşadı.

Beləliklə, əgər insanın qəlbində Allaha, qiyamətə, cənnət və cəhənnəmə yəqinlik olsa, o zaman bütün bu müsibət və çətinliklərin hamısı onun üçün asan olar. Dünya və onun çətinlikləri, günahdan keçmə insanın nəzərində asanlaşdıqca Allaha olan iman və yəqini daha da çoxalar.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ اللهَ بِحِكمَتِهِ وَ جَلالِهِ جَعَلَ الرَّوحَ وَالفَرَجَ فِي الرِّضَا وَ اليَقِين

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala Öz hikmət və cəlalı ilə rahatlıq və asayişin razılıq və yəqinliklə bağlı olduğunu bildirmişdir."[1]

Əgər insan bu dünyada yəqinliklə yaşasa, heç bir narahatçılıq da hiss etməz. Allaha, qiyamətə yəqinliyi olan insan bu dünyanın bütün çətinliklərini özünə asan bilər. Həzrət Zeynəbin(s.ə) həyatına nəzər saldıqda görürük ki, dünyanın bütün müsibətləri o əzəmətli xanımın gözündə çox kiçik idi. O xanıma "müsibətlər anası" ləqəbi verilmişdir. Onun çəkdiyi müsibət və narahatçılıqları tarixdə heç bir kəs çəkməmişdir. Gözü qarşısında qardaşı Hüseynin(ə) başını kəsib nizəyə taxdılar. İki oğlunu şəhid etdilər. Qardaşı balalarını öldürdülər. Özünü əsir götürüb şəhərbəşəhər gəzdirdilər. Şimr İmam Hüseynin(ə) başını kəsmək istədikdə Xanım Zeynəb özünü ora çatdırdı. Qılıncın yalın tərəfindən yapışıb qardaşının öldürülməsinə etiraz etdi. Lakin qılıncın iti hissəsi onun barmaqlarına işlədi. Qadınlar çadırda əyləşib onun nə xəbər gətirəcəyini gözləyirdilər. Bir də gördülər ki, xanım əlləri qana boyanmış halda içəri daxil oldu. O xanım bütün bu müsibətləri çəkmişdi.

İbn Ziyadın sarayında öz məşhur çıxışı ilə bəşəriyyətə başa saldı ki, dünyanın bütün müsibətləri Allah yanında onun üçün asandır. İbn Ziyad soruşdu: Kərbəlanı necə gördün? Xanım Zeynəb(s.ə) buyurdu: "Gözəllikdən başqa heç nə görmədim." Xanımın bu

[1] Mizanül-hikmə (t.v.), 4-cü cild, səh.7186.

ifadəsi hər bir insanı təəccübləndirir. Sual oluna bilər ki, qanlı bir səhranın harasında gözəllik ola bilər? Əgər dərindən bu hadisəyə baxsaq o zaman görürük ki, orada baş verənlərin hamısı Allahın qarşısında baş vermişdi. Bütün bunlar Allahın razılığı ilə baş veribsə nə üçün Zeynəbə(s.ə) gözəl görünməsin? Bütün bu müsibətlərin hamısı Həzrət Zeynəb(s.ə) üçün asan idi. Çünki o, Allahın əzəmətinin hər şeydən böyük olduğunu yəqin bilirdi. Gözündə Allahın əzəməti hər şeydən böyük olan insan üçün bu dünyanın müsibətləri çox kiçikdir.

Həzrət Zeynəb(s.ə) İmam Hüseynin(ə) cənazəsinin kənarında dayanıb Allahla belə münacat etdi: “İlahi, bu az qurbanı bizdən qəbul elə.” İmam Hüseyn(ə) kimi əzəmətli bir şəxsiyyət Allah yolunda qurban oldu. Xanım Zeynəb(s.ə) Allahın əzəməti qarşısında bu qurbanlığın az olduğunu dilə gətirdi. Əlbəttə ki, Allahın rəhməti qarşısında bu qurbanlar az və kiçikdir. Bunu o kəs deyə bilər ki, Allahın əzəmətinin, rəhmətinin nə qədər böyük olduğuna ürəkdən iman gətirib yəqin etsin. Xanım Zeynəb(s.ə) bütün bu müsibətləri Allahın əzəməti qarşısında kiçik bilirdi.

Həzrət Əli(ə) oğlu Həsənə vəsiyyət edərkən belə buyurur: “Oğlum, dünyada sənə üz verən bəla və müsibətləri səbrin əzmi və yəqinliyin hüsnü ilə özündən uzaqlaşdır.”[1]

İnsan qiyamət gününə yəqinlik tapmaqla dünyada ona üz verən bəla və müsibətləri asan bilər. İmam Səccad(ə) dua edərkən Allahla belə münacat edərdi: “Ey mənim Allahım, kəraminə xatir mənə elə bir yəqinlik bəxş

---

[1] Mizanül-hikmə (t.v.), 4-cü cild, səh.7186.

et ki, onun vasitəsilə dünyanın bütün müsibətləri mənim üçün asan olsun və gözümdə kiçik görünsün.”

İmam Səccad(ə) özü də həmin müsibətləri yaşamışdı. Kərbəla müsibətində iştirak etmiş və baş verən hadisələri öz gözləri ilə görmüşdü. Allah onun nəzərində böyük olduğundan bütün bu müsibətləri kiçik sayırdı.

**Ağıl**

İnsanın qəlbindəki iman və yəqini gücləndirən amillərdən biri də ağıldır. İnsan öz ağlını nuranilədirib ondan istifadə edərək yəqinliyini artıra bilər. Bu barədə olan iki hədisə nəzər saldıqdan sonra ağıl barədə söhbətimizi davam etdirəcəyik.

قَالَ عَلِيٌّ(ع): عَلى قَدرِ العَقل يِكُونُ الدِّين. عَلى قَدْرِ الدِّين تَكُونُ قُوَّةُ اليَقِين

-Həzrət Əli(ə) buyurur: “İnsanın dini onun ağlının qədərindədir. Dinin qədəri isə yəqinliyin qüvvəsindən asılıdır.[1]

Yəni insan öz ağlının nuraniyyətindən istifadə edərək ağlını gücləndirərsə, bu onun yəqinliyinin güclənməsinə səbəb olar. Deməli, yəqinin qüvvətlənməsinə səbəb olan amillərdən biri ağıldır. Digər bir hədisdə Həzrət Əli(ə) belə buyurur:

قَالَ عَلِيٌّ(ع): لَمْ يُقسَم بَينَ العِبَادِ اَقَلُّ مِن خَمسٍ. اَليَقِين وَ القُنُوع وَ الصَّبر وَ الشُّكر وَالَّذِى تَكمِلُ بِهِ هَذا كُلّهُ العَقل.

[1] Mizanül-hikmə (t.v.), 8-ci cild, səh.3880.

-Bəndələr arasında ən az paylanan beş şey vardır. Yəqin, qənaət, səbir, şükür və bunların hamısını mükəmməlləşdirən ağıl.[1]

Həqiqətən də bu beş amil insanlar arasında çox az paylanmışdır. Görəsən, insanların neçə faizi yəqinlə yaşayır? Nə qədər insan öz həyatında qənaət edir? İnsanlarda nə qədər səbir və hövsələ var? Şükür məsələsinə gəldikdə isə insanlar Allahın hansı nemətlərinə şükür edirlər? Çox az insan tapılar ki, Allahın hər bir nemətinə görə şükür etsin. Çox az insan tapılar ki, Allahın verdiyi nemətləri gözünün qarşısına gətirib hər biri üçün şükür etsin. Bəzən heç insanın ağlına belə gəlmir ki, böyrəklər, gözlər, qulaqlar və s. insan üçün böyük nemətlərdir. Xəstəxanaya getdikdə və orada müxtəlif xəstəliklərdən əziyyət çəkənləri müşahidə etdikdən sonra Allahın ona nə qədər nemət bəxş etdiyini hiss etmiş olursan.

Mənim tanıdığım insanlardan biri müalicə üçün xaricə getmişdi. Onun xəstəliyi ağız suyunun quruması ilə bağlı idi. Həmişə əlində bir qab su olurdu. Ağzı quruduqda su içib dil-dodağını isladırdı. Xaricdə onu müayinə etdikdən sonra dedilər ki, insanın ağzında altı su damarı var. Bu damarların içi ilə insanın ağzına su gəlir. Sənin bütün bu damarların bağlanıb. Həmin xəstə üç aya qədər orada qaldı, lakin onun xəstəliyinə bir əlac edə bilmədilər. Kimin ağlına gələrdi ki, ağız suyu insan üçün bu qədər böyük nemətdir. Allahın insana verdiyi nemətləri sayıb-qurtarmaq mümkün deyildir. Nemətlərin özünü sayıb- qurtarmaq mümkün olmadığı təqdirdə insan onların

---

[1] Yenə orada, 14-cü cild, səh.7170.

şükrünü necə çatdıra bilər? Lakin çox az insan tapılır ki, Allahın hər bir nemətini görüb düşündükdə şükür etmiş olsun. Qeyd etdiyimiz həmin dörd nemətin hamısını mükəmməlləşdirən amil və böyük nemət ağıldır.

Bu və bu kimi hədislər bizə öyrədir ki, yəqinin kökü ağıldadır. Burada yaxşı olar ki, ağlın özü barədə bəhs edək. Əlbəttə, ağıl barədə olan ayə və hədislər həddindən artıq çoxdur. Odur ki, əgər ağıl barədə söhbət açmalı olsaq, ən azından qalın bir kitabı araya-ərsəyə gətirmək olar. Lakin biz burada mövzumuza uyğun olaraq bir neçə kəlmə ilə kifayətlənməli olacağıq.

## Ağlın mənası

Ağlın iki cür məna və qismi vardır. Birinci qismi budur ki, insan onun vasitəsilə fikirləşir, düşünür və dərk edir. İnsan bu ağlın vasitəsilə xeyir-şəri, isti-soyuğu, pisi-yaxşını, eniş-yoxuşu, çətinlik və asanlıqları başa düşür. Bu ağlın cüzi bir hissəsi bəzi heyvanlarda da vardır. Ağlın ikinci qism və mənası budur ki, insan onun vasitəsilə öz gələcəyini düşünüb səadət yolunu tapsın və bədbəxtlikdən uzaq olsun. Ağlın bu qismi isə hər bir kəsdə yoxdur. Ağlın birinci qismindən Allah-təala hamıya bəxş etmişdir. İkinci qismi isə hamıda yoxdur, yəni hər bir kəs gələcəyi, yaxud hidayət yolunu düşünmür. Quranda “Mülk” surəsinin 8-10-cu ayələrində belə oxuyuruq:

...كُلَّمَا أُلْقِيَ فِيهَا فَوْجٌ سَأَلَهُمْ خَزَنَتُهَا أَلَمْ يَأْتِكُمْ نَذِيرٌ. قَالُوا بَلَى قَدْ جَاءنَا نَذِيرٌ فَكَذَّبْنَا وَقُلْنَا مَا نَزَّلَ اللَّهُ مِن شَيْءٍ إِنْ أَنتُمْ إِلَّا فِي ضَلَالٍ كَبِيرٍ. وَقَالُوا لَوْ كُنَّا نَسْمَعُ أَوْ نَعْقِلُ مَا كُنَّا فِي أَصْحَابِ السَّعِيرِ

...Hər hansı bir dəstə oraya (cəhənnəmə) atıldıqları zaman gözətçilər (cəhənnəmin məmurları) onlardan soruşarlar: “Məgər (dünyada) sizə bir qorxudan (peyğəmbər) gəlməmişdimi?” Deyərlər: “Bəli, şübhəsiz, bizə (Allah tərəfindən) bir qorxudan gəlmişdi, lakin biz onu təkzib etdik və dedik: “Allah heç bir şey nazil etməmişdir. Siz ancaq böyük bir azğınlıq içindəsiniz.” Və deyərlər: “Əgər Biz (həqiqətən,) eşitsəydik, ya ağlımız olsaydı (düşünsəydik), əsla yanar cəhənnəm odunun əhli zümrəsində olmazdıq.”

“Qaf” surəsinin 37-ci ayəsində belə buyurulur:

إِنَّ فِي ذَٰلِكَ لَذِكْرَىٰ لِمَن كَانَ لَهُ قَلْبٌ أَوْ أَلْقَى السَّمْعَ وَهُوَ شَهِيدٌ

-Şübhəsiz, bunda (bu əhvalatlarda, oyaq) qəlbi olan və ya (həqiqətlərə qəlbi ilə) şahid olaraq qulaq asan kəs üçün bir öyüd-nəsihət vardır.

İnsan etdiyi qeyri-məqbul əməllərdən vaxtı və ömrü qurtardıqdan sonra peşman olacaqdır. Bu peşmançılığın da heç bir faydası olmayacaq. Cəhənnəmdə olan insanlar peyğəmbərləri təkzib edikləri və onların buyurduqlarını yalan hesab etdikləri üçün ora düşürlər. Onlar bu dünyada yalnız yemək, geymək, gəzmək, eyş-işrət üçün yaşamışlar və gələcəyi heç düşünməmişlər. Əgər onların ağılları olsaydı, ölümdən sonrakı həyatı da fikirləşərdilər. Başa düşərdilər ki, bihudə və pis işlərin aqibəti necə də acınacaqlıdır.

Bu dünyaya hər cür insan gəlib-getmişdir. Onların aqibətinin necə olduğunu hamı görmüşdür. Əgər cəhənnəmdə olanların ağılları, oyaq qəlbləri və eşidən qulaqları olsaydı, onda bu dünyaya gəlib-gedənlərdən ibrət götürərdilər. Tarix boyu Allah-təala bizə hər şeyi göstərmişdir. Bu dünyaya peyğəmbərlər, zalımlar,

dövlətlilər, kasıblar, əməlsiz alimlər, təqvalı insanlar, cahillər və bir sözlə desək, hər cür insanlar gəlib-getmişdir. Bütün bunları Allah-təala bizə misal çəkir və daim oyaq olmağı başa salır. Hər kəsin ağlı olsa, dünyaya gəlib-gedənlərdən, tarixdəki əhvalatlardan dərs alıb ibrət götürər. Dünyada işi-peşəsi yeyib-içmək, gəzib-dolaşmaq olan və cürbəcür eyş-işrətlərlə məşğul olan insanlar heç bir vaxt özlərindən qabaq dünyaya gəlib- gedənlər barədə düşünmürlər.

Həzrət Əli(ə) insanları haraya çağıraraq keçmiş zamanlarda baş verən əhvalatları və insanların aqibətini xatırladaraq belə buyurur:

وَ إِنَّ لَكُمْ فِی الْقُرُونِ السَّالِفَةِ لَعِبْرَةً! أَیْنَ الْعَمَالِقَةُ وَ أَبْنَاءُ الْعَمَالِقَةِ؟ أَبْنَ الْفَرَاعِنَةُ وَ أَبْنَاءُ الْفَرَاعِنَةِ؟ أَیْنَ أَصْحَابُ مَدَائِنِ الرَّسِّ الَّذِینَ قَتَلُوا النَّبِیِّینَ، وَ أَطْفَؤُوا سُنَنَ الْمُرْسَلِینَ، وَ أَحْیَوْا سُنَنَ الْجَبَّارِینَ؟ أَیْنَ الَّذِینَ سَارُوا بِالْجُیُوشِ، وَ هَزَمُوا بِالْأُلُوفِ، وَ عَسْكَرُوا الْعَسَاكِرَ، وَ مَدَّنُوا الْمَدَائِنَ؟

-Sizin üçün keçən dövrlərdə ibrət vardır *(ki, keçmişlərin bu dünyadan necə üzülüşmələrinə nəzər salasınız).* Haradadır Əmaliqə və onların övladları?[1] Haradadır *(Misir şahları olmuş)* Fironlar və *(onların heç bir nişanələri qalmamış)* övladları? Haradadır peyğəmbərləri öldürən, Allahın elçilərinin hökmlərini

[1] Əmaliqə İmliq ibn Lavəz ibn İrəm ibn Sam ibn Nuhun övladlarından ibarət bir dəstə olublar və onlar çox böyük bir dövlətlə Yəmən və Hicazda padşahlıq ediblər. Sonralar onların kökü kəsilib.

söndürən *(məhv edən)* və zalımların ənənələrini diriltdən *(həmin əsasda davranan)* Rəss şəhərlərinin əhalisi?[1] Haradadır o kəslər ki, qoşunlarla hər tərəfə gedərək minlərlə insanları məğlub edirdilər və ordu toplayaraq şəhərlər tikirdilər?!

Firon allahlıq iddiası edirdi, amma aqibətinin necə olduğu tarixdə insanlara ibrət oldu. Əmaliqənin sonu necə oldu? Yer üzündə zülmkar insanların aqibəti necə oldu? Bütün bunlar insanlar üçün ibrətlərdir. Allah-təala onların bəzisini bircə ağcaqanadla məhv etmişdir. Nəmrudun məhv edilməsinin hekayəti belədir. Allahın əmri ilə bir ağcaqanad onun burnundan girib beyninə daxil oldu. Hər dəfə onun beyninin içi qaşındıqda başına bir yumruq vurub sakitləşirdi. Nəmrud axırda bu zərbələrə dözə bilməyib həlak oldu. O böyüklükdə padşahı Allah-təala bircə ağcaqanadla məhv etdi.

Tarixdə padşahlıq edənlərin hamısı zalım olmayıb. Bəzi padşahlar var ki, ədalətli olmuşlar. Hər cür insanın aqibətinin necə olması insanlar üçün bir ibrətdir. Həzrət Süleyman(ə) kimi əzəmət və səltənət sahibi olan bir peyğəmbər bir qarışqanın vasitəsilə yerə yıxıldı. Günlərin birində göstəriş verdi ki, bütün qoşunlar gəlib onun qarşısından keçsinlər. Bütün insanlar, heyvanlar, cinlər və s. onun əmrilə gəlib sarayın qarşısından keçdilər. Süleyman sarayda öz çəliyinə söykənib onlara tamaşa edirdi. Birdən bir nəfər cavan oğlanın otağa daxil olduğunu gördü. Süleyman ona dedi: "Sənə kim icazə verib ki, bu otağa

---

[1] Rəss böyük bir quyunun adı idi ki, insanlar onun ətrafına toplaşaraq «şah ağac» dedikləri və Yafis ibn Nuhun əkdiyi küknar ağacına ibadət edirdilər. Allah onları məhv etdi.

daxil olmusan? Cavan oğlan dedi: Mənə ev yiyəsi icazə verib. Süleyman təəccübləndi. Əgər ev yiyəsi mənəmsə, mən sənə icazə verməmişəm. Bir də soruşdu: Sənə kim icazə verib ki, bu evə daxil olmusan? Cavan oğlan yenə həmin cavabı dedi: Mənə ev yiyəsi icazə verib. Süleyman üçüncü dəfə soruşanda bildi ki, həmin oğlan cənab Əzrayıldı. Ondan soruşdu. Bu dəfə gəlməkdə məqsədin nədir? Əzrayıl dedi: Bu dəfə səni aparmağa gəlmişəm. Üç dəfə nəfəs almağa imkanın var. Süleyman dedi: İcazə verirsən əyləşim yerdə? Əzrayıl dedi: Xeyr." Əzrayıl elə həmin halda, yəni çəliyə söykəndiyi halda onun canını aldı.

Bu hadisənin üstündən on saat keçdi. Camaat gördü ki, Süleyman elə olduğu kimi, yəni əsaya söykənmiş halda dayanıb. Beləcə, şayiələr gəzməyə başladı və bəziləri Süleymanın Allah, bəziləri onun cadugər olduğunu iddia etdilər. İnsan belə bir halda bu qədər dayana bilməz və s. kimi fikirlər də səslənməyə başladı. Bəzi mömin insanlar dedilər ki, belə sözlər danışmağa və şayiələr düzəltməyə ehtiyac yoxdur. Azacıq səbir edin və bir azdan hər şey aydınlaşar. Süleyman on saat həmin vəziyyətdə qaldıqdan sonra Allah-təala bir qarışqanı göndərdi ki, gedib Süleymanın söykəndiyi əsanın altını ovsun. Qarışqa getdi və əsanın altını ovdu, beləcə Süleyman yerə yıxıldı.

İnsan belələrinin əhvalatına baxaraq ibrət almalı və öz həyatını və gələcəyini tənzimləməyi düşünsə, deməli ağıllı insandır.

Həzrət İmam Sadiq(ə) buyurur: "Ağıl odur ki, insan onun vasitəsilə Allaha ibadət etsin və cənnəti qazanmış olsun. Soruşdular: Ey Allahın höccəti, Müaviyənin ağlı yox idimi? Həzrət(ə) buyurdu: Müaviyədə olan hiylə və şeytan əməlləri idi. Əgər onun ağlı olsaydı, Allahı tanıyıb düz yolu tapardı."

Müaviyə Əmr ibn Ası özünə müşavir təyin etmişdi. Bütün hiylələri birlikdə düzüb-qoşurdular. Onlar hər gün yeni-yeni hiylələrə əl atırdılar. Həzrət Əli(ə) ilə mübarizə etmək üçün camaatı toplayıb Əliyə(ə) qarşı qaldırmaq istəyirdi. Əmr ibn As da ona demişdi: Əvvəl camaatı yoxla, ondan sonra bu işi görərsən. Müaviyə soruşdu: Məsələn, necə yoxlayım? Əmr ibn As dedi: Hərdən ağlabatan, hərdən də ağlabatmayan sözlər de. Beləcə camaatın bu işə hazır olub- olmadığını yoxlamaq mümkündür. Sən sabah fitva ver ki, hər kəs balqabaq yemək istəsə, gərək onu üzü qibləyə kəssin və sonra yesin. Qoyunu  kəsdiyiniz kimi, balqabağı da üzü qibləyə uzadıb kəsməyin vacib olduğunu camaata söylə. Səhərisi gün Müaviyə belə bir fitvanı elan etdi. Bu xəbər camaatın qulağına çatdıqda dedilər: "Əgər belədirsə, bundan sonra balğabağı üzü qibləyə qoyub bismillahla kəsərik."

Bu xəbər İraqa kimi gedib çatdı. Bir dəstə insan onların (camaatın) bu hərəkətini tənqid edib dedilər: "Məgər sizin imamınız yoxdurmu? Məgər Allah sizə Peyğəmbər göndərməyibmi? Nə üçün özbaşınalıq edirsiniz? Hər yerindən duranın sözü ilə niyə oturub-durursunuz?" Bu xəbəri Həzrət Əliyə(ə) də çatdırdılar. Həzrət(ə) buyurdu: "Balqabağı (qoyun kimi) təzkiyə etmirlər (kəsmirlər). Onu elə belə yeyin." Sonra Həzrət(ə) belə buyurdu: "Ayıq olun ki, şeytan ağlınızı əlinizdən almasın. Şeytanın fikirləri sizi sərgərdan etməsin."[1]

قَالَ الصَّادِقُ(ع): مَن كَانَ عَاقِلاً كَانَ لَهُ دِينٌ وَ مَن كَانَ لَهُ دِينٌ دَخَلَ الْجَنَّة

[1] 500 dastan kitabı, 1-ci cild, səh.365.

-İmam Sadiq(ə) buyurur: “Ağlı olanın dini (imanı) olar. Dini olan isə cənnətə daxil olar.”[1]

Həzrət Əli(ə) buyurur: “Bir gün cənab Cəbrayıl Adəm Peyğəmbərə(ə) dedi: Ey Adəm, Allah məni göndərib ki, deyəcəyim üç şeydən birini seçməli olduğun barədə səni xəbərdar edim. Həmin üç şeydən birini seçməlisən. Adəm(ə) soruşdu: Onlar nədir elə? Cəbrayıl dedi: Ağıl, həya, din. Adəm(ə) dedi: Mən ağlı seçdim. Cəbrayıl həya ilə dinə dedi: Artıq siz gedə bilərsiniz. Onlar dedilər: Biz gedə bilmərik. Cəbrayıl soruşdu: Nə üçün? Onlar dedilər: Allah sənə tapşırdığı kimi, bizə də tapşırıb ki, dünyanın axırına qədər ağıldan ayrılmayaq. Harada ağıl varsa, biz də mütləq orada olmalıyıq.”[2]

## Hürr ibn Riyahinin aqibəti

Hürr ibn Riyahini cəhənnəm odundan qoruyan nə oldu? O, ağıl sayəsində İmam Hüseyndən(ə) həya etdi və axırda tövbə etmək, hətta şəhid olmaq belə ona nəsib oldu. Hürr öz qoşunu ilə gəlib İmamın(ə) yolunu bağlamışdı. İmam Hüseyn(ə) orada xütbə oxuduqdan sonra Həccaca buyurdu ki, iqaməni desin. Həccac iqaməni oxuyanda İmam Hüseyn(ə) üzünü Hürrə tutaraq buyurdu: “Biz namaz qılmaq istəyirik, əgər sən də namaz qılmaq istəyirsənsə, öz qoşununla qıl.” Hürr həya və ədəblə dedi: “Mən namazda sənə iqtida edəcəyəm. Heç bir vaxt ola bilməz ki, sən camaat namazı qılasan, mən də gedib özüm üçün camaat namazı təşkil edim. Həm mən, həm də hamımız birlikdə

---

[1] Təfsiri-nümunə, 24-cü cild, səh.331.
[2] Yenə orada, 24-cü cild, səh.330.

namazda sənə iqtida edəcəyik.” Hürr burada İmam Hüseynə(ə) qarşı öz ədəbini göstərdi. Namazdan sonra İmam Hüseyn(ə) bir xütbə də oxudu. İmamın(ə) xütbəsindən sonra Hürr dedi: “Mənə əmr olunub ki, səni Übeydullah ibn Ziyadın yanına aparım”. İmam Hüseyn(ə) Hürrə buyurdu: “Ölüm sənə bu fikirdən yaxşıdır”.

Sonra Həzrət(ə) öz karvanına hərəkət etməyi göstəriş verdi. Elə bu vaxt Hürr öz qoşunu ilə gəlib yolun ağzında dayanaraq İmamın(ə) yolunu kəsdi və dedi: “Mən qoymayacağam ki, hərəkət edəsiniz”. İmam Hüseyn(ə) buyurdu:

ثَكَلَتكَ اُمّك ما تُرِيد

-Anan sənin matəmində otursun, nə istəyirsən?

Hürr burada da Həzrətə(ə) qarşı ədəbli olub dedi: “Əgər səndən başqa bu sözü kimsə mənə desəydi, mütləq onun cavabını qaytarardım. Amma bu sözü indi mənə elə bir insan deyir ki, Fatimeyi-Zəhranın balasıdır. Buna görə də o xanımın adını ehtiram və hörmətdən başqa heç cür dilə gətirmək olmaz.” Həzrət(ə) buyurdu: “Bəs sən nə istəyirsən?” Hürr dedi: “Mən səni İbn Ziyadın yanına aparacağam.” Həzrət(ə) buyurdu: “Mən səninlə getməyəcəyəm”.

Orada söz-söhbət uzandı və axırda Hürr dedi: “Səninlə müharibə etməyə mənim icazəm yoxdur. Amma mənə tapşırılıb ki, səndən ayrılmayım. İndi ki, mənimlə getmirsən və sən getdiyin yerə də mən qoymuram gedəsən. Elə isə bu iki yerdən başqa hansı tərəfə gedirsən get.” Şəraf elə bir yer idi ki, oradan bir yol Kufəyə, bir yol isə Mədinəyə gedirdi. Hürr istəyirdi ki, İmamı(ə) Kufəyə aparsın. Həzrət(ə) buna razı olmadı. Həmçinin İmamın(ə) bir yolu da Mədinəyə olduğu üçün Hürr ora getməyə də

qoymadı. Həzrət(ə) karvanı səhralığa tərəf yönəltdi və beləcə onlar Kərbəlaya yetişdilər. Hürr də öz qoşunu ilə İmamın(ə) karvanından ayrılmadı. Elə oradaca bir atlı İmamın(ə) qarşısından  keçib Hürrə məktub verdi. Hürr məktubu açıb oxuyandan sonra İmamın(ə) hüzuruna gəlib məktubu ona verdi və dedi: “İbn Ziyad mənə məktub göndərib, siz də  məktubu oxuya bilərsiniz.” Həzrət(ə) məktuba baxıb gördü ki, İbn Ziyad orada belə yazıb: ”Yolların hamısını Hüseynin üzünə bağla və onu yaşıllıq olmayan susuz bir yerə apar. Bu işi görəndən sonra tez mənə məlumat göndər”.

Hürr vəziyyətin nə yerdə olduğu barədə bir məktub yazıb İbn Ziyada göndərdi. Lakin yenə də öz ədəbini göstərərək məktubun axırında istefa verdiyini də yazdı. Bu, Hürrün üçüncü müsbət əməli idi. O, yazmışdı ki, İbn Ziyad, bu məsələni həll edəcəksənsə, tez həll  et. Əgər sənin bu işlərinin axırı Hüseyn ibn Əlinin(ə) qanının tökülməsi ilə nəticələnəcəksə, o zaman mən bu döyüşdə iştirak etməyəcəyəm və əvvəlcədən bu işdən istefa verirəm. Mən heç bir vaxt razı olmaram ki, əllərim Zəhranın(s.ə) balasının qanına boyansın.”

Hürr İmam Hüseynə(ə) qarşı üç yerdə ədəb göstərdi. Allah-təala Hürrün ağlına, göstərdiyi ədəb və həyasına görə onun cəhənnəmə getməsini istəmədi. Ona tövbə edib şəhid olmağı nəsib etdi.

Bir gün Həzrət Peyğəmbər(s) və səhabələr əyləşib söhbət edirdilər. Bir nəsrani barədə söhbət açıldı. Səhabələr dedilər: “O, çox yaxşı, vüqarlı, qüdrətli və natiq insandır. Biri dedi: Sözünüzdən belə çıxır ki, o, çox ağıllı insandır?” Həzrət Peyğəmbər(s) buyurdu: “Sakit olun! Ağıllı o

insandır ki, Allahı tanıyıb (vəhdaniyyətini qəbul edib) Ona itaət etsin."[1]

Həzrət Əli(ə) buyurur: "Ağıllı o kəsdir ki, dünyada zahid olsun. (Özünü bütün haramlardan saxlasın). Ağıllı o kəsdir ki, əbədi olan cənnəti qazansın."[2]

Digər bir hədisdə isə Həzrət(ə) belə buyurur: "Ağıllı insan ləzzətinin düşməni, cahil insan isə şəhvətinin qulu olar."[3]

Odur ki, insan bu dünyada ağılla yaşamalıdır, çünki qovuşacağı əbədiyyətinin xoş keçməsi üçün bu dünyada səbirli olub ağılla hərəkət etməlidir. Qeyd etdiyimiz kimi, bu dünya bir günün orucluğuna bənzəyir. İnsan iftar açmaq üçün bir neçə saat səbirli olduğu kimi, əbədi ləzzətlərə qovuşmaqdan ötrü də bu dünyada səbir etməlidir. Buna görə də insan ağlından istifadə etməli və qiyamət gününün baş verəcəyi barədə yəqinliyə çatmalıdır. Yəqinliyə nail olmaq üçün isə ağıl çox mühüm amillərdəndir.

Həzrət Peyğəmbərə(s) xəbər verdilər ki, bir qrup nanəcib insan Mədinə ətrafında müsəlmanları incidib onlara əziyyət verirlər. Ağızlarına gələnləri və dişlərinin dibindən çıxan söyüşləri müsəlmanlara yağdırırlar. Peyğəmbər(s) bir dəstə təşkil edib Hüzeyl qəbiləsindən olan cavan bir oğlanı onlara başçı təyin etdi. Göstəriş verdi ki, gedib müsəlmanları incidənləri və təhqir edənləri susdursunlar. Peyğəmbərin(s) cavan bir oğlanı başçı təyin

[1] Mizanül-hikmə (t.v.), 7-ci cild, səh.3896.
[2] Yenə orada, səh.3896.
[3] Mizanül-hikmə (t.v.), 7-ci cild, səh.3896.

etməsi bəzi insanların xoşuna gəlmədi. Onlar gəlib Peyğəmbərə(s) dedilər: “Ya Rəsulallah, bu cavan oğlanın bizə rəhbər olmasına razı deyilik. Bizə rəhbərlik etmək üçün filan ağsaqqalı təyin et.” Peyğəmbər(s) onlara buyurdu: “Ey zahirə diqqət yetirənlər, təyin etdiyim insan cavan olmasına baxmayaraq, onun möhkəm, dərin ağlı və nurani ürəyi var. Siz dediyiniz ağsaqqalın isə yaşı çox olmasına baxmayaraq, ürəyi qır kimi qapqaradır. Mən bu cavan oğlanın ağlını sınaqdan keçirmişəm. Onun cavan olmasına və saqqalının qaralığına baxmayaraq, ağlı qocadır. (Mən onun ağlını nəzərə alaraq bu dəstəyə başçı təyin etmişəm.)”[1]

İnsan ağlından istifadə etməklə heç olmasa yüz iyirmi dörd min peyğəmbərin sözünü qəbul etməzmi? Bütün peyğəmbərlər insanlara cənnət və cəhənnəmin haqq olduğunu söyləmişlər. Bu peyğəmbərlərin sözlərinə nə üçün inanmamalıyıq? Adi bir uşaq insana təhlükəli bir şeydən xəbər verdikdə, o saat inanırıq, bəs nə üçün bu qədər peyğəmbərin sözünə əhəmiyyət vermirik? Məsələn, fərz edək ki, bir nəfər səni öz bağına qonaq çağırır. Neçə gün orada qalmalı olacağından bir otağı sənin üçün hazırlayırlar. Axşam yatmaq istərkən həmin evdə bir uşaq sənə belə deyir: “Əmi, dünən gecə atam bu otaqda bir əqrəb tutub öldürdü.” Atası tez uşağı bayıra çıxarıb danlayır ki, nə üçün qonağa belə sözlər deyirsən. Sonra isə yenidən sənin yanına gələrək uşağın yalan dediyini söyləsə də belə ona inanarsanmı? Uşağın dediyi sözlər də artıq sənin hafizənə həkk olunmuşdur. İstər-istəməz gecə çox narahatsan ki,

[1] 500 dastan kitabı,1-ci cild, səh.365.

birdən həqiqətən də əqrəb çıxar və səni sancar. Görürsənmi bir uşağın sözü sənin qəlbinə nə qədər təsir göstərib?

Yüz iyirmi dörd min peyğəmbər və Allah tərəfindən nazil olan səmavi kitablar ölüm, cəhənnəm, od, hesab-kitab və s. kimi məsələlərdən xəbər verirlər. Bəs nə üçün sən bütün bunlara inanmaq istəmirsən? Onların sözünə etibarın yoxdurmu? Onların sözünün haqq olmasına heç olmasa azacıq da olsa inanırsanmı?

Gunlərin birində bir nəfər İmam Sadiqin(ə) hüzuruna gəlib dedi: "Mən özümdən sonrakı həyata, qiyamətə, hesab-kitaba inanmıram. Deyirəm ki, bu dünya müvəqqətidir, yeyib-içib kef etmək lazımdır. Öləndən sonra torpaq olub aradan gedəcəyik." İmam Sadiq(ə) məntiqə əsaslanaraq onu yaxşıca başa salaraq buyurdu: "Sən ölümə inanırsanmı? Dedi: Bəli. Çünki dünyada yaşayan hər bir insan mütləq ölür. Atam, anam, qohum-əqrəbamın çoxu gözümün qarşısında dünyadan gediblər. Heç kim onların ölümünün qarşısını ala bilməyib. Buna görə də ölümə inanıram. İmam(ə) buyurdu: Sən də bu dünyada yaşayırsan, mən də. Sən də yeyib-içirsən, mən də. Sən dünyanın haramlarından ləzzət alırsan, mən halallarından. Sən ibadət etmirsən, mən ibadət edirəm. Sən halal-haram bilmirsən, mən bilirəm. Hər halda bu dünyada yaşayırıq. Fərz edək ki, sən deyən kimi, hamımız ölüb torpaq olaraq aradan getdik. Belə olduqda mən burada nə itirmiş oluram? Dedi: Heç bir şey. İmam(ə) buyurdu: Amma birdən mənim dediyim kimi qiyamət, hesab-kitab, tərəzi, cənnət və cəhənnəm olsa, o zaman sənin halın necə olacaq?"

Odur ki, qeyd etdiyimiz ayədə Allaha, peyğəmbərlərə və qiyamətə inanmayanlar barədə belə buyurulur: "...Hər hansı bir dəstə oraya (cəhənnəmə) atıldıqları zaman gözətçilər (cəhənnəmin xidmətçiləri)

onlardan soruşarlar: “Məgər (dünyada) sizə bir qorxudan (peyğəmbər) gəlməmişdimi?” Deyərlər: “Bəli, şübhəsiz, bizə (Allah tərəfindən) bir qorxudan gəlmişdi, lakin biz onu təkzib etdik və dedik: “Allah heç bir şey nazil etməmişdir. Siz ancaq böyük bir azğınlıq içindəsiniz.” Və deyərlər: “Əgər Biz (həqiqətən,) eşitsəydik, ya ağlımız olsaydı (düşünsəydik), əsla yanar cəhənnəm odunun əhli zümrəsində olmazdıq.”

Ağıl insan üçün böyük nemətdir. Ağlı güclü olan insanın imanı və yəqinlyi də güclü olar. Ağlı güclü olan insan Allahın nazil etdiyi kitabdan, göndərdiyi Peyğəmbərdən(s) dərs alıb imanını gücləndirməklə xoşbəxtliyə nail olar.

## Qəlbdəki iman və yəqinliyi zəiflədən amillər

Yuxarıda qəlbdə qərar tutan iman və yəqinliyi gücləndirən amillər barədə söhbət etdik. Burada çox yaxşı olar ki, imanı zəiflədən amillərlə də tanış olaq. Bütün bunları öyrənib onlara riayət etməklə öz imanımızı möhkəmlətmiş olarıq. Əgər bir kəsin Allaha, Qurana, Peyğəmbərə yəqinliyi olmasa, bu insanın imanı gündən-günə zəifləyən və onun dünyadan imansız getmə ehtimalı artar. Çünki şeytan daim insanı addım-addım izləyir və onu imandan çıxarmaq üçün hər bir fürsətdən istifadə edir. Hətta insanın son anlarında belə şeytan peyda olub onun imanını əlindən almağa çalışır. Hədislərdə deyilir ki, can üstə olan insanı tək qoymayın. Ona su vermək, kəlmeyi-şəhadəti təlqin etmək, başı üzərində Quran oxumaq kimi əməlləri yerinə yetirin. İnsan son anlarında çox vaxt susuz olur. Ona su içizdirmək, dodaqlarını islatmaq savabdır. Çünki o halda şeytan əlində bir qab su tutub ona göstərir. Canını tapşırmaq istəyən kəsin imanı zəif olsa, şeytan həmin suyu vəd etməklə onun olan-qalan imanını da əlindən alıb aparar. İmanını aldıqdan sonra ona heç su da vermir. Yox, əgər insanın imanı güclü və Allaha yəqinliyi çox olsa, şeytan ona yaxın düşə bilmir. Çünki imanı və yəqinliyi çox olan insan dünyasını dəyişərkən Peyğəmbər(s) və Əhli-beyt(ə) onun başı üzərində olurlar. Qəlbi imanla dolu olan insan son anlarında cənnətdəki məqamını, oranın nemətlərini görürsə, şeytanın bir qab suyuna nə ehtiyacı olacaqdır? Buna görə də insana iman və yəqinliyi gücləndirmək son dərəcə mühüm bir məsələdir.

**1. Nəfsani istəklər**

İnsanın qəlbindəki iman və yəqinliyi zəiflədib aradan qaldıran amillərdən birincisi nəfsani istəklərdir. İnsanın daxilində ağılla nəfs daim mübarizədədir. Əvvəl-axır onlardan biri qalib gəlməlidir. Hansı tərəf qalib olsa, insanın taleyi orada həll olacaq. İnsanın qiyməti bu tərəflərdən birinin qələbəsi ilə müəyyənləşir.

قَالَ عَلِيٌّ(ع): يُفسِدُ اليَقِينَ اَلشَّكُ وَ غَلَبَةُ الْهَوى

-Həzrət Əli(ə) buyurur: “(Allaha) şəkk etmək və nəfsani istəklərə məğlub olmaq insanın yəqinliyini xarab edər.”[1]

قَالَ عَلِيٌّ(ع): كَيفَ يَجِدُ لَذّةَ العِبَادَة مَن لا يَصُومُ عَنِ الْهَوى

-Həzrət Əli(ə) buyurur: “Nəfsani istəklərdən oruc tutmayan (qorunmayan) kəs ibadətin ləzzətini necə dada bilər?”[2]

İnsan orucluqda yemək-içməkdən oruc tutduğu kimi, gərək həyatda da nəfsani istəklərindən oruc tutsun. Orucluqda insan bəzi işlərdən oruc tutur. Əgər insan ömrü boyu nəfsani istəklərindən oruc olsa, səadətə çatmaq şansı əldə edə bilər.

## Nəfsani istəklər nədir?

Bu, insanın daxilində olan nəfsani istəklər və meyllərdir. Nəfsin işi əlbəttə ki, istəməkdən ibarətdir. Harada ləzzət, kef və rahatçılıq varsa, insanı da o tərəfə çəkir. İstər həmin ləzzətlər halal olsun, istərsə də haram.

---

[1] Mizanül-hikmə (t.v.), 14-cü cild, səh.7182.

[2] Yenə orada,7-ci cild, səh.3430.

Şeytan da insanı ləzzətlərə və keflərə tərəf çəkir. Ümumiyyətlə, şeytan insanı yalnız haramlara tərəf sövq edir. Sübh namazı vaxtında şirin yuxudan qalxıb namaz qılmaq istədikdə nəfs insanı yatmağa vadar edir. Yaxud Kəbə ziyarətinə getdikdə bəzən nəfs insanı bazarlara və alış-verişə çəkir. Nəfsin insandan tələbləri heç bir vaxt bitmir. Bu tələblərin qarşısında dayanıb onlardan çəkinmək üçün insana möhkəm iman lazımdır. Nəfs həmişə acdır və yemək istəyir. Nəfs heyvan kimidir və həmişə yemək axtarır. Məsələn, qoyun başını aşağı salıb yeyə-yeyə gedir. Onun üçün fərqi yoxdur ki, otladığı bağ kimindir. Nə halal başa düşür, nə də haram. Qarşısına çıxan otları yeyəcəkdir. Qoyun nə orucluq bilir, nə halal başa düşür və nə də haram. Onun işi-peşəsi yeməkdir. Nəfs də buna bənzəyir. Onun üçün fərqi yoxdur halal olsun, yaxud haram. O, həmişə acdır və tələb edir. İman isə belə deyil. İman insanın nəfsini çərçivəyə salaraq qanunlara əsaslanır. Hər bir kəs nəfsin istək və tələblərini yerinə yetirirsə, axırda zəlil vəziyyətə düşür. Belələri dünyada zahirən özlərini xoşbəxt hiss etmələrinə baxmayaraq, axirətdə mütləq zəlil vəziyyətə düşəcəklər. Əsl həqiqətdə onlar dünyada da zəlildirlər. Lakin zəlilliyin mənasını dərk etmirlər. Elə başa düşürlər ki, imkanlı, var-dövlətli və vəzifəli olmaq onlar üçün xoşbəxtlikdir.

Nəfsani istəklər insanı çəkib aparır və onları ayaqlar altına salır. Nəfsani istəklər insanı çəkib aparır və arxasını yerə vurur.

قَالَ رَسُولُ اللهِ(ص): اِنَّمَا سُمِّيَ الْهَوَى لأَنَّه يَهوى بِصَاحِبِه

-Həzrət Peyğəmbər(s) buyurur: “Nəfsani istəkləri ona görə elə adlandırıblar ki, o, öz sahibini yerə çırpar.”[1]

قَالَ عَلِيٌّ(ع): اَلْهَوَى يُرْدِى

-Həzrət Əli(ə) buyurur: “Nəfsani istəklər (insanı) alçaldar.”[2]

قَالَ عَلِيٌّ(ع): آفَةُ العَقل الْهَوَى

-Həzrət Əli(ə) buyurur: “Ağılın pisliyi (ziyanvericisi) nəfsani istəklərdir.”[3]

Ağacları ona görə dərmanlayırlar ki, qurd ağacı yeyib məhv etməsin. Əgər ağacı vaxtında dərmanlamasalar, qurd onları yeyib məhv edəcəkdir. Ağılın da qurdu nəfsani istəklərdir. İnsan onun üçün dərman tapmasa, onun ağlını yeyib xarab edəcək. Onun dərmanı ötən bəhslərdə qeyd etdiyimiz iman və yəqinliyi gücləndirən amillərdir.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ إِبلِيسَ قَالَ: أَهلَكتُهُم بِالذُّنُوبِ فَأَهلَكُونِي بِالإِستِغْفَار، فَلَمَّا رَأَيْتُ ذَلِكَ مِنْهُم أَهْلَكَتهُم بِالأَهوَاءِ، فَهُم يَحسَبُونَ أَنَّهُم مُهتَدُون فَلا يَستَغْفِرُون

-Həzrət Peyğəmbər buyurur(s): “İblis dedi: Mən onları günahlarla məhv etdim, onlar da (Allahdan) əfv diləməklə məni məhv etdilər. Buna görə də (vəziyyəti) belə görüb onları nəfsani istəklərinin vasitəsilə məhvə

[1] Mizanül-hikmə (t.v.),14-cü cild, səh.6690.
[2] Yenə orada.
[3] Yenə orada.

sürüklədim. Çünki onlar (belə olan halda) doğru yolda olduqlarını zənn edir və bu səbəbdən istiğfar diləmirlər.”[1]

Buna görə də əgər insan nəfsani istəklərinin ardınca düşüb getsə, axırda gözləri tutular, pərdənin arxasını görməz və axirətə olan imanı zəifləyib aradan gedər. “Sad” surəsinin 26-cı ayəsində belə oxuyuruq:

يَا دَاوُودُ إِنَّا جَعَلْنَاكَ خَلِيفَةً فِي الْأَرْضِ فَاحْكُم بَيْنَ النَّاسِ بِالْحَقِّ وَلَا تَتَّبِعِ الْهَوَى فَيُضِلَّكَ عَن سَبِيلِ اللَّهِ إِنَّ الَّذِينَ يَضِلُّونَ عَن سَبِيلِ اللَّهِ لَهُمْ عَذَابٌ شَدِيدٌ بِمَا نَسُوا يَوْمَ الْحِسَابِ

-Ey Davud! Biz səni yer üzündə (Öz) xəlifə(miz) etdik. Buna görə də insanların arasında haqq əsasında hökm çıxar və nəfsani istəklərə tabe olma ki, o, səni Allahın yolundan azdırar. Şübhəsiz, Allahın yolundan azanlara hesab gününü unutmalarının müqabilində şiddətli əzab vardır.

قَالَ عَلِيٌّ(ع): أُوصِيكُم بِمُجَانَبَةِ الْهَوَى فَإِنَّ الْهَوَى يَدعُو اِلَى الْعَمَى وَ هُوَ الضَّلالُ فِي الآخِرَةِ وَ الدُّنيا

-Həzrət Əli(ə) buyurur: “Sizə nəfsani istəklərdən uzaq durmağı tövsiyə edirəm. Çünki nəfsani istəklər (insanı) korluğa çağırır (qəlbinin gözünü kor edər) və o, dünya və axirətdə azğınlıqdır (azğınlığa səbəb olur).”[2]

Nəfsani istəklər insanı elə bir dərəcəyə gətirib çıxarar ki, insanın qəlbində olan imanı əlindən gedər. Belə olduqda insan elə bir azğınlığa düşər ki, çıxış yolunu tapa

---

[1] Mizanül-hikmə (t.v.), 14-cü cild, səh.6690.
[2] Yenə orada, səh.6694.

bilməz. Nə halal bilər, nə də haram. Elə başa düşər ki, hər nə varsa elə bu dünyadadır və bundan başqa bir şey yoxdur. Nəfs insanı bədbəxt etməyincə ondan əl çəkməz.

## Nəfs ilan kimidir

Bağdadda bir nəfər ilan tutan var idi. Onun peşəsi ilan tutmaq idi. Qış günlərinin birində o, ilan tutmaq üçün dağa gedir. Daşların arasında nəhəng bir ilan görür. İlan soyuğun təsirindən keyləşib orada yatmışdı. Min bir zəhmətlə onu tutub şəhərə gətirir. Camaatı meydana yığıb gətirdiyi həmin ilanla onlara tamaşa göstərmək istəyir. Hava istiləşdikcə ilan qızışmağa başlayır. Kişi isə elə güman edir ki, gətirdiyi ilan hələ də ayılmayıb. İlan qızışdıqdan sonra kefi açılır və camaata hücum etməyə başlayır. Hamı qaçıb oradan uzaqlaşır. Kişi ilanı tutmaq istəyəndə ilan onu udur. Udduqdan sonra isə yekə bir ağaca sarılıb onun sümüklərini də sındırır.

Yazarlar da bu əhvalatı danışdıqdan sonra yazmışlar ki, nəfsani istəklər də eynilə belədir. Onu özbaşına buraxdıqda insanın sümüklərini sındırmayınca əl çəkməz.

Yəhya Peyğəmbərin(ə) dövründə bir şəxsi günah iş gördüyünə görə daşqalaq etmək istəyirdilər. Günahkar Yəhya Peyğəmbərə(ə) dedi: “Ey Yəhya(ə), mən öz günahımı boynuma alıram və məni daşqalaq etməyə də razıyam. Amma səndən xahişim budur ki, məni daşqalaq edənlərin özləri mən etdiyim günahdan etmiş olmasınlar. Əgər mənə daş vuranlar mənim kimi günahkardılarsa, onda bizim nə fərqimiz var?” Yəhya Peyğəmbərin(ə) bu sözlərdən çox xoşu gəldi və üzünü camaata tutub buyurdu: “Kimin bunun etdiyi günah kimi günahı varsa, o, daş

atmasın.” Camaat bu sözü eşidən kimi əllərindəki daşları yerə ataraq öz evlərinə dağılışdılar. Yəhya Peyğəmbər(ə) həmin günahkarın yanına gəlib dedi: “Elə bil sənin qəlbində təqva və nuraniyyət var. Mənə bir nəsihət et. Günahkar Yəhya Peyğəmbərə(ə) üç nəsihət etdi. Onun bu nəsihətlərini imamlarımız da təsdiqləmişlər. Günahkar şəxsin Yəhya Peyğəmbərə(ə) etdiyi nəsihətlərdən biri də bu idi: “Ey Yəhya(ə), mən öz nəfsani istəklərimə tabe oldum və günaha batdım. Əgər istəyirsənsə Allah sənə qiymət, şərəf, izzət versin və heç bir vaxt zillətə düşməyini, mənim kimi alçalıb xar olmağını, Allah və mələklər yanında abrının getməsini istəmirsənsə, nəfsani istəklərinə tabe olma."

## Ən güclü insan kimdir?

İnsan zahirən hər nə qədər güclü olsa da belə nəfsani istəklərinə qalib gələ bilmirsə, deməli zəif insandır. Bu barədə Peyğəmbər(s) və imamlardan bir çox hədislər nəql olunmuşdur. Nümunə üçün bir neçə hədisə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): اَشجَعُ النَّاس مَن غَلَبَ هَواهُ

-Həzrət Peyğəmbər(s) buyurur: “İnsanların ən şücaətlisi, öz nəfsani istəklərinə qalib gələn şəxsdir.”[1]

قَالَ سُلَيمَان ابن دَاوُود(ع): اِنَّ الغَالِبَ لِهَواهُ اَشَدُّ مِنَ الذِّى يَفتَحُ الْمَدينَةَ وَحْدَه

[1] Mizanül-hikmə (t.v.), 14-cü cild, səh.6708.

-Həzrət Süleyman Peyğəmbər(ə) buyurur: “Öz nəfsani istəklərinə qalib gəlmiş şəxs təkbaşına bir şəhəri fəth etmiş insandan da güclüdür.”[1]

Günlərin birində Peyğəmbər(s) görür ki, bir qrup adam yığışıb nəyəsə tamaşa edirlər. Yaxınlaşdıqda görür ki, bir pəhləvan ağır daşları oynadaraq gücünü nümayiş etdirir. Camaat onun hərəkətlərinə təəccüblə tamaşa edirdi. Həzrət Peyğəmbər(s) onlarla salamlaşıb hal- əhval tutduqdan sonra buyurur: “Sizə ən güclü insanın kim olduğunu xəbər verimmi? Ən güclü insan odur ki, qəzəbini boğsun, nəfsinə və şeytanına qələbə çalsın.”[2]

Günlərin birində bir kişi Şamdan Mədinə şəhərinə gəlib İmam Həsəni(ə) soraq etdi. İmam Həsəni(ə) o kişiyə göstərdilər. Həmin şəxs gəlib İmamın(ə) qarşısında dayandı və dişinin dibindən çıxan söyüşləri Həzrətə(ə) ünvanladı. İmamın(ə) yanında olanlar onun cavabını vermək istədikdə Həzrət(ə) onları bu işdən çəkindirdi. Həzrət(ə) bilirdi ki, həmin kişi onu tanımır. Müaviyə onu Şamda aldadıb bura göndərmişdir. Həzrət(ə) onun üzünə baxıb buyurdu: “Sən məni tanımırdın. Birinci dəfədir ki, məni görürsən. Nə üçün hirsli halda gəlib mənə belə sözlər deyirsən? Əgər bir çətinliyin varsa, de həll edək. Əgər evin yoxdursa, sənə ev verərəm. Evlənmək istəyirsənsə, səni evləndirərəm. Pulun yoxdursa, sənə pul verərəm.” İmam Həsən(ə) belə sözlərlə onu yumşaltdı. Həmin kişi İmamın(ə) belə gözəl rəftarını görüb xəcalətindən başını aşağı saldı və üzr istəyib dedi: “Allah yer üzündə insanlara

[1] Yenə orada.
[2] Yenə orada.

kimi höccət qərar verdiyini çox gözəl bilir.” Sonra İmamın(ə) ayaqlarına düşüb bir daha ondan üzr dilədi.

## Ən böyük cihad nəfslə mübarizədir

Nəfs insanın daxilində olan böyük düşməndir. İnsan ömrü boyu çalışıb daxilindəki nəfsinə qələbə çalmağı bacarmalıdır. Buna görə də nəfslə mübarizəyə böyük cihad deyilir. Həzrət Peyğəmbər(s) bir dəstə döyüşçünü müharibəyə göndərdi. Müsəlmanlar qələbə çaldıqdan sonra geri qayıtdılar. Onların gəlişini Peyğəmbərə(s) xəbər verdilər. Peyğəmbər(s) onları qarşılamağa çıxdı. Onların bəzisi yaralı, bəzisi isə yorğun halda şəhərin girəcəyində Peyğəmbərlə(s) qarşılaşdılar. Onlar Peyğəmbəri(s) görüb sevindilər. Həzrət(s) onlarla görüşüb buyurdu: “Mərhəba olsun kiçik cihadı qələbə ilə başa vuranlara. Ümid edirəm ki, yaxın gələcəkdə bir qrup insan böyük cihadı da qələbə ilə başa vuracaqlar.”

Onlar Peyğəmbərin(s) bu sözündən çox təəccüblənib soruşdular: “Ya Rəsulallah, böyük cihad nədir? Həzrət(s) buyurdu: “Nəfslə mübarizə. (Mömin günahla üzləşdikdə Allaha xatir həmin günahı etməsə, böyük cihad etmişdir. Bu cihadların hamısı insanların qəlblərinin paklığı üçündür.)”

قَالَ عَلِيّ(ع): طَهِّرُوا أَنْفُسَكُم مِن دَنَسِ الشَّهَوات تُدْرِكُو رَفِيعَ الدَّرَجَات

-Həzrət Əli(ə) buyurur: “Özünüzü şəhvətin çirkinliklərindən təmizləyin ki, yüksək (mənəvi) dərəcələrə nail olasınız.”[1]

Murdar və çirkin işlər heç bir vaxt insanı yüksək mərhələlərə çatmağa imkan vermir. Namaz möminin meracıdır. İnsan namaz vasitəsilə göylərə merac edir. Əgər qarın haramla dolsa, insan meraca gedə bilərmi? İnsan o vaxt mənəvi aləmlərə səyahət edə bilər ki, qarnında halal və pak yeməklər olsun. Təyyarəyə çirkli və ya su ilə qarışdırılmış benzin tökdükdə havaya qalxa bilərmi? Təyyarə yalnız təmiz benzinlə havaya qalxa bilər. İnsan özünü nəfsani istəklərdən təmizləməsə, heç bir vaxt mənəvi aləmə səyahət edə bilməz. Onu da bilmək lazımdır ki, özünü hər hansı bir günahdan qorumağın ləzzəti insan üçün həmin günahı etməyin ləzzətindən daha çoxdur. Şair bu məsələni belə qələmə almışdır:

اگر لذّت ترک لذّت بدانی     دگر لذّتِ نفس لذّت ندانی

-Əgər ləzzəti tərk etməyi ləzzət bilsən, o zaman nəfsin ləzzətini ləzzət bilməzsən. (Günahdan çəkinməyin ləzzətini gördükdə artıq günah etməyin ləzzətini özünə ləzzət bilməzsən).

## İbn Sirin və qadın

İbn Sirin parça satan cavan bir oğlan idi. Onun gözəl və nurani siması var idi. Hər gün küçələrdə parça satmaqla öz başını dolandırırdı. Günlərin birində bir məhəllədən keçərkən bir qadın onu səslədi. İbn Sirin onun yanına getdi. Qadın ona dedi: “Gəl gedək bizə, mən səndən çoxlu

[1] Mizanül-hikmə,10-cu cild, səh. 4992.

miqdarda parça alacağam.” İbn Sirin qadının evinə gəldi. İçəri daxil olan kimi qadın arxadan qapını bağladı. İbn Sirin başa düşdü ki, tələyə düşüb. Qadın ona dedi: “Mən səndən parça almağı bəhanə edib səni bura gətirdim. Neçə vaxtdır ki, mənim gözüm sənə düşüb. Axır ki, bu fürsətdən istifadə edib səni bura gətirdim. Sən gərək mənimlə yaxınlıq edəsən. Əgər etməsən, səni burdan heç yerə buraxmayacağam.”

İbn Sirin gördü ki, bu tələdən heç cür çıxış yolu tapa bilməyəcək və ona Allahdan başqa heç kəs nicat verə bilməyəcək. Çünki daxildən nəfsin istəyi, zahirdən də o qadının xahişi onu günaha çəkirdi. Ona görə də ürəkdən Allaha pənah apardı və dedi: “İlahi, mənə bu günahın tələsindən yalnız və yalnız Sən nicat verə bilərsən.” Elə bu anda onun fikrinə nəsə gəldi. O, qadına dedi: “Yaxşı, mən səninlə razılaşaram. Amma icazə ver, mən ayaqyoluna gedim, ondan sonra səninlə istədiyini edəcəyəm.” Qadın ona icazə verdi. İbn Sirin ayaqyoluna girərək orada olan natəmizliyi götürüb paltarına sürtdü. Sonra gəlib qadının qarşısında durdu. Qadın onu bu vəziyyətdə görüb iyrəndi və qapını açıb onu evdən qovdu. İbn Sirin qaça-qaça gəlib şəhərin girəcəyində bir bulağın kənarında durdu. Paltarını çıxarıb yumamışdan əvvəl Allaha şükür edərək belə dedi: “İlahi, mənim paltarım murdar oldu, lakin fəxr edirəm ki, Sən mənim ruhumu çirklənməyə qoymadın. Şükürlər olsun Sənə!” Allah-təala İbn Sirinin bu əməlinə görə ona istədiyini verdi. Bundan əlavə, ona elə bir qüvvə vermişdi ki, həmin qüvvənin vasitəsilə yuxu yozurdu. Onun “Yuxu yozmaları” adlı qalın bir kitabı vardır ki, bir çox insanlar ondan istifadə edirlər.

Əgər insan nəfsani istəkləri ilə apardığı mübarizədə qalib gələrək bundan ləzzət alırsa, onun aldığı ləzzət

günah əməlin ləzzətindən qat-qat çoxdur. Allah-təala nəfslə mübarizə etməyin ləzzətlərini hamımıza inayət etsin.

### 2. Tamah

İnsanın qəlbindəki iman və yəqinliyi zəiflədib aradan qaldıran amillərdən biri tamahdır. Tamah odur ki, insanın gözü başqasının əlində və malında olsun. Əgər bir kəsin başqalarının malında, pulunda, övladında, miniyndə, ev-eşiyində, vəzifəsində, inkişafında və s. gözü olsa belə bir insana tamahkar insan deyilir. Tamahın kökü kasıblıqla əlaqəli olan bir şey deyil. Mümkündür ki, bəzi insanlar çox kasıb olsun və evdə axşama yeməyə heç bir şeyi olmasın. Bununla yanaşı heç bir kəsin malına və əlinə göz dikmir. Bəzi insanlar da var ki, malı, pulu, dövləti, hər cür şəraiti olmaqla yanaşı, gözü başqalarının əlində və malındadır. Onun gözü həmişə ac-yalavacdır. Mal-dövlət çoxaldıqca, qarın doyduqca göz acıyır və tamah çoxalır.

Bəzi hədislərdə belə nəql olunmuşdur ki, dünyanın malı şor suya bənzəyir. Şor suyu içdikcə insanın susuzluğu artır. Qeyd olunanlar tamahın konkret lüğəvi mənasıdır. Lakin əxlaq, xüsusilə təfsir elmində tamahı iki hissəyə bölmüşlər. Tamahın birinci qismi insanın Allaha olan tamahıdır. Bu qisim tamahın özü üç hissədən ibarətdir. İkinci qisim tamah isə insanlara qarşı olan tamahdır. Ümumilikdə dörd hissədən ibarətdir. İndi isə tamahın bu qisimləri ilə tanış olaq.

## İnsanın Allaha olan tamahı

a) Tamahın bu qisminin birinci hissəsi belədir ki, insan əməl və ibadətsiz halda Allahın rəhmətinə, məğfirətinə və cənnətinə tamah salsın. Əgər insan Allahın

rəhmət və məğfirətinə tamah salırsa, mütləq əməlində də bunu sübut etməlidir. Allahın məğfirətinin tamahında olan kəs özünü bağışlatmaq istəyənlərə oxşatmalıdır. Məsələn, bir nəfərə pislik etmiş şəxs üzr istəmək istəyirsə, mütləq özünü üzr istəyən adama oxşatmalıdır. Bir nəfərə daş atıb üzr istədikdən sonra bir daha daş atmaqla üzr qəbul olunmur. Məsələn, noxud boyda daşı birinə atıb üzr istədikdən dərhal sonra birini də atmaq həyasızlıq sayılır, üzr istəmək yox. Odur ki, insan Allahın rəhmət və məğfirətinə tamah edir, lakin əməldə heç də bağışlanmaq istəyən insana oxşamır. Yəni ibadət və əməl olmadan Allahın cənnətinə göz dikir. Allah-təala "Məaric" surəsinin 36-38-ci ayələrində belə buyurur:

فَمَالِ الَّذِينَ كَفَرُوا قِبَلَكَ مُهْطِعِينَ. عَنِ الْيَمِينِ وَعَنِ الشِّمَالِ عِزِينَ. أَيَطْمَعُ كُلُّ امْرِئٍ مِّنْهُمْ أَن يُدْخَلَ جَنَّةَ نَعِيمٍ

-Belə isə kafir olanlara nə olub ki, sənin yanına tələsirlər?! Dəstə-dəstə, sağdan və soldan (sənin ətrafına yığılırlar)?! Yoxsa onlardan hər birinin tamahı var ki, (sabah qiyamətdə kafir ola-ola) onu çox nemətli cənnətə daxil edələr?!

Allah-təala hədisi-qüdsidə buyurur:

مَا اَقَلَّ حَياءَ مَن يَطمعُ فِی جَنَّتِی بِغيرِ عَمَلٍ. كَيفَ اَجُودُ بِرحمَتِی عَلی مَن يَبخُلُ بِطاعَتِی

-Əməli olmayıb cənnətə tamah salan insan necə də həyasızdır. Mənə itaət etməkdə paxıllıq edən kəsə öz rəhmətimi necə nəsib edə bilərəm?

Əgər bir insan Allaha səcdə etməyə paxıllıq edisə və ibadət etmirsə, bəs onda nə üzlə Allahın rəhmətinə tamah edir? İbadət etməyən insan hansı üzlə Allahdan ona

cənnəti verməsini istəyir? İnsan Allaha səcdə etməli və günahlarının bağışlanması üçün tövbə etməlidir. Yalvarıb yaxardıqdan sonra Allah həmin şəxsi qəbul edər. Allah mərhəmətlidir və insanın az ibadətini belə çox kimi qəbul edər. İnsanın səhvlərini bağışlayıb rəhmətini ona nazil edər. Bir şərtlə ki, insan Onun buyurduqlarına əməl etmiş olsun.

Beləliklə, tamahın bu növü o tamahlardandır ki, insan heç bir ibadət etmədən Allahın rəhmətinə, məğfirət və cənnətinə göz dikir. Bu tamah insanda olan mənfi tamahdır. Şeytan belə məqamlarda insanı daha da çaşqın vəziyyətə salaraq onları yoldan çıxarır. Məsələn, insan dildə "Allahı çox istəyirəm, Ona qurban olum, mənim ürəyim təmizdir" kimi sözləri deməklə elə güman edir ki, Allah onu bu sözlərinə görə cənnətə aparacaq. Belə insanlar həyatda daha çoxdur. Bu kimi insanlar sadəcə özləri özlərini aldadırlar. Şeytan da insanın belə sözlər və hallarından istifadə edərək onu daha da azğınlığa sövq edir. Öncə qeyd olunan hədisə bir daha diqqət yetirək:

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ إِبلِيسَ قَالَ: أَهلَكتُهُم بِالذُّنُوبِ فَأَهلَكُونِي بِالإِستِغْفَار، فَلَمَّا رَأَيْتُ ذَلِكَ مِنْهُم أَهْلَكَتهُم بِالأَهوَاء، فَهُم يَحسَبُونَ أَنَّهُم مُهتَدُون فَلا يَستَغْفِرُون

-Allahın Peyğəmbəri(s) buyurur: "İblis dedi: Mən onları günahlarla məhv etdim, onlar da (Allahdan) əfv diləməklə məni məhv etdilər. Buna görə də (vəziyyəti) belə görüb onları nəfsani istəklərinin vasitəsi ilə məhvə

atdım. Çünki onlar (belə olan halda) doğru yolda olduqlarını zənn edir və bu səbəbdən istiğfar diləmirlər."[1]

b)Tamahın birinci qisminin ikinci hissəsi belədir ki, insan Allahın rəhmət və məğfirətinə tamah etməklə yanaşı, Onun buyurduqlarına da əməl edir. Onun yolunda hər bir əziyyətə dözüb canından, malından və qanından keçir. Allahın razılığını əldə etmək üçün Onun vacib etdiyi əməllərə riayət edir və haram etdiyi əməllərdən çəkinir. Ramazan ayı isti yay günlərinə təsadüf etdikdə tam məsuliyyətlə Allahın vacib etdiyi bu əmri çətinliklə də olsa yerinə yetirir. Qısa gecələrdə yorğun halda olmasına baxmayaraq, namazları qəzaya vermir. Çətin və ağır vəziyyətə düşmələrinə baxmayaraq, Allahın əmrlərindən heç bir vaxt boyun qaçırmırlar. Belə insanlar da Allahın rəhmət və məğfirətinə ümid bəsləyib tamah salır. Bu tamah insanın Allahın cənnətinə olan müsbət və bəyənilmiş tamahıdır. Allah-təala belə insanları bağışlayır, onlara rəhmətini nazil edir və cənnəti onlara bəxş edir. Quran ayələrində, hədislərdə və tarixi mənbələrdə belə insanlar tərif olunmuşdur.

Həzrət Peyğəmbərin(s) peyğəmbərliyinin ilk illərində müşriklər müsəlmanlara çox işgəncələr verirdilər. İş o yerə gəlib çatdı ki, Peyğəmbər(s) onlara buyurdu: "İndi ki, sizə bu qədər əzab-əziyyət verirlər, Məkkədən çıxıb başqa bir ölkədə yaşayın. Dedilər: Ya Rəsulallah, hara gedək? Peyğəmbər(s) buyurdu: Eşitmişəm ki, Həbəşistanda bir padşah var. O, çox yumşaq və mülayim insandır. Məsləhət görürəm ki, gedib bir müddət orada yaşayasınız. Peyğəmbərin(s) göstərişi ilə on bir kişi və dörd qadın

---

[1] Mizanül-hikmə (t.v.), 14-cü cild, səh.6690.

Məkkədən çıxıb Həbəşistana hicrət etdilər. O vaxtlar Həbəşistanın şahı Əshəmə Nəcaşi idi. Bir müddətdən sonra Cəfər ibn Əbu Talib də gedib onlara qoşuldu. Orada onların vəziyyət və güzəranı xoş keçirdi. Onlar Həbəşistanda yaşayırdılar. Cəfər ibn Əbu Talib ora gedəndən sonra dini bir cəmiyyət təşkil edib fəaliyyət göstərməyə başladılar.

Günbəgün bu cəmiyyətin üzvlərinin sayı artıb təxminən səksən nəfəri ötmüşdü. Onların yaratdıqları bu icmanın xəbəri Məkkə müşriklərinin də qulağına gedib çatdı. Xəbəri gətirən dedi: Siz burada müsəlmanların sayının artmasının qarşısını almaq üçün onlara işgəncələr verdiyiniz halda Cəfər ibn Əbu Talib Həbəşistanda bir qrup insanları başına yığmaqla böyük bir cəmiyyət yaradıb. Onarın sayı gündən-günə artmaqdadır. Gərək bunun qarşısını alasınız. Müşriklər yığışıb bu işin qarşısını almaq üçün tədbir tökdülər. Çox fikirləşib məsləhətləşdikdən sonra belə qərara gəldilər ki, iki nəfəri Həbəşistanın padşahı ilə söhbət etməyə göndərsinlər. Onlardan biri çox nanəcib və alçaq işlərdə səriştəsi olan Əmarət ibn Vəlid, digəri isə şeytan xislətli Əmr ibn As idi. Onlar müsəlmanların müvəffəqiyyət və uğurlarının qarşısını almaq üçün müxtəlif hədiyyələrlə Nəcaşinin yanına gəldilər. Ancaq onun yanına girməmişdən əvvəl bəzi vəzifəli insanlarla da görüşüb sabahkı məclisdə onların sözlərini təsdiqləmələrindən ötrü müxtəlif hədiyyələrlə onları ələ aldılar.

Səhərisi gün onlar şahın qəbuluna gəldilər. Nəcaşi soruşdu: “Sizin bura gəlməkdə məqsədiniz nədir?” Əmr ibn As dedi: “Bizi sənin yanına Məkkənin böyükləri göndərib. Bizim camaatın içərisində bir dəstə ağılsız cavanlar var idi. Onlar bizim böyüklərimiz və

ağsaqqallarımızla müxalifətçilik edirdilər. Bizim ata-baba dinimizdən imtina edərək ibadət etdiyimiz bütləri belə təhqir etməyə başlamışdılar. Onlar camaat arasında fitnə toxumu səpərək ikitirəlik yaradıblar. İndi isə bizim ölkədən qaçıb buraya gəlmşlər. Sənin mülayimliyindən və ürəyiaçıqlığından istifadə edərək burada Həbəşistanda özləri üçün bir cəmiyyət də yaradıblar. Bizim qorxumuz budur ki, onlar sizin ölkəni də bərbad vəziyyətə salarlar. Camaat apasına ixtilaf salıb fitnə-fəsad törədərlər. Təklifimiz budur ki, onları bizə verəsiniz və biz də onları aparıb böyüklərimizə təhvil verək.” Bu sözlərdən sonra isə gətirdikləri hədiyyələri şaha təqdim edib, şahın nə deyəcəyini gözlədilər. Nəcaşi onlara baxıb dedi: “Mən bir söz deyə bilmərəm. Sabah onların nümayəndələri də, siz də gələrsiniz, birlikdə söhbət edərik. Hər iki tərəfin sözünü eşitdikdən sonra öz nəzərimi bildirəcəyəm.”

Nəcaşi çox ağıllı və uzaqgörən bir insan idi. Onların gətirdikləri hədiyyəni görüb təsir altına düşmədi və odur ki, hər iki tərəfin sözünü eşitdikdən sonra məsələni ədalətli şəkildə yoluna qoymaq istəyirdi. Səhərisi gün bir məclis təşkil edib həm Qüreyşin nümayəndələrini, həm də bu ölkədə hicrətdə olanlardan bir neçə nəfəri dəvət etdi. Onların rəhbəri Cəfər ibn Əbu Talib idi. Nəcaşi Qüreyş nümayəndələrinin sözlərini eşitdiyi üçün bu məclisdə üzünü Cəfər ibn Əbu Talibə tutaraq dedi: “İndi isə sizin fikrinizi eşitmək istəyirəm.”

Cəfər Peyğəmbərdən(s) tərbiyə aldığından ədəb, əxlaq və qabiliyyətlə ayağa qalxaraq söhbətə başladı: “Öz fikrimi bildirməzdən öncə istərdim ki, bunlardan bir neçə sual soruşulsun. Onlar sualları cavablandırdıqdan sonra öz fikrimi bildirərəm.” Nəcaşi dedi: “Soruşa bilərsən. Cəfər dedi: Birinci sualım budur: Onlardan soruşun ki, biz

onların quluyuqmu? Bu sualı Qüreyşin nümayəndələrinə verdilər. Əmr ibn As dedi: Xeyr, siz bizim qulumuz deyilsiniz. Siz azad insanlarsınız. Cəfər dedi: Bəlkə bizim sizə borcumuz var? Əmr ib As dedi: Xeyr, sizin bizə indiyə qədər heç bir borcunuz olmayıb. Cəfər dedi: Bəlkə sizlərdən kimisə öldürüb, kiminsə qanını tökmüşük? Əmr ibn As dedi: Xeyr, siz bizdən heç kəsi öldürüb qanını tökməmisiniz. Cəfər üzünü onlara tutub dedi: Elə isə bizdən nə istəyirsiniz? Əgər sizin qulunuz deyiliksə, sizə borcumuz yoxdursa, sizdən kimisə öldürməmişiksə sizə nə dəxli var ki, biz harada yaşayırıq? Siz Məkkədə bizə olmazın işgəncələr vermisiniz. Sizin əlinizdən hicrət edib bu ölkəyə gəlmişik. Burada da bizdən əl çəkmək istəmirsiniz. Cəfər ibn Əbu Talib bu sözlərdən sonra üzünü Nəcaşiyə tutaraq öz fikrini bildirərək dedi:

-Biz Məkkədə bir dəstə cahil və nadan insanlar idik. Biz bütpərəstlik yolunu azmış bir dəstə idik. Bir zamanlar murdar heyvanların ətini yeyirdik. Pis işlərlə məşğul olub camaatın haqqını tapdalayırdıq. Heç bir kəsə rəhm etməz, qonşularımızla pis rəftar edirdik. Bir-birimizlə insan kimi rəftar etmirdik. Güclülərimiz zəiflərimizə zülm edirdilər. Belə bir dövrdə Allah içimizdən bir nəfəri bizə peyğəmbər təyin etdi. Peyğəmbər gəlib bizi bütpərəstlikdən çəkindirdi və Allaha pərəstiş etməyə dəvət etdi. O, bizi bütün azğınlıqlardan, pozğunluqlardan, əxlaqsızlıqlardan, çirkin və pis əməllərdən xilas etdi. İndi biz yaxşı işlər görür və çirkin işlərə əl atmırıq. O, bizi zülm etməkdən çəkindirdi. Əvvəl biz qumar oynayardıq, indi isə bu işlərlə məşğul olmuruq. İndi biz Allaha səcdə edib namaz qılırıq. Yoxsullara Peyğəmbərin(s) təyin etdiyi miqdarda öz malımızdan paylayırıq. Camaat arasında ədaləti icra edirik. Ehsan etməklə, yaxşı işlər görməklə məşğuluq.

Bütün qohum-əqrəbaya əlimizdən gələn köməyi edirik. Sənin bizim haqqımızda fikrin nədir?

Nəcaşi məsihi olduğundan bir az fikirləşib belə dedi: “Sizin bütün bu dedikləriniz İsanın(ə) gətirdiyi kitabdakı sözlərdir. İsa(ə) da öz ümmətini bu kimi xüsusiyyətlərə dəvət edirdi. Sizin danışdıqlarınız İsanın(ə) bizə öyrətdiyi sözlərdir. Sizin Peyğəmbəriniz(s) özü ilə kitab da gətiribmi? Cəfər dedi: Əlbəttə. Nəcaşi dedi: O kitabdan bir neçə cümlə oxuya bilərsinizmi? Cəfər ibn Əbu Talib “Məryəm” surəsindən bir neçə ayəni onun üçün oxudu. Həmin ayələr Həzrət İsa(ə) və anası Məryəmin(s.ə) müqəddəs və pak olduğundan bəhs edir. Allah-təala onları hər cür töhmət və iftiradan pak edib. Quranın bu ayələri Nəcaşiyə çox böyük təsir göstərdi. O dedi: “And olsun Allaha ki, bu ayələrdə həqiqəti görürəm.” Əmr ibn As bütün işlərinin alt-üst olduğunu görüb danışmaq istədi. Ağzını açmamış Nəcaşi onun üzünə möhkəm bir şillə ilişdirdi və dedi: “Onların hədiyyələrini gətirib özlərinə qaytarın və Həbəşistandan rədd edin.” Sonra o, üzünü Cəfər ibn Əbu Talibə tutub dedi: “Həbəşistanda istədiyiniz qədər qala bilərsiniz. Hər hansı bir problemlə üzləşdikdə çəkinmədən mənə deyə bilərsiniz. Sizin çətinliklərinizi hər zaman həll etməyə hazıram. Heç kəsin sizə əl qaldırmağa və artıq-əskik söz deməyə ixtiyarı yoxdur.”

Müsəlmanlar bir müddət Həbəşistanda yaşadılar. Onların sayı gündən-günə çoxalırdı. Aylar ötdü, illər keçdi Peyğəmbər(s) Məkkədən Mədinəyə hicrət etdi. Orada müsəlmanların vəziyyəti yaxşılaşdı. O zaman Hüdeybiyyə sülhü imzalandı və əhdnamələr bağlandı. Həbəşistanda olanlar da qayıdıb Peyğəmbərə(s) qoşuldular. Həmin ərəfədə Xeybər qalası da yenicə fəth olunmuşdu. Cəfər ibn Əbu Talib gələndə Həzrət Peyğəmbər(s) buyurdu:

“Bilmirəm, Xeybərin fəthinə sevinim, yoxsa Cəfərin belə şövkətlə gəlişinə sevinim.”

Cəfər və onunla hicrət edən müsəlmanlar artıq böyük bir cəmiyyətə çevrilmişdilər. Onlar çox böyük əzab-əziyyətlərlə öz imanlarını qoruyub saxlamışdılar. Bütün işgəncələrə, əziyyətlərə dözərək axırda gəlib Peyğəmbərə(s) qovuşdular. Allah-təala “Maidə” surəsinin 73-74-cü ayələrini orada nazil etdi:

وَإِذَا سَمِعُواْ مَا أُنزِلَ إِلَى الرَّسُولِ تَرَى أَعْيُنَهُمْ تَفِيضُ مِنَ الدَّمْعِ مِمَّا عَرَفُواْ مِنَ الْحَقِّ يَقُولُونَ رَبَّنَا آمَنَّا فَاكْتُبْنَا مَعَ الشَّاهِدِينَ. وَمَا لَنَا لاَ نُؤْمِنُ بِاللّهِ وَمَا جَاءنَا مِنَ الْحَقِّ وَنَطْمَعُ أَن يُدْخِلَنَا رَبَّنَا مَعَ الْقَوْمِ الصَّالِحِينَ

-Onlar Peyğəmbərə nazil olanı eşidən zaman haqqı tanıdıqları üçün gözlərindən yaş axdığını görərsən. Onlar deyərlər: “Ey Rəbbimiz, iman gətirdik, odur ki, bizi (daim Sənin hüzurunda) şahid olanlardan (və axirət aləminin şahidlərindən) et!”

“Rəbbimizin bizi salehlərin dəstəsinə daxil və onlarla birgə etməsinə göz dikdiyimiz halda bizə nə olub ki, Allaha və haqdan bizə gələnə iman gətirməyək?”

Onların Allaha olan ümidləri və tamahları doğru və müsbət tamahdır. Çünki onlar Allaha iman gətirdilər, hicrət etdilər, Allahın buyurduqlarına əməl edərək ibadət etdilər. Ümidləri var ki, saleh insanların zümrəsinə daxil olub onlarla birgə cənnətə göz dikmişdilər.

c)Tamahın birinci qisminin üçüncüsü isə insanın Allahın dünya nemətlərinə tamah salmasıdır. Məsələn, əgər insan Allahdan özü üçün ruzi və dünya nemətləri istəyirsə, bu, bəyənilmiş bir əməldir. Bu barədə də bir sox

hədis və rəvayətlər vardır. Nümunə üçün bir neçəsinə diqqət yetirək:

قَالَ رَسُولُ اللهُ(ص): مَن أَرادَ اَن يَكُونَ اَغنَى النَّاس فَليَكُن بِمَا فِي يَدِ اللهِ اَوثَق مِنهُ بِمَا فِي يَد غَيرِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs insanların ən varlısı olmaq istəyirsə, elə isə yalnız Allahın əlində olanlara tamah salsın (Allaha ağız açsın) və başqalarının əlində olanlara göz dikməsin."[1]

Ərəfə günü bir nəfər İmam Səccadın(ə) hüzuruna gəlib ərz etdi: "Ey Allahın höccəti, mənim maddi yardıma ehtiyacım var. Həzrət(ə) ona buyurdu: Bu gün Allahın rəhmət qapılarının açıldığı bir gündür. Elə bir gündür ki, dualar qəbul olunar. Nə üçün dua edib Allahdan istəmirsən?"

Böyük alimlərdən biri ərəfə günü həmin çöldə "Ərəfə" duasını oxuduqdan sonra dedi: "Mən bu gün heç bir kəsdən mənə dua etməyi xahiş etməyəcəyəm. Sizə də məsləhət görürəm ki, heç bir kəsdən özünüzə dua edilməsini təmənna etməyin. Bu gün elə bir gündür ki, bütün istəklərinizi birbaşa Allahın Özündən istəyin. (Çünki ərəfə günü göyün bütün qapıları insanların üzünə açıq olur.)"

Buna görə də insan Allahdan dünyasının abadlığını, ruzi-bərəkət, əzəmət istəyərsə və Onun nemətlərinə göz dikərsə, bu, çox gözəl bir işdir.

## İnsanın başqalarının əlindəkinə

[1] Üsuli-kafi, 3-cü cild, səh. 208.

## tamah salması

Tamahın ikinci qismi isə insanın gözünün başqalarının əlində olmasıdır. İnsan başqalarının əlində olanlara tamah salmamalıdır. Camaatın əlində olanlara tamah salmaq çox pis şeydir. Bu tamah insanın qəlbindəki iman və yəqinliyi aradan qaldırır. Bu barədə də bir çox hədis və rəvayətlər nəql olunmuşdur.

قَالَ الإِمَام الهَادِى(ع): اَلطَّمَعُ سَجِيَّةٌ سَيِّئَةٌ

-İmam Hadi(ə) buyurur: “Tamah çirkin xislətdir.”[1]

Hədislərdə belə nəql olunur ki, təqvalı olmaq insanın imanını artırar. Lakin insan tamahkar olduqda isə imandan çıxar. Yəni şeytan tamahkar insanı iman evindən çıxardar.

Södan deyir: “Bir gün İmam Sadiqdən(ə) soruşdum: Ey Allahın höccəti, insanın imanını möhkəmləndirən amil nədir? Həzrət(ə) buyurdu: Təqvalı olmaq. Soruşdum: İnsanı imandan çıxaran amil nədir? Buyurdu: Tamah.”

## Maraqlı hekayət

Günlərin birində bir nəfər bir sərçə tutmuşdu. Sərçə ona dedi: “Məni nə üçün tutmusan?” O dedi: “Sənin başını kəsdikdən sonra ətini bişirib yeyəcəyəm.” Sərçə dedi: “Mənim nə ətim var ki, sən onu bişirib yeyəsən? Əgər məni öldürüb yemək istəsən, sənin dişinin dibində qalacağam. Qarnın da doymayacaq. Məni buraxsan, dərdinə dəyən üç hikmətli söz öyrədərəm. Birini əlində olan zaman, birini uçub ağaca qonan zaman və birini də uçub gedərkən deyərəm.”

Həmin şəxs onunla razılaşdı. Sərçə birinci sözü dedi: “Sənə nəsihət edirəm ki, əlindən çıxan heç bir şeyə görə

---

[1] Mizanül-hikmə (t.v.), 7-ci cild, səh.3310.

təəssüflənmə.” Sərçəni tutanın bu sözdən çox xoşu gəldi və onu buraxdı. Sərçə uçub ağaca qondu və dedi: “Ey biçarə, məni nə üçün əlindən buraxdın? Əgər sən məni kəsib yesəydin, mənim çinədanımdakı iyirmi misqal qızılı görəcəkdin.” Həmin şəxs sərçənin bu sözünü eşitdikdə onu əldən buraxdığı üçün çox təəssüflənib dodağını dişlədi. İşin işdən keçdiyini görüb dedi: “İndi isə üçüncüsünü de. Sərçə dedi: Ey ağılsız, mənim cəmi iki misqal çəkim var. Necə ola bilər ki, çinədanımda iyirmi misqal qızıl olsun? Bəs mən sənə demədimmi əlindən çıxan heç bir şeyə görə təəssüflənib peşman olma? Sən mənim nə birinci sözümə qulaq asdın, nə də ikinci sözümə. Üçüncü sözüm isə sənin dərdinə dəyməz.” Sərçə bu sözləri dedikdən sonra uçub getdi.[1]

Bu məsəli ona görə çəkmişlər ki, insanın əlindən hər nə çıxırsa-çıxsın, gərək peşman olmasın. İnsan əlindən çıxan dünya malı və s. üçün təəssüflənərsə imanı zəifləyər. İnsan həmişə öz gələcəyini fikirləşməli və aqibətinin xeyirli olması üçün çalışmalıdır. Tamah insanın qəlbindəki iman və yəqinliyi zəiflədib aradan qaldırır.

### 3.Hərislik

İnsanın qəlbindəki iman və yəqinliyi günbəgün zəiflədib aradan aparan amillərdən biri də hərislikdir. Hərislik barədə çox danışmaq olar. İnsana məxsus olan bu xislət barədə Peyğəmbərdən(s) və imamlardan bir çox hədislər nəql olunmuşdur. İlk öncə hərisliyin insanın imanına mənfi təsiri haqda olan bir neçə hədisə nəzər salaq.

---

[1] Tarixin eşitməli əhvalatları, səh.327.

قَالَ عَلِيٌّ(ع): اَلْحِرصُ يُفسِدُ الإِيقَانَ

-İmam Əli(ə) buyurur: “Hərislik yəqinlikləri (qəlbdəki imanları) aradan qaldırır.” [1]

قَالَ عَلِيٌّ(ع): مَن كَثُرَ حِرصُهُ قَلَّ يَقِينُهُ

-İmam Əli(ə) buyurur: “Hər kəsin hərisliyi çoxalsa, yəqinliyi (qəlbindəki imanı) azalar.” [2]

قَالَ عَلِيٌّ(ع): طَاعةُ الْحِرص تُفْسِدُ اليَقِين

-İmam Əli(ə) buyurur: “Hərisliyə itaət etmək yəqinliyi (qəlbdəki imanı) məhv edər.[3]

Bu hədislərdən tam aydın şəkildə başa düşürük ki, hərislik insanın qəlbində qərar tutan iman və yəqinliyi zəiflədib aradan qaldırır. Burada çox yaxşı olar ki, hərisliyin mənası ilə tanış olaq.

---

[1] Mizanül-hikmə (t.v.), 14-cü cild, səh.7182.
[2] Yenə orada.
[3] Mizanül-hikmə (t.v.), 14-cü cild, səh.7182.

## Hərislik nədir?

Hərislik daxildə olan nəfsani sifətlərdən biri olub ehtiyacı olmadığı halda belə insanı mal-dövlət toplamağa vadar edir. Həmçinin bu xislətin müəyyən bir həddi də yoxdur. Yəni həris insan hər nə qədər mal-dövlət toplayırsa, yenə də tələb edir və müəyyən bir hədlə kifayətlənmir. Hərislik şor su kimidir ki, içdikcə insanı suzadır. Bu nəfsani xislət insanın ürəyində dünya məhəbbətinin çoxalmasına səbəb olan və insanı dünyaya bağlayan əsas amillərdən biridir.

قَالَ عَلِيٌّ(ع): اَلْحِرصُ عَناءٌ مُؤَبَّدٌ

-Həzrət Əli(ə) buyurur: “Hərislik əbədi əziyyətdir.”[1]

قَالَ عَلِيٌّ(ع): اَلْحِرصُ أَحَرٌّ مِنَ النَّار

-Həzrət Əli(ə) buyurur: “Hərislik oddan da yandırıcıdır.”[2]

قَالَ الْبَاقِرُ ع مَثَلُ الْحَرِيصِ عَلَى الدُّنْيَا مَثَلُ دُودَةِ الْقَزِّ كُلَّمَا ازْدَادَتْ مِنَ الْقَزِّ عَلَى نَفْسِهَا لَفّاً كَانَ أَبْعَدَ لَهَا مِنَ الْخُرُوجِ حَتَّى تَمُوتَ غَمّاً

-İmam Baqir (ə) buyurur: “Dünya hərisi olan kimsənin hekayəti barama (ipək) qurdunun hekayətidir. Öz üzərinə nə qədər çox ipək toxuyursa, bir o qədər onun piləden çıxmaq imkanı azalar və nəticədə qəm-qüssədən ölər.”[3]

---

[1] Yenə orada, səh.1104.
[2] Yenə orada, səh.1104.
[3] Yenə orada, səh.1105.

قَالَ عَلِيٌّ(ع): اَلْحِرصُ عَلامَةُ الأَشْقِيَاء

-Həzrət Əli(ə) buyurur: “Harislik bədbəxtliyin əlamətidir.”[1]

قَالَ عَلِيٌّ(ع): مَن كَثُرَ حِرصُهُ كَثُرَ شَقاؤُه

-Həzrət Əli(ə) buyurur: “Hər kəsin hərisliyi çoxalsa, bədbəxtliyi də çoxalar.”[2]

قَالَ عَلِيٌّ(ع): اَشقَاكُم اَحرَصُكُم

-Həzrət Əli(ə) buyurur: “Sizin ən bədbəxtiniz hərislərinizdir.”[3]

قَالَ عَلِيٌّ(ع): رُبَّ حَرِيصٍ قَتَلَهُ حِرصُه

-Həzrət Əli(ə) buyurur: “Nə çox həris insanlar var ki, hərislikləri onların ölümünə səbəb olur.”[4]

## Həzrət İsa(ə) və hərisin hekayəti

Günlərin birində Həzrət İsa Peyğəmbər(ə) bir nəfərlə səfərə çıxmışdı. Bir müddət yol getdikdən sonra həm dincəlmək, həm də yemək üçün bir yerdə əyləşdilər. Həzrət İsa(ə) yol yoldaşına buyurdu: “Get, yaxınlıqda gördüyün kənddən çörək al gətir yeyək.” Həmin şəxs kəndə gedib üç çörək alıb qayıtdı. Qayıdanda gördü ki, İsa(ə) namaz qılır. Süfrə açıb yavaş-yavaş çörəyin birini

---

[1] Mizanül-hikmə (t.v.), 14-cü cild, səh.1106.

[2] Yenə orada.

[3] Yenə orada.

[4] Yenə orada, səh.1104.

yedi. İsa(ə) namazı qılıb qurtardıqdan sonra süfrəyə əyləşib soruşdu: “Çörək üç ədəd idimi? O dedi: Xeyr, cəmi iki çörək aldım.” Onlar çörək yeyib qurtardıqdan sonra yollarına davam etdilər. Yenə bir müddət yol getdikdən sonra çöldə bir neçə ceyran gördülər. Həzrət İsa(ə) o ceyranları yanına çağırdı. Ceyranlar onlara tərəf gəldilər. Onlardan birini tutub kəsdilər. Ceyranın ətindən bir miqdar bişirib yedikdən sonra İsa(ə) yoldaşına buyurdu: “Ceyranın sümüklərini görürsənmi? Dedi: Bəli. Həzrət(ə) buyurdu: İndi isə onlara diqqətlə bax. O, ceyranın yerə səpələnmiş sümüklərinə baxdıqda İsa(ə) buyurdu: Allahın izni ilə qalx.”

Elə bu zaman ceyranın sümükləri bir-birinə birləşib üstünə ət gəldi və o, əvvəlki vəziyyətinə qayıdıb ayağa durdu. Sonra yoldaşına buyurdu: “Allahın qüdrətini gördünmü? O dedi: Bəli, gördüm. İsa(ə) buyurdu: İndi isə de görüm, çörək iki idi, yoxsa üç? O, tərsliyə düşdüyü üçün dedi: İki.” Həzrət İsa(ə) bir söz deməyib yollarına davam etdilər. Bir müddət getdikdən sonra qarşılarına üç kiçik heyvanın dərisi çıxdı. İsa(ə) buyurdu: “Bunların nə olduğunu bilirsənmi? Dedi: Xeyr. İsa(ə) buyurdu: Bunlar balaca heyvanın dərisidir. Onların içi qızılla doludur.” Həmin şəxs çox təəccübləndi və öz-özünə fikirləşdi ki, bundan sonra güzəranımız yaxşılaşacaq. Həzrət İsa(ə) buyurdu: “Bunlardan biri mənim, biri sənin, biri isə üçüncü çörəyi yeyənin. Həmin şəxs dərhal dedi: Üçüncü çörəyi mən yemişdim. İsa(ə) ona baxıb buyurdu: Bu dərilərin hər üçü sənin olsun. Səninlə mənim yoldaşlığım elə bura qədər imiş.” Həzrət(ə) bu sözləri deyib öz yoluna davam etdi.

Həmin şəxs qızılların kənarında əyləşib onları evə aparmaq haqqında fikirləşirdi ki, elə bu vaxt yoldan ötən

üç nəfər ona yaxınlaşdı. Hal-əhval tutduqdan sonra dərilərin içində qızıl olduğunu başa düşdülər. Fikirləşib öz aralarında belə qərara gəldilər ki, onu öldürüb qızılları da öz aralarında bölüşdürsünlər. Qərarlaşdıqları kimi də etdilər. Hərəsi bir dərini götürdü. Orada əyləşib istirahət etmək qərarına gəldilər. Aralarından bir nəfəri ərzaq üçün kəndə göndərdilər. Ərzaq dalınca gedən şəxs kənddən üç çörək aldıqdan sonra çörəkləri zəhərlədi. İstəyirdi ki, həmin iki nəfəri öldürüb qızıllara sahib olsun. O, çörəkləri gətirənə qədər həmin iki nəfər öz arasında sözləşdilər ki, onu öldürüb qızılları öz aralarında bölüşdürsünlər. Elə də etdilər. Onlar kənddən çörək alıb gətirən yoldaşlarını öldürüb qızılları öz aralarında böldülər. Sonra çörək yeyib yollarına davam etmək qərarına gəldilər. Çörəkləri yeyən kimi zəhərlənib öldülər. Beləcə hər dördü oradaca ölüb qaldı. Həzrət İsa(ə) səfərdən qayıdarkən yenə də həmin yoldan keçəndə onları görüb buyurdu: "Dünya öz əhli ilə belə rəftar edər. (Dünyaya həris olanların aqibəti belə olar.)"[1]

Dünyaya həris olanların aqibəti belədir ki, dünya onları öz malı ilə məhv edib öldürür. Bəzi insanları tarixdə gördüyümüz kimi belə, bəzisini isə başqa cür öldürür. Məsələn, dünyanı qazanıb axırda da bir şey əldə etmədən məhv olub aradan gedirlər. Odur ki, hərislik elə bir xüsusiyyətdir ki, bu xəstəliyə tutulan insan heç bir vaxt dünya malından doymayacaq.

قَالَ الصّادِقُ(ع): مَنهُومَانِ لا يَشبعَان مَنهُومُ عِلمٍ وَ مَنهُومُ مَالٍ

[1] 500 dastan kitabı,1-ci cild, səh.194.

-İmam Sadiq(ə) buyurur: “İki qarınqulu heç bir vaxt doymaz: elm axtaran və mal-dövlət axtaran (həris insan).”[1]

قَالَ رَسُولُ اللهِ(ص): يَشِيبُ اِبنُ آدَم وَ تَشُبُّ فِيهِ خِصلَتَان. اَلْحِرص وَ طولُ الأَمَل

-Həzrət Peyğəmbər(s) buyurur: “Adəm övladı qocaldıqca, onda olan iki xüsusiyyəti cavanlaşar: biri uzun-uzadı arzular, biri isə hərislik.”

Günlərin birində Harun ər-Rəşid dedi: “Görəsən, bu dövrdə Peyğəmbəri(s) gözləri ilə görüb onun kəlamını eşidən bir insan tapılarmı?” Həmin vaxt Peyğəmbərin(s) vəfatından təxminən 120 ildən çox keçmişdi. Harunun bu sözünü eşitdikdə hamı bir-birinin üzünə baxıb təəccübləndi. Saray işçiləri Harunun bu göstərişinə əməl etmək üçün şəhərdə axtarış aparmağa başladılar. Nəhayət, qocalıb əldən düşmüş bir kişi tapdılar. Ondan soruşdular: “Sən Peyğəmbəri(s) gözlərinlə görmüsənmi? Dedi: Əlbəttə ki, görmüşəm. Dedilər: Sən o Həzrətin(s) dilindən hədis eşitmisənmi? Dedi: Bəli.” Harunun adamları onu bir zənbilin içinə qoyub saraya gətirdilər.

Harun ondan soruşdu: “Əmi, sən Peyğəmbəri(s) görmüsənmi? Qoca dedi: Bəli, görmüşəm. Harun dedi: Peyğəmbərdən(s) hədis eşitmisənmi?” Qoca dedi:

-Mən kiçik bir uşaq idim. Bir gün atam əlimdən tutub məni Peyğəmbər(s) məscidinə apardı. Peyğəmbər(s) minbərdə xütbə oxuyurdu. Onun bir sözü mənim yadımda qalıb. Həzrət(s) buyurdu ki, insan qocaldıqca onda olan iki

[1] Mizanül-hikmə (t.v.),14-cü cild, səh.1108.

xüsusiyyət cavanlaşar: biri uzun-uzadı arzular, biri isə tamah və hərislik.

Harun bunu eşidib sevindi. Ona görə sevindi ki, Peyğəmbərin(s) dilindən bilavasitə hədis eşitmiş bir insanı görürdü. Əmr verdi ki, qocaya yaxşı bir hədiyyə versinlər. Gətirib ona qızıl verdilər. Qocanı yenidən zənbilin içərisinə qoyub apardılar. Yolda qoca kişi dedi: “Mənim Haruna deyəsi sözüm var. Orada yadımdan çıxmışdı, lakin indi yadıma düşdü.” Qulluqçular bu xəbəri Haruna çatdırdılar. Harun dedi: “Qocanı geri qaytarın. Görüm onun mənə nə sözü var?” Qocanı gətirdilər. Harun soruşdu: “Əmi, mənə nə söz demək istəyirsən? Qoca dedi: Mənə verdiyin bu bəxşiş birdəfəlikdir, yoxsa hər il yenə verəcəksən? Harun gülümsəyib dedi: Həqiqətən də Peyğəmbər(s) düz buyurmuşdur: İnsan qocaldıqca hərisləşir və tamahı daha da artıb güclənir.”

Sultan Mahmud Qəznəvi böyük şahlardan biri idi. O, dünyasını dəyişdikdən sonra Xorasan şahlarından biri onu yuxuda görür. Görür ki, onun bütün bədəni çürüyüb, lakin gözləri olduğu kimi baxırdı. Yuxudan ayıldıqdan sonra bütün bədəninə titrəmə düşür. Belə bir yuxu onu fikir dəryasına qərq edir. Bir çox yuxu yozan gəlir, lakin onun bu yuxusunu yoza bilmirlər. Axırda gedib təcrübəli və peşəsi yuxu yozmaq olan qoca bir kişini tapırlar. Şahın yuxusunu ona danışırlar. Qoca deyir: “Bu yuxunu yozmaq çox asan işdir. Şahın yuxusunun mənası budur ki, Sultan Mahmud Qəznəvi dünyadan gedib, amma hələ də gözləri səltənətində qalıb.”

## Loğmanın oğluna vəsiyyəti

Loğman öz oğluna həmişə hikmətli nəsihətlər verərdi. Allah-təala onun adına Quranda bir surə də nazil

etmişdir. Həzrət Loğmanın dünya nemətləri və var-dövlət yığanlar haqda oğluna etdiyi nəsihət barədə İmam Sadiq(ə) belə buyurur:

يا بني!.. إن الناس قد جمعوا قبلك لأولادهم ، فلم يبق ما جمعوا، ولم يبق من جمعوا له، وإنما أنت عبد مستأجر قد أُمرت بعمل ووُعدت عليه أجرا، فأوف عملك واستوف أجرك، ولا تكن في هذه الدنيا بمنزلة شاة وقعت في زرع أخضر، فأكلت حتى سمنت، فكان حتفها عند سمنها، ولكن اجعل الدنيا بمنزلة قنطرة على نهر جُزت عليها وتركتها ولم ترجع إليها آخر الدهر، أخربها ولا تعمّرها فإنك لم تؤمر بعمارتها ، واعلم أنك ستسأل غدا إذا وقفت بين يدي الله عز وجل عن أربع: شبابك فيما أبليته، وعمرك فيما أفنيته، ومالك مما اكتسبته، وفيما أنفقته فتأهّب لذلك، وأعدّ له جوابا، ولا تأس على ما فاتك من الدنيا...

-Oğlum, sənin zamanından əvvəl yaşayanlar öz övladları üçün mal-dövlət yığdılar. İndi isə nə həmin mal-dövləti yığanlar qalıb, nə də həmin mal-dövlətə sahib olan övladlar qalıb. Məgər sən bu dünyada əcir tutulmuş müəyyən vaxta qədər iş görüb muzdunu alacaq kəs deyilsənmi? Belə isə işlərini ətraflı və mükəmməl qaydada yerinə yetir.

Bu dünyada çəmənliyə düşmüş və orada yamyaşıl otları otlayıb kökələn qoyun kimi olma. Çünki qoyun nə qədər tez kökəlsə, bir o qədər tez qəssabın bıçağına yaxınlaşar. Buna görə də dünyanı çay üstündə olan bir

körpü hesab et. Belə ki, onun üstündən keçib gedirsən və onu (körpünü) arxada qoyursan.

Bunu da bil ki, tezliklə Allahın hüzuruna gedəcəksən. Orada səndən dörd şey barədə sorğu-sual ediləcək: Cavanlığını harada sərf etdiyindən; Ömrünü harada və necə keçirdiyindən; Malını haradan qazandığından və harada xərclədiyindən. Elə isə özünü bu sorğu- suala hazırlaşdır və dünyada (dünya malından) əlindən çıxan heç bir şey üçün təəssüflənmə.[1]

Bütün bu hədis və rəvayətlər insanlara dünyanın malına, sərvətinə qarşı həris olmamağı başa salır və həris insanın aqibətinin necə nəticələnəcəyindən xəbər verir. Dünyanın mal-dövləti onun üçündür ki, insan müəyyən miqdar qazanıb öz yaşayışını təmin etsin. İnsan dünyada mal-dövləti ona görə qazanır ki, öz abrını qoruyub saxlasın. Mal-dövlət onun üçündür ki, insan ehtiyac üzündən başqasına möhtac olmasın. İnsan mal-dövləti özünü və ailəsini dolandırmaq üçün qazanır və bütün bunlar insana son dərəcə vacibdir. Lakin mal-dövlətin qazanılmasında insan heç bir günaha əl atmamalıdır. Əgər insan bu yolda günaha batarsa ziyana uğrayacaq. Günahla qazanılan var-dövlətdən heç bir kəs xeyir görməyib və görməyəcək də. Buna görə də az da qazansa, gərək halal yolla qazansın. Ondan artığına da tamah edib imanını əldən buraxmasın. İnsan mal-dövlət naminə öz imanından keçməməlidir. Çünki əvvəl-axır dünyanın sonu çatacaq və insanın qazandıqlarının hamısı da dünya ilə birlikdə yox olacaqdır. İnsana qalan isə yalnız onun imanı olacaq. Bu dünyanın malına həris olan insanın gözü heç bir vaxt

[1] Üsuli-kafi, 3-cü cild, səh.202.

doymaz. Hərislik elə pis xüsusiyyətdir ki, insanın qəlbindəki iman və yəqinliyi məhv edir.

Həzrət İsa Peyğəmbər(ə) bir tayfanın acınacaqlı aqibətini (bəlaya düçar olduğunu) görüb buyurdu: "İnsanın öz qarnını torpaqla doldurması haram malla doldurmasından daha yaxşıdır."

### 4. Dünya və dünyanın malı

İnsanın qəlbində qərar tutan iman və yəqinliyi zəiflədib aradan aparan amillərdən dördüncüsü dünyaya və dünya ilə əlaqəli olan hər bir şeyə məhəbbət bəsləməkdir. Əgər insan bu dünyaya və dünyanın bəzək-düzəklərinə ürək bağlasa, onun iman və yəqinliyi günü-gündən zəifləyib aradan gedər.

قَالَ عَلِيٌّ(ع):حُبُّ الْمَال يُوهَنُ الدِّين وَ يُفسِدُ اليَقِين

-Həzrət Əli(ə) buyurur: "Dünya malını sevmək insanın dinini korlayıb yəqinliyini (imanını) əlindən alar."[1]

قَالَ عَلِيٌّ(ع): اِذَا أَحَبَّ اللهُ سُبحَانَهُ عَبدًا بَغَّضَ اِلَيهِ الْمَال وَ قَصَّرَ مِنهُ الآمَال. اِذَا اَرَادَ اللهُ بِعَبدٍ شَرًّا حَبَّبَ اِلَيهِ الْمَالَ وَ بَسَطَ مِنهُ الآمَال

-Həzrət Əli(ə) buyurur: "Sübhan olan Allah bəndəni sevdikdə dünya malının məhəbbətini ürəyindən çıxarar və

[1] Mizanül-hikmə (t.v.), 14-cü cild, səh.7182.

arzularını qısaldar. Acığı gəldiyi bəndənin qəlbini isə dünya məhəbbəti ilə doldurub arzularını çoxaldar.”[1]

Burada dünya malının mənasını bir qədər izah etməyə ehtiyac duyulur. Ancaq mövzudan kənara çıxmamaq üçün bəzi hədislərlə məsələni açıqlayaq. Ümumiyyətlə, insanın fitrətində məhəbbət vardır və insanın imanını saxlaması üçün bu məhəbbətin hamısı ona lazımdır. Əgər bir kimsə ürəyində olan bu məhəbbəti bölüşdürsə, iman üçün kifayət etməyəcək. Eşq və məhəbbət barədə söhbət açası olsaq, o zaman ayrıca bir mövzuya başlamaq lazım gələcəkdir. Buna görə də hələlik bir neçə cümlə ilə kifayətlənməyimiz bəs edər. Dünya və mal-dövlətə olan məhəbbət insanın imanını ona görə zəiflədir ki, məhəbbətin bir hissəsini, bəzən də hamısını insanın əlindən alır.

قَالَ عَلِيٌّ(ع): اَلمَالُ يَرفعُ صَاحِبَهُ فِي الدُّنيَا وَ يَضَعُهُ فِي الآخِرَة

-Həzrət Əli(ə) buyurur: “Mal-dövlət öz sahibini dünyada ucaldar və axirətdə isə zəlil edib alçaldar.”[2]

Dünyanın mal-dövlətini yığan insanlar həmişə pulları ilə qürrələnir və özlərini hamıdan üstün hesab edirlər. Elə başa düşürlər ki, var- dövlətli olmaq insan üçün fəxrdir. Axirətdə isə əksinə olaraq insan həmin mal-dövlətin hesab-kitabını verməli olacaqdır. Deməli, axirətdəki əsas və meyarlar dəyişiləcək. Yəni əgər dünyada mal-dövlət insan üçün ucalıq hesab olunurdusa, axirətdə bu onu zəlil və xar edəcək. Dünyada dünya malına görə əziz və hörmətli olan həmin insan axirət günü bax beləcə xar

[1] Yenə orada, 12-ci cild, səh.5720.
[2] Mizanül-hikmə (t.v.), 12-ci cild, səh.5716.

olacaqdır. Çünki bütün o mal-dövlətin hamısının hesab-kitabı verilməlidir. İnsan son anda haradan qazandığı, hara xərclədiyi, qazandığı pulların vasitəsilə hansı oyunlardan çıxdığı haqda sorğu-sual olunacaqdır.

قَالَ رَسُولُ الله(ص): اَلدِّينَار وَ الدِّرهَم اَهلَكَا مَن كَانَ قَبلَكُم وَ هُمَا مُهلِكَاكُم

-Allahın Peyğəmbəri (s) buyurur: "Dinar və dirhəm sizdən əvvəlkiləri məhv etdi. Bu ikisi sizi də məhv edəndir."

İnsan diqqətlə tarixə baxsa, görər ki, pul, dinar və dirhəm insanları necə məhvə sürükləyir. Bütün bunlar insan üçün ibrət dərsləridir. İnsan başa düşməlidir ki, dünyanın var-dövlətinə məhəbbət bəsləyənlərin hamısı bədbəxt olub aradan getdilər. Onlar dinar və dirhəmə ürək bağlayıb imandan əl götürdülər. Şeytan dünyanın pul-parası ilə çox insanları bədbəxt etmişdir.

İbn Abbas Peyğəmbərdən(s) belə bir hədisi nəql edir: "Dinar və dirhəm ilk dəfə yer üzündə hazırlandığı zaman şeytan əvvəlcə onlara baxdı. Sonra onları müayinə edib diqqətlə gözdən keçirdi. Daha sonra onları götürüb gözünün üstünə qoydu. Onları sinəsinə sıxıb sevincindən uca səslə qışqıraraq dedi: Siz (dinar və dirhəm) mənim gözlərimin işığı və ürəyimin meyvəsisiniz. Adəm övladı sizi sevdikdən sonra artıq mənim heç bir qəmim qalmayacaq. İstəyir bütə ibadət etsinlər, istəyir etməsinlər sizin (dinar və dirhəmin) vasitəsilə onları yoldan çıxarmaq mənim üçün çox asan olacaq. Adəm oğlunun dinar və dirhəmi sevməsi mənə bəs edər."[1]

---

[1] Mizanül-hikmə (t.v.), 12-ci cild, səh. 5718.

Qeyd etmək lazımdır ki, şeytan həmişə insanları bütpərəstliyə tərəf çəkmək istəyib. Bütün peyğəmbərlər isə insanları bütpərəstlikdən çəkindirərək Allaha pərəstiş etməyə çağırıblar. Şeytan isə mübarizə aparıb insanları pütpərəstliyə tərəf yönəldib. Hər insan Allaha pərəstiş etmək istədikdə şeytan onu çaşdıraraq yoldan çıxarmağa cəhd göstərib. Dinar və dirhəm meydana gəldikdən sonra onların vasitəsilə insanları düz yoldan azdırmağa başladı.

Allah-təala "Huməzə" surəsinin 1-6-ci ayələrində belə buyurur:

وَيْلٌ لِّكُلِّ هُمَزَةٍ لُّمَزَةٍ. الَّذِي جَمَعَ مَالًا وَعَدَّدَه. يَحْسَبُ أَنَّ مَالَهُ أَخْلَدَه. كَلَّا لَيُنبَذَنَّ فِي الْحُطَمَةِ. وَمَا أَدْرَاكَ مَا الْحُطَمَةُ. نَارُ اللَّهِ الْمُوقَدَةُ

-İnsanlarda eyib axtarmağa adət edən və başqaları haqqında pis danışan hər bir kəsin vay halına. O kəs ki, mal yığıb onu dönə-dönə sayar (və bu mal-dövləti necə əldə edib, necə xərcləmək barədə Allahın əmrinə heç bir əhəmiyyət verməz). Və elə zənn edər ki, mal-dövlət onu əbədi yaşadacaqdır (və ölüm, yaxud bədbəxt hadisələr onu haqlamayacaqdır). (Xeyr,) belə deyildir, şübhəsiz, o hutəməyə (əzən oda) atılacaqdır. Və sən nə bilirsən ki, hutəmə nədir?! O, Allahın yanar odudur.

Belə insanlar yığdıqları və xərclədiklərində halal-harama riayət etməzlər. İnsan qazancının və xərclədiyinin halal-haramlığında çox diqqətli olmalıdır. Çünki dünya malının istifadəsi bəzi yerlərdə halal, bəzi yerlərdə isə haramdır. Hər bir insan dünya malından istifadədə halal-harama riayət etməlidir. Məsələn, halal mal-dövlət barədə "Cümə" surəsində belə oxuyuruq:

فَإِذَا قُضِيَتِ الصَّلَاةُ فَانتَشِرُوا فِي الْأَرْضِ وَابْتَغُوا مِن فَضْلِ اللَّهِ

-Və namaz qurtardıqda yer üzünə dağılışın və Allahın kərəmindən istəyin (iş və ruzi dalınca gedin).[1]

Bu ayədə dünya malını qazanmaq üçün çalışmaq Allahın fəzl və kərəmidir. Deməli dünya malının adı Allahın kərəmidir. Digər bir ayədə isə dünya malının adı “xeyir” adlandırılır.

كُتِبَ عَلَيْكُمْ إِذَا حَضَرَ أَحَدَكُمُ الْمَوْتُ إِن تَرَكَ خَيْرًا الْوَصِيَّةُ

-Sizin üçün belə yazılıb və qərara alınıb ki, birinizin ölümü çatan zaman, əgər özündən sonra bir mal qoyursa, öz ata-anası və yaxınları üçün (İslam şəriətində müəyyən edilmiş mirasdan əlavə) gözəl bir tərzdə vəsiyyət etsin.[2]

Bu ayədə açıq-aydın dünya malının xeyir olduğu bəyan edilir. Bunun mənası odur ki, əgər insan dünya malını əldə edərkən Allahın qayda-qanunlarını pozmursa, dünya malına qoyulan hədləri aşmırsa, deməli bu, Allahın kərəmi, xeyir və bərəkətidir. Amma əgər insan həmin dünya malını günaha batmaqla, haqları tapdalamaqla, zülm etməklə və s. haram işlər görməklə əldə edirsə, onun qazandığı dünya malı şeytanın istədiyi və öpüb gözünün üstünə qoyduğu həmin mal-dövlətdir. Bu dünya malının da həddi belədir:

يَحْسَبُ أَنَّ مَالَهُ أَخْلَدَه.

[1] Cümə surəsi, ayə 10.
[2] Bəqərə surəsi, ayə 180.

-Və elə zənn edər ki, mal-dövlət onu əbədi yaşadacaqdır (və ölüm, yaxud bədbəxt hadisələr onu haqlamayacaqdır).[1]

Dünyanın mal-dövlətini yığanlar elə güman edirlər ki, yığdıqları bu mal onları ölümdən, xəstəliklərdən, bəlalardan qoruyub saxlayacaq. Daha başa düşmürlər ki, insanı saxlayan mal-dövlət yox, Allahdır. Əgər Allah istəsə onları mal-dövləti ilə birgə bir anın içində məhv edər. Allah-təala Quranda belə insanların aqibətinin necə olacağını bizlərə açıq-aydın şəkildə göstərir. Mal-dövlətinin çoxluğu ilə tanınmış və bircə anın içində məhv edilmiş insanlardan biri də Qarun idi. O, həm dırnaqarası alim, həm də çox sərvətli bir insan idi. Allah-təala ona həddindən artıq çoxlu mal-dövlət vermişdi. Onun minlərlə işçisi var idi və onun xəzinələrinin açarlarını neçə nəfər daşıyırdı. Quranda onun əhvalatını belə oxuyuruq.

فَخَرَجَ عَلَى قَوْمِهِ فِي زِينَتِهِ قَالَ الَّذِينَ يُرِيدُونَ الْحَيَاةَ الدُّنيَا يَا لَيْتَ لَنَا مِثْلَ مَا أُوتِيَ قَارُونُ إِنَّهُ لَذُو حَظٍّ عَظِيمٍ. وَقَالَ الَّذِينَ أُوتُوا الْعِلْمَ وَيْلَكُمْ ثَوَابُ اللَّهِ خَيْرٌ لِّمَنْ آمَنَ وَعَمِلَ صَالِحًا

-(Bir gün Qarun) şəxsi zinət və ehtişamı içində öz qövmünün qarşısına çıxdı. Dünya həyatını istəyənlər dedilər: “Kaş Qaruna verilən qazanc bizə də veriləydi! Həqiqətən, o (dünyada) böyük bir qazanc sahibidir.” (İlahi və din) elm(i) verilmiş şəxslər isə dedilər: “Vay sizin

---

[1] Huməzə surəsi, ayə 3.

halınıza! İman gətirən və yaxşı iş görən şəxs üçün Allahın mükafatı (Qarunun bütün sərvətindən) yaxşıdır."[1]

Qarun alim olmaqla yanaşı, çox sərvətli bir insan idi. Lakin Allah- təala Quranda onun elmindən ad çəkmir. Çünki Quran əməlsiz elmi qəbul etmir. Alim odur ki, öz elminə əməl etsin. Dünyanın bütün elmlərini bilən və əməli olmayan insanları Quran alim hesab etmir və onların elmi barədə heç söz də açmır. Əməlsiz alim kompüter kimi bir şeydir. Kompüterin yaddaşına milyardlarla kitab yükləmək olur. Həmin kitablardan hər hansı bir cümləni asanlıqla axtarıb tapmaq olur. Görəsən, milyardlarla cild kitabı öz yaddaşında saxlayan dəmir parçasına alim demək olarmı? Əlbəttə ki, xeyr. Kompüter elmin daşıyıcısı və saxlayıcısıdır, amma alim deyil. Alim odur ki, elmi öz yaddaşına yükləməklə yanaşı, həm də özü ona əməl etsin.

Günlərin birində Mirzə Qummi hamama getmişdi. Ona dedilər ki, Fətəli şah hamamdadır. Bu gün heç bir kəsi ora buraxmazlar. Xəbər gedib Fətəli şaha çatdı ki, Mirzə Qummi hamama gəlib. Mirzə Qummi öz əsrinin böyük müctəhidlərindən biri idi. Həm də Fətəli şah onun xətrini çox istəyirdi. Buna görə də onun hamama gəldiyini eşitdikdə mühafizəçilərinə göstəriş verdi ki, onu içəri buraxsınlar. Mirzə Qummi hamama daxil olduqda gördü ki, şah hovuzun içində çimir. O da paltarlarını dəyişib hovuza düşdü. Bir az çimdikdən sonra Fətəli şaha dedi: "Tacın hanı bəs? Fətəli şah dedi: Tacım saraydadır. Hamama tacla gəlmək olmaz axı. Mirzə soruşdu: Bəs bəzəkli paltarların hanı? Şah dedi: Sarayda. Mirzə soruşdu: Qoşunların haradadır? Şah dedi: Sarayda. Mirzə

---

[1] Qəsəs surəsi, ayə 79-80.

soruşdu: Xəzinələrin və pulların haradadır? Şah dedi: Hamısı saraydadır. Onları hamama gətirməzlər. Mirzə bir neçə belə sual verdikdən sonra dedi: Bəs özünlə hamama nə gətirmisən? Şah dedi: Yalnız özümü gətirmişəm. Mirzə dedi: Mən isə hər nəyim vardırsa özümlə gətirmişəm. Elmimi sinəmdə, imanımı da ürəyimdə özümlə gəzdirirəm. Qəbrə də belə gedəcəyik. Mənim nəyim var, özümlə aparacağam. Sənin nəyin vardırsa, hamısını burada qoyub gedəcəksən. Ora bir şey aparmaq üçün indidən hazırlıq işləri gör. Elə işlər gör ki, orada sənin dərdinə dəysin."

Odur ki, Quran Qarun barədə belə buyurur: "O, öz zinət və təm-tərağı ilə öz qövmünün qarşısına çıxdıqda dünya malını və həyatını sevənlər dedilər ki, kaş Qaruna verilən bu mal-dövlət və möhtəşəmlikdən bizə də veriləydi. Lakin (İlahi və din) elm(i) verilmiş şəxslər isə dedilər: "Vay sizin halınıza! İman gətirən və yaxşı iş görən şəxs üçün Allahın mükafatı (Qarunun bütün sərvətindən) yaxşıdır."

Qarun Musanın(ə) qohumu idi. Allah-təala ona çoxlu mal-dövlət və xəzinələr vermişdi. Onun Musa(ə) ilə heç bir münaqişəsi yox idi. Zəkat haqda ayə nazil olduqdan sonra Musa(ə) onu başa saldı ki, Allah zəkatı vacib edib və sən də malının zəkatını verməlisən. Qarun əvvəlcə razılaşdı və evə gedib bu haqda fikirləşməyə başladı. Şeytan Qarunun qəlbinə girib onu yolundan döndərdi və fikrindən daşındırdı. Səhər açıldıqda camaatı ətrafına toplayıb dedi: "Camaat, Musa(ə) bizi bütpərəstlikdən çəkindirdi, biz də çəkindik. Bizə namaz qılmağı əmr etdi, biz də qıldıq. Bir sözlə, o, bizə hər nə dedisə, biz onun sözünə qulaq asdıq. İndi də bizim malımızı əlimizdən almaq üçün plan qurub."

Beləcə, Qarun camaatın fikirlərini Musaya(ə) qarşı dəyişdirdi. Camaat dedi: "Bəs onda biz nə edək? Qarun dedi: Siz gedib filan (əxlaqsız) qadını tapıb yanıma gətirin. Qalan işləri mən özüm qaydasına qoyacağam." Onlar gedib həmin qadını gətirdilər. Qarun ona çoxlu pul verib dedi: "Mənə sənin şahidliyin lazımdır. Lazım olan vaxt səni çağırıb Musanın səninlə zina etdiyini soruşduqda, mənim sözümü təsdiqləyəcəksən." Qadın razılaşıb getdi.

Günlərin birində Qarun camaatı toplayıb bir məclis təşkil etdi və Musanı(ə) moizə etmək üçün ora dəvət etdi. Həmin qadına da dedi ki, gəl, bu məclisdə əyləş və mənim işarəmi gözlə. Sənə işarə etdikdə ayağa qalxıb dediyim sözləri danışarsan. Həzrət Musa(ə) həmin məclisdə Allahın nazil etdiyi ayələrdən oxudu. Oğurluğun və zinakarlığın hökmlərini oxuyarkən bir nəfər ayağa qalxıb dedi: "Ya Musa(ə), sənin söylədiyin bu hökmlər yalnız camaata aiddir, yoxsa sənin özünə də şamil olunmalıdır? Musa Peyğəmbər(ə) dedi: Allahın hökmü hamı üçündür. Onun hökmlərində ayrı-seçkilik olmaz. Hətta mən də belə bir iş görsəm, cəzamı çəkməliyəm." Həmin şəxs dedi: "Camaat arasında söz gəzir ki, sən filan qadınla zina etmisən. Həmin qadın özü də sənin onunla zina etdiyini iddia edir." Musa(ə) dedi: "Pənah aparıram Allaha. Mən heç bir vaxt zina etməmişəm. O qadın kimdir elə?" Qarunun işarəsi ilə qadın ayağa qalxdı. Musa Peyğəmbər(ə) ondan soruşdu: "Mən səninlə nə vaxtsa zina etmişəmmi? Nə varsa hamısını düz danış." Qadının ürəyinə xof düşdü və bir az fikirləşib dedi: "Ya Musa, mən bilirəm ki, sən təmiz bir insansan. Qarun məni çağırıb sənin üzünə dayanıb yalandan şahid olmağım üçün pul verib. Bu işi görmək üçün məni öyrətmişdilər. Mən nə

qədər pis insan olsam da, Allahın Peyğəmbərinə(ə) belə bir şər atmaram. Mən düzünü deyəcəyəm. Sən çox təmiz və nəcib insansan. Heç vaxt mənimlə zina etməmisən.”

Musa Peyğəmbər(ə) bu sözlərdən sonra səcdəyə düşüb Allaha şükür etdi və dedi: “İlahi, çox şükürlər olsun sənə ki, Sən mənim abrımı qorudun. Bunlar mənim abrımı aparmaq istəyirdilər. Sən buna imkan vermədin.” Allah-təala Musaya xitab edərək buyurdu: “Qarunun ixtiyarını sənə verdim. Onunla istədiyini edə bilərsən.” Musa Peyğəmbər(ə) yerə əmr etdi. Yer aralanıb həm Qarunun özünü, həm tərəfdarlarını və həm də bütün mal-dövlətini bir neçə dəqiqə ərzində içərisinə çəkib uddu.

Allah-təala “Qəsəs” surəsində belə buyurur:

فَخَسَفْنَا بِهِ وَبِدَارِهِ الْأَرْضَ فَمَا كَانَ لَهُ مِن فِئَةٍ يَنصُرُونَهُ مِن دُونِ اللَّهِ وَمَا كَانَ مِنَ المنتَصِرِينَ. وَأَصْبَحَ الَّذِينَ تَمَنَّوْا مَكَانَهُ بِالْأَمْسِ يَقُولُونَ وَيْكَأَنَّ اللَّهَ يَبْسُطُ الرِّزْقَ لِمَن يَشَاء مِنْ عِبَادِهِ وَيَقْدِرُ لَوْلَا أَن مَّنَّ اللَّهُ عَلَيْنَا لَخَسَفَ بِنَا وَيْكَأَنَّهُ لَا يُفْلِحُ الْكَافِرُونَ

-Beləliklə, onu (Qarunu) və evini yerə batırdıq. Allahın (əzabı) müqabilində ona kömək edə biləcək (dostlarından və nökərlərindən ibarət) bir dəstə də yox idi. Onun özü də özünü müdafiə edə bilmədi.

Dünən (mal-dövlət və məqam baxımından) onun (Qarunun) yerində olmağı arzu edənlər elə hala düşdülər ki, deyirdilər: “Vay-vay, sən demə Allah öz bəndələrindən istədiyi hər bir kəsin ruzisini artırar və azaldarmış! Doğrudan da Allah bizə lütf etdi (və bizi Qarunun gününə

salmadı), yoxsa bizi də torpağa batırardı. Vay-vay, sən demə kafirlər nicat tapmayacaqlar!”[1]

Buna görə də insan zənn etməsin ki, bu dünyanın mal-dövləti insanı nə vaxtsa qoruyub saxlaya bilər. Bu dünyanın heç bir mal-dövləti insana qalmayacaq. İnsan bu dünyada zəhmət çəkib mal-dövlət qazanır. Lakin kim bu mal-dövləti haram yolla, zülm etməklə, Allahın halal-haramına riayət etməməklə qazanıb xərcləyərsə, qiyamət günü çox peşman olub həsrət çəkəcək. “Bəqərə” surəsinin 167-ci ayəsində belə oxuyuruq:

وَقَالَ الَّذِينَ اتَّبَعُواْ لَوْ أَنَّ لَنَا كَرَّةً فَنَتَبَرَّأَ مِنْهُمْ كَمَا تَبَرَّؤُواْ مِنَّا كَذَلِكَ يُرِيهِمُ اللّهُ أَعْمَالَهُمْ حَسَرَاتٍ عَلَيْهِمْ وَمَا هُم بِخَارِجِينَ مِنَ النَّارِ

-(Küfr və zülm başçılarına) tabe olanlar deyərlər: “Kaş bizim üçün (dünyaya) bir qayıtmaq (imkanı) olaydı və onlar bizdən uzaqlaşdıqları kimi, biz də onlardan uzaqlaşaydıq.” Allah onların (dünya) əməllərini bu cür həsrət amilləri kimi onlara göstərər. Onlar cəhənnəm odundan əsla çıxan deyildirlər.

قَالَ الصَّادِقُ عَلَيهِ السَّلام فِى قَوْلِ اللَّهِ عَزَّ وَجَلَّ "كَذ لِكَ يُرِيهِمُ اللّهُ أَعْم الَهُمْ حَسَراتٍ عَلَيْهِمْ" قَالَ هُوَ الرَّجُلُ يَدَعُ مَالَهُ لَا يُنْفِقُهُ فِى طَاعَةِ اللَّهِ بُخْلًا ثُمَّ يَمُوتُ فَيَدَعُهُ لِمَن يَعمَلُ فِى طَاعَةِ اللَّهِ أَوْ فِى مَعْصِيَتِه فَإِنْ عَمِلَ بِهِ فِى طَاعَةِ اللَّهِ رَآهُ فِى مِيزَانِ غَيْرِهِ فَزَادهُ حَسْرَةً

[1] Qəsəs sursi, ayə 81-82.

وَقَدْ كَانَ الْمَالُ لَهُ وَإِنْ كَانَ عَمِلَ بِهِ فِى مَعْصِيَةِ اللَّهِ (فهو) قَوَّاهُ ذَلِكَ الْمَالِ حَتَّى عُمِلَ بِهِ فِى مَعْصِيَةِ اللَّهِ.

-İmam Sadiq(ə) "Allah onların (dünya) əməllərini bu cür həsrət amilləri kimi onlara göstərər," - ayəsinin təfsirində belə buyurur: "Qiyamət günü o insan həsrət çəkib peşman olacaq ki, öləndən sonra bu dünyada qoyduğu malı Allaha itaət etmək yolunda xərcləməyib. Həmçinin başqaları onun qoyduğu mal-dövləti Allah yolunda xərcləyib cənnəti əldə etdiyini gördükdə həsrəti daha da çoxalacaq. Çünki həmin mal-dövlət onun idi (ki, onun vasitəsilə özü cəhənnəmi, başqaları isə cənnəti qazandılar). Əgər onun qoyduğu mal-dövləti Allaha qarşı günah etmək yolunda xərcləsələr, həsrəti daha da çoxalacaq ki, onun qoyduğu mal-dövlətlə Allaha qarşı günah etmişlər."[1]

قَالَ عَلِيٌّ(ع): يَابنَ آدَم كُن وَصِيَّ نَفسِك فِى مَالِكَ وَاعْمَل فِيهِ مَا تُؤثِرُ اَن يُعمَلَ فِيهِ مِن بَعدِك

Həzrət Əli(ə) buyurur: "Ey Adəm övladı! Özün özünün canişinin və qəyyumun ol, mal və var-dövlətindən səndən *(ölümündən)* sonra vermələrini istədiyini *(ölümündən qabaq)* özün ver. *(Çünki sən hamıdan çox özün özünün canına yanansan.)"* [2]

Beləliklə, əgər insanlar dünya malında Allahın hədd və hüdudlarına riayət etməsələr, qazandıqları mallar

---

[1] Mizanül-hikmə (t.v.), 12-ci cild, səh.5736.
[2] Yenə orada.

haramdır. Yəni halal-harama riayət etmədən qazanıb xərcləsələr, qiyamət günü həsrət çəkəcəklər. Yox, əgər dünya malını Allahın qoyduğu qanunlar çərçivəsində halal yolla qazanıb halal yolda da xərcləyərlərsə, bu mal- dövlət onlar üçün Allahın kərəmi və lütfüdür. Halal yolla əldə edilən mal-dövlət həm insanın bu dünyası, həm də axirəti üçün çox faydalıdır.

## Dünya malını yığan insanlar üç qismə ayrılır

Qeyd olundu ki, insanın qəlbindəki iman və yəqinliyi zəiflədib aradan qaldıran amillərdən biri dünyaya olan məhəbbətdir. İnsan bu dünyaya bağlanıb özünü əbədi təsəvvür etmək istəsə, onun iman və yəqinliyi gündən-günə azalıb məhv olacaqdır. Çünki bu dünya körpü kimi bir şeydir ki, insanlar onun üstündən keçib gedirlər. İmam Hüseyn(ə) aşura günü Kərbəlada öz tərəfdarlarına dünyanın mahiyyətinin izahını açıqlayaraq belə buyurdu:
“Bu dünya bir körpüdür.”

Bu dünya insanın axirətə çatması üçün bir vasitədir. Yəni bu, çox aydın bir məsələdir ki, hər bir insan axirətinin abad olması üçün dünyada hazırlıq işləri görməlidir. İnsan Allaha ibadət və səcdə etmək, axirət üçün hazırlıq işləri görməkdən ötrü bu dünyaya gəlmişdir. Əgər insan bu dünyanı özü üçün əbədi hesab edərək bundan başqa bir aləmin olmadığını təsəvvürünə gətirsə, o zaman onun imanı əlindən çıxacaqdır. Yəni hər bir ləzzətin yalnız bu dünyada olduğunu güman edib dünyaya məhəbbət bəsləməsi insanın imanını aradan qaldıracaqdır. Bu məsələdə insanlar bir-birinə münasibətdə fərqlidirlər. Bəzi insanların dünyaya olan məhəbbətləri çox güclü

olduğundan bu bağlılıq onları aparıb küfr dəryasına atacaq. Bəzi insanlarda isə dünyaya bağlılıq və məhəbbət nisbətən azdır. Bu bağlılığın axırı onun imanının zəifləməsi ilə nəticələnir. Dünyaya məhəbbət və bağlılıq məsələsində hər kəs müəyyən bir dərəcədə yer tutur. Odur ki, bu məsələdə hər bir kəsin aqibəti öz dərəcəsinə əsasən qiymətləndiriləcək.

İslam Peyğəmbəri(s) bir hədisdə bu cür insanları, ümumiyyətlə, üç qismə bölür. Həzrət(s) həmin qisimlərə məxsus olan insanların xüsusi bir hal və aqibətlərinin olduğunu bəyan edir. Hədis belədir:

قَالَ رَسُولُ اللهِ(ص): تَكُونُ أُمَّتِي فِي الدُّنيَا ثَلاثَةَ أَطبَاق:

-Həzrət Peyğəmbər(s) buyurur: “Mənim ümmətim dünyada üç qismə bölünür:

**Birinci qisim**

اَلطَّبقُ الأَوَّل: فَلا يُحِبُّونَ جَمعَ الْمَال وَ اِدِّخَارَهُ، وَ لا يَسعُون فِي اِقتِنَائِه وَ اِحتِكَارِهِ وَ إِنَّمَا رِضاهُم مِنَ الدُّنْيَا سَدُّ جَوعَةٍ، وَسَترُ عَورَةٍ، وَ غِنَاهُم فِيهَا مَا بَلَغَ بِهِم الآخِرَة. فَأُولَئِكَ الآمِنُونَ الَّذِينَ لاَ خَوفٌ عَلَيْهِم وَ لا هُم يَحْزَنُون

-Birinci qismə daxil olan insanlar o kəslərdir ki, mal-dövlət yığıb toplamağı sevməzlər. Onlar dünya malı uğrunda çalışıb özlərini zəhmətə də salmazlar. Aclıqlarını doyurmaq üçün dünyadan müəyyən miqdarla kifayətlənər, bədənlərini örtəcək qədər geyimlə keçinməyə razılaşarlar. Dünya malından onlara yalnız axirətə çatdıracaq miqdarda gərəkdir. Bu insanlar (qiyamət günü elə bir) əmin-

amanlıqda olarlar ki, onlar üçün heç bir qorxu və nigarançılıq olmaz.

Dünyanın var-dövlətini sevməyib aza qane olan insanlar xoşbəxt insanlardır. Çünki onların bu dünyada bütün səy və təlaşları yalnız axirətə görədir. Özlərini axirətə çatdırmaq üçün bu dünyadan ancaq müəyyən bir miqdardan istifadə edərlər. Məsələn, bir şəxs başqa bir şəhərə gedir. Təsadüfən pulu qurtardığı üçün qayıtmağa imkanı olmur. Bir şəxsdən xahiş edir ki, evinə qayıtması üçün qaytarmaq şərtilə ona müəyyən qədər yol pulu versin. Yəni sadəcə olaraq evinə çatmaq üçün lazım olan vəsaitdən istifadə edir. Bilir ki, evə çatsa, bütün çətinlikləri aradan gedəcək. Ona görə də bu qisim insanlar dünya malından yalnız onları axirətə çatdıracaq miqdardan istifadə edirlər. Bundan artığına göz dikmirlər. Yəni ömrün sonuna kimi dünyada onlara lazımi qədər yemək, geymək və dolanışıqdan artığı gərək deyil. Belə olduqda qiyamət günü qorxusuz-hürküsüz əmin- amanlıqda olacaqlar.

Allah-təala dünya malına görə onları sorğu-sual da etməyəcək. Çünki dünya malından onlara çox az verdiyi üçün bu cür insanları heç bir hesab-kitaba çəkməz. Hədislərdə də belə nəql olunur ki, qiyamət günü bəzi insanlar qəbirdən qalxdıqda birbaşa cənnətə daxil olacaqlar. Mələklər deyəcəklər: “İlahi, bunlar nə üçün sorğu-sual olunmadı.” Allahdan belə bir nida gələr: “Mən onlara dünyada (mal-dövlətdən) nə vermişdim ki, onun sorğu-sualını da edim?”

Belə insanlardan dünyada nadir hallarda tapmaq olur. Həm İslamın əvvəllərində, həm də öz əsrimizdə belə insanlara hərdənbir rast gəlirik. Məsələn, Salman Farsi Peyğəmbərin(s) yaxın səhabələrindən biri idi. Onun heç

bir vaxt dünya malında zərrə qədər də olsa belə gözü olmadı. Günlərin birində ona dedilər ki, filan yerə səfərə çıxacağıq. Salman ayağa qalxıb dedi: “Mən hazıram, gedə bilərik. Dedilər: Bəs evə gedib səfər üçün hazırlıq işləri görməyəcəksən? Salman dedi: Mənim nəyim var ki, hazırlıq işləri də görüm? Olanım bircə qoyun dərisidir ki, üstündə əyləşirəm, bir də su qabıdır.”

Mərhum Şeyx Həbibullah Qolpayeqani böyük alim və arif insanlardan biri idi. O, Məşhədə gedib orada yaşayırdı. Böyük ustadlardan biri Məkkədə mənə onun barəsində belə bir əhvalatı danışdı: “Mən gənc yaşlarımda, yəni dərs oxuduğum illərdə başağrısına mübtəla olmuşdum. Rəhmətlik atam məni həkimlərin yanına aparırdı, lakin başımın ağrısı dayanmaq bilmirdi. Ayətullah Vəhid Xorasani bir gün atama dedi: “Nə əcəb bu uşağı Xorasana Şeyx Həbibullahın yanına aparmırsan?” Atam dedi: “Heç fikrimə gəlmirdi ki, uşağı onun yanına aparım.” Vəhid Xorasaninin sözlərindən sonra atam məni Şeyx Həbibullahın yanına apardı.

Şeyx Həbibullah qırx il davamlı olaraq hər gün İmam Rzanın(ə) hərəminin ilk zəvvarı olmuşdur. O, hamıdan qabaq gələr və İmamın(ə) hərəmi açılan kimi onun ilk ziyarətçisi olardı. Qırx il gecə namazını İmam Rzanın(ə) hərəmində qılmışdı. Günlərin birində bərk xəstələndi və onu xəstəxanada yerləşdirdilər. Qan götürüb analiz etdikdən sonra qoluna sistem taxdılar. Xəstəxanadakı həkimlər və tibb bacıları onu müayinə edirdilər. Şeyx Həbibullah bu halı gördükdə çox narahat oldu. Çünki tibb bacılarının qoluna iynə vurmaları və müayinə etmələri onun ürəyindən deyildi. Xəstəxana otağının pəncərəsindən İmam Rzanın(ə) hərəminin minarələri görünürdü. Şeyx Həbibullah başını qaldırıb üzünü İmam Rzanın(ə)

hərəminə tutaraq dedi: "Ya İmam Rza(ə), qırx il hər gün mən birinci zəvvarın olmuşam. İndi bu nə haldı mən düşdüm? (Mən gözləməzdim ki, belə bir vəziyyətdə naməhrəmlər qollarıma iynə vurub, məni müayinə edərlər.)"

O, həmin vaxt baş verənləri belə xatırlayır: "Elə bu sözləri deyən kimi sanki otaqdakı səhnə dəyişildi. Orada işləyənlər, həkimlər və ümumiyyətlə, bir anın içində hər bir şey dəyişilib böyük bir bağa çevrildi. Gördüm ki, böyük və gözəl bir bağdır. Güllər, çiçəklər insanı valeh edirdi. Həmin güllərin yanında da İmam Rza(ə) əyləşmişdi. İmam(ə) mənə baxıb buyurdu: Şeyx Həbibullah, gəl, əyləş mənim yanımda. Mən İmamın(ə) yanına gəlib əyləşdim. İmam Rza(ə) bir gül dərib mənə uzatdı. Mən həmin gülü sağ əlimlə ondan aldım."

Gülü aldıqdan sonra otaqdakı səhnə yenə də dəyişildi və xəstəxananın əvvəlki görkəmi bərpa oldu. Amma hiss etdim ki, tamamilə sağalmışam. Həkimləri çağırıb dedim: "Mən gedirəm. Həkimlər dedilər: Qətiyyən səni bu xəstəliklə heç bir yerə buraxmaq olmaz. Biz sənin qanını analiz etmişik və xəstəliyin çox ağırdır. Dedim: Xeyr, mən gedirəm." Həkimlər onu belə israrlı görüb dedilər ki, onda gərək sən qol çəkəsən ki, öz istəyinlə xəstəxananı tərk edirsən. Şeyx razılaşıb müəyyən sənədlərə qol çəkdi. Həkimlər yenə də dedilər ki, axı sənin xəstəliyin çox ağırdır. Belə bir halda sənə heç yerə getmək olmaz. Şeyx isə dedi ki, artıq sağalmışam. Həkimlər yenidən ondan qan analizi götürüb müayinə etdilər və gördülər ki, onun bir neçə saat bundan qabaqkı xəstəliyindən heç bir əsər-əlamət yoxdur. Onu evə buraxdılar.

Şeyx Həbibullah deyir: "O gündən sonra mən heç bir vaxt xəstəlik görmədim. Ömrümün axırına qədər İmam

Rzadan(ə) gül aldığım əlimi hansı xəstəyə çəkirdimsə, həmin xəstə sağalırdı.”

Həmin ustad deyir: “Biz Şeyx Həbibullahın yanına gəldik. O, atamı tanıyırdı. Salam-kəlamdan sonra atam vəziyyəti ona danışdı. Məni Şeyxə göstərib dedi: Bu, mənim oğlumdur və dərs oxumaqla məşğuldur. Bir-iki ay olar ki, onda baş ağrıları yaranıb. Bir çox həkimin yanına aparmışam, amma faydası olmayıb. Şeyx Həbibullah məni öz yanında əyləşdirdi. Əlini başıma qoyub bir neçə kəlmə dua oxuyub üzümə üflədi. Sonra atama dedi: “Hacı, İmam Rzadan(ə) gül aldığım ilk vaxtlar hansı xəstəyə əlimi bir dəfə çəkirdimsə sağalırdı. Amma indi əlimi çəkdikdən sonra gərək bir dua da oxuyum. Bilirsənmi nə üçün? Çünki o qədər günahkar insan mənimlə görüşüb ki, əlimdəki bu xüsusiyyət azalıb.”

Mərhum Şeyx Həbibullah Qolpayeqani böyük və dahi bir şəxsiyyət idi. O, çox zahid, arif, alim və abid bir insan idi. Onun tərcümeyi- halında yazırlar ki, ömrünün axırına qədər bir otaqda gününü keçirirmiş. Yazırlar ki, qırx il yalnız soğan-çörək yemişdir. Onun yeməyi həmişə soyuq yeməklərdən ibarət olardı. Həftə ərzində yalnız bircə dəfə isti yeməklə kifayətlənərdi. Həmin isti yeməyi də hər cümə axşamı yaxın bir dostu onun üçün hazırlatdırıb gətirərdi. O da yalnız həmin dostunun gətirdiyi yeməyi qəbul edirdi. Bundan başqa heç bir kəsə razı olmurdu ki, onun üçün yemək gətirsin.

Rəhmətlik atam xalça satmaqla məşğul olurdu. Onun kiçik bir xalça dükanı var idi. Nurani bir kişi onun daimi müştərisi idi. Hərdən mən də atamın dükanına gedirdim. Bəzən atam o kişiyə deyərdi ki, filan dükanda sənin üçün yaxşı bir xalça var. Onu alıb aparıb satsan, yaxşı xeyir götürərsən. O isə deyərdi ki, Allah bu gün mənim ruzimi

yetirib. Filankəsə deyərsən gedib alsın. Qoy aparıb satsın və qazansın.

Dünyada belə insanlar çox azdır. Mərhum Ayətullahül-üzma Şeyx Mürtəza Ənsari Nəcəfdə yaşayan böyük müctəhidlərdən biri idi. Təxminən iki yüz müctəhidə dərs deyirdi. Onunla bağlı yazırlar ki, dünyadan gedərkən onun olan-qalan malını hesabladıqda gördülər ki, tələbəliyə başladığı ilk günü nəyi var idisə, elə o qədərdir. Halbuki milyonlarla beytülmal pulu əlindən gəlib-keçmişdir. Onların bir qara qəpiyinə də belə əl vurmamışdır.

**İkinci qisim**

اَلطَّبَقُ الثَّانِي: فَإِنَّهُم يُحِبُّونَ جَمعَ الْمَال مِن أَطيَبِ وُجُوهِه وَ أَحسَنِ سُبُيلِهِ، يَصِلُونَ أَرحَامَهِم، وَ يَبِرُّونَ بِهِ إِخوَانَهُم وَ يُوَاسُونَ بِه فُقَرَائَهُم وَ لَعَضُّ أَحَدِهِم عَلَى الرَّضفِ أَيسَرُ عَليهِ مِن اَن يَكتَسِبَ دِرهَمًا مِن غَيرِ حِلِّهِ أَو يَمنَعَه مِن حَقِّه أَن يَكُونَ لَهُ خَازِنًا إِلَى حِينِ مَوتِه. أُولئِكَ الَّذِينَ إِن نُقِشُوا عَذِّبُوا وَ إِن عُفِيَ عَنهُم سَلِمُوا

-İkinci qismin insanları o kəslərdir ki, halal və təmiz yolla mal əldə etməyi sevərlər. Özləri həmin maldan istifadə etməklə yanaşı, yaxınlarına və qohum-əqrəbalarına da baş çəkərlər. Qardaşlarına yaxşılıq edib, kasıblara əl tutarlar. Onlar üçün qızmar daşı ağızlarına qoymaq haram yolla bircə dirhəm belə əldə etməkdən daha yaxşıdır. (Qızmar daşı ağzına basmağa razı olar, amma bir dirhəm haram pul əldə etməyə razı olmaz.) Ölənə qədər heç bir kəsin haqqına əl uzatmazlar. (Boyunlarında bir kəsin haqqının qalmasını istəməzlər.)

Onlar elə kəslərdir ki, qiyamət günü dəqiqliklə hesab-kitab olunsalar, əzaba düşmə ehtimalları vardır. Əfv olunub bağışlandıqda isə əmin-amanlıq və asayişdə olacaqlar.

Bu qisim insanlar dünyada heç bir vaxt haram yollarla mal-dövlət  əldə etməzlər. Yalnız halal yolla qazanar və qazandıqları ilə qohum-əqrəbaya, qardaşlarına, fəqir-füqəraya əl yetirərlər. Onlar bilirlər ki, qiyamət günü bircə dirhəmin belə hesab-kitabını verəcəklər. Heç bir vaxt kiminsə haqqını tapdalamazlar. Əgər qiyamət günü onlardan dəqiqliklə sorğu-sual aparılsa, əzaba düşmə ehtimalları var. Lakin Allah Öz kərəmi ilə onları bağışladıqda əmin-amanlıq içində yaşayacaqlar. Çünki bu dünyanın halalından da hesab-kitab olunacaqlar.

Cünadə ibn Əbi Üməyyə deyir: "İmam Həsənin(ə) ömrünün son anlarında Həzrətdən(ə) bizə moizə və nəsihət etməsini xahiş etdim. İmam Həsənin(ə) vəsiyyətinin bir hissəsi belədir: "Tezliklə gedəcəyiniz səfərə hazırlıq işləri görün. Əcəlin çatmamışdan öncə özünü hazırla. Bil ki, bu dünyanın halalında hesab-kitab, haramında isə əzab vardır."

Bu qisim insanlar halal ruziyə qanedirlər. Yəni halal qazanc onlara bəs edir. Halala qane olduqda isə heç bir vaxt haram qazanc əldə etməzlər. Günlərin birində Salmanın evinə qonaq gəlmişdi. Salman qonaq üçün süfrə açdı. Evdə nəyi var idisə, gətirib süfrəyə qoydu. Hamı bilirdi ki, o, bu dünyanın ən azına qane olan bir insan idi. Buna görə də evində yeməyə bir o qədər də ərzaqı olmazdı. Qonaq üçün süfrə açıb duz-çörək qoyduqdan sonra dedi: "Əgər Peyğəmbər(s) qonaq üçün evinizdə olanla kifayətlənin və çox zəhmətə düşməyin,-buyurmasaydı sizin üçün bir az da geniş tədarük görərdim." Qonaqlardan biri dedi: "Hər şey yaxşıdır, lakin bir az göyərti də olsaydı, daha yaxşı olardı."

Salman bu sözü eşitdikdə evdən çıxıb aftafasını götürdü və bazara getdi. Göyərti satanla danışıb aftafanı onun yanında girov qoydu və bir az göyərti aldı. Göyərtini gətirib yuduqdan sonra süfrəyə qoydu. Qonaqlar yeməklərini yeyib qurtardıqdan sonra həmin şəxs dedi: “Allaha şükürlər olsun ki, bizi şəraitə qane olan insan kimi yaradıb.” Salman dedi: “Əgər sən şəraitə qane olsaydın, mənim aftafam girova qoyulmazdı.”

Bu dünyada insanın imkanı, malı, pulu və sərvətinin olması çox yaxşıdır. Lakin bütün bunların hamısı halal yolla əldə edilməlidir. Əgər insan bu dünyada haramlara əl atmasa, başqalarının haqqını qəsb etməsə, yalnız halal yolla qazanc əldə etsə, qiyamət günü Allahın rəhmətində ola bilər. Allah-təala insanın dünyada yalnız halal qazanc üçün çalışdığını gördükdə qiyamət günü Öz mərhəmətini həmin şəxsə nazil edər və onun hesab-kitabını yüngülləşdirər. Buna görə də biz dualarda belə oxuyuruq: “İlahi, qiyamət günü bizi ədalətinlə yox, fəzl və kəraminlə hesab-kitaba çək.”

## Üçüncü qisim

اَلطَّبَقُ الثَّالِث: فَإِنَّهُم يُحِبُّونَ جَمعَ الْمَال مِمَّا حَلَّ وَ حَرُمَ وَ مَنَعَهُ مِمَّا افْتُرِضَ، وَ وَجَبَ إِن أَنْفَقُوهُ إِسرَافًا وَ بِدارًا، وَ إِن أَمْسَكُوه بُخلاً وَ اِحتِكَارًا. أُولئِكَ الَّذِينَ مَلَكَت الدُّنيَا زِمَامَ قُلُوبِهِم حَتّى أَورَدَتُهُم النّارَ بِذُنُوبِهِم.

-Üçüncü qismin insanları isə o kəslərdir ki, istər halal yolla olmuş olsun, istərsə də haram yolla dünya malını yığmağı çox sevərlər. Onlar üçün bunun heç bir fərqi yoxdur. Onlar vacib əməlləri yerinə yetirməyən israfçı

insanlardır. Paxıllıq üzündən yığdıqlarını (guya israf etməmək üçün) xərcləməkdə xəsislik edərlər. Onlar elə kəslərdir ki, dünya onların ürəklərinə hakim kəsilib. Dünya onların noxtası olub istədiyi kimi və (günahlarının nəticəsində) cəhənnəmə aparana qədər sürər.[1]

Bu qismin insanları artıq dünyanın quluna çevrilmişlər. Bacardıqları qədər bu dünyanın malını toplamağa can atarlar. Onlar nə halal bilər, nə də haram. Dünya onları istədiyi kimi minib sürür. Tarix boyu belə insanların çox şahidi olmuşuq. Əmr ibn As ömrünün son anlarında ağlamağa başladı. Onun yaxşı bir oğlu var idi. Gördü ki, atası çox narahatdır. Dedi: “Ata, sən Peyğəmbərin(s) səhabəsi olmusan. Nə üçün nigaran və narahat görünürsən?” Əmr ibn As dedi: “Oğul, mənim həyatımda üç mərhələ olub. Bir zamanlar kafir idim və Peyğəmbərə(s) iman gətirməmişdim. Əgər o zaman ölsəydim, şübhəsiz, cəhənnəmə gedəcəkdim. İkinci mərhələdə Peyğəmbərin(s) səhabəsi oldum. Həmişə onun yanında idim. Onun buyurduqlarına əməl etməyə çalışırdım. Əgər o dövrdə ölsəydim, çox güman ki, cənnətə getmək şansı əldə edəcəkdim. Lakin üçüncü mərhələdə, yəni  Peyğəmbər(s) dünyasını dəyişdikdən sonra mən başqalarına qoşularaq rəhbərlik, vəzifə və hakimlik fikrinə düşdüm. Bu yolda da çox mal-dövlət əldə etdim. (Tarixi mənbələrdə yazılıb ki, Əmr ibn As yetmiş qoyun dərisi içi dolu ləl-cəvahirat toplamışdı.) Oğlum, mən bütün bu yığdıqlarımı sənə verirəm. Lakin bir şərtim var. Hər kəs bu mal-dövləti götürsə, gərək onun günahını, qiyamət günündə sorğu- sualını da boynuna götürsün.

[1] Mizanül-hikmə (t.v.), 12-ci cild, səh.5736.

Oğlu dedi: Ata, sənin bu var-dövlətin mənə lazım deyil. Çünki mən bilmirəm ki, sən bunları haradan toplamısan. Mallarını qəsb etdiyin insanları da tanımıram ki, aparıb onların haqqını qaytarım.”

Bu xəbər Şam şəhərində Müaviyəyə çatdı. Müaviyə dedi: “Onun var-dövlətini mənə göndərin. Mən onun bütün günahını və qiyamət günü sorğu-sualını öz boynuma götürürəm. Bütün sualların cavabını da özüm verəcəyəm. Həmin içi qızılla dolu olan yetmiş qoyun dərisini Müaviyəyə göndərdilər.

Beləliklə, görürük ki, dünyanın bu qisim insanları üçün mal-dövlət yığmaqda halalla haramın heç bir fərqi yoxdur. Qarşılarına hər nə çıxsa toplayıb yığacaqlar. Dünya onların noxtasını əlinə alıb cəhənnəmə tərəf sürür. Bu üç qisim insanların birinci dəstəsindən olmaq çox çətin məsələlərdəndir ki, insan özünü axirətə çatdırmaq üçün dünya malının çox az miqdarı ilə kifayətlənər. İkinci qismə daxil olanlar mömin və müsəlmanlardır ki, yalnız halal yolla mal-dövlət qazanaraq həm özlərini dolandırar, həm də qohum-əqrəbalarına əl tutarlar. Onlar heç bir vaxt dünya malına görə zərrə qədər də olsa harama düşməzlər. Üçüncü qismin insanları isə haram, günah və fəsad yollarla dünya malını toplamaqla məşğuldurlar.

### 5.Dünyapərəst insanlarla ünsiyyət

İnsanın qəlbindəki iman və yəqinliyi zəiflədib aradan qaldıran amillərdən beşincisi dünyapərəst insanlarla ünsiyyətdə olmaqdır. Biri var ki, insan şəxsən özü dünyanı sevib ona məhəbbət bağlayır, biri də var ki, insan özü belə olmamasına baxmayaraq, dünyanı sevən və dünyapərəst insanlarla ünsiyyətdə olur. Belə ki, o, bu insanlarla elə

ünsiyyət yaradır ki, demək olar onlardan heç seçilmir. Bunların hər ikisi insanın yəqinliyini zəiflədib məhv edir.

قَالَ عَلِيٌّ(ع): خَلطَةُ اَبناءِ الدُّنيا تَشِينُ الدِّين وَ تُضعِفُ اليَقِين

-Həzrət Əli(ə) buyurur: “Dünyanın bəlaları ilə ünsiyyətdə olmaq insanın dinini eyibli edər və yəqinliyini zəiflədər.[1]

Bu barədə Quranda olan ayələrə diqqət yetirək. Allah-təala “Nisa” surəsinin 140-cı ayəsində belə buyurur:

وَقَدْ نَزَّلَ عَلَيْكُمْ فِي الْكِتَابِ أَنْ إِذَا سَمِعْتُمْ آيَاتِ اللّهِ يُكَفَرُ بِهَا وَيُسْتَهْزَأُ بِهَا فَلاَ تَقْعُدُواْ مَعَهُمْ حَتَّى يَخُوضُواْ فِي حَدِيثٍ غَيْرِهِ إِنَّكُمْ إِذًا مِّثْلُهُمْ إِنَّ اللّهَ جَامِعُ الْمُنَافِقِينَ وَالْكَافِرِينَ فِي جَهَنَّمَ جَمِيعًا

-Həqiqətən, Allah sizə bu kitabda nazil edib ki, Allahın ayələrinin və nişanələrinin inkar və məsxərə edildiyini eşitdiyiniz zaman belələri başqa bir söhbətə başlayana qədər onlarla bir yerdə oturmayın, əks- halda siz də onlar kimisiniz. Şübhəsiz, Allah münafiqlərin və kafirlərin hamısını cəhənnəmdə bir yerdə toplayacaqdır.[2]

Bəzi möminlər hərdən elə məclislərdə əyləşirdilər ki, orada İslam barədə mənfi söhbətlər aparılırdı. Bu ayə həmin möminləri başa salmaq üçün nazil oldu. Digər bir ayədə belə oxuyuruq:

وَإِذَا رَأَيْتَ الَّذِينَ يَخُوضُونَ فِي آيَاتِنَا فَأَعْرِضْ عَنْهُمْ حَتَّى يَخُوضُواْ فِي حَدِيثٍ غَيْرِهِ وَإِمَّا يُنسِيَنَّكَ الشَّيْطَانُ فَلاَ تَقْعُدْ بَعْدَ الذِّكْرَى مَعَ الْقَوْمِ الظَّالِمِينَ

---

[1] Mizanül-hikmə (t.v.), 14-cü cild, səh.7182.

[2] Nisa surəsi, ayə 140.

-Bizim ayə və nişanələrimiz barəsində boşboğazlıq edənləri görən zaman onlardan üz döndər ki, başqa söhbətə başlasınlar. Əgər şeytan (bunu) sənin yadından çıxarsa, yadına düşəndən sonra zalımların dəstəsi ilə oturma.[1]

Bu ayə nazil olduqdan sonra bəzi möminlər dedilər ki, belə olduqda bəs Məscidül-hərama necə gedək? Çünki bir qrup müşrik vardır ki, Məscidül-həramda əyləşib Quranın ayələrini, Peyğəmbəri(s) və möminləri təhqir edirlər. Belə olduqda bəs biz hansı işi görməliyik. Bu zaman sonrakı ayə nazil oldu.

وَمَا عَلَى الَّذِينَ يَتَّقُونَ مِنْ حِسَابِهِم مِّن شَيْءٍ وَلَكِن ذِكْرَى لَعَلَّهُمْ يَتَّقُونَ

-Onların (əməl və cəza) hesabından təqvalıların öhdəsinə bir şey düşmür, lakin (bunları deməkdə məqsəd) yada salmaq və nəsihətdir (moizə etmək lazımdır) (ki), bəlkə çəkindilər.[2]

Deməli, əgər insan onların Allahın ayələri, Peyğəmbər(s) və möminlər barədə təhqirləri və kinayəli sözləri qarşısında sakit dayansa, onlardan hesab soruşulacaq. Buna görə də mömin şəxs ya onlardan ayrılmalı, ya da onlara öz etirazını bildirməlidir. İnsan bu iki əməlin birini yerinə yetirməsə, həmin dəstədən hesab olunacaqdır.

Bu iki ayə Allahın ayələrini, kitabını, peyğəmbərini təhqir edənlərlə ünsiyyət yaradan insanlar barədədir. Sual

---

[1] Ənam surəsi, ayə 68.
[2] Ənam surəsi, ayə 68.

oluna bilər ki, Allahın ayələri haqqında boşboğazlıq edənlər kimlərdir? Və nə üçün onlar bu işləri görürlər? Onların belə boşboğazlıq etmələrinin mənbəyi nədir? Bu sualların cavabını ötən bəhsdə oxuduğumuz ayələr bizə açıq-aydın şəkildə bəyan edir. Allah-təala "Huməzə" surəsinin 1-6-cı ayələrində belə buyurur:

وَيْلٌ لِّكُلِّ هُمَزَةٍ لُّمَزَةٍ. الَّذِي جَمَعَ مَالًا وَعَدَّدَه. يَحْسَبُ أَنَّ مَالَهُ أَخْلَدَه. كَلَّا لَيُنبَذَنَّ فِي الْحُطَمَةِ. وَمَا أَدْرَاكَ مَا الْحُطَمَةُ. نَارُ اللَّهِ الْمُوقَدَةُ

-İsanlarda eyib axtarmağa adət edən və başqaları (dinin, Peyğəmbərin(s) və möminlərin) haqqında (istər əyani, istərsə də qiyabi halda) pis danışan hər bir kəsin vay halına. O kəs ki, mal yığıb onu dönə-dönə sayar (və bu mal-dövləti necə əldə edib, necə xərcləmək barədə Allahın əmrinə heç bir əhəmiyyət verməz). Və elə zənn edər ki, mal-dövlət onu əbədi yaşadacaqdır (və ölüm, yaxud bədbəxt hadisələr onu haqlamayacaqdır). (Xeyr,) belə deyildir, şübhəsiz, o hutəməyə (əzən oda) atılacaqdır. Və sən nə bilirsən ki, hutəmə nədir?! O, Allahın yanar odudur.

Bu ayələrdə belə insanların iç üzü açılır və onlar hamıya tanıtdırılır. Onlar dünyanın mal-dövlətini yığdıqları, haram yollarla əldə etdikləri pulların nəticəsində qudurduqları üçün Peyğəmbərin(s), Quranın, İslamın və möminlərin barəsində belə-belə sözlər danışıb təhqiredici ifadələr işlədirlər.

İmam Sadiq(ə) buyurur: "Həzrət Əli(ə) minbərə çıxıb camaata belə buyurardı:

يَنْبَغِي لِلْمُسْلِمِ أَنْ يَجْتَنِبَ مُوَاخَاةَ ثَلَاثَةٍ : الْمَاجِنِ ، وَ الْأَحْمَقِ ، وَ الْكَذَّابِ ، فَأَمَّا الْمَاجِنُ فَيُزَيِّنُ لَكَ فِعْلَهُ ، وَ يُحِبُّ أَنْ تَكُونَ مِثْلَهُ ،

وَ لَا يُعِينُكَ عَلَى أَمْرِ دِينِكَ وَ مَعَادِكَ ، وَ مُقَارَنَتُهُ جَفَاءٌ وَ قَسْوَةٌ ، وَ مَدْخَلُهُ وَ مَخْرَجُهُ عَلَيْكَ عَارٌ وَ أَمَّا الْأَحْمَقُ فَإِنَّهُ لَا يُشِيرُ عَلَيْكَ بِخَيْرٍ وَ لَا يُرْجَى لِصَرْفِ السُّوءِ عَنْكَ وَ لَوْ أَجْهَدَ نَفْسَهُ وَ رُبَّمَا أَرَادَ مَنْفَعَتَكَ فَضَرَّكَ فَمَوْتُهُ خَيْرٌ مِنْ حَيَاتِهِ وَ سُكُوتُهُ خَيْرٌ مِنْ نُطْقِهِ وَ بُعْدُهُ خَيْرٌ مِنْ قُرْبِهِ وَ أَمَّا الْكَذَّابُ فَإِنَّهُ لَا يَهْنِئُكَ مَعَهُ عَيْشٌ يَنْقُلُ حَدِيثَكَ وَ يَنْقُلُ إِلَيْكَ الْحَدِيثَ كُلَّمَا أَفْنَى أُحْدُوثَةً مَطَّهَا بِأُخْرَى حَتَّى إِنَّهُ يُحَدِّثُ بِالصِّدْقِ فَمَا يُصَدَّقُ وَ يُغْرِي بَيْنَ النَّاسِ بِالْعَدَاوَةِ فَيُنْبِتُ السَّخَائِمَ فِي الصُّدُورِ فَاتَّقُوا اللَّهَ وَ انْظُرُوا لِأَنْفُسِكُمْ

-Çox yaxşı olar ki, müsəlmanlar üç qrup insandan uzaq olsunlar: laqeyd, axmaq və yalançı insanlardan.

Laqeyd insanlar sənin yanında özünü tərifləyər və xoşlayar ki, sən də onun kimi olasan. Onların dini və dünya işlərində sənə heç bir vaxt xeyri dəyməz. Nəticədə onunla (laqeyd insanla) ünsiyyətdə olmaq sənin daşqəlbli olmağına gətirib çıxarar.

Axmaq insanın sənə heç bir faydası olmaz. Sənə xeyir vermək istəsə belə onun verdiyi xeyir sənə yetişməz. (Onun sənə vermək istədiyi xeyir belə ziyanla nəticələnər.)

Yalançı insanlarla birgə yaşamaq isə heç bir vaxt sənin həyatını pak etməyəcək. Çünki o, başqalarından sənə və səndən başqalarına yalandan söz aparıb-gətirər. Belə insanların sənə heç bir vaxt xeyri olmayacaqdır.

Cəfəri deyir: “Günlərin birində İmam Museyi Kazim(ə) mənə belə buyurdu: Səni Əbdürrəhmanın

yanında nə üçün tez-tez görürəm? Dedim: Ey Allahın höccəti, o, mənim dayımdır. (Hərdən ona baş çəkirəm. Onunla söhbət edirəm.) İmam(ə) buyurdu: Nə olsun ki sənin dayındır? Onun əqidəsi xarab, Allaha və İslama qarşı olan münasibəti mənfidir. Ya sən onunla ol və bizi tərk et, ya da bizimlə ol və ondan əl çək. Dedim: Mənim imanım güclüdür. Əminəm ki, onun mənfi fikirləri mənə təsir göstərə bilməz. Buna görə də hərdən onun yanına gedirəm. İmam(ə) buyurdu: Məgər qorxmursanmı ki, ona bəla nazil olduqda səni də öz çənginə almış olsun? Musanın(ə) hekayətini eşitməmisənmi? Sonra Həzrət(ə) həmin əhvalatı mənim üçün belə danışdı:

-Fironun qoşunu Musa(ə) və ona iman gətirənləri təqib etməyə başladı. Musaya(ə) iman gətirən cavan bir oğlanın atası Fironun dəstəsində idi. Həmin oğlan atası ilə söhbət edə-edə dənizin sahilinə tərəf gəlirdilər. Dənizin kənarına yetişdikdə su aralandı. Musaya(ə) iman gətirənlərin hamısı dənizin o biri tərəfinə keçdilər. Fironun qoşunu da keçmək istədikdə dənizin suyu yenidən təlatümə gəlib onların hamısını məhv etdi. Bu cavan oğlan da atası ilə birgə keçmək istədikdə Fironun dəstəsinin içində boğulub öldülər. Buna görə də bir yerə bəla nazil olduqda kimliyindən asılı olmayaraq ətrafındakıları da aparacaq."

Dünyapərəst insanlardan uzaq durmağın səbəblərindən biri də budur ki, onlara bir bəla nazil olduqda həmin bəla bütün ətrafdakılara da sirayət edir.

Bir gün Napoleon dəlixanaya baş çəkir. Bir-bir dəlilərin saxlandığı otaqlarla maraqlanır. Dəlixananın müdiri isə dəliləri göstərə-göstərə ona izahat verirdi. Gəlib bir otağa çatanda görürlər ki, bir dəlinin əl- qolunu zəncirləmişlər. Onun bu halına Napoleonun ürəyi yanır və

müdirdən soruşur: “Bunu nə üçün zəncirləmisiniz. Müdir deyir: Bu, çox pis sözlər danışır. Napoleon soruşur: Hansı pis sözləri danışır? Müdir deyir: O deyir ki, mən Napoleonam.” Napoleon onun bu sözlərinə gülür. Qayıdarkən dəlixananın müdiri deyir: “Əlbəttə, o, zəncirlə bağlanmağa layiqdir. Çünki o, burada dəlilərin arasında Napoleon olduğunu iddia edir. Biz gərək ona icazə verməyək ki, belə sözlər danışsın. Halbuki burada Napoleon mən özüməm.” Napoleon onun sözlərini eşitdikdə gülür və deyir: “Bu insan o qədər dəlilərin arasında qalıb ki, artıq onların xasiyyətini götürüb.”

İnsan ictimai bir məxluq olduğu üçün cəmiyyətdə camaatla birgə yaşayır. Odur ki, yaşadığı cəmiyyətdə müxtəlif xüsusiyyətli insanlar olduğundan diqqətli olmalıdır ki, digərlərinin mənfi xüsusiyyətlərinin təsiri altına düşməsin. Həzrət Əli(ə) buyurur:

كُن مَعَهُم وَ لا تَكُن مِنْهُم

-Onlarla ol (birgə yaşa), lakin onlardan olma.

Əlbəttə ki, hər bir cəmiyyətdə müxtəlif insanlar yaşayır. İnsanın cəmiyyətdən kənarda yaşaması da mümkün deyildir. Lakin onlarla birgə yaşamaqla yanaşı, insan çalışmalıdır ki, batil əhlindən olmasın. Buna görə də insan birgə yaşadığı, məsləhətləşdiyi, tez-tez görüşdüyü insanlara diqqət yetirməlidir.

Fironun başına gələn bütün bəlaların səbəbkarı da Haman idi. Haman Fironun müşavir və məsləhətçisi idi. Firon bütün məsələləri onunla məsləhətləşirdi. Günlərin birində Firon ürəyinin sözünü ona dedi: “Haman, Musa mənim evimdə böyüyüb boya-başa çatıb. İndi onun əlində müxtəlif möcüzələr var. Camaatı Allahın vəhdaniyyətinə dəvət edir. O, məni də düz yola hidayət etmək istəyir.”

Haman bu sözləri eşidən kimi fəryad qoparıb ağlamağa başladı və dedi: "Ey böyük padşah, bu nə fikirdir düşmüsünüz? Bütün el-aləm səni özünə Allah bilir. Məşriqdə və məğribdə yaşayan insanlar sənə vergilər verirlər. İnsanlar sənin qarşında baş əyirlər. Dünyanın bütün şahları sənin əlindən öpürlər. Sənin qarşında minlərlə qulluqçu dayanır. Sən bu cür əzəmət və cah-cəlalınla Musaya qoşulmaq fikrinə düşmüsən? Sənin min dəfə odda yanıb kül olmağın Musanın qulu olmağından və ona iman gətirməyindən yaxşıdır."

Firon bütün gördüyü işlərin aqibətinin yaxşı olmayacağını hiss edirdi. Buna görə də Musanın haqq olduğunu başa düşüb ona iman gətirmək istəyirdi. Lakin fikrini açıq şəkildə bildirdikdə Haman özünə əl qatıb onu qızışdırdı. Firon onun bu sözlərindən sonra fikrini dəyişdirdi və aqibəti suda qərq olmaqla nəticələndi.

Odur ki, insan cəmiyyətdə yaşamaqla yanaşı, batil əhlinin təsiri altına düşməməlidir. Məkkədə deyib-gülən bir qadın yaşayırdı. Həmin qadının bənzəri də Mədinədə yaşayırdı. Günlərin birində Məkkədəki həmin qadın Mədinəyə gəlir və təsadüfən özünə bənzər bir qadının evində qalmalı olur. Bir neçə gün onun evində qaldıqdan sonra Ayişənin evinə gəlir. Bir az söhbət etdikdən və deyib-güldükdən sonra Ayişə ondan soruşur: "Bu şəhərdə kimin evində qalırsan? O deyir: Bu şəhərdə mənim bir bənzərim var. Neçə gündür ki, onun evində qalıram." Ayişə bu sözləri eşitdikdən sonra deyir: "Allah və Rəsulu(s) düz buyurmuşdur. Peyğəmbər(s) buyurmuşdur ki, insanların ruhu bir-biri ilə uyğundur. Hər insan öz bənzərini özünə çəkir."

Belə məlum olur ki, bir insan başqa birisi ilə oturub-durduqda yavaş-yavaş onun xasiyyətini götürür. Bundan

sonra hər bir yerə birlikdə gedib-gələr və həmişə bir yerdə olmağa can atarlar. Ona görə də batil insanların arasında yaşamaqla bərabər eyni zamanda onlardan ayrı olmaq lazımdır ki, onların təsiri altına düşməyəsən.

Allah-təala İsa Peyğəmbərə(ə) belə moizə edir: “Ey İsa, gözlərində yaş, qəlbində təvazökarlıq olsun. Batil insanların deyib- güldüklərini gördükdə onlarla birgə əyləşmə. Sən qəbiristanlığa get və ölüləri ucadan səslə. Bəlkə onlardan bir moizə və nəsihət alasan.”

Tarixdə böyük şəxsiyyətlərin şahidi oluruq ki, bütün ixtiyarlar onların əllərində ola-ola özlərini nəinki camaatdan, hətta özlərindən də belə ayırmışlar. Doğrudur, belə insanlar bütün tarix boyu çox az müşahidə olunmuşdur. Məsələn, həmin böyük şəxsiyyətlərdən biri də Həzrət Süleyman(ə) idi. Həzrət(ə) günlərin birində Allahdan böyük bir səltənət istədi və dedi: “İlahi, mənə məndən sonra heç bir kəsə nəsib olmayacaq bir hökmranlıq əta et.” Allah-təala buyurdu: “Səni bütün yer kürəsinə padşah etdim. Bəs edərmi?” Süleyman dedi: “Azdır.” Allah-təala buyurdu: “Bütün uçanları və heyvanları sənin qarşında ram edərək sənin qoşununa daxil etdim. Bəs edərmi?” Süleyman dedi: “Azdır.” Allah-təala buyurdu: “Bütün əcinnə və şeytanları da sənin ixtiyarına verdim. Bəs edərmi?” Süleyman dedi: “Bəs mələkləri necə?” Allah-təala buyurdu: “Bəzi mələkləri də sənin ixtiyarına verdim.”

Allah-təala onun bu məsələsini Quranda belə bəyan edir:

قَالَ رَبِّ اغْفِرْ لِي وَهَبْ لِي مُلْكًا لَّا يَنبَغِي لِأَحَدٍ مِّنْ بَعْدِي إِنَّكَ أَنتَ الْوَهَّابُ. فَسَخَّرْنَا لَهُ الرِّيحَ تَجْرِي بِأَمْرِهِ رُخَاء حَيْثُ أَصَابَ. وَالشَّيَاطِينَ كُلَّ بَنَّاء وَغَوَّاصٍ. وَآخَرِينَ مُقَرَّنِينَ فِي الْأَصْفَادِ

-Dedi: “Ey Rəbbim! Məni bağışla və mənə məndən sonra  heç kəsə nəsib olmayan bir hökmranlıq əta et. Çünki çox əta edən Sənsən!” Beləliklə, Biz küləyi ona ram etdik. Külək onun əmri ilə mülayimliklə onun istədiyi yerə gedirdi. Həmçinin hər bənna və dalğıcdan olan (cin) şeytanları(nı bina tikmək və dənizdən ləl-cəvahir çıxarmaq üçün ona ram etdik). Habelə digər şeytanları birlikdə zəncirlənmiş halda (ona ram etdik).”

Süleyman həm peyğəmbər, həm də əzəmətli bir padşah oldu. Allah-təala ona yer kürəsində heç bir kəsə verilməyən belə bir səltənət bəxş etmişdi. Süleymanın mətbəxlərində qazanlar qaynayıb, yeməklər bişir, gündə minlərlə kasıb və yoxsul onun süfrəsində yemək yeyirdi. Lakin bütün bunlara baxmayaraq, Süleyman özünü özündən ayırmışdı. Bu, çox qəribə bir məsələdir. Biri var ki, insan özünü başqalarından ayırsın, biri də var ki, insan özünü özündən ayırsın. Süleyman öz fərdi və şəxsi halını şahlığından ayırmışdı. Bu qədər mülkiyyət və ixtiyar sahibi olmasına, minlərlə insanın onun sarayına toplaşıb yemək yemələrinə baxmayaraq, qamışlardan həsir və zənbil toxuyub bazarda satdırar və həmin qazancla özünü dolandırardı. Heç bir vaxt görünmədi ki, Süleyman sarayındakı qazanlarda bişən yeməklərə dilini vursun. Onun qazancı yalnız yavan çörəyə çatırdı. Həmin çörəklə gününü başa vururdu. Həzrət Süleyman(ə) böyük hökmdar olmasına baxmayaraq, özünü hətta şahlığından belə ayırmışdı.

Həzrət Əli(ə) bu işin ən mahir ustası idi. Cavan bir oğlan qaça-qaça atasının yanına gəlib dedi: “Ata, bu gün qəribə bir hadisənin şahidi olmuşam. Gördüm ki, bir kişi qızılları və gümüşləri yerə töküb əlində qamçı dayanmışdı. Bütün müsəlmanları səsləyib ora topladı. Həmin qızıl-

gümüşlərin hamısını onların arasında bölüşdürdü. Amma özünə heç bir şey götürmədi. Ata, bilmirəm həmin insan yaxşı adamdır, yoxsa pis. Atası dedi: Oğlum, sən elə yaxşı bir insanı görmüsən ki, ondan yaxşısını bəlkə heç görməyəcəksən də. Gördüyün həmin şəxs Əli ibn Əbu Talibdir. Beytülmalı müsəlmanların arasında bölüşdürüb və özü üçün heç nə götürməyib."

Zazan İmam Əlinin(ə) qulluqçusu Qənbərin dostu idi. Zazan deyir: "Günlərin birində Qənbərlə birlikdə idik. Qənbər mənə dedi ki, gedək ağamın yanına, onu ziyarət edək. Birlikdə Həzrət Əlinin(ə) hüzuruna getdik. Bir az əyləşdikdən sonra Qənbər Həzrətə(ə) buyurdu: Ya Əmirəlmöminin, mən sənin üçün bir şey yığıb saxlamışam. Onu sənə hədiyyə etmək istəyirəm. Həzrət(ə) buyurdu: O nədir elə? Qənbər dedi: Ağa, olarmı o biri otağa keçək. Həzrət(ə) qalxıb onunla birgə həmin otağa daxil oldu. Mən də onların yanında idim. Qənbər içi qızıl-gümüşlə dolu olan yekə bir kisə gətirdi və dedi: Ey mənim ağam, bilirəm ki, sən bu dünyada özün üçün heç bir şey toplamamısan. Bütün beytülmalın hamısını camaata paylayaraq özünə bir şey götürməmisən. Ona görə də mən hərdən bir dənə qızıla, yaxud gümüşə qənaət edərək bu kisəni doldurmuşam. İstəyirəm ki, bunları şəxsən özün üçün xərcləyəsən. Həzrət Əli(ə) ona baxıb buyurdu: "Ey Qənbər, istərdim ki, od gəlib bu evə düşsün və evin hamısını külə döndərsin. Necə ola bilər ki, sən bunları mənim üçün yığıb saxlamısan?" Həzrət(ə) qılıncın ucu ilə kisəyə toxunduqda qızıl-gümüşlər yerə töküldü. Sonra Həzrət(ə) bizə buyurdu: "Bütün bunların hamısını aparıb yoxsul və kimsəsizlərə paylayın." Biz bütün qızıl-gümüşlərin hamısını aparıb payladıqdan sonra qayıtdıq. Həzrət(ə) bizə buyurdu: "Şahid oldunuz ki, mənim özümə

bircə ədəd də qızıl-gümüş qalmadı? Dedik: Bəli, ya Əmirəlmöminin. Gördük və şahid olduq.” Sonra Həzrət(ə) əlini saqqalına çəkib buyurdu: “Ey ağ gümüşlər, ey sarı qızıllar, məndən uzaq olun. Gedin Əlidən başqasını aldadın!”

Həzrət Əli(ə) elə bir şəxsiyyət idi ki, taxta çıxdığı gündən dünyasını dəyişənə qədər özünü özündən ayırmışdı. Bu, onun şəxsi və ilahi təqvası idi. İnsanın özünü özündən ayırması çox çətin məsələlərdəndir və bu hər bir insanın bacardığı iş deyil.

## PEYĞƏMBƏRLƏRƏ İMAN GƏTİRMƏK VƏ ONLARI TANIMAĞIN YOLLARI

Ötən bəhslərdə “Nisa” surəsinin 136-cı ayəsi haqda söhbət etdik. Allah-təala bu ayədə möminlərə xitab edərək iman gətirmələrini tələb edir. Sual olundu ki, Allah-təala iman gətirənlərə kimə iman gətirməyi göstəriş verir? Yuxarıda iman gətirməyin mənaları ilə tanış olub bu barədə ətraflı bəhs etdik. Bu mübarək ayə bir neçə cümlədən ibarətdir ki, biz ötən bəhslərdə həmin ayənin yalnız bir cümləsi haqda söhbət açmışdıq. Bu bəhsimizdə ayənin ikinci cümləsi haqda söz açacağıq. Bəhsimizə başlamazdan öncə ayənin özünə bir daha diqqət yetirək:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ آمِنُواْ بِاللّهِ وَرَسُولِهِ وَالْكِتَابِ الَّذِي نَزَّلَ عَلَى رَسُولِهِ وَالْكِتَابِ الَّذِيَ أَنزَلَ مِن قَبْلُ وَمَن يَكْفُرْ بِاللّهِ وَمَلاَئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ وَالْيَوْمِ الآخِرِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا

-Ey Allaha iman gətirənlər, Allaha və Onun peyğəmbərinə, peyğəmbərinə nazil etdiyi kitaba və bundan öncə nazil etdiyi kitaba (bunların hamısına) iman gətirin. Ey dillə iman gətirmiş kəslər, (səmimi qəlbdən) iman gətirin! Ey imanları gerçəkləşmiş kəslər, onun qorunmasında möhkəm olun. Kim Allaha və Onun mələklərinə, (səmavi) kitablarına, göndərdiyi peyğəmbərlər(in)ə və axirət gününə kafir olsa, həqiqətən, uzun-uzadı bir azğınlığa düşmüşdür.

Bu ayədə möminlərə xitab olunaraq ilk öncə Allaha iman gətirilməsi barədə göstəriş verilir və bizim bu haqda geniş söhbətimiz oldu. Ayədə olan ikinci göstəriş isə Peyğəmbərə(s) iman gətirilməsidir. Yəni “ey iman gətirənlər, Allaha və Onun Rəsuluna (İslam

Peyğəmbərinə) iman gətirin”. Deməli, Allah-təala bütün möminlərə Özündən sonra Peyğəmbərə(s) iman gətirməyi əmr edir. Bu bəhsimizi çox yaxşı olar ki, peyğəmbərləri tanımağın yolları ilə başlayaq.

## Peyğəmbərləri tanımağın yolları

Ümumiyyətlə, əvvəlki bəhslərimizdə nübüvvət barədə bir qədər söz açmışdıq. Çox yaxşı olar ki, müəyyən qədər də peyğəmbərləri tanımağın yolları haqda maraqlanaq. Qeyd etməliyik ki, peyğəmbərləri tanımağın müxtəlif yolları vardır. İnsan öz fitrətinə əsasən heç bir iddianı dəlil-sübutsuz qəbul etmək istəmir. Çox insan bir sıra şeylərə iddia edə bilər. Lakin insanları inandırmaq üçün onun əlində möhkəm sənəd və dəlil-sübut olmalıdır. Məsələn, bir nəfər cərrah olduğunu iddia edir. Kim onun cərrah olduğunu dəlil-sübutsuz qəbul edər? İlk öncə onun cərrah olması ilə bağlı sənədlərlə maraqlanırlar. Əgər həmin şəxs cərrah olduğunu sübuta yetirə bilsə, bu zaman onun cərrah olduğu qəbul edilər. Əgər sübut edə bilməsə, heç bir kəs onun sözünə etibar etməz və heç kəs onun əlinin altında cərrahiyyə əməliyyatı aparılmasına razı olmaz. Deməli, hər bir iddia edənin iddiasının o saat dəlil-sübutsuz qəbul olunması qeyri-mümkündür.

İnsan ağlı və fitrəti tələb edir ki, hər bir iddia edənin iddiası üçün sənəd və dəlil-sübut istəsin. Hər bir halda deməliyik ki, dünyada iddiaların içərisində ən böyük iddia peyğəmbərlik iddiasıdır. Yəni bir insan durub peyğəmbərlik iddiası edirsə, deməli, böyük bir iddia etmişdir. Belə olduqda onun əlində möhkəm sənəd və dəlil-sübut olmalıdır. Ancaq bu iddianı Allahın peyğəmbərlərindən başqa heç bir kəs edə bilməz. Odur ki, dünyada ən böyük iddia peyğəmbərlərin iddiasıdır. Onlar

insanlara Allah tərəfindən göndərildiklərini iddia etmiş və insanları özlərinə tərəf dəvət etmək vəzifəsini yerinə yetirdiklərini bəyan etmişlər. Bir sözlə, peyğəmbərin əlində gərək o qədər möhkəm sənəd-sübutlar olsun ki, milyardlarla insanı öz ardınca apara bilsin, yaxud onlara yol göstərsin, iman və ədalət əsasında insanları Allaha tərəf yönəltsinlər. Peyğəmbər heç bir güc tətbiq etmədən, zorakılıq olmadan insanları Allaha tərəf dəvət etməlidir. Quran ayələrinə də diqqət yetirdikdə görürük ki, ilahi dəvətlərdə heç bir məcburiyyət yoxdur. Nümunə üçün bir neçə ayəyə nəzər salaq. “İnsan” surəsinin 3-cü ayəsində belə buyurulur:

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

-Həqiqətən, onu düz yola yönəltdik – istər şükür edən olsun, istərsə də nankor (kafir olsun).

Ayədə açıq-aydın görürük ki, ilahi dəvətə heç bir kəsi məcbur etmək olmaz. Peyğəmbərlər insanları sadəcə dəvət etmiş və bu yolda böyük zəhmətlər çəkmişlər. Bəzi insanlar iman gətirib bu dəvəti qəbul etmiş, bəzisi isə boyun qaçırmışlar. Onların heç birinə zor tətbiq olunmayıb və heç bir kəs də qılınc və ya zor gücünə dəvət edilməyib. Hətta Allahdan başqasına pərəstiş edənlərin bütlərini belə söyməyə icazə verilmir. Allah-təala “Ənam” surəsinin 108-ci ayəsində buyurur:

وَلاَ تَسُبُّواْ الَّذِينَ يَدْعُونَ مِن دُونِ اللّهِ فَيَسُبُّواْ اللّهَ عَدْوًا بِغَيْرِ عِلْمٍ كَذَلِكَ زَيَّنَّا لِكُلِّ أُمَّةٍ عَمَلَهُمْ

-Kafirlərin Allahın əvəzinə çağırdıqlarını (bütlər və cinləri) söyməyin ki, onlar da ədavət və nadanlıq üzündən

Allahı söyərlər. Biz hər bir ümmət üçün əməllərini beləcə zinətləndirdik.

Peyğəmbərlər insanlara haqqı çatdırmaq üçün gəlmişlər. Bu haqqı qəbul edib-etməmək məsələsində insanları məcbur etməmişlər. "Bəqərə" surəsinin 256-cı ayəsində belə buyurulur:

لاَ إِكْرَاهَ فِي الدِّينِ قَد تَّبَيَّنَ الرُّشْدُ مِنَ الْغَيِّ

-Dində (əqidənin əsaslarında) məcburiyyət yoxdur (çünki daxili inanc və etiqadlar zorla qəbul etdirilə bilməz və dəlil-sübuta tabedirlər). Şübhəsiz, (bu Quran vasitəsilə) hidayət yolu azğınlıqdan (seçilib) aydınlaşmışdır.

"Fussilət" surəsinin 40-cı ayəsində belə buyurulur:

اعْمَلُوا مَا شِئْتُمْ إِنَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

-İstədiyinizi edin. Şübhəsiz, O, etdiklərinizi görür.

Bu ayədən də məlum olur ki, insanlar seçimdə azaddırlar. Haqq və batil yollar insanlara açıq-aydın göstərilmişdir. Bu yolların hər hansı birini seçmək insanın öz ixtiyarındadır və heç bir kəs bu seçimdə məcbur edilmir. İnsanları öz ətrafına toplamaq üçün müxtəlif hiylələrdən, zor tətbiq etməkdən və siyasi oyunlardan istifadə isə tamamilə başqa məsələdir. Amma din gətirən peyğəmbərlərin heç biri insanlara güc tətbiq etməyiblər. "İslam dini qılınc və ya zor gücünə insanlara tətbiq edilib" - deyənlər İslamdan xəbərsizdirlər. Belə sözlər danışanların İslam dinini dərk etmədikləri və anlamadıqları gün kimi aydındır.

Böyük vəzifələrdə işləmək hələ o demək deyil ki, həmin insan həqiqətən də böyük insandır. İnsanın böyüklüyü onun ağlında, təqvasında və elmindədir. Əgər elmin və təqvanın yanında ağıl olmasa, onların insana heç

bir faydası olmayacaq. İnsana hər şeydən öncə ağıl lazımdır. Ağıl olduqdan sonra elm və təqva insana yol göstərib onu izzət və səadətə çatdırar. Odur ki, böyük yerdə əyləşib böyük-böyük sözlər danışmaqla insan böyük olmur. Əgər insan elmə əsaslanıb ağıllı sözlər danışsa, hamı bu şəxsin ağıllı və böyük şəxsiyyət olduğunu görər.

Beləliklə, dünyada ən böyük iddia qeyd etdiyimiz kimi, peyğəmbərlərin iddiası olmuşdur. İnsanların onlara inanıb iman gətirmələri üçün hər bir peyğəmbərin əlində kifayət qədər dəlil-sübutlar olmalıdır. İslam Peyğəmbəri(s) barədə tədqiqat aparmış Avropa alimləri öz kitablarında belə yazmışlar: "Məhəmməd Peyğəmbər(s) kimi sevimli bir insan hələ dünyaya gəlməyib. O, yer kürəsində ən sevimli insandır."

Həqiqətən də İslam Peyğəmbəri(s) çox sevimli bir insan idi. Ona iman gətirənlərin hamısı Həzrəti(s) ürəkdən sevirdilər. Öz doğma övladının şəhid olmasına narahat olmayan ana Peyğəmbərin(s) başından bir tükün belə əskik olmasını istəmir. Yəni oğlunun şəhid olmasından deyil, Peyğəmbərə(s) bir xətər toxunacağından daha çox narahat olurdu. İslam tarixində müharibələrə nəzər saldıqda görürük ki, birisinin atası və ya qardaşının şəhid olması xəbərini gətirdikdə həmin şəxs ilk növbədə Peyğəmbərin(s) salamat olub-olmadığını soruşardı. Peyğəmbərin(s) sağ-salamat olduğunu eşitdikdə isə bütün narahatlıqlar aradan gedərdi. İslam Peyğəmbərinin(s) məhəbbəti qəlblərdə belə qərar tutmuşdur. İman gətirənlər arasında İslam Peyğəmbəri(s) qədər sevimli peyğəmbər olmayıb.

İndi gəlin görək, hansı yollarla peyğəmbərlik iddiası edən insanın iddiasının düz olduğunu öyrənmək olar? Peyğəmbərləri tanımağın üç yolu vardır. Birinci yol əlamət, nişanə və izlərdən ibarətdir. İkinci yol keçmiş

peyğəmbərin təsdiqidir. Üçüncü yol isə peyğəmbərin möcüzəsidir. İnşallah, bu yolların hər biri barədə ətraflı söz açacağıq.

## Peyğəmbərləri tanımağın birinci yolu (əlamətlər, nişanələr və izlər)

Ümumiyyətlə, insan hər hansı bir həqiqətin üstünü müəyyən yollarla aşkar edə bilər. Burada peyğəmbərlik iddiası və yaxud başqa şəxslərlə bağlı həqiqətlərin üzə çıxarılmasında heç bir fərq yoxdur. Məsələn, fərz edək ki, bir yerdə qətl hadisəsi baş vermişdir. Bu qətlin səbəbini öyrənmək və qatili tapmaq üçün hansı işlər görülür? Bunun bir yolu odur ki, müstəntiq və ya prokuror cinayət yerinə gəlir və cinayətin üstünü aşkar etmək üçün ilk növbədə isti izlər, nişanələr axtarırlar. Cinayətin baş verdiyi yerdə araşdırma aparırlar. Şübhəli şəxslər saxlanılıb dindirilir. Müstəntiq onun üzünə diqqətlə baxıb dinləyir və ona müəyyən suallar verməyə başlayır. Məsələn, qətlə yetirilmiş şəxslə neçə il dostluq etmisən? Bu illər ərzində hansı söz-söhbətiniz olub və neçə dəfə aranızda ixtilaf olub? Neçə il onunla qonşuluq etmisən? Onun evinə son vaxtlar kimlər gəlib-getmişdir? Bu kimi suallarla şübhəli şəxs dindirilir. Əgər cinayət gündüz vaxtı baş veribsə, gündüz axtarış aparırlar. Gecə vaxtı baş veribsə, gecə təhqiqata başlayırlar. Həmçinin müttəhimə öldürülənin qanlı paltarını göstərirlər. Hamı diqqətlə həmin paltara nəzər yetirir, müstəntiq isə şübhəli şəxsin üzünə baxır. Axırda müstəntiq bu kimi izlər və əlamətlər əsasında həmin şəxsin qatil olduğunu müəyyən edib yəqinlik dərəcəsinə çatır. Yaxud ittiham olunanın qatil olmadığı sübut edilir.

Əlamətlər, nişanələr və izlər hər hansı bir həqiqətin aydınlaşdırılması yollarından biridir. Bu yol təkcə kiminsə peyğəmbərlik iddiasının həqiqət olub-olmamasını müəyyənləşdirmək üçün deyildir. Müxtəlif digər məsələlərin və həqiqətlərin açılmasında da bu yoldan istifadə oluna bilər. Eyni zamanda deməliyik ki, həmin əlamətlər və nişanələr də bir neçə cür ola bilər. İstənilən hər bir halda bütün bu əlamətlər peyğəmbəri tanımaq üçün bir vasitədir.

**1. Peyğəmbərin əhatə dairəsi**

Peyğəmbərliyə çatan bir insanın yaşadığı mühitlə əlaqədar araşdırma aparmaq, onun mühitində yaşayanların necə insanlar olduğu ilə maraqlanmaq lazımdır. Çünki peyğəmbərliyə iddia edən şəxs həmin camaatın içindən çıxmışdır.

**2. Peyğəmbərin yaşadığı dövr**

Peyğəmbərlik iddiası edənin iddia etdiyi zamanın özü barədə araşdırma aparılmalı və onun tarixini araşdırmaq lazımdır. Yəni o dövrdə insanların şəraiti və yaşayış tərzlərinin necə olduğunu öyrənmək lazımdır?

**3. Peyğəmbərin tarixi və rəftarı**

İddiaçının uşaqlıq çağlarında və gənc vaxtlarındakı bütün hərəkətlərini gözdən keçirib tarixçəsinə baxmaq və necə bir insan olduğu ilə maraqlanmaq lazımdır. Onun əxlaqı, rəftarı və davranışı barədə maraqlanılmalıdır. Məsələn, araşdırma aparmaq lazımdır ki, görəsən peyğəmbərlik iddiası edən şəxs öz mənfəətinə görə hərəkət edib pul və ya vəzifə əldə etmək istəyir, yoxsa əxlaq və ədalət çərçivəsində Allahın buyurduqlarını icra

edir? Bir sözlə desək, əxlaq və rəftarından onun iddiasının doğru olub-olmadığını yəqinləşdirmək mümkündür.

**4. Peyğəmbərin gətirdiyi şəriət (dini ayinlər)**

O cümlədən onun gətirdiyi şəriətə elmi nəzərlərlə diqqət yetirilməlidir. Onun gətirdiyi şəriətin ağıla və elmə uyğun gəlib- gəlmədiyi yoxlanılmalıdır. Bütün danışıqları və sözləri məntiqə əsasən dinlənilib diqqətdə saxlanılmalıdır. Onun gətirdiyi ehkamın cəmiyyətə nə qədər təsir göstərdiyi nəzərdən keçirilməlidir.

**5. Peyğəmbərin təbliğ etdiyi vasitələr**

Peyğəmbərin təbliğ etdiyi vasitələr də müşahidə olunmalıdır. Əsas məsələlərdən biri də onun özünün gətirdiyi şəriətə nə qədər iman gətirməsidir. Yəni gətirdiyi hökmlərə özü dəqiqliklə əməl edirmi və dediyi sözlərə inanırmı? Peyğəmbərlik iddiasında olan şəxs barəsində bütün bu məsələlər təhqiq olunmalıdır. Əlbəttə, bu barədə çoxlu məsələlərdən söz  açmaq olar, amma yığcam şəkildə qeyd olunanlar bunlardır.

İslam Peyğəmbəri Həzrət Məhəmməd(s) peyğəmbərliyə çatdıqdan sonra ərəblərin böyüklərini Səfa dağının ətrafına toplayıb onlara buyurdu: “Camaat, məni necə tanıyırsınız? Hamı yekdilliklə dedi: Sən çox əmin adamsan. Səndə indiyə qədər bir eyib və nöqsan görməmişik. Həzrət(s) buyurdu: Əgər mən sizə dağın arxasından düşmən qoşununun hücum çəkib Məkkəyə daxil olmaq istədikləri xəbərini versəm, mənə inanarsınızmı? Sizin təhlükədə olduğunuzu xəbər versəm, mənə inanarsınızmı? Hamı dedi: Əlbəttə ki, sənin sözlərinə inanarıq. Çünki bu vaxta qədər qırx il ərzində səndən kiçik bir yalan belə eşitməmişik. Həzrət(s) buyurdu: Belə isə

sözlərimi dinləyin: Mən Allah tərəfindən Peyğəmbər göndərilmişəm. Sizi bütpərəstlikdən çəkinib yeganə olan Allaha ibadət etməyə çağırıram.”

Peyğəmbər(s) zühur edərkən həmin dövrdə yaşayanların hamısı onun əmin bir insan olduğunu qəbul edirdilər. Tarix kitablarında yazılmışdır ki, Peyğəmbər(s) Məkkədən hicrət edərkən Həzrət Əliyə(ə) göstəriş verdi ki, sən bizimlə gəlmə. Mən şəhərdən çıxandan sonra camaatın məndə olan bütün əmanətlərini qaytarıb Məkkədən çıxarsan. Həzrət Peyğəmbər(s) hətta düşmənin onda olan əmanətinə belə xəyanət etmədi. Burada incə bir məsələyə diqqət yetirək. Peyğəmbər(s) bütpərəstlərin içərisində yaşayırdı. İnsan nə qədər böyük alim, dahi bir şəxsiyyət olmasına baxmayaraq, istər-istəməz yaşadığı mühitin təsirinə düşür. Lakin Peyğəmbərimiz(s) elə bir şəxsiyyət idi ki, onun qırx il yaşadığı bütpərəstlik mühiti zərrə qədər də olsa belə ona təsir göstərə bilməmişdi. Heç bir vaxt müşriklərə tərəf meyl göstərmədi. Peyğəmbərin(s) zühur etdiyi zamanda insanların hamısı haqq yoldan uzaqlaşmış insanlar idilər. Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də bu haqda belə buyurur: “Allah-təala insanların *(doğru yoldan)* azaraq, *(öz işlərində)* sərgərdan qaldıqları, səhv və bəsirətsizliklərinə görə fitnə-fəsad yoluna qədəm qoyduqları bir vaxtda Həzrət Məhəmmədə peyğəmbərlik verdi. *(Yersiz)* istək və arzular onları yaxalamış, təkəbbür və xüdpəsəndlik onları yanlışlıqlara vadar etmiş, cəhalət və nadanlıqları onları quşbeyin və qanmaza çevirmişdi. Belə ki, pərişan və öz işlərində narahat *(idilər)*, nigarançılıq və nadanlığa mübtəla olmuşdular. Sonra Həzrət Mustafa *(səlləllahu əleyhi və alih)* *(onlara)* nəsihət etməyə çalışdı, doğru yolla hərəkət etdi *(onları)* hikmət,

bilik və gözəl öyüdlərə dəvət etdi *(ki, bədbəxtlikdən qurtularaq dünya və axirət səadətini qazansınlar).*"

Həzrət Peyğəmbər(s) elə bir dövrdə zühur etdi ki, insanlar xurmaya, müxtəlif bütlərə səcdə edir və ata-babalarının çürümüş sümükləri ilə fəxr edirdilər. Belə bir zamanda Həzrət Məhəmməd(s) peyğəmbərliyə çatıb onlara əməllərinin səhv və nadanlıq olduğunu başa salaraq düzgün yolu onlara göstərdi. Həzrət Peyğəmbər(s) onlara tövhidi başa salaraq bütpərəstlikdən çəkindirdi. Başa saldı ki, insanlar bir-birinə xidmət etməli, bir-biri ilə insan kimi rəftar etməlidirlər.

Peyğəmbərin(s) gətirdiyi ayinlərə baxmaq istəyən hər bir kəs Qurani-Kərimi açıb onun səhifələrinə nəzər salsın. Onun gətirdiyi bu kitab bütün sahələri özündə əhatə edir. Quranın əvvəlindən axırına qədər olan ayələrin heç birində zərrə qədər də olsa ixtilaf yoxdur. Hər bir mütəxəssis öz sahəsi üzrə Qurana nəzər saldıqda təəccüblənir və bu kitabın necə dəqiq olduğunun şahidi olur. Quranın ayələri sanki mərcan kimi sıraya düzülmüşdür. Əgər Quranda zərrə qədər ixtilaflı bir söz tapılsaydı, düşmənlər onu qabardıb bütün aləmə car çəkərdilər. Lakin ağıllı insanlar Allahın göndərdiyi bu kitabdan lazımınca faydalanıb mənəviyyatlarını gücləndirmişlər.

Əsrimizdə müxtəlif elm sahələrində təcrübə əsasında müəyyən bir qənaətə gəlmiş kəslərin kəşflərinin hamısı Quranda öz əksini tapmışdır. Yəni illərlə elmlə məşğul olub hansısa elmi nəticəni əldə etdikdən sonra baxıb görmüşlər ki, onların qənaətə gəldiyi həmin məsələ min dörd yüz il bundan əvvəl İslam Peyğəmbəri(s) vasitəsilə bəşəriyyətə bəxş olunmuş bu müqəddəs kitabda – Qurani-Kərimdə var imiş.

Müsəlmanların sayının günü-gündən artmasının səbəbi də elə budur. Yəni insanların elmi inkişaf etdikcə Quran ayələrini daha dərindən başa düşdükləri üçün Allaha, Peyğəmbərə(s) və Qurana daha artıq inanmağa başladılar. Məsələn, həmin elmi məsələlərdən biri tibb aliminin körpə uşağın qidalanması barədə gəldiyi nəticə ilə bağlıdır. Həmin alim son zamanlarda bir kitab yazmış və orada körpə uşağın qidalanmasından söhbət açmışdır. Kitabın xülasəsi belədir ki, uşaq dünyaya gəldikdən sonra mütləq iki il ana südü ilə qidalanmalıdır. Halbuki həmin bu məsələni min dörd yüz il bundan əvvəl Qurani-Kərim bəyan etmişdir. "Bəqərə" surəsinin 233-cü ayəsində belə buyurulur:

وَالْوَالِدَاتُ يُرْضِعْنَ أَوْلاَدَهُنَّ حَوْلَيْنِ كَامِلَيْنِ لِمَنْ أَرَادَ أَن يُتِمَّ الرَّضَاعَةَ

وَعلَى الْمَوْلُودِ لَهُ

-Analar öz övladlarına iki il tamam süd verməlidirlər. Bu (göstəriş) (körpənin) süd əmmə müddətini kamil etmək istəyən kəs üçündür.

Mütəxəssislərin fikirlərinə diqqət yetirdikdə görürük ki, illər keçdikcə, elm inkişaf etdikcə onlar da öz fikirlərini dəyişərək Quranda buyurulan sözlərin həqiqət olduğunu tam dərk edirlər. Bütün alimlər və ağıllı insanlar əvvəl-axır bir-bir İslamı qəbul edib iman gətirəcəklər. Əgər axırda İslama qayıdacaqsansa, nə yaxşı olar ki, əvvəlcədən iman gətirəsən. Peyğəmbər(s) insanları təqvaya, əmanətdarlığa, düzgünlüyə, valideynə hörmət etməyə, insanlara xidmət göstərməyə və gözəl xüsusiyyətlərə dəvət edirdi. Bütün bunlar elə xüsusiyyətlərdir ki, insanların ağlı qəbul edir və bəyənir. Bütün bu gözəlliklər elə bir xüsusiyyətlərdir ki, insan

iman gətirib bunlara əməl etsə, həm onun fərdi, həm də yaşadığı cəmiyyətin həyatı təmin olunar və səadətə çatarlar.

**6. Peyğəmbərə iman gətirənlərin kimliyi**

Əlamət və nişanələrdən biri peyğəmbərlik iddiası edən şəxsin ətrafına yığışanların kimliyi ilə maraqlanmaqdır. İddiaçının ətrafına yığışanların nə dərəcədə düzgün insanlar olduğunu araşdırmaq lazımdır. Görəsən, onlar düzgün insanlardır, yoxsa nadürüst insanlar? Görəsən, peyğəmbərlik iddiası edənin ətrafına toplaşanlar imkanlı, vəzifəli insanlardır, yoxsa kasıb və fağır insanlar?

**7. Peyğəmbərin mübarizə vasitələri**

Peyğəmbərlik iddiası edən şəxsin cəmiyyətdə apardığı mübarizəyə də diqqət yetirilməlidir. Görəsən, onun apardığı mübarizə şəxsi mənfəəti naminə camaatı özünə cəlb etmə məqsədi  kəsb edir, yoxsa həqiqətən insanları hidayət edərək cəmiyyətin islah olunması məqsədini daşıyır?

## İslam Peyğəmbəri(s) barədə qısa təhqiqat

Yuxarıda sadalanan bütün bu əlamət və nişanələr vasitəsilə insan peyğəmbərlik iddiası edənin iddiasının düzgün olub-olmadığını öyrənə bilər. Burada çox yaxşı olar ki, dördüncü əlamət və nişanəyə bir neçə cümlə əlavə edək. Dördüncü əlamət budur ki, peyğəmbərin gətirdiyi şəriət (ayinlər) elmi baxımdan nəzərdən keçirilməlidir. Onun gətirdiyi kitaba və dini ayinlərə elm və məntiqlə yanaşıb araşdırma aparılmalıdır. Onun gətirdiyi şəriəti qarşımıza qoyub əvvəldən-axıra qədər ona diqqət yetirmək və bu şəriətdə ən çox maraq yaradanın nədən ibarət

olduğunu araşdırmaq lazımdır? Bu məsələ aydınlaşsa, deməli onun iddiasının düzgün olub-olmaması bəlli olacaqdır.

İslam Peyğəmbəri(s) barədə araşdırma apardıqda görürük ki, onun ilk sözü tövhid (Allahın vəhdaniyyəti) haqqında olmuşdur. Gətirdiyi dini ilk dəfə təbliğ edərkən bu cümləni buyurdu: "Allahdan başqa heç bir məbud yoxdur deyin ki, nicat tapasınız." Bununla yanaşı tərbiyə etdiyi insanların hamısı camaatı Allahın vəhdaniyyətinə dəvət edirdi. Hətta Peyğəmbərin(s) xarici ölkələrə göndərdiyi nümayəndələr belə gözəl və məntiqli sözlərlə çıxış edib camaatı tövhidə dəvət edirdilər. Həzrət Peyğəmbər(s) başqa ölkələrin şahlarına məktublar göndərib onları Allaha ibadət etməyə dəvət edirdi. Şahlardan bəzisi Peyğəmbərin(s) göndərdiyi məktubu və nümayəndəni ehtiramla qarşılayır, bəzisi isə pis münasibət göstərərək onları geri qaytarırdı.

Günlərin birində Həzrət Peyğəmbər(s) bir neçə nəfəri nümayəndə heyəti kimi böyük ölkələrdən birinə yolladı. Həmin ölkənin şahına hədiyyələr və məktub göndərdi. Peyğəmbərin(s) nümayəndələri hədiyyə və məktubu həmin şaha təqdim etdilər. Şah məktubu oxuduqdan sonra həmin adamlarla söhbət etmək qərarına gəldi. Şah onlardan soruşdu: "Siz kimsiniz? Onlar belə cavab verdilər: Bizi İslam Peyğəmbəri(s) göndərmişdir. Şah soruşdu: Sizin məqsədiniz nədir? Peyğəmbərin(s) nümayəndəsi ona çox gözəl cavab verərək dedi: Bizim məqsədimiz bəndələri bəndələrə ibadət etməkdən çəkindirib, yeganə olan Allaha ibadət etməyə çağırmaqdır. Bu dünyanın həqiqi üzünü (dünyanın fani olmasını və axirətin əbədi olmasını) insanlara göstərməkdir. İnsanları

batil din və məzhəblərdən xilas edib İslam və onun ədaləti ilə tanış etməkdir.”

Onlar Peyğəmbərin(s) bütün sözlərini bu üç cümlədə xülasə edib gözəl və məntiqli şəkildə şaha dedilər. Şahın bu sözlərdən çox xoşu gəldi. Onlara hədiyyələr verib Peyğəmbər(s) üçün yolladı. Bundan əlavə müsəlmanlara kömək məqsədilə onlarla iki nəfər həkim də göndərdi. Nümayəndələr Peyğəmbərin(s) hüzuruna gəlib bütün hadisələri təfərrüatı ilə danışdılar, hədiyyələri və həkimləri də İslam Peyğəmbərinə(s) təqdim etdilər. Həzrət Peyğəmbər(s) hədiyyələri qəbul etdikdən sonra həkimlərə təşəkkürünü bildirərək onları geri qaytardı. Onlara bildirdi ki, müsəlmanların həkimə ehtiyacı yoxdur. Çünki İslamın gətirdiyi şəriətlərdən biri budur ki, hər kəs acmadan yeməsə və doymadan yeməkdən əl çəksə, xəstələnməz. Belə olduqda onların sizə ehtiyacı olmayacaq.

Peyğəmbərin(s) onları geri qaytarmasında məqsəd ola bilsin ki, siyasi xarakter kəsb edirdi. Çünki onların göndərilməsində də digər məqsədlər ola bilərdi. Həmçinin ola bilsin ki, Peyğəmbər(s) istəyirdi ki, müsəlmanlar özləri çalışıb tibb sahəsində inkişaf etsinlər və öz camaatına xidmət göstərsinlər.

İslamın tibb sahəsində olan qanunlarına diqqət yetirdikdə görürük ki, həqiqətən bu sahəni də əhatə edir. Yəni Peyğəmbərin(s) gətirdiyi bu din həmçinin təbabət elminin əsaslarını qoymuşdur. Mənim Amerikada yaşayan iranlı bir tanışım var. O, tibb sahəsində böyük mütəxəssislərdən biridir. O, mənimlə bir sinifdə oxumuşdur. O, Amerikada həkimlər şurasının üzvüdür. Günlərin birində biz rastlaşdıq və əyləşib bir-birimizlə hal-əhval tutduq. Söhbət yavaş-yavaş tibbi sahəyə yönəldi. Mən ondan soruşdum: “Təbabət elmində hansı qənaətə

gəlmisiniz? O dedi: Mən orada təbabət elminin bu iki əsas fikrə əsaslandığını gördüm. Yəni bütün təbabət bu iki cümlə üzərində dayanır: İnsan acmadan yeməməli və doymadan yeməkdən əl çəkməlidir. Mən ona dedim: Hədislərdə deyilir ki, insanların ruzisi (qida məhsulları) Allah tərəfindən müəyyən edilmişdir. Allah insana müəyyən müddət ömür vermiş və yaşayacağı həmin müddətdə onun ərzağını da müəyyən etmişdir. Yəni onun yaşayacağı ömür müddətinə uyğun olaraq nə qədər duz, nə qədər yağ və s. qidalardan istifadə edəcəyi müəyyənləşdirilib. Bir insanın ömrü altmış il müəyyən olunubsa, onun ruzisi də altmış il üçün ayrılıb. Bir insan onun üçün müəyyən edilmiş ruzini vaxtından əvvəl yeyib qurtarırsa müxtəlif problemlər qarşıya çıxır. Məsələn, ömrünə uyğun təyin edilmiş duzu vaxtından əvvəl yeyib qurtarsa, xəstəlik əmələ gəlir və həkim ona duz yeməyi qadağan edir. Həmçinin yağ, kalorili yeməklər və s. qidalar da belədir." Dostum bu sözləri qeyd etdi. Həmin söhbətin üstündən bir müddət keçdikdən sonra mən onunla yenə də rastlaşdım. O, mənə dedi: "Biz elmi şurada bu məsələni müzakirəyə qoyduq. Həqiqətən də elmə uyğun, təsdiqlənmiş sözlərdir və təbabətin əsaslarıdır. Hamı yekdilliklə qəbul edib dedi ki, bu, elmi əsaslarla qəbul olunmuş məsələdir."

Odur ki, Həzrət Peyğəmbər(s) şahın göndərdiyi həkimlərə elmi əsaslarla cavab verib onları yola saldı. Həm də Peyğəmbər(s) istəyirdi ki, müsəlmanlar İslam ehkamlarından istifadə edərək özləri hər bir sahədə inkişaf etsinlər. Əgər müsəlman İslamı tanıyıb dəqiqliklə onun qanunlarına riayət etsə və müsəlmançılığın mənasını başa düşsə, bu zaman özü inkişaf edər və heç bir kəsə möhtac qalmaz.

Odur ki, Peyğəmbərin(s) dəvətində ilk söz tövhidə dəvətdir. Bundan sonra Peyğəmbər(s) insanları vəhdət və birliyə dəvət edir. Peyğəmbərin(s) bütün sözləri gözəl və ağlabatandır. Peyğəmbər(s) İslam vasitəsilə illərlə bir-biri ilə müharibə edən qəbilələri barışdırıb onları bir-birinə qardaş etdi. Mədinədə Ovs və Xəzrəc kimi iki böyük qəbilə illərlə bir-birinə qarşı düşmənçilik edirdilər. Demək olar ki, onların hər bir günü müharibə ilə keçirdi. Bu müharibələr minlərlə insanın ölümünə səbəb olmuşdur. Həzrət Peyğəmbər(s) bu qəbilələr arasında mövcud olan ixtilafı aradan qaldırıb onları barışdırdı. Heç bir kəs inanmazdı ki, nə vaxtsa belə bir dinin köməkliyi ilə onların bu düşmənçiliyinə son qoyulacaqdır. Beləcə, illərlə bir-birinə düşmən kəsilmiş bu iki tayfanı bir-birinə qardaş edəcəkdir.

Həzrət Peyğəmbər(s) harada zülm və haqsızlıq görərdisə onlarla mübarizə aparardı. Peyğəmbər(s) bütün zalımları, haqsızları və qəsbkarları məhkum etmişdi. Onun gətirdiyi din heç bir kəsin malını qəsb etməyə icazə vermirdi. Hətta namazda insanın paltarının bir düyməsi belə oğurluq sapla tikilmiş olsa, həmin şəxsin namazı batil sayılır. Belə olduqda onun gətirdiyi bu dinin gözəlliyi qarşısında kim bir söz deyə bilərdi? Peyğəmbər(s) və Həzrətin(s) gətirdiyi bu din insanlara vəzifəyə, pula, qohumluq münasibətlərinə görə deyil, təqvaya və imana görə qiymət verirdi. Əgər Peyğəmbər(s) kasıbların evinə gedirdisə, bu, onların təqvasının çox olduğunu göstərirdi. Bilal Həbəşini özünün azan verəni təyin edirdisə, bu, onun təqvasına görə idi. Əlbəttə, Bilaldan daha yaxşı avazı və tələffüzü gözəl olan möminlər kifayət qədər idi. Bilal qaradərili bir insan idi. Dilinin pəltək, səsinin gözəl olmamasına baxmayaraq, Allaha olan imanına görə

Peyğəmbərin(s) azan verəni olmuşdu. Peyğəmbərin(s) bu hərəkəti günahkar və pozğun insanların xoşuna gəlmirdi. Buna görə də Bilal hər dəfə azan verərkən atmaca sözlərlə onu ələ salırdılar. Bəziləri belə deyərdi: “Yaxşı ki, ata-babalarım öldü, bu günü görmədi.” Bəzisi isə deyirdi: “Görəsən, bu qara qarğa kimdir ki, Peyğəmbər onu kəbənin üstünə çıxarıb.”

Fasiq insanların xüsusiyyəti belədir. Onlar imanlı insanları pul və ya vəzifə ilə ələ almaq istəyərlər. İstəklərinə nail ola bilmədikdə isə həmin şəxsdən acıqları gələr. Buna görə də Bilal azan verdikdə onu təhqir edərdilər.

İslam Peyğəmbərinin(s) gətirdiyi bu dində əmanətə xəyanət yoxdur. Hətta kafir insanın əmanətinə belə xəyanət etmək olmaz. Həm Peyğəmbərin(s) özü, həm də onun tərbiyə edib yetişdirdiyi insanlar da əmin insanlar idilər. Peyğəmbərin(s) övladları da əmanətdar övladlar idilər. İmam Səccad(ə) buyurur: “Əgər Şimr atamın başını kəsdiyi qılıncı mənə əmanət versə, mən onun bu əmanətinə xəyanət etmərəm.”

Digər əlamət və nişanələrə diqqət yetirdikdə görürük ki, İslam Peyğəmbəri(s) yalnız haqq-ədalət vasitəsilə hədəfə nail olurdu. Yalnız halal və düzgün vasitələrdən istifadə etməklə irəli gedirdi. Heç bir vaxt əyri və nadürüst vasitələrdən istifadə etmədi. Çağdaş dünyanın siyasətçilərinə diqqət yetirdikdə görürük ki, onlar öz hədəflərinə çatmaq üçün hər bir vasitədən, hər bir yoldan istifadə edirlər. Qarşılarına məqsəd qoyurlar və yaxşı-pis vasitələrlə, nəyin bahasına olursa-olsun öz hədəflərinə çatmaq istəyirlər.

Peyğəmbərin(s) gətirdiyi din hətta müharibələrdə də belə insanlara qarşı amansızlığa yol verilməsinə icazə

vermir. Məsələn, İslam Peyğəmbəri(s) hərbçi olmayanları öldürməyə, ağacları yandırmağa, suyu zəhərləyib murdarlamağa və ya kiminsə üzünə bağlamağa, əsirlərlə pis rəftar etməyə qətiyyən icazə vermirdi.

İnsanlar İslam Peyğəmbərinin(s) haram və xoşagəlməz yollarla deyil, yalnız halal və dürüst vasitələrlə məqsədə çatmaq istədiyini gördükdən sonra onların ürəyində iman qığılcımı yaranmağa başladı. Həzrət Peyğəmbər(s) insanları ədalətli olmağa çağırırdı. Hətta əgər kiminsə bəzi insanlarla düşmənçiliyi varsa, bu düşmənçilik insanın haqq-ədalətdən uzaq düşməsinə səbəb olmamalıdır. Yəni insan öz düşməni barəsində də ədalətsiz qərar verməməlidir. Həzrət Peyğəmbər(s) həm özü belə idi, həm də başqalarını bu cür olmağa çağırırdı.

Camaat arasında Peyğəmbər(s) barədə xurafat və mövhumatlar yayıldıqda Həzrət(s) bütün bu xurafatların qarşısını alırdı. Çünki Həzrət(s) xurafat və mövhumatla məqsədə çatmaq istəmirdi. Məsələn, Peyğəmbərin(s) oğlu dünyadan gedərkən gün tutuldu. Camaat arasında söz yayıldı ki, günün tutulması Peyğəmbərin(s) oğlunun ölümü ilə əlaqədardır. Zahirən bu kimi şeylər Peyğəmbərin(s) xeyrinə idi, lakin bu söz Həzrətin(s) qulağına çatdıqda həmin şayiənin qarşısını aldı. Bu kimi xurafatlar onun xeyrinə olsa da belə bilirdi ki, illər keçdikdən sonra onsuz da insanlar başa düşəcəklər ki, günün və ayın tutulması kiminsə ölümü ilə əlaqəli deyil. Peyğəmbər(s) bunu camaata başa salmaq üçün övladının cənazəsini yerə qoyub müsəlmanları bir yerə topladı və onlara belə bir xütbə oxudu: “Camaat! Həqiqətən, günəş və ay Allahın nişanələrindəndir. Allahın əmri ilə hərəkət edir və Onun itaətindədirlər. Onlar kiminsə ölməsinə və yaşamasına görə tutulub açılmazlar. Onlardan hər hansı

birinin tutulduğunu gördükdə ayət namazı qılın.” Peyğəmbər(s) sözünü qurtardıqdan sonra özü ayət namazı qıldı və namazdan sonra bir dəstə müsəlmanla birgə övladını dəfn etdilər.

Görürük ki, Peyğəmbər(s) camaatın bu kimi çaşqınlığa düşməsindən və təbiətin onun xeyrinə baş verdiyi hadisələrindən belə sui-istifadə etmir və camaatı düzgünlüyə çağırırdı. Həmçinin İslam Peyğəmbərinin(s) öz gətirdiyi dinə əməl etməsinə diqqət yetirdikdə görürük ki, Həzrət(s) gətirdiyi dinə və şəriət hökmlərinə ilk növbədə və hamıdan gözəl özü əməl edirdi. Döyüş meydanında Peyğəmbər(s) hamıdan qabaqda gedər və düşmənə hamıdan yaxın olardı. Həzrət Əli(ə) Peyğəmbərin(s) döyüşləri haqda belə buyurur:

كُنَّا إِذَا احْمَرَّ الْبَأْسُ اتَّقَيْنَا بِرَسُولِ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ. فَلَمْ يَكُن اَحَدٌ مِنَّا أَقْرَبَ اِلَى العَدُوّ مِنْهُ

-Müharibələrin ən qızğın və şiddətli vaxtlarında Peyğəmbərə(s) pənah aparıb onun kölgəsində daldalanırdıq. Döyüş meydanında düşmənə (hücum edən zaman) bizim hamımızdan çox yaxın Peyğəmbər(s) olardı.

Bu sözləri elə bir şəxs deyir ki, qorxunun nə olduğunu bilmir. Bu sözləri o kəs deyir ki, müharibədə heç bir vaxt düşmənə arxa çevirməyib. Döyüş paltarı toxutdurarkən zirehinin arxası olmazdı. Bu sözləri o kəs deyir ki, ərəblərin içərisində ondan şücaətlisi yoxdur. Bu sözləri o şəxs deyir ki, birisinə zərbə vurduğu zaman ikinci zərbəsinə ehtiyac olmazdı. Belə bir şəxsiyyət deyir ki, müharibənin qızğın və dəhşətli anlarında biz Peyğəmbərə(s) pənah aparıb onun kölgəsində daldalanırdıq.

İslam Peyğəmbərinin(s) bu əlamət və nişanələri bütün aləmə sübut etdi ki, o, Allah tərəfindən göndərilmiş bir Peyğəmbərdir. Əsrimizin görkəmli alimlərinin İslam Peyğəmbəri(s) barədə yazdıqları kitablara nəzər saldıqda görürük ki, heç bir alim Həzrət(s) haqqında mənfi fikir yazmamışdır. Hətta Avropa alimlərinin İslam Peyğəmbəri(s) barədə yazdıqları kitab və məqalələr tərif və mədhiyyələrdən savayı başqa bir şey olmayıb. Çünki ağıl sahibləri ağlın, elmin və məntiqin qəbul etdiyi bir şeyi necə inkar edə bilərlər? İslam Peyğəmbərini(s) təhqir etmək və karikaturalar çəkmək kimi məsələlər isə siyasi oyunlardan başqa bir şey deyildir. Bu kimi siyasi oyunlar isə hər şeydən əvvəl cahil və alçaq insanların törətdiyi hiylələrdir. Belə işlərin kökündə də  siyasət və Əbu Süfyan, eləcə də Əbu Cəhl kimi insanlar dayanır. Bütün bu təhqirlərin heç bir elmi və məntiqi əsası yoxdur.

Onlar Peyğəmbərlə(s) və İslamla bağlı heç bir nöqsan tapa bilmədiklərindən bu kimi alçaq hərəkətlərə əl atırlar. Qoy ağıl sahibləri və alimlər Quranı qarşılarına qoyub ayrı-ayrı ixtisas üzrə onun ayələrində araşdırma aparsınlar. Əgər İslam qanunlarının hər hansı biri elmə uyğun gəlməsə, bunu açıq şəkildə söyləsinlər. Əlbəttə ki, Quran ehkamlarının hamısı elmə söykənir. Əgər düşmənlər hər hansı bir ayədə kiçik bir ixtilaf tapmış olsaydılar, onu çoxdan şişirdib aləmə car çəkərdilər. Uzaqda oturub Peyğəmbər(s) və Quran barədə ağzına gələn sözü hamı danışa bilər. Belə insanlar Peyğəmbərin(s) dövründə də var idi, indiki dövrümüzdə də var, bundan sonra da olacaqlar. Bu kimi nadürüst adamların əlindən bir iş gəlmədiyi üçün oturub ağızlarına gələnləri danışırlar. Halbuki insanlar bütün bu əlamət və nişanələr haqda tam araşdırma apardıqdan sonra İslam

Peyğəmbərinin(s) iddiasının həqiqət olduğunu başa düşdülər və onu ürəkdən qəbul edib ona iman gətirirlər.

## Peyğəmbərləri tanımağın ikinci yolu (keçmiş peyğəmbərlərin təsdiqi)

Peyğəmbərlik iddiası edən şəxsin iddiasının düz olmasının ikinci yolu budur ki, ondan əvvəlki peyğəmbər onu təsdiq etmiş olsun. Yəni dəlil-sübutlarla Allah tərəfindən gəlmiş peyğəmbər özündən sonrakı peyğəmbəri təsdiq etsin. Əgər iddia edən peyğəmbər özündən əvvəlki peyğəmbərin təsdiqini özü ilə gətirə bilsə, onun peyğəmbərliyinə inanmaq olar. Misal üçün İslam Peyğəmbərindən(s) əvvəl böyük peyğəmbərlərdən biri olan Həzrət İsa(ə) olmuşdur. Həzrət İsa(ə) kitab gətirən və bütün insanlara göndərilən böyük peyğəmbər idi. Həzrət İsadan(ə) əvvəl öz zamanında və ondan sonra bəzi peyğəmbərlər də var idi. Lakin Allah-təala onların bəzisini öz ailələrinə, bəzisini bir tayfaya, bəzisini isə bir kənd, qəsəbə və məhəllə üçün peyğəmbər göndərmişdir. Ola bilsin ki, eyni bir zamanda iki və ya üç peyğəmbər gəlmiş olsun və hərəsi də öz kəndində camaatı Allaha tərəf dəvət etmişlər. Lakin bəzi peyğəmbərlər bütün bəşəriyyət üçün göndərilmişlər və onlar insanları Allahın vəhdaniyyətinə dəvət etmişlər. İsa Peyğəmbərlə(ə) İslam Peyğəmbəri(s) arasında 500 il fasilə oldu. Bu 500 ilin adına Quranda və tarixdə fətrət deyilir. Həmin müddətdə camaat öz yolunu müəyyənləşdirə bilmirdi. Çünki İsanın(ə) gətirdiyi kitabı təhrif etmiş və ondan uzaqlaşmışdılar. Əgər həmin kitab onların əllərində təhrif edilmədən və olduğu kimi qalsaydı, bəlkə də həqiqət yolundan azmazdılar. Düşmənlər İsanın(ə) kitabına əl gəzdirərək onu dəyişdirdilər. O kitab İsadan(ə) sonra nazil olduğu kimi camaata çatmadı və onu

təhrif edib dəyişdirdilər. Bu müddət ərzində camaat yollarını azdılar və əyri yola düşdülər. İslam Peyğəmbəri(s) zühur etdikdən sonra insanları düzgün olan yola dəvət etməyə başladı. Onun peyğəmbərliyinin ikinci dəlil və sübutu bu ola bilərdi ki, özündən əvvəl gəlmiş peyğəmbərin kitabında onun təsdiqi olmuş olsun. Əlbəttə ki, İslam Peyğəmbəri(s) İncildə təsdiq və qeyd olunmuşdur. Allah-təala Qurani-Kərimdə bu məsələyə açıq-aydın şəkildə işarə etmişdir. “Səff” surəsinin 6-cı ayəsində belə buyurulur:

وَإِذْ قَالَ عِيسَى ابْنُ مَرْيَمَ يَا بَنِي إِسْرَائِيلَ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُم مُّصَدِّقًا لِّمَا بَيْنَ يَدَيَّ مِنَ التَّوْرَاةِ وَمُبَشِّرًا بِرَسُولٍ يَأْتِي مِن بَعْدِي اسْمُهُ أَحْمَدُ فَلَمَّا جَاءهُم بِالْبَيِّنَاتِ قَالُوا هَذَا سِحْرٌ مُّبِينٌ

-Və (yada sal) o zamanı ki, Məryəm oğlu İsa dedi: “Ey İsrail övladları, şübhəsiz, mən özümdən öncə gələni – Tövratı – təsdiq edən və məndən sonra gələcək “Əhməd” adlı Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) müjdəsini verən sizə göndərilmiş Allah peyğəmbəriyəm.” Amma o, (Əhməd – səlləllahu ələyhi və alihi və səlləm) gəldikdə və onlara aydın dəlillər gətirdikdə dedilər: “Bu, açıq-aşkar bir sehrdir.”

Kitab əhli İsanın(ə) bu sözlərini inkar etmədilər. Heç bir tarixdə yoxdur ki, İsanın(ə) bu müjdəsini (özündən sonra Əhməd adlı peyğəmbərin gəlməsini) kitab əhli qəbul etməmiş olsun. İllər keçdikdən sonra İslam Peyğəmbəri(s) zühur etdi və kitab əhlinə bu ayəni oxudu. Bütün kitab əhli yekdilliklə Həzrətin(s) sözlərini qəbul və təsdiq etdilər. Onların heç biri demədi ki, İsa(ə) belə bir söz söyləməyib.

İsanın(ə) gətirdiyi İncil kitabı düşmənlər tərəfindən təhrif olundu. Həmin kitabın təhrif olunmasına baxmayaraq, İslam Peyğəmbərinin(s) müjdəsi hələ də qalmışdır. Yuhənna İncilinin 14,15 və16-cı fəsillərində İsa(ə) İslam Peyğəmbərinin(s) adını çəkmişdir. Onlar Peyğəmbəri(s) öz övladlarını tanıdıqları kimi tanıyırdılar. Düzdür, bir dəstəsi Peyğəmbəri(s) danırdılar, lakin bu danmaq o demək deyil ki, tanımırdılar. Onlar Peyğəmbəri(s) çox yaxşı tanıyırdılar, lakin özlərinə sərf etmədiyi üçün onu danmaq məcburiyyətində qalmışdılar. Quranın "Bəqərə" surəsinin 146-cı ayəsində bu məsələyə belə işarə edilir:

الَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَعْرِفُونَهُ كَمَا يَعْرِفُونَ أَبْنَاءهُمْ وَإِنَّ فَرِيقاً مِّنْهُمْ لَيَكْتُمُونَ الْحَقَّ وَهُمْ يَعْلَمُونَ

-(Səma) kitab(ı) verdiyimiz şəxslər onu (Muhəmmədi-səlləllahu əleyhi və alihi və səlləm-Tövrat və İncilin onu kamil tanıtdırması əsasında) öz oğullarını tanıdıqları kimi tanıyırlar. Həqiqətən, onların bir dəstəsi haqqı bilərəkdən israrla gizlədir.

Bu məsələ hətta imamlarımızla kitab əhli arasında olan söhbət və müzakirələrdə də öz təsdiqini tapmışdır. İmamlarımız bəzi kitab əhli ilə bu barədə söhbətlər etmiş və dəlil-sübutlarla onların bəhanələrini kəsmişlər. İslam tarixində belə mübahisələr çox olmuşdur. Bildiyiniz kimi, hər bir imamın zamanında xüsusi bir vəziyyət var idi. İmamlarımızın yaşadığı dövrlərin hamısı eyni cür deyildi. Həzrət Əlinin(ə) dövrü belə idi ki, bir qrup insanla məşğul idi. İmam Həsənin(ə) dövrü tamam başqa idi. İmam Həsənin(ə) dövründə onun sülhdən savayı ikinci bir yolu yox idi. Əgər ikinci yolu olmuş olsaydı, mütləq həmin

yoldan istifadə edərdi. İmam Hüseynin(ə) vəziyyəti də tamamilə fərqli idi.

Müaviyə hələ sağ ikən oğlu Yezidin hakimiyyətə yiyələnməsi üçün bütün lazımi şəraiti düzüb qoşmuşdu. Yezid hakimiyyətə gəldikdən sonra heç atasının sözünə belə məhəl qoymadı. Vəziyyəti elə bir həddə gətirib çıxardı ki, İmam Hüseynin(ə) məsələsi Kərbəlaya çəkildi. İmamın(ə) Kərbəladan başqa ikinci bir yolu yox idi. İmam Hüseyn(ə) iman və İslamın qalması və yaşaması üçün Kərbəladan savayı başqa bir yol görmədi. Beləcə, Həzrət(ə) Kərbəlaya gəldi və Allahın istəyini, babasının gətirdiyi dini öz qanı və canı bahasına qoruyub saxladı.

İmam Səccadın(ə) vəziyyətinə gəldikdə isə Həzrət(ə) fikirlərini yalnız dua etməklə insanlara çatdırırdı. Onun vəziyyəti belə idi ki, həmişə düşmənlərin nəzarəti altında idi. Hara gedirdisə, onun ardınca mütləq bir neçə nəfər casus düşürdü. İmam Baqirin(ə) dövründə vəziyyət nisbətən dəyişildi və elm inkişaf etməyə başladı. Yəni Həzrətin(ə) dərs deməsi üçün yaxşı imkanlar yarandı. Müsəlmanlar onun elmindən istifadə edib bəhrələnməyə başladılar.

Bu məsələ İmam Sadiqin(ə) imamətinin yarısına qədər davam etdi. Hər iki imamın dövründə elm inkişaf etdiyindən görkəmli alimlər də yetişməyə başladı. Cabir ibn Həyyan kimi şəxsiyyətlər bu iki imamın zamanında yetişib müxtəlif elmi dərəcələrə çatdılar. Əsrimizdə Avropanın böyük universitetlərində İbn Sina kimi böyük şəxsiyyətlərin şəkillərinin nümunəvi bir alim kimi divara vurulması həmin iki imamın elminin bəhrəsidir. Yəni böyük və görkəmli İslam şəxsiyyətləri və alimlərinin yetişməsinin təməli İmam Baqir(ə) və İmam Sadiqin(ə) dövründə qoyulmuşdur.

İmam Sadiqin(ə) imamətinin axır vaxtları və İmam Museyi Kazimin(ə) iməməti Harunun xilafəti dövrünə təsadüf edirdi. Harunun əlindən zindandan başqa bir şey gəlmədiyi üçün hər bir kəsi tutub dustaq edirdi. Tarixi mənbələrin yazdığına görə, İmam Museyi Kazim(ə) yeddi il (bəzi mənbələrdə on bir il, bəzisində isə on dörd il) zindan həyatı sürmüşdür.

İmam Rzanın(ə) zamanında isə vəziyyət tamamilə dəyişildi. Həzrətin(ə) zamanında kəlam, fəlsəfənin bir qismi və məntiq elmi vüsət tapmağa başladı. Onun dövründə həmçinin İslam bir çox ölkələri də fəth edərək daha da vüsət tapdı. Beləliklə, böyük bir ölkə vücuda gəlmişdi. Alimlərin hamısı bir ölkənin vətəndaşı olduğundan bir-biri ilə elmi mübahisələr və müzakirələr aparılmasına şərait yaranmışdı. İmam Rzanın(ə) imaməti dövründə xilafət kürsüsündə olan Məmun keçmiş xəlifələrdən fərqli olaraq tamamilə başqa insan idi. Məmunun elmə böyük həvəsi var idi və alimlərin bir yerə toplaşıb mübahisələr etməsindən çox xoşu gəlirdi. Bəzən özü də onların söhbətlərinə müdaxilə edirdi.

Məmun belə məclisləri tez-tez təşkil edərdi və çox vaxt özü də həmin məclislərdə iştirak edirdi. Bəzi vaxtlar İmam Rzanı(ə) da həmin məclislərə dəvət edirdi. O, bu işi görməkdə siyasi məqsəd güdürdü. İmam Rzanı(ə) özünə müavin etmişdi. Məqsədi bu idi ki, İmam Rza(ə) alimlərlə mübahisədə qalib gəlsə, camaat deyəcək ki, Harunun müavini belə biliklidirsə, görəsən özü necə alimdir? Yox, əgər İmam Rza(ə) alimlərlə mübahisə zamanı məğlub olsa, camaat biləcək ki, müsəlmanların imamı savadsızdır. Bir sözlə, Məmunun bu kimi məclisləri təşkil etməkdə xüsusi bir məqsədi var idi.

İmam Rzanın(ə) ən diqqətçəkən mübahisələrindən biri də xristian alimi ilə etdiyi mübahisə idi. Məmun bütün kitab əhlinin alimlərini, digər alimləri və İmam Rzanı(ə) öz sarayına dəvət edərək böyük bir məclis təşkil etdi. Bütün alimlər yığışdıqdan sonra İmam Rza(ə) məclisə daxil oldu. Həm Məmun, həm də məclisə yığışanların hamısı İmama(ə) ehtiram əlaməti olaraq ayağa qalxdılar. Məmun İmamı(ə) öz yanında əyləşdirdi. İmam Rzanın(ə) səhabələrindən biri olan Nofəl bu məsələdən çox narahat idi. Məmunun bu məclisi nə üçün təşkil etdiyindən onun xəbəri var idi. Odur ki, İmam Rzaya(ə) yaxınlaşıb söz demək üçün bir fürsət axtarırdı. İstəyirdi İmama(ə) bildirsin ki, bura yığışan alimlərin içərisində elələri var ki, niyyətləri düz deyil. Onlar İmamı(ə) gözdən salmaq istəyirlər. Məmunun da məqsədi məhz budur.

Nofəl buna görə də çox nigaran idi. İstəyirdi ki, İmamı(ə) bütün bunlardan xəbərdar etsin. Odur ki, İmam Rza(ə) içəri daxil olmamışdan əvvəl fürsət tapıb bütün bunları Həzrətə(ə) bildirdi. İmam Rza(ə) buyurdu: "Nofəl, sən bunları bilirsən, lakin Məmunun necə peşman olacağından xəbərin yoxdur. Mənim orada Tövrat əhlinin alimləri ilə Tövrat əsasında, İncil əhlinin alimləri ilə İncil əsasında, Zəbur əhlinin alimləri ilə Zəbur əsasında, xristian və yəhudilərlə öz dillərində, atəşpərəstlərlə fars dilində, bizanslılarla öz dillərində mübahisə etdiyimi gördükdə Harun başda olmaqla onların hamısı peşman olacaqlar. Sən heç narahat olma."

Nəhayət, məclisi açıq elan etdilər. Harun İmam(ə) gəlməmişdən əvvəl məclisdə iştirak edən alimlərlə xüsusi söhbət edərək haradan başlayıb harada qurtarmağı planlaşdırdılar. Məclis başladıqda Harun üzünü xristian alimlərindən olan Casliqə tutub dedi: "Yaxşı olar ki, ilk

növbədə Əli ibn Musa ilə söhbətə sən başlayasan. Casliq dedi: Mən onunla necə söhbət edim? O, müsəlman, mən isə xristianam. O, mənə Qurandan dəlillər gətirəcək, mən də bu dəlilləri qəbul etməyəcəyəm. Özüm xristian olduğum üçün İncildən başqa heç bir dəlil-sübutu qəbul etmirəm. Əgər İncildən dəlil gətirsə, mən onunla söhbət edərəm.

İmam Rza(ə) üzünü Casliqə tutub buyurdu: Əgər mən səninlə İncil əsasında söhbət etsəm, sözlərimi qəbul edərsənmi?

Casliq: Bəli. İncildən hər nə buyursanız, danmaram.

İmam Rza(ə): Elə isə sualını ver.

Casliq: İncilin və İsanın barəsində fikriniz nədir?

İmam Rza(ə): Mən İsanın(ə) peyğəmbərliyinə və onun gətirdiyi İncilə inanıb ona iman gətirmişəm. İsa(ə) Allahın insanlara göndərdiyi bir peyğəmbər, İncil isə onun vasitəsilə insanlara göndərilən bir kitabdır. Lakin siz qəbul etdiyiniz İsanı və İncili qəbul etmirəm. Mən Allahın göndərdiyi İsanı və İncili qəbul edirəm. Sizin barəsində danışdığınız İsanı və İncili isə qəbul etmirəm. Çünki siz deyən yox, Allahın göndərdiyi İsa və İncil İslam Peyğəmbəri(s) barədə söz açmışdır.

Casliq: Çox yaxşı. Lakin hər kəs öz danışdığı söz üçün dəlil-sübut gətirsin. Buyurduğun bu sözlərə sübut istəyirəm.

İmam Rza(ə): Yuhənna Deyləmini tanıyırsanmı?

Casliq: Bəli.

İmam Rza(ə): Sən onu yaxşı tanıyırsan və qəbul edirsənmi?

Casliq: Əlbəttə, qəbul edirəm.

İmam Rza(ə): Mənim və sənin əlində olan Yuhənnanın yazdığı kitabı qəbul edirsənmi?

Casliq: Bəli, qəbul edirəm.

İmam Rza(ə): Əgər ondan sənə sübut gətirsəm, qəbul edərsənmi?

Casliq: Bəli. Çünki Yuhənna Deyləmi İsa Məsihin(ə) yanında ən sevimli insan olub. Sonra bir kitab yazmışdır.

İmam Rza(ə): İncildə yazılmışdır ki, Yuhənna deyir: “Həzrət İsa Məsih mənə xəbər verdi ki, ərəblərin içərisində Əhməd adlı bir peyğəmbər zühur edəcək. Mən bu xəbəri bütün insanlara çatdırıram. İsa Məsihi sevənlər də onun bu sözlərini qəbul etmişlər.”

Sən bu sözləri qəbul edirsənmi?

Casliq: Bəli, bu doğrudur. Yuhənna İsa Məsihin(ə) tərəfindən gəlmiş və gələcəkdə zühur edəcək peyğəmbərin müjdəsini vermişdir, lakin adını söyləməmişdir.

İmam Rza(ə): Əgər İncildə olan və Yuhənnanın yazdığı əlamətləri desəm, qəbul edərsənmi?

Casliq: Bəli. Əgər İncildən desən, qəbul edərəm.

İmam Rza(ə) üzünü xristian alimlərindən biri olan Qəstasi Rumiyə tutub buyurdu: İncildən üçüncü sefri oxu. Qəstas dedi: Mən İncili əzbərdən bilmirəm. İmam(ə) üzünü digər xristian aliminə tutub buyurdu: Elə isə sən oxu. Həmin alim İncilin üçüncü sefrini oxumağa başladı. Əlamətlərə çatdıqda İmam Rza(ə) Casliqə buyurdu: Bu əlamətlərə sözün nədir? İndi inandınmı?

Casliq: Mən bu əlamətləri danmağa qadir deyiləm. Öz oxuduğumuz İncili necə inkar edə bilərəm?”

Bu sözlərdən sonra İmam Rza(ə) orada İsa Peyğəmbər(ə) haqda çıxış etməyə başladı. Həzrətin(ə) sözlərinin qısa xülasəsi belədir: “İsa yalnız Allahın bəndəsi və peyğəmbəridir. Möcüzəyə gəldikdə isə, İsadan savayı başqa peyğəmbərlərin də möcüzələri olmuşdur.”

Bu barədə çox söhbət etmək olar. İmam Rza(ə) bu çıxışdan sonra orada əyləşən digər alimlərlə də dialoqa girdi və onların bütün suallarını öz kitablarına əsasən cavablandırdı. Hər bir kəs onun sözlərini qəbul edərək razılığını bildirdi. Bizim əsas bəhsimiz peyğəmbərləri tanımağın yolları barədə olduğundan burada İmam Rza(ə) ilə xristian alimi arasındakı İsa Məsihin(ə) sonuncu Peyğəmbər(s) haqda dediyi sözlərə dair mübahisəni nəzərinizə çatdırdım.

## İslam Peyğəmbərinin(s) adları

Burada bəziləri üçün qaranlıq qalan bir məsələyə aydınlıq gətirək. Yuxarıda qeyd etdiyimiz "Səff" surəsinin 6-cı ayəsində buyurulur: "Məndən sonra gələcək "Əhməd" adlı Peyğəmbərin(s) müjdəsini verən sizə göndərilmiş Allah peyğəmbəriyəm." Bu ayədə İsa(ə) Əhməd adlı peyğəmbərin müjdəsini verir. Halbuki İslam Peyğəmbərinin adını Quranda "Məhəmməd" oxuyuruq. Bu adların nə dərəcədə bir-biri ilə uyğun gəlməsinə diqqət yetirək. Ümumiyyətlə, İslam Peyğəmbərinin(s) on adı vardır. Bu adların beşi hədislərdə, beşi isə Quranda zikr olunmuşdur. Quranda çəkilmiş adlara nəzər salaq:

1. "Fəth" surəsinin 29-cu ayəsində belə oxuyuruq:

مُّحَمَّدٌ رَّسُولُ اللَّهِ وَالَّذِينَ مَعَهُ أَشِدَّاء

عَلَى الْكُفَّارِ رُحَمَاء بَيْنَهُمْ

-Məhəmməd Allahın peyğəmbəridir. Onunla birgə olanlar kafirlər qarşısında güclü və sərt, öz aralarında isə mehribandırlar.

2. "Səff" surəsinin 6-cı ayəsində buyurulur:

وَإِذْ قَالَ عِيسَى ابْنُ مَرْيَمَ يَا بَنِي إِسْرَائِيلَ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُم مُّصَدِّقًا لِّمَا بَيْنَ يَدَيَّ مِنَ التَّوْرَاةِ وَمُبَشِّرًا بِرَسُولٍ يَأْتِي مِن بَعْدِي اسْمُهُ أَحْمَدُ

-Və (yada sal) o zamanı ki, Məryəm oğlu İsa dedi: “Ey İsrail övladları, şübhəsiz, mən özümdən öncə gələni – Tövratı – təsdiq edən və məndən sonra gələcək “Əhməd” adlı Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) müjdəsini verən sizə göndərilmiş Allah peyğəmbəriyəm.”

3. “Cinn” surəsinin 19-cu ayəsində belə buyurulur:

وَأَنَّهُ لَمَّا قَامَ عَبْدُ اللَّهِ يَدْعُوهُ كَادُوا يَكُونُونَ عَلَيْهِ لِبَدًا

-Abdullah (Allah bəndəsi) (Peyğəmbər) Allahı çağırmaq üçün qalxdıqda (möminlər və müşriklər Quranın heyrətamiz ayələrini dinləmək üçün) az qala hamılıqla onun başına tökülüşələr.

4. “Yasin” surəsinin əvvəllərində belə oxuyuruq:

يس. وَالْقُرْآنِ الْحَكِيمِ. إِنَّكَ لَمِنَ الْمُرْسَلِينَ

-Ya, Sin. (Ey Sin). Bu hikmətli Qurana and olsun ki, şübhəsiz, sən (Allah) peyğəmbərləri (zümrəsi)ndənsən (peyğəmbərliyə seçildiyin vaxtdan insanların nəsilləri kəsilincəyədək onlara göndərilmisən).

5. “Qələm” surəsində isə Peyğəmbərin(s) adı “Nun” yazılıb.

ن وَالْقَلَمِ

-Nun. And olsun qələmə.

Peyğəmbərin(s) bu beş adı Quranda göstərilmişdir. Peyğəmbərin(s) bu adlarını Allah Özü təyin etmişdir. Ümumiyyətlə, çox az insan var ki, onların adını Allah təyin etmişdir. Quranda adları Allah tərəfindən təyin olunmuş insanlardan biri Adəm(ə), biri Yəhya(ə), biri

İsa(ə), bir də Məhəmməd(s) peyğəmbərdir. Hədislərdə isə İslam Peyğəmbəri(s) başda olmaqla Əli(ə), Fatimə(s.ə), Həsən(ə) və Hüseyndir(ə) ki, onların adları Allah tərəfindən qoyulmuşdur.

Əbu Hüreyrə Həzrət Peyğəmbərdən(s) belə bir hədis nəql edir:

قَالَ رَسُولُ اللهِ(ص): لَمَّا خَلَقَ اللهُ تَعَالَى آدَمَ اَبَا البَشَر وَ نَفَخَ فِيهِ مِنْ رُوحِه, اِلْتَفَتَ آدَم يَمْنَة العَرش فَاِذَا فِي النُّورِ خَمْسَةِ اَشْبَاحٍ سُجَّداً وَ رُكَّعاً

قَالَ: هَل خَلَقتَ اَحَداً مِن طِينٍ قَبلى؟

قَالَ تعالى: لا يَاآدَم

قَالَ: فَمَن هَؤلاءِ الخَمسَةُ الاَشبَاحُ الَّذِينَ أرَاهُم فِي هَيئَتِي وَ صُورَتِى؟

قَالَ تَعالى: هَؤلاءِ الخَمسَةٌ مِن وُلْدِك لَولاَهُم وَمَاخَلَقتُك.

هَؤلاءِ خَمْسَةٌ شَقَقتُ لَهُم خَمسَةَ اَسمَاءٍ مِن اَسمَائِى لَولاَهُم وَ مَا خَلَقتُ الجَنَّةَ وَالنَّارَ وَلاَالعَرشَ وَلاَالكُرسِىَ وَلاَالسَّمَاءِ وَلاَالاَرضَ وَلاَالمَلاَئِكَةَ وَلاَالاِنسَ وَلاَالجِنَّ

-Allahın Rəsulu(s) buyurdu: “İlahi, məgər məndən qabaq torpaqdan kimisə yaratmısan? Allah buyurdu: Xeyr, ey Adəm. Adəm soruşdu: Bəs onda öz şəkil və surətimdə gördüyüm bu beş nəfər kimlərdir? Allah buyurdu: Bu beş kimsə sənin nəslindəndir. Ey Adəm, əgər onlar olmasaydı, heç səni yaratmazdım. O beş nəfərin adını Öz adımın kökündən ayırmışam. Əgər onlar olmasaydı, cənnəti və

cəhənnəmi, ərşi və kürsünü, göyü və yeri, mələkləri, insanları və cinləri yaratmazdım.”[1]

اَنَاالمِحمُود وَهَذَا اَحمَد اَنَا لأَعلَى وَهَذَا عَلِىّ اَنَا الفَاطِرُ وَهَذِهِ فَاطِمَة اَنَا المِحسِن وَهَذَا حَسَنٌ اَنَا ذَوالِاِحسَان وَهَذَا حُسَين. آلَيْتُ بِعِزَّتِي اَن لايَاتِينِي اَحَدٌ بِمِثْقَالَ ذَرَّةٍ مِنْ خَرْدَلٍ مِن بُغْضٍ اَحَدُهُم اِلاّ اَدخله نَارِي وَلا اُبَالِي، يَاآدَم هَؤُلاءِ صَفْوَتِى، بِهِم اُنَجِّيهِم وَ بِهِم اُهلِكهِم، فَإِذَا كَانَ لَكَ اِلَىَّ حَاجَةٌ فَبِهؤُلاءِ تَوَسَّل

-(Allah-təala Adəmi bir-bir onlarla tanış edərək buyurdu:) Mən Mahmudam, bu Əhməddir. Mən Aliyəm, bu Əlidir. Mən Fatirəm, bu Fatimədir. Mən Möhsinəm, bu Həsəndir. Mən Zül-ehsanam, bu isə Hüseyndir.

Ey Adəm, Öz izzətimə and olsun ki, hər kəsin ürəyində bu beş nəfərin birinə qarşı zərrə qədər ədavət, kin-küdurət olsa, həmin şəxsi cəhənnəmə daxil edəcəyəm. Heç onunla maraqlanmayacağam. Mən insanların içərisində bu beş nəfəri seçib bəyənmişəm. Bütün insanlara bu beş nəfərə xatir nicat verirəm, (bəlalardan) qurtarıram və yaxud təhlükəyə atıram. (Hər kəs məhvə doğru gedirsə bunlardan ayrı olduğuna görədir.) Ey Adəm hər zaman sənin Məndən bir hacət və istəyin olsa, sən bu beş kimsəyə təvəssül et. (Mən bunların vasitəsilə sənin istəyini yerinə yetirərəm.)

Odur ki, İslam Peyğəmbərinin(s) müxtəlif adları var idi. Hamı onun adlarını çox yaxşı bilirdi. O ki qaldı İsanın(ə) İslam Peyğəmbəri(s) haqqında müjdə verməsinə,

[1] Həccül-mətalib, səh.320. Əl-Ğədir, 7-ci cild, səh.301.

İsa Peyğəmbər(ə) onu Əhməd adı ilə camaata müjdə vermişdir. İsanın(ə) bu müjdəsini eşidənlərin heç biri bunu tərəddüd etmədilər. Demədilər ki, Əhməd kimdir? Çünki ərəblərin içində babası Əbdülmüttəlib İslam Peyğəmbərini(s) həmişə Məhəmməd(s) deyə çağırırdı. Anası Amənə isə ömrünün axırına qədər onu Əhməd deyə çağırardı. Həmçinin Peyğəmbər(s) haqda şeir yazanlar da Həzrəti(s) müxtəlif adlarla qələmə almışlar. Bəzisi Məhəmməd və bəzisi isə Əhməd adı ilə onu tərif edərək şəninə şeirlər qoşmuşlar. Əmisi Əbu Talib də onun şəninə yazdığı şeirlərdə müxtəlif adlarla tərif etmişdir. Bəzi misralarında Məhəmməd, bəzi misralarında isə Əhməd adını işlətmişdir. Məsələn, onun yazdığı şeirlərin bəzi misralarına diqqət yetirək:

اَرادُو قَتلَ اَحْمد ظَالِمُوهُم     وَ لَيسَ بِقَتلِهِم فِيهِم زَعِيمٌ

-Zalımlar Əhmədi öldürmək üçün qərara gəldilər. Lakin bu işi görməyə özlərinə başçı tapa bilmədilər.

Bəzi şeirlərin bir misrasında Məhəmməd, digər misrasında isə Əhməd adını işlətmişdir:

لَقَد كَرَّمَ اللهُ النَّبى مُحَمَّدًا     فَاَكرَمَ خَلقِ اللهِ فِى النَّاسِ اَحْمَد

-Allah Öz peyğəmbəri olan Məhəmmədi kəramətli etdi. Buna görə də Əhməd insanların içində ən kəramətli insandır.

Hər bir kəs Həzrət Peyğəmbərin(s) adlarını çox yaxşı bilirdi. Peyğəmbərin(s) bu adları camaat arasında o qədər adi hal almışdı ki, “Səff” surəsinin ayələrini camaata oxuyarkən, İsanın(ə) Əhməd adlı bir peyğəmbər müjdəsi verdiyini eşitdikdə, heç bir kəs etiraz etmədi. Heç bir kəs demədi ki, görəsən, Əhməd kimdir?

## Peyğəmbərləri tanımağın üçüncü yolu (möcüzələr)

Peyğəmbərlik iddiası edən şəxs böyük bir iddia etdiyi üçün onun əlində möhkəm və böyük dəlil-sübutlar olmalıdır. Qeyd olundu ki, peyğəmbərləri üç yolla tanımaq olar. Peyğəmbərlik iddiası edən şəxs bu üç dəlil-sübutla gələrsə, onun iddiasına inanmaq olar. Həmin yollardan ikisi haqqında müəyyən qədər söz açdıq. Bu bəhsimizdə isə peyğəmbərlərin tanınmasının üçüncü yolu barədə söhbət edəcəyik. Peyğəmbərləri tanımağın üçüncü yolu və onların iddialarının düz olmasının səbəblərindən biri də möcüzələrdir. İlk növbədə möcüzənin nə olduğunu özümüz üçün aydınlaşdıraq.

## Möcüzə nədir?

Özündə üç xüsusiyyət və şərtə malik olan xariqülada və ya qeyri-adi bir əməl möcüzədir. Qeyri-adi əməl ona deyilir ki, adət etdiyimizdən kənar olmuş olsun. Yəni heç bir kəsin bacarmadığı bir əmələ qeyri-adi əməl deyilir. Bu qeyri-adi əməlin üç şərti var. Həmin üç şərtin hamısı bir yerdə cəmləşsə, ona möcüzə deyilər. Üç şərtdən biri olmasa, artıq möcüzə deyil. Möcüzə olması üçün mütləq həmin üç şərtə əməl edilməlidir.

Möcüzənin şərtlərindən biri budur ki, heç bir kəsin görə bilmədiyi qeyri-adi bir iş görsün və adi insanlar həmin işi görməkdə aciz olsunlar. Məsələn, əlli yaşlı bir insanın gözəl natiq olması adi haldır. Lakin səkkiz yaşında olan bir uşaq da həmin natiq kimi gözəl danışa bilər. Belə olduqda bu uşaq istisna təşkil edir və qeyri-adi bir insandır. Azərbaycanda, Almaniyada və yaxud dünyanın müxtəlif ölkələrində də belə uşaqlar ola bilər.

Məsələn, Təbatəbayinin 5 yaşında bütün Quranı əzbər bilməsi insanları xeyli təəccübləndirmişdi. Onu bir çox konfranslara və Quran müsabiqələrinə dəvət etmişdilər. Quranın hansı ayəsindən sual versəydilər, həmin ayəni deyib hansı surəyə aid olduğunu söyləyərdi. Yaxud "filan surənin filan ayəsini söylə" - dedikdə, başlayıb həmin ayəni əzbər deyərdi. Bu, əlbəttə ki, qeyri-adi və istisna təşkil edən bir insandır. Lakin onun belə bir işi bacarmasına möcüzə demək olmaz. Çünki eynilə belə bir uşağın başqa yerdə olması da mümkündür. Yaxud ondan bir yaş böyük bir uşaq da bütün Quranı əzbər deyə bilərdi. Bütün bunlar insanı heyrətə salan işlərdir. Lakin buna möcüzə deməzlər. İndi əgər dünyaya gəlmiş birhəftəlik uşaq əlli yaşlı bir natiq kimi xütbə oxusa, bu əlbəttə ki, ilahi bir möcüzədir. Çünki bu elə bir şeydir ki, onu heç bir kəsə öyrətmək mümkün deyil. Beş yaşlı uşağa öyrətmək mümkündür, lakin anadan yenicə olmuş körpəyə öyrətmək qeyri-mümkündür. Deməli, dahi insanların bacarmadığı qeyri-adi şeyləri bilmək möcüzənin birinci şərti hesab olunur. Amma bu da hələlik möcüzə deyil. Çünki üç şərtin hamısı olmasa, ona möcüzə demək olmaz.

Möcüzənin ikinci şərti budur ki, həmin şəxs bacardığı şeyin qeyri-adi olduğunu və özündən başqa heç bir kəsin bacarmadığını iddia edib onu həm də sübuta yetirsin, habelə insanlara bu barədə meydan oxusun. Yəni insanları mübarizəyə dəvət etsin. Belə ki, gördüyü qeyri-adi işin başqaları tərəfindən də görülməsini tələb etsin. Kimin hünəri varsa, buyurub onun gördüyü işi görsün. Yəni möcüzə göstərir və yer kürəsinin bütün insanlarını meydana çağırır. Belə olduqda cadu, sehr, gözbağlayıcı kimi şeylərlə möcüzənin fərqi məlum olur. Sehr və cadu başqa, möcüzə isə tamam başqa şeydir. Sehrlə möcüzənin

fərqlərindən biri odur ki, sehrdə insanlar yalnız bacardıqlarını edirlər. Möcüzədə isə necə sifariş edib istəyirsənsə, o cür də olmalıdır. Məsələn, camaat İsanın(ə) peyğəmbər olduğunu yoxlamaq üçün ondan ölünü diriltməklə möcüzə göstərməsini istədilər. Neçə illər bundan öncə ölmüş bir insanın qəbrinin kənarına gəlib orada dəfn olunan ölünü diriltdikdən sonra camaata buyurdu: "İndi isə sizlərdən hansı biriniz bu işi görə bilərsiniz?" Hamı susub deməyə bir söz tapmadı. Deməli, sehr bildiyini etmək, möcüzə isə necə istəsələr, o cür etməkdir. Elə bir şey ki, heç bir kəs onu bacarmasın.

Musanın(ə) dövründə sehrkarlar sehr və caduya öyrəşmişdilər. Onlar kəndirlərin içinə civə töküb günün altına atmaqla camaata özlərinin qeyri-adi olduqlarını nümayiş etdirirdilər. İçi boş kəndirlərin içinə civə töküb günün altına atdıqda həmin kəndir tərpənməyə başlayır. Çünki civəyə gün dəydikdə yerində qalmır və o tərəf, bu tərəfə qaçır. Camaat da elə başa düşürdu ki, onlar kəndirləri ilana çeviriblər. Musa(ə) onlara öz əsasını göstərib yerə atdı. Əsa dönüb əjdaha oldu və onların bütün sehrlərini bir anda uddu. Bütün camaat əsanın böyük bir əjdahaya döndüyünü görüb vahiməyə düşdülər. Onlar Musadan(ə) başqa möcüzələr göstərməsini istədikdə Musa(ə) onlara bu möcüzələri göstərirdi. Hər nə istəyirdilərsə, Musa(ə) bunu onlara göstərirdi. Məsələn, camaat ona dedi: "Biz istəyirik ki, sən möcüzə göstərib filan ölünü dirildəsən." Onlar birlikdə qəbiristanlığa gedib qəbri açdıqdan sonra Musa(ə) həmin ölüyə dedi: "Allahın izni ilə qalx!" Neçə gün əvvəl dünyadan getmiş həmin ölü ayağa qalxdı.

Musa(ə) üçün bunun heç bir çətinliyi yox idi. Çünki bütün bunlar Allahın izni ilə baş verirdi. Bu, bir elm

deyildi ki, Musa(ə) gedib ölünü diriltməyin yolunu öyrənib gəlsin. Möcüzə öyrənib öyrədiləsi bir şey deyildir. Buna görə də sehrlə möcüzənin fərqlərindən biri də odur ki, sehri və cadunu başqasına öyrətmək mümkündür. Lakin möcüzəni başqasına öyrətmək mümkün deyil. Həzrət İsa(ə) ölünü diriltməyin yolunu heç bir kəsə öyrədə bilməzdi. Çünki bütün möcüzələr Allahın izni ilə baş tutur. Allah istəsə baş tutacaq, istəməsə baş tutmayacaq. Qurani-Kərimdə də bütün bunlara aid ayələr vardır. Hamısını burada qeyd etmək mümkün olmasa da nümunə üçün bir-iki ayədən istifadə etmək mümkündür. Məsələn, sehr və cadunun kiməsə öyrədilməsi və öyrənilməsinin mümkün olduğu haqda belə oxuyuruq:

وَلَكِنَّ الشَّيْاطِينَ كَفَرُواْ يُعَلِّمُونَ النَّاسَ السِّحْرَ وَمَا أُنزِلَ عَلَى الْمَلَكَيْنِ بِبَابِلَ هَارُوتَ وَمَارُوتَ وَمَا يُعَلِّمَانِ مِنْ أَحَدٍ حَتَّى يَقُولاَ إِنَّمَا نَحْنُ فِتْنَةٌ فَلاَ تَكْفُرْ فَيَتَعَلَّمُونَ مِنْهُمَا مَا يُفَرِّقُونَ بِهِ بَيْنَ الْمَرْءِ وَزَوْجِهِ

-Lakin şeytanlar camaata sehr öyrətməklə və həmçinin Babil diyarına nazil olmuş iki mələyə - Harut və Maruta nazil olanla (onlara tabe olmaqla) kafir oldular. Halbuki o ikisi "biz yalnız imtahan vasitəsiyik (və sehri sənə yalnız sehrbazlarla mübarizə və onların sehrini batil etmək üçün öyrədirik)" deməkdən başqa heç kəsə (bir şey) öyrətmirdilər. Odur ki, amandır, küfr etmə (və sehri qadağan olunmuş yerlərdə istifadə etmə)! Lakin onlar o iki mələk vasitəsilə ərlə arvad arasında ayrılıq saldıqları şeyi öyrənirdilər.[1]

[1] Bəqərə surəsi, ayə 102.

Sehrbazlıq, cadugərlik, fokus göstərmə və gözbağlayıcılıq elə şeylərdir ki, öyrənib öyrədilməsi mümkündür. Lakin qeyd etdiyimiz kimi, möcüzəni kiməsə öyrətmək mümkün deyildir. Məsələn, Əbu Cəhlin İslam Peyğəmbərindən(s) möcüzə istəməsi məsələsinə diqqət yetirək.

Əbu Cəhl ərəblər arasında nüfuzlu, vəzifəli və var-dövlətli bir şəxs idi. O, Allahı və Peyğəmbərin(s) nübüvvətini inkar edirdi. Bir gün Peyğəmbərə(s) dedi: "Əgər mənə bir möcüzə göstərsən, sənə iman gətirəcəyəm." Həzrət Peyğəmbər(s) buyurdu: "Sən necə möcüzə istəyirsən?" Əbu Cəhl dedi: "Elə et ki, ay iki yerə bölünsün." Həzrət Peyğəmbər(s) barmağı ilə aya işarə etdi və ay iki hissəyə bölündü. Sonra Peyğəmbər(s) yenə də işarə etdi və ay yenidən birləşdi. Əbu Cəhl dedi: "Yox, sən mənim gözümü bağlamışdın. Ay mənim gözümə iki hissəyə parçalanmış göründü. Qoy səfərdən qayıdan karvan gəlsin, onlardan da ayın iki hissəyə bölünməsini görüb-görmədiklərini soruşum, ondan sonra sənə iman gətirəcəyəm." Karvan gəlib şəhərə çatanda Əbu Cəhl irəli keçib soruşdu: "Siz yolda gələrkən bir hadisə gördünüzmü?" Karvan əhli dedi: "Biz on dörd gecəlik ayın bölündüyünü gördük." Əbu Cəhl dedi: "Məhəmməd böyük cadugərdir. Mənim gözümü bağlamağı heç, hətta yol gələn karvan əhlinin də gözlərini bağlamışdır."

Möcüzə elə bir şeydir ki, onu öyrənmək və ya öyrətmək mümkün deyil. Peyğəmbərin(s) barmağını aya işarə etməsi ilə onun iki yerə bölünməsi Allahın izni ilə İslam Peyğəmbərinə(s) verilən bir möcüzə idi. Ağacın iki yerə bölünməsi, ölülərin dirilməsi, heyvanın Peyğəmbərlə(s) söhbət etməsi elə şeylərdir ki, bunu heç bir kəsə öyrətmək mümkün deyil. Allah yalnız

peyğəmbərlərinə bu kimi möcüzələr göstərməyi icazə vermişdir.

Möcüzənin üçüncü şərti isə onun peyğəmbərlik iddiası ilə birgə baş tutmasıdır. Yəni bir insan peyğəmbərlik iddiası ilə gələndə insanları inandırmaq üçün onu göstərməlidir. Bəzi qeyri-adi işləri bacaran insanların olması mümkündür. Lakin onlar belə bacarıqları ilə peyğəmbərlik iddiası etmirlər. Artıq buna möcüzə yox, kəramət deyilir. Hətta mümkündür ki, bir sıra insanların ibadəti nəticəsində Allah onlara belə bir kəraməti nəsib etsin. Allah tərəfindən peyğəmbərlik verilməyən insanlarda kəramət çox görünmüşdür. Quranda da bu haqda dəlil-sübutlar mövcuddur. Həmin dəlil-sübutlara əsasən, bu kimi adamlar peyğəmbər olmadan kəramət əhli və hikmətli insanlar olmuşlar. Heç özləri də peyğəmbərlik iddiası etməmişlər. Məsələn, "Ali-İmran" surəsində Həzrət Məryəm(s.ə) barəsində belə oxuyuruq.

فَتَقَبَّلَهَا رَبُّهَا بِقَبُولٍ حَسَنٍ وَأَنبَتَهَا نَبَاتًا حَسَنًا وَكَفَّلَهَا زَكَرِيَّا كُلَّمَا دَخَلَ عَلَيْهَا زَكَرِيَّا الْمِحْرَابَ وَجَدَ عِندَهَا رِزْقاً قَالَ يَا مَرْيَمُ أَنَّى لَكِ هَذَا قَالَتْ هُوَ مِنْ عِندِ اللّهِ إنَّ اللّهَ يَرْزُقُ مَن يَشَاء بِغَيْرِ حِسَابٍ

-Beləliklə, Rəbbi onu gözəl bir şəkildə qəbul etdi və yaxşı bir tərzdə yetişdirdi və onun tərbiyəsinin məsuliyyətini (xalasının əri) Zəkəriyyəyə tapşırdı. Zəkəriyyə hər dəfə mehraba, onun yanına daxil olanda onun yanında başqa mövsümlərə aid ruzi görürdü. Bir gün dedi: "Ey Məryəm, bu ruzi haradandır?" Dedi: "Bunlar Allah tərəfindəndir, çünki Allah istədiyinə hesabsız ruzi verir."[1]

Görürük ki, Həzrət Məryəm(s.ə) peyğəmbər deyildi, lakin Allah-təala ona qeyri-adi, hesabsız-kitabsız ruzilər nazil edirdi. Bu, Allahın ona bəxş etdiyi bir kəramət idi.

Digər bir ayədə Süleyman Peyğəmbərin(ə) vəsisinin göstərdiyi kəramətin çox təəccüblü və qeyri-adi bir iş olduğu bildirilir. Həmin ayələrə diqqət yetirək:

-Bilqeys səba mələyi idi. O, Süleyman(ə) haqqında mənfi fikirdə olan bir insan idi. Bir neçə şəxsi Süleymanın ölkəsinə göndərib onun haqqında olan məlumatları çatdırmaları barədə onlara göstəriş verdi. Bilqeysin adamları Süleymanın(ə) ölkəsinə gəlib onun barəsində ətraflı məlumat toplamağa başladılar. Onlar Süleymanın hakimiyyəti, əzəməti, qoşunları və s. işləri ilə yaxından tanış oldular. Nəticədə gördülər ki, Süleyman(ə) həm Allahın peyğəmbəridir, həm də ədalətli bir padşahdır. İşləri qurtardıqdan sonra öz ölkələrinə qayıtdılar. Bilqeysə xəbər verdilər ki, sənin Süleyman(ə) haqqında olan bütün fikirlərin yalnışdır. Süleyman(ə) həm padşah, həm də Allahın peyğəmbəridir. O, iqtidarda olmalqa yanaşı, onun hakimiyyəti həm də ilahi bir hakimiyyətdir. O, heç bir kəsin əleyhinə qoşun yürütmək fikrində deyil. Əksinə, o,

[1]Ali-İmran surəsi, ayə 37.

insanları hidayət etmək, onları düz yola yönəltmək niyyətindədir.

Səba mələyi olan Bilqeys bu sözləri eşitdikdən sonra ətrafındakı ağıllı insanlarla məsləhət və məşvərət etməyə başladı. Belə qərara gəldi ki, Süleymanın(ə) ölkəsinə səfər etsin. İstəyirdi ki, öz gözləri ilə Süleymanın(ə) vəziyyətini görüb onunla yaxından tanış olsun. Beləcə, onlar hazırlaşıb Süleymanın(ə) ölkəsinə səfər etdilər.

Süleyman(ə) onun gəlişindən və niyyətindən xəbərdar oldu. Süleyman(ə) əyanları ilə sarayda əyləşmişdi. Bilqeysin onun ölkəsinə səfər etməsi xəbərini eşitdikdə buyurdu: “O, məni yoxlamaq üçün bura gəlir. Mən onu təəccübləndirmək üçün qeyri-adi bir tədbir görəcəyəm. Özündən əvvəl onun taxt-tacını bura gətirəcəyəm. Qoy gəlib taxtını özündən qabaq burada hazır görsün.”

Quranın “Nəml” surəsinin 38-40-cı ayələrində bu barədə belə oxuyuruq:

قَالَ يَا أَيُّهَا الْمَلأُ أَيُّكُمْ يَأْتِينِي بِعَرْشِهَا قَبْلَ أَن يَأْتُونِي مُسْلِمِينَ. قَالَ عِفْرِيتٌ مِّنَ الْجِنِّ أَنَا آتِيكَ بِهِ قَبْلَ أَن تَقُومَ مِن مَّقَامِكَ وَإِنِّي عَلَيْهِ لَقَوِيٌّ أَمِينٌ. قَالَ الَّذِي عِندَهُ عِلْمٌ مِّنَ الْكِتَابِ أَنَا آتِيكَ بِهِ قَبْلَ أَن يَرْتَدَّ إِلَيْكَ طَرْفُكَ فَلَمَّا رَآهُ مُسْتَقِرًّا عِندَهُ قَالَ هَذَا مِن فَضْلِ رَبِّي لِيَبْلُوَنِي أَأَشْكُرُ أَمْ أَكْفُرُ وَمَن شَكَرَ فَإِنَّمَا يَشْكُرُ لِنَفْسِهِ وَمَن كَفَرَ فَإِنَّ رَبِّي غَنِيٌّ كَرِيمٌ

-(Sonra) dedi: “Ey əyanlar və böyüklər, onlar hamılıqla təslim olaraq mənim yanıma gəlməzdən öncə, hansınız o qadının taxtını mənə gətirə bilər?” Cinlərin çox

zehinli və nəhəng (mənfi fikirli) olanı (ifrit) dedi: “Mən onu sən məclisdən qalxmamış sənin yanına gətirərəm və əlbəttə, mən bu iş üçün qüvvətli və etibarlıyam!” Kitabdan (səmavi kitablardan) bir qədər elmi olan birisi dedi: “Mən onu sən göz qırpmadan öncə və ya sənin bir şeyə baxışın həmin şeyin surətini beyninə ötürməmişdən öncə sənin yanına gətirərəm.” Beləliklə, elə ki onu öz yanında hazır durmuş gördü, dedi: “Bu (istəyin o saat yerinə yetirilməsi, ya belə bir şəxsin mənim ümmətimdə olması) Rəbbimin fəzlindəndir və məni yoxlamağı üçündür ki, görsün şükür edirəm, ya nankorluq (naşükürlük)? Və kim şükür etsə, öz xeyrinə şükür edər və kim naşükürlük etsə, (bilsin ki,) Rəbbim həqiqətən, onun şükrünə möhtac deyil və kərəm sahibidir.”[1]

Taxtı gətirənin adı Asəf ibn Bərxiyadır. O, həm Süleymanın(ə) vəziri və vəsisi, həm də onun bacısı oğlu idi. Asəf ibn Bərxiya peyğəmbər deyildi. Onun Allahın nazil etdiyi kitaba mərifət və imanı çox güclü idi. Allahın buyurduqlarının hamısına əməl edib nuraniyyət əldə etmişdi. Əməlisaleh bir insan olduğu üçün Allah-təala ona belə bir mərhəmət və kəramət əta etmişdi. Allahın izni ilə istədiyi bir işi görə bilirdi. Allahın izni ilə hər bir insan istədiyi bir işi görə bilər. Allahın iznini qazanmaq isə hər bir adamın işi deyildir. Bu məqama nail olmaq üçün bir ömür ibadət, sədaqət, pak niyyətli, ixlaslı olmaq və s. kimi müsbət xüsusiyyətlərə yiyələnmək lazımdır. Asəf ibn Bərxiyanın göstərdiyi bu iş kəramətli bir iş idi, amma möcüzə deyildi. Çünki Asəf peyğəmbərlik iddiası etmirdi. O, sadəcə olaraq Allahın bir bəndəsi idi.

---

[1] Nəml surəsi, ayə 38-40.

Möcüzənin şərtlərindən biri artıq qeyd olundu ki, onun peyğəmbərlik iddiası ilə eyni bir vaxtda nümayiş etdirilməsidir. Əgər bir insanda belə kəramətlər görsənirsə, bu, sadəcə olaraq Allahın xüsusi bir lütfüdür. Tarix boyu kəramət əhli olan insanların şahidi olmuşuq. Peyğəmbərdən(s) sonra Allahın yer üzündə təyin etdiyi höccətlərin (imamların) hamısından belə kəramətlər dəfələrlə görsənmişdir.

Asəf ibn Bərxiyanın taxtı saraya gətirə bilməsinin səbəbini iki cür təfsir etmişlər. Biri budur ki, Allahın nazil etdiyi kitabdan yalnız bir qədərini bildiyinə görə, digər təfsirə əsasən, kitabdan bir qədərini bilməklə yanaşı, Allahın böyük adını(İsmi-Əzəmi) da bilirdi. O, Allahın böyük adının zikri ilə bu işi görmüşdür. Allahın böyük adını bilən insan mütləq Allahın sifətlərini də özündə təzahür etdirməlidir. Təkcə zikr etmək bu iş üçün kifayət etmir. Əgər Allahın böyük adını bilən bir insan Onun xüsusiyyət və sifətlərini özündə cəmləşdirə bilməsə, bu cür kəramətli işləri görmək qeyri-mümkündür. Asəf ibn Bərxiya o insanlardan idi ki, Allahın xüsusiyyətlərini özündə cəmləmiş, İsmi-Əzəmi bilməklə yanaşı, onun nuraniyyətini özündə yaratdığına görə belə bir kəramətə malik idi.

Əbu Səid Xudri deyir: "Günlərin birində Peyğəmbərdən(s) soruşdum: Ya Rəsulallah, Quranda "Kitabdan (səmavi kitablardan) bir qədər elmi olan birisi"[1]ndə məqsəd kimdir? Həzrət(s) buyurdu: O, Süleyman Peyğəmbərin(ə) vəsisi Asəf ibn Bərxiyadır."

[1] Nəml surəsi, ayə 39.

Soruşdum: “Ya Rəsulallah, digər bir ayədə “həmçinin kitab elminə malik kəs”[1]də məqsəd kimdir? Həzrət(ə) buyurdu: O isə mənim vəsim və qardaşım Əli ibn Əbu Talibdir.”[2]

Bu ayə o biri ayə ilə fərqlidir. Birində buyurulur ki, kitabdan bir qədərini bilən, digər ayədə isə kitabın hamısını bilən kəsdən söz açılır. Başqa bir rəvayətdə belə nəql olunmuşdur ki, İsmi-Əzəm 73 hərfdən ibarətdir. Asəf ibn Bərxiya onlardan yalnız birini bilirdi. Əhli-beyt(ə) və imamlarımız isə həmin hərflərin 72-sini bilirdilər. O hərflərin biri isə Allahın zati-pakına məxsusdur və Ondan başqa heç bir kəs bilmir.[3]

Həzrət Əlidən(ə) nə qədər kəramətli işlər göründüyü barədə bütün tarixi kitablarda yazılmışdır. Hətta Peyğəmbərdən(s) ölünü diriltmək istəyəndə Həzrət(s) bu işi Əliyə(ə) həvalə edirdi. Həzrət Əli(ə) elə bir şəxsiyyət idi ki, göyün yollarını yerin yollarından yaxşı bilirdi. Digər imamlarımız tərəfindən də bir çox belə kəramətlər müşahidə olunmuşdur. Məsələn, İmam Sadiqin(ə) Əbu Bəsirin gözlərini açması haqda belə nəql olunmuşdur:

-Günlərin birində İmam Sadiq(ə) Əbu Bəsirə buyurdu: “İstərdinmi gözlərin açılsın, bu dünyanı görəsən? Əbu Bəsir anadangəlmə kor olduğu üçün dedi: Ey Allahın höccəti, çox istərdim ki, gözlərim açılsın. Heç olmasa bircə dəfə sənin camalına tamaşa etmək istərdim. İmam Sadiq(ə) əli ilə onun gözlərinə işarə etdi. Əbu

[1] Rəd surəsi, ayə 43.
[2] Təfsiri-nümunə,15-ci cild, səh.474.
[3] Yenə orada.

Bəsirin gözləri açıldıqda o, öncə Həzrətin(ə) mübarək camalını gördü. Sonra ətrafa baxaraq göyü, ağacları, dağları nəzərdən keçirdi. İmam Sadiq(ə) soruşdu: Ey Əbu Bəsir, həmişə belə qalmağını, yoxsa əvvəlki halına qayıtmağını istəyirsən? Əbu Bəsir bir az fikirləşdikdən sonra dedi: Ey Peyğəmbər balası(ə), məni əvvəlki halıma qaytar. İmam(ə) soruşdu: Nə üçün? Əbu Bəsir dedi: Gözlərim açılmamışdan əvvəl mən bəsirət gözüylə mənəviyyat aləmini çox yaxşı və dəqiq görürdüm. Gözlərim açıldıqdan sonra isə mən bu dünyaya baxıram, amma bütün bunlar mənim başımı qarışdırır. Dünyada olanlar məni özünə cəlb etdiyi üçün mənəviyyat aləmini əvvəlki kimi hiss edə bilmirəm."

Belə kəramətlər təkcə imamlarımızda deyil, hətta bəzi arif, alim və təqvalı insanlarda da görsənmişdir. Əvvəllər belə insanlar olub, indinin özündə də var və gələcəkdə də bu kimi insanlar olacaqdır. Onlar ibadətin, ixlasın, Allaha olan iman və yəqinliklərinin nəticəsində belə məqamlara çatmışlar. Lakin onların gördükləri bu işlər möcüzə yox, kəramətli işlərdir.

Həmin insanlardan biri də Ayətullah Müqəddəs Ərdəbili idi. Onun həyatına nəzər saldıqda bir çox kəramətlərinin şahidi oluruq. Onlardan biri belədir:

-Günlərin birində Müqəddəs Ərdəbili özünü təcrid (etikaf) etmək üçün məscidə getdi. Amma bundan əvvəl evində olan bütün ərzağı yoxsul adamlara payladı. O zaman qıtlıq günləri idi. Həyat yoldaşı onun bu işinə etiraz edib dedi: "Evdə olan ərzağın hamısını paylayıb gedirsən. Bəs bu bir neçə günü uşaqlar nə yeyəcəklər?" Müqəddəs Ərdəbili ona heç bir söz deməyib məscidə getdi. Niyyət edib üç gün məsciddə etikaf etməyə başladı. Bir gün keçməmiş bir nəfər onun qapısını döydü. Həyat yoldaşı

qapını açdıqda görür ki, əlində un, buğda və s. ərzaqlar tutmuş bir nəfər dayanıb. Kim olduğunu soruşduqda həmin şəxs deyir: “Bunları ev yiyəsi göndərib, özü məsciddə etikafda olduğundan çıxa bilmədi.” Həyat yoldaşı həmin şəxsdən ərzaqları alıb evə apardı. Açıb baxdıqda görür ki, ən yüksək keyfiyyətə malik olan ərzaqlardır ki, heç bir yerdə beləsini görməyib.

Müqəddəs Ərdəbili etikafdan qayıtdıqdan sonra görür ki, evdə un, buğda və s. kimi keyfiyyətli ərzaqlar var. Onların haradan gəldiyini soruşduqda həyat yoldaşı deyir: “Sən göndərdiyin ərzaqlardır. Etikafın birinci gecəsi göndərdiyin adam gətirib.”

Müqəddəs Ərdəbili başa düşdü ki, bu, ilahi bir lütfdür və onun xəbəri olmadan belə bir ruzi göndərilmişdir. Buna görə də həyat yoldaşına bunun sirrini deməyə ehtiyac görmədi. Bilirdi ki, ərzağı göndərən ev yiyəsi olan Allahdır, o özü deyil.

Əgər bu kimi əhvalatlardan söhbət edəsi olsaq, bir çox başqa böyük alimlərin həyatı belə kəramətlərlə dolu olub. Belə kəramətli insanların həyatlarından söz açmaq üçün xüsusi bir mövzu və vaxt ayırmaq lazımdır. Əlbəttə, bu haqda bir çox kitablar da yazılmışdır və maraqlanmaq istəyənlər həmin kitablara müraciət edə bilərlər.

Belə kəramətlərin heç birinə möcüzə demək olmaz. Möcüzənin üç əsas şərti vardır ki, biz artıq bu barədə kifayət qədər bəhs etdik. Ona görə də burada çox yaxşı olar ki, keçmiş peyğəmbərlərin həm özləri, həm də onların möcüzələri barədə söz açaq. Bundan sonra isə İslam Peyğəmbərinin(s) möcüzələri haqda geniş söhbət açıb Həzrətin (s) möcüzələrini keçmiş peyğəmbərlərin möcüzələri ilə müqayisə edək.

# PEYĞƏMBƏRLƏRİN MÖCÜZƏLƏRİ

## Həzrət Nuh(ə) və onun möcüzələri

Öz möcüzələri ilə məşhur olmuş böyük peyğəmbərlərdən biri Həzrət Nuh Peyğəmbərdir(ə). Allahın göndərdiyi peyğəmbərlər arasında Həzrət Nuh (ə) son dərəcə heyrətamiz bir həyat sürmüşdür. Onun ilahi dəvəti, həyat tərzi və qəribə möcüzələri var idi. Onun bütün möcüzələri haqda söz açası olsaq, mövzumuz çox uzun çəkər. Lakin nümunə olaraq onun bəzi möcüzələrini diqqətinizə yetiririk.

### 1. Nuhun(ə) önündə bütün heyvanların ram olması

Nuhun(ə) möcüzələrindən biri onun bütün heyvanları özünə tabe etdirə bilməsi idi. Yəni Allah-təala bütün heyvanları Nuhun(ə) qarşısında ram edib əhlilləşdirmişdi. Heç bir heyvan onun sözündən çıxmaz və ona itaətsizlik etməzdi. Həzrət Nuh(ə) heyvanlarla ünsiyyət yaradır və onlarla danışa bilirdi. Onunla bağlı əhvalatlardan birində deyilir:

-Quraqlıq günlərinin birində bir neçə nəfər Nuhun(ə) evinə gəldilər. Qapını döydükdə Nuhun(ə) arvadı çıxıb soruşdu: “Sizə nə lazımdır? Onlar dedilər: Nuh(ə) evdədirmi? Qadın dedi: Xeyr, meşəyə odun yığmağa gedib. Sizin Nuhla(ə) nə işiniz var? Onlar dedilər: Neçə müddətdir ki, yağış yağmır. Bütün əkinlərimiz tələf olmaq üzrədir. Nuhun(ə) yanına ona görə gəlmişik ki, dua edib Allahdan yağış yağdırmasını xahiş etsin. Nuhun(ə) arvadının xasiyyəti çox pis idi. O, çox deyingən və kobud qadın idi. Qapıya gələnlərin sözünü eşitcək deyinməyə başladı: Əgər Nuh(ə) sizə çarə qılan olsaydı, elə öz ailəsinə bir gün ağlayardı. Nuhun(ə) əlindən bir iş

gəlsəydi, daha meşəyə odun qırmağa niyə gedirdi? Onun duası qəbul olsaydı, bir az vəziyyətimizin xoş keçməsi üçün dua edərdi.” Qadın bu kimi sözlərlə qapıya gələnləri yola saldı. Onlar Nuhun(ə) meşəyə odun yığmağa getdiyini bildikləri üçün meşəyə sarı yollandılar. Meşənin kənarına çatanda gördülər ki, Nuh(ə) odun şələsini belinə bağlayıb, özü isə bir şirin üstündə əyləşib və bir ilanı qamçı əvəzinə əlində tutaraq onlara sarı gəlir. Ona yaxınlaşıb salamlaşaraq hal-əhval tutdular. Nuh(ə) da onları gülərüzlə qarşılayıb ehtiram göstərdi. Onlar dedilər: “Ey Allahın Peyğəmbəri(ə), quraqlıq bizim əkinlərimizi tələf edir. Xahiş edirik ki, dua edəsən və Allah bizə yağış göndərsin.” Hədislərdə belə nəql olunur ki, Həzrət Nuh(ə) onların xahişlərini qəbul edib Allaha dua etdi. Güclü bir yağış yağdı və Allah-təala həmin ili onlar üçün çox bərəkətli etdi. Əkin sahələri bol məhsul verdi.

## Ailədə ərlə arvad arasındakı münasibət

Camaat Nuhun(ə) duasının qəbul olunduğunu bildikləri üçün dedilər: “Ey Allahın Peyğəmbəri(ə), sənin duaların belə müstəcəb olduğu halda çox yaxşı olar ki, arvadının hidayət olmasını və ya onun şərinin səndən uzaq olması üçün dua edəsən. Çünki o, çox kobud, deyingən və səni incidən bir qadındır. Həzrət Nuh(ə) onlara gözəl cavab verərək buyurdu: Əgər insanın arvadı saleh ə və xoşrəftar olmasa, kişi də onun pis rəftarına və deyingənliyinə dözüb səbir etsə, Allah-təala həmin kişiyə çoxlu savab inayət edər. Mən də həmin savabın əlimdən çıxmasını istəmirəm. Qoy nə qədər pis olur-olsun, nə qədər deyinir-deyinsin. Onun boş-boş sözlərinə və deyingənliyinə heç fikir də vermirəm.”

İslam dünyasında da ailədə olan bu kimi rəftarlar barədə bir çox hədis və rəvayətlər nəql olunmuşdur. Sözarası bir qədər bu haqda söhbət edək. Ailədə həm kişi arvadının pis rəftarına, həm də arvad kişinin pis rəftarına dözüb səbir etsə, Allah-təala həmin şəxslərə çoxlu savab inayət edər. Hədislərdə deyilir ki, bir qadın ailəsinin dağılmaması üçün öz həyat yoldaşının pis rəftarına dözüb səbir etsə, Allah-təala Fironun yoldaşı Asya xanıma verdiyi savabı həmin qadına da verər. Ailələr müxtəlif olduğundan insanların rəftarı da müxtəlifdir. Bəzi insanlar var ki, iki kəlmə sözün ucbatından və ya bir neçə xoşagəlməz hadisə ilə əlaqədar olaraq ailənin dağılmasına səbəb olurlar. Bu, elə bir məsələdir ki, qadınlarda da, kişilərdə də belə xasiyyət ola bilər. Dünyanın hər bir yerində ailələrdə bu kimi məsələlər qarşıya çıxa bilər. Ola bilsin ki, bəzi yerlərdə bir qədər az olsun, bəzi yerlərdə isə bir az çox olsun. Buna görə də insan əgər ailəni qoruyub saxlamaq üçün bütün çətinliklərə və pis rəftarlara dözüb səbir etsə, Allahın razılığını əldə edər və çoxlu savaba nail olar.

Allah-təala ailədə ərlə arvadın səbir etməsinə görə o qədər savab müəyyən etmişdir ki, insanlar həmin savaba görə daha çox səbir etməklə ailəni qoruyub saxlayırlar. Necə ki, Həzrət Nuh(ə) həmin savaba görə səbir edir və bu savabın əlindən çıxmasını istəmirdi. Hədislərdə belə nəql olunmuşdur ki, qadının ev işlərini görmək (qabları yumaq, evi səliqəyə salmaq və s.) üçün atdığı hər bir addıma görə Allah-təala həmin qadına Öz rəhmət nəzəri ilə baxır. Əgər Allah bir insana rəhmət nəzərilə baxırsa, heç bir vaxt həmin şəxsə əzab verməz. Evdə həm qadının, həm də kişinin iş görməsi çox bəyənilmiş və savab əməllərdəndir. Yəni kişi ev işlərini görməkdə öz həyat yoldaşına əlindən

gələn köməyi edirsə, Allah-təala ona saysız- hesabsız savab yazar.

Günlərin birində Həzrət Peyğəmbər(s) qızının evinə gəldi. İçəri daxil olduqda gördü ki, Əli(ə) yemək bişirilməsi üçün mərci təmizləyir. Təbəssümlə buyurdu: “Ya Əli, hər bir kişi ev işlərini görməkdə həyat yoldaşına kömək etsə, Allah-təala onun bədənində olan hər bir tükə görə bir il ibadətin savabını bəxş edər.” Ailədə bir-biri ilə xoş rəftar etmək və bir-birinə əl tutmaq cəmiyyətin dağılmasının qarşısını alır.

### 2. Nuhun gəmisi

Həzrət Nuh Peyğəmbərin(ə) əsas və böyük möcüzələrindən biri onun gəmisi idi. Onun bu möcüzəsi barədə Quranda ətraflı söz açılmışdır. İnşallah, həmin ayələrdən bir neçəsini nəzərinizə təqdim edərəm. İlk növbədə isə Nuhun(ə) tərcümeyi-halına qısaca da olsa nəzər salaq. Həzrət Nuh(ə) 2500 il ömür sürmüşdür. Bunun 850 ilini nübüvvətə çatmamışdan öncə yaşamış, sonra 950 il peyğəmbərlik etmişdir. 200 il müddətində gəmi hazırlamış və tufandan 500 il sonra dünyasını dəyişmişdir. Quranın müxtəlif ayələrində onun adı 43 dəfə zikr olunmuşdur. Bundan əlavə, Quranda onun barəsində bir surə də nazil olmuşdur. Həzrət(ə) 950 il peyğəmbərlik edərək camaatı Allaha tərəf dəvət etmişdir. O, bu 950 ilin ərzində 80 nəfəri hidayət edə bilmişdir. Deməli, bu illər ərzində 11 ilə, yaxud 10 ay və 15 günə yalnız bir nəfəri hidayət edib düz yola gətirmişdir.

Həzrət Nuhun(ə) dövründən indiki zamana qədər yeddi min il vaxt ötmüşdür. Bu yeddi min il ərzində dünya nə qədər inkişaf etmişdir. Texnologiyaların, elmin, mədəniyyətin yüksək inkişaf etdiyi belə bir dövrdə

insanları başa salmağın nə qədər çətin olduğunu nəzərə alsaq, Nuhun(ə) zamanında insanları başa salmağın və düz yola gətirməyin nə qədər çətin və məşəqqətli olduğu bəlli olar. Əsrimizdə insanları başa salmaq üçün günəşdən də aydın dəlil və sübutlar gətirilir, lakin bəzi insanlar yenə də başa düşmək istəmirlər. Nuh Peyğəmbər(ə) 950 il ərzində təxminən hər 12 ilə bir nəfəri başa salıb hidayət etmişdir. Həzrət(ə) demək olar ki, hər gün insanları Allaha tərəf dəvət edirdi. Lakin camaat qulaqlarını tutub onun sözlərini eşitmək istəmirdilər.

Allah-təala "Hud" surəsinin 25-26-cı ayələrində buyurur:

وَلَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ إِنِّي لَكُمْ نَذِيرٌ مُّبِينٌ. أَن لاَّ تَعْبُدُواْ إِلاَّ اللّهَ إِنِّيَ أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ أَلِيمٍ

-Həqiqətən, Nuhu öz qövmünə göndərdik ki, (onlara de): "Şübhəsiz, mən sizin üçün (Allah tərəfindən açıq-aşkar) bir qorxudanam." "Allahdan başqasına ibadət etməyin. Həqiqətən, mən sizin üçün ağrılı günün əzabından qorxuram."

Onlar Nuhun(ə) bu sözləri qarşısında dedilər: "Biz sənə inanmırıq." Öz uşaqlarına da möhkəm tapşırıb vəsiyyət etdilər ki, bizdən sonra Nuhun(ə) sözlərinə qulaq asmayın.

Allah-təala Quranda onların barəsində belə buyurur:

جَعَلُوا أَصَابِعَهُمْ فِي آذَانِهِمْ وَاسْتَغْشَوْا ثِيَابَهُمْ وَأَصَرُّوا وَاسْتَكْبَرُوا اسْتِكْبَارًا

-Barmaqlarını qulaqlarına tıxadılar, libaslarını başlarına çəkdilər, (etiraz edərək inadla) israr etdilər və şiddətlə təkəbbür göstərdilər.[1]

Bütün bunlara baxmayaraq, Nuh Peyğəmbər(ə) ilahi dəvətindən əl çəkmir və onları Allahın vəhdaniyyətinə dəvət edirdi. Küçələrdə, bazarlarda “La ilahə illəllah, ənə rəsulullah” – “Allahdan başqa heç bir məbud yoxdur və mən Allahın elçisiyəm,” - deyə camaatı hidayətə səsləyirdi. Nuhun(ə) bu sözlərini eşidən camaat onun üstünə hücum çəkib Həzrəti(ə) döydülər. Həzrət Nuh(ə) özündən getdi və baş-gözü qan içində özünə gəldikdən sonra Allahla münacat etdi. Onun sözlərini Quran bizə belə bəyan edir:

قَالَ رَبِّ إِنِّي دَعَوْتُ قَوْمِي لَيْلًا وَنَهَارًا.

فَلَمْ يَزِدْهُمْ دُعَائِي إِلَّا فِرَارًا

-Dedi: “Ey Rəbbim, mən öz qövmümü gecə-gündüz (haqqa) dəvət etdim. Lakin mənim dəvətim onlar üçün (haqdan) qaçmaqdan savayı bir şey artırmadı.”[2]

Ancaq Həzrət Nuh(ə) camaatı yenə də Allaha tərəf dəvət edirdi. Hər dəfə camaatı dəvət etdikdə təzyiqlərə və işgəncələrə məruz qalırdı. Günlərin birində camaatı Allaha tərəf dəvət edərkən onu o qədər döydülər ki, yenə də huşunu itirib yıxıldı. Ayıldıqdan sonra dedi: “İlahi, mənim bu qövmümü hidayət et ki, onlar anlamırlar.” Onlar Nuhu(ə) döydükcə Nuh(ə) da onlara dua edir və Allahdan hidayət olunmalarını istəyirdi. O, Allahın peyğəmbəri idi.

[1] Nuh surəsi, ayə 7.
[2] Nuh surəsi, ayə 5-6.

Allahın bəndələrinin cəhənnəmə düşməsini istəmirdi. Bütün işgəncələrə dözüb hər on iki ilə bir nəfəri hidayət etmişdi. Artıq hidayət olan olmuş, inadkarlıq edənlər isə öz inadlarında qalmışdılar. Allah-təala Nuha(ə) buyurdu:

وَاصْنَعِ الْفُلْكَ بِأَعْيُنِنَا وَوَحْيِنَا وَلاَ تُخَاطِبْنِي فِي الَّذِينَ ظَلَمُواْ إِنَّهُم مُّغْرَقُونَ

-Və gəmini Bizim nəzarətimiz altında və Bizim vəhyimizlə (vəhyimizin göstərişləri ilə) düzəlt və zülm edənlər barəsində Mənimlə danışma (onların barəsində şəfaət və vasitəçilik etmə) ki, onlar mütləq suda boğulmalıdırlar.[1]

Həzrət Nuh(ə) Allahın göstərişi ilə xurma tumlarını əkməyə başladı. Həmin tumlardan böyük və möhkəm ağaclar yetişdikdən sonra Nuh(ə) gəmini düzəltməyə başladı. O, xurma ağaclarını əkərkən camaat onu ələ salıb dolayırdı: “Ey Nuh, peyğəmbərlikdən bir şey çıxmadığını görüb əkinçiliyə başlamısanmı?” Həmçinin ağacları kəsib gəmini düzəltməyə başladıqda yenə də camaat gəlib onu məsxərəyə qoyaraq belə deyirdilər: “Əkinçilikdən əl çəkib dülgərliyə başlamısanmı? Quran onların hekayətini belə bəyan edir:

وَيَصْنَعُ الْفُلْكَ وَكُلَّمَا مَرَّ عَلَيْهِ مَلأٌ مِّن قَوْمِهِ سَخِرُواْ مِنْهُ قَالَ إِن تَسْخَرُواْ مِنَّا فَإِنَّا نَسْخَرُ مِنكُمْ كَمَا تَسْخَرُونَ

-Və o, gəmini düzəldirdi. Qövmünün böyükləri hər dəfə onun yanından keçəndə (“Quruda gəmi?! Peyğəmbərlikdən sonra xarratlıq?!» deyib) ona məsxərə

---

[1] Hud surəsi, ayə 37.

edirdilər. Dedi: "Əgər siz bizə istehza edirsinizsə, şübhəsiz, biz də məsxərə etdiyiniz kimi, sizə məsxərə edəcəyik."[1]

Gəminin hazırlanıb araya-ərsəyə gəlməsi 200 ilə başa çatdı. Onun uzunluğu 800 metr, eni 500 metr və hündürlüyü təxminən 90 metr idi. Gəmi hazır olduqdan sonra Allah-təala Nuha belə vəhy etdi: "Yalnız sənə iman gətirənləri və hər heyvandan bir cütünü gəmiyə mindir." Allahın göstərişi ilə Nuha iman gətirənlər gəmiyə mindilər və onlar özləri ilə hər heyvandan da bir cüt götürdülər. Nuh(ə) dedi:

وَقَالَ نُوحٌ رَّبِّ لَا تَذَرْ عَلَى الْأَرْضِ مِنَ الْكَافِرِينَ دَيَّارًا. إِنَّكَ إِن تَذَرْهُمْ يُضِلُّوا عِبَادَكَ وَلَا يَلِدُوا إِلَّا فَاجِرًا كَفَّارًا

-Ey Rəbbim, yer üzündə bir nəfər belə kafir qoyma! Çünki Sən onları (sağ) buraxsan, onlar Sənin bəndələrini yoldan çıxardacaq, ancaq pozğun və kafir doğub-törədəcəklər.[2]

-Tufan başladı və sel yer üzünü örtdü. Şiddətli yağışlar sel kimi yerə töküldü. Dalğalar insanların üstünə uca dağlar kimi hücum etdi. Su uca dağların başına çatdı. Hamı suyun içinə qərq olub öldü. Hətta Nuhun(ə) öz oğlu belə kafirlərə qoşulduğu üçün gəmiyə minməkdən imtina etdi və həlak olanlardan oldu. O, həlak olacağını gördükdə boğula-boğula atasına dedi: "Ata, Allah sənə öz ailənlə gəmiyə minməyi demədimi? Mən sənin oğlunam, mən sənin ailəndən sayılmıram?

[1] Hud surəsi, ayə 38.
[2] Nuh surəsi, ayə 26-27.

وَنَادَى نُوحٌ رَّبَّهُ فَقَالَ رَبِّ إِنَّ ابُنِي مِنْ أَهْلِي وَإِنَّ وَعْدَكَ الْحَقُّ وَأَنتَ أَحْكَمُ الْحَاكِمِينَ. قَالَ يَا نُوحُ إِنَّهُ لَيْسَ مِنْ أَهْلِكَ إِنَّهُ عَمَلٌ غَيْرُ صَالِحٍ

-Ey Rəbbim, oğlum mənim ailəmdəndir. Və həqiqətən, Sənin *(mənim ailəmin nicatı barədəki)* vədin haqdır və Sən hakimlərin ən yaxşısısan. *(Allah)* buyurdu: Ey Nuh, o sənin ailəndən deyil *(o küfr və itaətsizlik nəticəsində qohumluq tellərini qırıb, çünki)* o *(başdan-başa)* nalayiq (qeyri-saleh) əməllər içindədir![1]

Nuh(ə) və ona iman gətirənlərdən başqa insanların hamısı suda boğulub məhv oldular. Allah-təala yerə suyu udmağı və göyə də yağışını saxlamağı əmr verdi.

وَقِيلَ يَا أَرْضُ ابْلَعِي مَاءكِ وَيَا سَمَاء أَقْلِعِي

-Və (Allahın qəti iradəsi ilə kafirlər suda batıb boğulduqdan sonra) deyildi: "Ey yer, öz suyunu ud və ey göy, (yağışını) saxla!"[2]

قِيلَ يَا نُوحُ اهْبِطْ بِسَلاَمٍ مِّنَّا وَبَرَكَاتٍ عَلَيْكَ وَعَلَى أُمَمٍ مِّمَّن مَّعَكَ وَأُمَمٌ سَنُمَتِّعُهُمْ ثُمَّ يَمَسُّهُم مِّنَّا عَذَابٌ أَلِيمٌ. تِلْكَ مِنْ أَنبَاء الْغَيْبِ نُوحِيهَا إِلَيْكَ مَا كُنتَ تَعْلَمُهَا أَنتَ وَلاَ قَوْمُكَ مِن قَبْلِ هَذَا فَاصْبِرْ إِنَّ الْعَاقِبَةَ لِلْمُتَّقِينَ

[1] Hud surəsi, ayə 45-46.
[2] Hud surəsi, ayə 44.

-(Allah tərəfindən) deyildi: "Ey Nuh, sənə və səninlə birgə olan dəstələrə Bizim tərəfimizdən olan salamatlıq, salam və bərəkətlərlə aşağı en. Və (tarix boyu onların övladlarından) tezliklə (dünya nemətlərindən) bəhrələndirəcəyimiz ümmətlər gələcəkdir. Sonra isə onlara (azğınlıqlarına və küfrlərinə görə) Bizim tərəfimizdən ağrılı bir əzab yetişəcəkdir." Bunlar qeyb xəbərlərindəndir ki, sənə vəhy edirik. Onları bundan qabaq nə sən, nə də sənin qövmün bilirdi. Buna görə də (boynunda olan ilahi vəzifənin çatdırılmasında) səbir et ki, həqiqətən, (gözəl) aqibət təqvalılara məxsusdur.[1]

## Gözəl aqibət təqvalı insanlara məxsusdur

İnsan Allaha olan eşq və məhəbbətini çətinliklə də olsa qoruyub saxlamalıdır. Təqvalı insanların aqibəti xoşbəxtliklə nəticələnəcək. İnsan Allaha olan eşqini səbir və təmkinlə qəlbində qoruyub saxlamalıdır. Bu eşq insanı xoşbəxt edər. Bu eşq insanın aqibətini xeyirli edər.

Həzrət Davud Peyğəmbər(ə) bir gün böyük bir təpənin yanından keçərkən gözü kiçik bir qarışqaya sataşdı. Qarışqa təpəyə sarı gedib geri qayıdırdı. Diqqətlə ona baxdıqda görür ki, qarışqa eyni hərəkətlə həmin yolu gedib-gəlməklə məşğuldur. Əllərini yuxarı qaldırıb Allaha belə ərz etdi: "İlahi, xahiş edirəm ki, bunun sirrini mənim üçün açasan." Allah-təala qarışqaya Davudla(ə) danışmağa icazə verdi. Davud qarışqadan soruşdu: "Sən kimsən və bütün günü eyni yolu gedib-gəlməkdə məqsədin nədir?" Qarışqa dedi: "Mənim bir məşuqəm var. Ona öz eşqimi bildirdikdə mənimlə belə şərt kəsdi. Əgər

---

[1] Hud surəsi, ayə 48-49.

mən bu təpənin bütün torpaqlarını o biri tərəfə daşıyıb qurtara bilsəm, mənə müsbət cavab verəcək. O gündən bəri mən bu təpənin torpaqlarını daşımaqla məşğulam.” Davud(ə) dedi: “Bu təpəni daşımaq üçün sənin ömrün kifayət etməyəcək.” Qarışqa dedi: “Özüm də bilirəm ki, mənim ömrüm buna kifayət etməyəcək. Lakin ömrümün hamısını öz məşuqəmin razılığı yolunda sərf etdiyimə görə çox xoşbəxtəm.”

Allah-təala bir qarışqanın vasitəsilə Davud Peyğəmbərə(ə) belə bir nəsihət etdi. Yəni öz ömrünü Allaha olan eşqinin və imanının yolunda sərf et.

Günlərin birində Həzrət Süleyman(ə) bir cüt sərçənin dalaşaraq söhbət etdiyini gördü. Erkək sərçə dişi sərçəyə belə deyirdi: “Sən nə üçün mənin sözümə baxmırsan? Sən bilirsən, mən kiməm? Mən Süleymanın sarayının günbəzini dimdiyimlə götürüb dənizə ataram. Sərçənin bu sözləri Həzrət Süleymana(ə) çox təəccüblü gəldi. Buna görə də həmin sərçəni çağırıb soruşdu: Sən mənim sarayımın günbəzini necə götürə bilərsən? Sərçə dedi: Ey Allahın Peyğəmbəri(ə) mən kiçik bir quşam. Yerdən kiçik bir daşı belə götürməyə gücüm çatmır. Sənin sarayının günbəzini necə götürüb dənizə ata bilərəm? Söhbət etdiyim sərçə mənim arvadımdır. Kişi hərdən öz arvadını qorxutmaq üçün bu kimi sözlər deyir. O, mənim sözümə baxmadığı üçün onun üstünə əsəbiləşib bu kimi sözlər deyirəm ki, məndən qorxsun. Həzrət Süleyman(ə) dişi sərçəni çağırıb soruşdu: Nə üçün sən öz ərinin sözünə qulaq asmırsan? Sərçə dedi: Ey Allahın Peyğəmbəri(ə), o mənə yalan danışır. Yalan danışmağına sübut budur ki, düzdür, o, dildə mənə "səni çox sevirəm" deyir, amma hərdən məndən başqasının məhəbbətini də ürəyinə salır.

Onun mənə olan məhəbbəti yalançı məhəbbətdir. Buna görə də mən ona inanmıram.”

Həzrət Süleyman(ə) sərçənin bu sözlərini eşitdikdə halı dəyişdi. Sərçənin sözləri ona çox böyük təsir göstərdi və o, saraya gedib öz otağına daxil oldu. Qırx gecə alnını səcdəyə qoyub ağladı və Allahla minacat edərək dedi: “İlahi, mən də Səni sevdiyimi iddia edirəm. Amma bilmirəm ki, əməlimlə bu sözü təsdiq edə bilmişəm, ya yox. İlahi, əgər birdən qəlbimdə Səndən başqasının məhəbbəti də olmuş olsa, qiyamət günü sənə nə cavab verərəm?”

Hədislərdə deyilir ki, qəlb Allahın hərəmidir. Ora Allahın məhəbbətindən savayı başqa heç bir kəsin məhəbbətinin daxil olmasına icazə verməyin. İnsanın məhəbbətinin yeganə bağlandığı yer Allahın məhəbbətidir. Bütün məhəbbətlərin hamısı Onun məhəbbətinə qurban verilməlidir.

## Həzrət İbrahim(ə) və onun möcüzələri

Həzrət İbrahim(ə) ikinci böyük peyğəmbər idi. Onunla Nuh Peyğəmbər(ə) arasında 1000 il fasilə olub. Yəni Nuh(ə) dünyadan getdikdən 1000 il sonra Həzrət İbrahim(ə) dünyaya gəlmişdir. Nuh Peyğəmbər(ə) Həzrət İbrahimin(ə) səkkizinci babasıdır. İbrahim(ə) dünyaya gəlməmişdən öncə atası vəfat etmişdir. Körpəlikdən əmisi İbrahimi(ə) öz himayəsinə götürüb saxlamışdır. İbrahimin(ə) əmisinin adı Azər idi. Onun adı Quranda çəkilmişdir. Həzrət İbrahimin(ə) dünyaya gəlməsi və böyüyüb boya-başa çatması möcüzə yolu ilə olmuşdur. Azər ona atalıq etdiyi üçün İbrahim(ə) də həmişə onu “ata” deyə çağırardı. Əgər Quranda onun adı çəkilirsə və İbrahimin(ə) atası kimi bəyan edilirsə, bu ayələr

İbrahimin(ə) dilindən çıxan sözlərdir ki, məhz Quranda bəyan olunur. İbrahimin(ə) öz əmisini “ata” deyib çağırması Quranda bizim üçün zikr edilir. Azər özü də həm büt düzəldirdi, həm də bütpərəst bir insan idi. Həzrət İbrahimin(ə) anasının adı isə Buna xanım idi.

Onlar üç bacı idilər ki, hər bacıdan da tanınmış bir nəsil və nişanə qalmışdır. Bir bacıdan Həzrət İbrahim(ə), bir bacıdan Həzrət Lut(ə), bir bacıdan isə İbrahimin(ə) həyat yoldaşı olan Sara xanım yadigar qalmışdır. Həzrət İbrahim(ə) öz həyat yoldaşının xaloğlusu idi. Həmin üç bacıdan yalnız bir övladın adı tarixə düşmüşdür. Həzrət İbrahim(ə) Babildə dünyaya gəlmişdir. Babil Bağdadın cənub hissəsində yerləşir. Həzrət İbrahim(ə) 175 il ömür sürmüş və Fələstində dünyasını dəyişərək elə oradaca dəfn olunmuşdur. Onun mübarək qəbri Fələstinin Əl-Xəlil şəhərindədir. Bir neçə il bundan öncə orucluq ayında həmin şəhər İsrail tərəfindən hava hücumuna məruz qalmış və bombalanmışdır. Həzrət İbrahimin(ə) adı Quranda 69 dəfə zikr olunmuşdur. Allah-təala 25 surədə onun barəsində söz açmış və bir surəni isə onun adı ilə nazil etmişdir. Allah-təala Həzrət İbrahimi(ə) Quranda böyük təriflərlə təqdim etmişdir. “Nəhl” surəsinin 120-ci ayəsində belə buyurulur:

إِنَّ إِبْرَاهِيمَ كَانَ أُمَّةً

-Həqiqətən, İbrahim (kamilliyinə görə özü təklikdə sanki) bir ümmət idi.

Həzrət İbrahimin(ə) və başqa peyğəmbərlərin əhvalat və möcüzələrini oxumaqda məqsəd budur ki, belə insanları tanımaqla onların tutduğu yolları, hədəfləri və insanlara gətirdikləri dəyərli sözləri və mətləbləri öyrənib

onlara əməl edək. “Ali-İmran” surəsinin 68-ci ayəsində belə oxuyuruq:

إِنَّ أَوْلَى النَّاسِ بِإِبْرَاهِيمَ لَلَّذِينَ اتَّبَعُوهُ وَهَـذَا النَّبِيُّ وَالَّذِينَ آمَنُواْ وَاللّهُ وَلِيُّ الْمُؤْمِنِينَ

-Əlbəttə, insanların İbrahimə ən yaxını (onun şəriətinin hakim olduğu zamanda) ona tabe olanlar və həmçinin bu Peyğəmbər (Muhəmməd-səlləllahu əleyhi və alihi və səlləm) və (ona) (İslam Peyğəmbərinə) iman gətirən kəslərdir. Allah möminlərin yardımçısı və başçısıdır.

İbrahimin(ə) zamanında bir sıra insanlar var idi ki, hərəsi bir vasitə ilə onun qohum-əqrəbası olduğunu söyləyib fəxr edir və bununla da demək istəyirdilər ki, biz İbrahimə(ə) yaxın insanlarıq. Quran ayələri həm o insanlara (İbrahimin(ə) zamanında olan), həm də bütün müsəlmanlara başa salır ki, yaxınlıq, yaxud uzaqlıq qohum-əqrəba olmaqla deyil. İslam dünyasında yaxınlıq iman, İslam və əqidə əsasında müəyyən edilir. Hər bir kəs əqidə prinsipləri əsasında eyni fikirdədirsə, o insanlar bir-birinə yaxındırlar. Əgər ata-anadan bir olmuş olsalar, ancaq əqidə əsasında bir deyillərsə, deməli onlar bir-birindən uzaq hesab olunurlar. Hər bir kəs İbrahimə(ə) iman gətirmişşə, onun yaxını hesab olunurdu. Yox, qohum-əqrəbası olmuş olsa da belə onun gətirdiyi dini qəbul etmirdisə, heç bir vaxt ona yaxın ola bilməzdi. Həzrət Əli(ə) bu məsələni bizim üçün açıqlayaraq belə bəyan etmişdir:

إِنَّ أَوْلَى النَّاسِ بِالْأَنْبِيَاءِ أَعْلَمُهُمْ بِمَا جَاؤُوا بِهِ، ثُمَّ تَلاَ: "إِنَّ أَوْلَى النَّاسِ بِإِبْرَاهِيمَ لَلَّذِينَ اتَّبَعُوهُ وَهذَا النَّبِيُّ وَالَّذِينَ آمَنُوا واللهُ وَلِيُّ الْمُؤْمِنِينَ."

-Həqiqətən, peyğəmbərə hamıdan yaxın o kəslərdir ki, onların gətirdiklərinə (dinin əqidə prinsiplərinə və hökmlərinə) əməl etmiş olsunlar. Sonra bu ayəni oxudu: "Əlbəttə, insanların İbrahimə ən yaxını (onun şəriətinin hakim olduğu zamanda) ona tabe olanlar və həmçinin bu Peyğəmbər (Muhəmməd-səlləllahu əleyhi və alihi və səlləm) və (ona) (İslam Peyğəmbərinə) iman gətirən kəslərdir. Allah möminlərin yardımçısı və başçısıdır."

ثُمَّ قَالَ: إِنَّ وَلِيَّ مُحَمَّدٍ مَنْ أَطَاعَ اللهَ وإِنْ بَعُدَتْ لُحْمَتُهُ وَإِنَّ عَدُوَّ مُحَمَّدٍ مَنْ عَصَى اللهَ وَإِنْ قَرُبَتْ قَرَابَتُهُ!

-Sonra Həzrət(ə) buyurur: "Həqiqətən, Məhəmmədə(s) ən yaxın o kəsdir ki, (onun dostu o kəsdir ki, iman gətirib) Allaha itaət etmiş olsun. Hətta qohum olmasa da belə. Məhəmmədin(s) düşməni isə Allaha qarşı üsyankar olandır. Hətta qohumluq cəhətindən yaxın olmuş olsa da belə."[1]

Ayə və hədislərdən açıq-aydın görürük ki, insanların yaxınlıq və uzaqlığı onların iman və əqidələri ilə ölçülür. Peyğəmbərin(s) kimə yaxın, kimdən uzaq olması da məhz bu əsaslara bağlıdır.

[1]Təfsiri-nümunə, 2-ci cild, səh.607.

قَالَ الصَّادِقُ(ع): وِلايَتِي لِعَلِيِّ ابنِ اَبِي طَالِب اَحَبُّ اِلَيَّ مِن وِلادَتِي مِنهُ, لأَنَّ وِلايَتِي لِعَلِي ابنِ اَبِي طَالِب فَرضٌ وَ وِلادَتِي مِنهُ فَضْلٌ.

-Həzrət İmam Sadiq(ə) buyurur: "Əli ibn Əbu Talibin vilayəti mənim üçün onun övladı olmağımdan daha sevimlidir. (Əqidə cəhətindən ona olan bağlılığım qohumluq cəhətindən mənim üçün daha sevimlidir.) Çünki Əli ibn Əbu Talibin vilayəti vacib, övladı olmaq isə şərafətdir."

Buna görə də bütün insanların İslam Peyğəmbərinə(s) və digər peyğəmbərlərə yaxınlığı əsil-nəsəb cəhətindən deyil, iman və əqidə cəhətindəndir.

## Həzrət İbrahim(ə) və Azər

Qeyd olundu ki, İbrahimin(ə) atası hələ o, dünyaya gəlməmişdən əvvəl rəhmətə getmişdi. Əmisi Azər İbrahimin(ə) böyüyüb boya-başa çatmasında böyük rol oynamışdır. Azərin Nəmrudla yaxşı münasibəti və get-gəli var idi. Nəmrud yuxuda görmüşdü ki, bir uşaq dünyaya gəlib onun səltənətini alt-üst edəcəkdir. Buna görə də bütün qadınları kişilərdən ayırmışdı. Azər bütpərəst olduğu üçün heç bir kəs güman etmirdi ki, onun evində böyüyən uşaq Nəmrudun yuxuda gördüyü həmin uşaq ola bilər. Həm də o, əgər həmin uşaq olmuş olsaydı, Azər özü Nəmruda xəbər verərdi. Buna görə də heç bir kəs İbrahimin barəsində şübhəyə düşmürdü.

Həzrət İbrahim(ə) anadan olduğu gündən etibarən on üç il mağarada böyüyüb boya-başa çatdı. Anası bu on üç ildə hər gün gizlicə ona yemək aparırdı. On üç ildən sonra İbrahim(ə) yavaş-yavaş şəhərə çıxırdı. O, mağaradan çıxan gündən peyğəmbərliyə başladı. O, bütləri ələ salaraq

bütpərəstləri ayıltmağa çalışırdı. Öncə əmisi Azərdən başlayıb ona mərhələ-mərhələ moizələr oxuyur və nəsihətlər verirdi. Quranda bu haqda belə bəyan olunur:

وَاذْكُرْ فِي الْكِتَابِ إِبْرَاهِيمَ إِنَّهُ كَانَ صِدِّيقًا نَّبِيًّا. إِذْ قَالَ لِأَبِيهِ يَا أَبَتِ لِمَ تَعْبُدُ مَا لَا يَسْمَعُ وَلَا يُبْصِرُ وَلَا يُغْنِي عَنكَ شَيْئًا. يَا أَبَتِ إِنِّي قَدْ جَاءنِي مِنَ الْعِلْمِ مَا لَمْ يَأْتِكَ فَاتَّبِعْنِي أَهْدِكَ صِرَاطًا سَوِيًّا.يَا أَبَتِ لَا تَعْبُدِ الشَّيْطَانَ إِنَّ الشَّيْطَانَ كَانَ لِلرَّحْمَنِ عَصِيًّا. يَا أَبَتِ إِنِّي أَخَافُ أَن يَمَسَّكَ عَذَابٌ مِّنَ الرَّحْمَن فَتَكُونَ لِلشَّيْطَانِ وَلِيًّا. قَالَ أَرَاغِبٌ أَنتَ عَنْ آلِهَتِي يَا إِبْراهِيمُ لَئِن لَّمْ تَنتَهِ لَأَرْجُمَنَّكَ وَاهْجُرْنِي مَلِيًّا. قَالَ سَلَامٌ عَلَيْكَ سَأَسْتَغْفِرُ لَكَ رَبِّي إِنَّهُ كَانَ بِي حَفِيًّا

-Və bu kitabda İbrahimi xatırla ki, o, çox doğruçu və (Allahın) peyğəmbər(i) idi. O zaman(ı) ki, öz atasına (əmisi Azərə) dedi: Ey ata, nə üçün eşitməyən, görməyən və səndən heç bir bəlanı dəf etməyən bir şeyə (bütlərə) ibadət edirsən? Ey mənim atam, şübhəsiz, mənə (Haqq tərəfindən) sənə gəlməmiş bir elm gəlib. Buna görə də mənə tabe ol, səni doğru yola yönəldim. Ey mənim atam, şeytana (tabe olmaqla ona) ibadət etmə. Çünki şeytan Rəhman olan Allaha qarşı həmişə itaətsizdir. Ey mənim atam, həqiqətən, mən Allah tərəfindən sənə bir əzab gəlməsindən və nəticədə sənin şeytanın dost və yardımçısı olmağından (dünyada lənətə düçar olmağından, axirətdə isə şeytanın oduna şərik olmağından) qorxuram. Dedi: Ey İbrahim, sən mənim məbudlarımdan üz çevirirsən? Əgər (bu sözlərdən) çəkinməsən, səni mütləq daşqalaq edəcəyəm. Və (indi) məndən uzun müddət uzaq ol!

(İbrahim onun bu hədə-qorxusuna yumşaq cavab verərək) dedi: Salam olsun sənə. Mən tezliklə öz Rəbbimdən sənin bağışlanmağını istəyəcəyəm. Çünki O, mənə qarşı həmişə mehriban və çox xeyirxahdır.[1]

Həzrət İbrahim(ə) çox dedi, Azər az eşitdi. Azər nəinki onun sözlərini qəbul etmədi, hətta onunla müxalifətçilik etməyə başladı. Həzrət İbrahim(ə) onların iman gətirmədiklərini və bütlərdən əl çəkmədiklərini görüb dedi: “Siz və sizin atalarınız açıq-aşkar azğınlıq içindəsiniz.”

وَإِذْ قَالَ إِبْرَاهِيمُ لأَبِيهِ آزَرَ أَتَتَّخِذُ أَصْنَامًا آلِهَةً إِنِّي أَرَاكَ وَقَوْمَكَ فِي ضَلاَلٍ مُّبِينٍ

-(Yada sal) o zaman(ı) ki, İbrahim atası Azərə (əmisinə) dedi: “Bütləri (özünə) məbudlar götürürsən? Doğrudan da mən səni və sənin qövmünü aşkar bir azğınlıq içərisində görürəm.”[2]

Həzrət İbrahim(ə) onların öz əqidələrində israrlı və inadkar olduqlarını gördükdə onlardan əl çəkdi:

فَلَمَّا تَبَيَّنَ لَهُ أَنَّهُ عَدُوٌّ لِلّهِ تَبَرَّأَ مِنْهُ

-Buna görə də elə ki, (onun küfrdə israrlı olmasından) ona (İbrahimə) onun (əmisinin) Allahın düşməni olması aydın oldu, ondan uzaqlaşdı.[3]

---

[1] Məryəm surəsi, ayə 41-47.
[2] Ənam surəsi, ayə 74.
[3] Tövbə surəsi, ayə 114.

İbrahim(ə) əmisindən əl çəkdikdən sonra Azər onun əleyhinə işə başladı. Azər Nəmrudla danışıb vəziyyəti ona xəbər verdi və dedi: “Mənə elə gəlir ki, sənin yuxuda görüb xəbərdar olduğun və qorxduğun uşaq İbrahimdir. Nəmrud dedi: Sənin evində belə bir insanın olduğunu nə üçün mənə xəbər verməmisən? Azər dedi: Bütün bu işləri onun anası düzüb-qoşmuşdur. İbrahimi o, gizlicə böyüdüb saxlamışdır. Nəmrud İbrahimin anasını çağırtdırıb soruşdu: Bu uşaq haqqında nə üçün mənə xəbər verməmisən? Nə üçün o, dünyaya gələndə onu öldürmədin? Anası ona məntiqli cavab verərək dedi: Mən bu uşağı ona görə öldürmədim ki, sən bütün arvadları kişilərindən ayırmısan. Bu uşağı saxladım ki, nəsil kəsilməsin. Bu uşaq onsuz da mənim əlimdədir. Böyüdükdən sonra əgər sən deyən adam olsa, sənə təhvil verərəm. Yox, əgər sən istədiyin adam olmasa, qalmağının nə ziyanı var? Mən nəsil kəsilməsin deyə bu uşağı qoruyub saxlamışam. Qadının bu sözləri Nəmrudun ağlına batdı və qadını evə buraxdı. Nəmrud həmin gündən sonra İbrahimi axtarmağa başladı.

## Həzrət İbrahimin(ə) möcüzəsi

Həzrət İbrahim(ə) artıq camaatı açıq-aşkar Allaha pərəstiş etməyə dəvət edir və bütpərəstlikdən çəkindirirdi. Bir çox insanlarla bu yolda mübarizə aparıb ilahi əmri yerinə yetirirdi. Nəmrud başa düşdü ki, İbrahim(ə) həmin gözlədiyi və yuxuda ona xəbəri çatdırılan insandır. Buna görə də onu odun içində yandırmaq qərarına gəldi. Hamıya elan etdi ki, meydanı odunla doldursunlar. Bütpərəstlər dəstə-dəstə odun toplayıb meydana yığdılar. İbrahimi odda yandırmaq üçün bir neçə ay odun toplamaqla məşğul oldular.

Nəhayət, edam günü böyük bir tonqal qalandı. Alovun hündürlüyü az qalırdı ki, göyə ucalsın. Tarixi mənbələrdə yazılıb ki, onların qaladıqları odun üstündən hətta bir quş belə keçə bilmirdi. İbrahimi(ə) odun içinə atmaq üçün kənarda bir mancanaq düzəltmişdilər. İbrahimi həmin mancanağa qoydular. Göydə mələklərin hamısı bu işdən çox nigaran idilər. Yer kürəsində bir nəfər Allaha səcdə edir və camaatı da Ona səcdə etməyə çağırır. Lakin camaat onu odun içinə atıb yandırmaq istəyir. Cəbrayıl(ə) Allahdan İbrahimə(ə) kömək etməyi xahiş etdi. Allahdan nida gəldi ki, Mən İbrahimi qoruyacağam. Cəbrayıl(ə) Allahın əmri ilə İbrahimin(ə) yanına gəlib onunla söhbət etməyə başladı. İlk növbədə soruşdu: "Ey İbrahim, bir hacət və istəyin varmı? İbrahim(ə) dedi: Onun (Allahın) məni görməsi və halımdan xəbərdar olması mənə bəs edər. (O, mənim barəmdə hər nə iradə edirsə, onu istəyirəm.)"

Bu, həmin sözdür ki, İmam Səccad(ə) İmam Hüseynə(ə) ərz etmişdi. İmam Hüseyn(ə) oğlu İmam Səccadla vidalaşarkən sonuncu dəfə onunla söhbət etdi. O günlər İmam Səccad(ə) bərk xəstə idi. Onun xəstəliyi o dərəcədə ağır idi ki, yalnız İmam Hüseyn(ə) çadıra daxil olarkən əsaya söykənərək güclə ayağa qalxa bildi. İmam Hüseyn(ə) oğlunun bərk xəstə olduğunu gördükdə ondan soruşdu: "Oğul, sən bu halda Allahdan nə arzulayırsan? İmam Səccad(ə) atasına belə cavab verdi: Ata, mənim Allahdan istəyim budur ki, Allah Özü mənim barəmdə hər nə iradə etsə, onun həyata keçməsini istəyirəm. Bu vəziyyətdə mənim dərd-qəmim yalnız Allahın mənim barəmdə istəyinin həyata keçməsidir. Ondan başqa heç bir şey arzulamıram. İmam Hüseyn(ə) buyurdu: Oğul, sənin

bu sözlərin İbrahimin(ə) Allah barədə buyurduğu həmin sözlərdir.”

Beləcə, Həzrət İbrahimin(ə) sözlərindən sonra Cəbrayıl(ə) dedi: “Ey İbrahim, elə isə Allahı səslə. İbrahim(ə) Allahı səsləməyə başladı: “Ya Allahu, ya Əhəd. Ya Əhədu, ya Səməd. Ya mən ləm yəlid və ləm yuləd. Vələm yəkun ləhu kufuvən əhəd. Öz rəhmətinlə mənə oddan nicat ver.” İbrahimi(ə) odun içinə atan kimi Allahdan oda belə bir əmr gəldi:

قُلْنَا يَا نَارُ كُونِي بَرْدًا

-Ey od, İbrahimə soyuq ol.

Elə bu anda İbrahim(ə) həmin tonqalın içində soyuqdan üşüməyə başladı. Sonra Allah-təala oda buyurdu:

وَسَلَامًا عَلَى إِبْرَاهِيمَ

-Və (onu salamat saxla) zərərsiz ol![1]

Hədislərdə belə nəql olunur ki, Allahın əmri ilə həmin tonqalın içində İbrahim(ə) üçün gülüstan yaranmışdı. Nəmrud sarayın eyvanında əyləşib ona baxırdı. Tonqalın içində İbrahimi(ə) güllər arasında görüb çox təəccübləndi və dedi: “Adam özünə Allah axtaranda İbrahim(ə) kimi elə Allah axtarsın ki, odun içində onun üçün gülüstan yaratsın.” Orada yaltaq adamlardan biri dilləndi: “Mənim dualarımın nəticəsində od İbrahimi yandırmadı.” Söz ağzında qurtarmamış həmin tonqaldan bir qığılcım ayrıldı və onun başına düşərək yandırıb kül etdi.

Nəmrudun Rəzə adlı bir qızı vardı. Qız da eyvanda dayanıb İbrahimin(ə) aqibətini gözləyir və bu hadisəyə

---

[1] Ənbiya surəsi, ayə 69.

tamaşa edirdi. Qız İbrahimin(ə) peyğəmbər olduğunu bilmirdi. Elə bilirdi ki, atasının düşməni olduğu üçün onu edam edirlər. Lakin gördü ki, atəş İbrahimi(ə) yandırmır və İbrahim(ə) tonqalın içində güllər arasında əyləşib. Eyvandan səslənib dedi: “Ya İbrahim! Sən nə dedin ki, od səni yandırmadı?”

Həzrət İbrahim(ə) buyurdu: “Hər kim «Bismillahir-Rəhmanir-Rəhim» - deyib bu tonqalın içinə daxil olsa, alov onu da yandırmaz.”

Qız eyvandan düşüb ürəkdən “Bismillahir-Rəhmanir-Rəhim” deyərək tonqalın içinə daxil oldu və gedib Həzrət İbrahimin(ə) yanında əyləşdi. Kiçik yaşlı bir qız İbrahimin(ə) sözünə yəqin etdi və başa düşdü ki, burada heç bir şübhə ola bilməz. Hədislərdə belə nəql olunur ki, sonra Həzrət İbrahim(ə) o qızı öz oğlanlarının biri ilə evləndirdi və həmin ailədən doqquz peyğəmbər dünyaya gəldi.

Həzrət İbrahimin(ə) ən böyük möcüzəsi bu idi ki, od onu yandırmadı. Bundan əlavə, onun bir çox başqa möcüzələri də olmuşdur ki, hədislərdə və ya tarixi kitablarda bu haqda yazılmışdır.

## Həzrət Musa(ə) və onun möcüzələri

Həzrət Musa(ə) üçüncü böyük peyğəmbərdir və onun özünün Tövrat adlı bir kitabı da var idi. O da Həzrət Nuh(ə) və Həzrət İbrahim(ə) kimi öz əsrinin böyük peyğəmbəri idi. Həzrət Musa(ə) İbrahim Peyğəmbərdən(ə) 500 il sonra peyğəmbərlik etmişdir. O, 240 il yaşadıqdan sonra dünyasını dəyişmişdir. İbrahim Peyğəmbər(ə) Musanın(ə) beşinci babasıdır. Həzrət Musanın(ə) atasının adı İmran, anasının adı isə Yukabiddir. Həzrət Musa(ə)

Bəni-İsrail nəslindəndir. Yəqub Peyğəmbər(ə) Musanın(ə) üçüncü babasıdır. Yəqub(ə) ömrünün son on yeddi ilini Misirdə yaşamışdır. Onun atası İshaq olmuş və İshaq İbrahimin oğlu idi. Həzrət Yəqubun(ə) ləqəbi İsrail olduğu üçün sonradan onun nəsli Bəni-İsrail (İsrail övladları) adlandırılmışdır.

Bəni-İsrailin zamanında fironlar hökmranlıq edirdilər. Onlar hakimiyyətdə bir-birini əvəz etmişlər. Birinci firon Upofus idi ki, Həzrət Yusifin(ə) zamanında hökmranlıq edirdi. İkinci fironun adı Ramzes idi ki, ona I Ramzes deyirdilər. Ondan sonra II Ramzes fironluq edirdi. Həzrət Musa(ə) II Ramzesin zamanında dünyaya gəlmiş, ondan sonra Minfitahın dövründə Allah-təala tərəfindən mübarizəyə başlamışdır. Yəni Musanın(ə) mübarizə etdiyi firon II Ramzes yox, onun oğlu idi. Musa II Ramzesin dövründə dünyaya göz açmış və onun evində böyüyüb boya-başa çatmışdır. II Ramzesdən sonra onun hakimiyyətə gələn oğlu ilə mübarizə aparmışdır.

Həzrət Musa Peyğəmbərin(ə) adı 143 dəfə Quranda çəkilmişdir. 34 surədə onun barəsində söz açılıb. Belə görünür ki, Quranda ən çox haqqında söz açılan peyğəmbər Həzrət Musadır(ə). Həzrət Musanın(ə) həyatı beş hissəyə bölünür:

-Birinci hissə onun təvəllüdü və Fironun evində böyüməsi;

-İkinci hissə Misirdən Mədyənə qaçması və bir müddət orada yaşaması;

-Üçüncü hissə Misirə qayıdıb peyğəmbərlik etməsi və Fironla mübarisəsi;

-Dördüncü hissə Firon və onun dəstəsinin boğulub həlak olması və Bəni-İsrailin nicat tapması;

-Beşinci hissə Həzrət Musanın(ə) Bəni-İsraillə mübarizəsi və onlarla olan hadisələrlə bağlıdır.

Qeyd etməliyəm ki, II Ramzesin zamanında insanları iki təbəqəyə ayırmışdılar. Aşağı təbəqədə sibtilər, yuxarı təbəqədə isə qibtilər qərar tuturdu. Sibtilər yoxsullardan və qullardan ibarət idi ki, Bəni-İsrail də onların cərgəsində idi. Qibtilər isə quldarlar, varlılar, vəzifəlilərdən ibarət idi və fironlar bu nəsildən seçilirdi. Fironlar təxminən 400 il hakimiyyətdə olmuşlar. Allah-təala Musanı(ə) göndərməklə və onun əlində olan bir taxta parçası (əsası) ilə onların həmin 400 illik hakimiyyətinə son qoydu və üstəlik özlərini də məhv etdi.

## II Ramzesin yuxusu və tədbiri

Gecələrin birində II Ramzes yuxuda görür ki, Şamdan Misirə bir od gəlib qibtilərin özlərini və evlərinin hamısını yandırıb külə döndərdi. Çox narahat və qəm-qüssə içində yuxudan ayılıb münəccimləri və yuxu yozanları hüzuruna çağırtdıraraq yuxusunu onlara danışır. Onların hərəsi bir söz deyir. Axırda yuxu yozanların içərisində olan peşəkar və yaşlı bir qoca deyir: “Gördüyün bu yuxu çox təhlükəli bir yuxudur. Tezliklə Bəni-İsraildən bir övlad dünyaya gələcək ki, sənin taxt-tacını dağıdacaq, səni və sənin tərəfdarlarının hamısını məhv edəcəkdir. Münəccimlər bir yerə toplaşıb həmin uşağın nütfəsinin bağlandığı gecəni də təyin etdilər.

Firon eşitmişdi ki, tarixdə Nəmrud kimi bir padşahın da başına belə bir hadisə gəlmişdi. O, bir il kişiləri arvadlarından ayırmışdı ki, onun səltənətini məhv etmək istəyən insan dünyaya gəlməsin. Buna görə də Firon göstəriş verdi ki, həmin gecə bütün kişiləri arvadlarından

ayırsınlar. Firon Nəmrudun belə bir iş gördüyünü eşitmişdi. Lakin ağlına da gəlmədi ki, Nəmrud bu işi görməklə heç bir nəticə əldə edə bilməmişdi. Belə insanlar heç bir vaxt tarixin çıxardığı nəticələrdən ibrət almamışlar. Həmin gecə Fironun adamları işin icrasına başladı və bütün kişiləri arvadlardan ayırdılar. İmran həmin gecə Fironun sarayında qoruqçu idi. Yukabid (İmranın həyat yoldaşı) ona yemək aparmışdı. Bir az əyləşib söhbət etdikdən sonra Allahın iradəsi ilə elə oradaca (Fironun sarayının kənarında) Musanın nütfəsi həmin gecə bağlandı. İmran Yukabidə dedi: Deyəsən Fironun yuxusunun yozumu zamanı deyilən həmin uşaqdır ki, bu gecə bizim tərəfimizdən nütfəsi bağlandı.

Allah-təala “Bəqərə” surəsinin 49-cu ayəsində belə buyurur:

وَإِذْ نَجَّيْنَاكُم مِّنْ آلِ فِرْعَوْنَ يَسُومُونَكُمْ سُوَءَ الْعَذَابِ يُذَبِّحُونَ أَبْنَاءكُمْ وَيَسْتَحْيُونَ نِسَاءكُمْ وَفِي ذَلِكُم بَلاء مِّن رَّبِّكُمْ عَظِيمٌ

-Və (yadınıza salın) o zaman(ı) ki, sizə ən ağır işgəncələr verən - oğlanlarınızın başlarını bir yerdə kəsən, qadınlarınızı isə diri saxlayan fironçulardan nicat verdik. Bu işdə (sizin üçün) Rəbbiniz tərəfindən böyük bir imtahan var idi.

## Musanın(ə) dünyaya gəlməsi

Artıq Musanın(ə) dünyaya gəlməsinə az qalırdı. Uşağın dünyaya gəlməsi yaxınlaşdıqsa Yukabidin həyəcanı daha da artırdı. Ona görə qorxurdu ki, Fironun adamları bundan xəbər tutsalar uşağı öldürəcəklər. Yukabidin bir mamaça tanışı var idi. Onunla görüşüb vəziyyəti ona danışdı və bildirdi ki, uşaq dünyaya gələndə ona kömək etsin. Bu söhbəti də sir olaraq saxlamağı xahiş etdi. Musa(ə) dünyaya gələrkən Allah-təala onun camalında bir nur yaratdı. Bu nurdan göylərə bir nur ucalırdı. Mamaça heyrət içində donub qalmışdı. Musanın(ə) anasına dedi: "Dostluğumuza baxmayaraq mən bu məsələni Firona xəbər verəcəkdim. Çünki canımdan qorxurdum. Fikirləşirdim ki, sonra xəbər tutsalar, mənim üçün böyük təhlükə yarana bilər. Lakin bu uşağın məhəbbəti və nuru qəlbimə elə doldu ki, daha heç bir kəsə bu haqda bir kəlmə də deməröm. Bu uşağın başından bir tükün əskik olmasını belə istəmirəm. Mən artıq onu bir ana kimi sevirəm." Yukabidin ürəyi rahat oldu.

Həmin vaxt məmurlar mamaçanın o evə tez-tez gedib- gəlməsindən xəbər tutub şübhələnmişdilər. Dərhal axtarış aparmaq üçün İmranın evinə tökülüşdülər. Musanın(ə) anası işin bu yerdə olduğunu gördükdə uşağı bir parçaya büküb yanar təndirin içinə atdı. Məmurlar evə basqın etdilər və hər yeri axtarmağa başladılar. Təndirin ağzını açdıqda gördülər ki, təndir yanır. Bir şey tapmadıqlarını görə naümid geri qayıtdılar. Lakin mamaçanın bu evə nə üçün tez-tez gəlib-getdiyini soruşdular. Yukabid dedi: "Mən onunla çoxdandır ki, tanışam. Buna görə də bir-birimizin evinə tez-tez gedib-gəlirik." Məmurlar çıxıb getdikdən sonra Yukabid uşağı

təndirə atdığını xatırlayanda huşu getdi. Özünə gəldikdən sonra təndiri açdıqda gördü ki, Musa(ə) odun içində parçanın arasında sağ-salamatdır. Allah-təala odu Musa(ə) üçün gülüstana çevirmişdi.

Həzrət Musanın(ə) möcüzələri dünyaya gəldiyi günlərdən başlamışdır. Yukabid uşağı təndirdən götürüb bağrına basdı. Anası Musaya(ə) bir müddət süd verdi. Süd əmdiyi müddətdə bu uşağın səsini heç bir qonşu eşitmirdi. Allah ona elə bir mərhəmət əta etmişdi ki, həmin müddət ərzində bircə dəfə də ağlamadı və səsini heç bir kəs eşitmədi. Allah-təala Musanın(ə) anasına belə vəhy etdi. “Qəsəs” surəsinin 7-ci ayəsində buyurulur:

وَأَوْحَيْنَا إِلَى أُمِّ مُوسَى أَنْ أَرْضِعِيهِ فَإِذَا خِفْتِ عَلَيْهِ فَأَلْقِيهِ فِي الْيَمِّ وَلَا تَخَافِي وَلَا تَحْزَنِي إِنَّا رَادُّوهُ إِلَيْكِ وَجَاعِلُوهُ مِنَ الْمُرْسَلِينَ

-Biz Musanın anasına sirli və sürətli bir şəkildə ilham verdik: “Onu əmizdir, elə ki, ondan ötrü (Fironun adamlarının ondan xəbər tutmalarından) qorxdun, onu (bir sandığın içərisinə qoy və) dəryaya at. Qorxma və qəmgin olma, şübhəsiz, Biz onu sənə qaytararıq və özünü də şəriət sahibi olan peyğəmbərlərdən edərik.”

Musanın(ə) anasının ürəyi sakitləşdi və bildi ki, Allah bu uşağı sağ-salamat saxlayacaqdır. Orada başa düşdü ki, bu, Fironun yuxuda gördüyü həmin uşaqdır. Fironun adamları artıq bu məsələdən xəbər tutmuşdular. Yukabid təhlükə ilə qarşılaşdığını gördükdə uşağı bir sandığın içinə qoyub çaya buraxdı. Sandıq suyun üzündə gözdən itənə qədər üzdü. Beləcə, onlar uşağı Allahın öhdəsinə buraxdılar.

Fironun həyat yoldaşının adı Asya xanım idi. Onun ata babası Bəni-İsraildən idi. Çox möhtərəm və yaxşı bir

qadın idi. Onların Ənisa adlı bir qızı var idi və o, xəstə yatırdı. Bütün həkimlər onu müalicə etməyə çalışsalar da belə dərdinə dərman tapılmadı. Münəccimlərdən biri onlara demişdi ki, suyun içindən bir insanın gəlməsini gözləyin. Qədəmləri sizin evinizə dəyəcək və onun ağzının suyu bu uşağın dərmanı olacaqdır.

Günlərin birində Firon həyat yoldaşı ilə birgə dənizə baxıb istirahət  edirdilər. Birdən suyun üzərində bir sandıq gördülər. Əmr verdilər ki, həmin sandığı sudan çıxarıb saraya gətirsinlər. Məmurlar sandığı Fironun sarayına gətirdilər. Sandığı açdıqda gördülər ki, böyük bir oğlan uşağıdır. Firon dərhal bu uşaqdan şübhələndi və onu öldürmək qərarına gəldi. Asya xanım dedi: “Bu uşaq çox böyükdür və sənin yuxundan qabaq dünyaya gəlmiş bir uşağa oxşayır. Münəccimlər demişdilər ki, dənizdən bir insan çıxacaq və onun ağzının suyu bizim qızımızın dərmanı olacaq. Deyəsən, bu, həmin insandır. Həm də çox yaxşı olar ki, bunu saxlayıb özümüzə övlad edək.”

Onlar Musanın(ə) ağzının suyundan öz xəstə qızlarına vurdular. Qız dərhal şəfa tapıb sağaldı. Beləliklə, Musa(ə) II Ramzesin evində onun oğlu Minfitahla birgə böyüməyə başladı. Həzrət Musa(ə) həddi-büluğa çatdıqdan sonra onun başına bir hadisə gəldi. Hadisə belə idi:

-Günlərin birində Musa(ə) iki nəfərin bir-biri ilə dava etdiyini gördü. Onlara yaxınlaşanda birinin sibti, o birinin isə saray adamlarından olan qibti olması aydınlaşdı. Sibti olan kişinin gözü Musaya(ə) sataşanda yalvardı ki, ona kömək etsin. Musa(ə) sibtiyə kömək etmək niyyətilə o birinə bir yumruq vurdu. Təsadüfən bir zərbə kişinin işini bitirdi və onun cansız bədəni yerə sərildi.

Ertəsi gün Musa(ə) yolda təzədən həmin hadisənin şahidi oldu. İsrailli kişi Musanı(ə) görcək yenə yalvardı ki,

ona kömək etsin. Musanın(ə) onlara tərəf gəldiyini görən kişi elə güman etdi ki, Musa(ə) onu günahkar bilib öldürəcək. Ona görə də qışqırıb dedi: “Ey Musa, yoxsa məni də dünən öldürdüyün kişi kimi qətlə yetirmək istəyirsən?” Musa(ə) gördü ki, həmin adamın ölməyindən fironun xəbəri var. Casuslar da Musanı(ə) izləyib tutmaq istəyirdilər. Ancaq Allah-təala Musaya(ə) öz mərhəmətini göstərdi. Fironun adamlarından Musaya(ə) iman gətirənlərdən birisi onu məsələdən xəbərdar edib dedi: “Səni məhkəməyə verib öldürəcəklər. Tezliklə şəhərdən çıx. Görək, İlahi nə hökm edir.” Beləcə, Musanın(ə) işi məhkəməyə verildi və onun barəsində ölüm hökmü çıxarıldı. Musa(ə) elə həmin gün Misirdən uzaqlaşdı.

## Musa və Şüeyb peyğəmbər

Həzrət Musa(ə) Misirdən qaçıb səkkiz gün ac-susuz yol getdi. İlahidən başqa nə bir yol yoldaşı vardı, nə dəköməkçisi. Yeganə ümidi Allaha ibadəti idi. Musa(ə) səhrada o qədər yürüdü ki, ayaqları qabar atdı, dabanlarından qan axmağa başladı. Aclıq da Musanı(ə) əldən salmışdı. O, çöllərdəki yaşıl otlardan o qədər yemişdi ki, artıq zəifləmiş bədəni də yaşıl rəngə çalırdı. Nəhayət, Musa(ə) Mədyənə çatdı. Mədyən bir şəhər idi və Şüeyb peyğəmbər də orada yaşayırdı. Musa(ə) şəhərin girəcəyinə çatdıqda bir dəstə adam gördü. Onlar quyunun kənarına toplaşıb su çəkirdilər. Kişilərin arxasında durmuş iki qız da Musanın(ə) gözünə sataşdı.

Üz-gözlərindən yazıqlıq və acizlik yağan həmin iki qız yanlarında otlayan qoyunlara baxır, onları başqa qoyunlara qarışmağa qoymur və camaat dağılışandan sonra quyudan su çəkməyi gözləyirdilər. Bu mənzərə Musanın(ə) qeyrətinə toxundu və onun incə ruhunu

yerindən oynatdı. O, qızların yanına gedib onlarla maraqlandı, ailələrini soruşdu. Qızlar dedilər: “Bizim adətimiz belədir ki, çobanlar quyunun başından çəkilməmiş quyuya yaxın düşmürük, çünki onlarla danışmaqdan çəkinirik. Atamız qocalıb əldən düşdüyündən su üçün quyunun kənarına özümüz gəlməyə məcburuq.”

Musa(ə) bir qədər kənarda üstünə yekə bir daş qoyulmuş quyuya yaxınlaşdı. Həmin quyunun üstündəki daşı otuz nəfər güclə götürüb kənara qoya bilərdi. Musa(ə) təkbaşına həmin daşı götürüb kənara qoyaraq onlara kömək etdi və qoyunlarını suvardı. Qızlar tələsik evə qayıtdılar. Ataları gördü ki, onlar həmişəkindən tez gəliblər və bunun səbəbini soruşdu. Qızlar hadisəni olduğu kimi ona danışdılar. Şüeyb qızlarına dedi: “Gedin, onu evimizə qonaq çağırın.”

Qızlar Musanın(ə) yanına qayıdıb utana-utana dedilər: “Atamız sizi evə qonaq çağırır.” Musa(ə) qızlarla birgə yola düşüb Şüeybin evinə gəldilər. Yolda qızlar qabaqda, Musa(ə) isə arxada gəlirdi. Küləyin qızların paltarlarını yellədiyini görən Musa(ə) onlara dedi: “Yaxşı olar ki, mən qabaqda gedim, siz isə arxamca gəlin. Hansı küçədən dönmək lazım olduqda mənə xəbər verərsiniz.” Bu minvalla onlar gəlib evə çatdılar. Şüeyb peyğəmbər Musanı(ə) qəbul edib onu öz yanında saxladı. Musa(ə) onun qızlarından biri ilə evlənib ailə qurdu.

Beləcə, Musa on il Şüeyb üçün çobanlıq etdi. Allah-təala Musanı(ə) yenidən Misirə göndərmək üçün onu yetişdirib tərbiyə etdi. On il başa çatdıqdan sonra Şüeybə dedi: “Mən sənə on il çobanlıq etmişəm. İndi isə Misirə qayıtmaq istəyirəm. Bu on illik zəhmətimin müqabilində mənə nə verəcəksiniz? Şüeyb dedi: Builki qoyunlarımızın

hansı ala-bula olsa, sənin olsun. Allahın lütfü ilə bütün qoyunlar ala doğuldu. Musa(ə) Şüeyb peyğəmbərə dedi: Sənin yaxşı əsaların var. Xahiş edirəm ki, onlardan birini mənə verəsən. Şüeyb dedi: Mənim əsalarım o biri otaqdadır. Get, onlardan birini götür. Musa(ə) otağa keçib əsalardan birini götürmək istədikdə həmin əsalardan biri öz-özünə yerə düşdü. Musa(ə) həmin əsanı götürüb Şüeybə göstərdi. Şüeyb dedi: Bu, İbrahimdən qalan əsadır, get başqasını götür. Musa(ə) əsanı aparıb yerinə qoydu və başqasını götürmək istədikdə həmin əsa ona tərəf düşdü. Üç dəfə bu iş təkrar oldu, hər üçündə də həmin əsa Musaya(ə) sarı düşdü. Şüeyb dedi: Yəqinki bunda bir hikmət var. Bu əsa sənin qismətin imiş. Həmin əsanı götür, sənin olsun.” Musa(ə) ailəsini, heyvanları və əsanı götürüb sağollaşaraq yola düzəldi.

## Həzrət Musanın(ə) möcüzələri

Həzrət Musa(ə) Mədyəndən çıxıb Misirə yola düşdü. Səkkiz günlük yolun bir hissəsini getdikdən sonra yolu itirdilər. Hava tutulub qaralmağa və tədricən soyumağa başladı. Sonra ildırım çaxdı və yağış yağdı. Musa(ə) öz ailəsi və heyvanlarla birgə çətin bir vəziyyətə düşmüşdü. Digər tərəfdən də həyat yoldaşı Safuranın uşaqdan azad olmasının vaxtı çatırdı. Musa(ə) nə edəcəyini bilmirdi. Allah-təala oradaca Musaya(ə) peyğəmbərlik məqamını əta etdi. “Qəsəs” surəsinin 29-31-ci ayələrində Musanın(ə) bu əhvalatı haqda belə buyurulur:

فَلَمَّا قَضَى مُوسَى الْأَجَلَ وَسَارَ بِأَهْلِهِ آنَسَ مِن جَانِبِ الطُّورِ نَارًا
قَالَ لِأَهْلِهِ امْكُثُوا إِنِّي آنَسْتُ نَارًا لَّعَلِّي آتِيكُم مِّنْهَا بِخَبَرٍ أَوْ جَذْوَةٍ مِنَ

النَّارِ لَعَلَّكُمْ تَصْطَلُونَ. فَلَمَّا أَتَاهَا نُودِي مِن شَاطِئِ الْوَادِي الْأَيْمَنِ فِي الْبُقْعَةِ الْمُبَارَكَةِ مِنَ الشَّجَرَةِ أَن يَا مُوسَى إِنِّي أَنَا اللَّهُ رَبُّ الْعَالَمِينَ. وَأَنْ أَلْقِ عَصَاكَ فَلَمَّا رَآهَا تَهْتَزُّ كَأَنَّهَا جَانٌّ وَلَّى مُدْبِرًا وَلَمْ يُعَقِّبْ يَا مُوسَى أَقْبِلْ وَلَا تَخَفْ إِنَّكَ مِنَ الْآمِنِينَ. اسْلُكْ يَدَكَ فِي جَيْبِكَ تَخْرُجْ بَيْضَاء مِنْ غَيْرِ سُوءٍ وَاضْمُمْ إِلَيْكَ جَنَاحَكَ مِنَ الرَّهْبِ فَذَانِكَ بُرْهَانَانِ مِن رَّبِّكَ إِلَى فِرْعَوْنَ وَمَلَئِهِ إِنَّهُمْ كَانُوا قَوْمًا فَاسِقِينَ

-Beləliklə, Musa (təyin olunmuş) müddəti tamamlayıb öz ailəsi ilə birlikdə (Mədyəndən Misirə tərəf) hərəkət etdikdə, Turun (Tur dağının) yanında bir od gördü və ailəsinə dedi: “Siz (burada) dayanın, mən bir od gördüm, bəlkə gedib (yolu tapmaq üçün) ondan sizə bir xəbər, yaxud bir köz gətirim ki, qızınasınız.” Musa odun yaxınlığına gəldikdə o vadinin sağ tərəfindən, o bərəkətli (mübarək) torpaq sahəsindən, (oradakı) ağacdan nida gəldi ki, “Ya Musa, şübhəsiz, aləmlərin Rəbbi olan yeganə Allah Mənəm”. Və (nida gəldi ki,) “Əsanı yerə at.” (Atdı və) onun ilan (ya cin) kimi sürətlə hərəkət etdiyini gördükdə geri dönüb qaçdı və arxasına (belə) baxmadı. (Buyuruldu:) “Ey Musa, irəli gəl və qorxma, həqiqətən, sən amanda olanlardansan.” “Əlini qoynuna qoy ki, əlin (oradan) ağappaq, eyibsiz-qüsursuz, parlaq çıxsın. Və hər hansı bir qorxu(dan çıxmaq) üçün əlini (ya əllərini) qoynuna qoy (ki, vahimən aradan getsin). Beləliklə, bu ikisi (iki möcüzə: əsa və parlaq əl) sənin Rəbbin tərəfindən firona və onun əyanlarına qarşı iki dəlil-sübutdur. Həqiqətən, onlar öncədən pozğun bir tayfa idilər.”

Həzrət Musa(ə) həmin gündən nübüvvətə çatdı və sağ-salamat Misirə daxil oldu. Misirə gələndən sonra onun Fironla mübarizəsi başladı. Allah-təala Musa(ə) və qardaşı Haruna Fironun yanına gedib onu Allahın vəhdaniyyətinə dəvət etməyi əmr etdi. Onlar üç məsələ ilə əlaqədar olaraq Fironla danışığa getməli idilər. Birincisi, onunla danışıb hidayət etmək, ikincisi, zindanda və əsirlikdə olan camaatı (Bəni-İsraili) azad etdirmək, üçüncüsü, əgər o, Allahın vəhdaniyyətini qəbul edərsə, şəfaət ediləcəyinin mümkün olması idi. "Taha" surəsində Allah-təala belə buyurur:

اذْهَبَا إِلَى فِرْعَوْنَ إِنَّهُ طَغَى. فَقُولَا لَهُ قَوْلًا لَّيِّنًا لَّعَلَّهُ يَتَذَكَّرُ أَوْ يَخْشَى. قَالَا رَبَّنَا إِنَّنَا نَخَافُ أَن يَفْرُطَ عَلَيْنَا أَوْ أَن يَطْغَى. قَالَ لَا تَخَافَا إِنَّنِي مَعَكُمَا أَسْمَعُ وَأَرَى. فَأْتِيَاهُ فَقُولَا إِنَّا رَسُولَا رَبِّكَ فَأَرْسِلْ مَعَنَا بَنِي إِسْرَائِيلَ وَلَا تُعَذِّبْهُمْ قَدْ جِئْنَاكَ بِآيَةٍ مِّن رَّبِّكَ وَالسَّلَامُ عَلَى مَنِ اتَّبَعَ الْهُدَى

-Fironun yanına gedin ki, o, həddini aşaraq azğınlaşıb. Onunla yumşaq danışın, bəlkə qəbul etdi və ya qorxdu (və qəbul etməyə yaxınlaşdı). Dedilər: Ey Rəbbimiz! Biz (ilahi tapşırığın çatdırılmasından qabaq) onun qəzəblənərək bizi cəzalandırmasından və ya (küfr və zülmkarlıqda) həddini aşmasından qorxuruq. (Allah) buyurdu: "(Qətiyyən) qorxmayın. Şübhəsiz, Mən sizinlə birlikdəyəm, eşidirəm və görürəm. Buna görə də onun yanına gedin və deyin: Həqiqətən, biz sənin Rəbbinin elçiləriyik. Odur ki, İsrail övladlarını (buraxıb) bizimlə birlikdə göndər və onlara işgəncə vermə. Həqiqətən, biz

sənə Rəbbin tərəfindən bir nişanə və möcüzə gətirmişik. Salam olsun doğru yola tabe olan hər bir kəsə!”[1]

Onların mübarizəsi elə oradaca başladı. Bir çox söhbətlərdən sonra Firon onunla yarışmaq qərarına gəldi. Gün təyin edib meydana toplaşdılar. “Taha” surəsində bu haqda belə bəyan olunmuşdur:

وَلَقَدْ أَرَيْنَاهُ آيَاتِنَا كُلَّهَا فَكَذَّبَ وَأَبَى. قَالَ أَجِئْتَنَا لِتُخْرِجَنَا مِنْ أَرْضِنَا بِسِحْرِكَ يَا مُوسَى. فَلَنَأْتِيَنَّكَ بِسِحْرٍ مِّثْلِهِ فَاجْعَلْ بَيْنَنَا وَبَيْنَكَ مَوْعِدًا لَّا نُخْلِفُهُ نَحْنُ وَلَا أَنتَ مَكَانًا سُوًى. قَالَ مَوْعِدُكُمْ يَوْمُ الزِّينَةِ وَأَن يُحْشَرَ النَّاسُ ضُحًى. فَتَوَلَّى فِرْعَوْنُ فَجَمَعَ كَيْدَهُ ثُمَّ أَتَى

-Həqiqətən, Biz Özümüzün bütün ayə və nişanələrimizi ona (Firona) göstərdik, amma o (onların hamısını) təkzib etdi və (Bizim dəvətimizi qəbul etməkdən) üz döndərdi. Dedi: Ey Musa! (Öz) cadun vasitəsi ilə bizi öz torpağımızdan çıxarmağa gəlmisən?! Belə isə sənə öz cadun kimi bir cadu gətirəcəyik. Buna görə də bizimlə öz aranda hamar və (fasiləsi həm bizimlə, həm də səninlə) bərabər olan bir yerdə nə bizim, nə də sənin pozmayacağın müəyyən bir vaxt qoy. Musa dedi: (Bizimlə) sizin vədə vaxtınız zinət günü (onların aralarında adət olan məxsus bayram günü) və camaatın günortadan qabaq toplaşdığı gün olsun [ və ya: o şərtlə ki, camaat günortadan qabaq bir yerə toplanılsın]. Beləliklə, Firon üz döndərdi (məclisi tərk etdi) və öz hiyləsini (cadularını, hiyləgərlik alətlərini və hiylə əhli olan

[1] Taha surəsi, ayə 43-47.

cadugərləri) topladı, sonra (təyin edilmiş gündə meydana) gəldi.[1]

Firon camaata xəbər yaydı ki, Musa(ə) gəlib sizin bütlərinizi əlinizdən alacaq. O, sizi yoldan çıxaracaq. Buna görə də özünüzü müdafiə etməyə hazır olun. Firon səksən min nəfər cadugər çağırtdırdı. Onların içərisindən yeddi min nəfəri seçdilər. Həmin yeddi min nəfərdən yeddi yüz, yedd yüz cadugərin içərisindən isə yetmiş nəfər ən məharətli cadugəri Musa(ə) ilə yarışmaq üçün seçdilər.

Nəhayət, vədləşdikləri gün (onların il bayramları günü) gəlib çatdı. Minlərlə insan meydana toplaşdı. Musaya(ə) dedilər: "İlk növbədə öz məharətini sən gəstərirsən, yoxsa biz başlayaq?" Musa(ə) dedi: "Bacarığınızı birinci siz göstərin." Cadugərlər əllərindəki kəndirləri və taxta parçalarını yerə atdılar. Kəndirlər ilanvari şəkildə yerdə tərpənməyə başladı. Camaat heyrətlə onların cadularına baxırdı. Elə bu an Allah-təala Musaya(ə) vəhy etdi ki, əsanı yerə at. Musa(ə) əsanı yerə atan kimi əsa dönüb yekə bir əjdaha oldu. Əjdaha cadugərlərin göstərdiyi caduların hamısını bir anın içində uddu. Sonra əjdaha camaata sarı irəlilədi. Tarixi mənbələrdə yazılıb ki, camaat qorxudan qaçmağa başladı və belə bir basa-basda təxminən 800-ə qədər adam ayaqlar altına düşüb öldü. O qədər böyük bir izdiham var idi ki, tamaşaya gələnlər və bayram şənliyinə çıxanların sayı daha çox idi. Cadugərlər başa düşdülər ki, Musanın(ə) bu əsası həqiqətən də möcüzədir. "Taha" surəsinin 70-73-cü ayələrində həmin əhvalat belə bəyan edilir:

---

[1] Taha surəsi, ayə 56-60.

فَأُلْقِيَ السَّحَرَةُ سُجَّدًا قَالُوا آمَنَّا بِرَبِّ هَارُونَ وَمُوسَى. قَالَ آمَنتُمْ لَهُ قَبْلَ أَنْ آذَنَ لَكُمْ إِنَّهُ لَكَبِيرُكُمُ الَّذِي عَلَّمَكُمُ السِّحْرَ فَلَأُقَطِّعَنَّ أَيْدِيَكُمْ وَأَرْجُلَكُم مِّنْ خِلَافٍ وَلَأُصَلِّبَنَّكُمْ فِي جُذُوعِ النَّخْلِ وَلَتَعْلَمُنَّ أَيُّنَا أَشَدُّ عَذَابًا وَأَبْقَى. قَالُوا لَن نُّؤْثِرَكَ عَلَى مَا جَاءنَا مِنَ الْبَيِّنَاتِ وَالَّذِي فَطَرَنَا فَاقْضِ مَا أَنتَ قَاضٍ إِنَّمَا تَقْضِي هَذِهِ الْحَيَاةَ الدُّنْيَا. إِنَّا آمَنَّا بِرَبِّنَا لِيَغْفِرَ لَنَا خَطَايَانَا وَمَا أَكْرَهْتَنَا عَلَيْهِ مِنَ السِّحْرِ وَاللَّهُ خَيْرٌ وَأَبْقَى

-(Musa əsanı atdı və o, əjdaha şəklinə düşüb hər şeyi uddu.) Beləliklə, sehrbazlar səcdə halında üzü üstə yerə düşüb “Musanın və Harunun Rəbbinə iman gətirdik” - dedilər. Firon dedi: “Mən sizə icazə verməmiş ona iman gətirdiniz?! Şübhəsiz, o, sizə sehr öyrətmiş böyüyünüz və başçınızdır. Buna görə də sizin əl və ayaqlarınızı çarpaz kəsəcək və sizi xurma ağaclarının gövdələrindən asacağam. Və (onda) bizlərdən hansı birimizin (mənim, yoxsa Musanın Allahının) əzabının ağır və davamlı olmasını başa düşəcəksiniz.” Dedilər: “Bizi yaradana and olsun ki, səni bizə gəlmiş aydın dəlillərdən (cansız əşyaların dirilmələri, hər şeyi udması və yenidən əvvəlki vəziyyətinə qayıtmasından) üstün tutmayacağıq. Buna görə də bacardığın hökmü (icra) et. Sən yalnız bu dünya həyatı barəsində hökm edə bilərsən. Həqiqətən, biz Öz Rəbbimizə iman gətirdik ki, günahlarımızı və sənin bizi vadar etdiyin sehri bağışlasın. Allah daha yaxşı və əbədidir.”

Həzrət Musanın(ə) ən böyük möcüzəsi onun əsası idi. Firon öz inadkarlığında israr etdi. Musa(ə) da onunla mübarizəsini davam etdirdi. Nəhayət, iş o yerə gəlib çatdı ki, Firon və məmurları Musanı və ona iman gətirənləri təqib etməyə başladılar. Musa(ə) və tərəfdarları dəryanın kənarına yetişdilər. “Şüəra” surəsində buyurulur:

فَأَوْحَيْنَا إِلَى مُوسَى أَنِ اضْرِب بِّعَصَاكَ الْبَحْرَ فَانفَلَقَ فَكَانَ كُلُّ فِرْقٍ كَالطَّوْدِ الْعَظِيمِ. وَأَزْلَفْنَا ثَمَّ الْآخَرِينَ. وَأَنجَيْنَا مُوسَى وَمَن مَّعَهُ أَجْمَعِينَ. ثُمَّ أَغْرَقْنَا الْآخَرِينَ. إِنَّ فِي ذَلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ

-Sonra Musaya vəhy etdik ki: “Öz əsanla dənizə vur. Dəniz (əsanın vurulmasıyla on iki yerdən yol kimi) bölündü və (iki yolun arasında olan) hər bir hissə böyük bir dağ kimi oldu. O biri dəstəni də (Fironun adamlarını) oraya yaxınlaşdırdıq. Musaya və onunla birgə olanların hamısına nicat verdik. Sonra o biri dəstəni (suda) qərq etdik. Həqiqətən, bunda (bu hekayətdə Allahın tövhidi, qüdrəti, qəzəbi və rəhmətinə dair) bir nişanə (ibrət) vardır. Onların (müşriklərin) əksəriyyəti haqqa iman gətirən deyildilər.”

“Taha” surəsinin 77-78-ci ayələrində belə buyurulur:

وَلَقَدْ أَوْحَيْنَا إِلَى مُوسَى أَنْ أَسْرِ بِعِبَادِي فَاضْرِبْ لَهُمْ طَرِيقًا فِي الْبَحْرِ يَبَسًا لَّا تَخَافُ دَرَكًا وَلَا تَخْشَى. فَأَتْبَعَهُمْ فِرْعَوْنُ بِجُنُودِهِ فَغَشِيَهُم مِّنَ الْيَمِّ مَا غَشِيَهُمْ

-Və əlbəttə, Biz Musaya vəhy etdik ki, bizim bəndələrimizi (Misirdən) gecə hərəkət etdir və onlar(ın keçmələri) üçün dənizdə (Nil çayında onu yarmaqla) bir quru yol aç ki, çatmaqdan (fironçuların gəlib

çatmalarından) qorxmayasan və batmaqdan çəkinməyəsən. Beləliklə, Firon qoşunu ilə birlikdə onları təqib etdi. (Musanın qövmü keçdikdən sonra onlar da dənizin içindəki yollara daxil oldular.) Onları dənizdən (dənizin suyundan) bürüyən bürüdü (insan ağlının təsəvvür edə bilmədiyi nəhəng dalğalar batırdı).

Firon öz qoşunu ilə dənizdə açılmış yola girdilər. Hətta orada da belə öz fironluğundan əl götürmədi və dedi: "Gördünüzmü, bu dəryaya mən əmr vermişəm ki, iki hissəyə bölünsün və ortasında yol açılsın." Firon və onun bütün dəstəsi suyun içində açılmış yola daxil olan kimi Allahın əmri ilə dəryanın suyu bir-birinə qarışdı. Firon artıq boğulacağını gördükdə Allaha üz tutub dedi: "Mən iman gətirdim." "Yunis" surəsinin 90-92-ci ayələrində onun barəsində belə buyurulur:

وَجَاوَزْنَا بِبَنِي إِسْرَائِيلَ الْبَحْرَ فَأَتْبَعَهُمْ فِرْعَوْنُ وَجُنُودُهُ بَغْيًا وَعَدْوًا حَتَّى إِذَا أَدْرَكَهُ الْغَرَقُ قَالَ آمَنتُ أَنَّهُ لا إِلِهَ إِلاَّ الَّذِي آمَنَتْ بِهِ بَنُو إِسْرَائِيلَ وَأَنَاْ مِنَ الْمُسْلِمِينَ. آلآنَ وَقَدْ عَصَيْتَ قَبْلُ وَكُنتَ مِنَ الْمُفْسِدِينَ. فَالْيَوْمَ نُنَجِّيكَ بِبَدَنِكَ لِتَكُونَ لِمَنْ خَلْفَكَ آيَةً وَإِنَّ كَثِيرًا مِّنَ النَّاسِ عَنْ آيَاتِنَا لَغَافِلُونَ

-Və İsrail övladlarını dənizdən (Nil çayından) keçirtdik. Firon və ordusu onları zülm və düşmənçilik üzündən təqib etdilər. Nəhayət, o, boğulmaq halına gəlib çatanda dedi: "İsrail övladlarının iman gətirdiyindən başqa bir tanrının olmamasına iman gətirdim və mən təslim olanlardanam." (Ona deyildi): "İndimi?! Halbuki bundan qabaq itaətsizlik etdin və fəsad törədənlərdən idin." Beləliklə, bu gün səni cansız bədəninlə birgə qurtarıb

dəniz sahilinin uca bir yerinə atacağıq ki, səndən sonra gələnlərə bir nişanə olasan. Doğrudan da insanların çoxu bizim nişanələrimizdən qafildirlər.

Bütün bunlar Həzrət Musanın(ə) Allah tərəfindən gətirdiyi möcüzələr idi. Əlbəttə, onun bundan başqa digər müxtəlif möcüzələri də var ki, bunlar tarix və hədis kitablarında qeyd olunub. Biz burada nümunə üçün onun böyük möcüzələrindən biri haqda söz açdıq.

## Həzrət İsa(ə) və onun möcüzələri

Dördüncü böyük peyğəmbər Həzrət İsa Məsihdir(ə). Öncə Həzrətin(ə) həyatına qısaca bir nəzər salaq və bundan sonra Quran ayələrindən istifadə edərək onun möcüzələrindən bəhs edərik. Həzrət İsa Peyğəmbər(ə) İslam Peyğəmbərindən(s) 570 il əvvəl dünyaya gəlmişdir. İsa Peyğəmbərin(ə) anası Həzrət Məryəmdir(s.ə). Allah-təala Həzrət İsanı(ə) Məryəmə(s.ə) möcüzə yolu ilə mərhəmət etdiyi üçün onun atası olmamışdır. Həzrət İsa(ə) 12 yaşından alimlər məclisinə qədəm qoymuş, onlarla dialoqa girmiş və mübahisələr etmişdir. Otuz yaşında ona peyğəmbərlik verilmişdir. Peyğəmbər olmamışdan öncə həm dünyaya gəlməsi bir möcüzə olmuşdur, həm də həyatında bir çox möcüzələr etmişdir. Lakin rəsmi surətdə peyğəmbərliyə 30 yaşında təyin edilmişdir. Cəmi üç il peyğəmbərlik vəzifəsini öhdəsinə götürmüş və 33 yaşında Allah tərəfindən qeybə çəkilmişdir.

Həzrət İsanı(ə) üç il peyğəmbərlik etdikdən sonra öldürmək istədilər. Lakin Allah-təala onlara İsanı(ə) öldürmək imkanını vermədi. Hazırda da yaşayır və on ikinci İmamımız(ə.c) zühur etdikdən sonra o da gələcək-dir. Gəldikdən sonra İmam Zamanın(ə.c) müavin vəköməkçilərindən biri olacaq. İmam Zaman(ə.c) Həzrət

İsanı(ə) xristianlıq üzrə özünə müavin təyin edəcək və onun vasitəsilə xristianları İslama dəvət edəcəkdir. Həzrət(ə) peyğəmbərliyə çatdıqdan sonra həmin üç il ərzində bir qrup insan ona iman gətirdi. İman gətirənlər arasında on iki nəfər xüsusi səhabəsi var idi ki, onlara həvarilər deyilirdi. Bu on iki nəfər həmişə Həzrət İsa(ə) ilə birlikdə idilər. Onlardan biri axırda münafiqlərin cərgəsinə qoşuldu və yolunu azdı. Onun aqibəti heç də xeyirlə qurtarmadı.

Həzrət İsanı(ə) çarmıxa çəkmək istədilər. Lakin Allah-təala onun çarmıxa çəkilməsinə imkan vermədi. Quranda bu barədə belə buyurulur:

وَقَوْلِهِمْ إِنَّا قَتَلْنَا الْمَسِيحَ عِيسَى ابْنَ مَرْيَمَ رَسُولَ اللّهِ وَمَا قَتَلُوهُ وَمَا صَلَبُوهُ وَلَكِن شُبِّهَ لَهُمْ وَإِنَّ الَّذِينَ اخْتَلَفُواْ فِيهِ لَفِي شَكٍّ مِّنْهُ مَا لَهُم بِهِ مِنْ عِلْمٍ إِلاَّ اتِّبَاعَ الظَّنِّ وَمَا قَتَلُوهُ يَقِينًا. بَل رَّفَعَهُ اللّهُ إِلَيْهِ وَكَانَ اللّهُ عَزِيزًا حَكِيمًا

-Və eləcə də "biz Allahın peyğəmbəri Məryəm oğlu İsanı öldürdük" demələrinə görə (lənət və əzaba düçar oldular)! Halbuki onu öldürmədilər və çarmıxa çəkmədilər, amma iş onlara belə göründü (onun yerinə başqasını tutub öldürmüşdülər). Həqiqətən, onun barəsində fikir ayrılığında olanlar bu barədə şəkk-şübhə və tərəddüd içindədirlər və bu haqda zənn və gümana tabe olmaqdan başqa bir elmləri yoxdur. Onu həqiqətən öldürməyiblər, əksinə Allah onu (diri halda və dünyadakı bədəni ilə) Özünə (dərgahına) tərəf qaldırıb."[1]

[1] Nisa surəsi, ayə 157-158.

Həzrət İsa(ə) qeybə çəkilməmişdən əvvəl Şəmunu özünə vəsi təyin etdi. O da İsadan(ə) sonra təbliğat aparıb camaatı Allaha tərəf dəvət edirdi. Ümumiyyətlə, hər bir peyğəmbərin vəsi və canişini olmuşdur. Elə bir peyğəmbər olmayıb ki, onun vəsi və canişini olmasın. Həzrət Adəmdən(ə) sonuncu peyğəmbərin özünə qədər hamısının vəsi və canişinləri olmuşdur. İslam Peyğəmbəri(s) də öz yerinə Əlini(ə) vəsi və canişin təyin edib dünyadan getmişdir. Heç bir kitabda yazılmayıb ki, Peyğəmbər(s) özündən sonra vəsi və canişin təyin etməyib. Hamı qəbul edir ki, İslam Peyğəmbəri(s) özündən sonra Əli ibn Əbu Talibi özünün vəsi və canişini təyin edib. Lakin Həzrət(s) dünyadan getdikdən sonra dedilər ki, Əlinin(ə) canişin olması məsləhət deyil. Bu sözün (məsləhət deyil sözünün) mənası isə belə çıxır ki, Peyğəmbər(s) bir sözdü deyib və dünyasını dəyişib. Hətta elə bir kitab da yoxdur ki, orada Peyğəmbərin(s) Əlidən(ə) başqa birisini öz yerinə təyin etdiyini yazmış olsunlar.

Cinlərlə münasibətdə olan alimlərdən biri deyir: “Bir gün mən onlardan soruşdum: Sizin içinizdə də müsəlmanlar arasında müxtəlif firqələr varmı? Onlar dedilər: Xeyr, bizim hamımız şiəyik. Soruşdum: Bu necə ola bilər? Onlar dedilər: Bizim ömrümüz çox uzun olur. Aramızda elə cinlər var ki, Qədir-Xum hadisəsini öz gözləri ilə görmüşlər. Onlar gəlib bizə şəhadət verdilər ki, Peyğəmbər(s) Əlini(ə) özünə vəsi və canişin təyin edib. Biz də onların sözünə inanıb qəbul etmişik. Buna görə də bizim aramızda bu barədə heç bir ixtilaf yoxdur. Əgər biz o hadisəni gözləri ilə görənlərə inanırıqsa, başqalarının sözünə inanmağa nə ehtiyacımız var?”

O cümlədən də Həzrət İsa(ə) Şəmunu özünə vəsi və canişin təyin etdi. Şəmun İsadan(ə) sonra onun gətirdiyi

din və şəriəti təbliğ etməyə başladı. Sonra Həzrət Yəhya onun dininin təbliği ilə məşğul oldu. İsanın(ə) gətirdiyi şəriət İslam Peyğəmbərinin(s) peyğəmbərliyə çatdığı günə qədər davam etdi. Həzrət Məhəmməd(s) qırx yaşında peyğəmbərliyə çatdı. İsanın(ə) gətirdiyi şəriət təxminən 610 il davam etmişdi. İslam Peyğəmbəri(s) risalət və şəriət gətirdikdən sonra bu dinə (İslam dininə) əməl olundu.

Həzrət İsanın(ə) adı Quranda 25 dəfə "İsa", 11 dəfə isə "Məsih" adı ilə zikr olunmuşdur. Quranda onun anası Məryəmin(s.ə) barəsində ətraflı söz açılır və o xanımın adına bir surə də nazil olmuşdur. Allah-təala o möhtərəm xanımı Quranda tərif edərək buyurur:

وَإِذْ قَالَتِ الْمَلاَئِكَةُ يَا مَرْيَمُ إِنَّ اللّهَ اصْطَفَاكِ وَطَهَّرَكِ وَاصْطَفَاكِ عَلَى نِسَاء الْعَالَمِينَ

-Və (yada sal) o zaman(ı) ki, mələklər dedilər: "Ey Məryəm, həqiqətən Allah səni seçib, paklaşdırıb və (Beytül-Müqəddəsdə xidmət etmək, ruzinin səmadan gəlməsi, mələklə söhbət etmək və dünyaya atasız övlad gətirmək şərəfinə nail olduğun üçün öz əsrində) aləmdəki bütün qadınlardan üstün edib.[1]

## Həzrət İsanın(ə) təvəllüdü

Həzrət İsanın(ə) beş böyük möcüzəsi var idi. Bu möcüzələrdən əvvəl dünyanın ən böyük möcüzəsi onun atasız dünyaya gəlməsidir. Bu, çox mühüm və qəribə möcüzələrdən biridir ki, bundan daha mühüm olanı Adəmin(ə) yaranması idi. İsanın(ə) anası var idi, atası yox.

[1] Ali-İmran surəsi, ayə 42.

Adəmin(ə) isə nə atası var idi, nə də anası. Allah-təala onu bir-başa torpaqdan yaratmışdı. Quranda İsanın(ə) və Adəmin(ə) dünyaya göz açması haqqında belə bəyan edilir:

إِنَّ مَثَلَ عِيسَى عِندَ اللّهِ كَمَثَلِ آدَمَ خَلَقَهُ مِن تُرَابٍ ثِمَّ قَالَ لَهُ كُن فَيَكُونُ

-Həqiqətən, Allah yanında İsanın hekayəti (yaradılışının necəliyi baxımından) Adəmin hekayəti kimidir. Allah onu torpaqdan yaratdı, sonra ona "(canlı insan) ol!" dedi, o da oldu.[1]

Həzrət Məryəmin(s.ə) anası iki bacı idi. Birinin adı Hinnə, digərinin adı isə Əşya idi. Onların biri Zəkəriyyə, digəri isə İmran Peyğəmbərin(ə) həyat yoldaşı idi. Onların heç birinin övladı yox idi. Hinnə İmranın həyat yoldaşı idi. O, günlərin birində bir ağacın altında əyləşmişdi. Gördü ki, kiçik bir quş gəlib ağaca qondu. Diqqətlə baxdıqda gördü ki, həmin quş ağzındakı dəni balalarına yedizdirir. Hinnə bu hadisəni müşahidə etdikdə içində olan analıq məhəbbəti cuşa gəldi. Elə oradaca nəzir edib dedi: "Ey mənim Allahım, nəzir edirəm ki, əgər mənə bir övlad versən, həmin övladımı Beytül-Müqəddəsə aparıb xidmətçi qoyaram."

Allah-təala Hinnənin duasını qəbul edib ona bir qız uşağı bəxş etdi. Onun adını Məryəm qoydular. Məryəm boya-başa çatdıqdan sonra onu aparıb Beytül-Müqəddəsə xidmətçi qoydu. Həzrət Məryəm(s.ə) Beytül-Müqəddəsdə həm iş görür, həm də ibadətlə məşğul olurdu. Zəkəriyyə Peyğəmbər(ə) də onu öz himayəsinə götürmüşdü. Hər gün

---

[1] Ali-İmran surəsi, ayə 59.

gedib ona baş çəkir və onun vəziyyəti ilə maraqlanırdı. Zəkəriyyə hər dəfə Məryəmə(s.ə) baş çəkməyə getdikdə onun yanında hazır ərzaqlar görüb soruşardı: “Ey Məryəm, sənə bu ruzi haradandır?” (Məryəm) deyərdi: “O, Allah tərəfindəndir, çünki Allah istədiyinə hesabsız ruzi verir.” Zəkəriyyənin də övladı olmadığı üçün Məryəmi gördükdə övlad həvəsinə düşdü və Allahdan ona bir övlad verməsini xahiş etdi. “Ali-İmran” surəsinin 37-39-cu ayələrində bu barədə belə oxuyuruq.

فَتَقَبَّلَهَا رَبُّهَا بِقَبُولٍ حَسَنٍ وَأَنبَتَهَا نَبَاتًا حَسَنًا وَكَفَّلَهَا زَكَرِيَّا كُلَّمَا دَخَلَ عَلَيْهَا زَكَرِيَّا الْمِحْرَابَ وَجَدَ عِندَهَا رِزْقاً قَالَ يَا مَرْيَمُ أَنَّى لَكِ هَذَا قَالَتْ هُوَ مِنْ عِندِ اللّهِ إنَّ اللّهَ يَرْزُقُ مَن يَشَاء بِغَيْرِ حِسَابٍ. هُنَالِكَ دَعَا زَكَرِيَّا رَبَّهُ قَالَ رَبِّ هَبْ لِي مِن لَّدُنْكَ ذُرِّيَّةً طَيِّبَةً إِنَّكَ سَمِيعُ الدُّعَاء. فَنَادَتْهُ الْمَلآئِكَةُ وَهُوَ قَائِمٌ يُصَلِّي فِي الْمِحْرَابِ أَنَّ اللّهَ يُبَشِّرُكَ بِيَحْيَى مُصَدِّقًا بِكَلِمَةٍ مِّنَ اللّهِ وَسَيِّدًا وَحَصُورًا وَنَبِيًّا مِّنَ الصَّالِحِينَ

-Beləliklə, Rəbbi onu gözəl (şəkildə) qəbul etdi və yaxşı bir tərzdə yetişdirdi və onun (tərbiyəsinin) məsuliyyətini (xalasının əri) Zəkəriyyəyə tapşırdı. Zəkəriyyə hər dəfə mehraba, onun yanına daxil olanda onun yanında (hər bir mövsümə aid) ruzi görürdü. (Bir gün) dedi: “Ey Məryəm, sənə bu ruzi haradandır?” Dedi: “O, Allah tərəfindəndir, çünki Allah istədiyinə hesabsız ruzi verir.”

Zəkəriyyə həmin vaxt oradaca öz Rəbbini çağırdı və dedi: “Ey Rəbbim, Öz tərəfindən mənə pak olan bir övlad əta et ki, həqiqətən, Sən duanı eşidənsən.”

Beləliklə, mələklər onu öz mehrabında namaz və dua üçün durduğu halda səslədilər ki: “Allah səni Yəhya (adlı bir övlad) ilə müjdələyir ki, o, Allah tərfindən olan kəlməni (İsanı) təsdiq edən, (öz qövmünün) böyük və rəhbər(i), (bütün batil işlərdən) çəkinən və ləyaqətlilərin nəslindən olan bir peyğəmbərdir.”

Gecələrin birində Həzrət Məryəm(s.ə) məsciddə ibadət və xidmətlə məşğul idi. Bu zaman Allahın mələyi nazil olub ona İsanın(ə) müjdəsini verdi. “Ali-İmran” surəsində bu haqda belə oxuyuruq:

إِذْ قَالَتِ الْمَلآئِكَةُ يَا مَرْيَمُ إِنَّ اللّهَ يُبَشِّرُكِ بِكَلِمَةٍ مِّنْهُ اسْمُهُ الْمَسِيحُ عِيسَى ابْنُ مَرْيَمَ وَجِيهًا فِي الدُّنْيَا وَالآخِرَةِ وَمِنَ الْمُقَرَّبِينَ. وَيُكَلِّمُ النَّاسَ فِي الْمَهْدِ وَكَهْلاً وَمِنَ الصَّالِحِينَ. قَالَتْ رَبِّ أَنَّى يَكُونُ لِي وَلَدٌ وَلَمْ يَمْسَسْنِي بَشَرٌ قَالَ كَذَلِكِ اللّهُ يَخْلُقُ مَا يَشَاءُ إِذَا قَضَى أَمْرًا فَإِنَّمَا يَقُولُ لَهُ كُن فَيَكُونُ

-(Yada sal) o zaman(ı) ki, mələklər dedilər: “Ey Məryəm, həqiqətən, Allah sənə Öz tərəfindən, adı Məryəm, oğlu İsa Məsih olan bir kəlmə (Onun “ol” deməyi ilə bətndə yaranan bir övlad) ilə müjdə verir ki, o, dünya və axirətdə cəlal və ehtiram sahibi və (Allah dərgahına) yaxınlardandır.” “İnsanlarla beşikdə (möcüzə ilə) və yaşa dolduqda (vəhy əsasında) danışacaq və (o) salehlərdəndir.” (Məryəm) dedi: “Ey Rəbbim, mənə heç bir bəşərin toxunmadığı halda mənim necə övladım ola bilər?!” Dedi: “Elədir. Allah istədiyini yaradır, bir şeyin

olmasını qəti şəkildə istəyəndə ona yalnız “ol” deyir, beləliklə (də həmin şey) dərhal olur.”[1]

Həzrət Məryəm(s.ə) ibadətlə məşğul idi. Elə bu zaman Allahın mələyi cavan və gözəl bir oğlan surətində ona yaxınlaşdı. Məryəm(s.ə) onu görən kimi qorxub dedi: “Mən səndən Allaha pənah aparıram.” “Məryəm” surəsində bu haqda belə buyurulur:

قَالَتْ إِنِّي أَعُوذُ بِالرَّحْمَن مِنكَ إِن كُنتَ تَقِيًّا. قَالَ إِنَّمَا أَنَا رَسُولُ رَبِّكِ لِأَهَبَ لَكِ غُلَامًا زَكِيًّا. قَالَتْ أَنَّى يَكُونُ لِي غُلَامٌ وَلَمْ يَمْسَسْنِي بَشَرٌ وَلَمْ أَكُ بَغِيًّا. قَالَ كَذَلِكِ قَالَ رَبُّكِ هُوَ عَلَيَّ هَيِّنٌ وَلِنَجْعَلَهُ آيَةً لِلنَّاسِ وَرَحْمَةً مِّنَّا وَكَانَ أَمْرًا مَّقْضِيًّا

-Məryəm dedi: “Əgər pəhrizkarsansa, mən səndən Rəhman olan Allaha pənah aparıram. Dedi: Mən sənin Rəbbinin sənə (həmin halda) pak bir oğlan bağışlamaq üçün (göndərdiyi) yalnız elçisiyəm. Dedi: Mənə bir bəşərin toxunmadığı və heç vaxt pis əməl sahibi olmadığım halda mənim necə oğlum ola bilər? Dedi: Elədir, (lakin) sənin Rəbbin buyurmuşdur: Bu iş Mənim üçün asandır (və istəyirik ki, bəzi məsləhət olan işləri gerçəkləşdirək) və onu insanlar üçün (qüdrətimizdən) bir nişanə və Öz tərəfimizdən bir rəhmət etmək üçün (belə edək). Və (yaradılışda olan bu yenilik Lövhi-Məhfuzda) qəti hökmü verilmiş bir işdir.”[2]

---

[1] Ali-İmran surəsi, ayə 45-47.
[2] Məryəm surəsi, ayə 18-21.

فَحَمَلَتْهُ فَانتَبَذَتْ بِهِ مَكَانًا قَصِيًّا. فَأَجَاءهَا الْمَخَاضُ إِلَى جِذْعِ النَّخْلَةِ قَالَتْ يَا لَيْتَنِي مِتُّ قَبْلَ هَذَا وَكُنتُ نَسْيًا مَّنسِيًّا. فَنَادَاهَا مِن تَحْتِهَا أَلَّا تَحْزَنِي قَدْ جَعَلَ رَبُّكِ تَحْتَكِ سَرِيًّا. وَهُزِّي إِلَيْكِ بِجِذْعِ النَّخْلَةِ تُسَاقِطْ عَلَيْكِ رُطَبًا جَنِيًّا. فَكُلِي وَاشْرَبِي وَقَرِّي عَيْنًا فَإِمَّا تَرَيِنَّ مِنَ الْبَشَرِ أَحَدًا فَقُولِي إِنِّي نَذَرْتُ لِلرَّحْمَنِ صَوْمًا فَلَنْ أُكَلِّمَ الْيَوْمَ إِنسِيًّا. فَأَتَتْ بِهِ قَوْمَهَا تَحْمِلُهُ قَالُوا يَا مَرْيَمُ لَقَدْ جِئْتِ شَيْئًا فَرِيًّا. يَا أُخْتَ هَارُونَ مَا كَانَ أَبُوكِ امْرَأَ سَوْءٍ وَمَا كَانَتْ أُمُّكِ بَغِيًّا. فَأَشَارَتْ إِلَيْهِ قَالُوا كَيْفَ نُكَلِّمُ مَن كَانَ فِي الْمَهْدِ صَبِيًّا.

-Beləliklə, o, (dərhal) İsaya hamilə oldu. Sonra o (Məryəm) öz (uşaq) yükü ilə uzaq bir məkana kənara çəkildi. Beləliklə, doğuş sancısı onu məcburi şəkildə xurma ağacının quru gövdəsinə tərəf çəkdi. O, (ağrının narahatlığı və rüsvayçılıq qorxusundan) dedi: Ey kaş bundan qabaq öləydim və tamamilə unudulaydım. Beləliklə, (birdən uşaq ayağının) altından onu çağırdı ki, qəm yemə, həqiqətən Allah ayağının altında axar arx (və möhtərəm övlad) qoyub. Və xurma ağacını özünə tərəf silkələ ki, sənin üçün təzə yığılmış xurma tökülsün. Beləliklə (həmin meyvədən) ye və (həmin çeşmədən) iç və (yeni doğulmuş uşağa görə) gözün aydın olsun. Camaatdan kimisə görsən (işarə ilə ona) “həqiqətən, mən Rəhman olan Allah üçün (sükut) orucu(u) nəzir etmişəm, buna görə də bu gün bir insanla danşmayacağam” de. (Məryəm) onu (uşağı) qucağında tayfasının yanına gətirdi.

Onlar dedilər: “Ey Məryəm, sən doğrudan da təəccüblü və xoşagəlməz bir iş görmüsən. Ey Harunun bacısı, nə atan pis kişi olub, nə də anan pis əməl sahibi olub.”

(Məryəm) ona (uşağa) tərəf işarə etdi (ki, ondan soruşun). Dedilər: “Beşikdə olan körpə uşaqla necə danışaq?!”

Onrar Məryəmin(s.ə) barəsində çox pis fikirlərə düşmüş və ağızlarına gələn sözləri danışırdılar. Həzrət İsanın(ə) beşikdə danışmağı onların ağzını yumdu. Həzrət İsa(ə) beşikdən onların cavabında belə dedi:

قَالَ إِنِّي عَبْدُ اللَّهِ آتَانِيَ الْكِتَابَ وَجَعَلَنِي نَبِيًّا. وَجَعَلَنِي مُبَارَكًا أَيْنَ مَا كُنتُ وَأَوْصَانِي بِالصَّلَاةِ وَالزَّكَاةِ مَا دُمْتُ حَيًّا. وَبَرًّا بِوَالِدَتِي وَلَمْ يَجْعَلْنِي جَبَّارًا شَقِيًّا. وَالسَّلَامُ عَلَيَّ يَوْمَ وُلِدتُّ وَيَوْمَ أَمُوتُ وَيَوْمَ أُبْعَثُ حَيًّا

-Həqiqətən, mən Allahın bəndəsiyəm. O, (bu halımda) mənə kitab (İncil) verib və məni peyğəmbər edib. Və məni harada olsam bərəkətli bir vücud edib və nə qədər ki, sağam mənə namaz (qılmağ)ı və zəkatı (verməyi) tapşırıb. Və məni anama xeyirxah edib. Və məni təkəbbürlü və itaətsiz etməyib. Salam olsun mənə o gün ki, doğuldum, o gün ki, öləcəyəm və o gün ki, diri(ldilərək) qaldırılacağam.[1]

## Anaya hörmət və yaxşılıq etmək

Həzrət İsanın(ə) beşikdə danışdığı sözlərdən bəzi incə mətləbləri nəzərinizə çatdırmaq istərdim. Birincisi budur ki, Allah-təala Quranda insanlara ata-anaya yaxşılıq etməyi təkid edir. Lakin bu ayədə Həzrət İsanın(ə) atası

---

[1] Məryəm surəsi, ayə 27-33.

olmadığı üçün belə deyir: “Məni anama xeyirxah edib.” İsanın(ə) atası olmadığı üçün bu ayədə atadan söhbət getmir. İkinci mətləb isə budur ki, valideynə yaxşılıq və ehtiram etmək öz yerində olmaqla yanaşı, ananın xüsusi bir məqamı var. Ayədəki ananın həmin xüsusi məqamı haqqında bəzi alimlər də öz fikirlərini açıqlamışlar. Yəni ananın xüsusi məqamını hər bir övlad başa düşməlidir. Cavan bir oğlan Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, mən kimə yaxşılıq və hörmət etsəm, daha çox savab qazanaram?” Peyğəmbər(s) buyurdu: “Get, anana yaxşılıq et.” Oğlan dedi: “Ya Rəsulallah, onu başa düşdüm. Sonra kimə yaxşılıq edim?” Peyğəmbər(s) buyurdu: “Anana.” Oğlan yenə də soruşdu: “Bəs sonra kimə yaxşılıq edim?” Peyğəmbər(s) buyurdu: “Anana yaxşılıq et.” Oğlan dördüncü dəfə soruşduqda Peyğəmbər(s) buyurdu: “Atana.”

Peyğəmbərin(s) bu hədisi ayədəki həmin incə məqamı açıqlayır. Yəni ananın mövqeyi atadan fərqlidir. Ona görə fərqlidir ki, ana öz övladını bətnində böyüdür. Uşaq dünyaya gəldikdən sonra iki ilə qədər ona süd verir. Hədislərdə deyilir ki, hamilə qadın uşaqdan azad olana qədər onun üçün gecələri səhərə qədər ibadət edən insanın savabı yazılır. Hər gün oruc tutan insanın savabı da onun üçün yazılır. Bundan əlavə, canları və malları ilə cihad edən insanların savabı da həmin qadına yazılar. Başqa hədislərdə belə nəql olunur ki, uşaqdan azad olunan qadına elə bir savab verilir ki, o savabın qədərini Allahdan başqa heç kəs bilmir. Hədislərdə deyilir ki, qadın uşaqdan azad olan zaman dünyadan getsə, şəhidlərin cərgəsinə qoşulur. Həmçinin ana hər dəfə uşağa süd verdikdə Allah-təala həmin qadına (Allah yolunda) bir qul alıb azad etməyin savabını yazır. Uşağın süd yemə müddəti (iki ili)

qurtardıqda isə Allah tərəfindən bir mələk gəlib əlini həmin ananın çiyninə qoyaraq deyər: “Bu günə qədər bütün günahların bağışlanmışdır. Əməllərini bu gündən başla.”

Əlbəttə, ananın mövqeyi fərqli olmalıdır. Anaya qarşı daha çox məhəbbətli və ehtiramlı olmaq lazımdır. Həzrət Peyğəmbər(s) uşaq çağlarında anasını itirmişdi. Onun süd anası Həlimə xanım idi. Həzrət Peyğəmbər(s) hər dəfə onunla görüşdükdə ayağa qalxaraq xüsusi hörmət əlaməti kimi öz əbasını çıxarıb yerə sərər və analığını onun üstündə əyləşdirərdi. Camaat təbərrük üçün Peyğəmbərin(s) əbasının bircə sapının belə həsrətində olduğu halda, Həzrət(s) öz əbasını analığının ayaqları altına sərərdi.

Bütün bunlar elə dəyərlərdir ki, müsəlmanların onlara riayət etmələri çox vacib məsələlərdəndir. Bunlar mənəvi və qiymətli dəyərlərdir. Buna görə də İsa(ə) beşikdə ikən anasına ehtiram etməsi haqda buyurur: “Və məni anama xeyirxah edib. Və məni təkəbbürlü və itaətsiz etməyib. Salam olsun mənə o gün ki, doğuldum, o gün ki, öləcəyəm və o gün ki, diri(ldilərək) qaldırılacağam.”

## Həzrət İsanın(ə) digər möcüzələri

Həzrət İsanın(ə) dünyaya gəlməsi möcüzəli şəkildə olmuşdur. Ümumiyyətlə, böyük peyğəmbərlərin hamısı belə olmuşdur. Məsələn, Həzrət İbrahimin(ə) on üç il mağarada böyüməsi, Musanın(ə) sandığa qoyulub suya atılması və Fironun evində böyüməsi ilahi möcüzələr idi. Həm də böyük peyğəmbərlərin möcüzələri onlar peyğəmbərliyə çatmazdan əvvəl baş vermişdir. Onların dünyaya möcüzəli şəkildə gəlmələri öz yerində, rəsmi surətdə peyğəmbərliklərini elan etdikdən sonra göstər-

dikləri möcüzələr isə tamamilə fərqli bir şeylər olmuşdur. Həzrət İsanın(ə) bir gecənin içində atasız dünyaya gəlməsi və beşikdə ikən danışması əlbəttə ki, ilahi bir möcüzədir. Bundan əlavə, Həzrət İsa(ə) otuz yaşında peyğəmbərliyini elan etdikdən sonra beş əsas möcüzə gətirdiyini bəyan etdi. Həzrət İsanın(ə) gətirdiyi möcüzələr aşağıdakılardı:

1. Gildən quş düzəldib Allahın izni ilə ona can və ruh verməsi;

2. Anadangəlmə korların gözünü açması;

3. Cüzam və pis xəstəlikləri sağaltması;

4. Ölüləri diriltməsi;

5. Hər kəsin evində nə yediyini, nə qədər yediyini və evdə nə qədər saxladığını deməyi bacarırdı.

Qurani-Kərimdin “Ali-İmran” surəsinin 49-cu ayəsində bu barədə belə oxuyuruq:

أَنِّي قَدْ جِئْتُكُم بِآيَةٍ مِّن رَّبِّكُمْ أَنِّي أَخْلُقُ لَكُم مِّنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ فَأَنفُخُ فِيهِ فَيَكُونُ طَيْرًا بِإِذْنِ اللّهِ وَأُبْرِىءُ الأكْمَهَ والأَبْرَصَ وَأُحْيِي الْمَوْتَى بِإِذْنِ اللّهِ وَأُنَبِّئُكُم بِمَا تَأْكُلُونَ وَمَا تَدَّخِرُونَ فِي بُيُوتِكُمْ إِنَّ فِي ذَلِكَ لآيَةً لَّكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ

-Mən sizə Rəbbiniz tərəfindən bir nişanə gətirmişəm; mən sizin üçün gildən quş surətində bir şey düzəldər, sonra ona üfürərəm, Allahın izni ilə quş olar; Allahın izni ilə anadangəlmə koru və cüzamı sağaldar, ölüləri dirildərəm və sizə evlərinizdə yediyiniz və yığıb saxladığınız şeylərdən xəbər verərəm. Həqiqətən, əgər mömin olsanız, sizin üçün bunda (Allahın tövhidinə, elm

və qüdrətinə, eləcə də mənim peyğəmbərliyimə dəlalət edən) nişanə vardır.[1]

Həzrət İsa(ə) peyğəmbərlik etdiyi üç il ərzində dediyi bütün bu möcüzələri göstərdi. Tarixi mənbələrdə Həzrət İsanın(ə) ölüləri diriltməsinin və xəstələrə şəfa verməsinin şahidi oluruq. İmam Sadiq(ə) buyurur: "Həzrət İsanın(ə) yaxın bir dostu var idi. Günlərin birində İsa(ə) səfərə çıxmışdı. Qayıtdıqdan sonra həmin dostunun evinə gəlib qapını döydü. Dostunun anası qapıya çıxıb onunla salamlaşdı. Həzrət(ə) onun oğlunu soruşduqda qadın dedi: "Oğlum neçə gündür ki, rəhmətə gedib." İsa Peyğəmbər(ə) bu xəbəri eşitdikdə çox narahat oldu və buyurdu: "Ana can, oğlunun dirilməyini istərdinmi?" Qadın dedi: "Ey Allahın peyğəmbəri, ürəyim çox istərdi ki, oğlum dirilsin və mənim yanıma qayıtsın." Həzrət İsa(ə) buyurdu: "Elə isə sabah gələrəm, birlikdə onun qəbrinin kənarına gedərik."

Səhərisi gün Həzrət İsa(ə) qadınla birgə dostunun qəbrinin kənarına gəlib buyurdu: "Ey filankəs, Allahın izni ilə ayağa qalx." Elə bu zaman həmin oğlan dirilib ayağa qalxdı. Onlar bir-birini görən kimi qucaqlaşıb ağlamağa başladılar. Həzrət İsanın(ə) onların bu halına ürəyi yandı və buyurdu: "Bu dünyada yaşamaq istəyirsənmi? Oğlan təəccüblə dedi: Ya İsa, mən yenə də bu dünyada ruzimi yeyim? Həzrət(ə) buyurdu: Bəli. Bundan sonra iyirmi il də bu dünyada yaşayacaqsan." Hədislərdə belə nəql olunur ki, həmin oğlan daha iyirmi il dünyada yaşadı. Evlənib ailə qurdu və bir neçə övladı da oldu. Düz iyirmi ildən sonra yenidən dünyasını dəyişdi.

---

[1] Ali-İmran surəsi, ayə 49.

Günlərin birində Həzrət İsa(ə) tərəfdarları ilə səyahətə çıxmışdı. Bir kəndin kənarından keçərkən orada dayandılar. Həmin kəndin əhalisi kütləvi şəkildə qırılmışdı. İsa(ə) ora baxıb buyurdu: "Bu kəndin əhalisinin kütləvi şəkildə məhv olması onlara əzab nazil olduğundan xəbər verir." Tərəfdarları dedilər: "Ya İsa(ə), səndən xahiş edirik ki, onları dirildib nə üçün öldüklərini soruşasan." Həzrət İsa(ə) Allahın izni ilə kiçik bir təpənin üstünə çıxıb ölüləri səslədi. Onlardan biri ayağa qalxıb dedi: "Bəli, ey Allahın peyğəmbəri. İsa(ə) buyurdu: Sizin kütləvi şəkildə qırılmağınızın səbəbi nə idi? Həmin şəxs dedi: Ey Allahın peyğəmbəri, dörd əmələ görə Allah bizi bu əzaba mübtəla etdi. Birincisi bu idi ki, biz şeytanlara pərəstiş edirdik. Onlar bizə hər nə deyirdilərsə, kor-koranə onlara itaət edirdik. İkincisi, dünyaya ürək bağladığımıza görə. Üçüncüsü, uzun-uzadı arzularımıza görə. Dördüncüsü, qəflətə düşüb dünyanın oyun-oyuncağı (eyş-işrət) ilə başımızı qatdığımıza görə."

Həzrət İsa(ə) soruşdu: "Dünyaya əlaqə və məhəbbətiniz nə qədər idi?"

Dedi: "Uşağın anası ilə əlaqə və məhəbbəti qədər."

Həzrət İsa(ə) soruşdu: "Tağuta necə pərəstiş edirdiniz?"

Dedi: "Günahkarların dedikləri ilə oturub-durar və onlara itaət edərdik."

Həzrət İsa(ə) soruşdu: "İşlərinizin aqibəti necə sona yetdi?"

Dedi: "Gecələrin birində eyş-işrətlə məşğul olub kef çəkdik. Səhər hamımız bəlaya düçar olduq."

Həzrət İsa(ə) soruşdu: "Həlak olduqda nə dediniz? Və ilahi məmurların sizə cavabı nə oldu?"

Dedi: “Həlak olduqdan sonra dedik ki, bizi dünyaya qaytarın, Allaha itaət edək. Onlar da dedilər ki, yalan deyirsiniz.”

Həzrət İsa(ə) üzünü tərəfdarlarına tutub buyurdu: “Ey Allahın dostları, dünya və axirətin əmin-amanlığı ilə yaşayaraq quru duz- çörək yeyib, zibillikdə yatmaq (bu bəla nazil olan kəslər kimi yaşayıb, aqibətlərinin pis olmasından) daha xeyirlidir (daha yaxşıdır).”

Həzrət İsa Peyğəmbərin(ə) hərəkətlərində və səfərlərində bu kimi nümunələrə çox rast gəlmək olar. O, həm ölüləri dirildər, həm də xəstələri sağaldardı. Tarixdə onun bu kimi möcüzələri çox olmuşdur.

Bir gün Həzrət İsa(ə) bir neçə tərəfdarı ilə birgə səfərə çıxmışdı. Elə bir yerə gəlib çatdılar ki, Həzrət İsa(ə) buyurdu: “Burada yerin altında xəzinə var. Onlar dedilər: Ya İsa, icazə olarmı qazıb o xəzinəni çıxardaq? Həzrət(ə) buyurdu: Siz bu xəzinəni çıxartmaqla məşğul olun, mən də ətrafdakı şəhərlərin birində bir xəzinə var, onu axtarmağa gedirəm.” Həzrətin tərəfdarları elə başa düşdülər ki, həmin şəhərdə də xəzinə var və İsa(ə) onu çıxarmağa gedir. Buna görə də yeri qazmağa başladılar. Həzrət İsa(ə) yola çıxıb şəhərə sarı yollandı. Şəhərin girəcəyində köhnə bir ev gördü. Bir qadın qapını açdı. İsa(ə) ona buyurdu: “Xanım, bir neçə gün sizdə qonaq qalmağa icazə verirsənmi?” Qadın dedi: “Qonaq Allahındır. Əlbəttə, buyurun içəri.”

Həzrət(ə) içəri daxil olub əyləşdi. Qadın gördü ki, onun qonağı çox nurani bir insandır. Həzrət İsa(ə) qadından kiminlə yaşadığını və dolanışığı barədə soruşduqda qadın dedi: “Mənim bircə oğlum var. Hər gün gedib odun qırır, bazarda satır və qazandığı pulla gündəlik dolanışığımızı təmin edirik.” Söhbət əsnasında qadının

oğlu içəri daxil oldu. Lakin onun üzündən qəm-kədər hiss olunurdu. Salam-kəlamdan sonra Həzrət İsa(ə) ondan soruşdu: “Sənin belə fikirli və qəmli olmağının səbəbi nədir?” Oğlan dedi: “Mənim ürəyimdə bir dərdim var. Bu dərdi heç kəsə danışmamışam. Sənə də danışmaq istəməzdim. Çünki güman etmirəm ki, mənim bu çətinliyim həll olunsun.” Həzrət(ə) buyurdu: “Sən danış, bəlkə bir çarə tapıldı.” Oğlan gedib anası ilə bu barədə danışdı. Anası dedi: “Bizim qonağımız çox nurani bir insandır. Məncə, ona hər şeyi danışmaq olar. Oğlan gəlib söhbətə başladı və dedi: Günlərin birində odun qırıb satmağa aparırdım. Şahın sarayının qarşısından keçərkən necə oldusa gözüm onun qızına düşdü. O gündən bəri həmin qızın məhəbbəti ürəyimdən çıxmır. Mən şahın qızına aşiq olmuşam. Əgər bu məsələni mənim üçün həll edə bilsən, sənə çox minnətdar olaram.” Həzrət İsa(ə) buyurdu: “Şahın qızına elçi getmisənmi? Oğlan dedi: Xeyr. Axı şahın evinə məni buraxmazlar. Həzrət(ə) buyurdu: Elə isə get şahın özü ilə danış.”

Oğlan səhər tezdən durub şahın sarayına yollandı. Qapıçılar dedilər: “Sən kimsən və bura niyə gəlmisən? Oğlan dedi: Mən şahın qızına elçiliyə gəlmişəm. Keşikçilər onun əyin-başına baxıb güldülər və bir-birinə dedilər: Bunu içəri buraxaq ki, şah da onun sözlərini eşidib bir az gülsün. Oğlanı şahın hüzuruna gətirdilər. Şah soruşdu: Sən kimsən və məndən nə istəyirsən? Oğlan dedi: Mən sənin qızına elçiliyə gəlmişəm. Şah gülüb zarafatca dedi: Qızımın mehriyyəsi nə olacaq? Oğlan dedi: Siz mehriyyə olaraq məndən nə tələb edirsiniz? Şah dedi: Mən filan qədər qızıl istəyirəm. Şah oğlana elə bir miqdar dedi ki, öz xəzinəsindən daha çox idi. Oğlan dedi: Elə isə mən gedim fikirləşim və cavabını sabah sizə deyərəm.”

Oğlan Həzrət İsanın(ə) yanına gəlib dedi: “Şah qızını mənə vermək üçün bu qədər qızıl istədi. İsa(ə) dedi: Əgər bununla məsələ həll olunacaqsa, dur mənimlə gedək. Onlar yola düşüb bir dağın ətəyinə çatdılar. Həzrət(ə) ona buyurdu: Bu dağdan nə qədər daş yara bilsən, hamısı qızıl olacaq.” Oğlan dağı yarmağa başladı və hər dəfə dağdan daş qopduqca həmin daşlar dönüb qızıl olurdu. Beləcə oğlan həmin qızılları bir kisəyə yığıb şahın sarayına yollandı. Şah qızılları görüb çox təəccübləndi və başa düşdü ki, burada bir sirr var. Üzünü oğlana tutub dedi: “Sən kiminlə məsləhətləşirsən belə? Oğlan dedi: Mənim nurani bir qonağım var. Bütün məsləhətləri mənə o verir. Şah dedi: Mənə bu qədər də qızıl lazımdır.” Oğlan yenə də Həzrət İsanın(ə) yanına gəlib dedi: “Şah həmin qədər də qızıl istəyir. Həzrət(ə) buyurdu: Yerini sənə göstərmişəm. Get, istədiyin qədər yığ apar.” Oğlan gedib yenə həmin dağdan qızılları kisəyə doldurdu və şahın sarayına apardı. Şah yenə də təəccübləndi və dedi: “Get, həmin qonağına de ki, gəlib kəbininizi kəssin.”

Oğlan sevinə-sevinə Həzrət İsanın(ə) yanına gəldi və bütün əhvalatı ona danışdı. Həzrət İsa(ə) oğlanla birgə şahın sarayına yollandı. Şahın qızı ilə oğlanın kəbinini kəsib getdi. Şah oğlanı danışdırmağa başladı. Baxıb gördü ki, kasıb olmasına baxmayaraq, çox ağıllı və mərifətli bir oğlandır. Şahın ondan çox xoşu gəldi. Səhərisi gün şah böyük bir ziyafət təşkil edib camaatı çağırdı. Hamıya elan etdi ki, məndən sonra yerimdə kürəkənim əyləşəcək.

Üstündən bir neçə gün keçməmiş şah dünyasını dəyişdi və oğlan həmin şəhərin şahı oldu. Həzrət İsa(ə) sağollaşmaq üçün onun yanına gəldi. Oğlan dedi: “Hara gedirsən? Həzrət(ə) buyurdu: Mənim öz işlərim var, onları görməyə gedirəm. Oğlan dedi: Elə isə xahiş edirəm ki, bir

sualıma cavab verəsən. Həzrət(ə) buyurdu: Sualını soruş. Oğlan dedi: Sənin əlində belə böyük imkanlar ola-ola nə üçün bu dünyada özünə bir şərait yaratmırsan? Həzrət İsa(ə) buyurdu: Mən bütün bunları öz eşqimin yolunda qurban vermişəm. Mən Allaha ibadət edərkən elə bir ləzzət alıram ki, dünyanın bütün bu ləzzətləri ona çata bilməz. Allaha ibadət etməyin ləzzəti mənim üçün dünyanın bütün ləzzətlərindən üstündür. Oğlan dedi: Əgər belədirsə, bəs nə üçün məni bura gətirib çıxartdın? İsa(ə) buyurdu: Sən özün belə istədin. Sən hara, şahın sarayı hara? Oğlan dedi: Mən bütün bunlardan keçirəm. Amma mənə icazə ver, ömrümün axırına qədər sənin yanında olum. Həzrət(ə) ona icazə verdi. Oğlan camaatı yığıb şahlıqdan və səltənətdən imtina edib İsa(ə) ilə yola düzəldi. Onlar gəlib Həzrət İsanın(ə) tərəfdarlarının qazdıqları yerə çatdılar. Baxıb gördülər ki, onlar da çoxlu qızıl çıxardıblar. Həzrət İsa(ə) buyurdu: Siz bu xəzinəni çıxardınız, mən isə bu xəzinəni tapıb gətirmişəm."

Həqiqi xəzinə belə (bu cavan oğlan kimi) olar, daş-kəsək yox. Əgər insan xəzinə olsa, onu hara atsalar belə əvvəl-axır onu tapıb çıxaracaqlar. Böyük alim və müctəhidlərdən biri öz tələbələrinə dərs deməklə məşğul idi. Günlərin birində yeniyetmə bir oğlan onun yanına gəlib dedi: "Ağa, mən də sizdən dərs almaq istəyirəm. Alim dedi: Sən hansısa fənni və ixtisası bitirmisənmi? Oğlan dedi: Xeyr. Alim dedi: Mən böyük alimlərə dərs deyirəm. Bu elmlərdən anlayışın olmadığı halda sənə necə dərs deyə bilərəm? Oğlan dedi: Özünüz bilərsiniz. Mən filan kənddə yaşayıram. Atam həmin kəndin ruhani və axundu idi. O, rəhmətə gedəndən sonra kəndin camaatı atamın paltarını mənə geyindiriblər. İstəyirlər ki, atamı əvəz edərək həmin kənddə axundluq edim. Məndən

pişnamaz olmağı, şəriət məsələlərinə cavab verməyi və dini məsələlərdə öndə getməyi tələb edirlər. Mənim də bu işləri görmək üçün bir o qədər savadım yoxdur. Buna görə də gəlib sizdən mənə dərs deməyinizi xahiş etdim. Əgər siz mənə dərs desəniz və mən də sizin elminizdən bəhrələnsəm, həmin kəndin camaatı da, mən də cənnətə gedəcəyik. Yox, əgər mənə dərs deməkdən imtina etsəniz, savadsız qalacağam. Belə olduqda həm özüm, həm də camaat cəhənnəmə düşəcək.”[1]

Alim deyir: “Uşağın sözlərindən təsirlənib öz-özümə dedim: Elə bil bu uşaq başqalarından fərqli və xüsusi istedada malikdir. Onun sözləri mənə təsir etmişdi. Onunla razılaşıb dedim: Sabahdan gələrsən, dərsə başlayarıq. Səhərisi gündən həmin oğlan mənim yanıma dərs oxumağa gəldi. Böyüklərə dərsi dedikdən sonra vaxt ayırıb onunla məşğul olurdum. Günlərin birində evdən çıxarkən həmin uşağa dərs dediyim kitabı nə qədər axtardımsa tapa bilmədim. Yenə də böyüklərə dərs dedikdən sonra bu uşaq dərsə gəldi. Əlimdə ona dərs dediyim kitab olmadığına görə dedim: Bu gün halım yaxşı deyil. Get, sabah gələrsən. Oğlan mənə baxıb dedi: Sizin halınız var, lakin kitabı tapa bilmədiyiniz üçün mənə belə söyləyirsiniz. Həyat yoldaşınız kitabı filan yerə qoyub və sizin də yadınızdan çıxıb. Onun bu sözləri məni daha da təəccübləndirdi. Çünki bu uşaq heç vaxt bizim evdə olmayıb. Görəsən, kitabın yerini haradın bilir? Axşam evə getdikdə gördüm ki, kitab həmin uşağın dediyi yerdədir.

[1] Əgər insanın savadı olmasa və savadla yanaşı nuraniyyəti, təqvası olmasa, ardınca gələnlərin hamısını cəhənnəmə aparmış olar.

Həmin gündən sonra onunla daha ciddiyyətlə məşğul olmağa başladım.”

Bu hadisənin üstündən bir neçə ay keçmişdi. Bir gün onunla dərsə başlamaq istədikdə bir nəfər tacir icazə alıb yanıma gəldi və bir məsələ haqda söhbət edərək dedi: “Mən bir ölkədən bir neçə ton qənd almışam. Həmin qəndi sərhəddə gömrük idarəsində saxlayıblar və keçirməyə qoymurlar. Gömrük işçiləri deyirlər ki, onun iki tonunu bizə versən, sənin mallarını keçirərik. Görəsən, mən həmin iki ton qəndi onlara versəm, mənim üçün şəri cəhətdən problem yaranarmı? Birdən uşaq dedi: İp də gedəcək, örkən də. Mən uşağa dedim: Sən bu işlərə qarışma. Sənin yanına gəlməyiblər ki, onlara da cavab verəsən. Sən kənarda dayan və söhbətimizə qarışma. Sonra mən həmin tacirə dedim: Sən malını çıxarmaq üçün iki tonunu verə bilərsən. Əgər verməsən, bütün malın əlindən gedər.”

Beləcə, ona məsələni izah edib yola saldım. Üstündən bir-iki gün keçməmiş həmin tacir yenə də yanıma gəlib dedi: “Uşaq deyən düz çıxdı. İki ton qəndimi də aldılar, malımı da qaytarmadılar. Onlar malın hamısını müsadirə etmək istəyirdilər, lakin mənim razılığım əsasında iki tonunu özləri mənimsəyib, qalanını müsadirə etdilər.” Səhərisi gün uşaq yenə də dərsə gəldi. Ondan soruşdum: “Sən bütün bunları haradan bilirsən? Uşaq dedi: Mənim böyüklərim və ağalarım var. Mən onlarla tez-tez əlaqə saxlayıram. Onlar bəzi məsələlərdən məni agah edirlər. Dedim: Məni onların yanına apara bilərsənmi? Uşaq dedi: İcazəsiz xeyr. Gərək əvvəlcə onlardan icazə alım, əgər icazə versələr, sizi də onlarla tanış edərəm.”

Dərs qurtardıqdan sonra uşaq getdi. Mən də səbirsizliklə onun yolunu gözləyirdim. Səhərisi gün uşaq gəlib dedi: "Mən sizi onlarla görüşdürmək üçün icazə istədim, lakin onlar icazə vermədilər. Dedilər ki, sənin zəhmət çəkib bura gəlməyin lazım deyil. Sən öz niyyətini düzəltsən və ürəyin saf olsa, biz özümüz sənin görüşünə gələrik."

## Həzrət Məhəmməd Peyğəmbər(s)

Beləliklə, bura qədər dörd böyük peyğəmbərin həm özləri, həm də onların möcüzələri barədə qısaca da olsa söz açdıq. İndi isə İslam Peyğəmbəri(s) haqda söhbətimizi davam etdirək. Böyük peyğəmbərlərdən beşincisi və sonuncusu Həzrət Məhəmməd(s) peyğəmbərdir. İslam Peyğəmbəri(s) digər böyük peyğəmbərlərdən tamamilə fərqlənir. Yəni İslam Peyğəmbərinin(s) elə bir xüsusiyyət və özəllikləri vardır ki, digər peyğəmbərlərdə həmin xüsusiyyət və özəlliklər olmayıb. Bəhsimizə başlamazdan öncə Həzrətin(s) həyatı barədə qısa məlumatı nəzərinizə çatdırmaq istərdim.

İslamın əziz Peyğəmbəri(s) miladi tarixi ilə 570-ci ildə (İslam təqvimi ilə rəbiüləvvəl ayının 17-də) dünyaya göz açmışdır. Həzrət(s) 40 yaşında ikən peyğəmbərliyə çatdıqdan sonra 13 il Məkkədə yaşayaraq insanları tövhidə və Allaha ibadət etməyə dəvət etmişdir. 53 yaşında isə Həzrət(s) Mədinə şəhərinə hicrət etmişdir. Orada yaşadığı 10 il müddətində də insanları Allaha bəndəliyə və vəhdətə dəvət etmişdir. İslam Peyğəmbəri(s) 63 yaşında Mədinə şəhərində dünyasını dəyişmişdir. Onun pak və mütəhhər olan bədəni elə həmin şəhərdəki Məscidün-Nəbidə torpağa tapşırılmışdır. İslam Peyğəmbərinin(s) mübarək qəbri müsəlmanların daim əlaqə saxladıqları və məhəbbət

bəslədikləri bir yerdir. Həzrətin(s) qəbrinin ziyarəti elə müstəhəb bir əməldir ki, İslam xəlifələri və xüsusilə, məsum imamlarımız həmişə bu müqəddəs məkanı ziyarət etmişlər. Bugünkü gündə də Həzrət Peyğəmbərin(s) mübarək məqbərəsini ziyarət etməyin çox böyük fəzilət, şərafət və savabı vardır.

İslam Peyğəmbərinin(s) ata-babalarının hamısı Allah qarşısında səcdə etmiş və Onun vəhdaniyyətini sidq ürəkdən qəbul etmişlər. Onun babalarının heç biri bütpərəstliyə meylli olmamış və adları tarixi mənbələrdə qeyd edilmişdir. İslam Peyğəmbərinin(s) 48-ci babası Həzrət Adəmdir(ə). Adəm Peyğəmbər(ə) yer üzündə yaradılmış ilk insandır. Hətta İslam Peyğəmbərinin(s) babalarının 20-nin adı firqəsindən asılı olmayaraq əksər tarix kitablarında yazılmışdır. Nümunə üçün Həzrətin(s) babalarının adlarına diqqət yetirək: Məhəmməd ibn Abdullah ibn Əbdülmüttəlib ibn Haşim ibn Əbdülmənaf ibn Qusəyy ibn Kilab ibn Murrə ibn Kəb ibn Luvəyy ibn Ğalib ibn Fehr ibn Malik ibn Nəzr ibn Kinanə ibn Xüzeymə ibn Mudrikə ibn İlyas ibn Muzirr ibn Nizar ibn Məd ibn Ədnan.

Özü və atasının adını çıxmaq şərtilə adlarını saydığımız bu şəxsiyyətlər İslam Peyğəmbərinin(s) babalarıdır ki, adları bir çox tarix kitablarında dəqiqliklə qeyd olunmuşdur. Həzrət İsmayıl Peyğəmbər(ə) İslam Peyğəmbərinin(s) 28-ci babasıdır. Həzrət İbrahim Peyğəmbər(ə) İsmayılın(ə) atasıdır ki, İslam Peyğəmbərinin(s) 29-cu babasıdır. Həzrət Nuhla(ə) Həzrət İbrahim(ə) arasında 8 nəsillik fasilə vardır. Odur ki, Həzrət Nuh(ə) İslam Peyğəmbərinin(s) 39-cu babası sayılır. Həzrət İdris(ə) İslam Peyğəmbərinin(s) 42-ci, Adəm(ə) isə 48-ci babasıdır. İslam Peyğəmbərinin(s)

bütün babaları Allahın dinində səcdə və ibadət etmişlər. Onlar heç bir vaxt bütpərəstliklə məşğul olmamışlar.

İslam Peyğəmbərinin(s) adlarına gəldikdə isə, Həzrət(s) Qurani-Kərimdə 4 dəfə Məhəmməd(s) və 1 dəfə Əhməd adı ilə zikr olunmuşdur. Qurani-Kərimdə onun 1 adı Xatəmun-nəbiyyin ləqəbi ilə bəyan olunmuşdur ki, mənası "peyğəmbərlərin sonuncusu" deməkdir. Yəni Qurani-Kərim açıq-aydın şəkildə elan edir ki, ondan sonra heç bir peyğəmbər gəlməyəcək və Həzrət(s) sonuncu peyğəmbərdir. Odur ki, İslam Peyğəmbərindən(s) sonra hər kəs peyğəmbərlik iddiası etsə, yalançı peyğəmbərdir. Çünki Allah-təala İslam Peyğəmbərini(s) sonuncu peyğəmbər kimi bütün aləmə elan etmiş və onunla peyğəmbərliyi xətm etmişdir. Buna görə də Həzrətin(s) ləqəblərindən biri Xatəmun-nəbiyyin adlanır. Bundan əlavə, Qurani-Kərimdə İslam Peyğəmbərinə(s) dəfələrlə "Rəsul" və "Nəbi" deyə xitab olunmuşdur.

İslam Peyğəmbərinin(s) mübarək vücudu bütün peyğəmbərlərdən şərəfli və üstündür. Yəni peyğəmbərlər bütün insanlardan, insanlar bütün yaradılışın hamısından və İslam Peyğəmbəri(s) isə həm insanlardan, həm də peyğəmbərlərdən ən üstün və şərəflidir. Deməli, bütün kainatın ən fəzilətli və ən şərafətli insanı İslam Peyğəmbəridir(s). Allah-təala ondan şərafətli və üstün bir məxluq yaratmayıb. Həzrətin(s) bütün hərəkətləri, danışıqları və rəftarı insanlar üçün bir nümunə və örnəkdir. Allah-təala İslam Peyğəmbərini(s) Qurani-Kərimdə ən nümunəvi bir insan kimi bütün bəşəriyyətə təqdim edir.

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ

-Şübhəsiz, Allaha və axirət gününə (qəlbdə və əməldə) ümid bəsləyən və Allahı çox zikr edənlər üçün Allahın Rəsulunun rəftarında həyat örnəyi və nümunəsi vardır.[1]

Əgər kimsə aləmdə nümunəvi bir insan görmək istəyirsə, İslam Peyğəmbərinin(s) hərəkətlərinə baxsın. Onun bütün hərəkətləri Quran ayələri əsasındadır. Quranın ayələrini oxumaqla Peyğəmbərin(s) bütün əməl və hərəkətlərinə baxmaq eynidir. Həzrət(s) Quranın canlı təzahürüdür. Onun bütün əməlləri bizim üçün nümunə və örnəkdir. Bu, çox mühüm məsələdir. Allah-təala yer üzündə elə bir insanı yaradıb ki, əgər insaniyyətin ən mükəmməl nümunəsini görmək istəyirsinizsə Həzrətə(s) və onun hərəkət və əməllərinə baxın.

Burada əsas mətləblərdən biri də odur ki, İslam Peyğəmbərinin(s) bütün sözləri və danışıqları bizim üçün höccətdir. Bu barədə olan ayələrdən bir neçəsinə diqqət yetirək. Məsələn, "Əraf" surəsinin 158-ci ayəsində belə buyurulur:

قُلْ يَا أَيُّهَا النَّاسُ إِنِّي رَسُولُ اللّهِ إِلَيْكُمْ جَمِيعًا الَّذِي لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ لا إِلَهَ إِلاَّ هُوَ يُحْيِي وَيُمِيتُ فَآمِنُواْ بِاللّهِ وَرَسُولِهِ النَّبِيِّ الأُمِّيِّ الَّذِي يُؤْمِنُ بِاللّهِ وَكَلِمَاتِهِ وَاتَّبِعُوهُ لَعَلَّكُمْ تَهْتَدُونَ

-De: "Ey insanlar, həqiqətən, mən Allahın sizin hamınıza (xitab olunan zamanın varlıqlarından tutmuş bəşəriyyətin nəsli kəsilənədək olacaq bütün insanlara) göndərilmiş Peyğəmbəriyəm. O Allahın ki, göylərin və yerin həqiqi sahibi və hakimidir. Ondan başqa bir məbud

---

[1] Əhzab surəsi, ayə 21.

yoxdur, dirildir və öldürür. Odur ki, Allaha və Onun elçisinə - (Qurandakı və əvvəlki səmavi kitablardakı) kəlamlarına imanı olan bu Peyğəmbərə iman gətirin və ona tabe olun, bəlkə hidayət olundunuz.”

Bu ayədə Allah-təala bütün insanlara Peyğəmbərə(s) tabe olmağı təkidlə bəyan edir. Bəni-Əsəd qəbiləsi Peyğəmbərin(s) hüzuruna gəlib iman gətirdiklərini etiraf etdilər. Onlar Peyğəmbərə(s) iman gətirməklə minnət qoymaq fikrində idilər. (Yəni başqaları deyil, görürsənmi biz sənə iman gətimişik?) Onların sözlərində azacıq minnət hissi hiss olundu. Allah-təala “Muhəmməd” surəsinin 33-cü ayəsini nazil etdi:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَلَا تُبْطِلُوا أَعْمَالَكُمْ

-Ey iman gətirənlər (şəriət hökmlərində) Allaha itaət edin, Onun peyğəmbərinə itaət edin və öz əməllərinizi (minnət qoymaq və əməlin puç olmasına səbəb olan digər günahlarla) batil etməyin.

## Minnət qoymaq, özünü bəyənmək və paxıllıq yaxşı əməlləri batil edir

Minnət elə bir şeydir ki, insanın əməllərini puç edib aradan qaldırır. Əgər bir insan Peyğəmbərə(s) iman gətiribsə, buna görə Allaha şükür etməlidir ki, haqq yola hidayət olub. Bu hidayət olma da yalnız onun özünə faydalıdır, başqası üçün yox. Peyğəmbərə(s) iman gətirməyə minnət qoymaq isə insanın əməlini batil edir. Yəni insanın vəzifəsi və borcu Allaha iman gətirməkdir. İnsan Allaha iman gətirdikdən sonra Peyğəmbərə(s) itaət etməlidir. Çünki ona itaət etməyi Allah vacib

buyurmuşdur. Əgər bir kəs Peyğəmbərə(s) itaət edərsə çox yaxşı, itaət etməzsə heç bir kəsə minnəti yoxdur. İnsan yalvarıb yaxarmalı və iman gətirməlidir, həmçinin iman gətirdikdən sonra da kiməsə minnət qoymamalıdır. Ümumiyyətlə, bütün ibadətlərdə də insanın kiməsə minnət etməsi yolverilməzdir. Minnət etmə ibadətləri puç edib aradan qaldırır. Məsələn, bir nəfər dəstəmaz almaq istəyir, lakin su tapa bilmir. Su olmadıqda və axtarıb tapmadıqda insanın vəzifəsi təyəmmüm etməkdir. Bir nəfər gəlib desə ki, məndə dəstəmaz almaq üçün su var, onda isə təyəmmüm batildir. Əgər həmin şəxs o suyu dəstəmaz almaq istəyənə minnətlə versə, o sudan istifadə etmək olmaz. Əgər mömin minnətli su ilə dəstəmaz alsa yenə də dəstəmazı batildir. Buna görə də təyəmmüm etməlidir. Görürük ki, minnət qoyma heç bir əməldə düzgün və qəbul deyil. Odur ki, insanın əməllərini batil edən işlərdən biri də minnət qoymaqdır. “Bəqərə” surəsinin 264-cü ayəsində açıq şəkildə belə buyurulur:

لاَ تُبْطِلُواْ صَدَقَاتِكُم بِالْمَنِّ وَالأذَى

-Sədəqələrinizi minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın.

İnsan yaxşı bir iş görür, ehsan edir və savab qazanır. Əgər bu işə görə minnət qoyarsa, etdiyi əməl batil olacaq. Məsələn, su içmək orucu batil etdiyi kimi, minnət qoymaq da insanın sədəqələrini və yaxşı əməllərini batil edir.

Həmçinin özünü bəyənmə və öz əməllərindən razı qalma da insanın əməllərini batil edir. Hədislərdə deyilir ki, od taxtanı yeyib qurtardığı kimi bu kimi hərəkətlər də insanın əməllərini puç edir. Digər bir hədisdə belə buyurulur ki, Allah-təala günahlarına görə xəcalət çəkib utanan günahkar insanı ibadət edib özünü bəyənən və

əməllərindən razı qalan insandan daha çox sevir. Çünki ibadət odur ki, insan Allah qarşısında özünü miskin göstərsin. Dəstəmaz alarkən baş və ayaqların məshi, habelə namazda rüku və səcdəyə getməyin mənası budur ki, insan Allah qarşısında özünü miskin bilir. İnsan bununla demək və sübut etmək istəyir ki, “Ey mənim Allahım, Sən izzət və əzəmətlisən, mən isə Sənin qarşında zəlil və miskinəm. Fəxr etməyimə bu bəs edər ki, mən Sənin bəndənəm. İzzətimə də bu bəs edər ki, Sən mənim Allahımsan.”

Həsəd və paxıllıq da minnət qoymaq kimi insanın yaxşı əməllərini puç edir. Ürəyində kiməsə qarşı paxıllıq etmə insanın yaxşı əməllərini məhv edir. Buna görə də insanın etdiyi əməllərə və iman gətirdiyinə görə heç bir kəsə minnət qoymağa haqqı yoxdur. İman gətirmək, Allaha və Onun Rəsuluna(s) itaət etmək hər bir insanın borcudur.

## Peyğəmbərə(s) itaət etmək Allaha itaət etməkdir

Allah-təala insanlara Peyğəmbərə(s) itaət etməyi vacib buyurur. Bu məsələ “Nisa” surəsinin 80-ci ayəsində açıq şəkildə əmr olunmuşdur:

مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ

-Allahın peyğəmbərinə itaət edən kəs əslində Allaha itaət edib.

Bu fikir Allahın İslam Peyğəmbəri(s) haqqında buyurduğu çox böyük fikirdir. Ayədə Allah-təala Peyğəmbəri(s) belə təqdim edir ki, ona itaət edən Allaha itaət etmişdir. “Ali-İmran” surəsinin 30-cu ayəsində belə buyurulur:

قُلْ إِن كُنتُمْ تُحِبُّونَ اللّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ

-De: “Əgər Allahı sevirsinizsə, onda mənə tabe olun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın.”

“Həşr” surəsinin 7-ci ayəsində buyurulur:

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

-Bizim Rəsulumuz sizə nə verirsə (hökmlər, maarif və malları) götürün və sizə nəyi qadağan edirsə ondan əl çəkin. Allahdan qorxun ki, Allah şiddətli cəza verəndir.

Bütün bu ayələrdən açıq-aydın görürük ki, Allah-təala Öz itaətini Peyğəmbərin(s) itaətinə bağlayıb. Hər kəs Peyğəmbərə(s) itaət edirsə, deməli Allaha itaət edir. Hər kəs Peyğəmbərə(s) itaətsizlik edirsə, deməli Allaha itaətsizlik etmişdir. Peyğəmbərin(s) hər bir kəlməsi və hər bir sözü höccətdir. Onun buyurduqlarının hamısı Allah tərəfindəndir. O, heç bir vaxt özündən bir söz demir. “Nəcm” surəsinin ilk ayələrində belə oxuyuruq:

وَالنَّجْمِ إِذَا هَوَى. مَا ضَلَّ صَاحِبُكُمْ وَمَا غَوَى. وَمَا يَنطِقُ عَنِ الْهَوَى. إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى

-And olsun çıxmaqda və batmaqda olan ulduza. Sizin yoldaşınız və dostunuz (Məhəmməd(s) ) nə (əməldə səadət) yolundan çıxıb və nə də (əqidəsində haqdan) azıb. O, əsla nəfsani istəkləri ilə danışmır. Dedikləri yalnız, (yuxarı aləmdən) ona ilham olunan vəhydir.[1]

[1] Nəcm surəsi, ayə 1-4.

Bu, Allahın İslam Peyğəmbəri(s) haqqında buyurduğu Quran ayələridir. Çox böyük sözlərdir və Allah and içərək bunları İslam Peyğəmbəri(s) barəsində buyurur. Buna görə də insanlar onun sözlərini heç bir vaxt əhəmiyyətsiz saymamalıdırlar. Peyğəmbərə(s) hörmətsizlik etmək Allahın qəzəbinə səbəb olar. Çünki onun sözləri Allahın sözlərindən başqa bir şey deyildir. “Nur” surəsinin 62-ci ayəsində belə buyurulur:

لَا تَجْعَلُوا دُعَاءَ الرَّسُولِ بَيْنَكُمْ كَدُعَاءِ بَعْضِكُم بَعْضًا قَدْ يَعْلَمُ اللَّهُ الَّذِينَ يَتَسَلَّلُونَ مِنكُمْ لِوَاذًا فَلْيَحْذَرِ الَّذِينَ يُخَالِفُونَ عَنْ أَمْرِهِ أَن تُصِيبَهُمْ فِتْنَةٌ أَوْ يُصِيبَهُمْ عَذَابٌ أَلِيمٌ

-Peyğəmbərin sizin aranızdakı (hər hansı bir din və dünya işindəki) dəvət və çağırışını sizdən birinin digərini dəvət və çağırması kimi hesab etməyin (və onu əhəmiyyətsiz saymayın). Həqiqətən, Allah (Peyğəmbərin dəvətindən sonra onun məclisindən) bir-birinin kölgəsində (xəlvətcə) yavaş-yavaş camaatın arasından çıxanları tanıyır. Buna görə də gərək Peyğəmbərin əmrindən çıxanlar onlara (dünyada) bir bəla və ya (axirətdə) ağrılı bir əzab gəlməsindən çəkinsinlər.

Görürük ki, Allah-təala Peyğəmbəri(s) belə ali məqamlarla tərif və təqdim edir. Öz itaətini onun itaətinə bağlayır. Onun sözünün Öz sözü olduğunu bəyan edir. Allah-təala İslam Peyğəmbərini(s) elə tərif və təqdim edir ki, heç bir kəsi belə təqdim etməyib. Buna görə də belə bir şəxsiyyətin çox böyük möcüzəsi olmalıdır ki, insanlar ona inansınlar. İslam Peyğəmbərinin(s) itaətinin belə vacib olmasını sübuta yetirmək üçün onun elə böyük möcüzələri olmalıdır ki, keçmiş peyğəmbərlərin möcüzələrindən daha

böyük və daha üstün olsun. Həm də elə bir möcüzə olmalıdır ki, bu möcüzə əbədi olmuş olsun. Çünki İslam Peyğəmbəri(s) sonuncu peyğəmbərdir. Onun elə möcüzəsi olmalıdır ki, gələcək nəsillər öz gözləri ilə həmin möcüzələri görüb ona iman gətirsinlər. Onun gətirdiyi möcüzələr İsanın(ə) ölüləri diriltməsi, yaxud Musanın(ə) əsası kimi müvəqqəti möcüzələr deyildir. İslam Peyğəmbəri(s) qiyamətə qədər peyğəmbərdir. Onun möcüzələri elə olmalıdır ki, qiyamətə qədər onun bənzərini heç bir kəs gətirə bilməsin və bacarmasın. Belə olduqda insanlar onun sözlərinə və gətirdiyii dinə iman gətirə bilərlər.

Peyğəmbərin(s) sözləri, hərəkəti və rəftarı bir-biri ilə uyğunluq təşkil edirdi. Buna görə də camaat onun sözlərinə inanıb iman gətirirdilər. Peyğəmbər(s) müxtəlif imtahanlardan çıxıb özünü bu məqama çatdırmışdı. Allah-təala Özü qırx il onu tərbiyə etmişdir. Orucluq ayında Hərا dağına gedib ibadət edərdi. Qırx illik təlim-tərbiyədən sonra ona bu məqamı bəxş etmişdir. Elə bir məqamı ki, onun itaəti Allahın itaəti hesab olunur.

Günlərin birində cənab Mikayıl(ə) onun yanına gəlib dedi: “Ya Rəsulallah, Allah məni sənin yanına bir təklif üçün göndərmişdir. Dünyanın padşahlığını özümlə gətirmişəm. Allah-təala bu padşahlığı sənə vermək istəyir. Əgər qəbul etsən sənin axirət savabından və peyğəmbərliyindən bir zərrə də olsa azalmayacaq. Bu padşahlıq sənin savablarından heç bir şeyi azaltmayacaq. Bu padşahlığı bəyənirsən, yoxsa Allaha qul və bəndə olmağı?” Peyğəmbər(s) buyurdu: “Ey Mikayıl, mən Allahın qulu və bəndəsi olmağı daha çox sevirəm. Bir gün olsun yeyim, bir gün olmasın yeməyim. Ac qaldığım günü

Allaha yalvarıb ondan ruzi istəyim. Yediyim gün isə mənə ruzi verdiyinə görə Allaha şükür edim.”

Allah-təala İslam Peyğəmbərini(s) bütün bu imtahanlardan çıxardıqdan sonra onun sözünü Öz sözü, onun itaətini Öz itaəti kimi insanlara təqdim etdi. İnsanlar onun əməllərinə, sözlərinə və hərəkətlərinə baxıb inanır və iman gətirirdilər. Çünki onun heç bir əməli danışdığı sözü ilə ziddiyyət yaratmırdı. Buna görə də hamı ona inanır və etibar edirdi. Əgər Peyğəmbər(s) bir nəfərin cənnətə getməsinə zəmanət verirsə, deməli həmin şəxs mütləq cənnətə gedəcək.

## Xurma ağacı əvəzinə cənnət ağacları

Günlərin birində bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, mənim bir qonşum var. Onun həyətində olan xurma ağaclarından biri mənim həyətimə sarı əyilib. Onun budaqları mənim həyətimə sallanıb. Hərdən o ağacdan həyətə xurma dənələri yerə düşür və uşaqlarım götürüb yeyirlər. Həmin qonşum bunu gördükdə uşaqların üstünə çığırır. Hətta həyətə gəlib xurmanı uşaqların ağzından belə çıxarır. Ya Rəsulallah, xahiş edirəm ki, həmin qonşuma bir az öyüd-nəsihət verəsiniz.” Həzrət(s) buyurdu: “Mən sənin qonşunla söhbət edib sənə xəbər verərəm.” Həmin şəxs getdikdən sonra Peyğəmbər(s) onun qonşusunu çağırıb buyurdu: “Olarmı sən bu ağacı mənə bağışlayasan? Əgər bu ağacı mənə versən, mən də cənnətdə gözəl ağacları zəmanət verirəm.” Ağacın yiyəsi bir az fikirləşib dedi: “Mənim bu ağacım başqa ağaclardan tamamilə fərqlidir. Mən bunu heç bir kəsə verməərəm.”

Bu söhbətdən sonra onlar ayrıldılar. Möminlərdən biri bu söhbəti eşidib dərhal həmin ağacın yiyəsinin

yanına gəlib dedi: “O ağacı mənə satarsanmı? Ağac yiyəsi onu başından uzaqlaşdırmaq üçün həddindən artıq baha bir qiymət söylədi. Dedi ki, bəli satıram. Ağacı almaq istəyən soruşdu: Neçəyə satırsan? O dedi: Qırx xurma ağacına. Ağacı almaq istəyən mömin bir az fikirləşib dedi: Bunun başqa yolu varmı? Dedi: Xeyr, elə dediyim qiymətə satıram. Ağacı almaq istəyən dedi: Elə isə gəl müqavilə bağlayaq. Mən bağımdakı ağaclardan qırx xurma ağacını sənə verirəm və sən də bu əyri ağacı mənə satırsan.” Razılaşıb müqavilə imzaladılar. Ağacı alan mömin qaça-qaça Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, o ağac yiyəsinə verdiyiniz vədəni mənə də verərsinizmi? Həzrət(s) buyurdu: Hər kəs o ağacı mənə bağışlasa, mən cənnətdə gözəl ağacları ona verəcəyimə zamin dayanıram. O dedi: Ya Rəsulallah, mən həmin ağacı ondan satın almışam. Elə isə həmin ağacı sənə bağışlayıram. Həzrət Peyğəmbər(s) də həmin ağacı qonşuya bağışladı və onu bağışlayan insana isə cənnət ağaclarını verəcəyinə zamin dayandı.”

İnsanlar İslam Peyğəmbərinə(s) həqiqətən də iman gətirmişdilər. Kim gedib öz bağından qırx ağacı bircə əyri ağaca dəyişərdi? Onlar bilirdilər ki, o, Allahın peyğəmbəridir və verdiyi sözlərə heç bir vaxt xilaf çıxmaz. Bilirdilər ki, o, bu dünyanın padşahlığından imtina etmişdir və özü üçün hər bir şey edə bilərdi, amma etmədi. Yəqin bilirdilər ki, bu insan mənəviyyat aləminin insanıdır. Buna görə də onun sözlərinin hər birinə etibar edib inanırdılar. Ürəkdən onun peyğəmbər olduğuna inanmış və səmimi qəlbdən iman gətirmişdilər. Allah-təala hamımızı Peyğəmbərə(s) iman gətirib ona itaət edənlərin ən yaxşılarından etsin.

## İslam Peyğəmbərinin(s) risaləti və onun spesifik xüsusiyyətləri

Burada bəhsimizə əlavə olaraq mühüm bir məqamın qeyd olunması da çox zəruridir. Bu mətləbə diqqət yetirdikdən sonra İslam Peyğəmbərinin(s) əsas möcüzəsindən söz açacağıq. Həmin mətləb budur ki, İslam Peyğəmbərinin(s) özünəməxsus xüsusiyyətləri var idi. Yəni bu xüsusiyyətlər digər peyğəmbərlərdən fərqli olaraq yalnız onun özünə məxsusdur.

### 1.İslam Peyğəmbəri(s) ümumbəşəri peyğəmbərdir

İslam Peyğəmbərinin(s) özünəməxsus xüsusiyyətlərindən biri onun dəvətinin ümumbəşəri olmasıdır. Yəni Həzrət(s) dilindən, irqindən, rəngindən və kimliyindən asılı olmayaraq bütün insanları nəzərdə tutub Allaha tərəf dəvət edir. Bu, İslam Peyğəmbərinin(s) özünəməxsus xüsusiyyətlərindən biridir və bu barədə Quranın bəzi ayələrinə diqqət yetirək. “Səbə” surəsinin 28-ci ayəsində belə oxuyuruq:

وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِّلنَّاسِ بَشِيرًا وَنَذِيرًا

-Və Biz səni bütün insanlara (öz əsrindən dünyanın sonunadək) qoruyan və (salehlərə) müjdə verən və (pisləri) qorxudan (kimi) göndərdik.

“Ənbiya” surəsinin 107-ci ayəsini əlimizdə möhkəm sübut və dəlil tutaraq belə oxuyuruq:

وَمَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِّلْعَالَمِينَ

-(Ya Məhəmməd!) Biz səni aləmdəkilər üçün yalnız bir rəhmət olaraq göndərmişik.

Bu ayələrdən açıq-aydın görürük ki, İslam Peyğəmbəri(s) bütün insanlara seçilmiş bir peyğəmbərdir

və bütün aləmlərə rəhmət olaraq göndərilmişdir. Ən maraqlısı odur ki, Allah-təala bu məsələni Peyğəmbərin(s) öz dili ilə açıqlayır. "Nisa" surəsinin 170-ci ayəsində belə oxuyuruq:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُمُ الرَّسُولُ بِالْحَقِّ مِن رَّبِّكُمْ

فَآمِنُواْ خَيْرًا لَّكُمْ

-Ey insanlar, həqiqətən, Bizim elçimiz sizə Rəbbiniz tərəfindən haqq (din və kitab)ı gətirmişdir. Buna görə də iman gətirin ki, (bu) sizin xeyrinizədir.

Ayələrdən görürük ki, İslam Peyğəmbəri(s) özü də camaata xitab edərkən bütün insanları nəzərdə tutub danışır. Heç bir rəng, heç bir dil, heç bir ölkəni xüsusiləşdirib danışmır. Bütün insanların hamısını bir insan kimi nəzərdə tutur və onlara xitab edir. Lakin burada bir məsələ var ki, Peyğəmbər(s) yer kürəsinin adamlarından biridir. Yer kürəsində yaşayırsa, deməli yer kürəsində dünyaya gəlib. Hər bir peyğəmbər yer kürəsində hansısa bir yerdə dünyaya gəlmişdir. Hər bir peyğəmbər özünü həmin doğulduğu vilayətdə elan edib və gətirdiyi dini təbliğ etməyə başlayıb. İslam Peyğəmbəri(s) də həmçinin Məkkədə dünyaya göz açıb, dili ərəb dilidir və rİsalətə başladığı gündən özünün doğulduğu yerdən öz dili ilə camaatı dəvət etməyə başlamışdır. Bu məsələdə heç bir şəkk-şübhə yoxdur.

İslam Peyğəmbəri(s) öz ölkəsində yerli camaatı öz doğma dillərində başa saldıqdan sonra sözlərini ümumiləşdirir. Yəni peyğəmbərlik dəvətini bir ölkə ilə məhdudlaşdırmır. Məkkə şəhərində peyğəmbərliyə başlamasına baxmayaraq, dəvətini öz ölkəsindən kənara

da çıxarır. Necə ki, “Ənam” surəsinin 19-cu ayəsində oxuyuruq:

وَأُوحِيَ إِلَيَّ هَذَا الْقُرْآنُ لأُنذِرَكُم بِهِ وَمَن بَلَغَ

-Bu Quran mənə vəhy olunub ki, onun vasitəsiylə (həm) sizi və (həm də bəşər nəslinin kökü kəsilənədək) onun çatdığı hər bir kəsi qorxudam.

Deməli, İslam Peyğəmbəri(s) həm öz ətrafındakılara, həm də sözlərinin çatdığı hər bir insana bu sözləri danışır. Öz dilində və öz doğulduğu şəhərində danışmasına baxmayaraq, bütün insanları nəzərdə tutub fəaliyyətə başlayır. Onun bu dəvəti dil, qəbilə və ölkə və ilə məhdudlaşmır.

**2. İslam Peyğəmbərinin(s) peyğəmbərliyi əbədidir**

İslam Peyğəmbərinin(s) ikinci spesifik xüsusiyyəti budur ki, o, bütün peyğəmbərliklərin hamısna son qoyur. Peyğəmbərliyin onunla sona çatması bu deməkdir ki, onun peyğəmbərliyi əbədidir. Buna görə də Quranda onun adına Xatəmün-nəbiyyin (peyğəmbərlərin sonuncusu) deyilir. İslam Peyğəmbəri(s) nübüvvətə, nazil olan şəriətə və səmavi kitablara son qoyur. Həmçinin özündən əvvəlki peyğəmbərlərin hamısını təsdiqləyir və sona çatdırır. Yəni onun gəlişi ilə artıq keçmiş qanunlar dayandırılır və onun qanunları icra olunur.

Əgər vaxtilə İsanın(ə) gətirdiyi qanunlar qüvvədə idisə, artıq İslam Peyğəmbərinin(s) gətirdiyi və bəşəriyyətə təqdim etdiyi yeni qanunlar qüvvəyə minmişdir. Əgər 600 il İsanın(ə) gətirdiyi İncil insanlar arasında hakim idisə, indi artıq Quran insanlar arasında hökm edəcəkdir. Beləcə, keçmişin bütün qanunları ləğv olunur və İslam qanunları icra olunmağa başlayır. Həm də

İslamın bəşəriyyətə bəxş etdiyi bu qanunlar əbədi olaraq yaşama haqqına malik olacaqdır. Deməli, İslam Peyğəmbərinin(s) gəlişi ilə peyğəmbərlik sona çatır və qiyamətə qədər onun qanunları insanlar arasında mövcud olacaqdır. "Əhzab" surəsinin 40-cı ayəsində bu barədə belə oxuyuruq.

مَّا كَانَ مُحَمَّدٌ أَبَا أَحَدٍ مِّن رِّجَالِكُمْ وَلَكِن رَّسُولَ اللَّهِ وَخَاتَمَ النَّبِيِّينَ وَكَانَ اللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمًا

-Muhəmməd (səlləllahu ələyhi və alihi və səlləm) sizlərdən heç birinin atası deyildir. Lakin (O,) Allahın Rəsuludur və peyğəmbərlərin sonuncusudur. Və Allah həmişə hər bir şeyi biləndir.

Bu ayədə "Xatəmün-nəbiyyin" kəlməsi işlənmişdir. Xatəm "xətm" sözündən götürülüb. Bir işin sona çatmasına "xətm" deyilir. İslam Peyğəmbərinin(s) gəlişi ilə peyğəmbərliyə xətm verildi. Ərəb dilində üzüyə "xatəm" deyilir. Qədim zamanlarda möhür olmadığı üçün hansısa bir müqavilə, yaxud məktub yazıldıqda onun sonunda üzüklə möhür vurulardı. Üzüyün qaşı üzərinə imza olaraq ad yazdırılar və ondan möhür kimi istifadə olunardı. Onun mənası bu idi ki, söhbət və ya fikir sona çatdı. İslam Peyğəmbəri(s) də öz gəlişi ilə peyğəmbərliyə xətm verdi.

Təbuk müharibəsində Peyğəmbər(s) özü iştirak etdiyindən Mədinədə Əlini(ə) öz yerinə təyin etdi. Şəhərdən çıxarkən üzünü Həzrət Əliyə(s) tutub buyurdu: "Səninlə mənim münasibətimin Hurunun Musaya olan

münasibəti kimi olmasına razı deyilsənmi? Bir fərqlə ki, məndən sonra peyğəmbər gəlməyəcək."[1]

Cabir ibn Abdullah Ənsari deyir: Bir gün Həzrət Peyğəmbər(s) bizə buyurdu: "Mən peyğəmbərlər arasında hazır olmağa bircə daşı qalmış evin daşına bənzəyirəm. Həmin daşı o evin üzərinə qoyduqda ev tamamlandığı kimi, mənim gəlişim də peyğəmbərliyi tamamlayıb sona çatdırdı."[2]

### 3. İslam dini ən kamil dindir

İslam Peyğəmbərinin(s) özünəməxsus özəlliklərindən üçüncüsü budur ki, Allah-təala onun gətirdiyi din və şəriətdə heç bir nöqsan və çatışmazlıq qoymayıb. Yəni mükəmməl bir din, mükəmməl bir kitab, mükəmməl bir şəriəti mükəmməl bir insanın vasitəsilə insanlara göndərib. Bu da ona dəlalət etmir ki, din gündən-günə inkişaf edib mükəmməlləşmişdir. Allah həmin Allahdır və dini də həmin dindir. Nə Allahın, nə də onun dininin inkişafa ehtiyacı yoxdur. Çünki onun dini həmişə mükəmməldir. Sadəcə olaraq insanlar inkişaf edib tərəqqi tapdıqca dini daha yaxşı başa düşməyə başladılar. Həzrət Nuh (ə) və Həzrət İbrahimin(ə) zamanında yaşayan insanlar İslam Peyğəmbərinin(s) zamanında yaşayan insanlardan çox fərqlənirdilər. İslam Peyğəmbərinin(s) zamanına qədər insanlar inkişaf etdilər. İnsanlar artıq elə bir səviyyəyə çatdılar ki, mükəmməl bir din onlara göndərilsəydi, həmin dini həzmetmə qabiliyyətini əldə etmişdilər. Buna görə də İslam Peyğəmbəri(s) ən kamil

---

[1] Səhihi- Buxari, 3-cü cild, səh. 57. Səhihi-Müslim, 2-ci cild, səh.323.

[2] Məcməül-bəyan.

insan və gətirdiyi kitab da ən mükəmməl kitabdır. Sadəcə olaraq insanlar onu öyrənməli və mətləbləri aşkar edib üzə çıxarmalıdırlar. Allah-təala sonuncu Peyğəmbər(s) vasitəsilə göndərdiyi bu kitabda insanların bütün maddi və mənəvi tələbatlarını ödəyən hər bir şeyi nazil etmişdir. Məsələn, “Ənam” surəsinin 59-cu ayəsində belə buyurulur:

وَلاَ رَطْبٍ وَلاَ يَابِسٍ إِلاَّ فِي كِتَابٍ مُّبِينٍ

-Həmçinin aydın olan kitabda mövcud olmadan yerin qaranlıqlarında (altında) bir toxum və (meyvə və dənli bitkilərdən) heç bir quru və yaş yerə düşmür.

Bu ayədə bizə bəyan olur ki, yaşdan quruya hər nə varsa, hamısı Quranda mövcuddur. Onları öyrənib üzə çıxarmaq insanların öz problemidir. Allah-təala yerin altında müxtəlif xəzinələr, dəfinələr və təbii sərvətlər yaratmışdır. İnsanlara da ağıl və düşüncə verib ki, onları kəşf edib istifadə etsinlər. İslam Peyğəmbərinin(s) Allah tərəfindən gətirdiyi Quran ən böyük xəzinədir. Elə bir şey yoxdur ki, Quranda mövcud olmasın. İnsanlar özləri zəhmət çəkməli, araşdırmalar aparmalı və nəhayət, bu xəzinəni öyrənib oradakıları kəşf etməlidirlər.

Quran keçmişdə olanlardan söz açır və gələcəkdə baş verənlərdən xəbər verir. Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də buyurur: “Sizdən qabaq olanların xəbəri, sizdən sonra olacaq şeylərin xəbəri və (bu gün) sizin aranızda olanların hökmü Qurandadır.”

İslam Peyğəmbəri(s) Allah tərəfindən kitab və qanun gətirmişdir. Özündən sonra qanunlarını qoruyub saxlamaq və onları təfsir etmək üçün isə öz yerinə Əhli-beyti(ə) təyin edib. Əgər həmin qanunlardan təfsirçini və izah edəni ayırsalar, qanunlar puç olub aradan gedəcəkdir.

Qanunun qiyməti ora qədərdir ki, onun təfsirçisi və izah verəni yanında olsun. Təfsirçini qanundan ayırsalar, artıq o qanun məhv olacaq. Qanunun dili olmadığı üçün onu hansı tərəfə yönəltsələr, həmin tərəfə də yönələcək. Onu həmişə düz istiqamətdə saxlamaq üçün təfsirçiyə ehtiyac var. Düşmənlər də həmişə Quranı öz təfsirçisindən ayırmağa çalışıblar. Peyğəmbərin(s) hətta axır sözlərindən biri bu idi ki, Quranı Əhli-beytdən(ə) ayırmayın. Əgər Əhli-beyti(ə) Qurandan ayırsalar, Quranın qiymət və dəyəri aradan gedəcəkdir.

Bir nəfər İmam Sadiqə(ə) dedi: “Mən müxalif insanlarla mübahisə etdikdə onları necə başa salım? İmam buyurdu: Əgər onlar üçün Qurandan dəlil-sübut gətirə bilməsən, Quranın ayələrini təfsirçisiz hansı tərəfə yönəltsən, yönəldə biləcəksən. Əgər onlara Quranın təfsirçisinin sözləri ilə dəlil gətirsən, başa sala biləcəksən. Təfsirçi olmasa heç bir vaxt ondan bir nəticə əldə edə bilməyəcəksiz.”

Digər tərəfdən baxdıqda görürük ki, Peyğəmbər(s) özündən sonra təyin etdiyi təfsirçilərin on birini öldürdülər. On ikinci təfsirçi min ildən artıqdır ki, insanların gözündən kənarda yaşayır. Allah onu qoruyub saxlayır və məsləhət bildiyi zaman onu üzə çıxaracaq. O, qeybə çəkildiyi zaman öz yerinə islamşünasları və müctəhidləri təyin etmişdir. İndiyə qədər İslamın bütün məsələləri barədə sorğu-suallar verilib və ötən bu müddət ərzində qarşıya elə bir məsələ çıxmayıb ki, müctəhidlər ona cavab verə bilməsinlər. İslamşünaslar və müctəhidlər bütün məsələlərə özlərindən deyil, Quranın ayələrinə, Peyğəmbərin(s) və Əhli-beytin(ə) hədislərinə əsaslanaraq cavab vermişlər. Onlar İslamın qanunlarını bizə olduğu kimi çatdırırlar. Hətta yeni-yeni müxtəlif məsələlərin

cavabını belə Quranın təfsirçisi olan Peyğəmbər(s) və Əhli-beytin(ə) hədislərinə istinad edərək cavablandırmışlar. Elə məsələlər də qarşıya çıxa bilər ki, Peyğəmbərin(s) zamanında onlar qarşıya çıxmayıb. Lakin illər keçdikdən sonra qarşıya çıxan hər bir məsələnin həllini yenə də hədislərə istinad etməklə araşdırıb həll etmişlər. On ikinci İmamın(ə.c) təyin etdiyi islamşünasların və müctəhidlərin əllərində çox böyük dəlil və sübutlar vardır.

### 4. İslam Peyğəmbərinin(s) gətirdiyi şəriətin asanlığı

İslam Peyğəmbərinin(s) spesifik xüsusiyyətlərindən və özəlliklərindən biri də onun gətirdiyi şəriətin asanlığıdır. İslam Peyğəmbərinin(s) gətirdiyi qanunlar keçmiş peyğəmbərin gətirdiyi qanunlardan fərqlidir. Həzrət Peyğəmbər(s) bu haqda özü belə buyurmuşdur: “Mən sizə çox asan bir şəriətlə gəlmişəm.”

İslam şəriətində bütün çətinliklər aradan qaldırılmışdır. Əlbəttə, bu barədə ətraflı söz açmaq olar. Həm İslam alimləri, həm də Avropa alimləri bu barədə öz fikirlərini bildirmişlər. Xüsusilə böyük fransız alimi Qustavlob bu barədə belə yazır: “İslam Peyğəmbəri(s) keçmiş peyğəmbərlərdən tamamilə fərqlidir. İslamın belə sürətlə inkişaf etməsinin rəmzi onun (şəriətinin) asanlığındadır. İslam ağılın qəbul etmədiyi məsələləri qəbul etmir. Buna görə də insan hər nə qədər düşünsə belə, İslamdan sadəsini tapa bilməz. İslam Peyğəmbəri(s) Allahın vəhdaniyyətini insanlara şəffaf şəkildə bəyan edib və bütün insanları Onun qanunları qarşısında bərabər elan edib.”

Həqiqətən, İslam qanunları yeganə qanundur ki, dilindən, millətindən və kimliyindən asılı olmayaraq bütün insanlar onun qarşısında bərabərdir. İslam qanunlarına

görə kimliyindən asılı olmayaraq heç kəsin başqasından üstünlüyü yoxdur. Bu qanunlara görə, insanlar qohum, tanış, vəzifəli, yaxud vəzifəsiz olmasından asılı olmayaraq hamısı eynidir. Əgər bir insan Həzrət Əlidən(ə) qaziyə şikayət edirdisə, qazi hər ikisini çağırıb danışdırardı. Bəzi vaxtlarda qazi Həzrət Əlini(ə) çox yaxşı tanıdığı üçün onlara münasibətdə hansısa bir fərq müşahidə olunurdusa, Həzrət(ə) dərhal öz etirazını bildirib qaziyə buyurardı ki, sən hər iki şəxsə eyni gözlə baxmalısan. İnsanlar arasında ayrı-seçkilik salmamalısan və kimliyindən asılı olmayaraq hər ikisini diqqətlə dinləməli və hökm çıxarmalısan. Birini digərindən üstün tutmağa ixtiyarın yoxdur.

Deməli, İslamın gözəlliklərindən və əsas cəhətlərindən biri də insanlar arasında tam ədalətlə rəftar olunmasıdır. Qeyri-müsəlman alimlər də İslamın qanunlarını oxuyub tədqiq etdikdən sonra bütün bunların düzgün və gözəl bir şey olduğunu etiraf etmişlər.

Həmçinin İslamın ən gözəl cəhətlərindən biri də budur ki, İslam bütün insanlara elan edir ki, günah edən hər bir kəs bədbəxt, vacib əməlləri yerinə yetirən şəxs isə xoşbəxt olacaq. Hər kəs Allahla bir-başa söhbət etmək istəyirsə bu mümkündür. İslam dini hər bir şeyi açıq şəkildə insanlara başa salır. Cənnətə getmək istəyən kəs günahlardan çəkinib Allahın vacib etdiyi əməlləri vaxtlı-vaxtında yerinə yetirməlidir. Bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi: “Qiyamət günü mən harada olacağam? Həzrət(s) buyurdu: Allahın vacib etdiyi əməlləri yerinə yetirsən və haram etdiyi işlərdən çəkinsən, cənnətdə mənim yanımda olacaqsan.”

Həzrət Peyğəmbərin(s) bu sözləri təkcə həmin şəxsə aid deyil. Yer kürəsində kimliyindən asılı olmayaraq hər bir kəs Allahın vacib etdiyi əməlləri vaxtlı-vaxtında yerinə

yetirib günahlardan çəkinsə, cənnətdə Peyğəmbəin(s) yanında olacaqdır.

Qeyd etdiyimiz bütün özəlliklər İslamın üstünlüyündən xəbər verir. Bütün bu xüsusiyyətlərə görə də Peyğəmbərin(s) möcüzələri keçmiş peyğəmbərlərin bütün möcüzələrindən üstün və fərqli olmalıdır. Peyğəmbərin(s) risaləti, şəriəti əbədi olduğu üçün möcüzəsi də əbədi olmalıdır ki, illər ötdükdən sonra belə insanlar ona iman gətirsinlər.

## İslam Peyğəmbərinin(s) möcüzələrinin növləri

Ötən bəhslərimizdə böyük peyğəmbərlərin möcüzələrindən bir neçə nümunəni müxtəsər şəkildə sizlərə təqdim etdik. Onların möcüzələrindən qısaca danışmaqda məqsədimiz İslam Peyğəmbərinin(s) möcüzələrinə yetişmək idi. Əgər onların bütün möcüzələri barədə söhbət edəsi olsaq, o zaman günlər və aylarla söhbət etmək lazım gələr. Buna görə də hərəsindən bir neçə nümunə ilə kifayətləndik. İndi isə burada İslam Peyğəmbərinin(s) möcüzələri barədə söz açmaq istəyirik. İlk növbədə İslam Peyğəmbərinin(s) möcüzələri bir baxımdan iki növdür. Müvəqqəti və əbədi möcüzələr. Müvəqqəti möcüzə ona deyilir ki, müəyyən bir müddət ərzində göstərilib qurtarsın. Məsələn, keçmiş peyğəmbərlərin hamısının möcüzələri müvəqqəti xarakter kəsb etmişdir. İbrahim Peyğəmbər(ə) odun içində möcüzə göstərdi. Tonqal yanıb qurtardıqdan sonra möcüzə də sona çatdı. Hamı bu möcüzəni gözləri ilə gördü. Musa Peyğəmbərin(ə) əsası o vaxta qədər möcüzə oldu ki, cadugərlərin sehrlərini bir anın içində uddu və yenidən əsa halına düşdü.

Əlbəttə, qeyd etmək lazımdır ki, bütün peyğəmbərlərin möcüzələri öz zəmanələrinə uyğun olmuşdur. Məsələn, əgər Musa Peyğəmbərin(ə) əsası əjdahaya çevrilirdisə, bu ona dəlildir ki, onun zamanında cadugərlər çox idi. Onların etdiyi sehrin qarşısında belə bir möcüzə göstərməyə ehtiyac var idi. Cadugərlər və sehrkarların insanlara meydan oxuduğu bir zamanda Musa(ə) əsası ilə elə bir möcüzə göstərir ki, onların bütün sehrlərini batil və məhv edir. Yaxud Həzrət İsanın(ə) dövründə tibb elmi çox güclü sahələrdən biri idi. Həm həkimlər çox idi, həm də ağır xəstələri müalicə edə bilirdilər. Elə bir zamanda İsa(ə) gəlib onların bu işlərinin müqabilində möcüzə göstərdi. Əgər onlar göz ağrısını müalicə edirdilərsə, Həzrət İsa(ə) anadangəlmə korlara şəfa verir və onlara elan edirdi ki, əgər bacarırsınızsa bu işi görün. Həmçinin neçə il öncə dünyadan getmiş ölünü dirildərək möcüzə göstərirdi. Bir sözlə desək, hər bir peyğəmbər insanları inandırmaq üçün öz zəmanəsinə uyğun möcüzə göstərirdi.

İslam Peyğəmbərinə(s) gəldikdə isə Həzrət(s) də hadisələrə uyğun bir çox möcüzələr göstərmişdir. Başqa peyğəmbərlərdən fərqli olaraq İslam Peyğəmbərinin(s) qeyd etdiyimiz kimi iki növ möcüzəsi olmuşdur. Biri keçmiş peyğəmbərlərin möcüzələri kimi müvəqqəti, digəri isə əbədi və həmişəyaşar möcüzələrdir. Burada çox yaxşı olar ki, Həzrətin(s) müvəqqəti möcüzələri haqqında söz açaq və nümunə üçün bir neçəsinə diqqət yetirək. Əlbəttə, bunu da qeyd etməliyəm ki, keçmiş peyğəmbərlərin göstərdiyi bütün möcüzələri İslam Peyğəmbəri(s) istisnasız göstərmişdir. Yəni İslam Peyğəmbəri(s) özündən əvvəlki peyğəmbərlərin göstərdiyi bütün möcüzələrdən nümunələr göstərmişdir. İlk öncə bu barədə Həzrət

Əlidən(ə) olan bir hədisə diqqət yetirək və bundan sonra Peyğəmbərin(s) müvəqqəti möcüzələri ilə tanış olaq.

İmam Museyi Kazim(ə) buyurur: “Günlərin birində bir qrup səhabə əyləşib söhbət edirdilər. Həzrət Əli(ə) onlarla birgə əyləşmişdi. Elə bu zaman yəhudi bir kişi onlara yaxınlaşıb dedi: Ey müsəlmanlar! Nə üçün siz keçmiş peyğəmbərlərin göstərdiyi bütün möcüzələri öz peyğəmbərinizlə əlaqələndirirsiniz? Nə üçün iddia edirsiniz ki, bütün o möcüzələrin hamısını İslam Peyğəmbəri gətirmişdir? Həzrət Əli(ə) həmin yəhudi kişini çağırıb buyurdu: Həzrət Musanın(ə) möcüzələrindən biri Allahın onunla söhbət etməsidir. Əgər Allah Musa(ə) ilə Turi-sinada söhbət etmişdisə, İslam Peyğəmbəri(s) ilə ərşi-əlada merac gecəsi söhbət etmişdir. Əgər İsa(ə) ölüləri dirildib, xəstələrə şəfa verirdisə, İslam Peyğəmbəri(s) də bu işləri görürdü. Qüreyşdən bir neçə nəfər İslam Peyğəmbərinin(s) hüzuruna gəlib dedilər: Ya Rəsulallah, səndən əvvəlki peyğəmbər ölüləri dirildərdi. İstərdik sən də bizim üçün bir nəfəri dirildəsən. Peyğəmbər(s) məni çağırıb buyurdu: Ya Əli(ə) bunlarla filan qəbiristanlığa get və istədikləri ölünün adını çək və ona de: Allahın izni ilə qalx. Hamı şahiddir ki, mən onlarla qəbiristanlığa gedib onların istədikləri ölünü Peyğəmbər(s) buyurduğu kimi diriltdim. Həmin ölülərə “Allahın izni ilə qalx” dedim. Onlar da dirilib qəbirdən qalxdılar və onlarla söhbət etdikdən sonra yenidən qəbirə qayıtdılar.”

Həzrət Peyğəmbər(s) Əlinin(ə) qulağına müəyyən sözlər öyrətdi ki, heç bir kəs həmin sözləri eşitmədi. Bu sözlər Peyğəmbərlə(s) onun arasında rəmzi sözlər idi ki, yalnız özləri bilirdilər. Bir gün Peyğəmbər(s) səhabələrlə əyləşmişdi. Bir nəfər onlara yaxınlaşıb əsəbi halda ağzına

gələni danışmağa başladı. İmkansızlıq üzündən çətinlik çəkdiyinə görə o belə sözlər deyirdi. Səhabələr onun Peyğəmbərlə(s) belə danışdığına görə çox narahat oldular. Peyğəmbər(s) üzünü Əliyə(ə) tutub buyurdu: “Ya Əli, apar bunun dilini kəs.”

Kişinin qorxudan ürəyi üzüldü. Həzrət Əli(ə) onu çöldə dəvələr saxlanılan yerə apardı. Dəvələri ona göstərib buyurdu: “Bu dəvələrdən hansı xoşuna gəlir?” Həmin şəxs elə bildi ki, Əli(ə) onun dilini dəvəyə bağlayıb yerindən qoparacaq. Çox həyəcan və qorxuya düşmüşdü. Həzrət(ə) yenə də buyurdu: “Bu dəvələrin hansını istəyirsən?” O, əli ilə dəvələrin birinə işarə etdi. Həzrət Əli(ə) buyurdu: “Get həmin dəvəni götür və get.” Onun ürəyi sakitləşdi və dedi: “Axı Peyğəmbər(s) sənə mənim dilimi kəsməyi göstəriş vermişdi. Həzrət(ə) buyurdu: Sən bu işlərə qarışma. Peyğəmbərin(s) nə buyurduğunu mən çox gözəl bilirəm. Mən onun dediklərini icra edirəm. Sənə nə deyirəm, onu da et.”

Həmin ərəb dəvəyə minib yola düşdü. Azacıq getmişdi ki, Həzrət Əli(ə) onu səslədi. O dönüb geri baxanda Həzrət(ə) buyurdu: “Bundan sonra Peyğəmbərin(s) barəsində pis sözlər danışarsanmı? O dedi: Xeyr, heç vaxt. Hələ mən ədəbsizlik etdiyim üçün mənimlə belə rəftar etdiniz. Gör ədəbli insanlara qarşı necə gözəl rəftar edərsiniz. Bundan sonra ölənə qədər İslam Peyğəmbəri(s) barədə pis söz danışmaram. Həzrət Əli(ə) buyurdu: Bax dili kəsmək belə olar.”

Bu Peyğəmbərlə(s) Əlinin(ə) arasında olan ən sadə rəmzlərdən biri idi. Bəzən elə qəliz-qəliz sözlər danışırdılar ki, qətiyyən heç bir kəs onların nə söhbət etdiyini başa düşmürdü. Bu rəmzi söhbətlər yalnız onların özlərinə məxsus olan söhbətlər idi.

Sonra Həzrət Əli(ə) həmin yəhudi kişiyə buyurdu: “Əgər İsa(ə) kor insanların gözlərini açırdısa, İslam Peyğəmbəri(s) də bu işi görürdü. Ühüd müharibəsində Əbu Qütadə Ənsari adlı gözəl və cavan bir oğlan var idi. Peyğəmbərin(s) hüzuruna gəlib dedi: Ya Rəsulallah, canım sənə qurban olsun. Sənin yolunda hər şeyimdən keçməyə razıyam. Həzrət Peyğəmbər(s) döyüşmək üçün icazə verdikdən sonra o, meydana yollandı. Bir az döyüşdükdən sonra nizə ilə onun bir gözünü yaraladılar. Onun gözünün bəbəyi yerə töküldü. Bəbəyini əlinə götürüb Peyğəmbərin(s) hüzuruna gəlib dedi: Ya Rəsulallah, mənim gözüm kor oldu. Elə başa düşürəm ki, bundan sonra mənim həyat yoldaşım məni bəyənməz. Həzrət(s) ona buyurdu: “Əlində tutduğun gözünü mənə ver.” Əbu Qütadə gözünü Peyğəmbərin(s) ovcuna qoydu. Peyğəmbər(s) onun gözünü yerinə qoyub buyurdu: “Gözlərini yum və yenidən aç.” Əbu Qütadə gözlərini yumub açdıqda gözünün əvvəlki kimi olduğunu gördü.”[1]

Həzrət İmam Həsən Əskərinin(ə) otuz dörd səhifədən ibarət bir hədisi var ki, yəhudi kişi ilə peyğəmbərlərin möcüzələri barədə sual-cavab etmişdir. Həmin hədis yığcam şəkildə bundan ibarətdir ki, İmam(ə) bütün peyğəmbərlərin möcüzələrindən söz açdıqdan sonra İslam Peyğəmbərinin(s) də o möcüzələrdən göstərdiyini buyurmuşdur. Həzrətin(ə) buyurduğu kimi, İslam Peyğəmbərinin(s) müvəqqəti möcüzələri səkkiz növdür:

1.Bütün peyğəmbərlərin göstərdiyi möcüzələrdən nümunələr;

2.Göy cisimləri barədə möcüzələr;

---

[1] Həyatul-qulub, 3-cü cild, səh. 440.

3.Cansızlar və nəbatat aləmində göstərdiyi möcüzələr;

4.Heyvanlar aləmində göstərdiyi möcüzələr;

5.Dularının müstəcəb olması, ölüləri diriltməsi və xəstələrə şəfa verməsi;

6.Düşmənlərin şərindən amanda qalmaq üçün göstərdiyi möcüzələr;

7.Cin və şeytanlara qələbə çalmaq üçün göstərdiyi möcüzələr;

8.Gələcəkdən xəbər verməsi və həmin hadisələrin sonradan təsdiqlənməsi.

Bütün bunlar İslam Peyğəmbərinin(s) möcüzələridir ki, inşallah, nümunə üçün onlardan bəzisinə diqqət yetirərik.

## Kəbənin qərb (rüknünün) küncünün Peyğəmbərlə(s) danışması

İmam Sadiq(ə) buyurur: "Günlərin birində Həzrət Peyğəmbər(s) səhabələrlə birgə Kəbəni təvaf edirdi. Həzrət(s) Kəbənin hər bir küncünün yanından keçərkən ora əlini sürtüb keçdi. Qərb küncünün yanından keçərkən isə əlini sürtmədi. Hamı Kəbənin həmin küncündən səs gəldiyini eşitdi. Kəbənin o küncü Peyğəmbərə(s) giley-güzar edərək dedi: "Ya Rəsulallah, məgər mən Kəbənin rüknü deyiləmmi? Nə üçün mənə əl çəkmədən keçdin? Həzrət Peyğəmbər(s) buyurdu: Sakit ol! Mən səni razı salacağam. Salam olsun sənə."[1] (Peyğəmbərin(s) salam verməsi ilə Kəbənin həmin küncü razı qalıb sakitləşdi.)

---

[1] Həyatul-qulub,3-cü cild, səh.529.

## Bütlərin səcdəyə düşməsi

Qüreyşdəki kafirlər Kəbənin ətrafına təxminən 360 büt qoymuşdular. Hər qəbilənin bir neçə bütü var idi ki, onlara pərəstiş edirdilər. Allah-təala "Ali-İmran" surəsinin 18-19-cu ayələrini nazil etdikdə Kəbənin kənarındakı bütün bütlər səcdəyə düşdülər.[1]

## Dağların və daşların Peyğəmbərə(s) salam verməsi

Həzrət Peyğəmbər(s) ticarət məqsədilə səfərlərə gedib qayıdarkən qazandığını Allah yolunda sədəqə verər və Allaha ibadət etmək üçün Hira dağına yollanardı. Bir gün səfərdən qayıdıb yenə də dağa getdi. Allah-təala onun ürəyini açıb ilahi sirlərlə doldurdu. Asimanın qapılarını onun üzünə açdı. Elə həmin gecə peyğəmbərlik məqamına çatdı. Cənab Cəbrayıl(ə) nazil olub Həzrətin(s) əlini tutaraq dedi: "Oxu." Həzrət(s) buyurdu: "Nə oxuyum?" İlk ayələr elə oradaca nazil oldu:

اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ. خَلَقَ الْإِنسَانَ مِنْ عَلَقٍ. اقْرَأْ وَرَبُّكَ الْأَكْرَمُ. الَّذِي عَلَّمَ بِالْقَلَمِ. عَلَّمَ الْإِنسَانَ مَا لَمْ يَعْلَمْ

-Oxu! (Bu kitabı bütün məxluqatı) yaradan Rəbbinin adı ilə. O, insanı (Adəm övladını) laxtalanmış qandan yaratdı. Oxu (və tərəddüd etmə) ki, sənin Rəbbin (bütün kərimlərdən) daha kərimdir. (O, səni oxuma-yazma bilməsən belə oxuda bilər). O (Rəbbin) ki, (bəşərə) qələm vasitəsilə elm öyrətdi. İnsana bilmədiyini öyrətdi.[2]

---

[1] Yenə orada.

[2] Ələq surəsi, ayə 1-5.

Həzrət Məhəmməd(s) qırx yaşında həmin mağarada peyğəmbərliyə çatdı. Çox narahat halda evə qayıdırdı. Narahatçılığının birinci səbəbi bu idi ki, onun bədəninə üşütmə düşmüşdü. Çünki ilk dəfə idi ki, Cəbrayılı(ə) olduğu kimi görmüş və Allahın ayələri nazil olmuşdu. İkinci səbəbi isə bu idi ki, qövmü onun peyğəmbərliyinə və sözlərinə inanmayacaqlar. Buna görə də çox narahat idi. O halda dağdan düşüb evə qayıdardı. Allah-təala onun ürəyini sakitləşdirmək üçün dağa-daşa danışmağı əmr etdi. Elə bu zaman daş-kəsək və torpaqlar dilə gəlib dedilər:

-Salam olsun sənə, ey Məhəmməd! Salam olsun sənə, ey Allahın dostu! Salam olsun sənə, ey Allahın Rəsulu! Ya Rəsulallah, narahat olma. Allah sənə fəzilət mərhəmət edib və tezliklə səni izzətə çatdıracaq. Ya Rəsulallah, Allah sənə Əlini(ə) vəsi təyin edib ki, onun elmi ilə sənin dinin təbliğ olunacaq. Sən elmin şəhəri, o isə sənin elminin qapısı olacaq. Allah sənin qızın Fatimə ilə gözlərini aydın edəcək. Həsən və Hüseyni cənnətin ağaları qərar verəcək. Qiyamət günü ələmi (bayrağı) Əliyə verəcəksən və bütün peyğəmbərlər və vəsiləri onun altından keçib cənnətə daxil olacaqlar.

Bütün bu sözlərdən sonra Peyğəmbərin(s) narahatçılığı və nigarançılığı aradan getdi, ürəyi rahatlaşdı.[1]

## Xurma salxımının şəhadət verməsi

Günlərin birində bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, mən sənə iman gətirmək istəyirəm. Lakin sənin peyğəmbərliyinin düz olduğunu

---

[1] Həyatul-qulub,3-cü cild, səh.480.

necə bilim?” Həzrət(s) xurma ağacını ona göstərib buyurdu: “Əgər bu ağacın bir salxımı mənim peyğəmbərliyimə şəhadət versə, inanarsanmı?” Həmin şəxs dedi: “Bəli.” Həzrət Peyğəmbər(s) ağacdan asılmış iri bir salxımı yanına çağırdı. Salxım ağacdan qopub yerə düşdü və özünü yerə sürtə-sürtə Həzrətin(s) hüzuruna gəldi. Peyğəmbər(s) ona əmr verdi ki, yerinə qayıtsın. Xurma salxımı qayıdıb əvvəlki yerinə sancıldı. Həmin şəxs elə oradaca Peyğəmbərə iman gətirdi. [1]

## İki ağacın birləşməsi

Bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Mən sənə iman gətirmək istəyirəm. Lakin tərəddüddə qalmışam. Mənə inandırıcı bir möcüzə göstər ki, sənə iman gətirim. Həzrət Peyğəmbər(s) ətrafda iki yaşıl ağacı ona göstərib buyurdu: Əgər bu iki ağacı bir-birinə birləşdirib bir ağac etsəm inanarsanmı? Həmin şəxs dedi: Əlbəttə, inanaram. Çünki iki ağacın birləşib bir ağac olması mümkün deyil. Peyğəmbər(s) ağaclara birləşməyi əmr verdi. Ağaclar bir-birinə yaxınlaşıb yapışdılar və bir ağaca çevrildilər. Sonra Həzrət(s) onlara əvvəlki vəziyyətlərinə qayıtmalarını əmr etdi.”

Həmin şəxs Peyğəmbərə(s) iman gətirib şəhadət verdi.[2]

## Daşların şəhadət verməsi

[1] Həyatul-qulub, 3-cü cild, səh.530.
[2] Yenə orada,3-cü cild, səh.524.

Salman deyir: “Günlərin birində Peyğəmbərin(s) hüzurunda əyləşmişdik. Elə bu zaman Əli(ə) içəri daxil oldu. Peyğəmbərin(s) əlində xırda daşlar var idi. Əli(ə) içəri daxil olduqda Həzrət(s) daşları ona verdi. Həmin vaxt daşlar dilə gəlib dedi: Allahdan başqa heç bir məbud yoxdur. Məhəmməd onun rəsulu və elçisidir. Mən razıyam ki, Rəbbim Allah, peyğəmbərim Məhəmməd(s), rəhbər və böyüyüm (Allahın vəlisi) Əli ibn Əbu Talibdir.”

Sonra Həzrət Peyğəmbər(s) buyurdu: “Hər kəs sübh namazından sonra bu duanı oxusa, Allahın əzabından amanda qalacaq.” [1]

## Ağacın iki hissəyə bölünməsi və yenidən birləşməsi

Həzrət Əli(ə) “Nəhcül-bəlağə”nin 234-cü xütbəsində buyurur: “Qüreyşin böyüklərindən ibarət bir dəstə Həzrət Peyğəmbərin(s) yanına gələndə mən onunla bir yerdə idim. Onlar dedilər: Ey Məhəmməd! Sən elə böyük bir iş *(nübüvvət və peyğəmbərlik)* iddia edirsən ki, nə sənin ataların və nə də sənin nəslindən bir nəfər onu iddia etməyib. İndi biz səndən bir iş görməyini istəyəcəyik. Əgər bizim üçün onu yerinə yetirsən və onu bizə göstərsən biləcəyik ki, *(Allah tərəfindən göndərilmiş)* peyğəmbər və elçisən. Amma əgər yerinə yetirməsən biləcəyik ki, cadugər və yalançısan. Peyğəmbər(s) buyurdu: Nə istəyirsiniz? Dedilər: Bu ağacı çağır, kötükləri ilə *(yerdən)* çıxıb *(gəlib)* qarşında dayansın. Peyğəmbər(s) buyurdu: Allah hər şeyə qadirdir. Əgər sizin bu istəyinizi rəva etsə, iman gətirib haqqa şəhadət verəcəksiniz? Dedilər: Bəli.

---

[1] Həyatul-qulub,3-cü cild, səh.532.

Buyurdu: Mən istədiyinizi sizə göstərəcəyəm. Amma bilirəm ki, xeyir və yaxşılığa *(İslama)* bağlanmayacaqsınız. Sizin aranızda eləsi var ki, *(öz kafirliyində qalıb Bədr müharibəsində öldürüləcək və)* quyuya atılacaq. Həmçinin *(sizin aranızda)* qoşunları toplayacaq kimsə var. Bundan sonra Peyğəmbər(s) buyurdu: Ey ağac, əgər sənin Allaha və qiyamət gününə imanın varsa və mənim Allahın peyğəmbəri olmağımı bilirsənsə, öz köklərinlə yerindən çıx və Allahın əmri ilə mənim qarşımda dayan. O Həzrəti(s) haqq *(düz və doğru)* olaraq göndərən Allaha and olsun ki, ağac kökü ilə yerdən çıxdı və quşların qanadlarının səsinə bənzər ağır səslə gəlib qanad çalan quş kimi Peyğəmbərin(s) əlləri arasında dayandı və özünün böyük budağını Allahın Peyğəmbərinin(s) başına, budaqlarının bəzilərini isə mənim çiynimə atdı. Mən Həzrətin(s) sağ tərəfində dayanmışdım. Həmin dəstə onu görəndən sonra təkəbbürlülük və məğrurluq üzündən dedi: De ki, onun yarısı sənin yanına gəlsin, digər yarısı isə öz yerində qalsın. Beləliklə, Peyğəmbər ağaca həmin istəyin gerçəkləşməsi əmrini verdi. Sonra onun yarısı heyrətləndirici gəliş və gurultulu səslə Həzrətə(s) tərəf üz tutdu və az qalmışdı ki, Allahın Peyğəmbərinə(s) sarılsın. Onlar yenə naşükürlük və ədavət üzündən dedilər: Əmr et bu yarı hissə qayıdıb əvvəl olduğu kimi öz yarısına birləşsin. Sonra Peyğəmbər(s) əmr etdi və ağac qayıtdı. Mən dedim: İbadətə Allahdan başqası layiq deyil. Ey Allahın Peyğəmbəri! Mən sənə ilk iman gətirən və həmçinin ağacın Allahın əmr və istəyi ilə yerinə yetirdiyini, sənin peyğəmbərliyini təsdiq etmək və əmrinə ehtiram üçün etdiyini etiraf edən ilk kimsəyəm. Sonra həmin dəstədəkilərin hamısı dedi: Çox yalançı cadugərdir! Bu

onun çox çevik olduğu heyrətləndirici bir cadudur! (Onlar yenə də iman gətirmədilər.)”

İslam Peyğəmbərinin(s) bu kimi möcüzələri həddən artıq çoxdur. Peyğəmbər(s) insanların Allaha iman gətirməsi üçün hər cür möcüzə göstərmişdir. Bəziləri həqiqətən ürəklərində inam yaranması üçün Həzrətdən(s) möcüzə istəyib iman gətirirdilər. Bəziləri isə Peyğəmbəri(s) sındırmaq üçün elə işlər deyirdilər ki, Həzrət(s) yerinə yetirə bilməsin və onu yalançı adlandırsınlar. Lakin Peyğəmbər(s) onların bütün qeyri-adi istəklərini yerinə yetirib möcüzə göstərirdi. Onlar isə iman gətirməyərək Həzrəti(s) cadugər adlandırırdılar.

## Peyğəmbərin(s) dəvəsinin itməsi

İmam Sadiq(ə) buyurur: “Günlərin birində Həzrət Peyğəmbərin(s) dəvəsi itmişdi. Səhabələr dəvəni çox axtardılar, lakin tapa bilmədilər. Bəzi münafiq və araqarışdıran insanların ağzı açıldı və onlar Peyğəmbər(s) barədə müxtəlif sözlər deməyə başladılar. Biri dedi: Öz dəvəsini tapa bilmir, amma bizə qeybdən xəbər verir. Elə bu an cənab Cəbrayıl(ə) nazil olub dedi: Ya Rəsulallah, dəvə gedib xurmalığa girib. Noxtası ağaca ilişdiyi üçün orada oturub. Peyğəmbər(s) səhabələrinə buyurdu: Cəbrayıl(ə) mənə xəbər verdi ki, dəvə filan yerdə xurma bağına girib. Noxtası filan ağaca ilişdiyi üçün və gedə bilmədiyindən orada oturub. Gedin, onu açıb gətirin.”

Bir neçə nəfər gedib dəvəni gətirdilər. Peyğəmbərin(s) bu xəbərindən sonra münafiqlərin ağzı yumuldu.[1]

[1] Həyatul-qulub,3-cü cild, səh.652. Məcməül-bəyan, 5-ci cild, səh.294.

## Ceyranın Peyğəmbərlə(s) söhbət etməsi

Günlərin birində Həzrət Peyğəmbər(s) səhabələrlə bir yerdən keçirdi. Orada iplə bir yerə möhkəm bağlanmış bir ceyran gördülər. Ceyran Peyğəmbəri(s) görən kimi Allahın izni ilə danışmağa başladı. Dedi: “Ya Rəsulallah, iki gündür ki, məni ovlayıb bura bağlayıblar. Mənim bir cüt balam var, iki gündür ac-susuz qalıblar. Mənə izn ver, gedib onları yedizdirim.” Peyğəmbər(s) buyurdu: “Axı səni hansısa ovçu ovlayıb bura bağlamışdır. Sən ona məxsus olduğun üçün mən səni necə buraxa bilərəm?” Ceyran dedi: “Ya Rəsulallah, sənə söz verirəm ki, məni açıb buraxsan, balalarımı yedizdirib yenə də bura qayıdacağam.” Həzrət Peyğəmbər(s) ceyranı açıb buraxdı və elə oradaca gözləməyə başladı. Ceyran qaçıb gözdən itdi və bir müddətdən sonra geri qayıtdı. Həzrət Peyğəmbər(s) onu əvvəlki yerinə bağladı. Lakin onun bu halına ürəyi yandı. Ceyranın yiyəsini tapmaq üçün adam göndərdi. Bir az keçməmiş həmin şəxs Peyğəmbərin(s) hüzuruna gəldi. Təsadüfən ceyranı ovlayan həmin şəxs münafiq idi. Həzrət(s) ondan soruşdu: “Bu ceyranı sən ovlamısanmı? Dedi: Bəli. Həzrət(s) buyurdu: Ovladığın bu ceyranın iki balası var. İki gündür ki, sən bunu tutub bura bağlamısan. Yaxşı olar ki, bu heyvanı açıb buraxasan.”

Həmin şəxs  bu sözlərə təəccüb edib Peyğəmbərin(s) təklifi ilə razılaşdı. Ceyranı açıb buraxdıqdan sonra səmimi qəlbdən Peyğəmbərə(s) iman gətirdi və münafiqliyindən əl götürdü.[1]

[1] Həyatul-qulub, 3-cü cild, səh.556.

## Peyğəmbərin(s) uzaqgörənliyi və qeybdən xəbər verməsi

Həzrət Əli(ə) nəql edir ki, günlərin birində Peyğəmbərin(s) hüzurunda əyləşmişdik. Həzrət Peyğəmbər(s) sözgəlişi bizə belə buyurdu: “Sabah Həzrəmut qəbiləsindən doqquz nəfər mənim yanıma gələcək. Onların altısı müsəlmançılığı qəbul edəcək, üçü isə iman gətirməyəcək.” Biz bilirdik ki, sabah mütləq bu iş baş verməlidir. Buna görə də sabahı gözləyirdik. Səhərisi gün mən Peyğəmbərin(s) sağ tərəfində əyləşmişdim. Bir də gördük ki, doqquz nəfər Peyğəmbərin(s) hüzuruna gəldilər. Salam verdikdən sonra əyləşib Peyğəmbərlə(s) söhbət etməyə başladılar. Dedilər: biz eşitmişik ki, sən Allah tərəfindən göndərilmiş bir peyğəmbərsən. Özünlə Quran və şəriət gətirmisən və camaatı da bu dinə dəvət edirsən. Həzrət(s) buyurdu: “Bəli, siz düz eşitmisiniz.” Dedilər: “Elə isə gətirdiyin şəriət və ayələrdən bizim üçün danış.” Həzrət Peyğəmbər(s) onlar üçün İslamın qaydalarından və şəriətin hökmlərindən danışmağa başladı. Onlar diqqətlə qulaq asdıqdan sonra altı nəfər Peyğəmbərə(s) iman gətirib şəhadət verdilər. Onlardan üçü isə iman gətirmədi.

Söhbət qurtardıqdan sonra Peyğəmbər(s) həmin üç nəfərə bir-bir aqibətləri haqda xəbər verdi. Birinə buyurdu ki, yaxın zamanlarda şimşək çaxacaq və səni vuracaqdır. Sonra o birinə belə buyurdu: “Səni isə ilan çalıb öldürəcək.” Üçüncüsünə isə buyurdu ki, sənin dəvən itəcək və dəvəni axtararkən bir qəbilənin adamları tərəfindən öldürüləcəksən. Peyğəmbərin(s) söylədiklərini orada əyləşənlərin hamısı eşitdi. Bu sözlərdən sonra onlar sağollaşıb getdilər. Həmin hadisənin üstündən bir müddət keçdikdən sonra müsəlman olmuş həmin altı nəfər

Peyğəmbərin(s) hüsuruna gəlib dedilər: “Ya Rəsulallah, sənin o üç nəfərin aqibəti barədə buyurduqların öz təsdiqini tapdı. Hər üçü siz dediyiniz kimi dünyadan getdilər. Birini şimşək vurdu. İkincisini ilan çalıb öldürdü. Üçüncüsü isə dəvəsini axtarmağa gedəndə filan qəbilənin adamları tərəfindən öldürüldü. Biz sənin onlar barədə buyurduqlarını gözümüzlə gördükdən sonra beyətimizi təzələmək üçün hüzuruna gəlmişik. Bizim sənə olan yəqinliyimiz və imanımız daha da artıb.”[1]

## Cəfər Təyyarın şəhid olmasının xəbəri

Mutə muharibəsində Peyğəmbər(s) iştirak etməmişdi. Bir qoşunu döyüşmək üçün ora göndərmiş, özü isə Mədinədə qalmışdı. Göndərdiyi həmin qoşuna Zeyd ibn Harisəni başçı təyin etmişdi. Peyğəmbər(s) səhabələrlə Mədinə məscidində əyləşmişdi. Elə bu zaman Peyğəmbər(s) buyurdu: “Elə indicə Zeyd ibn Harisə şəhid oldu. Ölməmişdən qabaq bayrağı Cəfər ibn Əbu Talibə verdi.” Bir az keçdikdən sonra Həzrət(s) buyurdu: “Cəfərin qollarını kəsib şəhid etdilər. Cəfər hazırda cənnətdədir. Allah-təala ona iki qanad verib ki, orada istədiyi yerə uça bilir. Bayrağı Abdullah ibn Rəvahə götürdü. Onu da şəhid etdilər. Hazırda bayraq Xalidin əlindədir.” Sonra buyurdu: “Xalid hücuma keçib düşməni darmadağın etdi.”

Həzrət(s) bu sözləri buyurduqdan sonra ayağa qalxıb Cəfərin evinə yollandı. Onun balalarını çağırıb üzlərindən və əllərindən öpdükdən sonra başsağlığı verdi. Üstündən bir müddət keçdikdən sonra İslam ordusu Mədinəyə

[1] Həyatul-qulub,3-cü cild, səh.661.

qayıtdı və bütün hadisələrin Peyğəmbər(s) buyurduğu kimi baş verdiyini söylədilər.[1]

[1] Tarixi-Təbəri, 2-ci cild, səh 151. Həyatul-qulub, cəh.380.

## Yəhudi qadının əti zəhərləməsi və Peyğəmbərin(s) bundan xəbər tutması

Xeybər müharibəsindən sonra Peyğəmbər(s) Mədinəyə qayıtdı. Bir neçə şəxslə əyləşib söhbət edirdilər. Həzrət Əli(ə) buyurur ki, mən də Həzrətin(s) hüzurunda əyləşmişdim. Buşr ibn Bura adlı bədəvi ərəblərindən biri də burada idi. O, iman gətirməsinə baxmayaraq, mədəniyyət cəhətindən zəif bir insan idi. Elə bu zaman xəbər gətirdilər ki, bir qadın Peyğəmbərlə(s) görüşmək istəyir. Həmin qadın yəhudi idi, lakin özünü müsəlman kimi göstərərək Peyğəmbərlə(s) görüşmək istəyirdi. Peyğəmbərlə(s) düşmən olduğundan yalandan özünü müsəlman kimi qələmə vermişdi. Peyğəmbər(s) icazə verdikdən sonra qadın əlində bir hədiyyə ilə içəri daxil oldu və onu Həzrətin(s) qarşısına qoydu. Peyğəmbər(s) soruşdu: "Bu nədir belə?" Qadın dedi: "Ya Rəsulallah, sənin üçün hədiyyə gətirmişəm. Sən müharibədə olan zaman səndən çox nigaran idim. Aman-zaman bircə qoyunum var idi. Sənin sağ-salamat qayıtmağın üçün onu nəzir etdim. Həm də bilirəm ki, sənin qoyunun qol hissəsindən çox xoşun gəlir. Buna görə də həmin qoyunun qol hissəsini qızardıb xüsusi olaraq sənə gətirdim." Peyğəmbər(s) hədiyyəni qadından alıb yerə qoydu. Qadın çıxıb getdi.

Peyğəmbər(s) yanındakılara çörək gətirməyi göstəriş verdi. Elə bu zaman Buşr əlini uzadıb həmin ətdən bir tikə qoparıb yeməyə başladı. Həzrət Əli(ə) ona buyurdu: "Peyğəmbərdən(s) qabaq süfrəyə əl uzadıb ədəbsizlik etmə. Bir az səbirli ol, Peyğəmbər(s) icazə verdikdən sonra onsuz da hamı yeyəcək və sənə də çatacaq." Buşr dedi: "Ya Əli, mən Peyğəmbəri(s) paxıl bilmirəm. Onsuz da bu ətdən bizə də verəcək." Həzrət Əli(ə) buyurdu:

“Söhbət paxıllıq məsələsi deyil. Söhbət bundadır ki, ədəbsizlik edib Peyğəmbərdən(s) qabaq əl uzatma. Həm də o qadının kim olduğunu bilmirsən. Bəlkə onun gətirdiyi bu ət haram maldandır. Bəlkə Peyğəmbər(s) heç kəsə o ətdən yeməyə icazə verməyəcək. Gözlə, qoy Peyğəmbər(s) təklif etsin, sonra hamı yeyəcək. Peyğəmbərin(s) bu ətdən bizə təklif etməsi bizə zəmanətdir. Əgər haram da olmuş olsa, Peyğəmbərin(s) deməyi ilə halal olacaq. Əgər zəhərlidirsə Peyğəmbərin(s) bizə təklif etməsi ilə zəhəri aradan gedəcək.”

Buşr sözə qulaq asmayıb ətdən yeyib dedi: “Mən onsuz da bilirəm ki, Peyğəmbər(s) bizə icazə verəcək.” Çörəyi süfrəyə qoyduqda ət dilə gəlib dedi: “Ya Rəsulallah, məni yeməyin. Çünki o yəhudi qadın məni zəhərləyib. Məni yeyən hər kəs öləcək.” Elə bu zaman Buşrun halı dəyişdi və zəhər qanına işləməyə başladı. Həzrət Peyğəmbər(s) əmr verdi ki, həmin qadını gətirsinlər. Bir neçə nəfər gedib həmin qadını Həzrətin(s) hüzuruna gətirdilər. Peyğəmbər(s) soruşdu: “Nə üçün bu işi gördün? Qadın dedi: Hansı işi deyirsiz? Peyğəmbər(s) buyurdu: Gətirdiyin bu ət sənin onu zəhərlədiyini mənə xəbər verdi. Qadın işin üstünün açıldığını görüb dedi: Müharibədə sən mənim atamı, əmimi, ərimi və qardaşımı öldürmüsən. Bir gün səndən öz intiqamımı almalı idim. Bu gün fürsətdən istifadə edib bu işi gördüm. Əti zəhərləyib sənə gətirdim. Əgər sən şahsansa yeyib öləcəkdin və mən öz arzuma çatacaqdım. Yox, əgər həqiqətən də Peyğəmbərsənsə(s) o zaman bu ətin zəhərli olmasından xəbər tutacaqdın. Çünki mən sənin peyğəmbər olduğuna inanmırdım. Mən elə güman edirdim ki, sən də başqaları kimi bir padşahsan. Buna görə də əti zəhərləyib sənin üçün gətirdim. Sən Məkkənin fəth olunacağı

haqqında xəbər vermisən. Fikirləşdim ki, əgər doğrudan da peyğəmbərsənsə, onda bu ətdən yeməyəcəksən və dediyin sözlər də həyata keçəcək. Əgər peyğəmbər olmasaydın, mütləq bu ətdən yeyib öləcəkdin. Həzrət(s) buyurdu: Gedin, səhabələrdən on nəfəri buraya çağırın. Salman, Abuzər, Əmmar, Miqdad və Bilal başda olmaqla on nəfər səhabə gəlib süfrədə əyləşdi. Həzrət Peyğəmbər(s) əlini ətin üzərinə qoyub bu duanı oxudu:

بِسمِ اللهِ الشَّافِى بِسمِ اللهِ الكَافِى بِسمِ الله المعَافِى بِسمِ اللهِ الَّذِى لا يَضرُّ مَع اسْمِهِ شَيئٌ وَلا دَاءٌ فِى الأَرضِ وَ لا فِى السَّماءِ وَ هُوَ السَّمِيعُ العَلِيم

Sonra isə buyurdu: Bismillah deyib bu ətdən yeyin. Hamı o ətdən yeyib doyduqdan sonra Peyğəmbər(s) üzünü yəhudi qadına tutub buyurdu: Gördünmü hamı o ətdən yedi və Allahın izni ilə heç bir kəsə ziyan toxunmadı. Qadın dedi: Ya Rəsulallah, bu günə qədər sənə inanmırdım. İndi yəqin bildim ki, sən Allahın peyğəmbərisən.”

Kitablarda yazılmışdır ki, həmin qadın elə oradaca kəlmeyi- şəhadətini deyib müsəlman oldu və ömrünün axırına qədər həqiqi möminlərdən oldu.

Bu hadisədən sonra xəbər gətirdilər ki, Buşr dünyasını dəyişib. Peyğəmbər(s) göstəriş verdi ki, ona qüsl verib kəfənləsinlər. Buşrun cənazəsinə qüsl verib kəfənlədikdən sonra namazını qılmaq üçün hazırlaşdılar. Peyğəmbər(s) buyurdu: “Gedin Əlini(ə) çağırın.” Həzrət Əli(ə) hansısa bir iş üçün getmişdi. Onu çox gözlədilər, lakin gəlib çıxmadı. Səhabələrdən biri soruşdu: “Ya Rəsulallah, bu qədər gözləməyin səbəbi nədir?

Peyğəmbər(s) buyurdu: Buşr Əlinin sözünə baxmadığı üçün istəyirəm ki, Əli gəlib ona halallıq versin. Bir nəfər dedi: Ya Rəsulallah, Buşr həmin sözləri zarafatyana demişdi. Peyğəmbər(s) buyurdu: Bilirəm ki, o sözləri zarafatyana deyib. Elə Əlinin(ə) sözünə də zarafatyana qulaq asmadığına görə deyirəm ki, Əli ona halallıq versin. Əgər o, bu sözləri ciddi şəkildə desəydi, yerdən ərşi-əlaya qədər qızıl-gümüş sədəqə paylamış olsaydı belə, Əlinin sözündən çıxdığına görə Alalh-təala onun bütün əməllərini batil edəcəkdi. Qoy hamı görsün ki, Əli(ə) onu halal etdi və ondan razı qaldı."

Bir az keçməmiş Həzrət Əli(ə) gəlib çıxdı. Peyğəmbər(s) buyurdu: "Ya Əli, Buşr sənin sözündən çıxdığı halda dünyadan gedib. Ona halallıq və razılıq ver." Həzrət Əli(ə) onun cənazəsinin kənarına yaxınlaşıb buyurdu: "Ey Buşr, sən namaz qılan, oruc tutan bir insan idin. Allah sənə rəhmət etsin." Həzrət Əli(ə) bu sözləri dedikdən sonra Peyğəmbər(s) onun cənazə namazını qılıb dəfn etdilər. Sonra Peyğəmbər(s) Buşrun uşaqlarını çağırıb buyurdu: "Sizə başsağlığı verim, yoxsa təbrik edim? Mən sizi təbrik edirəm. Çünki atanızın ruhu elə bu an cənnətə daxil oldu. Allahın vəlisi onu dua etdi və Rəsulu ona cənazə namazını qıldı. Buna görə də onu cənnətə apardılar." Sonra Həzrət Peyğəmbər(s) üzünü camaata tutaraq buyurdu: "Ey Allahın bəndələri, heç bir vaxt Əlini özünüzdən narazı salmayın. Çünki Əli(ə) hər bir kəsdən narazı qalsa, həmin şəxsin bütün savab və müsbət əməlləri batildir. Əlinin(ə) razı qaldığı kəsdən, Allah da razı qalar."[1]

---

[1] Həyatul-qulub, 3-cü cild, səh.488.

## Peyğəmbərin(s) Hərrə hadisəsi haqda xəbər verməsi

İslam Peyğəmbərinin(s) qeyb və gələcəkdən verdiyi əsas xəbərlərdən biri Hərrə hadisəsi ilə bağlı xəbər idi. Hərrə hadisəsi İslam tarixində çox faciəli hadisələrdən biridir. Yezid ibn Müaviyənin tarixdə törətdiyi ən böyük cinayətlərdən biri də Hərrə hadisəsi olmuşdur. O, bu cinayəti ilə keçmiş cinayətkarların üzünü ağ etmişdi. Yezid ən bədbəxt insanlardan biri idi. Cəmi üç il hakimiyyətdə olmuş və bu üç ildə üç böyük və ağır cinayət törətmişdi. Onun birinci və ən böyük cinayəti hicrətin 61-ci ilində Kərbəla hadisəsi idi ki, hamı onu bu cinayətlə tanıyırdı. Yəni Kərbəla faciəsi deyildikdə ilk növbədə həmin cinayəti törətmiş Yezidin adı yada düşür və lənətlənir. İkinci böyük cinayəti Mədinədə törətdiyi Hərrə hadisəsi olmuşdu. Üçüncüsü isə Məkkə şəhərində Kəbəyə hücum etmək hadisəsi idi. Hakimiyyətdə olduğu üç ilin içində bu üç böyük cinayəti törətmişdi.

İslam Peyğəmbəri(s) Hərrə hadisəsi barədə illərlə öncə xəbər vermişdir. Hərrə Mədinədə olan qəsəbələrdən biridir. Günlərin birində Həzrət Peyğəmbər(s) səhabələrlə həmin qəsəbədən keçərkən orada dayandı. Bir qədər dayandıqdan sonra buyurdu: “Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq.” Bu sözlər ağır hadisələrdə işlənən bir fikirdir ki, Peyğəmbər(s) orada bu fikri işlətdi. Hamı təəccüblə soruşdu: “Ya Rəsulallah(s), nə hadisə baş verib? Həzrət Peyğəmbər(s) üzünü onlara tutub buyurdu: Hazırda dayandığımız bu yer elə bir yerdir ki, yaxın zamanlarda mənim səhabələrimin ən yaxşılarının böyük əksəriyyəti burada şəhid olacaq.” Hamı Peyğəmbərin(s) bu sözlərinə mat-məəttəl qaldı. Həzrətin(s) bu sözləri

ağızdan-ağıza düşüb bütün müsəlmanların arasında yayıldı. Hər bir kəs Peyğəmbərin(s) Hərrə barədə buyurduğu bu sözləri eşitdi.

Həmin söhbətin üstündən illər ötdükdən sonra hicrətin 63-cü ilinin əvvəllərində bu hadisə baş verdi. Mədinədə tanınmış ağsaqqal və nüfuzlu möminlərdən bir neçə nəfər yığışıb Yezidlə söhbət etmək qərarına gəldilər. Bu söhbətdə bəzi məsələləri ona başa salmaq və onun etdiyi işlərə etirazlarını bildirmək istəyirdilər. Hazırlaşıb Şam şəhərinə yola düşdülər. Yezid onların sözlərini dinləyib zahirən onlara hörmət etdiyini göstərdi. Çünki onların arasında elə böyük və nüfuzlu şəxsiyyətlər var idi ki, Yezidin onlara ehtiram etməsindən başqa ikinci bir yolu yox idi. Hər halda onlar Yezidlə danışıb Mədinəyə qayıtdılar.

Camaat onların ətrafına toplaşıb soruşdu: "Siz Yezidlə görüşüb onunla danışdınız və etirazınızı bildirdiniz. Yezidi necə gördünüz? Onlar Yezidi olduğu kimi gördüklərini söylədilər. Dedilər ki, Yezid eşitdiyimiz kimi əyyaş, itbaz, pozğun bir insandır. Onun barəsində burada eşitdiklərimizin hamısını gözümüzlə gördük." Camaat Mədinə məscidinə toplaşıb Yezidin əleyhinə şüarlar səsləndirərək etirazlarını bildirdilər. Camaat Yezidi hakimiyyətdən uzaqlaşdırıb tanınmış və möhtərəm şəxsiyyətlərdən biri olan Abdullah ibn Hənzələni müvəqqəti olaraq xilafətə təyin etmək istəyirdi. Bu xəbər Yezidin də qulağına çatdı. Yezid həmin xəbəri eşidən kimi böyük bir qoşun təşkil edib Mədinəyə göndərdi ki, onun əleyhinə çıxanlarla məsələni çürütsün. O, həmin qoşuna Müslim ibn Üqbəni təyin etmişdi. Müslim ibn Üqbə Yezidin cinayətkar adamlarından biri idi. O, qoşunu ilə Mədinəyə gəlib Hərrə məntəqəsində möminlərlə üzləşdi.

Elə oradaca Peyğəmbərin(s) illərcə əvvəl buyurduğu həmin yerdə döyüş başlandı. Tarixi mənbələrdə yazılıb ki, Yezidin göndərdiyi qoşun orada on mindən artıq müsəlmanı qətlə yetirdi. Orada öldürülənlərin çoxu Peyğəmbərin(s) yaxın səhabələri və yeddi yüz nəfəri Quran qiraətçiləri idilər.

Orada şəhid olanların hamısı Bəqi qəbiristanlığında dəfn olunmuşdur. Allah onların hamısına rəhmət etsin. Bu hadisə baş verdikdə bütün müsəlmanlar bir daha dərk etdilər ki, Həzrət Peyğəmbər(s) həmin hadisənin baş verəcəyini əlli il öncə xəbər vermişdir.[1]

## Cənnət üzümü

İslam Peyğəmbərinin(s) möcüzələrindən biri cənnət ruzilərindən yeməsi idi. Yəni bəzən Peyğəmbərə(s) cənnətdən meyvələr nazil olurdu. O meyvələrdən həm özü yeyər, həm də Həzrət Əliyə(ə) verərdi. Ayişə deyir: "Günlərin birində Peyğəmbər(s) Əlini(ə) hansısa iş dalınca göndərmişdi. Həmin gün Peyğəmbər(s) mənim otağımda idi. Əli(ə) qayıtdıqdan sonra Peyğəmbər(s) evdən çıxıb onu qucaqladı və bağrına basdı. Elə bu zaman havanı duman bürüdü. Elə bir duman idi ki, göz-gözü görmürdü. Dumanın içində mən onları görə bilmirdim. Duman yavaş-yavaş çəkildikdən sonra gördüm ki, onların əlində ağ üzüm var. Həmin üzümlərdən yeyə-yeyə söhbət edirdilər. Üzüm fəsli olmadığı üçün başa düşdüm ki, Allah cənnətdən onlara üzüm göndərib. Yaxınlaşıb dedim: Ya Rəsulallah, mənə də o üzümdən verin. Peyğəmbər(s)

[1] Həyatul-qulub, 3-cü cild, səh.662. Dəlailün-nübüvvət, 6-cı cild, səh.473. Əl-bidayətu vən-nihayə, 6-cı cild, səh.238.

buyurdu: Bu üzüm cənnətdən nazil olmuş meyvələrdəndir. Sənə bu üzümdən yeməyə icazə yoxdur. Bu meyvələrdən yalnız Allahın Peyğəmbəri və onun vəsisi yeyə bilər. Peyğəmbər(s) və vəsisindən başqa heç bir kəsin bu meyvələrdən yeməyə icazəsi yoxdur."[1]

## Peyğəmbərin(s) Əlinin(ə) gözlərinə şəfa verməsi

Həzrət Peyğəmbərin(s) xəstələrə və əlacsız insanlara şəfa verməsi dəfələrlə tarixi mənbələrdə qeyd olunmuşdur. Xeybər müharibəsində hamının gözü qarşısında Peyğəmbər(s) Əlinin(ə) gözlərini sağaltdı. Firqəsindən asılı olmayaraq hamı bu hadisəni öz kitablarında nəql etmişlər. Xeybər müharibəsində Peyğəmbər(s) Əlini hüzuruna çağırdı. Əli(ə) Həzrətin(s) hüzuruna gəldi. Lakin Əli(ə) gözlərinin ağrısının şiddətindən haldan-hala düşürdü. Həzrət Peyğəmbər(s) hamının gözləri qarşısında ağzının suyundan onun gözlərinə sürtdü. Peyğəmbərin(s) ağzının suyu onun gözlərinə dəyən kimi dərhal şəfa tapdı. Sonra Peyğəmbər(s) belə dua etdi: "İlahi, Əlini soyuqdan və istidən qoru."

Peyğəmbərin(s) bu duasından sonra Həzrət Əli(ə) ömrünün axırına qədər soyuqdan və istidən narahatlıq çəkmədi. Bəzən yay günlərində əyninə qalın əba geyinərdi. Miqdad ondan soruşdu: "Ya Əmirəlmöminin, bu qalın əba ilə sizə isti deyilmi? Həzrət(ə) buyurdu: Məgər bilmirsənmi Peyğəmbər(s) mənə dua edib? Onun

---

[1] Həyatul-qulub,3-cü cild, səh.512.

duasından sonra heç bir vaxt isti və soyuq mənə təsir etmir.”[1]

## Ayın bölünməsi

Həzrət Peyğəmbərin(s) səmada göstərdiyi möcüzələrdən biri ayın iki hissəyə bölünməsi idi. Ayın iki hissəyə bölünməsi Peyğəmbərin(s) müvəqqəti və böyük möcüzələrindən biridir. Ümumiyyətlə, yuxarıda qeyd etdiyimiz möcüzələr Peyğəmbərin(s) göstərdiyi müvəqqəti möcüzələrdir. İnşallah, gələn bəhslərimizdə Peyğəmbərin(s) əbədi möcüzəsi haqqında müfəssəl söz açmaq niyyətindəyik.

Müşriklərdən on dörd nəfər bir yerə yığışıb zilhiccə ayında həcc mərasimindən sonra Peyğəmbəri(s) öldürmək qərarına gəldilər. Plan qurub hər bir hazırlığı gördülər. Gecələrin birində yığışıb Peyğəmbərin(s) yanına gəlib dedilər: “Səndən əvvəlki peyğəmbərlər böyük və ağır möcüzələr göstərirdilər. Buna görə də camaat onlara iman gətirirdi. Biz də səndən böyük möcüzələr göstərməyini istəyirik.” Peyğəmbər(s) onlara baxıb buyurdu: “Sizin məndən istəyiniz nədir?” Dedilər: “Biz istəyirik ki, gözümüzün qarşısında ayı iki yerə böləsən.” Cənab Cəbrayıl(ə) nazil olub dedi: “Ya Rəsulallah, heç narahat olma. Allah-təala göyü, günəşi, ay və ulduzları sənin ixtiyarında qoyub. Necə istəsən, elə də olacaq.”

Peyğəmbər(s) əli ilə aya işarə etdi. Ay iki hissəyə ayrıldı. İbn Abbas deyir: “Həmin an mən Peyğəmbərin(s) kənarında torpağın üstündə əyləşmişdim. Hira dağı da gözümün qarşısında idi. Peyğəmbərin(s) işarəsi ilə ay elə

[1] Müsnədi-Əhməd, 2-ci cild, səh.168. Həyatul-qulub, 3-cü cild, səh.577.

bölünmüşdü ki, yarı hissəsi Hira dağının bir tərəfində, digər yarı hissəsi isə dağın o biri tərəfində görünürdü. Sonra Peyğəmbərin(s) işarəsi ilə ay əvvəlki vəziyyətinə qayıtdı. Peyğəmbər(s) bu işi gördükdən sonra müşriklər dedilər: “Biz bunu belə qəbul edə bilmərik. Ola bilsin ki, sən bizim gözümüzü bağlamısan və ay bizə belə görünür. İndi uzaqdan gələn bir karvan şəhərə daxil olacaq. Onların içində bizim adamlarımız var. Gözləyək qoy onlar da gəlsinlər və ayın bölünməsini təsdiqləsinlər. Əgər onlar da ayın iki yerə böləndüyünü təsdiq etsələr, sənə iman gətirəcəyik.”

Bir az gözlədikdən sonra karvan şəhərə daxil oldu. Onlar tez qaçıb karvandakılardan hansısa bir hadisənin şahidi olub-olmadıqlarını soruşduqda onlar dedilər: “Biz göydə ayın iki hissəyə bölündüyünü gördük.” Onların təsdiq etmələrinə baxmayaraq, müşriklər yenə də iman gətirmədilər. Allah-təala “Qəmər” surəsində bu barədə belə buyurur:

اقْتَرَبَتِ السَّاعَةُ وَانشَقَّ الْقَمَرُ. وَإِن يَرَوْا آيَةً يُعْرِضُوا وَيَقُولُوا سِحْرٌ مُّسْتَمِرٌّ. وَكَذَّبُوا وَاتَّبَعُوا أَهْوَاءهُمْ وَكُلُّ أَمْرٍ مُّسْتَقِرٌّ

-Qiyamət çox yaxınlaşdı və ay parçalandı. Onlar (müşriklər) bir əlamət və möcüzə görəndə üzlərini döndərərək “(bu şəxsin həmişə etdiyi) daimi bir sehrdir” deyərlər. Və (səni və sənin Quranını) təkzib edərək nəfsi istəklərinin arxasınca getdilər. Halbuki hər bir iş (onsuz da haqq və ya batil kürsüsündə) qərar tutacaqdır. (Buna görə də Peyğəmbərin və Bizim kitabımızın doğruluğu hamıya məlum olacaqdır.)[1]

[1] Qəmər surəsi, ayə 1-3.

## Günəşin geri qayıtması

İslam Peyğəmbərinin(s) təbiət aləmində ən böyük möcüzəsi günəşi geri qaytarmasıdır. Həzrət Peyğəmbər(s) Xeybər ərazisində Səhba deyilən yerdə Əlini(ə) iş ardınca göndərmişdi. Həzrət Peyğəmbər(s) orada əsr namazını qılıb qurtaran kimi vəhy nazil oldu. Elə bu zaman Əli(ə) gəlib çıxdı. Peyğəmbər(s) başını onun dizinin üstünə qoyub hərəkətsiz qaldı. Əli(ə) əsr namazını qılmamışdı. Peyğəmbərin(s) başı onun dizinin üstündə olduğu üçün elə əyləşdiyi halda namazını qıldı. Gün batdıqdan sonra Peyğəmbər(s) gözlərini açıb buyurdu: "Ya Əli, əsr namazın necə oldu? Əli(ə) ərz etdi ki, ya Rəsulallah, sənin başın dizimin üstündə olduğu üçün elə əyləşdiyim halda qılmışam." Həzrət Peyğəmbər(s) orada belə bir dua etdi: "İlahi, sənin bəndən Əli özünü Peyğəmbərinə görə həbs edib saxlamışdır. Günəşin işığını onun üçün geri qaytar (ki, namazı həmişə qıldığı kimi əsr namazını da öz vaxtında qılsın)." Elə bu zaman qürub etmiş günəş dağların üstünə qədər geri çəkildi və əsr namazının vaxtı oldu. Həzrət Əli(ə) əsr namazını qıldıqdan sonra günəş əvvəlki vəziyyətinə qayıtdı.[1]

Peyğəmbərin(s) bu möcüzəsi barədə çox söhbətlər olmuşdur. Bir çox Əhli-sünnə alimləri Peyğəmbərin(s) bu möcüzəsi haqda yazmışlar. Hətta ikinci xəlifədən sonra Həzrət Əli(ə) Şura əhli ilə söhbət edərkən bu məsələni orada açıqladı. Həzrət(ə) onlara bir-bir sual verib cavab alırdı. Həmin suallardan biri belədir: "Sizi and verirəm Allaha, aranızda məndən başqa biri varmı ki, əsr namazını

---

[1] Əl-Ğədir,3-cü cild, səh. 140 (yaxud 126).

qılmaq üçün Allah günəşi ona görə geri qaytarmış olsun? Hamılıqla dedilər: Ya Əli, səndən başqa heç bir kəs üçün bu iş olmayıb.”

Həzrət Əli(ə) elə bir şəxsiyyət idi ki, Allah onun əsr namazının vaxtının bircə dəfə də ötməsinə razı olmadı. Allah-təala ən çox sevdiyi insanlar üçün bəzən bu kimi işləri görmüşdür. Həzrət Əlinin(ə) əsr namazını vaxtında qılması üçün dünyanı işıqlandıran günəşi qürub etdikdən sonra geri qaytardı. Lakin dövrün insanları o böyük şəxsiyyətin qədrini bilmədilər. İnsanlar Peyğəmbərin(s) onun barəsində buyurduğu kəlamlara, göstərdiyi möcüzələrə məhəl qoymayaraq öz nəfslərinin qulu oldular.

## Dirhəmlərin dinara çevrilməsi

Günlərin birində bir dilənçi Peyğəmbərin(s) hüzuruna gəlib dedi: “Ya Rəsulallah, imkansız bir adamam, mənə yardım edin. Peyğəmbər(s) buyurdu: Əyləş gözlə, Allah yetirər. Dilənçi əyləşib gözləməyə başladı. Bu zaman bir nəfər Peyğəmbərin(s) hüzuruna gəlib salamlaşaraq bir kisə pulu çıxarıb Peyğəmbərə(s) verərək dedi: Ya Rəsulallah, (ehtiyacı olanlara vermək üçün) bu kisənin içərisində dörd yüz dirhəm var. Peyğəmbər(s) kisəni ondan alıb həmin dilənçini çağırdı. Gördünmü Allah yetirdi?  Al bu kisəni. İçində dörd yüz dinar pul var. Həmin kisəni gətirən şəxs dedi: Ya Rəsulallah, dinar yox, dirhəm. Peyğəmbər(s) ona işarə etdi ki, heç bir söz danışmasın. Dilənçi kisəni açıb baxdıqda içi dolu dinar gördü. Kisəni gətirən şəxs dedi: Allahu Əkbər! Ya Rəsulallah, mən dörd yüz dirhəmi sayıb öz əllərimlə bu kisənin içərisinə qoymuşdum. Necə oldu ki, dirhəmlər dinar oldu? Peyğəmbər(s) buyurdu: Mənim dilimə dörd

yüz dinar gəldiyi üçün Allah-təala da sözümün düz çıxmasını istədi. Buna görə də gümüş dirhəmləri qızıl dinarlara çevirdi.”

Beləliklə, əgər İslam Peyğəmbərinin(s) bütün möcüzələri haqda danışsaq, buna aylar və illərlə vaxt lazım gələr. Buna görə də mövzumuza uyğun olaraq Peyğəmbərin(s) göstərdiyi möcüzələrin hərəsindən sadəcə bir nümunə qeyd etdik. Bunu da bilmək lazımdır ki, İslam Peyğəmbərinin(s) həyatının hamısı başdan-başa möcüzə idi. Onun şirinliyi, gözəlliyi, ədəb və əxlaqı, gözəl rəftarı, cəlbedici ruhiyyəsi, səsinin məlahəti, Quran oxumağı və s. hərəkətləri də möcüzə kimi şeylər idi. Həzrətin(s) əxlaqına nəzər yetirdikdə görürük ki, adi bir insanda belə gözəl əxlaq və rəftar ola bilməz. Belə ki, daşla vurub onun dişini sındırdılar, amma Həzrət(s) bunun əvəzində onların hidayət olunması üçün Allaha dua etdi. Hər nə qədər Onu incitsəydilər belə yenə də dua edib Allahdan onların bağışlanmasını və hidayət olunmalarını istəyərdi. Əlbəttə ki, belə bir əxlaqın özü möcüzədir.

Hər kəs Peyğəmbərlə(s) azacıq söhbət edirdisə, ona heyran olurdu. Möminlər heç bir vaxt Həzrətdən(s) ayrı düşmək istəmirdilər. O qədər gözəl əxlaqı var idi ki, onun yanına gələn ayrılmaq istəmirdi. Hətta bir çox qeyri müsəlman gəlib Həzrətlə(s) söhbət edərkən, Peyğəmbərin(s) onlara salam verməsi və hal-əhval tutması ilə onların ürəklərində məhəbbət yaranırdı və İslama iman gətirirdilər. Peyğəmbər(s) Taifdə insanları Allaha tərəf dəvət edib öz risalətini onlara çatdırarkən camaat ona məsxərə edib nalayiq sözlər dedilər.

Günlərin birində Peyğəmbər(s) bir məhəllədən keçərkən onu mühasirəyə alıb döydülər və ayaqlarını daşladılar. Həzrət(s) yaxasını onların əlindən qurtarıb

şəhərdən çıxdı. Şəhərin kənarında bir divara söykəndi. Bəzilərinin onun bu halına ürəkləri yandı. Öz nökərləri olan İdasa ona yemək aparmağı tapşırdılar. İdas bağdan üzüm dərib bir qaba doldurdu və Peyğəmbərə(s) apardı. Həzrət Peyğəmbər(s) onunla salamlaşdıqdan sonra üzüm yemək üçün "bismillah" deyib əlini uzatdı. İdas təəccüblə dedi: "Sənin dediyin bu söz şəhər camaatı arasında pis qarşılanır. Peyğəmbər(s) soruşdu: Sən hansı şəhərdənsən və hansı dinə qulluq edirsən? İdas dedi: Mənim dinim xristianlıqdır, özüm də Neynəvadanam. Həzrət(s) buyurdu: Yunis ibn Mətinin şəhərindənsən? İdas bu sözləri eşidən kimi çox təəccübləndi və soruşdu: Siz onu haradan tanıyırsınız? Peyğəmbər(s) buyurdu: O, mənim qardaşım və Allahın peyğəmbəridir. Mən də həmçinin Allahın peyğəmbəriyəm. İdas bu sözləri eşidən kimi qabağa gəlib Peyğəmbərin(s) mübarək alnından öpdü. Sonra diz üstə çöküb Həzrətin(s) qanlı ayaqlarını öpməyə başladı."

Həzrət Peyğəmbər (s) kiminlə bir neçə kəlmə söhbət edirdisə, həmin şəxsi bir maqnit kimi özünə cəlb edirdi. Buna görə də iyirmi üç il müddətində minlərlə insan ona iman gətirmişdir. Həzrət(s) dünyasını dəyişdikdən sonra da onunla maraqlanan milyonlarla insan İslam dinini qəbul etmişdir.

***Allahın salamı, rəhmət və bərəkəti olsun sizlərə!***

## MÜNDƏRİCAT


**QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR......3**
**Birinci nümunə ..........................................................3**
Müqəddimə.........................................................................3
Ayənin nazilolma səbəbi ...................................................8
"Ey iman gətirənlər, iman gətirin!" ifadəsinin mənası.......9
Birinci ehtimal:....................................................................9
İkinci ehtimal:....................................................................12
Namaz................................................................................18
Oruc ...................................................................................19
Xüms və zəkat ..................................................................20
Həcc...................................................................................21
Cihad .................................................................................21
Əmr be məruf və nəhy əz münkər...................................21
Naməhrəmə baxmamaq...................................................22
Hicab .................................................................................22
Şərab və qumar.................................................................23
Sələmçilik..........................................................................24
Zülmə meyl etməmək (zülm etməmək) ...........................24
Üçüncü ehtimal: ...............................................................28
İSLAMI QƏBUL ETMƏKLƏ İMANIN FƏRQİ............30
Birinci fərq .......................................................................30
İkinci fərq .........................................................................33

Xubeyb ibn Ədiy ....................................................................34
Aşura gecəsi İmam Hüseynin(ə) xütbəsi və səhabələrin söylədikləri .......................................................................37
Üçüncü fərq .........................................................................38
Səid ibn Cübeyrin şəhadəti.................................................44
Dördüncü fərq.......................................................................48
Sabit və möhkəm iman əməllərlə hasil olur ......................50
Beşinci fərq...........................................................................57
Quran və hədislər baxımından imanın mərhələləri ..........67
Dildə və sözdə iman gətirmək..........................................68
Əqli dəlillərlə iman gətirmək ............................................70
İnsanın qəlbində olan iman ...............................................79
Qəti inamın təfsiri və mənası .............................................82
Möhkəm etiqadın mərhələləri ............................................89
Elmül-yəqin.........................................................................90
Eynül-yəqin .........................................................................93
Həqqül-yəqin.......................................................................97
Möhkəm etiqadın fayda və bəhrələri............................. 108
Təqva ................................................................................ 108
Zöhd.................................................................................. 114
Səbir.................................................................................. 120
Səbrin mənası ................................................................... 125
Səbir qəti inamın nəticəsidir............................................ 128
Həzrət Fatimeyi Zəhranın(s.ə) fəziləti ........................... 129
İxlas .................................................................................. 131
Həzrət Əli(ə) Allahın ən müxlis bəndəsidir .................. 136
Maraqlı hekayət............................................................... 139
Üç nəfərin hekayəti .......................................................... 142
Yəqinliyi gücləndirən amillər.......................................... 144
İbadət................................................................................ 145
Fironun qızının məşşatəsi................................................ 147
Hücr ibn Ədiy................................................................... 148

"Hicr" surəsinin axırıncı ayəsinin mənaları .................. 148
Ayənin birinci təfsiri ..................................................... 149
Ayənin ikinci təfsiri........................................................ 154
Riza (razılıq)................................................................. 159
Razılığın təfsir və mənası............................................. 160
Razılığın fəziləti ........................................................... 162
Allahın təcəllası və rizayəti .......................................... 172
Allahdan razılıq insanın iman və yəqinini yüksəldir......176
Əmmar Yasirin imanı.................................................... 178
Dünyanın çətinliklərini asan və kiçik saymaq .............. 180
Ümmi Səlimin hekayəti................................................. 184
Süraqənin əhvalatı ........................................................ 186
Ağıl............................................................................... 190
Ağlın mənası................................................................. 192
Hürr ibn Riyahinin aqibəti............................................. 198
Qəlbdəki iman və yəqinliyi zəifədən amillər ............... 204
Nəfsani istəklər............................................................... 205
Nəfsani istəklər nədir?.................................................... 205
Nəfs ilan kimidir............................................................ 209
Ən güclü insan kimdir? ................................................. 210
Ən böyük cihad nəfslə mübarizədir .............................. 211
İbn Sirin və qadın .......................................................... 213
Tamah............................................................................ 214
İnsanın Allaha olan tamahı............................................ 215
İsnanın başqalarının əlindəkinə tamah salması............. 224
Maraqlı hekayət............................................................. 225
Hərislik .......................................................................... 226
Hərislik nədir? ............................................................... 227
Həzrət İsa(ə) və hərisin hekayəti.................................... 228
Loğmanın oğluna vəsiyyəti ........................................... 232
Dünya və dünyanın malı ............................................... 235
Dünya malını yığan insanlar üç qismə ayrılır ............... 246

Birinci qisim .......................................................................... 247
İkinci qisim ........................................................................... 252
Üçüncü qisim .......................................................................... 254
Dünyapərəst insanlarla ünsiyyət .................................. 256
**PEYĞƏMBƏRLƏRƏ İMAN GƏTİRMƏK VƏ ONLARI TANIMAĞIN YOLLARI ...........................268**
Peyğəmbərləri tanımağın yolları .................................. 269
Peyğəmbərləri tanımağın birinci yolu (əlamətlər, nişanələr və izlər) ........................................................................ 273
Peyğəmbərin əhatə dairəsi ........................................... 274
Peyğəmbərin yaşadığı dövr .......................................... 274
Peyğəmbərin tarixi və rəftarı .........................................274
Peyğəmbərin gətirdiyi şəriət (dini ayinlər) .................... 275
Peyğəmbərin təbliğ etdiyi vasitələr ............................... 275
Peyğəmbərə iman gətirənlərin kimliyi .......................... 279
Peyğəmbərin mübarizə vasitələri ................................. 279
İslam Peyğəmbəri(s) barədə qısa təhqiqat ..................... 279
Peyğəmbərləri tanımağın ikinci yolu (keçmiş peyğəmbərlərin təsdiqi) ............................................... 288
İslam Peyğəmbərinin(s) adları ..................................... 296
Peyğəmbərləri tanımağın üçüncü yolu (möcüzələr) ..... 301
Möcüzə nədir? .............................................................. 301
**PEYĞƏMBƏRLƏRİN MÖCÜZƏLƏRİ .................. 313**
Həzrət Nuh(ə) və onun möcüzələri .............................. 313
Nuhun önündə bütün heyvanların ram olması ............. 314
Ailədə ərlə arvad arasındakı münasibət ........................ 315
Nuhun gəmisi ............................................................... 317
Gözəl aqibət təqvalı insanlara məxsusdur ..................... 322
Həzrət İbrahim(ə) və onun möcüzələri .......................... 324
Həzrət İbrahim(ə) və Azər ............................................. 328
Həzrət İbrahimin möcüzəsi ........................................... 331
Həzrət Musa(ə) və onun möcüzələri ............................ 334

II Ramzesin yuxusu və tədbiri....................................... 336
Musanın(ə) dünyaya gəlməsi ....................................... 338
Musa və Şüeyb peyğəmbər .......................................... 341
Həzrət Musanın(ə) möcüzələri ...................................... 343
Həzrət İsa(ə) və onun möcüzələri.................................. 351
Həzrət İsanın(ə) təvəllüdü ............................................ 354
Anaya hörmət və yaxşılıq etmək .................................. 360
Həzrət İsanın(ə) digər möcüzələri ................................ 362
Həzrət Məhəmməd Peyğəmbər(s) ................................ 372
Minnət qoymaq, özünü bəyənmək və paxıllıq yaxşı əməlləri batil edir......................................................... 376
Peyğəmbərə(s) itaət etmək Allaha itaət etməkdir ......... 378
Xurma ağacı əvəzinə cənnət ağacları ............................ 382
İslam Peyğəmbərinin(s) risaləti və onun spesifik xüsusiyyətləri................................................................ 384
İslam Peyğəmbəri(s) ümumbəşəri peyğəmbərdir.......... 384
İslam Peyğəmbərinin(s) peyğəmbərliyi əbədidir .......... 386
İslam dini ən kamil dindir ............................................ 388
İslam Peyğəmbərinin(s) gətirdiyi şəriətin asanlığı........ 391
İslam Peyğəmbərinin(s) möcüzələrinin növləri ............ 393
Kəbənin qərb küncünün Peyğəmbərlə(s) danışması ..... 398
Bütlərin səcdəyə düşməsi ..............................................399
Dağların və daşların Peyğəmbərə(s) salam verməsi ..... 399
Xurma salxımının şəhadət verməsi .............................. 400
İki ağacın birləşməsi..................................................... 401
Daşların şəhadət verməsi.............................................. 401
Ağacın iki hissəyə bölünməsi və yenidən birləşməsi.....402
Peyğəmbərin(s) dəvəsinin itməsi ................................. 404
Ceyranın Peyğəmbərlə(s) söhbət etməsi ....................... 404
Peyğəmbərin(s) uzaqgörənliyi və qeybdən xəbər verməsi . 405
Cəfər Təyyarın şəhid olmasının xəbəri ......................... 407
Yəhudi qadının əti zəhərləməsi və Peyğəmbərin(s)

bundan xəbər tutması ..................................................... 408
Peyğəmbərin(s) Hərrə hadisəsi haqqında xəbər verməsi... 412
Cənnət üzümü................................................................ 414
Peyğəmbərin(s) Əlinin(ə) gözlərinə şəfa verməsi......... 415
Ayın bölünməsi ............................................................ 416
Günəşin geri qayıtması.................................................. 417
Dirhəmlərin dinara çevrilməsi....................................... 419

**Müəllif:** Seyyid Əliəkbər Ocaq Nejad
**Tərtib edən:** Mehrab Xəlilov
**Redaktor:** Seyid Əliəsğər Behbudlu

Yığılmağa verilib: 01.15.2001, çapa imzalanıb 02.03.2012, çap növbəsi: birinci. Kagiz formatı 60x84 1/16 şərti çap vərəqi: 9.25 Tiraj: 300
Kitab “_____” poliqrafiya müəssisəsində yığılmış, səhifələnmiş və çap olunmuşdur.
Kitabın çap və s. hüquqları qorunur.